AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ
AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

“MÜASİR DÖVRDƏ EFFEKTİV İDARƏETMƏNİN PROBLEMLƏRİ”

mövzusunda

V RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ

MATERİALLARI

Bakı şəhəri, 22 noyabr 2019-cu il

TƏŞKİLAT KOMİTƏSİ

Sədr:

İlham İsa oğlu Mədətov
Azərbaycan Turizm və Menecment Universitetinin rektoru;

Sədr müavinləri:

p.ü.e.d., prof. **İranə Məmməd qızı Əliyeva**
ATMU-nun Elm və inkişaf məsələləri üzrə prorektoru

f.ü.e.d., prof. **Zaur Siyavuş oğlu Bağırov**
ATMU-nun Tədris işləri üzrə prorektoru

Üzvlər:

1. *f-r.e.n., dos.* **Nəsirulla Beytulla oğlu Nəsirli** – *Elm və innovasiya şöbəsinin müdiri;*
2. *t.e.n., dos.* **Bahadur Ənvər oğlu Bilalov** – *Turizm və qonaqpərvərlik fakültəsinin dekanı;*
3. *f.e.n., dos.* **Kənan Hüseyn oğlu Allahverdiyev** – *Sosial menecment fakültəsinin dekanı;*
4. *i.ü.f.d., dos.* **Vüqar Mehralı oğlu Nəzərov** – *Biznes idarəçiliyi fakültəsinin dekanı səlahiyyətlərini icra edən.*

Redaksiya heyəti:

1. *i.ü.f.d., dos.* **Elmira Məhəmməd qızı Qocayeva** – *Marketinq kafedrasının müdiri;*
2. *p.e.d., dos.* **Novruz Əmirxan oğlu Quliyev** – *Mehmanxana və restoran biznesi kaderasının müdiri;*
3. *f.e.n., dos.* **Hafiz Feyruz oğlu Hüseynov** – *Turizm biznesi kafedrasının müdiri;*
4. *t.e.n., dos.* **İbrahim Zülfüqar oğlu Əliyev** – *İctimai fənlər kafedrasının müdiri;*
5. *i.ü.f.d., dos.* **Arzu Alim qızı Hüseyn** – *Menecment kafedrasının müdiri;*
6. *fil.ü.e.d.* **Azad Yəhya oğlu Məmmədov** – *İngilis dili kafedrasının professoru;*
7. *t.ü.e.d.* **Minaxanım Rafiq qızı Əsədova** – *İctimai fənlər kafedrasının professor əvəzi;*
8. *i.ü.e.d.* **Rəna Polad qızı Sultanova** – *İqtisadiyyat kafedrasının professoru.*

09:30-10:00 – İştirakçıların qeydiyyatı (Azərbaycan Turizm və Menecment Universitetinin 2-ci korpusu, ünvan: Bakı şəh. 8 mkr., Cəfər Xəndan küçəsi 17) 10:00 – Konfransın açılışı

PLENAR İCLAS
Məruzələr 10:00-12:00 (Akt zalı)

GİRİŞ SÖZÜ

İlham İsa oğlu Mədətov,
Azərbaycan Turizm və Menecment Universitetinin rektoru

ÇIXIŞLAR:

1. *p.ü.e.d., prof.* **İranə Məmməd qızı Əliyeva,**
   Azərbaycan Turizm və Menecment Universitetinin Elm və inkişaf məsələləri üzrə prorektoru

2. *f-r.e.n., dos.* **Nəsirulla Beytulla oğlu Nəsirli,**
   Azərbaycan Turizm və Menecment Universitetinin Elm və innovasiya şöbəsinin müdiri
   Mövzu: Ali təhsildə innovasiya fəaliyyəti

3. *i.ü.f.d., dos.* **Anar Nazim oğlu Eminov,**
   Azərbaycan Turizm və Menecment Universitetinin Karyera və kommunikasiya şöbəsinin müdiri
   Mövzu: Sosial sahələrin inkişaf etdirilməsində yeni investisiya modelləri

4. *i.ü.f.d., dos.* **Elçin Bəhman oğlu Süleymanov,**
   Bakı Mühəndislik Universitetinin Elmi işlər üzrə prorektoru
   Mövzu: Azərbaycanda turizm bazarının formalaşması və inkişafının problemləri

12:00-13:00- Çay fasiləsi
13:00-17:00- Bölmə iclasları 17:00- Yekun Plenar iclas

BÖLMƏ 1.
TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN TANIDILMASINDA TURİZMİN ROLU
Auditoriya: 306

Sədr: *t.ü.e.d.* **Minaxanım Əsədova**
Sədr müavini: **Sevinc Dadaşzadə**

1. **Bahadur Bilalov,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Bakı–Abşeron turizm bölgəsinin tarixi-mədəni ehtiyatları

2. **Seyidəli Məmmədli**, *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Quba rayonundakı tarixi abidələrin turizmin inkişafında rolu

3. **Minaxanım Əsədova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Memorial muzeylərdə müasir texnologiyaların tətbiqi

4. **Qəhrəman Yusupov,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Разработка тематического экскурсионного маршрута «Крепости Апшерона»

5. **Könül Salmanova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Famous Peaks of Azerbaijan-Bazarduzu, Shahdag, Tufandag

6. **Səbinə Babayeva,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Müasir bazar şəraitində muzeylərin dayanıqlılığı və inkişaf perspektivləri

7. **Əfqan Qasımzadə,** *AMEA-nın doktorantı*
Mövzu: Qədim Qəbələ şəhər yerində aparılmış arxeoloji qazıntıların orta əsrlər dövrünün keramikasının öyrənilməsində və turizmin inkişafında rolu

8. **Vüsalə Beydullazadə,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Şirvanşahlar saray kompleksi və turizm

9. **Emil Ağayev,** *Azərbaycan Dövlət Rəssamlıq Akademiyası*
Mövzu: Sənətşünasların muzeylərin idarəetmə və inkişafındakı rolu:problem və perspektivlər

10. **Zenfira Əfəndiyeva,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Siyəzən rayonunun təbiət abidələri

11. **Aynur Əliyeva,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Исторические памятники в Сиязаньском районе

12. **Şəmsiyyə Tahirbəyova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Bakı-Abşeron turizm bölgəsində konqres-sərgi turizminin müasir vəziyyəti və potensialı

13. **Həsənov Murtəza, Vüqar Kərimli,** *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, AMEA İqtisadiyyat İnstitutu*
Mövzu: Müstəqil Azərbaycanın dinamik sosial-iqtisadi inkişaf strategiyası

14. **Aidə Şəbiyeva,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Cultural heritage in Siyazan – Beshbarmag, Gilgilchay, Pir Khalil sepulcher Khıdırzında

15. **Mirəsgər Ağalarov,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Möhtəşəm Çıraqqala

16. **Leyla Əlizadə,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: "Chichi", "Syrt chichi", "Gymyl", "Yerfi", "Agh gul", "Pirebedil" carpets (Guba)

17. **Aynur Hüseynzadə,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Bakı - Abşeron turizm bölgəsinin müasir memarlıq nümunələri

18. **Dağlar Eyvazlı,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Azərbaycanda teatr tarixi və qadın obrazlarını ifa etmiş kişi aktyorlar

19. **Ülkər Qurbanova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Tarixi-mədəni irsin qorunması və ondan kənd turizmində istifadə

20. **Sevinc Dadaşzadə,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Multikultural yanaşmaya tarixi siyasi zəmin

21. **Vüsalə Məmmədzadə,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Turizm infrastrukturu və resurslarının yaranmasında mədəni irsdən istifadəsinin muzeyşünaslıq istiqaməti

22. **Emil Ağayev,** *Azərbaycan Dövlət Rəssamlıq Akademiyası*
Mövzu: Sənətşünasların muzeylərin idarəetmə və inkişafındakı rolu: problem və perspektivlər

BÖLMƏ 2.
TURİZM VƏ XİDMƏT SAHƏLƏRİNİN İDARƏ EDİLMƏSİ
Auditoriya: Akt zalı

Sədr: *f.e.n., dosent* **Hafiz Hüseynov**
Sədr müavini: **Rəfiqə Ağasıyeva**

1. **Hafiz Hüseynov,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Bakı və Abşeron kəndlərinin turizmin inkişafına təsiri

2. **Əziza Məmmədova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Guba as a tourism destination

3. **Nisə Quluzadə,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Shahdag Tourism Center

4. **Nazim Rüstəmov, Xumar İsmayılova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Turist daşımalarında nəqliyyat xidmətinin rolu və yeri

5. **Tofiq İmanov,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Мультикультуральные ценности и потенциал развития туризма Шеки

6. **Ülviyyə Baxşəliyeva, Afət Mürsəliyeva,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Перспективы развития туризма в Шабранском районе

7. **Narxanım Kamilova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Abşeron yarımadasında ekoturizmin inkişafı və perspektivləri

8. **Səbinə Cumazadə, Aygün Təhməzli,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Azərbaycanın turizm potensialı və ondan istifadə imkanları

9. **Günay Qafarova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Şəki və Qəbələ rayonlarında bərpa və konservasiya olunmuş tarixi əhəmiyyətli abidələr

10. **Güllü Əsgərli,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Qloballaşma şəraitində müalicə-sağlamlaşdırma turizminin vəziyyəti

11. **İlahə Əliyeva,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Azərbaycanda turizm sahəsi üzrə kadr hazırlığında tədris pro sesinin təşkili problemləri

12. **Ramin Qulamzadə,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Azərbaycanda turizmin əhalinin sosial-mədəni səviyyəsinə təsirinin xarakteristikası

13. **Kamran Abdullayev,** *AMEA İqtisadiyyat İnstitutu*
    Mövzu: Turizm infrastrukturunun inkişafının əsas xüsusiyyətləri

14. **Eldar Məmmədbəyov,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Müasir dünyada turizm sahəsində icra edilən strategiyaların Azərbaycana tətbiqi imkanları

15. **Gülnar Həsənova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Sosial-mədəni xidmətlər turizm sahəsinin əsas amili kimi

16. **Nigar Həbibullayeva,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Mineral waters of Guba-Khachmaz region

17. **Novruz Quliyev, Çingiz Əliyev,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Emal olunmuş bəzi tərəvəz məhsullarının kimyəvi – texnoloji göstəricilərinin qiymətləndirilməsi

18. **Elnarə İsmayılova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Bakı –Abşeron turizm bölgəsində qastronomik turizmin inkişafı

19. **Elmar Məhərrəmzadə,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: "Hilton baku" mehmanxanasında restoran xidmətləri

20. **Rəşad Əhmədov,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Cəlbedici turizm məkanlarının müəyyən edilməsinə müasir yanaşmalar

21. **Rəfiqə Ağasıyeva,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Bakı – beynəlxalq turizm destinasiyası kimi

22. **Məsumə Qurbanova,** *Azərbaycan Dövlət Pedaqoji Universiteti*
Mövzu: Turizm və rekreasiya üzrə biliklər sisteminin öyrədilməsinin əhəmiyyəti

23. **Məhbubə Umudova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: The Gilgilchay Defensive Wall as a historical and tourism monument

24. **Məmməd Sadıqov,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Abşeron turizm bölgəsində mineral və termal suların öyrənilməsinin tarixi-coğrafi aspektləri

26. **Vüqar Nəzərov, Turanə Hüseynova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Banklarda risk səviyyəsinin qiymətləndirilməsi

27. **Azər Qədirli,** Azərbaycan Turizm və Menecment Universiteti
Mövzu: Abşeron yarımadasının "yaşıl zonası"

BÖLMƏ 3.
İDARƏETMƏ MƏDƏNİYYƏTİ VƏ İDARƏETMƏYƏ İNNOVATİV YANAŞMA
Auditoriya: Kitabxana

Sədr: *i.ü.f.d., dosent* **Elmira Qocayeva**
Sədr müavini: **Sabir Quluzadə**

1. **Sabir Quluzadə,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Azərbaycanın süd məhsulları üzrə xarici ticarətinin müasir vəziyyəti

2. **İsmayıl Muradov,** *Azərbaycan Turizm və Menecment Universiteti*
Mövzu: Qloballaşma prosesinin dövlət idarəetmə orqanlarına təsiri

3. **Anar İbrahimov,** *Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
Mövzu: Təhsil və mədəniyyətin formalaşmasında idarəetmənin rolu

4. **Zamin Qafarov,** *Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
   Mövzu: Arxivşünaslıq təhsili və onun idarəedilməsi

5. **Nigar Adilova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Dövlətin idarə olunmasında siyasi mədəniyyətin rolu

6. **Sevinc Hacıyeva**, *Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
   Mövzu: Valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı dövlət siyasəti

7. **Ramilə Hüseynova,** *Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
   Mövzu: Azərbaycan Demokratik Respublikası dövründə təhsil və mədəniyyətin idarəedilməsi

8. **Tərlan Şıxıyev,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: İdarəetmədə əmək fəaliyyətinin səmərəliliyinin artırılmasının sosial-psixoloji əsasları

9. **İlkin Əlizadə,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Dünya mehmanxana sənayesində idarəetmə formaları

10. **Elmira Qocayeva,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Azərbaycan Respublikasında sosial – iqtisadi sahələrin inteqrasiyası perspektivləri

11. **Esmira Qocayeva,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: İqtisadi mədəniyyətin dayanıqlı inkişafının əsas tendensiyaları

12. **Elvin İbrahimov,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Müasir kommunikasiya texnologiyalarının turizm və qonaqpərvərlik sənayesində əhəmiyyəti

13. **Hacı Qasımlı,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Respublikanın Kitabxana-informasiya müəssisələrinin idarəedilməsində innovasiyaların tətbiqi

14. **Şükriyyə Tağızadə,** *Bakı Dövlət Universiteti*
    Mövzu: İdarəetmədə inzibati hüquq anlayışı

15. **Bahar Həsənli,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Uşaqlara qarşı zorakılıq və onun əlamətləri

16. **Flora Ələsgərova, Əkbər Quliyev,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Turizmdə kadr potensialı haqqında statistik məlumatların toplanılması

17. **Roza Əliyeva,** *Azərbaycan Texniki Universiteti*
    Mövzu: Azərbaycanda turizm sənayesinin idarəedilməsi

BÖLMƏ 4.
ETNİK MÜNASİBƏTLƏR VƏ DİLLƏR
Auditoriya: İctimai fənlər kafedrası

Sədr: *t.ü.e.d., prof.* **Məhərrəm Zülfüqarlı**
Sədr müavini: **Mehriban Allahquluyeva**

1. **Məhərrəm Zülfüqarlı,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Sovet idarə sistemində "Allahsızlar cəmiyyəti"nin rolu

2. **Sənubər Qənbərova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Основные направления внешней политики Азербайджана

3. **Mehriban Allahquluyeva,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Şabran rayonunda etnoqrafik xüsusiyyətlər: etnoslar və dillər

4. **İrina Uçaykina,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: The age of continuous connection

5. **Ramil Babayev,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Miqrantlarla sosial işin təşkili problemləri

6. **Ülfət Səmədzadə,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Azərbaycanda yəhudilərin məskunlaşması

BÖLMƏ 5.
İQTİSADİ İNKİŞAF PROSESLƏRİNİN İDARƏ EDİLMƏSİ
Auditoriya: Kompüter otağı

Sədr: *i.ü.f.d., dosent* **Arzu Hüseyn**
Sədr müavini: **Ülkər Sadıqova**

1. **Arzu Hüseyn,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Azərbaycanda sosial turizmin inkişafının əhəmiyyəti və problemləri

2. **Gülnar Səmədova, Elnur Zeynalov,** *AMEA İqtisadiyyat İnistitutu*
   Mövzu: Azərbaycanda turizm sektorunun inkişafının stimullaşdırılması istiqamətləri

3. **Emin Quliyev,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: İqtisadi mühitin davamlı inkişafa təsiri

4. **Ülkər Sadıqova, Yasəmən Abasova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Beynəlxalq biznes kontekstində mədəni müxtəliflik

5. **Günel Teymurova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Müasir şəraitdə sosial investisiyaların hüquqi normativ bazasının təkmilləşdirilməsi

6. **Yusif Hüseynli,** *Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
   Mövzu: Dünya turizm bazarının ölkə iqtisadiyyatına təsiri

7. **Gülnar Əhədova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: Müəssisələrdə françayzinq sisteminin mahiyyəti

8. **Gülər Quliyeva,** *Azərbaycan Turizm və Menecment Universiteti*
   Mövzu: İstehlakçı davranşına təsir edən amillərin analitik qiymətləndirilməsi və onun təkmilləşdirilməsi istiqamətləri

9. **Fəridə Məmmədova,** *Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
   Mövzu: XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda sosial-iqtisadi sahələrin idarə edilməsi

10. **Firudin Əzizov,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Gəlirlərin formalaşması və istifadəsi məsələlərinə nəzəri yanaşmalar

11. **Fərid Cabbarlı,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Biznes mühitinə təsir edən təşkilati mədəniyyətlərin keçid dövründəki transformasiyasının Denison modeli istifadə edilərək araşdırılması

12. **Sevinc Quliyeva,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Turizm xidmətlər bazarının seqmentləşdirilməsi

13. **Ülkər Məmmədova,** *AMEA İqtisadiyyat İnstitutu*
    Mövzu: Turizm sektorunun inkişafına təsir edən əsas iqtisadi amillər

14. **Elsevər Cəlilov,** *Azərbaycan Dövlət Pedaqoji Universiteti*
    Mövzu: Dağlıq Şirvan İqtisadi rayonunun turizim ehtiyyatları

15. **Camal Hacıyev, Umnisə Həsənova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Turizm sektorunun investisiyalaşdırılması xüsusiyyətləri

16. **Mehri Hüseynova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Azərbaycan Respublikasının beynəlxalq maliyyə-kredit təşkilatları ilə qarşılıqlı əlaqələrin müasir vəziyyəti

17. **Şadiyyə Amanova,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Maliyyə -xidmət sektorunun müasir inkişaf istiqamətləri

18. **Araz Xəlilov,** *Azərbaycan Dövlət Pedaqoji Universiteti*
    Mövzu: İdman turizmi

19. **Vüsal Quliyev,** *Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*
    Mövzu: Yeni sənaye ölkələrinin iqtisadi inkişafının əsas istiqamətləri

20. **Əli Hənifəyev,** *Azərbaycan Turizm və Menecment Universiteti*
    Mövzu: Təbii mineral suların turizmin inkişafında rolu

MÜNDƏRİCAT

İlham Mədətov
GİRİŞ SÖZÜ ... 14

PLENAR İCLAS

Anar EMİNOV
Sosial sahələrin inkişaf etdirilməsində yeni investisiya modelləri ... 15
Elçin SÜLEYMANOV, Elmira HACIYEVA
Azərbaycanda turizm bazarının formalaşması və inkişafının problemləri ... 20

BÖLMƏ I
TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN TANIDILMASINDA TURİZMİN ROLU

Bahadur BİLALOV
Bakı –Abşeron turizm bölgəsinin tarixi-mədəni ehtiyatları ... 25
Seyidəli MƏMMƏDLİ
Quba rayonundakı tarixi abidələrin turizmin inkişafında rolu ... 30
Minaxanım ƏSƏDOVA
Memorial muzeylərdə müasir texnologiyadan istifadə ... 34
Qəhrəman YUSUPOV
Abşeron qalasının tematik ekskursiya marşrutunun inkişafı ... 39
Könül SALMANOVA
Azərbaycanın məşhur zirvələri - Bazarduzu, Şahdağ, Tufandağ ... 43
Səbinə BABAYEVA
Müasir bazar şəraitində muzeylərin dayanıqlılığı və inkişaf perspektivləri ... 46
Əfqan QASIMZADƏ
Qədim Qəbələ şəhər yerində aparılmış arxeoloji qazıntıların orta əsrlər dövrünün keramikasının öyrənilməsində və turizmin inkişafında rolu ... 51
Vüsalə BEYDULLAZADƏ
Şirvanşahlar sarayı kompleksi və turizm ... 54
Zenfira ƏFƏNDİYEVA
Памятники природы в Сиязаньском районе ... 59
Aynur ƏLİYEVA
Siyəzən rayonunda tarixi abidələr ... 61
Şəmsiyyə TAHİRBƏYOVA
Bakı-Abşeron turizm bölgəsində konqres və sərgi turizminin mövcud vəziyyəti və potensialı ... 64
Murtəza HƏSƏNOV, **Vüqar KƏRİMLİ**
Müstəqil Azərbaycanın dinamik sosial-iqtisadi inkişaf strategiyası ... 67
Aidə ŞƏBİYEVA
Cultural heritage in Siyazan – Beshbarmag, Gilgilchay, Pir Khalil sepulcher Khidirzında ... 70
Mirəsgər AĞALAROV
Grandiose chirag gala ... 73
Leyla ƏLİZADƏ
“Chichi”, “Syrt chichi”, “Gymyl”, ”Yerfi”, “Agh gul”, “Pirebedil” carpets (Guba) ... 75
Aynur HÜSEYNZADƏ
Bakının müasir memarlıq nümunələri - Abşeron turizm bölgəsi ... 78
Dağlar EYVAZLI
Azərbaycanda teatr tarixi və qadın obrazlarını ifa etmiş kişi aktyorlar ... 83
Ülkər QURBANOVA
"Qalaaltı" sanatoriya-kurort kompleksi ... 87
Sevinc DADAŞZADƏ
Multikultural yanaşmaya tarixi siyasi zəmin ... 90
Vüsalə MƏMMƏDZADƏ
Turizm infrastrukturu və resurslarının yaranmasında mədəni irsdən istifadənin muzeyşünaslıq istiqaməti ... 94
Emil AĞAYEV
Sənətşünasların muzeylərin idarəetmə və inkişafındakı rolu: problem və perspektivlər ... 103

BÖLMƏ II
TURİZM VƏ XİDMƏT SAHƏLƏRİNİN İDARƏ EDİLMƏSİ

Əzizə MƏMMƏDOVA
Guba as a tourism destination 105
Nisə QULUZADƏ
Shahdag tourism center 109
Nazim RÜSTƏMOV, Xumar İSMAYILOVA
Turist daşımalarında nəqliyyat xidmətinin rolu və yeri 111
Tofiq İMANOV
Multikultural dəyərlər və Şəkinin turizm inkişaf potensialı 115
Ülviyyə BAXŞƏLİYEVA, Afət MÜRSƏLİYEVA
Перспективы развития туризма в Шабранском районе 118
Narxanım KAMİLOVA
Abşeron yarımadasında ekoturizmin inkişafı və perspektivləri 121
Səbinə Cumazadə, Aygün TƏHMƏZLİ
Azərbaycanın turizm potensialı və ondan istifadə imkanları 124
Günay QAFAROVA
Şəki və Qəbələdə rayonlarında bərpa və konservasiya olunmuş tarixi əhəmiyyətli abidələr 132
Güllü ƏSGƏRLİ
Qloballaşma şəraitində müalicə-sağlamlıq turizminin vəziyyəti 145
İlahə ƏLİYEVA
Azərbaycanda turizm sahəsi üzrə fasiləsiz peşəkar təhsil sisteminin inkişaf istiqamətləri 147
Azər QƏDİRLİ
Abşeron yarımadasının "Yaşıl zonası" 152
Ramin QULAMZADƏ
Azərbaycanda turizmin əhalinin sosial-mədəni səviyyəsinə təsirinin xarakteristikasi 156
Kamran ABDULLAYEV
Turizm infrastrukturunun inkişafının əsas xüsusiyyətləri 159
Eldar MƏMMƏDBƏYOV
Müasir dünyada turizm sahəsində icra edilən strategiyaların Azərbaycana tətbiqi imkanları 162
Gülnar HƏSƏNOVA
Sosial-mədəni xidmətlər turizm sahəsinin əsas amili kimi 165
Nigar HABİBULLAYEVA
Mineral waters of Guba-Khachmaz region 167
Çingiz ƏLİYEV, Novruz QULİYEV
Emal olunmuş bəzi tərəvəz məhsullarının kimyəvi – texnoloji göstəricilərinin qiymətləndirilməsi 170
Elnarə İSMAYILOVA
Bakı –Abşeron turizm bölgəsində qastronomik turizmin inkişafı 175
Elmar MƏHƏRRƏMZADƏ
"Hilton Baku" mehmanxanasında restoran xidmətləri 177
Rəşad ƏHMƏDOV
Cəlbedici turizm məkanlarının müəyyən edilməsində müasir yanaşmalar 181
Rəfiqə AĞASIYEVA
Bakı-dünya turizm destinasiyası kimi 185
Məsumə QURBANOVA
Turizm və rekreasiya üzrə biliklər sisteminin öyrədilməsinin əhəmiyyəti 188
Məhbubə UMUDOVA
Gilgilçay – müdafiə divari tarixi və turizm abidəsi kimi 191
Məmməd SADIQOV
Abşeron turizm bölgəsində mineral və termal suların öyrənilməsinin tarixi-coğrafi aspektləri 194
Vüqar NƏZƏROV, Turanə HÜSEYNOVA
Banklarda risk səviyyəsinin qiymətləndirilməsi 195

BÖLMƏ III
İDARƏETMƏ MƏDƏNİYYƏTİ VƏ İDARƏETMƏYƏ İNNOVATİV YANAŞMA

Sabir QULUZADƏ
Azərbaycanın süd məhsulları üzrə xarici ticarətinin müasir vəziyyəti ... 200
İsmayıl MURADOV
Qloballaşma prosesinin dövlət idarəetmə orqanlarına təsiri ... 204
Anar İBRAHİMOV
Mədəniyyət və təhsilin formalaşmasında idarəetmənin rolu ... 210
Zamin QAFAROV
Arxivşünaslıq təhsili və onun idarə edilməsi ... 212
Nigar ADİLOVA
Dövlətin idarə olunmasında siyasi mədəniyyətin rolu ... 215
Sevinc HACIYEVA
Valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı dövlətin idarə etmə siyasəti ... 218
Ramilə HÜSEYNOVA
Azərbaycan Demokratik Respublikası dövründə təhsil və mədəniyyətin idarə edilməsi ... 222
Tərlan ŞIXIYEV
İdarəetmədə əmək fəaliyyətinin səmərəliliyinin artırılmasının sosial-psixoloji əsasları ... 226
İlkin ƏLİZADƏ
Dünya mehmanxana sənayesində idarəetmə formaları ... 228
Elmira QOCAYEVA
Azərbaycan Respublikasının inteqrasiya proseslərinin sosial – iqtisadi sahələrinin perspektivləri ... 230
Esmira QOCAYEVA
İqtisadi mədəniyyətini dayanıqlı inkişafının əsas tendensiyaları ... 234
Elvin İBRAHİMOV
Müasir texnologiyaların turizm və qonaqpərvərlik sənayesindəki əhəmiyyəti ... 238
Hacı QASIMLI
Respublikanın kitabxana-informasiya müəssisələrinin idarəedilməsində innovasiyaların tətbiqi ... 241
Şükriyyə TAĞIZADƏ
İdarəetmədə inzibati hüquq anlayışı ... 249
Bahar HƏSƏNLİ
Uşaq zorakılığı və onun əlamətləri ... 251
Flora ƏLƏSGƏROVA, Əkbər QULİYEV
Turizmdə kadr potensialı haqqında statistik məlumatların toplanması ... 254
Roza ƏLİYEVA
Azərbaycanda turizm sənayesinin idarə edilməsi ... 256

BÖLMƏ IV
ETNİK MÜNASİBƏTLƏR VƏ DİLLƏR

Məhərrəm ZÜLFÜQARLI
Sovet idarə sistemində "Allahsızlar cəmiyyəti"nin rolu ... 259
Санубар ГАНБАРОВА
Основные направления внешней политики Азербайджана ... 262
Mehriban ALLAHQULUYEVA
Şabran rayonunda etnoqrafik xüsusiyyətlər: etnoslar və dillər ... 266
İrina UÇAYKİNA
The age of continuous connection ... 268
Ramil BABAYEV
Miqrantlarla sosial işin təşkili problemləri ... 272
Ülfət SƏMƏDZADƏ
Azərbaycanda yəhudilərin məskunlaşması ... 275

BÖLMƏ V
İQTİSADİ İNKİŞAF PROSESLƏRİNİN İDARƏ EDİLMƏSİ

Arzu HÜSEYN
Azərbaycanda sosial turizmin inkişafının əhəmiyyəti və problemləri ... 280
Gülnar SƏMƏDOVA, Elnur ZEYNALOV
Azərbaycanda turizm sektorunun inkişafının stimullaşdırılması istiqamətləri ... 283
Emin QULİYEV
İqtisadi mühitin davamlı inkişafa təsiri ... 286
Yasəmən ABASOVA, Ülkər SADIQOVA
Beynəlxalq biznes kontekstində mədəni müxtəliflik ... 292
Günel TEYMUROVA
Müasir şəraitdə sosial investisiyaların hüquqi normativ bazasının təkmilləşdirilməsi ... 295
Yusif HÜSEYNLİ
Dünya turizm bazarının ölkə iqtisadiyyatına təsiri ... 299
Gülnar ƏHƏDOVA
Müəssisələrdə françayzinq sisteminin mahiyyəti ... 301
Gülər QULİYEVA
Istehlakçı davranşına təsir edən amillərin analitik qiymətləndirilməsi və onun təkmilləşdirilməsi istiqamətləri ... 306
Fəridə MƏMMƏDOVA
XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda sosial-iqtisadi sahələrin idarə edilməsi ... 309
Firudin ƏZİZOV
Gəlirlərin formalaşması və istifadəsi məsələlərinə nəzəri yanaşmalar ... 312
Fərid CABBARLI
Biznes mühitinə təsir edən təşkilati mədəniyyətlərin keçid dövründəki transformasiyasının denison modeli istifadə edilərək araşdırılması ... 315
Sevinc QULİYEVA
Turizm xidmətlər bazarının seqmentləşdirilməsi ... 319
Ülkər MƏMMƏDOVA
Turizm sektorunun inkişafına təsir edən əsas iqtisadi aspektlər ... 323
Elsevər CƏLİLOV
Dağlıq Şirvan iqtisadi rayonunun turizim ehtiyyatlarının perspektivləri ... 327
Camal HACIYEV, Umnisə HƏSƏNOVA
Turizm sektorunun investisiyalaşdırılması xüsusiyyətləri ... 329
Mehri HÜSEYNOVA
Azərbaycan respublikasının beynəlxalq maliyyə-kredit təşkilatları ilə qarşılıqlı əlaqələrin müasir vəziyyəti 334
Şadiyyə AMANOVA
Maliyyə -xidmət sektorunun müasir inkişaf istiqamətləri ... 337
Araz XƏLİLOV
İdman turizmi ... 340
Vüsal QULİYEV
Yeni sənaye ölkələrinin iqtisadi inkişafının əsas istiqamətləri ... 342
Əli HƏNİFƏYEV
Təbii mineral suların turizmin inkişafında rolu ... 346

GİRİŞ SÖZÜ

Hörmətli konfrans iştirakçıları!

Hər birinizi Azərbaycan Turizm və Menecment Universitetində "Müasir dövrdə effektiv idarəetmənin problemləri" mövzusunda keçirilən V respublika elmi-praktik konfransında səmimi qəlbdən salamlayır və konfransın işinə uğurlar arzulayıram.

İdarəetmə cəmiyyətin bütün sahələrini əhatə edən müxtəlif istiqamətli prosesdir. Cəmiyyətdəki bütün fəaliyyət dairələri ilə əlaqəlidir. Nəticə etibarı ilə insanların fəaliyyətinin nizamlanması, qaydaya salınması, kiçik və böyük kollektivlərin istiqamətləndirilməsi, istehsal, təhsil, mədəniyyət, səhiyyə sahələrinin və əmək kooperasiyasının həyata keçirilməsi, habelə canlı əməklə istehsal vasitələrinin müəyyən qaydada əlaqələndirilməsi ilə bağlıdır.

Hər bir elmin predmeti olduğu kimi idarəetmə elminin də öz predmeti var və elmin məzmunu onun predmetindən daha genişdir. İdarəetmə elminin məzmununa: idarəetmə nəzəriyyəsi, idarəetmə üsulları və metodları, idarəetmənin təşkili, idarəetmə texnikası daxildir. Bu bölmələrin hər biri öz növbəsində bir sıra idarəetmə amillərindən asılıdır.

Müasir dövrdə yeni tipli iqtisadi təfəkkürün formalaşması və inkişafı idarəetmə elmində də yeni dünyagörüşünün yaranmasına səbəb olmuşdur. İdarəetmə sahəsində insani münasibətlər məktəbinin yaranması və inkişafı Amerika sosioloqu Meri Parker Follettə və psixoloq Elton Meyonun adları ilə bağlıdır. Elmi idarəetmə isə Amerika alimləri Frenk Qilbret, Liliya Qilbret, mühəndis texnoloq F.M.Teylor və Henri Hanten işləri ilə daha çox bağlıdır. Bu məktəbin yaradıcıları hesab edirlər ki, müşahidə, ölçmə, məniq və təhlildən istifadə etməklə bir çox fəaliyyətləri elə təkmilləşdirmək olar ki, bu işlər daha səmərəli görülsün.

Cəmiyyətdə mövcud olan hər bir fərdin müəyyən qabiliyyəti vardır. Müxtəlif insanlar eyni bir işi eyni bir alətlə, eyni bir səviyyədə yerinə yetirə bilmirlər. Ona görə də, onların fərdi xüsusiyyətlərini, hər bir fərdin tələbatını, qabiliyyətini, səriştəsini və psixologiyasını nəzərə almaq vacib məsələdir. Hələ kifayət qədər tədqiq edilməyən N.Tusinin baxışlarında insanın əxlaqi keyfiyyətləri ön plana çıxır və bütün yaradıcılığı boyu əxlaqi sifətlərin yaranmasını real gerçəklikdə görür, onun fikrincə "əxlaqi sifətlər yalnız ictimai həyatda yaranır və bu anadangəlmə bir proses deyil".

İnsani münasibətlər məktəbi əmək məhsuldarlığının yüksəldilməsi və son nəticə əldə edilməsi üçün fərdi (şəxsi) münasibətlərin idarə olunmasını, onların sosial və psixoloji vəziyyətlərinin nəzərə alınmasını, rəhbərin işçiyə qayğı ilə yanaşması faktlarını aşkar etdi və bir sıra amilləri menecmentə idarəetməyə gətirdi: psixologiya; ictimai münasibətlər; insan amili; hakimiyyət və nüfuz; motivasiya; işin məzmunu və iş şəraiti; qarşılıqlı münasibət və səriştə. Bu sahədə ali təhsil müəssisələrində aparılan elmi tədqiqatların səviyyəsinin yüksəldilməsi və intensivləşdirilməsi üçün şəraitin yaradılması təhsili idarəetmə orqanlarının səmərəli fəaliyyətindən asılıdır.

Bu mənada, 22 dekabr 2014-cü ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Azərbaycan Turizm İnstitutunun bazasında Azərbaycan Turizm və Menecment Universitetinin yaradılması barədə imzaladığı sərəncamla Turizm və Menecment Universitetinin yaradılması idarəetmə sahələrində kadr hazırlığı ilə əlaqəli təhsil xidmətləri sıralarına qədəm qoyan ali təhsil ocağının üzərinə böyük vəzifələr qoyulmuşdu. ATMU bu vəzifənin yüksək səviyyədə icra edilməsi üçün bütün potensialını səfərbər etmişdir.

Konfrans "Tarixi-mədəni abidələrin tanıdılmasında turizmin rolu", "Turizm və xidmət sahələrinin idarə edilməsi", "İdarəetmə mədəniyyəti və idarəetməyə innovativ yanaşma", "Etnik münasibətlər və dillər", "İqtisadi inkişaf proseslərinin idarə edilməsi" adlı bölmələr üzrə dinləmələr həyata keçirərək, işini davam etdirəcəkdir.

Əminəm ki, bugünkü konfrans müasir dövrdə effektiv idarəetmə mexanizminin daha da təkmilləşdirilməsi istiqamətində qarşıya çıxan bir sıra problemlərin uğurlu həllinə müsbət təsir göstərəcək.

Diqqətinizə görə təşəkkür edirəm!

İlham Mədətov
Azərbaycan Turizm və Menecment Universitetinin rektoru

PLENAR İCLAS

Anar EMİNOV
Azərbaycan Turizm və Menecment Universiteti,
i.ü.f.d., dos.
a.eminov@atmu.edu.az

Sosial sahələrin inkişaf etdirilməsində yeni investisiya modelləri

Новые инвестиционные модели в развитии социальных сфер

New investment models in the development of social spheres

Xülasə: Məqalədə investisiya anlayışı, investisiyanın sosial yönümlü öyrənilmə problematikası, investisiyanın dünya təcrübəsinə əsaslanaraq sosial sahələrin inkişaf etdirilməsinin investisiya modellərinin bəzi xarakterik xüsusiyyətləri elmi, nəzəri və praktik cəhətdən təhlil edilmişdir.
Açar sözlər: investisiya, sosial investisiya, investisiya modeli

Резюме: В статье анализируются научные, теоретические и практические аспекты концепции инвестиций, проблемы инвестирования в социально ориентированные исследования, а также некоторые характеристики инвестиционных моделей развития социальных секторов на основе мирового опыта инвестирования.
Ключевые слова: инвестиции, социальные инвестиции, инвестиционная модель

Abstract: The article analyzes the scientific, theoretical and practical aspects of the concept of investment, the problem of investing in socially oriented research, and some of the characteristics of investment models of social sectors development based on world experience of investment.
Keywords: investment, social investment, investment model

Dünya təcrübəsi göstərir ki, iqtisadiyyatın sosialyönümlüyünün təmin olunması məsələsi nə qədər vacib olsa da, buna nail olunması bir o qədər də mürəkkəbliyi ilə seçilir. Belə ki, bazar münasibətlərinin formalaşması şəraitində iqtisadiyyatın vəziyyətinə çoxsaylı və müxtəlif xarakterli amillər təsir göstərir. Bunlardan əsasları kimi iqtisadi münasibətlərin yeni prinsiplər əsasında qurulması, dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi, milli iqtisadi və sosial maraqların qorunması, gəlirlərin səmərəli bölgüsü, səmərəli məşğulluğun təmin edilməsi və s. bu kimi digər amilləri göstərmək olar. Buna görə də, Azərbaycan Respublikasında iqtisadiyyatın sosialyönümlüyünün təmin olunması üçün ilk növbədə, milli iqtisadiyyatın inkişaf potensialı, dünya təsərrüfat sistemində gedən qlobal proseslər, ölkənin konkret iqtisadi şəraiti və xüsusiyyətləri nəzərə alınmaqla məqsədyönlü siyasətin aparılması məqsədəuyğun hesab olunur. Bu isə öz növbəsində, ölkədə sosial iqtisadiyyatın beynəlxalq hüquq normalarına və mütərəqqi dünya təcrübəsinə əsaslanan və milli iqtisadiyyatın inkişaf xüsusiyyətlərini və perspektivlərini nəzərə alan mükəmməl və çevik tənzimlənmə sisteminin yaradılmasını nəzərdə tutur. Tədqiqatlar göstərir ki, müasir dövrdə, demək olar ki, bütün ölkələrdə sosial siyasətin tənzimlənməsi sistemləri mövcuddur. Azərbaycan Respublikasında sosial siyasətin tənzimlənməsi sistemi müstəqil olaraq dovlət müstəqilliyinin bərpasından sonra ölkədə sosial sahədə hüquqi-normativ aktların qəbul edilməsi prosesindən başlanılmışdır. Qeyd etmək vacibdir ki, müstəqilliyin ilk illərindən ölkədə siyasi və sosial böhranın baş verməsi, əhalinin həyat səviyyəsini xarakterizə edən göstəricilərin kəskin şəkildə pisləşməsinə səbəb olmuşdur. Lakin, 1996-cı ildən etibarən ölkədə makroiqtisadi sabitliyə nail olunması sosial sahədə də bir sıra zəruri göstəricilərin müsbət istiqamətdə dəyişməsinə səbəb olmuşdur. Bu isə öz növbəsində müasir dövrün tələblərinə cavab verən çevik, işlək və ədalətli hüquqi-normativ, təşkilati-idarəetmə və iqtisadi tənzimlənmə sisteminin tədricən formalaşdırılması imkanlarını xeyli genişləndirmişdir. Azərbaycan Respublikasının Konstutusiyasında iqtisadiyyatın sosial yönümlülüyü açıq aydın göstərilməsə də, bu istiqamət-


də dünya təcrübəsinə əsaslanan mütərəqqi müddəaların olduğu da görünür. 18 mart 2009-cu il tarixində Azərbaycan Respublikasının Konstitusiyasında ümumxalq referendum yolu ilə edilən əlavələr və dəyişikliklər nəticəsində iqtisadi siyasətın sosialyönümlülüyü müəyyənləşdirilmişdir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının "Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafina şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir".[1] İqtisadiyyatın sosialyönümlülüyünün təmin edilməsinin ən mühüm istiqamətlərindən biri minimum əmək haqqının dövlət tərəfindən tənzimlənməsidir. Bununla əlaqədar qeyd edək ki, son illər minimum əmək haqqının bir neçə dəfə artırılmasına baxmayaraq, onun səviyyəsi yoxsulluq həddini müəyyən edən səviyyədən hələ də aşağıdır. Ölkə prezidentinin 5 oktyabr 2004-cü il tarixli sərəncamına əsasən təsdiq edilmiş "Yaşayış minimumu haqqında" qanun Azərbaycan Respublikasında yaşayış minimumunun müəyyənləşdirilməsinin, ona dövlət təminatının, ölkənin sosial-iqtisadi inkişafına uyğun olaraq yaşayış minimumunun yüksəldilməsinin prinsiplərini və qaydalarının müəyyən edilməsi üzrə atılan növbəti addımdır. Bu qanuna əsasən, onun məqsədləri üçün istifadə edilən əsas anlayışlar, yaşayış minimumunun təyinatı, minimum istehlak səbətinin formalaşdırılması və ona 77 yenidən baxılması və tədqiqi qaydaları, ölkədə əmək haqqının, pensiyaların minimum məbləğinin, müavinətlətin, təqaüdlərin və digər sosial ödənişlərin müəyyənləşdirilməsi zamanı yaşayış minimumunun nəzərə alınması məsələləri öz əksini tapmışdır. Burada göstərilir ki, ölkə əhalisinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumu ildə bir dəfə yenidən hesablanır və dövlət büdcəsi ilə birgə təsdiq edilir.

Müasir dövrdə investisiya prosesi transmilli korporasiyaların iştirakı olmadan demək olar ki, baş vermir. Hazırda investisiya proseslərinin xüsusiyyətlərindən biri odur ki, istehsalat və kommersiya fəaliyyəti üçün sadəcə investisiyalar deyil, elmi-texniki innovasiya nailiyyətləri, ətraf-mühitə zərər verməyən tullantılarsız texnologiyaları reallaşdıran investisiyalar tələb olunur. Təsadüfi deyildir ki, investisiya siyasəti elm və texnikanın ən mühüm nailiyyətlərinə əsaslanır. Məhz buna görə də investisiyaların cəlb edilməsi ümumi dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri sayılır. Ölkədə bu istiqamətlərdə qəbul edilmiş digər vacib proqramlardan biri kimi Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) -ni da xüsusi olaraq qeyd etmək olar.Bu proqramda aşağıdakı vəzifələr müəyyən olunur: -müəssisələrin istehsal fəaliyyətini bərpa etmək və yeni istehsal müəssisələri yaratmaq; -yeni resurslardan istifadənin səmərəsini artırmaq; -regionların inkişafı üçün yeni zəruri infrastrukturun yaradılmasını və inkişafını təmin etmək; -aqrar sektorda islahatların ikinci mərhələsini sürətləndirmək; -investorların regionlara cəlb olunması üçün əlverişli şəraitin yaradılmasını təmin etmək; -yeni iş yerlərinin yaradılmasını həvəsləndirmək;-əhalinin kommunal xidmətlərlə təminatını yaxşılaşdırmaq.

Bu proqramdan sonra 2008-ci ildə Ümumi Daxili Məhsul 2003-cü illə müqayisədə 2,3 dəfə artaraq 15,26 milyard manat,Ümumi Daxili Məhsulun adambaşına düşən həcmi 1578 ABŞ dolları, qeyri-dövlət sektorunun Ümumi Daxili Məhsulda xüsusi çəkisi 85 faiz təşkil etməsi proqnozlaşdırılırdı. Lakin həmin dövrdə neftin qiymətinin kəskin surətdə artması nəticəsində proqnozlardan daha yuxarı bir göstərici əldə edildi.Belə ki, 2008-ci ildə ölkədə ÜDM 40 milyard manatdan çox olmuşdur. 2004-2008-ci illərdə ÜDM-un strukturunda bütün sahələrin,o cümlədən kənd təsərrüfatının artım tempi orta hesabla 10-15 faiz səviyyəsində olacağı ərzində kənd təsərrüfatı istehsalının real artımı 62,5 faiz təşkil etməsi gözlənilirdi.Lakin ötən beş il ölkə sənayesində 2,5 dəfə, kənd təsərrüfatında isə 25,2 faiz artım olmuşdur.Bütün maliyyə mənbələri hesabına investisiya qoyuluşunun həcmi 16,8 mlrd. ABŞ dollarına çatması, bunun da təxminən 60 faizi regionlara yönəlməsi proqnozlaşdırılırdı. Halbuki ölkə iqtisadiyyatının inkişafına bütün maliyyə mənbələri hesabına əsas kapitala qoyulmuş investisiyanın həcmi son beş ildə 33,5 mlrd. manat təşkil etmiş, bunun 53,2 faizi daxili, 46,8 faizi isə xarici investisiyalar olmuşdur. 2008-ci ildə istifadə edilmiş investisiyanın həcmi 2003-cü il səviyyəsini 3 dəfə üstələmiş,adambaşına düşən investisiyanın həcmi 2003-cü illə müqayisədə 605,8 manat çox olmuşdur.2003-cü ildə ümumi investisiyaların həcmində daxili investisiyaların payı 24,8 faiz olduğu halda,2008- ci ildə bu göstərici 78,6 faiz təşkil etmişdir.Bu proqram dövründə planlaşdırılan 600 min yerinə nisbətən həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 766 mindən çox yeni,o cümlədən 547,5 min daimi iş yeri açılmışdır.Bu dövrdə respublikada 27,5

mindən çox yeni müəssisə yaradılmışdır ki, bunun da 40 faizə qədəri regionlarda fəaliyyət göstərir. Yeni yaradılmış müəssisələrin 88 faizdən çoxunu xüsusi mülkiyyətli müəssisələr təşkil edir.


2009-2013-cü illəri əhatə edən dövlət proqramında aşağıdakı prioritet istiqamətlər müəyyən edilmişdir: (Bax:Şəkil-1)



Yoxsulluq səviyyəsinin azaldılması məqsədilə həyata keçirilinə sosial müavinətlər - ayrı-ayrı kateqoriya şəxslərə sosial yardım göstərilməsi məqsədilə aylıq və ya birdəfəlik ödənilən pul vəsaitidir. Aylıq müavinətlər - yaşa, əlilliyə, 16 yaşadək əlil uşaqlara, ailə başçısını itirməyə görə, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat vo digər xidmətlərə, üç yaşınadək uşağa qulluğa, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərin 16 yaşadək (ümumi təhsil müəssislərində əyani təhsil alanlar üçün 16 yaşadək) uşaqlarına, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə), bir yaşınadək uşağı olan aztəminatlı ailələrə, dövlət qulluqçularına ömürlük verilən müavinətlərdir. Birdəfəlik müavinətlərə isə radiasiya qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkərək əlil olmuş şəxslərə müalicə üçün, uşağın anadan olmasına görə və dəfn üçün ödənilən vəsaitlər daxildir. Son illər əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ayrı-ayrı müavinətlər üzrə artımlar müşahidə olunmuşdur. Cari ilin ötən dövründə respublika əhalisinin 4,4 faizinə və ya 421245 nəfərə aylıq və birdəfəlik sosial müavinət təyin olunub ödənilmişdir. [4].

Ölkədə aparılan investisiya siyasəti daha çox xarici kapitalın ölkəyə axınının stimullaşması ilə əlaqədardır. Aşağıdakı şəkildən göründüyü kimi, milli iqtisadiyyata kapital axını əsasən neft və qaz sektorunun inkişafına yönəldilir. Lakin, milli iqtisadiyyatın formalaşması baxımından xarici investisiyalardan iqtisadiyyatın digər xüsusən kənd təsərüfatı, emal sənayesi istiqamətində də istifadə etmək vacibdir. Xarici investisiyanın milli iqtisadiyyatın inkişafında dönməz hal alması üçün ümumiyyətlə, həm iqtisadiyyatın strukturunu və texnoloji təminatını həyata keçirmək lazımdır, həm də sosial və ekoloji problemlərin həllini uzlaşdırmaq lazımdır.

Xarici investisiyaların strukturu



Hər bir istehsal və sosial sahələrin yaradılması, yenidən qurulması, genişləndirilməsi və beləliklə, məşğulluğun təmin edilməsi müvafiq investisiya qoyuluşlarını və ondan daha səmərəli istifadə edilməsini tələb edir.

Bunun üçün ölkə lazımi maliyyə, material resuslarına malik olmalıdır. Əks halda milli iqtisadiyyatın formalaşdırılmasını və inkişafını təmin etmək məqsədilə ölkəyə xarici investorların cəlb edilməsi zəruriyyətə çevrilir. Məhz buna görə də, müasir bazar iqtisadiyyatı şəraitində resbublikamızda xarici ölkələrin marağına və Azərbaycan milli iqtisadiyyatının inkişafına tam uyğun olaraq, qarşılıqlı investisiya qoyuluşlarının həyata keçirilməsi imkanı yaradılır. Beynəlxalq kapital hərəkətinin tədqiqi sahəsində onun makro nəzəriyyəsi xüsusi yer tutur. Beynəlxalq kapital hərəkətinin makro nəzəriyyəsi dörd istiqaməti əhatə edir:

1. Kapital hərəkətinin daxili investisiyalara təsiri;
2. Kapital hərəkətinin milli gəlirə təsiri;
3. Kapital hərəkətinin konyukturasının dövri dəyişmələrinə təsiri;
4. Kapital hərəkətinin ödəniş balansına təsiri.

D.M.Klarkın akselator modeli də beynəlxalq kapital hərəkətinin öyrənilməsində xüsusi əhəmiyyəti ilə seçilir. Klarka görə investisiyalar iqtisadiyyatda akselerator rolunu oynayır.

Bu modelə görə investisiyanın artım tempi istehsal olunan məhsulun həcm dəyişmələri arasında qarşılıqlı əlaqə vardır. Bu zaman iqtisadiyyatın yerli müəssisə sektoru üçün investisiya akseleratoru ilə xarici və birgə müəssisələr sektoru üçün investisiya akseleratoru arasında fərq özünü göstərir.

C.Keyns nəzəryəsinə görə makroiqtisadiyyatın mərkəzi problemi milli gəlirin bölüşdürülməsidir. T.Hüseynov C.Keyns nəzəriyyəsini müxtəlif aspektlərdən xülasəni verərək, investisiyaların həcmini dəyişməsinin iqtisadi inkişafın hərəkətverici qüvvəsi olmasını nəzərdə tutmasını, bu nəzəriyyəyə görə investisiyanın səviyyəsinin ən çox qənaətə meyilliyə əsaslanmasını ön plana çəkərək yazır: "Azərbaycan və bəzi digər ölkələrin təcrübəsi göstərir ki, qənaətə meyilliyin yüksək olması heç də qənaətin əsas kapitala investisiyası kimi istifadəsinə gətirib çıxartmır. Azərbaycanda qənaət çox hallarda əmtəə dövriyyəsi kapitalına, bank əmanətlərinə, nağd xarici valyutalara çevrilir" [9].

İnvestisiyaların dinamikasını və əsas inkişaf parametirlərini müvafiq olaraq cədvəl 1 də görmək olar.

İqtisadiyyata yönəldilən investisiyaların dinamikasının təhlili

Cədvəl 1

	2000	2001	2002	2003	2004	2005	2006	2007	2008	2010	2013
Investisiya qoyuluşları bütün maliyyə mənbələri üzrə xarici investisiyyalar nərərə alınmaqla											
Mln. manat	1289,8	1454,6	2718,0	4249,2	5820,4	6733,4	7415,6	10353,9	12481,8	14118,9	21974,2
Mln. dollar	1441,4	1561,8	2796,6	4326,2	5922,7	7118,5	8300,4	12066,1	15192,1	17591,4	28010,5
Xarici investisiyalar											
Mln. manat	829,5	1016.8	2172,0	3310,9	4496,4	4628,5	4514,2	5727,2	5625,8	6619,7	8269,3
Mln. dollar	927,0	1091,8	2234,8	3371,0	4575,5	4895,2	5052,8	6674,3	6847,4	8247,8	10540,9
Daxili investisiyalar											
Mln. manat	460,3	437,7	546,0	938,3	1324,0	2104,9	2901,4	4626,7	6856,0	7499,2	13704,6
Mln. dollar	514,4	470,0	561,7	955,2	1347,2	2225,3	3247,6	5391,8	8344,7	9343,6	17469,6

Cədvəl 1 dən göründüyü kimi, ölkə iqtisadiyyatına yönəldilən bütün maliyyə mənbələri üzrə investisiya qoyuluşları 2000-ci ildə 1289.8 milyon manat təşkil edirdisə, 2008-ci ildə bu rəqəm 12481.8 milyon manata çatmış, 2010-cu ildə 14118.9 milyon manat, 2013-cü ildə isə 21974.2 milon manat təşkil etmişdir.

Araşdırmalar göstərir ki, sosial sahələrin inkişaf etdirilməsində yeni inkişaf modellərinin tətbiqi cəmiyyətin sosial inkişafına, uğurlu sosial siyasətin həyata keçirilməsinə və ölkənin iqtisadi imkanlarından səmərəli istifadəyə zəmin yaradır. Qeyd edək ki, iqtisadi cəhətdən gücü olmayan dövlət əhalinin hərtərəfli sosial müdafiəsini təmin və təşkil edə bilməz. Ölkənin iqtisadi qüdrətinin artması əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında mühüm rol oynayır. İqtisadiyyat sosial siyasətin qarşısına qoyulmuş məqsədlərə nail olmaq üçün bir vasitədir. Çünki iqtisadi inkişaf olmadan, yüksək iqtisadi göstəricilərə, nailiyyətlərə malik olmadan cəmiyyətin sosial siyasətini lazımi səviyyədə həyata keçirmək, bu sahədə istənilən nailiyyəti əldə etmək mümkün deyil. İqtisadiyyatın yüksək inkişafı sosial siyasət sahəsində qarşıya qoyulmuş məqsədlərə nail olmağın əsasını təşkil edir. Beləliklə sosial siyasət iqtisadi artımı həm ləngidə, həm də stimullaşdıra bilər. Bundan əlavə əminliklə demək olar ki, sosial rifaha nail olmadan iqtisadi artıma nail olmaq mümkün deyil. Sosial siyasət özünün məqsədyönlü məzmunu, tənzimlənən sosial münasibətlərin təşkili, dövlətin fəaliyyətinin funksional əhəmiyyəti, həyata keçirilmə mexanizmi, sosial strukturların balanslaşdırılması və möhkəmləndirilməsi və s. bu kimi funksiyaları həyata keçirir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası(Əsas Qanun), Bakı-2009
2. Azərbaycan Respublikasında "Əhalinin Məşğulluğu haqqında"qanun, Bakı-2014
3. Azərbaycan Respublikası"Sosial müavinətlər haqqında"qanun,Bakı-2006
4. Azərbaycan Respublikasının Məşğulluq strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı.2011-2015.
5. Azərbaycan Respublikasında Vətəndaşların pensiya təminatı haqqında"qanun, Bakı-1992, №305
6. Azərbaycan Respublikasında "Əlillərin sosial müdafiəsi haqqında"qanun, Bakı,1992.
7. Azərbaycan Respublikasında "Minimum istehlak büdcəsi haqqında"qanun, Bakı 1992.
8. T.Paşayev İnvestisiya və müasir dövrdə Azərbaycan iqtisadiyyatının inkişafında onun rolu. Elmi tədqiqat işi Bakı 2001.
9. Мейбуллаев М.Х., Кулиев Р.А., «Проблемы формирования импортозамешаемой модели развития в трансформирующейся (переходной) экономике. Сборник статей международной научно- практической конференции на тему «Конкурентоспособность региона», Даугавплис, 2013.
10. Максимова В.Ф. Реальные инвестиции. М. Московская финансово-промышленная академия. 2005. 69 с.

Elçin SÜLEYMANOV
Bakı Mühəndislik Universiteti,
elmi işlər üzrə prorektor, i.ü.f.d., dos.

Elmira HACIYEVA
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim
e.hajiyeva@atmu.edu.az

Azərbaycanda turizm bazarının formalaşması və inkişafının problemləri

Формирование и развитие рынка туризма в Азербайджане

Formation and development of the tourism market in Azerbaijan

Xülasə: Hal-hazırda turizm ölkələrin sosial-iqtisadi inkişafında dinamik inkişaf edən və prioritet sayılan istiqamətlərdən biridir. Dünya üzrə hər on işçidən birinin turizm sektorunda işlə təmin olunması turizmin çox əmək tutumlu, eyni zamanda yüksək əmək haqqı səviyyəsi ilə seçilməsi də onun üstün cəhətlərindən sayılır. Belə ki, son 5 ildə Azərbaycanda turizm sektorunda xidmət göstərən sahibkarlıq subyektlərinin və turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayında müvafiq olaraq 4,5 və 8,5 faiz ortaillik sabit artım müşahidə edilmişdir. Araşdırma mövcud informasiyalar əsasında aparılmışdır. Elmi araşdırma nəticəsində ortaya çıxan Beynəlxalq və daxili bazarda ölkənin rəqabət qabiliyyətini artıra bilən turizm infrastrukturu təkmilləşdirmək və turizm sənayesini yaratmaq ən böyük missiyalardan biridir.
Açar sözlər: Turizm sənayesi, Azərbaycan, Turizm bazarı, Davamlı turizm

Резюме: Туризм является одним из динамично развивающихся и приоритетных направлений социально-экономического развития стран. Причиной, по которой одним из десяти лучших рабочих мест предлагается в секторе туризма является тот факт, что туризм представляет собой трудоемкую и в то же время высокооплачиваемую сферу деятельности. Таким образом, за последние 5 лет наблюдается стабильный рост соответственно на 4,5 и 8,5 процента числа субъектов хозяйствования, обслуживающих сектор туризма, и иностранных граждан, прибывающих с целью туризма. Исследование проводилось на основе существующей информации. Как результата научных исследований, одной из основных задач является улучшение инфраструктуры туризма и создание индустрии туризма, способной повысить конкурентоспособность страны на международном и внутреннем рынках
Ключевые слова: индустрия туризма, Азербайджан, туристический рынок, устойчивый туризм.

Abstract: Tourism is one of the dynamically developing and priority areas of socio-economic development of countries. The reason why one of the ten best jobs is offered in the tourism sector is the fact that tourism is a labor-intensive and at the same time highly paid field of activity. Thus, over the past 5 years, there has been a steady increase by 4.5 and 8.5 percent, respectively, of the number of business entities serving the tourism sector and foreign citizens arriving for tourism. The study was based on existing information. As a result of scientific research, one of the main tasks is to improve the tourism infrastructure and create a tourism industry that can increase the country's competitiveness in the international and domestic markets
Key words: tourism industry, Azerbaijan, tourism market, sustainable tourism.

Hazırda turizm ölkələrin sosial-iqtisadi inkişafında dinamik inkişaf edən və prioritet sayılan istiqamətlərdən biridir. Regionların iqtisadi inkişafında, yoxsulluğun azaldılmasında, urbanizasiyanın, xüsusən ucqar kəndlərin boşalmasının qarşısının alınmasında və ölkə büdcəsinin vergi daxilolmalarının artmasında əhəmiyyətli rolu olan bir sektordur. Turizm, bir çox ölkələrin ümumi daxili məhsulunda geniş bir paya sahib olub, digər sektorlar ilə rəqabətə girmişdir. Eyni zamanda turizm əhalinin məşğulluğuna da müsbət təsir etməkdədir. Dünya üzrə hər on işçidən birinin turizm sektorunda işlə təmin olunması turizmin çox əmək tutumlu, eyni zamanda yüksək əmək haqqı səviyyəsi ilə seçilməsi də onun üstün cəhətlərindən sayılır. Azərbaycanda da bu sahənin inkişafına ciddi diqqət göstərilməkdədir. Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inki-

şaf edən iqtisadi sektora çevrilib. Turizm sektorunun davamlı olaraq inkişaf etməsi və genişlənməsi bu sektoru sosial-iqtisadi tərəqqidə əsas aparıcı qüvvəyə çevirib. Bu, özünü yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında göstərir. Turizmdə Azərbaycanın rəqabət imkanları çox yüksəkdir. Təbii sərvətləri, rəngarəng iqlimimi, zəngin tarixi-mədəni irsi cəlbedici turizm məhsulu yaratmaq üçün mühüm amillərdir. Bununla yanaşı, Azərbaycan dövləti turizm sahəsinin inkişafını iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamət elan edib. Son 15 il ərzində ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bunu bir daha sübut edir. Bu tədbirlər nəticəsində Azərbaycanda turizm sənayesi yeni mərhələyə qədəm qoyub, ölkəmiz dünyada yeni turizm istiqaməti kimi tanınmağa başlayıb, beynəlxalq turizm bazarına inteqrasiya ilbəil daha geniş şəkildə təmin olunur. Öz zəngin milli –mədəni irsi, tarixi abidiləri, meşələri, çimərlikləri ilə zəngin olan Azərbaycanın da dünya turizm bazarında mühim oyunçu olma potensialı yüksəkdir. Bu baxımdan Azərbaycanda turizm həm də yoxsulluq səviyyəsinin azaldılmasında, əhali köçlərinin, xüsusən ucqar kəndlərin boşalmasının qarşısının alınmasında güclü bir alət kimi istifadə oluna bilər. Tədqiqat işində beynəlxalq turizmin artım tempi, dünya iqtisadiyyatında turizmin inkişaf göstəriciləri təhlil olunmuş, Azərbaycanda turizm potensialından istifadə imkanları və bu sahədə mövcud problemlər tədqiq edilmişdir.

Azərbaycanda turizm bazarının formalaşması

Dünya Turizm Təşkilatının "Tourism: 2020 Vision" hesabatında qeyd edilir ki cəmiyyətdə əyləncə və boş zamanın gedərək artması, təhsil səviyyəsinin yüksəlməsi, ekoloji problemlərə, estetik dəyərlərə, fərdin, cəmiyyətin inkişafına verilən əhəmiyyətin artması və s. turizmin inkişafını sürətləndirən amillər sırasındadır. Dünyadakı turizm tarixi kimi ölkəmizin də turizm tarixini araşdırarkən maraqlı məqamlara rast gəlinir. Dünyada turizm hərəkətlərinin kökdən dəyişdiyi dövr isə II dünya müharibəsindən sonra olmuşdur. Dünyada sürətli inkişaf edən və böyüyən sektorların sırasında yer almaqda olan turizm ÜDM-in əhəmiyyətli hissəsini təşkil edən bir sektordur. Turizm milli gəlirin çoxalmasında, eləcə də valyuta gəlirinin artmasında da əhəmiyyətli rol oynayır. Turizm ölkə üçün marketinq və reklam vasitəsi olma xüsusiyyəti ilə yanaşı məşğulluğun təmin olunmasında da mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq təcrübədə ölkənin istehsal potensialının, əhalinin gəlirlilik səviyyəsinin və məşğulluğunun artımında və digər sektorların inkişafında turizm sektorunun əhəmiyyətli təsiri müşahidə olunmaqdadır. Belə ki, statistik göstəricilərə əsasən, 2018-ci ildə turizm sektorunun dünya ÜDM-ində ümumi payı 9,7 faiz, məşğulluğunda isə 9,4 faiz olmuşdur. Son illərin statistik göstəricilərinə görə, turizm Azərbaycanda daim inkişaf edən sektorlardan biri olmuşdur. Belə ki, son 5 ildə Azərbaycanda turizm sektorunda xidmət göstərən sahibkarlıq subyektlərinin və turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayında müvafiq olaraq 4,5 və 8,5 faiz ortaillik sabit artım müşahidə edilmişdir. Hazırda turizm sənayesinin ölkə üzrə ÜDM-də və məşğulluqda birbaşa payı müvafiq olaraq 4,5 və 3,3 faiz təşkil edir. Bakı şəhəri beynəlxalq miqyasda tanınan turizm məkanları ilə biznes və istirahəti üstün tutan turistləri cəlb etmək baxımından daim turizm sektorunun inkişafının əsas təkanverici qüvvəsi olmuşdur. Çoxsaylı turizm altsektorlarının inkişafı isə, əlavə olaraq, regional turizmin inkişafına da təkan vermişdir. Təhlillər göstərir ki, qonşu ölkələrdən daha çox turist cəlb etməklə, həmçinin qlobal miqyasda daha çox tələbatın olduğu ölkələr üçün ixtisaslaşmış turizm məkanına çevrilməklə Azərbaycanın hər iki sahə üzrə üstünlüyü daha da artırıla bilər. Dövlətlər də yeni iş sahələri yaratmaq və gəlir yaratma xüsusiyyətindən dolayı turizm sektorunu dəstəkləyir. Turizm tələbinin hər keçən gün sürətlə artması, turizmin ölkəyə valyuta gətirmə xüsusiyyəti, turizm sənayesinin inkişaf xərclərinin aşağı olması, turizmin iqtisadi məhdudiyyətlərə, tarifə və kvotalardan daha az təsirlənməsi inkişaf etməkdə olan ölkələrin bu sektora üstünlük verməsinə səbəb olmuşdur. Turizm sənayesinin inkişafına elə belə səyahətə çıxanların sayının artması kimi baxmaq olmaz. Turizm xidmət sahəsində ən böyük bölmələrdən birini təşkil edir. Bu proses artdıqca həmin sahəyə xidmət edən xüsusi qurumlar yaranır və turizm məhsulları meydana gəlir. Buraya hər cür nəqliyyat növlərinin, mehmanxana təsərrüfatının, ictimai iaşə obyektlərinin, müəyyən gəzinti, əyləncə təyinatlı obyektlərin, idman komplekslərinin, ekskursiya xidmətləri göstərən təşkilatlar və sairənin məcmusu nəzərdə tutulur. Bəzi istisna dövrlər xaricində, beynəlxalq turistlərin sayında davamlı bir artım yaşandığı görülməkdədir. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yaradılmış

“www.azerbaijan.travel” rəsmi milli turizm portalı son illər ərzində daxili və xarici turistlər üçün Azərbaycanın turizm potensialı, o cümlədən təbiəti, turizm infrastrukturu, ictimai nəqliyyat sistemi, ölkəmizin unikal turizm məhsulları, turizm şirkətləri və mehmanxanaları barədə geniş məlumat bazası və təbliğat vasitəsi rolunu oynayıb. Gəlmə turizmi üzrə prioritet sayılan ölkələrdə turizm potensialımızın təbliğ edilməsi məqsədilə alman və rus saytlarında müvafiq elektron banerlər yerləşdirilib.

Bu dövrdə beynəlxalq turizm hərəkətlərinin artması səbələri aşağıdakılardır:

- İqtisadi artım nəticəsində əhalinin gəlirlərin artması;
- İş saatlarının qısalması sayəsində turizm üçün ayrılan vaxtların artması;
-Ölkələrarası səyahəti məhdudlaşdıran qanuni tənzimləmələrin aradan qaldırılması nəticəsində səyahət azadlığının artması;
- Hava yolunun inkişafı nəticəsində səyahətin ucuzlaması;
- Nəqliyyat vasitələrinin keyfiyyətinin və etibarlılığının artması;
- Orta həyat müddətinin uzanması, qadınların iş həyatına daxil olması, pensiya müddətlərinin uzanması kimi demoqrafik dəyişikliklər və s.

Belə ki, Azərbaycana ilk səyahətlər ticarət, dini, siyasi və dərketmə məqsədləri ilə hələ eramızdan əvvəl olmuşdur. Onlar arasında Plinin, Plutarx, Heradot, Ptolomey və Strabon kimi tanınmışların adlarını çəkmək olar. Azərbaycanın hələ qədim dövrlərdə Böyük İpək Yolu üzərində mühüm dayanacaq kimi tanınması ölkəmizdə əcnəbi tacirləri və karvanları qəbul edən və onlara xidmət göstərən müvafiq infrastrukturlarınkarvansarayların formalaşmasına səbəb olmuşdur. Beləliklə, İpək Yolu xətti üzərində yerləşmiş olan Təbriz, Marağa, Ərdəbil, Gəncə, Naxçıvan, Ordubad, Nuxa (Şəki) şəhərləri tarixi inkişaf nəticəsində mühüm beynəlxalq ticarət mərkəzlərə çevrilmişdilər. Müxtəlif dövrlərdə Azərbaycanda olmuş səyyahların, tacirlərin, diplomatların səyahətnamələrində Azərbaycan xalqının adət ənənlərindən, qonaqpərvərliyindən və mətbəxindən geniş bəhs edilirdi. Müasir mənada turizm və səyahətin Azərbaycanda mütəşəkkil hal almasını tarixiçilər 1908-ci ilə aid edirlər. Belə ki, 1908-ci ildə Krım – Qafqaz dağ klubunun filiallarından biri Bakıda açılmışdı. Sovet dövründə isə turizm zəhmetkeşlər arasında özfəaliyyət turizminin inkişafı, turizmə geniş, mütəşəkkil ictimai hərəkat forması vermək, diyarşünaslıq elementlərinin turizmə tətbiq olunması və s. üzərində cəmlənmişdir. Sovet dövründə Azərbaycanda turist bazaları, kurort və sanatoriyalar şəbəkəsi yaradılmışdır. Turizm sahəsi ilə məşğul olan mütəxəssislərin fikrincə sovet dövründə Azərbaycan turizmi ən yüksək inkişaf səviyyəsinə 1987-ci ildə nail olmuşdur. Həmin il Azərbaycana xarici ölkələrdən 50, SSRİ-nin müxtəlif bölgələrindən isə 250 minə yaxın turist gəlmişdir. Dünya iqtisadiyyatında turizmin xüsusi çəkisinin təhlili Yaşanan bu inkişaflar nəticəsində turizm sənayesi sürətlə böyümüş və dünya iqtisadiyyatında ən çox gəlir yaradan ilk üç sektordan biri olmuşdur.

Azərbaycanda davamlı turizmə nail olmaq üçün qış turizm bazasının yaradılması və mövsümlük anlayışının aradan qaldırılması zərurəti yaranıb. Bu məqsədə nail olmaq üçün Azərbaycan Respublikasındakı “Şahdağ” Yay-Qış Turizm Kompleksi dünyadakı bu tipli komplekslərdən müasirliyi və universallığı ilə fərqlənir. Kompleks Azərbaycan tarixində ilk dağ-xizək kurortudur. Bir neçə il öncəyə kimi Azərbaycan vətəndaşları qış mövsümündə turizm məqsədilə digər ölkələrə üz tuturdular. Lakin artıq Azərbaycanda iki qış turizm müəssisəsi fəaliyyət göstərir: Qusardakı “Şahdağ” Yay-Qış İstirahət Kompleksi və Qəbələ rayonunda 2014-cü ilin yanvar ayında açılışı olan “Tufan” Dağ-Xizək Mərkəzi. Bu iri komplekslərin inşası göstərir ki, Azərbaycanda təkcə yay turizminə alternativ turizm növlərinin də inkişafına və bu sahədə infrastrukturun yaradılmasına xüsusi diqqət göstərilir

Azərbaycanda turizm sahəsindəki davamlı inkişafın nəticəsi kimi, peşəkar kadrlara olan ehtiyac da sürətlə artıb. Bu ehtiyacın təmin olunması məqsədilə Azərbaycan Turizm İnstitutu yaradıldı. Ölkəmizdə yeni iş yerlərinin açılması ilə yüksək intellektli mütəxəssislərə tələbat artdıqca, təbii olaraq, ali təhsildə keyfiyyətin əhəmiyyəti də gündəmə gəlir. Ölkənin digər ali təhsil ocaqlarından fərqli olaraq, ATMU tələbələrinin öz nəzəri biliklərini 20 həftəlik istehsalat təcrübəsində möhkəmləndirmək imkanı da mövcuddur. ATMU tələbələrinin əksəriyyəti Türkiyə, İsrail, Şimali Kipr Türk Cümhuriyyəti, Almaniya, Yunanıstanda yay tanışlıq və istehsalat təcrübəsi keçməsi bu istiqamətdə faydalı addımlardandər. Ölkə başçısının öz çıxışlarında mütəmadi olaraq, normativ hüquqi bazanın yenilənməsinə, 2013-cü ildən etibarən digər turizmin inkişaf etmiş ölkələrində olduğu kimi elektron viza sisteminin tətbiq edilməsinə, turizm sahəsində prioritet olan ölkələrin təcrübəsinə əsasən hava

limanlarında vizanın verilməsi məsələlərinin diqqətində olmasını vurğulayıb. Azərbaycan turizm sektoru iqtisadi böhran şəraitində də inkişaf edir və bu il ölkəyə gələn turistlərin sayının ötən ildəkindən çox olacağı gözlənilir. 2016-cı ildə Azərbaycana turist axınının əsasən Rusiyadan, eləcə də İran daxil olmaqla İran körfəzi ölkələrindən olacağı proqnozlaşdırılır. Hazırda ölkədə yerli və xarici turistləri qəbul etmək üçün 570 mehmanxana və mehmanxana tipli obyekt var. Bununla belə, evlərdə qalan turistlərin sayı daha çoxdur. Son illərin təcrübəsi göstərir ki, turistlər daha çox evlərdə qalırlar. Hazırda biz həmin xidməti göstərən vətəndaşlara kurs keçirik, onlara lazimi biliklər veririk ki, turistlərə yüksək səviyyədə qulluq etsinlər. Azərbaycana Avropa ölkələrindən də turist axını güclənməkdədir. Hətta bəzi Avropa ölkələrindən gələn turistlərin sayı ötən ilə nisbətən 20-25% çoxdur. Əvvəlki vaxtlarla müqayisədə Azərbaycanda dincəlmək xeyli ucuz başa gəlir, bu isə turizm obyektləri arasında rəqabətin güclənməsi ilə bağlıdır

Son bir neçə ildə Azərbaycanda turizm sektorunun inkişafı üçün çox böyük işlər görülüb. Bu məqsədlə yeni otellər, istirahət mərkəzləri tikilib, xarici turistlərin ölkəyə cəlb edilməsi üçün viza rejimi sadələşdirilir, həmçinin formlar, sammitlər və idman oyunları keçirilir. Əcnəbi turistlərin Azərbaycanda rahat və təhlükəsiz istirahət etmələri üçün tam təminat var. Bənzərsiz təbiət, mineral su qaynaqları, dünyada yeganə müalicəvi Naftalan nefti, nadir qədim memarlıq abidələri, özünəməxsus mədəniyyət, milli mətbəx və bir çox digər amillər Azərbaycanda turizmin bütün növlərinin: işgüzar, idman, müalicəvi, tanışlıq, ovçuluq, ekzotik, çimərlik, qastronomik və hətta qış turizminin inkişafı üçün şərait yaradır. Qarşıdan gələn yay turizm mövsümü ilə bağlı ölkəmizin geniş turizm imkanları ilə tanış olmaq və istirahətini təşkil etmək məqsədilə çoxsaylı turistlərin Azərbaycana səfəri planlaşdırılır."2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı proqramı" ölkəmizdə turizm sektorunun dirçəlməsinə təkan verib. 2002-ci ildən başlayaraq hər il Bakıda Beynəlxalq Turizm Sərgisinin (AİTF) keçirilməsi də bu baxımdan ciddi rol oynayıb. "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" isə Azərbaycanda bu sahənin inkişafı üçün daha ciddi əsas yaradıb. 2019-cu ilin yanvar-oktyabr aylarında Azərbaycana gələn xarici vətəndaşların sayı təxminən 2 milyon 679 min nəfər olub.Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,9 faiz çoxdur. Ən çox artım oktyabrda qeydə alınıb. Belə ki, ötən ilin oktyabrı ilə müqayisədə bu ilin eyni ayında ölkəyə gələn turistlərin sayı 25 faiz çox olub. Azərbaycana daha çox turist Rusiya, Gürcüstan, İran, Türkiyə, Səudiyyə Ərəbistanı, eləcə də MDB ölkələrindən gəlib. Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 57,9%-i dəmir yolu və avtomobil, 41,3%-i hava, 0,8%-i isə su nəqliyyatından istifadə edib.

Bir çox ölkələrdə olduğu kimi ölkəmizdə də turizm məhsulunun önəmi gündən –günə artmaqdadır. Azərbaycan iqtisadiyyatının hərtərəfli inkişafına nail olmaq üçün neft-qaz sənayesi ilə rəqabət apara bilən turizm sənayesini inkişaf etdirmək mümkündür. Bunun üçün ölkəmizdə hər cür imkanlar vardır. Bu səbəbdən ölkəmizdə dini turizm , qış turizmi , çimərlik turizmi və digər turizm sahələrini inkişaf etdirərək turistlərə turizm məhsulu kimi təqdim etmək olar. Azərbaycanda turizm sahəsinin inkişafı aşağidakı istiqamətləri özündə əks etdirilməlidir:

1. fəaliyyət göstərən turizm obyektlərinin müasir tələblərə uyğun qurulması həyata keçirilməlidir;
2. Mehmanxana və ona bərabər tutulan yerləşdirmə obyektlərində yataq yerlərinin(çarpayıların) sayının 200 min ədədə çatdırılması;
3. Beynəlxalq və daxili bazarda ölkənin rəqabət qabiliyyətini artıra bilən turizm infrastrukturu təkmilləşdirmək və turizm sənayesini yaratmaq;
4. Ölkə turizm-rekreasiya zonalarının hüquqi statusunu müəyyən etmək, ərazisində turizm zonalarının və turist marşrutlarının müəyyən olunmasını təmin etmək;
5. Turizm xidməti üzrə mütərəqqi üsulların və standartların hazırlanmasına və tətbiq edilməsinə nail olmaq;
6. Turizm sahəsində çalışan insanların peşə hazırlığı səviyyəsini daima artırmaq və turizm sahəsində zəngin təcrübəsi ölkələrlə kadr hazırlığı sahəsində beynəlxalq əməkdaşlığı genişləndirmək və turizm ehtiyatlarının qorunmasını təmin etmək və bu ehtiyatlardan istifadənin səmərəliliyini artırmaq.

2018-ci ildə isə ölkəmizə gələn əcnəbilərin turizm məqsədilə xərclədiyi vəsaitin məbləği 2 milyard 661 milyon 600 min manat, xaricə gedən Azərbaycan vətəndaşlarının xərclədiyi vəsaitin məbləği 2 milyard 387 milyon 400 min manat olub.

Dövlət Turizm Agentliyinin turizm strategiyasına uyğun olaraq, Rusiya, Türkiyə, Çin, Böyük Britaniya, Gürcüstan, Sinqapur, Latviya, Cənubi Koreya, Almaniya, Hindistan, Vyetnam, Mərkəzi Asiya və Yaxın Şərq Ölkələri ilə turizm sahəsində ikitərəfli əməkdaşlıq üçün qarışlıqlı səfərlər təşkil olunur, müvafiq danışıqlar aparılır. Ölkəmizin turizm potensialının sürətli təbliği və ondan istifadə imkanlarının təşviq olunması üçün artıq 6 xarici ölkədə turizm nümayəndəliyi fəaliyyət göstərir. Görülmüş işlərin nəticəsidir ki, Azərbaycana gələn turistlərin sayında ilbəil artım müşahidə edirik. Misal olaraq qeyd edək ki, bu ilin yanvar-oktyabr aylarında ölkəmizə təşrif buyuran xarici ziyarətçilərin sayı 10,9 faiz artaraq təxminən 2 milyon 679 min nəfər olub. İlin sonunadək üç milyonuncu ziyarətçinin qarşılanmağı da proqnozlaşdırılır. Həmçinin ötən ilin oktyabr ayı ilə müqayisədə bu ilin eyni ayında ölkəyə gələn turistlərin sayında 25 faiz artım müşahidə edilib. Əlbəttə, son illərdə ayrı-ayrı bölgələrdə müasir tələblərə cavab verən istirahət mərkəzləri - otellərin inşası, yol-nəqliyyat infrastrukturunun yaradılması həm xarici, həm də yerli turistlərin bölgələrimizə marağını artırıb. Bu gün Dövlət Turizm Agentliyinin gördüyü işlər, Azərbaycan Turizm Bürosu, Qoruqları İdarəetmə Mərkəzi, Turizm informasiya mərkəzləri, Destinasiya Menecmenti təşkilatlarının (regionlarda turizmin inkişafı, təşviqi və idarə olunması), Azərbaycan Turizm Agentlikləri Assosiasiyası, Azərbaycan Hotel Assosiasiyası və Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının koordinasiyalı şəkildə fəaliyyəti ölkəmizin turizm imkanlarından səmərəli şəkildə istifadə edilməsi və dəstək göstərilməsi ümumi işin xeyrinə atılan ən uğurlu addımlardır. Ölkəmizin coğrafi mövqeyi, iqlim şəraiti, flora və faunasının zənginliyi, dəniz sahilində yerləşməsi, mədəni-tarixi irsi, yüksək qonaqpərvərlik ənənələri turizmin inkişafı üçün böyük perspektivlərə yol açan amillərdəndir. Odur ki, turizm sahəsində mövcud olan geniş imkanlar bir çox beynəlxalq təşkilatlarla bu sahədə əməkdaşlıq etməyimizi zəruri sayır. Dövlət Turizm Agentliyinin hazırda bir neçə beynəlxalq təşkilat - Ümumdünya Turizm Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatla əməkdaşlıq etməsi turizm imkanlarımızın genişlənməsi və səmərəliliyin artırılmasına təsir göstərən faktorlardandır. Həmçinin agentliyin media qurumları ilə yaratdığı sıx və operativ əlaqələr də turizm imkanlarımızın təbliği və inkişafına müəyyən töhfələr verir. Ancaq buna baxmayaraq, ölkəmizin turizm potensialı və ondan istifadə imkanının səs-sorağı daha böyük coğrafiyaya yayılmalı, müsbət dinamika daha da güclənməlidir. Çünki Azərbaycanın mövcud imkanları daha böyük inkişaf üçün zəmin yaradır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi 2016
2. Azərbaycanda Turizm.Statistika Komitəsinin nəşri 2019
3. Aras.O.N. Süleymanov E. Azərbaycan İqtisadiyyatı.s.412.Bakı.2016.
4. Sultanova H. Azərbaycan Respublikasinda Turizm Və Onun Inkişafi.s 475.Bakı 2015.
5. https://www.stat.gov.az/source/tourism

BÖLMƏ I

TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN TANIDILMASINDA TURİZMİN ROLU

Bahadur BİLALOV
Azərbaycan Turizm və Menecment Universiteti,
t.ü.f.d.,dosent
b.bilalov@atmu.edu.az

Bakı –Abşeron turizm bölgəsinin tarixi-mədəni ehtiyatları

Historical and cultural resources of Baku-Absheron tourism region

Историко-культурные ресурсы Баку-Апшеронского туристического региона

Xülasə: Tarixi-mədəni turizm ehtiyatları hər hansı bir ərazinin tarixi inkişafı zamanı yaradılan və turistlərin marağını cəlb edən maddi və mənəvi mədəniyyət abidələrinin məcmusu hesab edilir. Bu qrupa tarixi abidələr, tarixi memarlıq abidələri, müasir memarlıq abidələri, bənzərsiz mədəniyyət və idman obyektləri daxildir. Məqalədə Bakı-Abşeron turizm bölgəsində mövcud olan bu tip obyektlər haqqında məlumat verilir, onların turistlərin marağına səbəb olduqları vurğulanır.

Açar sözlər: turizm, turizm ehtiyatları, Bakı-Abşeron, tarixi-mədəni abidələr, memarlıq

Резюме: Историко-культурные туристические ресурсы считаются совокупностью материальных и духовных культурных памятников, созданных вовремя исторического развития и привлекающих внимание туристов. В эту группу входят: исторические памятники, историко-архитектурные памятники, современные архитектурные памятники, уникальные культурные и спортивные объекты. В статье даётся информация об объектах такого типа в Баку-Апшеронском туристическом регионе, отмечаются причины интереса туристов к ним.

Ключевые слова: туризм, туристические ресурсы, Баку-Апшерон, историко-культурные памятники, архитектура.

Abstract: Historical and cultural tourism resources are considered as a collection of material and spiritual monuments created during the historical development of any area and attracting tourists' interest. This group includes historical monuments, historical architectural monuments, modern architectural monuments, unique cultural and sports facilities. The article provides information about these types of facilities available in Baku-Absheron tourism area and emphasizes tourist’s interests towards them.

Keywords: tourism, tourism resources, Baku-Absheron, historical-cultural monuments, architecture

Tarixi-mədəni turizm ehtiyatları dedikdə hər hansı bir ərazinin tarixi inkişafı zamanı yaradılan və turistlərin marağını cəlb edən maddi və mənəvi mədəniyyət abidələrinin məcmusu başa düşülür. Bu qrupa tarixi abidələr, tarixi memarlıq abidələri, müasir memarlıq abidələri, bənzərsiz mədəniyyət və idman obyektləri daxildir.

Tarixi-mədəni potensial, xalqın maddi və mənəvi abidələri insanların dünyagörüşünün formalaşması, o cümlədən turist ehtiyaclarının ödənilməsi üçün çox vacibdir. İnkişaf etmiş ölkələrdə bu turizm resursu mənfəət üçün fəal istifadə olunur. İtaliya, Fransa və digər bir sıra ölkələr məhz tarixi-mədəni potensialdan məharətlə istifadə etməklə turizmdən əldə edilən gəlirlərini artırırlar. Təbii ki, buna həmin ölkələrdəki çoxlu sayda abidələrin olması, onların yüksək sənət dəyəri, yaxşı qorunması və turizm xidmətlərinin məharətlə təşkili kömək edir. Roma, Venesiya, Florensiya, Parisdəki dünya şöhrətli tarixi və mədəniyyət abidələri hər il yüz minlərlə turisti cəlb edir.

Mədəni - tarixi obyektlər iki hissəyə - maddi və mənəvi obyektlərə bölünür. Maddi obyektlər cəmiyyətin inkişafının hər bir tarixi mərhələsində istehsal vasitələrinin və digər maddi dəyərlərinin məcmusunu, mənəvi obyektlər isə cəmiyyətin təhsildə, elmdə, incəsənətdə, ədəbiyyatda, dövlət və ictimai həyatın təşkilində, məişətdə əldə etdiyi nailiyyətlərin məcmusunu əhatə edir.

Lakin keçmişin bütün mirası heç də mədəni-tarixi ehtiyatlara aid edilmir. Yalnız elmi cəhətdən öyrənilən və ictimai əhəmiyyət kəsb edərək bəlli bir sayda insanın rekreasiya ehtiyaclarını qarşılamaq üçün istifadə edilə biləcək obyekt kimi qiymətləndirilənlər buraya daxil edilir. Mədəni – tarixi obyektlər arasında əsas yer tarix və mədəniyyət abidələrinə aiddir. Xüsusiyyətlərindən asılı olaraq tarixi və mədəniyyət abidələri 5 əsas növə bölünür: tarix, arxeologiya, şəhərsalma və memarlıq, incəsənət, sənədli abidələr [9, s.106].

Tarix abidələri. Bunlara xalqın həyatındakı ən mühüm tarixi hadisələrlə, eləcə də elm və texnikanın inkişafı, xalqların mədəniyyəti və həyatı, dövlətin görkəmli şəxslərinin həyatı ilə əlaqəli binalar, tikililər, abidələr və obyektlər daxil edilir.

Arxeologiya abidələri. Bunlara qədim yaşayış yerləri, kurqanlar, qədim yaşayış məskənlərinin qalıqları, istehkamlar, istehsal sahələri, kanallar, yollar, qədim qəbir yerləri, daş heykəllər, qayaüstü rəsmlər, antik əşyalar, qədim yaşayış məntəqələrinin tarixi- mədəni təbəqələri aiddir.

Şəhərsalma və memarlıq abidələri. Bunlar üçün aşağıdakı obyektlər xarakterikdir: memarlıq ansamblları və kompleksləri, tarixi mərkəzlər, məhəllələr, meydanlar, küçələr, qədim şəhərlərin və digər yaşayış məntəqələrinin planlaşdırılması və inkişafının qalıqları, mülki, sənaye, hərbi, dini memarlıq, xalq memarlığı, həmçinin onlarla əlaqəli monumental, dekorativ-tətbiqi, bağçılıq-parksalma sənəti, şəhərətrafı landşaftlar.

İncəsənət abidələri. Bunlara monumental, təsviri, dekorativ-tətbiqi və digər incəsənət növlərinə aid əsərlər daxildir.

Sənədli abidələr. Bunlar dövlət orqanları və administrasiyasının aktları, digər yazılı və qrafik sənədlər, kino-foto sənədlər və səs yazıları, həmçinin qədim əlyazma və arxiv sənədləri, folklor və musiqi yazıları, nadir çap nəşrləridir.

Bakı-Abşeron Azərbaycanın ən zəngin turizm bölgələrindən biridir. Burada yerləşən "Qobustan" Dövlət Tarix-Bədii Qoruğu, "Atəşgah" Tarix-Memarlıq Qoruğu, "Yanardağ" Tarix-Təbiət Qoruğu kimi komplekslərimiz, palçıq vulkanları, Bakı kəndlərindəki qalalar, müqəddəs məkanlardan ibarət tarixi-mədəni irsimiz, müasir standartlara cavab verən otellər, sanatoriya-kurort mərkəzləri turistlərin Abşeron bölgəsinə olan marağını günbəgün artırır.

Dünyada ən qədim insan məskənlərindən biri hesab edilən "Qobustan dövlət tarixi-bədii" qoruğu Bakıdan 60 km cənub-qərbdə Böyük Qafqaz dağlarının Xəzər dənizi ilə qovuşan daşlı-kəsəkli ətəklərində yerləşir. "Qobustanın" mənşəyi və anlamı barədə fərqli fikirlər mövcuddur. Bəziləri onu "qobular diyarı", ucsuz-bucaqsız düzənlik, saysız-hesabsız təpələr arasında əmələ gəlmiş yarğanlar və dərələr kimi izah edir, digərləri isə onun "Gavistan" adlanmasını, bunun isə fars dilində "Öküzlər diyarı" olduğunu iddia edirlər.

Qoruq haqqında ilkin məlumatı 2011-ci ildən etibarən fəaliyyət göstərən qoruğun yeni ikimərtəbəli binasından əldə etmək mümkündür. Burada Qobustan petroqliflərinin rəsmlərini görmək mümkündür. Həlqəvari şəkildə düzülən rəsmlər canlı rəqsin hərəkətlərini həyatın sonsuz dövranını təccəssüm etdirir. Vestübüldə yerləşən ekran vasitəsilə muzeyin planı, sərgi zalları haqqında ümumi məlumat almaq olar.

"Qobustan YUNESKO-nun Ümumdünya Mədəni İrsi" adlanan zalda dünyanın bir sıra ölkələrində aşkar edilmiş qayaüstü rəsmlərdən nümunələr görmək olar. Bu ölkələr sırasında Hindistan, Avstraliya, İspaniya, Fransa, Norveçi qeyd edə bilərik. Zalın "Qobustan – Dünya İrsi sahəsi" adlı stendində Qobustanın Üst Paleolit dövründən başlayaraq Orta əsrlərə qədər insanların yaşayış məskəni olması barədə məlumat verilir [1, s.17].

"Qobustanın təbii mühiti" adlı zalda isə minilliklər ərzində Qobustanın ətraf-mühitinin necə dəyişdiyini görmək mümkündür. Arxeoloji qazıntılar nəticəsində qədim zamanlarda Qobustanda ardıc, püstə ağacları, tuqay meşələrinin mövcud olduğu sübuta yetirilmişdir. Zaman keçdikcə Xəzər dənizində duzluluq artmış, nəticədə Qobustanda yarımsəhra iqlimi bərqərar olmuşdur. Qobustanın faunası haqqında məlumatı yalnız arxeoloqlar tərəfindən aşkar edilən heyvan sümükləri və ibtidai insanlar tərəfindən yaradılan petroqliflər vasitəsilə əldə etmək mümkündür.

"Zamanda səyahət" adlı zal özünəməxsusluğu ilə seçilir. Burada odun əldə olunması, ox və kamanın kəşfi, müasir insanların 40000 il əvvəl Afrikadan Azərbaycana köçünü əks etdirən xəritə, palçıq vulkanlarının 3D sxemi, 90 milyon il öncə Xəzərdə mövcud olan ixtiozavr şəkli, daş dövrü-

nün müxtəlif mərhələlərinə aid edilən artefaktlar, yallı rəqsinin təsviri, Azərbaycanın Roma işğallarının sərhəddində yerləşdiyini sübut edən 84-92–ci illər arasında 12-ci legion zabitlərindən birinin yazdığı məşhur daş əlifba yer almaqdadır.

"Əsrlərdən gələn petroqliflər" adlı zalda quraşdırılan interaktiv qurğu vasitəsilə Qobustanın qayaüstü təsvirlərinin təkamülünü öyrənmək və mühüm məqamları görmək olar. Burada vəhşi öküz, başsız qadın, maral, "burunlu" delfin, ön hissəsində günəş təsviri olan iki qayıq, ritual rəqsin təsvir edildiyi petroqliflər verilmişdir.

Bundan əlavə muzeydə yer alan stendlər vasitəsilə petroqliflərin aşkar edilib öyrənilməsi, arxeoloqların gördüyü işlər, aparılan arxeoloji qazıntı işləri ilə tanış olmaq mümkündür. Muzeyin vitrinində Qobustan ərazisində tapılmış ibtidai insanlara aid olan bəzək əşyaları, əmək alətləri yer almaqdadır.

Son ekspozisiya zalında qoruğun kosmosdan çəkilmiş xəritəsi verilmişdir. Burada qoruq ərazisindəki Torağay vulkanı, Kənizə vulkanı, Muzey binası, Cingirdağ dağı, Böyükdaş dağı kimi obyektlərin yerini müəyyən etmək olar. Zalın tam mərkəzində isə Qobustan qayaüstü Tarixi-Bədii Landaşft kompleksinin üç ölçülü xəritəsini görmək olar [3, s.35]. Müasir avadanlıqlarla təchiz olunmuş muzey bu gün istər yerli, istərsə də xarici turistlərin diqqətini cəlb etməyi bacarır. Muzeydə stendlərin həm azərbaycan, həm ingilis dilində olması turistlərin işini daha da asanlaşdırır. Bundan əlavə muzeyin Azərbaycan, ingilis, rus, fransız, türk dillərində ekskursiyalar keçən peşəkar bələdçiləri də var.

Arxeoloji qazıntılar nəticəsində Abşeron yarımadasında aşkar edilmiş abidələrin əksəriyyətindən turizm məqsədilə istifadə etmək mümkündür. Abşeron yarımadası qədim insanın məskunlaşdığı ərazilərdən biri hesab edilir. Yarımadadan aşkar edilən petroqliflər üslub və məzmununa görə Qobustan petroqlifləri ilə oxşarlıq təşkil edir. Belə ki, Qala qəsəbəsinin yaxınlığındakı Dübəndi deyilən yerdə qayalar üzərində qədim insanların maldarlıq və ovçuluq həyatından söhbət açan rəsmlərə rast gəlmək olar. Petroqliflərdən başqa Abşeron ərazisində arxeoloji qazıntılar zamanı tunc dövrü və erkən dəmir dövrünə aid edilən kurqanlar aşkarlanmışdır. Mərdəkan, Şüvəlan qəsəbələrində aşkar edilən daşdan yonulmuş, üzərində süjetli rəsmlər çəkilmiş antropomorf fiqurlu qəbiristan kompleksləri Abşeronun nə qədər qədim yaşayış məskəni olduğunu bir daha sübut edir.

Bakı-Abşeron turizm bölgəsində tursitlərin diqqətini çəkən məkanlardan biri Qala kəndidir. Kəndin tarixi hissəsində aparılan arxeoloji tədqiqatlar zamanı Tunc dövründən başlayaraq XIX əsrin sonlarınadək aid olan bir çox artefakt aşkarlanmışdır. Bu tapıntılar sübut edir ki, 5 min il ərzində Qala kəndi ərazisində insanlar yaşamış və fəaliyyət göstərmişlər. 2008-ci ildə burada açıq səma altında Qala Arxeoloji Etnoqrafik Muzey Kompleksi yaradılmışdır. Kompleksin ərazisində əsasən Abşeron yarımadasında aşkar edilən arxeoloji, memarlıq abidələri toplanılıb və bərpa olunub. Ərazisi 1,2 hektar olan muzey kompleksində Azərbaycanın tarixi gözəlliklərini seyr etmək və daha yaxşı başa düşmək üçün əlverişli şərait vardır. Hazırda burada 228 arxeoloji və memarlıq abidə qorunur. Kompleksə "Arxeoloji-etnoqrafik muzey kompleksi", "Qala əntiq əşyalar muzeyi", "Qala qəsri" və "Tullantıdan sənətə muzeyi" fəaliyyət göstərir.

Abşeron bir çox yüzilliklər ərzində daimi müharibələr və siyasi sarsıntılar şəraitində inkişaf edib və bu da öz növbəsində yarımadanın memarlıq inkişafına güclü təsir göstərib. Abşeronun unikallığı onun memarlıq şəhərsalma irsini qoruyub saxlaması ilə müəyyən edilir. Hər bir tarixi dövr Abşeron memarlığında dərin izlər qoymuşdur. Qalalar, qəsrlər, yaşayış binaları, karvansaralar, məscidlər, hamamlar məhz bu izlərdəndir [2, s.73].

Abşeron ərazisində mövcud olan dini tikililər də turizm baxımından əhəmiyyətlidir. Abşeron kəndlərindəki dini tikililər böyük həcm və memarlıq xüsusiyyətinə malikdir. Hazırda mövcud olan dini binalar məzmununa görə daha ideoloji, memarlıq konstruktiv baxımdan daha sanballıdırlar. Suraxanı qəsəbəsində yerləşən "Atəşgah" məbədi belə tikililərin bir nümunəsidir. Neft və qaz yataqları ilə zəngin olan Suraxanıda üzə çıxan alovlar ulu babalarımızda atəşə, oda inam yaratmışdır. Hazırda mövcud olan Atəşgah məbədi isə 18-ci əsrdə 10 hindli və 3 fars tacirin vəsaiti hesabına tikilsə də Suraxanıda mövcud olan ilk zərdüşt məbədinin tikilmə tarixi eradan əvvəl 2-ci - 1 ci minilliyə gedib çıxır [6, s.35].

XIX əsrin əvvəllərində məbəd kompleksi hal-hazırdakı görünüşü əldə etmişdi. Bakıda ilk neft bumu nəticəsində əhəmiyyətini və alovlarını itirən məbəd 1975-ci ildə bərpa olunduqdan sonra ye-

nidən ziyarət üçün açılmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənablarının 2009-cu il 1 iyul tarixli 365 nömrəli Sərəncamına əsasən qoruğun konservasiya və bərpası üzrə layihə-smeta sənədlərinin hazırlanması, ərazidə arxeoloji tədqiqat işlərinin aparılması və "Atəşgah" tarixi muzey mərkəzinin yaradılması üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan vəsait ayrılmış, qoruğun ərazisində genişmiqyaslı bərpa-konservasiya, elmi tədqiqat, yenidənqurma və abadlaşdırma işləri aparılmış, abidənin daxilində, o cümlədən yeni inzibati binanın interyerinin və ekspozisiya sahəsinin bədii tərtibatının layihəsi hazırlanmışdır[8]. Məbəd sonuncu dəfə 2013-cü ildə restavrasiya edilmişdir. Qədim məbədin qalıqları üzərində tikilən "Atəşgah" məbədi müasir dövrdə xüsusilə Hindistan, İrandan gələn turistlərin böyük marağına səbəb olur.

İslam dininin yerli əhali tərəfindən qəbul olunmasından sonra Abşeron kəndlərində uyğun dini tikililərin inşasına başlanıldı. İslam dininin tələblərinə əsasən belə tikililərin yanında hamam və su mənbəyinin olması vacib sayılırdı. Bir qayda olaraq Abşeronda mövcud olan qalaların yaxınlığında məscidlərə rast gəlmək olar. Belə məscidlərə misal olaraq Mərdəkandakı dördkünc qalanın həyətində yerləşən "Tuba-şahi" məscidini misal göstərə bilərik. Məscidin üzərindəki kitabədən onun 1482-ci ildə Tuba şahın sifarişi ilə tikildiyi aydın olur. Məscidin daxili quruluşu Şirvanşahlar Kompleksinin həyətindəki məscid və sərdabəyə bənzəyir. Onların əsasını xaçşəkili gümbəzli, giriş qaplarında, otaqların içərisində cüzi dəyişikliklər edilən dəqiq plan təşkil edir [3].

Nardaran kəndindəki Hacı Baxış məscidi XVII əsr Abşeronun ən səciyyəvi tikililərindən hesab olunur. Abidənin üzərində olan kitabədə onun ustad-memar Muradəli tərəfindən 1662-1663-cü illərdə tikildiyi qeyd olunub. Plana əsasən məscid iki hissədən ibarətdir: ortada dörd sütunlu kvadratşəkilli ibadət zalı və ona bitişik taxçalı baştağ girişli otaqdan ibarətdir. İbadət zalı günbəz örtüklə örtülmüşdür.

Tarixi əhəmiyyətə malik olan məscidlər sırasında Qoşa minarəli məscidin adını çəkmək olar. Məscid Bakı milyonçusu Murtuza Muxtarov tərəfindən 1908-ci ildə inşa etdirilib. Ona görə də, xalq arasında bu ibadət evinə "Murtuza Muxtarov məscidi" deyirlər. Abşeron kəndlərindəki digər məscidlərdən fərqli olaraq məscidin iki minarəsi vardır. Hər iki minarənin hündürlüyü də 47 metrdir.

Abşeron yarımadasının Məmmədli qəsəbəsində yerləşən "Yanar dağ" dünyada unikallığı ilə fərqlənən ümumbəşəri dəyərə malik olan təbii möcüzələrdən biri hesab edilir. Məlumatlara görə Yanar dağın əks tərəfində yanan üç təpə olmuş, sonralar təpələrdə alov sönmüşdür. Bakının əsas rəmzi hesab olunan dəniz simvolu və üç yanar alov dili də Yanar dağın şərəfinə qəbul olunmuşdur. Bir çox mənbələrdə Xəzər dənizi sahillərində gecə və gündüz yanan torpaqla bağlı məlumatlar verilmiş, ərazi isə Atəş-i Baquan adlandırılmışdır.

Yanar dağ haqqında ilk yazılı mənbə eramızın X əsrinə təsadüf edir. Bizanslı alim Paniyli Pirsk Bakını təsvir edərkən "sualtı qayadan qalxan od"-dan bəhs edir. Bundan başqa, ərəb alim və səyyahları Əl Məsudi, Əbu-Duləf-əl Yənbu, Əl-Farisi Əl–İstəxri, Əbdürəşid-Əl Bakuvinin əsərlərində Abşeron yarımadasında olan yanar dağlar haqqında məlumatlara rast gəlinir[5, s.254]. 2007-ci ildə Yanar dağın ərazisi dövlət tarix-mədəniyyət və təbiət qoruğu elan olunmuşdur. 2017-ci il dekabrın 29-da yenidən tikilən Mehdiabad-Digah-Məmmədli avtomobil yolunun açılışında iştirak edən dövlət başçısı "Yanar dağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun vəziyyətinin ölkəmizin hazırki inkişaf səviyyəsinə uyğun gəlmədiyini bildirərək burada təcili olaraq yenidənqurma işlərinin başlanılmasına göstəriş vermişdir. Qoruğun fəaliyyəti Nazirlər Kabinetinin 2018-ci il 7 iyun tarixli müvafiq qərarına əsasən Dövlət Turizm Agentliyi tərəfindən tənzimlənir. Qoruğun bərpası Dövlət Turizm Agentliyinə həvalə olunmuşdur. Aparılan yenidənqurma işləri çərçivəsində ümumi sahəsi 64,55 hektar olan qoruğun ərazisində 3 tematik zonadan ibarət muzey, açıq hava konsertləri üçün nəzərdə tutulan 500 nəfərlik amfiteatr, sənətkar emalatxanaları və mağazalar, yerli sənətkarlar tərəfindən keramika, şüşə, taxta və parça kimi təbii materiallardan hazırlanan suvenirlərin satışı məntəqəsi, parkinq turistlərin ixtiyarına verilib.

2007-ci ildən qoruq statusuna malik olan Yanardağda, həmçinin ərazidə tapılan, yerli əhali tərəfindən istifadə edilmiş qədim daşlar və sənətkarlıq nümunələrinin, qaval daşının nümayiş etdirildiyi açıq hava muzeyi yaradılıb. Bundan əlavə, qoruq ərazisində yerli gənc rəssamların əsərlərinin nümayiş olunduğu kafe, əyləncə zonası, uşaqlar üçün oyun meydançası fəaliyyət göstərir. Fiziki məhdudiyyətli şəxslərin Yanardağ alovunun ətrafına enməsi üçün xüsusi yol çəkilib. Bütövlükdə

qoruq ərazisi abadlaşdırılaraq müxtəlif ağaclar əkilib. Qoruğun tərkibində Yanardağ – əbədiyaşar alov təbii abidəsi ilə yanaşı, digər maddi-mədəni irs nümunələri və təbiət abidələri də var. Bu abidələrə "Qurd yuvası" adlanan ilkin ibtidai icma dövrünə aid mağaralar, çoxəsrlik tarixə malik və qədim sanduqələrlə zəngin iki qəbiristanlıq, müalicəvi kükürdlü su bulaqları, hələ də aktiv fəaliyyətdə olan Qırməki palçıq vulkanı, Əlidaşı piri, Kardaşı iri təbii qaya daşları, Qırməki vadisi, qədim kurqan aiddir. Dövlətimizin başçısının imzaladığı Sərəncama əsasən "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması və ərazisində yeni turizm infrastrukturunun yaradılması mövcud olan tarixi, dini, mədəni abidələrin bərpası istiqamətində görülən işlərin ardıcıl xarakter aldığını nümayiş etdirir. "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması turistləri cəlb etmək baxımından mühüm rol oynayır.

Bakı-Abşeron turizm bölgəsindəki tarixi-mədəni ehtiyatlar içərisində "İçərişəhər" özünəməxsus yer tutur. 22 hektarlıq əraziyə malik olan İçərişəhərdə 400-dən çox tarix-memarlıq abidəsi cəmlənmişdir. Bunlarda 4-ü dünya əhəmiyyətli, 28-i isə ölkə əhəmiyyətinə malikdir. İçərişəhərdə yerləşən məşhur memarlıq abidələri Qız qalası və Şirvanşahlar Saray Kompleksi Azərbaycan memarlığının inciləri hesab edilirlər. Bunlardan başqa qoruq ərazisində məscidlər, karvansaralar, hamamlar, yaşayış evləri yerləşir, bir neçə muzey, səfirlik, otel, ticarət obyektləri, kafe və restoranlar fəaliyyət göstərir. 1977-ci ildən tarix-memarlıq qoruğu elan edilən İçərişəhər, 2000-ci ildən Qız qalası və Şirvanşahlar saray kompleksi ilə birlikdə YUNESKO-nun Ümumdünya İrsi Siyahısına daxil edilmişdir. Şirvanşahlar saray kompleksinə saraydan başqa Divanxana, Şirvanşahlar türbəsi, Şah məscidi, Saray hamamı, ovdan, saray alimi Seyid Yəhya Bakuvinin türbəsi və Keyqubad məscidinin qalıqları daxildir. 2001-ci ildə Şirvanşahlar sarayı Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən dünya əhəmiyyətli memarlıq abidəsi kimi qeydiyyata alınmışdır. Qız qalası Bakının, eləcə də Abşeronun ən möhtəşəm və sirli memarlıq abidəsidir. Uca qüllə şəkilli bu nadir abidənin hündürlüyü 28 m, diametri birinci mərtəbədə 16,5 m-dir. Birinci mərtəbədə divarın qalınlığı 5 m-ə çatır. Qalanın daxili hissəsi 8 mərtəbəyə bölünür. Hər mərtəbə yonma daşlarla tikilmiş, günbəz formalı tavanla örtülmüşdür. Qala 1964-cü ildən muzey kimi fəaliyyət göstərməyə başlamışdır [4, s.95].

Ötən əsrin 70-ci illərindən başlayaraq Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə muzey quruculuğu, onun geniş şəbəkəsinin yaradılması və inkişafı üçün əməli addımlar atılmışdır. Paytaxt Bakıda xalqımızın böyük şəxsiyyətləri – Üzeyir Hacıbəylinin, Hüseyn Cavidin, Səməd Vurğunun, Cəfər Cabbarlının, Bülbülün, Məmməd Səid Ordubadinin, Nəriman Nərimanovun, Cəlil Məmmədquluzadənin, Niyazinin, Abdulla Şaiqin, Əzim Əzimzadənin, Mstislav və Leopold Rostropoviçlərin, Əmircan qəsəbəsində Səttar Bəhlulzdənin ev muzeyləri yaradılmışdır.

Muzeylərdən söz düşmüşkən, Bakı şəhərində fəaliyyət göstərən muzeylərin yerləşdiyi binalar tarixi əhəmiyyət kəsb edir. Belə muzeylərdən 1920-ci ildə təməli qoyulmuş "Milli Azərbaycan Tarix Muzeyi", "Cəfər Cabbarlı adına Azərbaycan dövlət Teatr Muzeyi", "Rüstəm Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyi", "Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi"ni misal çəkə bilərik.

Məlum olduğu kimi Bakıda fəaliyyət göstərən Kukla teatrı, Opera və Balet teatrı, Musiqili Komediya teatrı da tarixi binalarda yerləşirlər. Bakı neftxudası Murtuza Muxtarovun malikanəsi hazırda "Səadət sarayı" kimi fəaliyyət göstərir və öz əsrarəngiz memerlıq üslubu ilə insanları heyran edir. Oktyabr inqilabından sonra bina Əli Bayramov adına Qadın klubu, daha sonra isə Şirvanşahlar muzeyi kimi fəaliyyət göstərib. Daha sonralar uzun illər Nigah evi kimi istifadə olunmuşdur. Möhtəşəmliyi ilə seçilən digər bir bina "İsmailiyyə sarayı"dır. Digər neftxuda Musa Nağıyev tərəfindən oğlu İsmayılın şərəfinə Qotik üslubda inşa etdirilmiş bu möhtəşəm binada hazırda AMEA-nın Rəyasət heyəti yerləşir [7].

Bakı-Abşeron turizm mərkəzində müxtəlif dövrlərdə ucaldılmış abidələr də ölkəyə gələn turistlərin marağına səbəb olur. Bunlara misal olaraq Ümummilli lider Heydər Əliyevin abidəsi, Nizami Gəncəvinin abidəsi, Səməd Vurğunun abidəsi, Şah İsmayıl Xətainin abidəsi, Cəfər Cabbarlının abidəsi, Bəhram Gurun abidəsi, Mirzə Ələkbəır Sabirin abidəsi, Mirzə Fətəli Axundovun abidəsi, Nəriman Nərimanovun abidəsi, Aleksey Sergeyeviç Puşkinin abidəsi, Rixard Zorgenin abidəsi, Atatürkün abidəsi və digərlərini göstərə bilərik.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış " İnkişaf Konsepsiyasına əsaslanan "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" milli mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamı olaraq, daşınmaz tarix və mədəniyyət abidələrinin, tarixi ərazilərin, tarix və mədəniyyət qoruqlarının mühafizəsinin müasir səviyyədə təşkilinə, daşınmaz mədəni irsin bərpası, öyrənilməsi, təbliği və inkişafı üzrə tədbirlərin həyata keçirilməsinə yönəldilmişdir.

Beləliklə, Bakı-Abşeron turizm bölgəsi zəngin tarixi-mədəni ehtiyatlara malikdir. Abşeron ərazisində yerləşən "İçərişəhər" Tarix-Memarlıq qoruğu, "Atəşgah" Tarix-Memarlıq Qoruğu, "Yanardağ" Tarix-Təbiət Qoruğu, "Qobustan dövlət tarixi-bədii" Qoruğu kimi komplekslərimiz, palçıq vulkanları, Bakı kəndlərindəki müqəddəs məkanlar turistlərin bu bölgəyə olan marağını günbəgün artırır.

ƏDƏBİYYAT

1. Akif Əlizadənin ümumi redaktəsi ilə "Azərbaycanın təbiət və memarlıq möcüzələri" – Bakı, 2015
2. Fətullayev- Fiqarov Ş. "Abşeron memarlığı" - Bakı,2013
3. Gülçöhrə Məmmədova, Hacıyeva Səbinə "Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı" I cild – Bakı, 2013
4. Gülçöhrə Məmmədova, Zahidə Məmmədova "Orta əsrlər memarlığı (VIII-XIV əsrlər)" II cild - Bakı, 2013
5. Gülçöhrə Məmmədova, Əmənzadə Rayihə "Azərbaycan memarlığı XV-XIX əsrin əvvəllərində" III Cild – Bakı, 2013
6. Qarabağlı A.B. "Qədim və İndiki Abşerona Səyahət"- Bakı Mürtəcim 2006
7. Yeganə Eyvazova "Muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istismarı" - Bakı 2010
8. "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"
9. Мироненко Н.С., Твердохлебов И.Т. Рекреационная география. - М.: МГУ, 2001.

Seyidəli MƏMMƏDLİ
Azərbaycan Turizm və Menecment Universiteti,
p.e.n., dosent
seyidelimh@gmail.com

Quba rayonundakı tarixi abidələrin turizmin inkişafında rolu

Role of historical monuments in the development of tourism in Guba region

Роль исторических памятников в развитии туризма в Губинском районе

Xülasə: Quba rayonu tarixi abidələr baxımından zəngin olan turizm bölgəsidir. Rayonda 134 tarixi arxeoloji abidə mövcuddur. Xınalıq kəndində IX əsrə aid Atəşpərəstlik məbədi, Ağbil kəndində XVI əsrə aid türbələr və kurqanlar, eramızdan əvvəl I minilliyə aid olan Zizik kəndində Gültəpə, Çarıqtəpə və Pirtəpə kurqanları, Quba şəhərində XIX əsrə aid Səkinəxanım, Cümə məscidləri, Züxur kəndində Yeddilər qalası, Söhüb kəndində qədim ala və yeraltı yol, bütövlükdə Xınalıq, Haput, Qrız, Buduq kəndləri tarixin və təbiətin yaratdığı özünəməxsus etnoqrafiya muzeyini xatırladır. Rayon ərazisində ziyarətgahlar, Quba Soyqırımı Memorial Kompleksi mövcud özünəməxsus rol oynayır.

Açar sözlər: tarixi abidələr, qalalar, ziyarətgahlar, soyqırımı, turizm obyektləri.

Резюме: Губинский район является богатым туристическим регионом, с точки зрения исторических памятников. В районе существуют 134 исторических археологических памятников. В селе Хыналыг есть храм огнепоклонников, относящийся к IX веку, в селе Агбиль – гробницы и курганы, относящиеся к XVI веку, в селе Зизик- курганы Гюльтепе, Чарыгтепе и Пиртепе, относящиеся к I тысячелетию до н. э., в городе Губа – Мечети «Сакинаханым», «Джума», относящиеся к XIX веку, в

селе Зухур – крепость «Еддилер», в селе Сохиб – древняя крепость и подземная дорога и т.д. В целом, Хыналыг, Хапут, Грыз, Будуг напоминают своеобразный этнографический музей, созданный историей и природой. Существующие на территории района святилища и Мемориальный Комплекс Губинского Геноцида играют специфическую роль.

Ключевые слова: исторические памятники, крепости, святилища, геноцид, туристические объекты.

Abstract: The Guba region is a rich tourism destination with wealth of historical monuments. There are 134 historical archaeological sites in the region. Fireworks temple of the ninth century in Khinalig village, tombs and mounds of the 16th century in the village of Agbil, Gultapa, Charigtapa and Pirtapa mounds in Zizik village of the first millennium BC, 19th-century Sakinakhan, Juma mosques in Guba, Yeddilar galası in the village of Zuhur, An ancient pickup and underground road in the village of Sohoub, The Khinalig, Haput, Gryz and Budug villages are reminiscent of a unique ethnographic museum created by history and nature. Sanctuaries to the region, the Guba Genocide Memorial Complex play a unique role.

Key words: historical monuments, fortresses, sanctuaries, genocide, tourism facilities.

Quba rayonu nəinki öz coğrafi şəraiti və unikal təbiəti ilə fərqlənən, o cümlədən zəngin tarixi abidələri və qalaları ilə diqqəti cəlb edən bölgələrimizdəndir. Azərbaycanda turzimin inkişafında mühüm rol oynayan və kökləri çox qədimlərə gedib çıxan bölgənin bir sıra əhəmiyyətli abidələri burada insanların çox uzaq tarixdən bəri yaşadığını sübuta yetirən göstəricidir.

Tarixi abidələr və etnoqrafik mənbələrlə zəngin olan Qubada 134 tarixi arxeoloji abidə mövcuddur. Avropanın ən uca dağ kəndi sayılan Xınalıq kəndində IX əsrə aid Atəşpərəstlər məbədi, Ağbil kəndində türbələr və kurqanlar, kəndin ətrafında Pirtəpələr yaşayış yeri, eramızdan əvvəl I minilliyə, tunc və dəmir dövrlərinə aid olan Zizik kəndində Gültəpə, Çarıqtəpə və Pirtəpə kurqanları, Quba şəhərində Səkinəxanım, Hacı Cəfər və Cümə məscidləri, gümbəzli hamam, rayonun Zıxır kəndində Yeddilər qalası, Digah kəndində Salmantəpə, İbrahimxəliltəpə, İlanlıdərə qədim yaşayış məskənləri, Quba şəhərinin ətrafında Sandıqtəpə, Çartəpə kəndində Qayatəpə qədim yaşayış məskəni, Rustov kəndində Günaytəpə, Söhüb kəndində qədim qala və yeraltı yol, bundan başqa rayon ərazisində çoxlu sayda məscid və türbələr, arxeoloji abidələr, qüllələr və müxtəlif tarixi abidələr mövcuddur ki, bu da Qubanın qədim qalalarla zəngin olduğunu göstərir.

Qubanın Şahdağ, Tufan dağı, Baba dağı, Qiblə dağı kimi yüksək dağ silsilələri arasında yerləşən Xınalıq, Hapıt, Qrız, Buduq kimi kəndləri tarixin və təbiətin yaratdığı özünəməxsus etnoqrafiya muzeyini xatırladır. Bu ərazidə məskunlaşan və tarixi-etnoqrafik ədəbiyyatda "Şahdağ xalqları" kimi ümumiləşdirilən xınalıqlar, qrızlar, buduqlar, haputlar dünyanin etnik xəritəsində yalnız Azərbaycanda qeydə alınmışlar. Özlərinə məxsus etnoqrafik xüsusiyyətləri ilə seçilən, turistlərin böyük marağına səbəb olan bu etnik qruplar Azərbaycanın qədim sakinlərindən sayılırlar. Hər bir xalqın mənəvi mədəniyyətinin bünövrəsini təşkil edən müqəddəs yerlər (ziyarətgahlar, ocaqlar, pirlər və s.) millətin mənəvi kimliyini ortaya qoyur.

Əsrlər öncə torpaqlarımızda yaşayan soydaşlarımızın bizə miras qoyduqları bu qiymətli dəlilləri araşdırmaq maddi və mənəvi mədəniyyət tariximizi zənginləşdirmək baxımından mühüm elmi əhəmiyyət kəsb edir. Bu qədim sitayiş yerləri xalqın tarixinin izlərini yaşadan və keçmişlə bu gün arasında körpü yaradan mənəvi sərvətdir. Azərbaycanın bütün bölgələri kimi, Quba rayonu ərazisində Şahdağ ətrafında yerləşən Xınalıq, Qrız, Hapıt, Buduq kəndləri də müxtəlif pirlər, ziyarətgahlarla zəngindir. Şahdağ kəndlərindəki pirlərdə də bütün Azərbaycan ərazisində olduğu kimi İslamdan öncəki inancların izləri özünü açıq-aşkar biruzə verir. Eyni zamanda bu pir inancları islami düşüncə tərzinə də uyğunlaşdırılmışdır.

Rayon ərazisindəki Xınalıq atəşgahı, Qırx Abdal piri, Küləxana piri, Babadilim piri insanların oda, suya, dağa, daşa sitayişinin izlərini daşıyan təbii məbədlər sayılır.

Rayon ərazisində yerləşən - "Şıx İsrafil baba", "Şıxsalburuz baba", "Cabbar baba", ''Xıdır Nəbi" pirləri sakinlərlə əcdadlarının adı ilə bağlı olan şəxslərinin qəbir abidələridir ki, hazırda həmin yerlər müqəddəs inanc yerləri kimi mövcuddur.

Qubanın Qızıl qaya dağı yaxınlığında yerləşən və təbii yanar qazın çıxdığı ərazi yerli əhali tərəfindən müqəddəs "Xınalıq atəşgahı" kimi qəbul edilən təbii məbədlərdən biridir. Adətən ailə qurmaq, övlad sahibi olmaq diləyi ilə Xınalıq atəşgahına gələn yerli əhali qurbanlıq heyvanı kənddə

kəsdirərək onun ətini bu müqəddəs ocağa gətirib yerdən çıxan alov dilimləri üzərində bişirirdilər və ziyarətə gələnlərə nəzir kimi paylayırdılar. Xınalıq atəşgahında icra olunan ayinlər qədim türk inanclar sisteminin izlərini qoruyub saxlamışdır.

Rayondakı ziyarətgahlardan biri də Xınalıq kəndinin yaxınlığında yerləşən "Qırx Abdal" adlı su piridir. İri qaya altinda bir neçə bulağın olduğu və qayadan damcılayan su damlalarının da bəzən nazik bulağa çevrildiyi "Qırx Abdal" ziyarətgahı su inancı ilə bağlı pirdir. Uşaq diləyi ilə bura gələn sonsuz qadınlar budaqlardan beşik hazırlayar və qaya çıxıntılarından asardılar. Daha sonra da pirə nəzir kimi gətirdikləri halvanı paylayardılar. Bundan başqa, Xınalıq kəndi yaxınlığında dağ yarğanından çıxan Alxas bulağının suyu da kənd əhalisi tərəfindən müqəddəs hesab edilirdi. Kənd əhalisinin söylədiyinə görə, təqribən aprel ayından başlayaraq bu 27 yarğandan su çıxmağa başlayır və payızın axırında kəsilir. Övlad işəyən qadın və ya hər hansı bir niyyət tutan adam yazın ilk günlərində dağ yarğanından açılan suyun ilk şahidi olardısa, muradına çatacağına inanırdı.

"Cabbar baba" piri Xınalıq qəbiristanlığında daş hasara alınmış ərazidə yerləşir. Kəndin ən güclü və qədim piri sayılan "Cabbar baba" pirinin həyətində əhali niyyət edərək öküz buynuzu formalı taxta dirəklərə müxtəlif əski parçaları bağlayır, qurban kəsilən qoyunu məhz bu dirəklərdən asardılar. Hazırda bu taxta kürələr çıxarılaraq kənara qoyulsa da əhali yenə də onları müqəddəs hesab edərək üzərinə müxtəlif əski parçaları bağlayaraq niyyət edir və qurbanlıqlarını buradakı sal daşın üzərində doğrayırlar.

Xınalıq ərazisində yerlişən "Xıdır Nəbi" piri də kökləri ilkin inanclar sisteminə söykənən qədim pirlərdən biridir. Bu pir xalq inamına görə xəstələrə (xüsusilə də dişi ağrısına) və səfərə gedənlərə kömək olurdu.

Xınalıq kəndində yerləşən ziyarətgahlardan olan Möhüc baba piri əsasən xəstə uşaqların gətirildiyi ziyarətgahdır. İnama görə özündən getməsi olan uşaqlar bu pirdə bir neçə saat yatırılmaqla sağalırlar. Ümumiyyətlə, xalq arasında özündən getməsi olan uşaqlar üçün "ələm vurub" ifadəsi işlədirlər və ələm ruhunun olduğuna inanırlar.

Şıxşalburuz baba piri Xınalıq kəndinin qədim pirlərindən sayilir. Bura vaxtilə mollaxana və ya mədrəsə olmuşdur. Mədrəsə sahibi olan Şalburuz baba mədrəsənin içəri otağında yerləşən qaranlıq hücrədə zikr edərmiş. Şıxşalburuz babaya ehtiram əlaməti olaraq onu öz hücrəsində dəfn edərək ağ daşdan qəbir daşı qoymuşlar. Kənd əhalisi bu ibadətgaha ən çox orucluq ayında namaza yığılırlar.

Şahdağ xalqlarının inanclar sistemində dağ inancı da mühüm yer tutur. Dağlar əhatəsində yaşayan Şahdağ əhalisi bu dağları mifikləşdirərək Tufan dağını, Qiblə dağını, Baba dağını müqəddəsləşdirmiş, onlarla bağlı müxtəlif əfsanələr yaratmışlar.

Babadağ ziyarətgah yeridir və bura "Həzrətbaba piri" də adlanır. Baba dağının zirvəsində olan oyuğun altında xalq arasındakı rəvayətə görə Baba adlı müqəddəsin qəbri var. Dişi ağrıyan, övladsız qadınlar və s. bu piri ziyarət edirlər. Baba dağını yeddi dəfə ziyarət etmək əhalinin inamına görə Həcc ziyarətinə bərabərdir. Bu pirə ətraf rayonlardan - Quba, Qusar, Xaçmaz. Dəvəçi, İsmayıllı, Şamaxı, Ağsu rayonlarından da ziyarətə gəlirlər

İnama görə Baba dağı canlı bir varlıqdır və Baba dağından götürülən hər bir daş parçası müqəddəs hesab edilir. "Baba daşı" adlanan belə daşlar bərəkət, məhsuldarlıq simvolu kimi evlərdə saxlanır. Şahdağ etnik qruplarından biri olan qrızlarda toy ərəfəsində bəyin yeddi atlı ilə pirə gedib onun başına dolanması adəti mövcuddur. Məlumdur ki, qədim Azərbaycan sakinləri atı günəşin yerdəki simvollarından ən başlıcası kimi müqəddəsləşdirmişlər. Strabon yazırdı ki, atı massaqetlər ən böyük sürətlə hərəkət edən canlı hesab edərək onun göylərə daha tez çatacağına inanır və Günəş tanrısına at qurban kəsirdilər. Şahdağ etnik qrupuna aid olan etnoslar da atı hər zaman müqəddəs hesab etmişlər. Hətta Xınalıq kənd sakinlərinin söylədiklərinə görə bu ərazidə bəzən atlar ehtiram əlaməti olaraq dəfn edilmişdilər.

Qubanın Hapıt kəndində olan Babadilim piri X-XI əsrdə inşa edildiyi və sufilik mərkəzi kimi fəaliyyət göstərdiyi ehtimal olunur.

Quba rayonunda ehtiramla ziyarət edilən müqəddəs yerlərdən biri də Ağbil piridir. Bu pir Ağbil kəndinin ərazisindəki qəbristanlıqda yerləşir.

Quba Soyqırımı Memorial Kompleksi – 1918-ci ildə bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olan on minlərlə azərbaycanlının xatirəsinə ucaldılıb.

30 dekabr 2009-cu ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddialarını və təcavüz siyasətini, qanlı cinayətlərini dünya ictimaiyyətinə çatdırmaq, gələcək nəsillərin milli yaddaşını qorumaq və soyqırım qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədi ilə Quba şəhərində "Soyqırım Memorial Kompleksi"nin yaradılması haqqında sərəncam imzalayıb. 2013-cü il sentyabrın 18-də Quba Soyqırımı Memorial Kompleksinin açılışı olub.

Abidə-muzeyin ekspozisiyasında 1918-ci il mart-iyul aylarında Bakı quberniyasının 5 qəzasında – Bakı, Şamaxı, Quba, Cavad və Göyçayda müsəlman əhalinin soyqırımı tarixi öz əksini tapıb. 19 bölmədən ibarət muzey ekspozisiyası Azərbaycan, rus və ingilis dillərində təqdim olunur. Ekspozisiya 1918-ci il hadisələri ərəfəsində dinc Quba həyatını əks etdirən foto-şəkillərlə başlayır. Burada qədim Quba həyatını, dinc, yanaşı yaşayan azərbaycanlı, ləzgi, yəhudi və digər xalqların nümayəndələrini, müxtəlif sosial təbəqələrə aid insanları əks etdirən şəkillər sərgilənir

Ekspozisiya unikal arxiv sənədləri ilə zəngindir. Burada 1918-ci ilin qanlı hadisələrindən sonra cinayəti tədqiq etmək üçün Azərbaycan Xalq Cümhuriyyətinin Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqda qərarı və komissiyanın sənədləri, 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini əks etdirən xüsusi məzmunlu xəritə, Heydər Əliyevin soyqırım haqqında sərəncamı təqdim olunur.

Müxtəlif qəzalarda baş vermiş soyqırımlar zamanı kütləvi şəkildə xüsusi qəddarlıqla öldürülmüş insanların əksəriyyəti yandırılıb, dənizə, quyulara atılıb və bu səbəbdən onları dəfn etmək mümkün olmayıb. Zalın mərkəzində belə qurbanların xatirəsinə qara mərmər daş ucaldılıb.

Muzey Kompleksdə məlumat mərkəzi, zəngin kitabxana, kompüterlərlə təmin olunmuş oxu zalı fəaliyyət göstərir. Kompleksin ərazisində Azərbaycanın Respublikasının Dövlət Bayrağı ucaldılıb. Geniş həyətyanı sahədə Qubanın rəmzi olan alma ağaclarından ibarət bağ salınıb.

Muzeydə hər bir qəzanın tarixi faciəsi ayrı-ayrı bölmələrdə zəngin foto, arxiv sənədləri, statistik məlumat və diaqramlarla verilir. Bütün informasiya üç dildə, hər bölmənin qarşısında quraşdırılan elektron məlumat bazasında öz əksini tapıb.

Soyqırımı əks etdirən sənədli film zalda davamlı olaraq nümayiş etdirilir. Ekspozisiyanı müasir incəsənət nümunəsi – nəhəng metal lövhə üzərində əks olunmuş insan sifətləri tamamlayır. Bu, tarixin qan yaddaşına hopan hadisələrə bu günün baxışı, çağdaş dövrün münasibəti kimi dəyərləndirilir. Zalın çıxışı 1918-ci ildə Qafqaz İslam Ordusu tərəfindən Bakının azad edilməsini əks etdirən foto-şəkillərlə tamamlanır. Ziyarətgaha çevrilmiş memoriala hər gün yüzlərlə turist baş çəkir və tarixin amansızlığı olan soyqırımdan xəbər tuturlar.

Beləliklə, Quba öz coğrafi şəraiti, iqlimi, flora və faunası ilə fərqləndiyi kimi zəngin tarixi abidələri, qalaları, pirləri, ziyarətgahları ilə də fərqlənən əsas turizm bölgələrindən biridir. Böyük tarixi keçmişə malik bu rayon hələ də turizmin inkişafı üçün öz töhfələrini tam verə bilməmişdir. Fikrimizcə, bölgədə turizmin digər növləri ilə yanaşı dini turizmin də inkişafı üçün kifayət qədər maddi-mədəni sərvətlər mövcuddur.

ƏDƏBİYYAT

1. Abbasqulu ağa Bakıxanov. Gülüstanı-İrəm. Bakı, 1951.
2. B.Bilalov, Gülalıyev Ç. Turizmin əsasları. Dərslik. Bakı, 2015.
3. Qeybullayev Q. Elmi publisistik məqalələr. Bakı, 2002.
4. İsmayılova E. Turizm və mədəni turizm. Bakı, 2017.
5. Seyidov M. Azərbaycanda mifik təsəvvürün qaynaqları. Bakı, 1983.
6. Sulatnova H. Azərbaycan respublikasında turizm və onun inkişafı. Bakı, 2015.

Minaxanım ƏSƏDOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
t.ü.e.d.,prof.
minaxanim.asadli@mail.ru

Memorial muzeylərdə müasir texnologiyadan istifadə

Использование современных технологий в мемориальных музеях

The use of modern technology in memorial museums

Xülasə: Məqalədə memorial muzeylərin yaradılmasının əhəmiyyəti, fərqli cəhətləri izah olunur. Ölkəmizdə fəaliyyət göstərən muzeylərlə yanaşı bölgələrdə də mövcud olan xatirə muzeylərinin işi təhlil edilir. Muzeylərdə mədəni xidmətin səviyyəsini yaxşılaşdırmaq üçün təkliflər verilir. Muzeylərə müasir texnologiyaların tətbiqi təhlil edilir.
Açar sözlər: muzey, memorial, texnologiya, internet, kompüter.

Резюме: В статье рассматривается важность создания мемориальных музеев и их отличительные черты. Наряду с действующими в нашей стране музеев, анализируется также деятельность региональных мемориальных музеев, рассматривается их важность в сфере туризма. Анализируется использование современных технологий в музеях.
Ключевые слова: музей, мемориал, технологии, интернет, компьютер.

Abstract: Importance of memorial museums creation and their distinguishing features are determined in the article. Along with the working museums in the country memorable museums of the regions are also been researched. It is analyzed significance of these objects in tourism industry. The use of modern technology in museums is analyzed.
Keywords: memorial, technology, internet, computer

Respublikamızın əldə etdiyi müvəffəqiyyətlər həyatın hər bir sahəsində - ictimai-siyasi, sosial-iqtisadi, mədəni-quruculuq fəaliyyətində özünü göstərir. Belə yüksəliş muzeyşünaslıq sahəsində də aşkar görünməkdədir. Azərbaycan muzeyşünaslığı, muzey işinin təşkili, muzeylər şəbəkəsinin surətli inkişafi dövlətin yaxından qayğısı sayəsində ümumdünya muzeylər səviyyəsinə yüksəlmə imkanına malik olmuşdur [1]. Bu yüksəlişə Azərbaycan xalqının ümummilli lideri H.Ə.Əliyevin müdrik siyasəti, tarixi şəxsiyyətlərimiz, ədəbiyyat və incəsənət xadimlərimiz, xalqımızın ləyaqətli övladlarının adı ilə bağlı muzeylərin, abidələrin, xatirə komplekslərinin açılması barədə sərəncamları və tarixi qərarları [3; 18], Prezident İ.H.Əliyevin [2] və YUNESKO, İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətləri imkan yaratmışdır [4].

Muzey işinə dövlət tərəfindən artan qayğı və diqqət sayəsində son zamanlar respublikada muzeylər şəbəkəsi genişlənir, tarixi yaddaşımızı, nəsillərdən-nəsillərə yadigar qalan maddi-mənəvi irsimizi və zənginliklərimizi qoruyan və özünəməxsus xüsusuiyyətləri ilə fərqlənən muzeylərə respublika rəhbərliyinin qayğısı öz müsbət nəticəsini göstərir [2]. Belə ki, özü-özlüyündə tarixi mədəniyyət abidəsi sayılan muzeylərin binaları bərpa edilir, onlar müasir tələblərə cavab verən elmi-texniki avadanlıqla təchiz olunur, maddi-texniki bazaları gücləndirilir, elmi-tədqiqat işlərinin yüksək səviyyədə həyata keçirilməsi üçün şərait yaradılır, muzey işinin elmi-ictimai fəaliyyətinin, nəzəriyyə və metodikasının dünya elmi səviyyəsində aparılmasına imkanlar genişlənir.

Bakıda çox sayda Xatirə və ev muzeyləri fəaliyyət göstərir. Onu da qeyd etmək lazımdır ki, bunlar fəaliyyət dairəsinə görə heç də böyük muzeylərdən geri qalmırlar. Xatirə muzeyi – memorial muzey, ev-muzeyi, mənzil-muzey də adlandırılır. "Xatirə muzeyi" anlayışı ilə "Mənzil və yaxud ev muzeyi" anlayışları arasında müəyyən fərqlər var Belə ki, mənzi muzeyi yalnız həyatına və yaradıcılığına həsr olunuş şəxsiyyətin yaşadığı evdə təşkil olunmalıdır. Xatirə muzeyi isə istənilən məkanda təşkil oluna bilər. Amma ekspozisiyanın quruluşu, onun təşkili məsələləri hər iki halda eyni ola bilər. Adətən şəxsin doğulduğu, bütün ömrünü və ya həyatının müəyyən illərini yaşadığı, yaxud həmin şəxslə bağlılığı olan yerdə (evdə, mənzildə, iş otağında və s.) yaradılır. Mühüm tarixi ha-

disələrlə bağlı yerlərdə yaradılan muzeylər xatirə kompleksləri adlandırılır. Xatirə muzeyinin profili həmin şəxsin fəaliyyət sahəsinə uyğun müəyyən edilir. Məsələn ədəbiyyat, musiqi, incəsənətin müxtəlif sahələri ilə məşğul olan şəxsin ev muzeyi təşkil olunarkən həmin muzeyin ekspozisiya zalı da bu prinsipə uyğun olaraq tərtib olunur. Ümumiyyətlə istənilən memorial muzey adına həsr olunmuş şəxsiyyətin mühiti, sosial vəziyyətinə və mühitinə uyğun təşkil olunmalıdır.

Respublikamızın muzey şəbəkəsində görkəmli şəxsiyyətlərin xatirə muzeyləri yerləşdikləri əraziyə görə paytaxt və regionlarda yerləşən xatirə muzeylərinə bölünür. Bakıda Üzeyir Hacıbəylinin, Səməd Vurğunun, Cəfər Cabbarlının, Cəlil Məmməd- quluzadənin, Bülbülün, Hüseyn Cavidin, L. və M. Rostropoviçlərin, Nəriman Nəri- manovun, Abdulla Şaiqin, Naxçıvan Muxtar Respublikasında Cəlil Məmməd- quluzadənin, Hüseyn Cavidin, Məmməd Səid Ordubadinin, Yusif Məmmədəliyevin, Şamaxıda Mirzə Ələkbər Sabirin, Lənkəranda Həzi Aslanovun, Şəkidə Mirzə Fətəli Axundovun, Rəşid bəy Əfəndiyevin, Sabit Rəhmanın, Xızıda Cəfər Cabbarlının, Gəncədə Mir Cəlal Paşayevin, Göyçayda Rəsul Rzanın, Ağstafada Hüseyn Arifin, Ağdaşda Maqsud Şeyxzadənin xatirə muzeyləri həmin şəxsiyyətlərin həyatı və fəaliyyəti ilə bağlı materialların toplandığı, qorunduğu, öyrənildiyi və təbliğ olunduğu mədəniyyət müəssisələri, eyni zamanda, bu şəxsiyyətlərin xatirəsini əbədiləşdirən müqəddəs yerlərdir [5.s.25-26].

Respublikamızın xatirə muzeyləri sırasında şair və yazıçılara həsr olun- muş ədəbi-xatirə muzeyləri çoxluq təşkil edir. Ədəbi-xatirə muzeyləri kompleksinə yazıçının yaşadığı ev, mənzil, malikanə, onun şəxsi əşyaları, əlyazmaları, müxtəlif sənədləri, sağlığında nəşr olunmuş kitabları, yaxud yaradıcılığına həsr olunmuş tədqiqat işləri və s. daxildir. Xatirə muzeyi yaradılarkən həmin şəxsiyyətin yaşadığı şəraitin bərpa olunmasına əməl edilməsi xüsusi tələb kimi qarşıya qoyulur. Məsələn, şəxsiyyətin iş və yataq otaqları, qonaq otağı onun sağlığında olduğu vəziyyətə gətirilməlidir. Bu otaqlarda (bunlar «xatirə otaqları» adlandırılır) həm əşyaların yerləşdirilməsi, həm də otaqların ümumi görünüşü (divar, döşəmə, tavan, istifadə olunmuş material və rənglər) həmin dövrü xatırlatmalıdır. «Memorial» sözünün əsasını təşkil edən «memoria» latın sözüdür, Azərbaycan dilində «xatirə» sözünə uyğun gəlir. Xatirə muzeyinin əşyaları da təbii ki, həmin şəxsiyyətin həyatı və fəaliyyəti ilə bağlı olur. Buraya ilk növbədə muzeyin yaradıldığı yer (ev, mənzil, malikanə, iş otağı və s.) daxildir. Təcrübə göstərir ki, yaşadığı müddətdən asılı olmayaraq həmin yerdə xatirə muzeyi yaradılır və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır. Ona görə ki, mənsub olduğu xalqa başucalığı gətirən, öz xalqının tarixində və taleyində önəmli rol oynayan, elminin və mədəniyyətinin inkişafına dəyərli töhfələr verən şəxsiyyətlərin adı ilə bağlı hər bir məkan müqəddəs tutulur. Buraya gələn hər bir tamaşaçıda xoş hisslər, duyğular yaranır, şəxsiyyətin xatirəsi böyük ehtiramla yad edilir.

Ümumiyyətlə muzey işinin elmi-texniki təchizatı və proqramlaşdırılması probleminə bir-birini tamamlayan və eyni zamanda hər biri özü-özlüyündə müxtəlif fəaliyyət növlərini ehtiva edən bir sıra aspektlər daxildir. Texniki təchizat muzey işinin önəmli sahəsidir və onun modernləşdirilməsində böyük rol oynayır, lakin onunla yanaşı həlli vacib olan bir çox problemlər də vardır ki, müasir dövrdə muzeylərin elmi-texniki təchizatına daxildir və onun reallaşmasını təmin edir. Bu problemlər sırasında yeni texnologiyaların tətbiqi böyük önəm daşıyır.

Muzey işində yeni texnologiya dedikdə, ilk növbədə, üç vacib məsələ nəzərdə tutulur və bunlar iki müstəvidə - real və virtual şəkildə həyata keçirilir:

1. Muzeylərin kompleks avtomatlaşdırılma /kompyuterləşdirilmə/ sistemi /KAS/;
2. Muzeyin qlobal xəbərləşmə sisteminə - İnternetə qoşulması; elektron telekommunikasiyanın qlobal məkanına çıxışı;
3. Muzey və multimedia texnologiyası /qoloqrafiya və virtual məkan- CD-ROM, DVD-ROM;

1. Muzeyin kompleks avtomatlaşdırılma (kompyuterləşdirilmə) sistemi - *KAS.* Kompyuter İlk dəfə 1963-cü ildə ABŞ-da Milli tarix muzeyinin mütəxəssisləri tərəfindən muzey kolleksiyalarının avtomatlaşdırılmış kataloqlaşdırılması məqsədi ilə istifadə olunmuşdur (9, 3). Bu ilk uğurlu təşəbbüs həm ABŞ-da, həm də digər ölkələrdə eyni işin yaranması və inkişafı üçün uğurlu addım olmuşdur.

Hazırda kompyuterlər bir çox sahələrdə olduğu kimi, muzey işində də geniş istifadə olunur [13,45]. Moskva mütəxəssisləri Y.L.Koşşeyeva, Y.M.Loşak, M.Y.Tumin bu problemlə uzun müddət məşğul olmuş, hazırladıqları KAS (КАМИС) proqram-texnoloji sisteminin muzeylərə tətbiqini

zəruri hesab etmişlər.Onlar, ilk növbədə, muzeyin qeydiyyat, elmi-tədqiqat və bərpa bölmələrinin avtomatlaşdırılmasının vacib olması fikrini irəli sürürlər [10, 96].

Müasir dövrdə qabaqcıl muzeylərin təcrübəsi göstərir ki, həqiqətən kompleks avtomatlaşdırmanın muzey fəaliyyətinin bir çox sahələrində tətbiqi yaxşı nəticələr verir. KAS (КАМИС) proqram-texnoloji sistemi Azərbaycan muzeyləri arasında ilk dəfə 2008-ci ilin sentyabr ayından Azərbaycan Dövlət Musiqi Mədəniyyəti muzeyində tətbiq olunmağa başlanmışdır. [6]

Bu gün Azərbaycanın demək olar ki, bütün xatirə və memorial muzeylərində ən azından sənədləşmə işləri kompüterləşib. Bura həm mətn, həm də qrafik formada kataloqlar, siyahılar, inventar kartoçkaları, bütün növ qeydiyyat sənədlərinin tərtib edilməsi, muzey kolleksiyalarının vəziyyətini əks etdirən kartoteka və bərpa pasportlarının aparılması və s daxildir. Muzeyin işində müvəffəqiyyətin rəhni, ilk növbədə, kompyuterləşmənin əhəmiyyətinin dərk olunması, onun prioritet istiqamət kimi ön plana çəkilməsi və maliyyələşdirilməsi ilə bağlıdır

2. Muzeyin qlobal xəbərləşmə sisteminə, İnternetə qoşulması. Vahid sovet rejiminin dağılması və müstəqil dövlətlərin yaranması muzey işinin inkişafına böyük təkan verdi. Bu proses muzey şəbəkəsinin genişlənməsi və muzeylərin məzmunun dəyişməsinə, təhrif və qadağan olunmuş mövzuların olduğu kimi xalqa çatdırılmasına səbəb oldu. Belə ki, müstəqilliyə qovuşmuş xalqlar öz milli mədəniyyətlərini, tarixlərini regionlar və beynəlxalq səviyyədə göstərə bildilər. Bu mənada İnternetin nəinki muzey işində, hətta normal həyatda böyük rolu danılmaz fakt kimi göründü.

Mütəxəssislərin hesablamalarına görə, XX əsrin 80-ci illərində bir neçə min olan kompyterlərin sayı XXI əsrin başlanğıcında artıq bir milyarda çatmışdır [8, 38]. Bu o deməkdir ki, İnternet səhifələrində bu və ya digər muzey haqqında informasiya verdikdə faktiki olaraq biz onu sanki nəhəng tirajlarla çap edirik, çünki materialın yayılma imkanı – dairəsi və sürəti sonsuzdur. İnternet kanalında dolaşan informasiya həcmi milyard səhifələrlə mətn, milyonlarla qrafik illüstrasiya, yüz minlərlə audio və video yazılarıdır və bu informasiyanın həcmi, A.Nosikin dediyi kimi, hər 53 gündən bir ikiqat artır [11, 14].

İnformasiya mübadiləsi yeni muzeylərin layihələndirilməsində, yaradılmasında, köhnə muzeylərin yenidənqurulması işində, mövcud layihələrin təkrarlanmamasında, səriştəli mütəxəssislərin iş təcrübəsindən yararlanmaq məsələsinin həllində böyük rol oynayır. Bir sözlə, İnternet muzey şəbəkəsinin inkişafı, strukturlarının, təşəbbüs və layihələrinin harmoniyası, razılaşdırılması üçün əvəzedilməz vasitədir.

İnformasiya texnologiyası yüksək inkişaf etmiş ABŞ, Kanada, Almaniya, İsveç, Hollandiya, Finlandiya və digər ölkələrdə muzeylər İnternetdə geniş həcmdə təmsil olunmuşlar [14,19].

Öz xüsusi elektron ünvanı olan muzey müxtəlif sahələrdən olan tərəf-müqabilləri ilə təmasını ən yaxın məsafədən - özünün iş yerindən ayrılmadan qura bilər ki, bu da əməyin faydalı əmsalına böyük yardımdır.

İnternet əlaqəsi həmçinin bir sıra xidmət əməliyyatları zamanı da əvəzedilməzdir.

3. Muzey və multimediya texnologiyası /qoloqrafiya və virtual məkan- *CD-ROM, DVD-ROM.* Muzey və multimediya texnologiyası dedikdə, kompyuter sistemində elmi fəaliyyət və geniş yayımlama sistemində mətn, səs, animasiya (canlandırmaq, hərəkətə gətirmək), video və qrafik təsvirin bir yerə toplanma imkanı nəzərdə tutulur [15, 3].

Qoloqrafiya – lazer texnikasının köməyi ilə çəkilmiş müxtəlif əşyaların iri optik surətlərinin yazılması və əks etdirilməsinin yeni üsuludur. Qoloqrafiya üsulu ilə alınmış və qoloqramma adlanan həmin surətlər eksponatların çox dəqiq və rəngli əkslərini verə bilir. Lazer şüası ilə işıqlandırılan qoloqram sanki canlanır və eksponatın əsli kimi qəbul olunur, halbuki o real predmet deyil, onun yalnız əksidir [12, 93]. Qoloqrafiyanın muzey işində istifadəsinin çox böyük perspektivləri var. Birincisi, qoloqramların muzey ekspozisiyasında hansısa olmayan, yaxud çox qiymətli olan eksponatın əvəzinə istifadə edilməsi mümkündür. İkincisi, qoloqramlar ayrı-ayrı muzeylərin arasında mübadilə edilə və, beləliklə, onların ekspozisiyasını zənginləşdirə bilər. Muzeydən kənar sərgilərin keçirilməsində qoloqramlardan istifadə daha geniş perspektivlərə malikdir. Hazırda qoloqramlar Moskva və Sankt-Peterburqun bir sıra muzeylərində müvəffəqiyyətlə istifadə olunur [7, 9].

Müasir muzeylərdə auditiv (səs) köməkçilərindən də geniş istifadə olunur. Auditiv köməkçilərə ekspozisiyada, yaxud ayrı-ayrı zallarda istifadə edilən səs materialı və müxtəlif avadanlıq – maq-

nitofonlar, elektrofonlar daxildir. Səs materialı dedikdə, sənədli səs yazıları, şair və yazıçıların səsləri, çıxışları və s. nəzərdə tutulur [7, 18].

Bir sıra muzeylərdə istifadə olunan audio-vizual köməkçilər**,** yəni kino və telefilmlər eyni vaxtda tamaşaçıların görmə və eşitmə orqanlarına güclü emosional təsir göstərir. Ədəbiyyat, teatr və incəsənət muzeylərində şair və yazıçıların, aktyorların, yaxud rəssam və heykəltəraşların müsahibələri, çıxışları əvvəlcədən lentə yazılır və müvafiq şəkildə ekspozisiya zallarında nümayiş etdirilir [7, 20].

CD-ROM-ların qeyri məhdud mətn dairəsinin kitab nəşrinə nisbətən daha çox üstünlüyü, bir diskdə müxtəlif dillərdə çoxlu mətnlərin, bir nəşrə bir neçə min rəngli rəsmlərin toplanma imkanı onları bu gün əvəzedilməz vasitəyə çevirmişdir. Texniki imkanların artması nəticəsində artıq CD-ROM-ların ardınca DVD-ROM-lar fəaliyyətə başlamışdır.

Muzey ekspozisiyasının audio-vizual təmini**.** Muzey-ziyarətçi münasibətlərinə, muzey işi zəncirinin ən önəmli halqasına yeni, proqressiv təsir göstərən vasitədir. Belə ki, ənənəvi, köhnəlmiş iş üsulu zamanı passiv tamaşaçı, yaxud ekskursiya rəhbərinin verdiyi məlumatla kifayətlənməyə məcbur vəziyyətində qalan fəal ziyarətçi yeni texnologiyanın və yeni, modern iş üsulunun tətbiqi sayəsində istədiyi eksponat haqqında daha dərin və müfəssəl məlumatı ekspozisiya zalında qoyulmuş cihazlar vasitəsilə asanlıqla ala bilər. Bunun üçün ona qulaqlığı taxıb, istədiyi məlumat səhifəsini açmaq və müvafiq düyməni basmaq kifayət edər.

Respublikamızda fəaliyyət göstərən memorial və mənzil muzeylərinin əksəriyyəti bir çox xidmət əməliyyatlarını internet əlaqəsi vasitəsi ilə həyata keçirir. Üzeyir Hacıbəylinin, Səməd Vurğunun, Cəfər Cabbarlının, Cəlil Məmməd quluzadənin, Bülbülün, Hüseyn Cavidin, L. və M. Rostropoviçlərin, Nəriman Nərimanovun, Abdulla Şaiqin, Naxçıvan Muxtar Respublikasında Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin və digər mənzil muzeylərinin fəaliyyətini buna misal göstərə bilərik. Bu muzeylərdən əksəriyyətinin Facebook səhifəsi olduğu üçün minlərlə ziyarətçi onların fəaliyyətini izləyə bilir.

Bakıda 2018-ci ilin oktyabr ayında bütün müasir texnologiyalara cavab verən dahi bəstəkar Qara Qarayevin 100 illik yubileyi münasibəti ilə ev Muzeyi fəaliyyətə başlamışdır. Muzeyin açılışında mədəniyyət naziri Əbülfəs Qarayev, Baş nazirin müavini Əli Əhmədov, Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə, Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli, xalq yazıçısı Anar və digər ictimai xadimlər iştirak etmişdir. Muzeyin tərtibat-dizayn işlərini "Partner Culture+Projects" (Hors Kampman) şirkəti həyata keçirmişdir.

Qara Qarayev gəncliyinin, tələbəlik illərinin keçdiyi, ilk əsərlərinin, o cümlədən, "Yeddi gözəl" baletini yaratdığı bu mənzildə Muzeyin qurulması prosesində müxtəlif fondlardan bəstəkara aid olan materialların siyahısı tutulmuş və respublikadan kənarda bəstəkarın irsiylə bağlı xeyli material toplanmışdır. Moskvadakı Dövlət Ədəbiyyat və İncəsənət Arxivindən Qara Qarayevə aid sənədlər, bəzi əlyazmalar, çəkdiyi fotoşəkillər ölkəmizə gətirilmiş həmçinin şəxsi kitabxanasından üzərində qeydləri olan kitablar, Sankt-Peterburq teatrından əldə olunan tamaşaların afişaları, şəxsi əşyalar, musiqilərin not əlyazmalarının surətləri, səs yazıları və baletlərinə çəkilmiş eskizlər daxil daxil olmuşdur. Ümumilikdə bəstəkarın ev-muzeyinə təqdim olunmuş eksponatların sayı 300-dən çoxdur. Bəstəkarın qızı Züleyxa xanım Qarayeva muzeyə rəhbərlik edir. Yuxarıda sadaladığımız müasir texnologiyaların demək olar ki, hər biri bu muzeyin yaradılmasında istifafə olunub.

Burada yeni texnologiyaların tətbiqi ekspozisiyanın ümumi ansamblına, bədii bütövlüyünü daha da zənginləşdirir, orjinal eksponatların qavranılmasına kömək edir.

Muzeydə tətbiq olunan müasir avadanlıq kimi aşağıdakıları göstərmək olar: 1. İnformasiyanın nümayişi üçün nəzərdə tutulan cihazlar; 2. Sensor panelləri; 3. Səsgücləndirmə sistemi; 4. Ekpozisiyada saxlanılan materialların nümayişi üşün nəzərdə tutulan qurğular – kompyuter, video – CD-DVD qəbuledicilər; 5. Köməkçi prezentasiya avadanlığı; 6. Xüsusi proqramlar təminatı; 7. Qoloqrafik ekranlar; 8. Elektron ekskursiyaların idarəedilməsi sistemi və sairə.

Muzeyin dizayneri avstriyalı Hors Kampman bütün janrları ayrı-ayrı rənglərə ayırıb. Eksponatlar haqqında bütün məlumatlar divarlarda əks olunub. Muzeyinin şöbə müdiri Zivər Məmmədova məlumatına görə Qara Qarayevin ev muzeyi Muzeylər Mərkəzinin filialıdır. Bu muzey yaradılanadək eksponatlar, eləcə də Qara Qarayevin əlyazmaları Muzeylər Mərkəzinin fondunda yerləşirdi.

Bəstəkarın əsərlərinin əsas nüsxələri isə divarlardakı rəflərdə yerləşdirilib. Burada ayrı-ayrı guşələrdə sənətkarın dünya şöhrətli əsərləri - "Yeddi gözəl", "İldırımlı yollarla", "Leyli və Məcnun", "Don Kixot" baletləri, Cövdət Hacıyevlə birgə bəstələdiyi "Vətən", "Zəriflik" operaları, vokal-simfonik, orkestr üçün yazdığı kamera vokal əsərləri, onların ilk ifaçıları haqqında və digər məlumatlar əksini tapıb. Onu da qeyd edək ki, ziyarətçi istədiyi hər bir əsəri audio qulaqcıq vasitəsi ilə dinləyə bilər. Muzeyə gələn ziyarətçinin Qara Qarayevin müxtəlif filmlərə - "Uzaq sahillərdə", "İnsan məskən salır", "Onun böyük ürəyi", "Dənizi fəth edənlər", "Əsl dost", "Nizami", "Bakının işıqları", "Don Kixot" (Rusiya) və başqa ekran əsərlərinə bəstələdiyi musiqiləri dinləmək imkanı var. Eyni zamanda qonaqlar Qara Qarayevə həsr olunmuş filmi də divarda izləyə bilir.

Diqqəti cəlb edən eksponatlardan biri də köhnə dizaynda olan telefondur. Tamaşaçı telefon vasitəsi ilə Qara Qarayevin səsini dinləyə bilər, həmçinin bəstəkar haqqında deyilən maraqlı fikirlərin dinləyicisi ola bilər. Göründüyü kimi muzeyin yaradılmasında müasir zaman üçün aktual olan demək olar ki, bütün müasir texnologiyalardan istifadə olunub.

Azərbaycanda xatirə və ev muzeyləri arasında Qara Qarayevin ev muzeyi dünyəvi, müasir texnologiyalara cavab verən yeganə ev muzeyidir. Inanırıq ki, muzey işinin təşkili işində dövlətimizin səyi davamlı olacaq, zaman keçdikcə digər muzeylərimizin də bu cür yüksək səviyyədə dizaynı veriləcək.

ƏDƏBİYAT

1. Azərbaycan Respublikasının Muzey sərvətlərinin və muzey kolleksiyalarının uçotu və mühafizəsinə dair təlimat. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Bakı, 2008, 220 s.
2. Azərbaycanın elm və mədəniyyət xadimləri (kataloq). Ön sözün müəllifi X.Bəşirova. Bakı: MarsPrint, 2001, 141 s., s.5-8
3. Heydər Əliyev və mədəniyyət :3 cilddə, Bakı:Nurlar, 2008, 1c.-502 s; II c.-519 s., III c. -535 s.
4. Mədəniyyətimizin və mənəvi incilərimizin hamisi / H. Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO–nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın mədəniyyət sahəsində fəaliyyəti dövrü mətbuat materialları əsasında tərtib edilmişdir (1995-2007). Bakı: Nurlan, 2007, 422 s.
5. Kataloq Azərbaycanın memorial xatirə muzeyləri (dərslik). Bakı, 2009
6. Əliyeva N.Ə. Kulturologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya
7. Бычкова Л.С. Техника и современное музейное дело: Кн.: Искусство музейной экспозиции и техническое оснащение музеев / Сб. науч. трудов НИИ Культуры Музееведения. М.: 1985, № 139, с. 9-26
8. Горбаневский М. IBM в России // Планета Интернет, 1997, № 8, с. 38
9. Демидов К.С. Музеи сегодня: проблемы и перспективы. Информатизация музеев: Автореф. дис. … канд. искусств. наук. Екатеринбург, 1998, 25с.
10. Кощеева Е.Л., Лошак Ю.М., Тумин М.Я. Система комплексной автоматизации музеев КАМИС: Кн.: Музей и новые технологии. Серия: На пути к музею XX1 в. М.:Прогресс-Традиция, 1999, с. 96-110
11. Носик А. Не насытится око // İnternet, 1977, № 2, с.14.
12. Пирожников Л.Б. Голография в музейном деле: Кн.: Актуальные проблемы архитектурно-художественного проектирования экспозиции исторических и краеведческих музеев / Сборник научных трудов. М.: Наука, 1983, с. 93-101
13. Поиск и реставрация архивных документов на базе ЭВМ / Сборник научных трудов. М.: Наука, 1990, 85 с.
14. Чинхолл Р. Музейная каталогизация и ЭВМ. Перевод с английского. М.:Мир, 1983, с. 7-41
15. Cilella Calvatore. Fund Rasing/ Remembering the Human Aspest. // Museum News, January/February, 1988, p. 28.

Qəhrəman YUSUPOV
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim
yu.gahraman@gmail.com

Abşeron qalasının tematik ekskursiya marşrutunun inkişafı

Разработка тематического экскурсионного маршрута крепости Апшерона

Development of a thematic excursion route of the Absheron fortress

Xülasə. Məqalə Abşeron qalalarına həsr edilmişdir. "Abşeron Qalaları" ekskursiya marşrutu – tematik marşrutdur. Məqalə hazırkı ekskursiya marşrutunun işlənib-hazırlanması metodikasına həsr edilib. Burada qalaların ərazisi və qüllə-donjonların hündürlüyü, qalaların sifarişçiləri və memarları, yaşayış məntəqələri və bunlar arasında yerdəyişmə müddəti, məlumat mənbələri əks olunub.
Açar sözlər. Abşeron Qalaları, Şirvanşahlar sülaləsi, qüllə-donjon, qəsrlər, məscid.

Резюме:Статья посвящена Апшеронским крепостям. Экскурсионный маршрут «Крепости Абшерона» является тематическим, так как имеет целевое назначение. Статья посвящена методике разработке данного экскурсионного маршрута. Здесь отражается информация о площади крепостей и высоте башен-донжонов, заказчиках и архитекторах крепостей, расстояние между населёнными пунктами и время передвижения, источниках информации.
Ключевые слова. Крепости Апшерона, династия Ширваншахов, башня-донжон, замки, мечеть.

Abstract. The article is devoted to Absheron castles. "The Absheron Castles" excursion is a thematic route. The article is dedicated to the methodology for developing the current excursion route. It reflects the territory of the fortresses and the height of the towers-donjons, the customers and architects of the castles, the settlements and the time displacement between them, information sources.
Keywords: Absheron Castles, Shirvanshah Dynasty, Tower-Donjon, Castles, Mosque.

Во время изучения материалов по крепостям-замкам Апшеронского полуострова обращались к разным источникам. Согласно методике разработке экскурсионных маршрутов использована соответствующая литература, приняты высказывания специалистов, использована информация из специализированных э-социальных сетей, выслушаны пересказы местных жителей.

В XI-XIII веках Государство Ширваншахов укрепило свои позиции и последовательно вела строительство больших сооружений. Учёный этнограф Т.Салимов проводил исследования исторических памятников. Учёный пришёл к выводу, что памятники делятся на оборонительные (1), религиозные (2), ритуальные (3), национально-бытовые и традиционные (4), имеющие мемориальное значение - исторические, культурные, духовные (5) [1].

Решением от 2 августа 2001-го года №132 Кабинета Министров Азербайджанской Республики «Об утверждении разделения на категории недвижимости исторических и культурных памятников на территории Азербайджанской Республики» [2] памятники охраняются, и их защита осуществляется со стороны государства.

Известный азербайджанский архитектор Ш.Фатуллаев-Фигаров отмечает «Замки Апшерона – исключительное явление в военном зодчестве Ближнего и Среднего Востока, они не имеют прямых аналогов и в западной, европейской культуре … [3, с.106]».

Историк этнограф Т.Салимов отметил, что в 40-ых годах XX века российский автор А.Б.Шарыгин составил систематическую карту расположения памятников Апшеронских крепостей. На карте видно, что в северной части полуострова в населённых пунктах Шувелан, Мардакян, Шаган, Бузовна, Нардаран расположены всего 10 крепостей, которые сохранились до настоящего времени. … Апшеронские крепости схожие по стилю. Большинство находятся на окраинах сёл, башни-донжоны построены одинаковым планом. Донжоны окружены четырёхугольными стенами, внутренняя площадь равна 20х25 метрам. В источни-

ках есть информация о 19-и крепостях, вместе с тем предполагается вероятность общего количество около 40-а.

Апшеронский полуостров находится на западном побережье Каспийского моря и это самый большой полуостров в Азербайджане, на северо-восточном окончании Большого Кавказа. Длина полуострова 60 км, самая широкая часть 30 км. Поверхность Апшеронского полуострова состоит из равнин, оврагов и впадин, плоскогорий и холмов, Западная часть полуострова относительно возвышенна, прибрежная часть ниже уровня океана на 28 м. На юго-западе на склонах Бакинского плато, амфитеатром окружающего подковообразную бухту, раскинулся Баку – столица, политический, административный и культурный центр Азербайджана.

Есть несколько гипотез о происхождении слова «Апшерон». Самое распространённое - это название со словом «Афшаран» (которое затем видоизменилось в «Апшерон», «Абшерон») и показывают связь с Афшарами. Некоторые же предполагают создание слова «Апшерон» из фарсидских слов: аб (вода) и шоран (солёный) [4, стр.10].

***

Цель составления тематического экскурсионного тура, это привлечение внимания любителей средневековых оборонительных построек. Вместе с тем экскурсия посвящена не только башням-крепостям, также во время экскурсии экскурсантам предоставляется информация о традициях и обрядах жителей поселков, об истории заселения сел полуострова, известных личностях и другая интересная информация.

Тематическую экскурсию «Крепости Апшерона» предполагается начать с Девичьей Башни в Баку и продолжить в трёх населённых пунктах. По классификации: способ передвижения - комбинированный, преимущественно автобусом; трасса – кольцевая, содержание – историко-познавательный; сегмент туристов – смешанный.

***

К XI-XII векам Баку превратился в крупный торгово-морской порт на Каспийском море. Государство имело практически 2 столицы: Шамаха и Баку. В целях безопасности правители из династии Ширваншахов начинают масштабные строительные работы по усилению фортификационных сооружений города Баку. Вокруг города были построены три ряда крепостных стен, а также вырыт глубокий ров. Кроме того, на окружающих город горах были построены дополнительные защитные сооружения в виде сигнальных башен и небольших крепостей. Все эти башни и замки вошли в единую оборонительную систему города, которая сегодня расположена на Апшеронском полуострове.

Строительства башен и замков датируется XI-XIV веками. Сюда входят знаменитая Девичья Башня, Баиловский замок, крепости в Рамана, Мардакянах, Нардаране, Шагане, Зире и многие другие. В этих крепостях в основном проживал военный гарнизон, который в случае нападения должен был сформировать первую линию обороны города. В этот период Баку подвергался нападениям тюрков-сельджуков, монголов, руссов. В 1175 году Ширваншаху Ахситану с помощью существующих на тот момент башен и крепостей удалось предотвратить захват Баку руссами, которые прибыли на 73 кораблях. Кроме защитной функции, башни носили так же сигнальный характер. Когда к городу подходили враги, на вершинах башен поджигали нефть, оповещая население об опасности.

Девичья башня также входила в оборонительную систему Баку, правда сказать была ли эта её функция основной, учёные до сих пор не могут определить. Девичья башня представляет собой 8-этажное здание, по форме напоминающее цилиндр. В XVIII-XIX веках башня использовалась как маяк.

Одним из замков, входящих в оборонительную систему Баку был Баиловский замок, который ныне почти полностью находится под водой. Крепость была построена в XIII веке в Баиловской бухте напротив города, но в результате землетрясения 1306 года уровень воды в Каспийском море резко увеличился, и замок оказался под водой. Замок имел форму неправильного прямоугольника. Его опоясывали крепостные стены шириной 1,5 м, по периметру которых располагалось 15 башен. Расположение крепости было выбрано так, чтобы защитить Баку от нападений с моря [5].

Село Рамана, 25 км от Баку, 30 минут езды.

В разных источниках говорится о том, что посёлок был основан приблизительно между 84 и 96 годом нашей эры группой солдат XII Молниеносного легиона Римской империи под командованием Максимуса Ливиуса. В селе Рамана, недалеко от Баку, расположена ещё одна крепость XVI в. Она построена из белого камня. Высота башни 15 метров. Крепость Рамана была построена по приказу Ширваншахов в оборонительных целях. Зодчий очень удачно выбрал место для замка на обрывистых склонах холма, затрудняющих подступ к замку и обеспечивающих ему доминирующее положение над окрестностью. Существуют письменные свидетельства о том, что в средние века от крепости Рамана к Девичьей башне шла подземная дорога. Если в предыдущих случаях дворы и ограждающие их стены имели правильные очертания, то в этом замке площадка, на которой расположен замок, двор и стены, имеет в плане форму удлинённого многоугольника. В углах и посередине восточной стены имеются башенки. Наибольшие размеры замка (включая и стены) по длинной оси его территории составляют около 30 метров, а по короткой — 20 м, башня же занимает площадь 9 х 7,5 м. Полная высота башни и стен не может быть сейчас точно установлена; в натуре сохранившаяся часть стены имеет в высоту около 7—8 м, а башня—18 м. У крепости проводились съёмки фильмов «Короглу», «Насими» и «Бабек». Крепость было отремонтирована перед съёмками фильма «Короглу» в 1960-ом году. Этот памятник включён в список UNESCO 24 октября 2001-го года, как Материально-Культурное Наследие, подлежащее Срочной Охране.

Посёлок Мардакян, 19 км от села Рамана, 25 минут езды.

Название посёлка исходит от *«Mərdlər məkanı»,* то есть «Край мужественных». В посёлке Мардакян расположена прямоугольная башня-замок, построенная по приказу Ширваншаха Ахситана в честь победы над врагами. Крепость использовалась как место расположения военного гарнизона и наблюдательный пункт. Замок находится примерно в 2,5 км от моря. На территории двора замка площадью 28х25 м. обнаружено более трёх десятков, высеченных в известняковой материке, вместительных кувшинообразных хранилищ и колодцев, снабжавших обитателей замка питьевой водой. Наружный обвод крепостных стен высотой 7 м. образует правильный четырёхугольник с выступающими во всю высоту по углам башенками. Время этого сооружения относят к XII в. Башня (донжон) высотою в 22 м, с толщиной стен 1,60— 2,10 м, внутри по высоте разделена на пять ярусов — этажей. В настоящее время сохранилось только одно каменное сводчатое перекрытие над первым этажом; предполагают, что перекрытия последующих ярусов были плоские деревянные. Строители, учитывая свойство камня, слабо сопротивляющегося скалыванию, выполнили этот карниз из нескольких рядов отдельных камней. Камни верхнего ряда большей частью своей «постели» опираются на нижележащие и зажимаются в кладке, обеспечивая таким образом устойчивость всего карниза. Внутри крепость делится на 5 ярусов.

В этом же посёлке на расстоянии 500 м. находится ещё одна оборонительная крепость Ших или Ишыг Галасы (Крепость Света). Башня, высотой 16 метров, была построена в 1232 году, как наблюдательный пункт. Цилиндрическая башня состоит из трёх ярусов, покрытых каменными сферическими куполами, связанными между собою лестницей, расположенной, как обычно, в толще стены. По уже отмеченным выше причинам, вход на лестницу начинается на высоте 3 м. от уровня первого этажа. Как и в предыдущем случае, верх башни закончен машикулями с разрывами для сбрасывания сверху различных тяжестей на нападающих.

О жителях посёлка, известных людях, посетивших замки отношении со стороны ответственных лиц за сохранность к историческому памятнику с удовольствием и эмоционально, рассказали местные жители, преподаватели местных школ.

Среди архитектурных памятников Азербайджана необходимо отметить мечеть Тубашахи в селении Мардакян. Она расположена на расстоянии не более пятидесяти метров от Мардакянской прямоугольной башни. Построена в XV веке и получила своё название в честь женщины, заказавшей её постройку. Время строительства мечети устанавливается в довольно хорошо сохранившейся надписью. Она содержит не только год его окончания — 886 год хиджры (1481-1482 гг.), но и имя заказчика — некоей Туба-Шахи. Другая надпись нахо-

дится у входа на узкую винтовую лестницу, ведущую на крышу. Эта надпись, очевидно, принадлежавшая более древней мечети селения, указывает время её строительства — мухаррам 774 года хиджры (1372 г.) и проводит имя заказчика — садра Хаджи Баха-ад-дина, сына Ходжа Нур-ад-дина, сына Махмуда Абайила. Организация внутреннего пространства мечети также близка к плановым решениям дворцовой мечети и усыпальницы Ширваншахов. Кибла отмечена находящимся в торце южной ветви михрабом стрельчатого очертания.

Известный азербайджанский журналист и историк А.Маммадов (Гарабаглы) в книге «Путешествие в древний и нынешний Апшерон» отмечает, что месторасположение (у моря) и климат Мардакян привлекал сюда миллионеров, которые построили здесь летние резиденции [6]. Именно по этой причине в посёлке действует Неврологический санаторий по лечению нервной системы. На месте дачи нефтяного магната конца XIX-начала XX веков Ага Муса Нагиева находится Институт Дендрологии. Именно здесь находиться музей Сергея Есенина Русского поэта, который в 1920-1925-х годах несколько раз был в Баку и почти 2 месяца жил в доме бывшего нефтяного магната.

Посёлок Нардаран 27 км от посёлка Мардакян, 30 минут езды.

Из сохранившихся на побережье Апшерона замков следует упомянуть и о замке в селении Нардаран, как о наиболее уцелевшем. Круглая в плане башня, высотою в сохранившейся части около 12,5 м, расположена в центре почти квадратного двора, обнесённого стенами высотою около 6 м с угловыми башенками, с барбетом и с бойницами. Башня по высоте состоит из трёх ярусов, из коих первый (нижний), более, чем в два раза, выше последующих; все они перекрыты каменными плоскими купольными сводами и связаны между собой и с верхней площадкой башни лестницами, выполненными в толще стены. Отметим несколько необычный приём в сообщении между этажами; каждый этаж имеет свою собственную лестницу. На фасаде башни имеются две надписи, высеченные в камне, датирующие сооружение 700 г. (1301 г. н. э.) и имя зодчего Махмуда, сына Саада.

Среди достопримечательностей также баня (1388 года постройки, архитектор Гуштасиф, сын Мусы), мавзолей XIV века, «Ханская дача» XV века [7].

***

Общая протяжённость экскурсионного маршрута Девичья Башня – село Рамана –пос. Мардакян - пос. Нардаран - Девичья Башня равняется примерно 101 км, езда на автобусе 2 ч. Рассказ, обход, обозрение крепостей, объектов второй категории и окружения 2 ч.20 мин. Всего время проведения экскурсии 4 ч. 20 мин. В пос. Мардакян предполагается ланч для экскурсантов, это займёт 30 мин. Общее время проведения экскурсии «Крепости Апшерона» длиться около 5-и часов. Во время передвижения экскурсовод ведёт рассказ о территориях, населённых пунктах, про историю, культуру, экономику, известных людях.

***

Технологическая карта тематического экскурсионного маршрута
«Крепости Апшерона»

Территория прохождения маршрута: полуостров Апшерон
Средство передвижения:автобус
Протяжённость:101 км
Время передвижения:2 часа
Трасса: кольцевая
Объекты осмотра (основные): 6
Рассказ, обход, обозрение объектов и окружения:2ч.10 мин – 2ч.30 мин.
Содержание: историко-архитектурный
Сезонность:круглый год
Сегмент туристов:любители средневековья; смешанная
Количество экскурсантов:до 25 человек
Предполагается перерыв на ланч:30 мин.

К технологической карте прилагается контрольный текст экскурсии, карта (схема) маршрута. Каждый экскурсовод кроме контрольного текста подготавливает дополнительную информацию по теме. В портфеле экскурсовода имеются старые фотографии объектов осмотра, а также другие фотографии, картины по теме, печатная продукция авторов о населённых пунктах, рассказы, стихи местных авторов.

ЛИТЕРАТУРА

1. http://medeniyyet.az/page/news/12830/Abseronun-das-yaddasinin-uc-sehifesi.html Tarix pıçıldayan məkanlar, məqalə. (04-09-2013)
2. Постановление Кабинета Министров Азербайджанской Республики от 2 августа 2001-го года №132 «Об утверждении разделения на категории недвижимости исторических и культурных памятников на территории Азербайджанской Республики».
3. Фатуллаев-Фигаров Ш., Зодчество Апшерона, Баку, Изд. «Шарг-Гарб», 2013- 528 стр.
4. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, II cilddə. Bakı-2007. I cild.
5. http://unesco.preslib.az/az/page/2ti6GsH5gQ (03.11.2019)
6. Məmmədov A.B., Qədim və indiki Abşerona səyahət, Bakı: Mütərcim, 2006 – 172 s.
7. https://www.youtube.com/watch?v=HKHTLc8O7LQ Abşeron qalaları

Könül SALMANOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim
ismayilovakonul@mail.ru

Azərbaycanın məşhur zirvələri - Bazarduzu, Şahdağ, Tufandağ

Знаменитые вершины Азербайджана - Базардузу, Шахдаг, Туфандаг

Famous peaks of Azerbaijan- Bazarduzu, Shahdag, Tufandag

Xülasə: Məqalədə regionun coğrafi quruluşu haqqında ümumi məlumat verilməklə yanaşı, həmçinin son dövrlərdə turistlərin diqqətini cəlb edən Bazardüzü, Şahdağ, Tufandağ zirvələri haqqında ətraflı məlumat ingilis dilində hazırlanaraq təqdim edilmişdir. Məqalədə Şahdağ milli parkı və onu ərazisində yerləşən zirvələr, parkın flora və faunası barəsində məlumat təqdim edilmişdir.

Açar sözlər: turizm, zirvələr, flora və fauna, Şahdağ milli parkı, coğrafiya, zirvələrin fəthi tarixi

Резюме: В статье дается обзор географической структуры региона, а также подробная информация о вершинах Базардузу, Шахдаг и Туфандаг, которые привлекают туристов в последнее время. Вся эта информация была подготовлена на английском языке. В статье также представлена информация о Шахдагском национальном парке, о его вершинах, флоре и фауне.

Ключевые слова: туризм, вершины, флора и фауна, национальный парк Шахдаг, география, история покорений вершин

Abstract: The article provides an overview of the geographical structure of the region, as well as detailed information about the peaks of Bazarduzu, Shahdag and Tufandag, which attract tourists in recent years. All this information has been prepared in English. The article also provides information about Shahdag National Park, and its peaks, flora and fauna.

Key words: tourism, peaks, flora and fauna, Shahdag national park, geography, history of climbing

Tourism is considered as one of the priority areas of economic development of the regions of Azerbaijan. According to international organizations, there are great opportunities for this in our republic. The achievements of Azerbaijan in the economic, political, social, cultural and tourism spheres over the past decade have been achieved thanks to the great efforts of the Heydar Aliyev, the founder and architect of modern Azerbaijan, and President Ilham Aliyev, who continues to adequately pursue his domestic and foreign policy.

Presidential decrees on measures to accelerate socio-economic development in the Republic of Azerbaijan in 2003 and the State Program on Socio-Economic Development in the Regions of the Republic of Azerbaijan in 2004 were important steps towards the development of the country's economy, including the tourism sector. All regions of the Republic of Azerbaijan have large resources for the development of tourism sphere.

Guba-Khachmaz economic region is located in the northeastern part of Azerbaijan, covering the administrative districts Shabran, Khachmaz, Guba, Gusar and Siyazan. The most developed and important city of Guba-Khachmaz economic region is Guba. Territory is bordered by the Dagestan Republic of the Russian Federation from the north, the Caspian Sea from the east, Absheron to the southeast, the Mountainous Shirvan from the south, and Shaki-Zagatala from the southwest. The total area of the economic region is 7.66 thousand sq.km, accounting for the 8.8% of the country's territory. The economic region has its own relief. The territory of the region is separated into four altitude zones (from 26 to 4466 meters) - plains, foothills, middle mountainous and high altitude zones. The climatic conditions of the region are also varied according to these zones. Though the plain zones have hot climatic conditions, the mountainous parts of the region have humid and cold climate.

Bazarduzu - is the highest peak in the mountain range of the Greater Caucasian Range on the border of the Republic of Azerbaijan and Dagestan. The height of the peak is 4466 meters. In comparison with Shahdag (4243 m), Shalbuzlag (4142 m), Bazaryurt (4126 m), Tufandag (4191 m) it is higher for 200-300 meters. However, none of them can shade the beauty of this mountain.

At the beginning of the 20th century, eight small glaciers descended from the peak of Bazarduzu, the largest one of which was up to 1 kilometer in length and was called *Tikhitsar*.

Numerous rivers, including tributaries of Samur, start from the slopes of Bazarduzu. Traces of modern glaciation can be clearly identified in the north-western parts of the massif. On the southern as well as the eastern slopes of the massif, traces of glaciation are completely destroyed by erosion. A significant role in the formation of the relief of Bazarduzu is played by the processes of physical weathering, which are associated with the formation of flat falls of various sizes on the slopes. On the slopes of the massif there has developed valley dissection. Valleys are characterized by their considerable depth (up to 1500 m and more) and are predominantly U-shaped. At present, the glaciation of Bazarduzu is represented by glaciers, which covers an area of 3.6 km².

There are two glaciers on the northern slope of the peak of Bazarduzu - *Murkar* and *Tikhitsar*. The most accessible of these glaciers is Tikhitsar, the length of which is about 0.9 km and the width is 150–200 m.

The Murkar Glacier lies to the northeast, and occupies a crevice in the form of circus on the Bazarduzu slope. The total length of the glacier is 1440 m, with a width of 300–450 m. Glaciers have noticeably decreased over the last century. If their area was 13.8 km ² in 1897 and it became 6.67 km² in 1911, and at present it is about 3.8 km². On the slopes of the massif, there are unusually beautiful alpine and subalpine meadows, which are perfect summer pastures, where thousands of flocks of sheep and goats of local farms are grazing from April to September.

The animal world of the Bazarduzu massif is rich and original. On the hard-to-reach rocks, almost near the glaciers, there are mountain turkeys or snowcocks.

History of climbing

If you wish to climb this magnificent peak it is advisable to begin hiking from the village Khinalig in Guba region. The first documented conqueror of Bazarduzu was the Russian topographer Sergei Timofeevich Alexandrov. In May 1849, he climbed the northeast ridge from the Kurush Pass and installed a triangular tower on the mountain. In August 1952, GI Anokhin made a night climb to Bazarduzu. For the first time in history he climbed the ice wall of Bazarduzu in September 1952. In 1993, E. M. Ragimov climbed along the Southern ridge, and Y. A. Asadov - from the Southwestern circus.

Shahdag is the peak in the Greater Caucasus, in Gusar region. Shahdag is a mountain peak in the eastern part of the Greater Caucasus, in the Lateral Range system, in the territory of Azerbaijan.

The toponym Shahdag is of Turkic-Persian origin, that is Persian "Shah" means “king” and Turkish “Dag” means “mount”.

Brown Shahdag without a snow-capped peak looks like a huge castle with its admirable nature. It is mainly composed of limestone and dolomite and has a height of 4243 m. The landscape is represented by glaciers, waterfalls and high-mountain meadows. In the western part of the Shahdag massif, among the rocks at an altitude of about 3700-3800 m, there are two lakes, the path to which lies through the western "gate" of Shahdag. This is a narrow gorge through which one of the tributaries of the Shahnabad River flows. On this side, Shahdag is considerably destroyed by erosion under the influence of wind and precipitation. At heights above 3700 m, there are glaciers. The area of glaciers in the last decade has been rapidly declining. At the moment, its area is 1.1 km². In winter, low temperatures are observed here, often falling to 20 degrees Celsius below zero, which leads to freezing of one-hundred-meter waterfalls flowing down from the mountain slopes and their transformation into giant ice blocks.

The first who climbed the mountain was Andrei Shepherds in 1892. In 1966 - O. Drozdovsky, and in 1993 - D. P. Shiyanov climbed the mount. Every year, local climbers make the ascent to the peak.

The mount is situated in the territory of Shahdag National Park. The park was established on the basis of Decree No 1814 of the President of the Republic of Azerbaijan dated December 8, 2006. Territory was primarily 115895 hectares. The territory of Shahdag National Park was expanded up to 130508,1 hectares according to the order of the Cabinet of Ministers of the Republic of Azerbaijan dated July 8, 2010.

The aim of the Shahdag National Park is to support the restoration, protection and management of the ecosystems of the globally significant mountainous forests, including endemic and endangered species and trans boundary migratory species. The preservation of the fertile layer of the land, protection and enrichment of fauna and flora, the regulation of the natural complex, the creation of more favorable conditions for scientific research, as well as the environmental monitoring, ecological education of the population and the development of ecotourism in the area are among the essential duties of the national park. This park aims not only at the protection of the ecosystem, but also provision recreational facilities to the visitors and tourists. Beautiful and varied nature, rich flora and fauna of Shahdag National Park will enable to organize and develop ecotourism in the area by attracting tourists and visitors.

The height of the territory of the National Park has a profound impact on its diverse climate, vegetation and the wide variety of the animal world. Here forests are famous for their richness and fascination. Vertical change of the relief, complex climatic conditions and soil cover have contributed to the diversity of vegetation here. The forests are mainly made up of Iberian and Eastern oak, Eastern peanut tree and Caucasian hornbeam. As the forests cover a large area in the National Park, there are both homogeneous and mixed types of forests. In the forests there grow ash-trees, birch, willow, walnut, cherry, apple, pear and other trees; mulberry, medlar, blackberry, barberry, dog rose and other bushes. Most of the animals living in the area are included in the Red book of the Republic of Azerbaijan.

The peaks located in the Shahdag National Park are as follows: *Bazarduzu, Shahdag, Tufandag, Bazaryurd, Yurgent, Chingiz Mustafayev, Ilham Peak, Heydar Peak, Khinalig Mountain, Ragdan Mountain, Babadag, Ataturk Peak, Olympic Peak, Ateshgah, Golden Rock, Salavat overpass, Fiy overpass.*

In terms of biodiversity the Greater Caucasus are one of the richest and at the same time endangered ecological regions. It is also the area where the leafy forests of the third period are located. The largest natural forest ecosystems are available here.

The World Wildlife Fund (WWF) has designated the Caucasus region as one of the 200 Global Eco regions of the world based on its nature's diversity, the degree of endemism, and the criteria for natural habitat.

In Shahdag region, there are species that cover the whole Caucasus fauna. The species inhabiting the area are very important for the territory and are protected as fauna values of the area. These endangered species are included in the Red Book of Azerbaijan and the IUCN Red List.

Tufandag is the mountain which is located in the territory of Guba region. Tufandag is in the Main Caucasian Range. Its height is 4191 m. This peak reminds us the form of the cone. According to the local population, this name is often associated with severe wind, blizzard, and thunderstorms. Because of the most flood and blizzard during the year, it was given the name Tufan that means "storm" in Turkish language. According to a widespread religious narrative, fragments of Noah's ark had fallen into the lakes of this mountain. In the time of the blizzard and breeze these fragments come out to the surface of the water of the lake, and then they disappear when the air calm down. Of course, this is just a legend.

REFERENCES

1. Azərbaycanın Milli Parkları. Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Bakı, 2007, 37 s.
2. Budaqov B.Ə., Azərbaycanın müasir təbii landşaftları. Bakı: Elm, 1988
3. Həbibə Soltanova Azərbaycan Respublikasında turizm və onun inkişafı, Bakı, 2015, s.178-189
4. http://www.eco.gov.az/index.php?pg=86
5. https://mida.gov.az/documents/Turizm_sənayesinin_inkişafına_dair_strateji_yol_xeritesi.pdf
6. http://gsaz.az/ci/Kitabxana/museyibov%20azerbaycanin%20fiziki%20cografiyasi.pdf

Səbinə BABAYEVA
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim
sabina.babayeva89@gmail.com

Müasir bazar şəraitində muzeylərin dayanıqlılığı və inkişaf perspektivləri

Sustainability and prospects for the development of museums in modern market conditions

Устойчивость и перспективы развития музеев в современных рыночных условиях

Xülasə: Azərbaycan mədəni turizmin bir çox növlərini inkişaf etdirmək gücündə olan əhəmiyyətli tarixi-mədəni potensiala malikdir. Bizim ölkə üçün klassik, o cümlədən dünya mədəni irsinin mövcudluğu,etnik qrupların müxtəlifliklərinin, konfessional mühitin və dini mədəniyyətlərin spesifikliyinin, çoxcəhətliliyinin qorunub saxlanması səciyyəvidir. Onlar turizm məhsulunun formalaşması və onun həm daxili, həm də xarici bazarlarda reallaşması, turizm sənayesinin ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi üçün mühüm amil kimi çıxış edirlər.

Açar sözlər: mədəni turizm, muzeylərin inkişafı, mədəni irs, turizm sənayesi.

Резюме: Азербайджан обладает значительным историко-культурным потенциалом для развития многих видов культурного туризма. Для нашей страны существование как классического, так и мирового культурного наследия, сохранение разнообразия, этнической принадлежности, конфессиональной среды и особенностей религиозной культуры очень консервативны. Они выступают в качестве важного фактора формирования туристического продукта и его реализации как на внутреннем, так и на внешнем рынках, что делает индустрию туризма одним из ведущих секторов экономики страны.

Ключевые слова: культурный туризм, развитие музеев, культурное наследие, индустрия туризма.

Abstract: Azerbaijan has significant historical and cultural potential to develop many types of cultural tourism. For our country, the existence of classical as well as world cultural heritage, the preservation of diversity, ethnicity, the confessional environment and the peculiarities of the religious culture are very conservative. They act as an important factor for the formation of tourism product and its implementation both in the domestic and foreign markets, making the tourism industry one of the leading sectors of the country's economy.

Keywords: cultural tourism, development of museums, cultural heritage, tourism industry.

Azərbaycanda mədəni turizmin inkişafında muzeylərin rolunun və əhəmiyyətinin tədqiq edilməsi prosesində mədəniyyət və turizmin ölkə və regionların sosial-iqtisadi inkişafına verdikləri töhənin artması açıq-aşkar müşahidə olunur. Belə olan halda, mədəniyyət və turizmin artmaqda olan qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri hər iki sahənin inkişafı üçün əlavə stimul yaradır və beləliklə də, onun müsbət nəticələrinin artmasını təmin edir. Qarşılıqlı əlaqə turizmin əsasını təşkil edən tələbatların reallaşmasında mədəniyyətin roluna və cəmiyyətin mədəni ehtiyaclarının qarşılanmasına əsaslanır. Beləliklə, mədəni turizm mədəniyyətin və turizmin bir-birilərinə yaxınlaşması üsulu kimi çıxış edir.

Dövlət tərəfindən turizmin inkişafı üçün bir sıra proqramlar işlənib hazırlanmış, bütün regionları əhatə edən yeni turizm təyinat nöqtələri formalaşdırılmış, müxtəlif turizm infrastrukturları yaradılmışdır. Bununla yanaşı, qəbul edilmiş proqramlar üzrə işləri davam etdirməklə, bugünkü gündə müasir turizm sənayesinin davamlı inkişafının və muzeylərin mədəni turizm sahəsinə inteqrasiyasının təmin edilməsi üçün hüquq, vergi, iqtisadi, təşkilati, kadr, informasiya bazasının təkmilləşdirilməsi xüsusi önəm daşıyır. Bu bir tərəfdən bütün turizm sənayesinə investisiyaların qoyulması üçün şərait yaradacaq, digər tərəfdən isə əcnəbi və yerli turistlərin cəlb edilməsinə, həmçinin tarixi-mədəni irsin turistlər tərəfindən mənimsənilməsi prosesinə həmin irsin daxil edilməsi və ölkənin müsbət imicinin formalaşmasına zəmin yaradacaq. Həmçinin, xüsusi əhəmiyyətə malik olan amil ondan ibarətdir ki, muzeylər, tarixi-mədəni irsin daşıyıcıları olmaqla yanaşı, eyni zamanda Bakı şəhərinin və Abşeron yarımadasının geniş mədəni landşaftının elementlərindən biridir. Bu cür mədəni landşaftın mövcudluğu – mədəni turizmin inkişafı üçün çox əhəmiyyətli bir amildir, belə ki, turizm üçün yalnız ayrıca mədəni obyektlər deyil, həmçinin müxtəlif mədəniyyət müəssisələrindən və tarixi-mədəni obyektlərdən: muzeylərdən, qalereyalardan, tarix və mədəniyyət abidələrindən ibarət olan bütün mədəni landşaft əhəmiyyətə malikdir.

Aparılmış tədqiqatlar nəticəsində aşağıdakı qənaətlərə gəlmək olar:

Muzey fəaliyyətinin spesifikasının analizi göstərir ki, müasir dövrdə Azərbaycanda olan muzeylər müəyyən dərəcədə bu və ya digər intensivlik həddində turizm sənayesinə cəlb edilmiş mədəni müəssisələr kimi dəyərləndirilə bilər. Lakin, aparılmış tədqiqatlar və dünyanın aparıcı muzeylərinin uğurlu fəaliyyət təcrübəsinin ümumiləşdirilməsi göstərir ki, turizm sənayesinə hərtərəfli inteqrasiya üçün muzeylərdən aşağıdakılar tələb olunur:

- muzey menecmenti və marketinqi sahəsinə yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsi;
- gündəlik fəaliyyət prosesində müasir innovasiya və internet texnologiya-larının aktiv şəkildə istifadəsi;
- daimi ziyarətçilərlə tərəfdaşlıq əlaqələrinin inkişafı və yeni auditoriyanın cəlb edilməsi istiqamətində iş;
- turizm sənayesinə cəlb edilmiş kommersiya müəssisələri ilə qarşılıqlı sərfəli işgüzar əlaqələrin qurulması;
- muzey dostları cəmiyyətlərinin təşkili və onların muzey tərəfindən həyata keçirilən tədbirlərdə daimi və fəal iştirakı.

Müxtəlif mənbələrdən maliyyə vəsaitlərinin (subsidiyalar, qrantlar, sponsorluq və mesenat yardımları) cəlb edilməsi sahəsində tərəfimizdən aparılmış tədqiqatlar, həmçinin muzey mütəxəssisləri arasında aparılan ekspert sorğular sponsor və mesenatlarla işin aktivləşdirilməsi zərurətinin mövcudluğunu göstərmişdir. Fikrimizcə, təsərrüfat-iqtisadi problemlərin həllindən başqa, milli statuslu muzeylərin adminstrasiyası tərəfindən əlavə maliyyələrin cəlb edilməsi üzrə aparılan bu iş həmçinin mədəniyyətin məqsəd və problemlərinin başa düşülməsindən daha çox insanların cəlb edilməsinə şərait yaradacaq.

Qanunvericilik və normativ-hüquqi aktların ("Muzeylər haqqında" Azərbaycan Respublikasının qanunu, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunu və s.) öyrənilməsi zamanı muzeylərin turizm sənayesinə inteqrasiyası üçün onların fəaliyyətlərinin təşkilinin hüquqi bazasının təkmilləşdirilməsi təhlil edilmiş və onun əsas istiqamətləri müəyyən edilmişdir [2].

Müasir bazar şəraitində muzeylərin dayanıqlı və aktiv fəaliyyəti üçün əlavə maliyyə vasitələrinin cəlb edilməsi məqsədilə qüvvədə olan qanunvericilikdə hüquqi xarakterli aşağıdakı cümlələrin əks olunması zərurəti şərtləndirilmişdir:

- büdcədənkənar maliyyə mənbələrinin cəlb edilməsi sahəsində milli statuslu muzeylərin səlahiyyətlərinin genişləndirilməsi;
- ölkənin statuslu muzeyləri tərəfindən həyata keçirilən layihə və proqramları maliyyələşdirən fiziki və hüquqi şəxslər üçün vergi güzəştləri formasında mədəniyyət sahəsində xeyriyyəçilik fəaliyyətinin dövlət tərəfindən təşviqi;
- muzey xidmətləri və məhsulları üzrə qiymət siyasətinin formalaşdırılması zamanı vergi güzəştlərinin tətbiqi;
- muzeylərlə turizm təşkilatları arasında münasibətlərin hüquqi tənzimlənməsi;
- muzey fəaliyyətinin qiymətləndirilməsinin peşəkar standart və meyarlarının işlənib hazırlanması.

Yuxarıda göstərilən təkliflər "Muzeylər haqqında" Azərbaycan Respublikasının qanununa və digər qüvvədə olan qanunvericilik aktlarına dəyişikliklərin edilməsi yolu ilə həyata keçirilə bilər.

Aparılmış tədqiqat ölkədə turizmin dövlət tərəfindən tənzimlənməsinin daha fəal formada aparılmasının zərurətinə işarə edir. Turizmin inkişafı üzrə mühüm qərarların və proqramların qəbul edilməsinə baxmayaraq, onların həyata keçirilməsi zamanın tələblərinə tam olaraq cavab vermir. Dövlət orqanları ümumilikdə turizm sahəsində müasir tələblərə və xüsusilə muzeylərin turizm sahəsinə inteqrasiyasına cavab verən qanunvericilik bazasının yaradılmasında daha fəal iştirak etməlidirlər. Bundan başqa, onlar turizm sənayesinin maliyyə, vergi, inzibati və s. tənzimlənməsi sahəsində müvafiq iş görməlidirlər. Ölkədə turizmin dövlət tərəfindən tənzimlənməsi turizmin inkişafının miqyası və beynəlxalq turizm xidmətləri bazarında rəqabətin gücləndirilməsi ilə şərtləndirilir[3].

Muzeylərin bazar şərtlərinə uyğunlaşmasına əsasən kifayət qədər inkişaf etməmiş idarəetmə sistemi və bu fəaliyyət sahəsində dünya təcrübəsini nəzərə alan muzey fəaliyyətinin standartlarının olmaması mane olur. Müvafiq dövlət mədəniyyət müəssisələri muzey mütəxəssisləri ilə birlikdə həmin standartları və muzey fəaliyyətinə olan tələbatları formalaşdırmalı, muzeyin profil və tipi nəzərə alınmaqla işçilərin fəaliyyətlərinin effektivlik dərəcəsinin meyarları müəyyən edilməli, idarəetmə və fəaliyyət keyfiyyətinin qiymətləndirilməsi sistemi yaradılmalıdır. Təşkilati xarakter daşıyan amillərlə yanaşı, həm bütövlükdə muzeyin, həm də onun hər bir işçisinin fəaliyyətini stimullaşdıran amillərə xüsusi önəm vermək lazımdır.

Bundan başqa, muzeylərin təşkilati fəaliyyətinin spesifikası tədqiq edilərkən, tərəfimizdən muzeyin xüsusi idarəetmə orqanının – qəyyumlar şurasının yaradılması zərurəti müəyyən edilmişdir. Kollegial orqanın yaradılması üçün ölkədə hüquqi bazanın olmamasını nəzərə alaraq, bu cür şura muzeyin fəaliyyət məsələləri üzrə ixtisaslaşmış tövsiyələr verə biləcək (yəni məsləhətxana rolunu oynayacaq). Xarici muzeylərin fəaliyyət təcrübəsinin öyrənilməsi prosesində biz belə bir qənaətə gəldik ki, müxtəlif profilli peşəkarlardan təşkil olunmuş qəyyumlar şurası muzey direktorunun təkbaşına qəbul etdiyi qərarlarla müqayisədə daha effektiv qərarları qəbul etmək iqtidarındadır.

Muzey işçilərinin idarə edilməsi sahəsində yerli və beynəlxalq təcrübənin öyrənilməsi sayəsində kadr siyasətinin perspektiv istiqamətləri (könüllülərin cəlb edilməsi) aşkar edildi. Onların əməyinin təşkili spesifikası barədə yalnız xarici muzeylərin təcrübəsini müşahidə etməklə fikir söyləmək olar. Bizə elə gəlir ki, könüllülərin köməyi ilə muzey işinin mütəxəssislərinin cəlb edilməsi və saxlanılması problemlərini, həmçinin muzey tərəfindən yerli və xarici turistlərə müxtəlif xidmətlərin göstərilməsi məsələsini qismən həll etmək olar.

Bu tədbirlər müasir bazar tələblərində cavab verməli və ölkəmizin tarixi-mədəni irsinin qorunması və təbliği üzrə uzunmüddətli vəzifələrin həllinə istiqamətlənməlidir. Nəzərə alsaq ki, muzeylərin fəaliyyətlərinin əsas göstəricisi muzey auditoriyasına və ümumilikdə cəmiyyətə təsirindən ibarətdir ki, bu da dövlət tərəfindən maliyyə dəstəyinin zəruri olması ilə nəticələnir. Eyni zamanda, mədəni irsin toplanması, qorunması və nümayişi üzrə funksiyaların icrası ilə yanaşı, muzeylər bazar iqtisadiyyatının reallıqlarını nəzərə almalı, yeni idarəetmə vasitələrini və fəaliyyətin təşkili alətlərini tətbiq etməli, həmçinin mövcud resursların optimal istifadəsi şərti ilə daha keyfiyyətli mədəni məhsulları və xidmətləri istehsal etməlidirlər. Belə olan halda, muzeylərin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi meyarı yerli və əcnəbi turistlərin sayından ibarət olmalıdır.

Muzey fəaliyyətinin təkmilləşdirilməsinin əsasını yekun nəticəyə (muzey ziyarətçilərinin sayı) köklənən idarəetmə konsepsiyası təşkil etməlidir. Bu idarəetmə qərarlarının yekun nəticəyə çatmağa köklənməsini nəzərdə tutur. Bunları nəzərə alaraq, ümumi menecmentin peşəkarlıq səviy-

yəsinin artırılması, heyətin idarə edilməsinin müasir formalarının mənimsənilməsi və tətbiqi, fəal PR (İctimaiyyətlə əlaqə) fəaliyyətinin həyata keçirilməsi hesabına idarəetmənin keyfiyyətini artırmaq lazımdır [7].

Buna görə də, müəllif tərəfindən aparılmış tədqiqatlar əsasında bütün muzey bölmələrinə aktiv və razılaşdırılmış şəkildə fəaliyyət prosesində iştirak etməyə, xarici marketinq sahəsi ilə effektiv şəkildə qarşılıqlı fəaliyyət qurmağa, göstərilən cəhdləri məhsuldar və məqsədyönlü şəkildə paylaşdırmağa, ziyarətçilərin tələblərini qarşılamağa, bununla da öz məqsədlərinə çatmağa və müasir iqtisadi şəraitdə daha böyük uğurla fəaliyyət göstərməyə şərait yaradan, muzeylərin menecment sisteminin formalaşması üzrə təkliflər verilmişdir.

Muzeyin idarəetmə üsulları və onun təşkili muzeyin məqsədləri, strategiyası və vəzifələri ilə əlaqəli olmalıdır. Məqsəd və strategiyalar, konkret vəzifələr dəyişir, onların ardı ilə təşkilat və metodlar da dəyişikliklərə məruz qalır. Buna görə də, muzeylərin rəhbərliyi problemləri vaxtında aşkar etməli, vəzifələri düzgün müəyyən etməli, muzeyin missiyasını ölçüb-biçməli, nəticələrin əldə edilməsi üçün resursları müəyyən etməlidir.

Müasir muzey menecmentində marketinq əsas yerə malikdir. Bununla əlaqədar olaraq, muzey fəaliyyətinin aktivləşməsində müsbət tendensiyaların uzunmüddətli perspektivdə yaradılması və qorunması üçün zəruri olan marketinq planının əsas tərkib hissələri işlənib hazırlanmalıdır. Daxili və xarici mühitdə baş verə biləcək dəyişiklikləri öncədən görməyi təmin edən marketinq planı muzey strukturlarına və məhsullarına uyğunlaşdırılmalıdır. O muzeyin marketinq strategiyasının reallaşdırılması üçün zəruridir [9].

Muzey marketinqinin formalaşmasının əsasını muzey tərəfindən razılaşdırılmış strateji qərarların qəbul edilməsi nəticəsində meydana çıxan ümumi ideya təşkil edir. Muzey, öz fəaliyyətinin məqsədlərinə əsaslanaraq, müxtəlif mədəni institutların, kommersiya təşkilatlarının və fərdi şəxslərin cəlb edilməsindən ibarət olan müxtəlif marketinq proqramlarını formalaşdıra bilər. Burada muzeyin tərəfdaşları kimi digər muzeylər, sərgi zalları və qalereyalar, teatrlar və konsert təşkilatları, mədəniyyət sahəsinin və digər sahələrin müxtəlif təşkilat strukturları, turizm agentlikləri, kütləvi informasiya vasitələri, nəqliyyat təşkilatları və digər qurumlar çıxış edə bilər. Bu cür əməkdaşlıq maliyyə mənbələrinin genişləndirilməsində, daha effektiv marketinq və menecmentin həyata keçirilməsində milli statuslu muzeylərə köməklik göstərə bilər. Uğurlu birgə fəaliyyətin əsasını muzey və digər fəaliyyət sahələrinin birgə inkişafına əsaslanan strategiya təşkil edir ki, bu da muzeyin yeni istehlakçı kateqoriyası tərəfindən kəşf olunmasına şərait yaradır. Bazar tələblərinin meydana gətirdiyi bu amillər regionun həyatını yerli əhali, turistlər, sahibkar və investorlar üçün daha cəlbedici etməklə, mühüm rol oynamaq iqtidarındadırlar [8].

Dünya təcrübəsi göstərir ki, muzeylərin turizm sənayesinə yaradıcı və düşünülmüş inteqrasiyası qarşılıqlı sərfəli olan əməkdaşlığın yoludur. Bundan başqa, mədəni irs obyektlərinin maliyyə dəstəyinin imkanları onların turizm proqramlarına daxil edilməsindən daha çox asılıdır. Yerli və əcnəbi turistlər məhz turizmin sayəsindən unikal dəyərlərlə tanış olmaq fürsətini əldə edirlər.

Tədqiqat prosesində aşkar edilmişdir ki, turizm sənayesində müəyyən iştiraka baxmayaraq, ölkənin muzeyləri mədəni turizm sahəsinə inteqrasiya etmələri üçün malik olduqları tarixi-mədəni potensialdan yetərincə istifadə edə bilmirlər. Ölkənin muzeyləri malik olduqları mədəni potensial sayəsində yerli və əcnəbi turistlərin hədəf qrupları üçün mədəni brendləri formalaşdırmalıdırlar. Onlar turizm bazarının aktiv iştirakçılarına çevrilməli, turizm məhsulunun formalaşmasında, irəliləməsində və reallaşmasında turizm agentlikləri ilə uğurlu qarşılıqlı fəaliyyət qurmalıdırlar.

Belə olan halda, spesifik resurs və təcrübələrdən istifadə etməklə, milli statuslu muzeylər ölkənin müsbət imicinin formalaşmasına, turistləri, investorları və tədqiqatçıları cəlb edən mədəni brendlərin yaradılmasına təsir edəcək.

Hazırda dünyanın aparıcı muzeyləri aktiv şəkildə daimi ziyarətçilərlə əlaqə və yeni auditoriyanın cəlb edilməsi ilə əlaqəli olan öz fəaliyyətlərində müasir kommunikasiya formalarından istifadə edirlər. İnternet və müxtəlif sosial şəbəkələr müsbət imicin yaradılmasından tutmuş öz məhsullarının turizm bazarlarına çıxarılmasına qədər muzeyin gündəlik fəaliyyətinə çevrilmişlər. Lakin, tədqiqat prosesində aşkar edilmişdir ki, ölkənin muzeyləri müasir innovasiya resurslarından kifayət qədər istifadə etmirlər. İnternetdən istifadə əsasən muzey saytının işinin dəstəklənməsi ilə məhdudlaşır.

Turizm sənayesinə uğurlu inteqrasiya və davamlı inkişaf üçün onlar muzey informasiya mərkəzlərinin, elektron ekspozisiyaların və virtual turların, mobil cihazlar üçün muzey əlavələrinin yaradılması zamanı dünyanın aparıcı muzeylərinin təcrübələrindən istifadə etməlidirlər. Bu və ya digər muzeyin informasiya və kommunikasiya proseslərində (regional, milli və ümumdünya) iştirak dərəcəsi onun həm cəmiyyətdə, həm də mədəni turizm sahəsindəki rolunu, əhəmiyyətini və effektivliyini müəyyən edir. Nəzərə alsaq ki, informasiya texnologiyaları muzeyin inkişafının, muzey auditoriyasının cəlb edilməsinin və genişlənməsinin ən mühüm alətlərindəndir, milli statuslu muzeylər, muzey mövzusunda müxtəlif məqalələri ehtiva edən saytlardan başqa muzey ekspozisiyaları haqqında geniş məzmunlu kataloqlarını, video və audio resurslarını yaratmalı, virtual turlar təşkil etməli və sosial şəbəkələrdə iştirakını genişləndirməlidir.

Ölkənin muzeyləri qarşısında duran və onların tanınmasını və turizm cəlbediciliyini artıran prioritet vəzifələrdən biri onların beynəlxalq fəaliyyətidir. Muzeylərin beynəlxalq fəaliyyətinin uğurla həyata keçirilməsi üçün aşağıdakıların təmin edilməsi zəruridir:

- aparılan sərgi mübadilələri çərçivəsində muzeylərin hüquqi cəhətdən müdafiəsini möhkəmləndirən hüquqi və maliyyə mexanizmlərinin yaradılması;
- beynəlxalq rəqəmsal resursların və ekspozisiyaların çoxdilli informasiya müşayiətinin yaradılmasına dəstəyin göstərilməsi;
- muzeylərin beynəlxalq təşkilatların fəaliyyətində iştirakına və mövqelərinin möhkəmləndirilməsinə dəstəyin göstərilməsi;
- muzeylərin xarici və yerli muzey müəssisələri ilə əməkdaşlığının inkişafına dəstəyin göstərilməsi.
- muzeylərin uğurlu inteqrasiyasına istiqamətlənmiş elmi tövsiyələr qismində aşağıdakıları təklif etmək olar:
- muzeylərin fəaliyyətlərinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi;
- işin idarə edilməsi və təşkili formalarının geniş istifadəsi;
- muzeylərin işində informasiya və kommunikasiya texnologiyalarının aktiv şəkildə tətbiqi;
- turizm şirkətləri ilə müxtəlif istiqamətli və qarşılıqlı səmərəli münasibətlərin qurulması;
- muzeylərdə ziyarətçilər üçün komfortlu mühitin yaradılması;
- öz gəlirlərindən fəal istifadə və sponsor xeyriyyəçilik vəsaitlərinin cəlb edilməsi;
- beynəlxalq fəaliyyətin aktivləşdirilməsi;
- yeni iqtisadi şəraitdə effektiv iş üçün muzeylərin kadr təminatı mexanizminin təkmilləşdirilməsi.

Göründüyü kimi Azərbaycanda muzeylərlə turizm müəssisələri arasında olan əməkdaşlıq Avropa ölkələri qədər inkişaf etməyib. Bunun üçün hər iki tərəfin marağı olmalıdır- həm muzeylərin, həmdə turizm müəssisələrinin. Əgər muzeylərimiz dünyanın aparıcı muzeylərindən hər hansı birinin idarəetmə strategiyasını seçərək Azərbaycan reallıqlarına uyğunlaşdıraraq istifadə edərsə və turizm şirkətləri ilə işbirliyini bu prinsipə, bu modelə uyğun qurarsa daha məqsədəuyğun olar və muzeylərin turizm sahəsinə inteqrasiyası məsələsi həll olunmuş olar. Bununla da ölkəmizdə fəaliyyət göstərən muzeylər mədəni turizmin əsas hissəsinə çevrilə bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının 24 mart 2000-ci il tarixli № 839-IQ "Muzeylər haqqında" Qanunu. www.president.az
2. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında"6 mart 2007-ci il tarixli 2013 nömrəli Sərəncamı. www.president.az
3. Azərbaycan Respublikasının 4 iyun 1999-cu il tarixli № 674-IQ "Turizm haqqında" Qanunu. www.president.az
4. Mədəni turizm Azərbaycanda kreativ iqtisadiyyatın aparıcı inkişafı kimi. /05.07.2017/: http://www.-1news.az/az/news/m-d-ni-turizm-az-rbaycanda-kreativ-iqtisadiyyat-n-apar-c-inki-af-kimi-fo
5. Sofiyada "Azərbaycan muzeyləri. Muzeylər - mədəni turizmin cəlbedici obyektləri" konfransı. /30.09.2017/:https://az.trend.az/azerbaijan/culture/ 2802582.html
6. Richards Greg. The social context of cultural tourism. In Richards, G. (ed.) Cultural Tourism in Europe. Wallingford: CAB International, 1997, 254 p.
7. Silberberg T. Cultural tourism and business opportunities for museums and heritage sites. Tourism Management. Volume 16, issue 5, 1995, c. 361-365.

8. Tighe A. Cultural tourism in 1989. Paper presented at the 4th Annual Travel Review Conference, Washington, DC, 1990.
9. The Louvre Welcomes 8.6 Million Visitors in 2015: http://presse.louvre.fr/86-millions-de-visiteurs-aumusee-du-louvre-en-2015_ 5037_5037/
10. UNESCO Universal Declaration on Cultural Biodiversity. http://unesdoc.unesco.org/images/0012/-001271/127160m.pdf.
11. UNWTO Tourism Highlights, 2016 Edition:http://www.e-unwto.org/doi/pdf/10.18111/9789284418145.
12. UNWTO Press Release no.: PR 17038 of 29 Mart 2017: http://media.unwto.org/press-release/2017-03-29/international-tourists-european-union-reach-almost-half-billion-2016.

Əfqan QASIMZADƏ
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu,
doktorant
efqan.qasimov@mail.ru

Qədim Qəbələ şəhər yerində aparılmış arxeoloji qazıntıların orta əsrlər dövrünün keramikasının öyrənilməsində və turizmin inkişafında rolu

Роль археологических раскопок в древней Габале в изучении средневековой керамики и развитии туризма

Role of archeological excavations in ancient Gabala in the study of medieval ceramics and development of tourism

Xülasə: Qədim Qəbələ şəhər yerində son illərdə aparılmış arxeoloji qazıntılar zamanı şirsiz, şirli və inşaat keramikasına aid xeyli miqdarda maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Bu nümunələr ilə digər ərazilərdə aşkar olunmuş maddi-mədəniyyət nümunələri arasında oxşar və fərqli əlamətlərin olduğu müəyyən edilmişdir. Şirsiz, şirli və inşaat keramikasına aid tapıntılar əsasında həmin qabların və tikinti materiallarının hazırlanma texnologiyasını müəyyən etmək mümkündür
Açar sözlər: Arxeoloji qazıntılar, keramika, turizm

Abstract: During the recent archaeological excavations in ancient Gabala, a large number of non-glazed, glazed and construction ceramics artifacts were discovered. The similarities and differences of these examples and the material and cultural samples found in other areas have been identified. Based on the findings of non-glazed, glazed and construction ceramics, it is possible to determine the technology of manufacturing of these artifacts and building materials.
Key words: Archeological excavations, ceramics, tourism

Резюме: В ходе недавних археологических раскопок в древней Габале было обнаружено большое количество незакрытых, застекленных и строительных керамических артефактов. Были выявлены сходства и различия этих примеров и найденных в других областях материальных и культурных образцов. На основании находок незаколенной, глазурованной и строительной керамики можно определить технологию изготовления этих артефактов и строительных материалов.
Ключевые слова: Археологических раскопок, керамика, туризм

Qədim Qəbələ şəhər yerində əvvəlki illərdən fərqli olaraq 1959-cu ildən etibarən arxeoloji tədqiqatlar geniş şəkildə aparılmağa başlanmışdır. Qaraçay və Qocalançayları arasında yerləşən Çaqqallı ərazisi təxminən 50 hektardır. Çaqqallıda şəhər həyatı kəsildikdən sonra Səlbir və Qalada həyat başlanıb. XI əsrdən etibarən isə şəhərin ancaq Qala hissəsində həyat davam etmişdir. 1990-cı ildən etibarən isə arxeoloji ekspedisiyaların fəaliyyəti tam dayandırıldı, 18 illik fasilədən sonra, 2008-ci ildə SEBA (Seul-Bakı) Azərbaycan–Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının maliyyə dəstəyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən yenidən arxeoloji tədqiqatlara başladı. AMEA-nın müxbir üzvü, arxeoloq

İ.Babayevin rəhbərlik etdiyi dəstə antik Qəbələdə, arxeoloq Q.Cəbiyevin rəhbərlik etdiyi orta əsrlər dəstəsi isə şəhərin Qala hissəsində tədqiqat işləri aparmışdır.

Məlumdur ki, orta əsrlərin məişət keramikası hazırlanma texnologiyasına görə şirli və şirsiz olmaqla iki əsas qrupa ayrılır. Qəbələ şəhəri yerinin Qala ərazisində arxeoloq Q.C.Cəbiyevin rəhbərliyi ilə son illərdə aparılmış arxeoloji tədqiqatlar zamanı şirsiz və şirli keramikaya, eyni zamanda inşaat keramikasına aid xeyli miqdarda maddi-mədəniyyət nümunələri müəyyən olunmuşdur.

2005-2013-cü illərdə Qəbələ şəhər yerinin Qala və Səlbir ərazilərində aparılan arxeoloji qazıntılar zamanı aşkar olunmuş tapıntılar əsasında Qəbələnin XI-XIII əsr şirsiz saxsı məmulatını çeşid müxtəlifliyi cəhətdən aşağıdakı kimi göstərmək olar:

1.İri ölçülü təsərrüfat küpləri;
2.Çıraqlar;
3.Küpə tipli qablar;
4.Mehtərə tipli qablar;
5.Qazanlar;
6.Dolça tipli qablar;
7.Aftafa tipli qablar;
8.Bardaqlar;
9.Badya tipli qablar;
10.Tabaq (dövrə) tipli qablar;
11.Səhəng tipli qablar;
12.Şar-konusvari qablar.

Qala ərazisində aşkar olunmuş şirsiz saxsı məmulatının böyük bir qrupunu çıraqlar təşkil edir.



Şəkil 1

Qəbələ şəhər yerinin Qala ərazisindən tapılmış belə çıraqlardan birinin (şəkil 1) hündürlüyü 6,5, uzunluğu 14,5, oturacağının diametri 5,5, ağzının diametri isə 4,5 sm-dir.

Şirsiz saxsı qabların bir qrupunu təşkil edən küpə tipli qablar da əsasən əhalinin ehtiyacı zərurətindən istehsal olunmaqla, bu növ qablarda ağartı məhsulları saxlanılmışdır. Belə ki, ehtiyat ağartı məhsullarının uzun müddətli saxlanılması və ilin müxtəlif vaxtlarında istifadə olunması üçün küpə tipli qablardan geniş istifadə olunmuşdur.

Qala ərazisində 2013-cü ildə aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunmuş, XI əsrə aid olan (şəkil 2) göstərilən küpə nümunəsi aşkar olunmuş digər küpələrdən xarici görünüşünə görə fərqlənir.



Şəkil 2

Bu küpənin boğaz hissəsi nisbətən uzun olmaqla, qabın boğaz hissəsinə iki zolaqlı dalğavarı xətlərlə cızıq çəkilmişdir. Küpənin ağzının diametri 4, oturacağının diametri 4,3, hündürlüyü isə 7,5 təşkil edir.

Şirsiz saxsı məmulatı çeşidləri içərisində əhalinin geniş istifadə etdiyi qablardan biri də bardaqlar olmuşdur. Arxeoloji qazıntılar zamanı Qala ərazisindən orta əsrlərin müxtəlif dövrlərinə aid, o cümlədən XI-XIII əsrlərə aid xeyli sayda bardaq nümunələri aşkar olunmuşdur. Arxeoloq Q.C.Cəbiyev bardaqların mayelərin sərin saxlanması üçün əhəmiyyətli olduğunu göstərmişdir.

Qəbələ şəhər yerində müxtəlif illərdə aparılmış arxeoloji qazıntılar zamanı digər dövrlərlə yanaşı, XI əsrə aid olan xeyli miqdarda bardaq nümunələri aşkar olunmuşdur ki, bu da əhalinin bardaqlardan geniş istifadə etdiyini deməyə əsasə verir. Həmçinin, XI əsrin bardaqları ümumi forma etibarilə XII-XIII əsrlərin və son orta əsrlər dövrünün bardaqlarına oxşasalar da, XI əsrdə əsas etibarilə darboğaz bardaqlar üstünlük təşkil etmişdir.



Şəkil 3

XI-XII əsrlərə aid olan və Qala ərazisində aşkar olunmuş (şəkil 3) göstərilən bardaq nümunəsi, şirsiz olmaqla darboğaz bardaqdır. Bardağın oturacağının diametri 3,8, hündürlüyü 8,5 sm-dir. Arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş digər şirsiz keramika nümunələri say etibarilə çoxluq təşkil etməklə bu qabların özünə məxsus forma və hazırlanma texnologiyaları olmuşdur.

Qala ərazisindən aşkar olunmuş nümunələrin əsasında XI-XIII əsrlərdə inşaat keramikasının - kərpicin, kirəmitin, kaşı istehsalının, şəhərin su təchizatını təmin edən su xətlərinin quruluşu, çəkilmə texnologiyalarının müəyyənləşdirilmək mümkündür. Şəhərin Qala ərazisində 2008-ci ildə aparılmış arxeoloji tədqiqatlar zamanı qala divarının qalıqları, su xəttinin qalığı müəyyən edilmiş oldu. Qeyd edək ki, su xəttini çəkilməsində uzunluğu 95 sm, enli yerdə diametri 8, dar yerdə isə 5,5 sm olan saxsı borulardan istifadə olunmuşdur. Maraqlıdır ki, 2009-cu ilin arxeoloji tədqiqatları da digər illərlə yanaşı məhsuldar olmuşdur. Belə ki, 2009-cu ildə Qala ərazisində Qəbələdə ilk dəfə olaraq iki hamam otağı aşkar olunmuşdur.

İnşaat keramikasında xüsusi əhəmiyyətə malik olan kərpic və kirəmit nümunələri aşkar olunmuş tapıntılar içərisində çoxluq təşkil edir.



Şəkil 4

Şəkil 4-də təqdim olunan kirəmit fraqmenti XI-XII əsrlərə aiddir. Həmin kirəmitin qalınlığı 2, mövcud hissəsinin uzunluğu isə 22 sm-dir. Kirəmit nümunəsinə əsasən deyə bilərik ki, kirəmitlərin nisbətən qalın hazırlanması onları həm qırılmadan qoruyur, həm də dəyirmi forma həmin kirəmitlərin müəyyən ardıcıllıqla tikililərin üzərinə çəkilməsini daha da asanlaşdırırdı.

Göründüyü kimi Qəbələnin XI-XIII əsrlər dövrünün inşaat keramikasına aid arxeoloji qazıntılar zamanı zəngin maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Hansı ki, bu tapıntılar dövrün inşaat keramikası haqqında aydın təsəvvür yaradır.

Dünyanın müxtəlif ölkələrində turizm növlərindən biri də arxeoloji turizm təşkil edir. Ölkəmizə turist cəlbinə imkan verən bu turizm növünün Azərbaycanda da inkişaf etdirilməsi xüsusi əhəmiyyətə malikdir. Çünki, ölkəmizin tarixi-arxeoloji abidələrlə zənginliyi bu sahənin daha da inkişaf etməsi üçün geniş imkanlar açır. Arxeoloji turizm üçün Qəbələ şəhəri xüsusilə əlverişli olmaqla bu şəhərin böyük əhəmiyyəti vardır.

Qəbələnin Çuxur-Qəbələ kəndində inşa olunan Qəbələ Arxeoloji Mərkəzinin açılışı 2014-cü il sentyabr ayının 22-də oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qəbələ Arxeoloji Mərkəzinin açılışında iştirak etmişdir. Qəbələ Arxeoloji Mərkəzi üçmərtəbəli binası sərgi salonu, arxeoloji fond, bərpa laboratoriyası, konfrans zalı və arxeoloqların çalışdığı otaqlardan ibarətdir. Bu, mərkəzin açılışı və dövlət səviyyəsində arxeoloji tədqiqatların aparılmasına diqqət və qayğının göstərilməsi bir daha qeyd olunan sahənin ölkəmizdə diqqət mərkəzində olmasının əyani göstəricisidir. Ölkəmizə gələn turistlər həm Qəbələdə Arxeoloji mərkəzlə, həm də Qala və Səlbir ərazilərində aparılan arxeoloji tədqiqatlarla geniş tanış olurlar ki, bu da tarixi faktların dünya ictimaiyyətinə çatdırılmasında xüsusi əhəmiyyətə malik olmaqla yanaşı, eyni zamanda turizmin inkişafına dəyərli töhfədir.

Vüsalə BEYDULLAZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti
İbeydullazade@mail.ru

Şirvanşahlar sarayı kompleksi və turizm

Shirvanshahs palace complex and tourism

Ширваншахс палас комплекс и туризм

Xülasə: Bu gün Azərbaycanda neft sənayesindən sonra ikinci yerdə turizm sahəsi durur.Tarixi mədəniyyət abidələri turizmin inkişafına təsir göstərən,ölkənin turistlər üçün cəlbedici olmasını şərtləndirən mühüm faktorlardanldır.Şirvanşahlar Saray Kompleksi öz tarixiliyinə görə YUNESKO-nun Dünya Mədəni İrs Siyahısına daxil olmaqla Yaxın Şərqin ən görkəmli memarlıq abidələrindən biri sayılır.Buna görə də bu tarixi məkana turist axını gündən-günə artır.Turizm isə öz növbəsidə ölkənin mədəni irsinin dünyaya tanıdılmasında mühüm rol oynayır.

Açar sözlər: Turizm,Bakı,Şirvanşahlar Saray Kompleksi,İçərişəhər,Mədəni İrs

Резюме:Туризм сейчас второй в Азербайджане после нефтяной промышленности. Историко-культурные памятники являются одним из важнейших факторов, влияющих на развитие туризма и делающих страну привлекательной для туристов. Поэтому поток туристов в это историческое место увеличивается день ото дня. Туризм играет важную роль в продвижении культурного наследия страны.

Ключевые слова: Туризм, Баку, Дворцовый комплекс Ширваншахов, Ичери Шехер, Культурное наследие

Abstract: Tourism is now second in Azerbaijan after the oil industry. Historical cultural monuments are one of the important factors affecting the development of tourism and making the country attractive for tourists. Therefore, the flow of tourists to this historical place is increasing day by day. Tourism plays an important role in promoting the cultural heritage of the country.

Key words: Tourism, Baku, Dvortsky complex Shirvanshakhov, Icheri Sheher, Cultural Heritage

Turizm elə bir sahədir ki,bu sahədə dünya ölkələri həm gəlir əldə edir,həm də öz sahib olduğu təbii nemətlərini,mədəniyyətini,görməli yerlərini sərgiləyə bilirlər.Turizm sahəsi inkişaf etmiş ölkələr həm də ən çox tanınmış ölkələrdir.Azərbaycanda da turizm uzun müddət mövcud olsa da lakin son dövrlərdə inkişaf etməkdədir.Azərbaycanda həm də region turizmləri inkişaf etmişdir.Səfalı yerlər, tarixi abidələr turizmə daha aktivlik qatır.

Turizm əsasən sosial-iqdisadi sahə kimi XIX əsrin ortalarından inkişaf etməyə başlamışdır.Bu dövrə qədər isə turizm fərdi gəzinti və səyahət xarakteri daşımış,qeydiyyata düşmədən müxtəlif əraziləri, ölkələri gəzən adamlara "turist" demişlər.1954-cü ildə Birləşmiş Millətlər Təşkilatının yığıncağında "Turizm"sözü müzakirə olunmuş,onun beynəlxalq mahiyyəti, kulturoloji və sosial-iqdisadi əhəmiyyəti müəyyənləşdirilmişdir.Yenə BMT-nin 1963-cü ildə keçirilən Roma Konfrnsında isə "turist" nlayışına konkret tərif vermək cəhdi edilmişdir. Sözsüz ki, bu konfransda turizmə konkret tərif verə bilməmişlər.Lakin hal-hazırda turizm bütün dünya miqyasında sosial-iqdisadi və kulturoloji sahə kimi inkişaf etdiyinə görə onun haqqında müxtəlif elmi ədəbiyyatlar meydana gəlmişdir.Bu istiqamətdə Azərbaycan alimlərinin də müəyyən nəaliyyətləri vardır.Bunlardan S.T.Yeqanlının, E.M.Hacıyevin, C.A.Məmmədovun, B.Ə.Bilalovun və başqalarının adlarını xüsusi olaraq qeyd etmək olar.B.Ə.Bilalov "turizm"sözünün mənasını aşağıdakı formda izah etmişdir: "Turizm Fransız sözü olmaqla mənası fiziki şəxslərin müvəqqəti olacağı ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərti ilə istirahət,sağlamlaşdırma,tanış olma,idraki (Tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və s.),iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla),idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələridir (səyahətləridir)".Qeyd etmək lazımdır ki,ədəbiyyatlrda kütləvi turizmin ilk təşkilatçısı ingilis Tomas Kuk adlı şəxs hesab olunur.O, hələ 1841-ci ildə Lankasterdən Dolnqboruqa qədər dəmir yolu ilə 570 nəfərin kütləvi gəzintisini təşkil etmişdir.Bu hadisə ilə də Tomas Kuk müasir turozmin əsasını qoymuşdur.O,1847-ci ildə səyahət və ekskursiyalar cəmiyyəti yaratmış,bir qrup zəngin ingilis vətəndaşının Aralıq dənizində səyahətini təşkil etmişdir.XIX əsrin sonunda Tomas Kuk tərəfindən yaradılmış bu cəmiyyət 54 ölkədə fəaliyyət göstərən və 324 şöbəsi olan möhtəşəm bir konsernə çevrilmişdir.Həmin konsernin 12.000 əməkdaşı olmuşdur.[4]

Turizm sahəsində aktuallıq gündən-günə artır və bu da tam olaraq göz qabağındadır. Azərbaycan da bu sahədə artıq öz mövqeyini yavaş-yavaş tutmağa başlayır.Bu gün mütəxəssislər Azərbaycan turizminin nkişafını 4mərhələyə bölürlər.Birinci mərhələ qədim dövrlərdən XIX əsrin əvvəllərinə qədər olan zamanı əhatə edir.Ölkəmizdə səyahətlər ticarət,dini,siyasət və dərketmə məqsədli olmuşdur.Keçmiş zamanda Azərbaycan ərazisindən keçən ticarət karvaarını ilk səyahətlərdən hesab etmək olar.Karvan ticarət yolu Orta Asiya və Qafqazdan keçməklə,Çini Aralıq dənizi və Avropa ölkələri ilə birləşdirirdi.Onu da qeyd edim ki,XIX əsrdə Alman tədqiqatçısı və coğrafiyaşünası Ferdinand Fon Rixthofen bu yolu "Böyük İpək Yolu" (BİY) adlandırmağı təklif etmişdir və bu təklif də hamı tərəfindən qəbul edilmişdir.

Böyük İpək Yolu Azərbaycana olan marağı bir qədər də artırmışdı.Bu yolun istifadəsi haqqında bir sıra fərziyyələr də mövcuddur.Bir sıra mənbələrə görə bu yolla aparılan ticarət mübadiləsi eramızdan əvvəl III-II minilliyə təsadüf olunur.Başqa mənbələrdə isə daha qədim olduğu qeyd edilir. Antik müəlliflərin qeydlərinə görə isə BİY-in ən fəal hissələrindən biri Qafqaz Albaniyasından keçirdi.Qeyd edilən yol elmi dairələrdə "Strabon Yolu" kimi qeyd olunur.Həmin zamanlarda ticarət ölkə üçün önəmli gəlir sahəsi olduğu üçün karvan yolunun təhlükəsizliyinə də diqqət yetirirdilər, yollar, körpülər təmir edilirdi,silahlı mühafizə ilə müşayiət olunurdu.

Müxtəlif dövrlərdə Azərbaycanda olan tacirlərin, səyyahların, diplomatların, yazıçı və şairlərin (Heredot,Marko Polo,Əbu Yaqub,Evliya Çələbi,Yan Streys,Fedor Kotov,Aleksandr Düma və b.) Səyahətə dair qeydlərində Azərbaycan,onun qonaqpərvər xalqı haqqında müsbət qeydlər etmiş, xoş sözlər Azərbaycanda olan əcnəbi qonaq və səyyahların demək olar ki, hamısı sənətkarlığın və ticarətin inkişafını qeyd etmiş,xalqın qonaqpərvərliyindən, adət-ənənələrindən, səmimiyyətdən söz açmışlar.

Azərbaycanda turizmin II inkişaf mərhələsi Rus imperiyası tərkibində olan dövrünə təsadüf edir (1806-1918).Bu mərhələdə Azərbaycan ekskursiya-turizm işinin inkişaf etməsi Rusiya ilə sıx bağlıdır.1806-cı ildə Bakı xanlığı Rusiyanın tərkibinə daxil olur və o vaxtlar Bakı nefti ilə bağlı söhbətlər,xəbərlər buraya mütəxəssislərin,işbazların,macəra axtaranların axınına səbəb olmuşdur.

Bakının realni məktəbinin pedaqoji şurasının 13mart 1913-cü il qərarı ilə paxsa tətili günlərində 3-5 sinif şagirdləri Bakı-Krosnovdsk-Aşqabad-Buxara-Səmərqənd və geriyə Turan ovalığının flora var fausnası ilə tanışlıq,tarixi yerlərə, muzeylərə baxış məqsədilə 12günlük ekskursiya təşkil edilmişdir. Dövlət arxivində Bakı texniki məktəbinin 34 şagirdinin 25iyun 1914-cü ildə Pyatiqorsk şəhərində keçirilən gedilməsi haqda sənəd vardır.

Üçüncü mərhələ Sovetlər ölkəsinin tərkibində olduğu dövrə təsadüf edir (1920-1991).1917-ci ildə baş verən çevrilişdən sonra bu vaxta qədər mövcud olan turizm hərəkatının təşkili formaları, özəl turizm klubları,Rusiya Turizm Cəmiyyəti öz fəaliyyətini dayandırsalar da məktəblərdə ekskursiya işinin inkişafı üçün Xalq Maarif Komissarlığının nəzdində 1919-cu ildə ekskursiya bölməsi yaradıldı.Yaşlı əhali arasında isə ekskursiyaların təbliği Baş Siyasi Maariflənmə idarəsinin ekskursiya bürosuna,eksursiya metodikasının hazırlanması isə Həmkarlar ittifaqına həvalə edildi.

Sonrakı illərdə Azərbaycanda turizm-ekskursiya işində mütərəqqi ferqlilik, yeniliklər olmuşdur. Bununla da turizmin maddi-texniki bazası genişlənmiş, zəhmətkeşlərin istirahətinin təşkilində yeni xidmət formaları, turist qatarları, çay gəmiləri,Xəzərdə kabotaj gəmiçilik və s. meydana gəlmişdir. Ölkə zəhmətkeşlərinin yay istirahəti üçün 1962-ci ildə Nabranda (Xaçmaz rayonu) Bakı Turizm bazasının filialı fəaliyyət göstərmişdir. Daha sonra isə Sumqayıtda, Gəncədə,Naftalanda və Bakının Mərdəkan qəsəbəsində Turizm büroları fəaliyyət Bakı da 1973-cü ildə o dövr üçün Respublikamızda ən böyük mehmanxana kompleksi "Azərbaycan" mehmanxanası istifadəyə verildi. Azərbaycan Respublikasının turizm sahəsində inkişafına ilə ən böyük addım 1983-cü ildə o zaman SSR Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev cənablarının birbaşa təşəbbüsü və rəhbərliyi ilə Xəzərin Azərbaycan sahillərində Ümumittifaq əhəmiyyətli kurort zonasının yaradılması barədə qərar qəbul edildi.Daha sonra atılan addımla Nazirlər Sovetinin 1984-cü il 2 oktyabr tarixli 381 saylı qərarına əsasən Azərbaycan Respublikasında 2000-ci ilə qədər turizm inkişafı sxemi qəbul olunur. Sxemə uyğun olaraq da Azərbaycanda onlarla turizm binaları tikilməli idi.Bunun da 70%-i Xəzər sahillərində,30%-i isə digər regionlarda inşa olunmalı idi.Əfsuslar olsun ki, həm obyektiv, həm də subyektiv səbəblərə görə layihənin həyata keçirilməsinə mane oldu.

Sonuncu yəni dördüncü mərhələ Azərbaycan Respublikasının müstəqillik dövrü idi (1991-ci ildən sonra). Mənfur qonşuların yürütdüyü siyasət nəticəsində Respublika turizminə böyük ziyan dəyməsinə baxmayaraq müstəqilliyin ilk illərindən başlayaraq regionlarda (Yevlaxda, Cəlilabadda, Ağcabədidə, Şəmkirdə, Qax və Beyləqanda) yeni ekskursiya büroları açıldı.1990-cı ildə Naxçıvan Turizm ekskursiya birliyi yarandı və 2003-cü ildə həmin birlik Bakıda öz nümayəndəliyini açdı. Onu da deyim ki,müstəqilliyimizin ilk on illiyində Azərbaycanda əsasən getmə turizmi vüsət aldı. Sərhədlərin açılması, gediş-gəlişin liberallaşdırılması,dükan-bazarların boşluğu ölkə əhalisinin xarici ölkələrə üz tutmasını stimullaşdırmışdı.O zaman xaricə gedənlərin sayı ölkəyə gələn turistlərin sayından qat-qat çox idi.Turizmin inkişafı üçün H.Ə.Əliyevin 18 aprel 2001-ci ildə imzaladığı fərmanla Gənclər,İdman və turizm nazirliyi yarandı.Prezidentin 27 avqust 0l-ci il tarixli 1029 saylı sərəncamı ilə "2002-2005-ci illər üçün turizmin inkişafının Dövlət Proqramı" və bununla əlaqədar "Tədbirlər və planlar" təstiq edildi.1029 saylı sərəncama əsasən Respublikada turizm marşrutlarını yaradıldı və beynəlxalq standartlara cavab verən 4 əsas (Bakı-Xaçmaz,Bakı-Astara,Bakı-Balakən, Bakı-Qazax) və 3 əlavə (Bakı-Abşeron yarımadası-Qobustan,Bakı-Naxçıvan,Bakı-Şuşa) marşrutları müəyyən edilmişdir.Daha sonra Heydər Əliyevin 11 fevral 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə inkişafının Dövlət Proqramı" fərmanı xüsusi əhəmiyyətlidir.

2006-cı il Yanvar ayının 30-da Prezidentin sərəncamı ilə turizmin idarə olunması Gənclər və İdman Nazirliyindən alınaraq Mədəniyyət Nazirliyinə həvalə edildi və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi yaradıldı.

2007-ci ildə Azərbaycana gələnlərin sayı 1.320.000 nəfər olmuşdur ki,bunun da 1.010.000 nəfərini turistlər təşkil edir.

Turizmin inkişafı təkcə büdcəyə yox həm də sosial problemlərin həllində, xüsusilə məşğulluğun təmin olunması əhalinin yaşayış səviyyəsinin və mənəvi zənginliyin yüksəlməsində mühüm rol oynayır.

Bildiyimiz kimi Bakı Azərbaycanın turizm mərkəzidir.İçərişəhər isə Bakının tarixi özəyidir. Bu qədim məkan Azərbaycan xalqının dəyərli mədəni irsidir.Bakının qoynunda,möhtəşəm qala divarları əhatəsində yrtləşən,açıq səma altında bir muzey kimi fəaliyyət göstərir.

Bakının qədim dövrdə və erkən orta əsrlərdə memarlıq və şəhərsalma inkişafını aydınlaşdırmaq mümkün olmamışdır.Bircə onu demək olar ki,Bakı yaşayış məskəni kimi Qız qalasının yerləşdiyi ərazidə yaranmış və zaman keçdikcə böyüyərək möhkəm müdafiə sistemi olan şəhərə çevrilmişdir.[2,s.134]

Hər tərəfdən möhkəm qala divarları ilə əhatələniş mülayim iqlimli,xoş abı-havalı və çox zəngin sərvətli Bakı şəhəri orta əsrlərdə Azərbaycanın inkişaf etmiş ticarət,sənətkarlıq və mədəni mərkəzi olmuşdur.Bakuvi qədim şəhəri belə təsvir edir:"Evlərin çoxusu qayanın üstündə tikilmişdir.Torpağı daşlı,havası yaxşı,suyu şirindir.Qayalar üzərində qazılmış quyulardan şirin su çıxır". [1,s.117]

İçərişərdə turizmin inkişafı üçün hər cür şərait yaradılmışdır.Turistlərin İçərişəhərə cəlbedilməsi və onların burada özlərini rahat hiss etmələri üçün müvafiq tədbirlər görülmüş və bu gün də bu tədbirlər davam etməkdədir.Son günlərdə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Bakının qədim tarixinin rəmzlərindən olan,min illik tarixə malik Şirvanşahlar dövləti hökümdarlarının iqamətgahı,orta əsr Şərq memrlığının nadir incilərindən biri,YUNESKO-nun Dünya İrsi siyahısına daxil edilmiş Şirvanşahar sarayı kompleksində yeni muzey ekspozisiyasını təqdim edib. İçərişəhər bir dünya incisidir,bunu da dünya əhəmiyyətli bir məkan olması ilə sübut edir.Hər daşı bir tarixdir buranın, hər abidəsi isə öz füsunkarlığı ilə seçilir.Bakının gözəlliyi,tarixiliyi İçərişəhərlə ölçülürsə, İçərişəhər də Şirvanşahlar Saray Kompleksi ilə yadda qalır və tanınır.Turistlərin də çox hissəsi məhz Şirvanşahlar Saray Kopmleksi ilə tanış olmaq üçün buranı ziyarət edirlər. Kompleksə saraydan başqa Divanxana, Şirvanşahlar türbəsi, Şah məscidi, Saray hamamı, ovdan, saray alimi Seyid Yəhya Bakuvinin türbəsi və Keyqubad məscidinin qalıqları daxildir. Saray kompleksi XIII əsrdən XVI əsrə qədər müddət ərzində tikilib.

3. http://www.heydaraliyevcenter.az/#main
4. https://fairmont-baku-flame-towers.hotel-rn.com/?lbl=ggl-exs&gclid=EAIaIQobChMI-f6d7Jjn5QIVyaMYCh0neQiTEAAYASAAEgK6NPD_BwE
5. http://www.airport.az/en/
6. http://www.crystalhall.az/az

7. https://heydar-aliyev-foundation.org/az/content/view/136/93/Beyn%C9%99lxalq-Mu%C4%9Fam-M%C9%99rk%C9%99zi
8. http://azcarpetmuseum.az/front/az
9. https://www.stadiumguide.com/baku-olympic-stadium/
10. https://www.oilfund.az/
11. http://www.socar.az/socar/az/home/
12. https://www.aquaticpalace.az/
13. http://www.mga.az/

Dağlar EYVAZLI
Azərbaycan Turizim və Menecment Universiteti,
magistr
eyvazlidaglar@gmail.com

Azərbaycanda teatr tarixi və qadın obrazlarını ifa etmiş kişi aktyorlar

Актеры-мужчины, играющие историю Азербайджанского театра, и женские персонажи

Male actors in Azerbaijan theater history and female characters

Xülasə: Azərbaycanda teatr ənənələrinin yaranması böyük tarixə malikdir. Qədim tarixə malik müxtəlif oyunlar, şənliklər, bayramlar zamanı nümayiş olunan səhnələr əsl teatr örnəyidir. Azərbaycanda ilk teatr yarandıqdan sora teatr ənənələri dahada inkişaf etməyə başladı. Bu dövürlərdən başlayaraq teatra marağ artmağa başlayır. Buna misal olaraq yeni teatr turubbalarının yaranması, teatr cəmiyyətlərinin formalaşmasını göstərə bilərik. Profesional teatr yarandıqdan sonra bir sıra gizli faliyyət göstərən cəmiyyətlər artıq aşkara çıxmaqa başlayır. Bu dövürlərdə də təbii ki, teatr bir sıra problemlərlə qarşılaşmışdır. Buna misal Teatr tamaşaları zamanı qadın aktirisaların olmaması idi. Teatr ilk yarandıqı dövürlərdə qadınların tamaşalardan çıxış etmələri qadağan idi. Bu dövür cəmiyyəti qadını səhnədə təssəvür edə bilmirdi. Bu səbədən tamaşaya qoyulan əsərlərdə qadın rollarının az olmasına üsdünlük verilirdi. Qadınların səhnədə olmadıqı vaxdlarda qadın rollarını kişi aktiyorlar ifa edirdilər.

Açar sözlər: Teatr, Azərbaycan teatr ənənələri, Azərbaycan professional teatrı, ilk tamaşa, kişi aktyorlar, qadın aktirisalar.

Резюме: Возникновение театральных традиций в Азербайджане имеет давнюю историю. Различные игры, фестивали и праздники, которые были показаны на протяжении всей истории, являются примерами настоящего театра. Со времени создания первого театра в Азербайджане театральные традиции начали развиваться в этой области. Примером этого является создание новых театральных коллективов, формирование театральных коллективов. После создания профессионального театра возникло несколько тайных обществ. В эти времена, конечно, театр столкнулся с рядом проблем. Примером этого является отсутствие женских акцентов во время театральных представлений. В первые годы существования театра женщинам было запрещено выступать. Общество этой эпохи не могло представить себе женщину на сцене. Из этого творческого от

Ключевые слова: Ключевые слова: театр, азербайджанские театральные традиции, азербайджанский профессиональный театр, первые спектакли, мужские актеры, женские акценты.

Abstract: The emergence of theater traditions in Azerbaijan has a long history. With the establishment of the first theater in Azerbaijan, the theater tradition began to develop in the area. From this period the interest in the theater has begun to grow. As an example, we can show the formation of new theater troupes, the formation of theatrical societies.After the establishment of a professional theater, a number of secret societies are beginning to emerge. In these times, of course, theater faced a number of problems, Ab example of this was the absence of female accents during theater performances. In the early days of the theater, women were banned from performing. The society of this era could not imagine a woman on stage. From this point of view, there was a tendency for women to play less role in the performances. Female roles were played by male actors while women were not on stage.

Key Words: Theater, Azerbaijan theater, Azerbaijan professioanl theater, first performance, actor, actirisa

Teatr sənətinin öyrənilməsi çox böyük əhəmiyyətə malikdir. Teatr sənətinin ilkin formaları ilə məşğul olan alimlərdən biri A.Avdeyev belə bir nəticəyə gəlmişdir ki, teatr tarixinin antik teatr tarixindən, daha doğrusu, quldarlıq cəmiyyəti teatrından deyil, ibtidai icma dövründəki teatr ünsürlərindən başlamaq zəruridir.[1]

Azərbaycanda teatr sənətinin əsasını xalqın fəaliyyəti, məişəti, şənlik və toy ənənələri, həmçinin dünyagörüşü ilə bağlıdır. Qədim tarixə malik "Sayaçı", "Novruz", "Gəvsəç" kimi mərasimlərdə xor, rəqs və dialoqla yanaşı, dramatik süjetə, hərəkətə, bəzən isə bədii surətə də rast gəlinir. "Novruz" mərasiminin mühüm epizodunu təşkil edən "Kosa-kosa" oyunu əsl teatr örnəyidir. Burada ardıcıl süjet, dramatik hərəkət, həmçinin xüsusi paltar geyinən maska taxan aktyor vardır. Bir neçə gün davam edən toy mərasimlərində ifa olunan "Xan-xan", "Mütriblərin rəqsi", "Gəlinlə qayınananın deyişməsi" və s. epizodlar, burada oyun və tamaşa ünsürlərinin müstəqil əhəmiyyət kəsb etdiyini göstərir. Ozan-aşıq məclislərində, "Zorxana" səhnələrində, kəndirbazların çıxışlarında, habelə qədimdə el arasında geniş yayılan "Yuğ" mərasimində də meydan teatrı ünsürləri güclü olmuşdur.

Şiəliyi dini təriqət kimi müdafiə edən Səfəvilər dövründə (XVI yüzil) xalqın şüuruna təsir etmək üçün müxtəlif vasitələrdən istifadə etmişdirlər. Bu dövrdən "Şəbih" dini tamaşası çox geniş yayılmışdır. "Şəbih"lər Azərbaycanda professional teatrın yaranmasına səmərəli təsir göstərməklə yanaşı bir çox sənətçilərin səhnəyə gəlməsinə müəyyən imkan yaratmışdır.[1]

Azərbaycan teatrının tarixi M.F.Axundovun 1873 – cü ilin mart və aprel aylarında Bakıda səhnəyə qoyulan “Lənkəran xanın vəziri” və “Hacı Qara“ tamaşalarından başlayır.

H.Zərdabinin təşəbbüsü,N.Vəzirovun və Ə.Adıgözəlovun yaxından iştirakı ilə realni məktəbin şagirdləri tərəfindən göstərilən ilk həvəskar tamaşalar milli teatrın yaranması üçün qüdrətli təkan idi.



H.Zərdabinin təşəbbüsü, N.Vəzirovun və Ə.Adıgözəlovun yaxından iştirakı ilə realni məktəbin şagirdləri tərəfindən göstərilən ilk həvəskar tamaşalar milli teatrın yaranması üçün qüdrətli təkan idi.

Bununla da Azərbaycan da profesional teatrın yaranmasının əsasını qoydu. Bundan sonra Azərbaycan teatr sənəti öz inkişaf mərhələsinə qədəm qoyur. İlk göstərilən tamaşalardan sonra teatr sənətinə olan marağ açıq aydın özünü göstərirdi. Bununlada yeni tamaşlar hazırlanır və səhnəyə qoyulurdu.

Bu tamaşalardan sonra M.F.Axundovun “Xırs-quldurbasan”, ”Müsyö Jordan və dərviş Məstəli şah” komediyaları göstərilmişdir. Azərbaycan teatrının inkişaf etdirilməsində bir çox ziyalıların F.Köçərli, N.Vəzirov, M.Muradov, H.Sarıcalinski, İ.Şəfibəyov, Ə.Vəlbəyov, C.Qaryağdıoğlu, M.Sidqi və başqalarının şox böyük rolu olmuşdur.

Artıq 70-80 illərdən başlayaraq Azərbaycanın müxdəlif şəhərlərində fəaliyyət göstərən teatr həvəskarları tədricən Bakıdakı Teatr xadimləri ətrafında toplaşmaqa başlayır. Bakıdakı teatr həyatı 80-cı illərdə yenidən canlanmaqa başlayır. Teatrda nümayiş olunan komediyalarla yanaşı tədricən Nəriman Nərimanovun “Nadir Şah”, ”Nadanlıq”, Nəcəf bəy Vəzirovun “Müsibəti Fəxrədin”, Yaxışdan çıxdıq, yağmura düşdük”, Ə.Haqverdiyevin “Dağılan tifaq”, ”Bəxtsiz cavan”, ”Ağa Məhəmməd şah Qacar” əsərləri tamaşaya qoyulurdu. Artıq teatr sənətində yeni mərhələlər yaranırdı. Bundan irəli gələrək Bakıda H.Zərdabi tərəfindən 1896-cı ildə “Birinci müsəlman dram truppası” yaradıldı. Bu ilk professio-

nal teatr kollektivi idi. Bununla yanaşı Bakıda ilk dəfə olaraq 1897-ci ildə "Artistlər ittifaqı" yaradıldı. Teatra maraq günü-gündən maraq artır müxtəlif sujetli tamaşalar oynanılırdı.

1906 – cı ildə "Müsəlman dram artistləri" şirkəti yaradıldı. Bu "Şirkət"ə teatr xadimi C.Zeynalov rəhbərlik edirdi.Müxtəlif çətinliklərə baxmayaraq "Müsəlman dram artistləri" şirkəti arası kəsilmədən tamaşalar hazırlayır və repertuarını genişləndirirdi.

1905 – ci il inqilabından sonra Bakıda bir sıra cəmiyyətlərin yaradılmasına icazə verilirdi. Bununla yanaşı bir sıra gizli fəaliyyətlər göstərən cəmiyyətlər aşkara çıxırdı. Bu cəmiyyətlərdən biri də "Nicat" mədəni-maarif cəmiyyəti idi. 1907 – ci ildə bu cəmiyyətin yanında teatr truppasının təşkil edilməsi həmin dövr teatr həyatında muhum rol oynayırdı.[4]

Azərbaycanda teatr sahəsində görülən bütün bu tədbirlər öz növbəsində tearın inkişafına böyük təsir göstərirdi. Yeni-yeni teatr turubbaları yaradılır, teatr cəmiyyətləri qurulur bir sözlə teatrın inkişafi sahəsində böyük işlər görürlürdü.

Azərbaycan da profesional teatr yaradıldıqda sonra tamaşaya qoyulan əsərlərdə qadın obrazlarının ifası böyük problemlərlə qarşılaşırdı. Dövrün pisixoloji yanaşması qadına tamaşalarda oynamağı qadağan edirdi. Sözü gedən dövürdə qadınlar nəinçi tamaşalarda oynamqa hətta onlara küçələrdə tək gəzməyə belə icazə verilmirdi. Üzeyir bəy Hacıbəyov yazırdı ki, "qadın rollarında da kişilər çıxış edirdi, çünki Azərbaycanda qadın nəinki tamaşaçılar qarşısında çıxmağa,hətta xəlvət küçələrdə çadrasını açmağa belə cəsarət etmirdi".

Həmin dövrün pisixoloji yanaşması teatırı tam olaraq qəbul elemirdi. Teatrın yeni-yeni yarandığı dövürlərdə tamaşalara çox az adam seyr etmək üçün gedidi. Adətən teatr tamaşalarında oynayan aktyorlar Qabaqcıl Azərbaycan ziyalıları, sonralar Qori seminariyasını bitirən müəllimlər Şuşa, Naxçıvan və başqa şəhərlərdə teatr tamaşaları düzəldir, eyni zamanda, bu tamaşalarda "aktyor" kimi çıxış edirdilər. Şuşada qabaqcıl müəllim və ziyalı qüvvələri Y.Məlik-Haqnəzərovun rəhbərliyi ilə yay tətilləri zamanı klubda və Xandəmirovun teatrında müntəzəm surətdə tamaşalar təşkil edir, M.F.Axundovun komediyalarını ("Xırs-quldurbasan", "Müsyö Jordan və dərviş Məstəli şah") oynayırdılar.

Qeyd etdiyimiz kimi tamaşalarda qadınların oynaması qadağan idi. Bu səbəbdən də tamaşaya qoyulan əsərlərdə qadın obrazlarının az olmasına üstünlük verilirdi. Qadın rollarını isə kişi aktyorlar ifa edirdilər. Azərbaycan səhnəsində qadın rollarının ifa etmiş aktiyorlardan Əhməd Ağdamski, Muxtar Məmmədov, Yunis Nərimanov, C.Bağdadbəyov, Ə.Qəmküsar, İ.Babayev, Ş.Xəlilbəyov, M.Kazımovski, H.Hacıbabəyov, Ələkbər Süheyli və b. göstərmək olar.

Azərbaycan teatr səhnəsində ən çox səhnəyə qoyulan əsərlərdən biri də Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" operasıdır. Leyli və Məcnun operası Üzeyir Hacıbəylinin ilk operasıdır. 1907-ci ildə yazılmış, Tağıyev teatrında 1908-ci il yanvarın 25-də ilk tamaşası olmuşdur. Həmin illərdə qadınların səhnəyə çıxması düzgün sayılmırdı. Bu səbəbdən Leyli rolunada oynamaqa ifaçı tapmaq çətinlik yaradırdı. Tarixi baxdıqda Leyli rolunun ilk üç ifaçısının kişi olduğunu görə bilərik.

Beləliklə, Leyli rolununda ilk dəfə çıxış edən çayçı şagirdi Əbdürrəhman Fərəcov olmuşdur. Bir dəfə Üzeyir bəy çayxanada olarkən təsadüfən bu çayçı şagirdinin xoş zümzüməsini eşidərək səsinə valeh olub. Həm səsinin məlahətini, həm də boy-buxununun incəliyini nəzərə alıb onu inandırıb ki, Leyli obrazını yarada bilər. Əbdürrəhman Fərəcov bu təklifi qəbul edib Leyli rolunu ifa edir. Hüseyinqulu Sarabski "Bir aktyorun xatirələri" adlı kitabında qeyd edirdi: "Çox yalvar-yaxardan sonra Əbdürrəhman Fərəcovu Leyli rolunu oynamağa razı sala bildik".Amma o ikinci tamaşa zamanı Leyli rolunu oynamaqdan imtina edir. Buna səbəb həmin dövürdə kişinin qadın rolunda çıxış etməsinin birmənalı qarşılanmaması idi.Buna görə də "Leyli və Məcnun" tamaşasında ikinci dəfə oynamaqdan imtina edir.

Bu səbəbdən də "Leyli və Məcnun" operasının yenidən tamaşaaya qoyulması uzun vaxd keçir. Nəhayət, dörd aydan sonra Miri adlı bir nəfər cəsarət göstərərək Leyli rolunu yaratmağa razı olur. [8]


Leyli rolunun mahir kişi ifaçılarından biri də Əhməd Ağdamski idi. Əhəmd Ağdamski 1884-cü ildə Şuşada doğulub. Azərbaycan teatrında azərbaycanlı aktirisaların olmadığı bir vaxdlarda bir çox tamaşalarda qadın rollarını çox mahir ifaçısı olmuşdur.

Üzeyir bəy Hacıbəyovun anası Şirin xanımla Əhməd Bədəlbəylinin anası Əzizə xanım doğma bacı idilər. Üzeyir bəy öz xalası oğluna üz tutur. O zaman onun ən böyük arzusu müəllim olmaq idi, lakin onun teatra olan marağı onu səhnəyə gətirib çıxarır. O zamanlar Əhməd hələ tələbə idi, tələbə-

lərin teatrda oynamaları bir yana, axşam tamaşalarına baxması üçün belə xüsusi icazə almalı idilər. Belə bir icazə alınır və Əhməd bəy Leylini oynamağa başlayır. Tanınmasın deyə, adını "Miri" yazdırır. Sonralar isə səhnə təxəllüsü olaraq özünə Ağdamski familiyasını götürür.

Dəfələrlə tamaşaya qoyulan "Leyli və Məcnun" operasında baş rolların ifaçılarının ifasını 1916-cı il 22 dekabr tarixli "Kaspi" qəzeti öz səhifələrində belə yazır:"Leyli rolunda ölüm səhnəsini xüsusi ilhamla oynayan Ağdamski Sarabskiye çox gözəl tərəf-müqabil idi". 1915 -ci il 116 saylı "Kaspi" qəzetində:"Bu gecə Leyli rolunda çıxan Ağdamski öz istedadının ən yüksək mərhələsində idi. Artistin səsi əla idi. Tamaşaçılар onu arası kəsilmədən alqışlayırdılar". [6]




Городъ Баку.
Театръ Г. З. А. Tarieva.
ПРОГРАММА.
„Лейли и Меджнунъ"
(ИЗЪ ПОЭМЫ ФЕЗУЛИ)
Участвующе
Начало въ 8 часовъ вечера.

Onun səhnədə çıxışı Üzeyir Hacıbəyovun şox xoşuna gəlir və sonralar o, Üzeyir bəyin əsərlərində baş rolların ifaçısına çevrilir. Bununlada o, inqilabdan əvvəlki Azərbaycan opera və musiqili komediya teatrı səhnələrində ilk dəfə qadın rollarının ifaçısı kimi tanınmışdır. O, qadın rollarını böyük aktyorluq məharətilə ifa edirdi ki, hətta tamaşadan sonra qadın kimi ona çiçək göndərənlər də az olmurdu. Onun oynadığı qadın rollarının hamısı xarakter etibarilə bir-birindən fərqlənirdi. Bu obrazların hər birini tamam ayrı səpkidə oynayırdı. Tək oyun tərzi yox, hətta səsi də dəyişilirdi. O, düz 12 il səhnəyə qadın qiyafəsində, qadın geyimində çıxdı. Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasında Leyli, "O olmasın, bu olsun"da Gülnaz, "Əsli və Kərəm"də Əsli, "Ər və arvad"da Minnət, "Rüstəm və Söhrab"da Təhminə, "Arşın mal alan"da Gülçöhrə, "Şah Abbas və Xurşudbanu"da kəndli qızı və s. onun əsas rolları kimi opera tarixinə düşmüşdür.

Qadın rollarının mahir ifaçılarından biri də Hüseynağa Hacıbababəyov olmuşdur. Hüseynağa Hacıbababəyov müxtəlif truppalarda dramatik obrazlarla yanaşı, opera və operettalarda qadın obrazlarının partiyalarını oxumuşdur. 1925-ci ildən 1972-ci ilə qədər oynadığı tamaşalar bunlardır: Hindli qonaq ("Qar qız" və "Sadko"- Nikolay Rimski-Korsakov), Əsgər, Sərvər, Məcnun, Kərəm ("Məşədi İbad","Arşın mal alan","Leyli və Məcnun"və"Əsli və Kərəm"- Üzeyir bəy Hacıbəyov), Lenski ("Yevgeni Onegin"- Pyotr Çaykovski), Qraf Almavivo ("Sevilya bərbəri"- Coakkino Rossini) Çar Brendey və s.

Beləliklə Azərbaycan da teatr inkişaf etdikcə teatırda qadınlar oynamaqa başlayırdı. Bununla da səhnəyə Sona Hacıyeva gəlir.Bundan sora teatrda qadınların çıxış etmələri reallaşır. Artıq sahnədə qadınları görmək münkün idi. Artıq səhnəyə yeni yeni qadın obrazları gəlməyə başlayır.

Ümumilikdə qeyd etmək lazımdır ki, Azərbaycan teatırının inkişafında, teatıra tamaşaçıların cəlb olunmasında bir çox xeyriyyəçilərin də adını kəçmək vacibdir.

Milli teatrın inkişafında xeyriyyəçi-messenat H.Z.Tağıyevin böyük rolu olmuşdur. Hacı Zeynalabdin Tağıyev Bakıda ilk teat binasını inşa etdirmişdir. Bundan sonra Azərbaycan səhnəsində Mirzağa Əliyev, Cahangir bəy Zeynalov, Hüseyqulu Sarabski, Hüseyn Ərəblinski, Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə, Mustafa Mərdanov, Məmmədrza Şeyxzamanov, Ağasadıq Gərəybəyli, Əliağa Ağayev, Lütfəli Abdullayev, Nəsibə xanım Zeynalova kimi yüzlərlə simalar yetişir.

Tağıyev teatrında Ə.Haqverdiyevin "Bəxtsiz cavan","Ağa Məhəmməd şah Qacar",b N.Nərimanovun "Nadir şah",N.Vəzirovun "Pəhləvanai-zamanə",Ş.Saminin "Qaveyi adəngar",F.Şillerin "Qaçaqlar", N.Neynenin "Əlmənsuz",V.Şekspirin "Otello",J.B.Molyerin "Zorən təbib" və.s tamaşalar nümayiş olunmuşdur.

ƏDƏBİYYAT
1. Azərbaycan Teatr tarixi. 5 cilddə. 1-ci cild. Bakı, Şərq-Qərb, 2017
2. İlham Rəhimli. Akademik Milli Dram Teatrı. 3 cilddə. Bakı, "Təhsil" 2013
3. İlham Rəhimli. Azərbaycan milli teatrının poetikası. Bakı, "Qapp-Poliqraf", 2002
4. İlham Rəhimli. Azərbaycan teatr tarixi (dərslik). Bakı, Çaşıoqlu, 2004.
5. İnqilab Kərimov. Azərbaycan Teatr Tarixi (dərslik). Bakı, Çaşıoqlu, 2005.
6. https://az.wikipedia.org/wiki/ Əhməd_Ağdamski
7. https://az.wikipedia.org/wiki/Azərbaycan_teat
8. https://bizimishler.wordpress.com/2016/06/02/leyli-rolunun-ifacilari/

Ülkər QURBANOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim
uka.04@hotmail.com

"Qalaaltı" sanatoriya-kurort kompleksi

Санаторно-курорт комплекс "Галаалты"

"Galaalti" sanatorium and resort complex

Xülasə: Tədqiqat işinin əsas məqsədi Azərbaycan Respublikasının gözəl guşələrindən olan Dəvəçi rayonunun təbiətinin, bu təbiətə məxsus xüsusiyyətlərin araşdırılması və "Galaalti" sanatoriyasının özəlliklərinin tədqiq edilməsidir. Tədqiqat işində tarixi faktlara, bu mövzuda yazılmış məqalələrə istinad edilmişdir. Tədqiqat işinin əsas məhdudiyyəti ondan ibarətdir ki, qeyd olunan ərazi və sanatoriya barəsində geniş araşdırmalar yoxdur. Tədqiqat işinin yeniliyi ondan ibarətdir ki, araşdırılma aparılan ərazi və sanatoriya barəsində ictimaiyyətə məlum olmayan xüsusiyyətlərə toxunulmuş və bu faktlar əhalinin və turistlərin daha çox marağına səbəb olmuş olacaqdır.

Açar sözlər: turizm, saqlamlıq mərkəzi, Naftusia mineral suyu, müalicə

Резюме: Основная цель исследования - исследовать природу района Девечи Азербайджанской Республики, его особенности и пропагандировать природу санатория Галаалты. Исследование опиралось на исторические факты и статьи, написанные на эту тему. Основным ограничением исследования является то, что нет никаких обширных исследований упомянутого района или санатории. Новизна исследования заключается в том, что общественности неизвестно о районе и исследуемом санатории, и эти факты будут представлять большой интерес для общественности и туристов.

Ключевые слова: туризм, оздоровительный центр, Нафтусия минеральная вода, лечение

Abstract: The main purpose of the research work is to investigate the beautiful nature of the Devechi region of the Azerbaijan Republic and its features, to explore singularity of the Galaalti sanatorium. The research relied on historical facts and articles written on this subject. The main limitation of the research is that there is no extensive research about the area or sanatorium. The novelty of the work is that unknown features to the public about the area and the sanatorium was investigated, and these facts will be of great interest to the local people and tourists.

Key words: tourism, health center, Naftusia mineral water, treatment

"Galaalti" sanatorium and resort complex is situated in Davachi district. Davachi District was formed in 1930 and it was included into Absheron in 1963. Then the district was reformed again in 1965. In 1992, National Assembly of Azerbaijan order to establish the Siazan district on the basis of Davachi region. The name of Davachi was changed to Shabran in 2010. There are a lot of mountains in the district. The district borders with Guba, Shamakhi, Khachmaz and Siazan Districts. The largest part of the mountainous territory is forests. Various type of wild animals can be seen there. It occupies 27000 ha of the territory and with grassland near the Caspian Sea they play very important role for the climatic and natural resources of region.

Shabran District is situated in the north-eastern part of Greater Caucasus. There are a lot of mineral waters and mud volcanoes here. It is feasible to observe a lot of oil derricks on the way to

Shabran. While talking about Shabran it must be mentioned Chiraggala's fortress. The meaning of the word “Galaalti” is "Under fortress". It has got this name because it is located under the fortress of "Chiraggala". People like to climb up to the top and admire the landscape from there. It has stunning scenery that attracts not only the local people but also many tourists. The famous Galaalti sanatorium is situated there. Its popular for its mineral waters all over the world. Medicinal mineral waters of “Galaalti” sanatorium are widely utilized by the population and tourists. Galaalti is famous for its mineral water Naftusia. Naftusia mineral water was known for its unique medicinal properties. Local settlers call this water as “Naftsu” what in translation means oil-containing water. "Naftsu" differs with strong smell and taste. It was first mentioned in literature in 1578. This water differ for its oil content. There is no other one with such organic substances. The name of Naftusia is associated with Truskavets resort. Famous resort entices a lot of people, but its sources were exhausted. Everyone must know there are also other mineral waters sources. The great example of it is Galalati. It is located in Shabran district. A lot of new water sources were found in the forests of the mountains, which is in 20 kilometres from the region. The new 7 sources possess a large supply of water. However, the water must be drunk from the source, it can not be stored. The content will change if you keep it in a bottle. The water has a low mineralization and as its content full of organic substances which stimulates a removal of not only sand but also tiny stones from kidneys and other organs, it also minimizes stones formation of urine and bile. The Naftusia water has diuretic affect on the organism. The essential influence of the water is removing "toxins" from the body which is unnecessary products of metabolism. “ Naftusia” has a good effects on the function of the nervous system, it normalizes metabolism. A lot of diseases occur in different organs like liver, pancreas and others. It may be the result of gastro –intestinal diseases. “Naftusia” help for solving such kind of problems. The effect of water can be seen in a first week. People with serious diagnose could recover successfully. Everyone can drink this mystery water in the resort complex of "Galaalti". The health and recreation complex is focused on people's health and quiet rest. Even in the restaurant, along with the Azerbaijani and European cuisine, a special menu of steamed and boiled products is prepared based on the advice of a physician-dietologist.There is a unique tranquility throughout the fortress. The territory of the treatment facility is truly unique - it was built in the mountain forest under a flat rock at the height of 1232 meters above sea level during the IV-VI centuries and it was built near the magnificent and inaccessible ancient Chiraggala. Experts say the castle has had the opportunity to observe a large area and to report danger through flares, and the name "Chiraggala" has been taken from here. Chiraggala has attracted many travellers to Galaalti for centuries. At present, the new attractive area of this region is the ultra modern "Galaalti" center, which combines the achievements of civilization with the unique water treatment from Earth. Tourist flow to "Galaalti" sanatorium confirms again that tourism in our country is developing as a result of the increase in the number of hotel complexes meeting the world standards. The complex consists of a luxurious five-star hotel with 168 rooms offering different types of service and 3 villas equipped with all amenities. There are opportunities for business meetings in both leisure and conference halls. The gigantic area of the complex is embedded in greenery: the natural arms and grass all over it, even the roofs of the villas and the center of the park. Everything has been designed with delicacy and taste. The hotel has a large modern fitness center with dozens of gyms and a SPA center with indoor swimming pool, hamam, sauna and massage rooms. There are all the necessary modern equipment and tools at the disposal of SPA center. There you can find specialists for all kinds of care, including revitalization and refreshment, nourishment and moisturizing of face and body. Not only this but also peeling, thalassotherapy, chocolate body mask, massage, hydrotherapeutic massage shower and more are available at the centre. Pride of a diagnostic medical and rehabilitation resort is “Chirag” where the latest technology of domestic and physical treatment is used effectively with the best world achievement of medicine. In the centre you can have medical check up and have necessary treatment. The main treatment factor of the complex is the unique hydro carbonate- calcium water that contains organic matter such as “Naftusia”. The diagnostic center "Chirag" is supplied with the last achievements of diagnostics in the world. The modern equipment of the centre gives

opportunity for carrying out various types of diagnostics like ultrasonography, endoscopy, X-ray, laboratory researches. The main principle of the center is “The correct diagnosis is crucial for successful treatment”. Essential diagnostics’ directions are urology, cardiology, neurology, gynecology, proctology and many others. The special demands of the center are X-ray diagnostics and methods of duodenal sounding. The medical center "Chirag" has following diagnostics: blood test on sugar, biochemical blood test, general analysis of urine, general blood test, electrocardiogram, colposcopy, digital X-ray diagnostics, etc. The payment for laboratory analysis begins from 5 AZN. The payment of diagnostics is from 15 AZN to 50 AZN. You can have different procedures the bases of which are mineral waters of the resort of Galaalti. Circular and underwater shower massage, hydro colon therapy, sharko shower are some of them. There you will forget about your illnesses, daily stresses and you will be full of energy again. The medical center of “Galaalti" gives the maximum opportunities for increasing body resistance and body prevention and also recovery of an organism with the help of the physiotherapeutic procedures which meet the last medical requirements. The aim of the machine (non-drug) method is to restore the function of organs by using physical effects like electric current and magnetic field.

The equipment from Germany, Netherlands, and Slovenia provides all types of physical therapy: these electro treatments improve blood circulation and remove muscular stress or compensate lack of a muscular tone. Medical ozokerite is utilized in a standard balneotherapy. The main characteristic of which is possessing conductivity with the minimum heat and capacity with the maximum thermal. There is a large supply of ozokerite near Galalati. A local thermal procedure used in cases of chronic joint and muscle diseases, sometimes post- traumatic recovery or simply for the muscle relaxation, for example before a massage or therapeutic exercises. Warmth reduces muscle tensions, dilates blood vessels in the skin and subcutaneous tissue, improves reflectively blood circulation deeper in the muscles and joints and reduces pain. One of the unusual offers of the center is a salt chamber, it is helpful at illnesses of airways, an allergy and it also clear lungs. More than 10 programs offer for tension and stress removal. The programs improve cellular metabolism and remove toxins and slags from the body. The mineral bathes have effect on the central nervous system through the skin nerve endings. The Spa center is equipped with all modern facilities. The atmosphere of comfort and luxury will surround you from the first minute. The main attraction of the center is bathing culture. You can enjoy all complex of bath procedures which contain also massages and cosmetology (face and body care). The Turkish bath, the Roman steam room, the Finnish sauna are pride of Spa. Pool and Jacuzzi are favourite places of the people. You can order green and herbal tea, fresh juice and various cocktails at the bar of the pool. After different kind of treatments you will find yourself in a beautiful restaurant of the centre. The delicious supper and live music complete the day of the guests. The place has marvelous atmosphere and the high quality service. Everything is organized for people’s convenience. You can enjoy clean mountain air, comfortable rest with the children there. It is impossible to be nervous and exhausted in such place. Galaalti is place where people can not only have a treatment but also have a rest from a daily routine with their family. Far away from city life in the fresh air will recharged everyone.

REFERENCES

1. Azərbaycan Respublikasının inzibati - ərazi bölgüsü. Məlumat toplusu. Bakı – 2013,s146
2. Əli Polad. Bir damla su. I cild. Bakı, 2011, s 45.
3. Soltanova H.B. Azərbaycan Respublikasında Turizm və onun inkişafı. Bakı 2015,s178
4. Soltanova H.B., Zeynalov C.V. Otelçilik fəaliyyətinin əsasları. Bakı: AzTu-nun mətbəəsi.2013, 410s.
5. https://az.wikipedia.org/wiki/Qalaalti_hotel_%26_SPA
6. http://www.tourism.edu.az/

Sevinc DADAŞZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti,
doktorant
s.dadashzade@atmu.edu.az

Multikultural yanaşmaya tarixi siyasi zəmin

Историко-политическая предпосылка мультикультурного подхода

The historical and political background of the multicultural approach

Xülasə: Hazırki məqalədə müəllif multikulturalizmin əsas aspektlərindən biri sayılan multikultural yanaşma probleminin təhlilinə yer vermişdir. Müəllif haqlı olaraq bu nəzəri məsələnin tarixi-siyasi əsaslara malik olduğuna diqqət yetirir. Bu məsələyə Azərbaycan nümunəsində yer ayıran müəllif fikirlərini tarixin müxtəlif mərhələlərindən, bu mərhələlərin siyasi məzmunundan çıxış edir. Fikirlərini ümumiləşdirərək müəllif multikultural yanaşmanın tarixi-siyasi zəminini qabardır.

Açar sözlər: multikultural dəyərlər, multikulturalizm, Avropa, Qərb dəyərlər sistemi, miqrantlar, milli azlıqlar, islam dini, xristianlıq, sivilizasiya, müxtəliflik.

Резюме: В настоящей статье автором представлен анализ проблемы мультикультурного подхода, который является одним из основных аспектов мультикультурализма. Автор справедливо отмечает, что эта теоретическая проблема имеет историческую и политическую основу. Автор, уделивший место данной проблеме на примере Азербайджана, основывает свои идеи на исторических этапах, и их политическом содержании. Автор мультикультурен в обобщении своих мыслей.

Ключевые слова: мультикультуральные ценности, мультикультурализм, Европа, ценностные системы Запада, мигранты, национальные меньшинства, ислам, христианство, цивилизация, разнообразие.

Abstract: In this article, the author presents an analysis of the problem of a multicultural approach, which is one of the main aspects of multiculturalism. The author rightly notes that this theoretical problem has a historical and political basis. The author, who gave his place to this problem on the example of Azerbaijan, bases his ideas on the historical stages and their political content. The author is multicultural in summari zing hist houghts.

Keywords: multicultural values, multiculturalism, Europe, Western value systems, migrants, national minorities, Islam, Christianity, civilization, diversity.

Yeni minillikdə qlobal müstəvidə ən mühüm çağırışlardan biri kimi fərqliliklərin – fərqli sivilizasiyaların, mədəniyyətlərin, dinlərin, hətta xalqların birgəyaşayış fəlsəfəsi ilə bağlı baş verən dəyişiklikləri və miqrasiya proseslərinin təsirini fərqləndirmək olar. Müasir dövrdə dünya birliyi yeni çağırışlar və təhdidlər qarşısındadır.Qloballaşma prosesinin təsiri altında hətta dünyanın ən ucqar nöqtələrində baş verən istənilən iqtisadi, siyasi, mədəni və texnoloji hadisələr belə mühüm əhəmiyyət kəsb edir. Dünyanın harasında baş verməsindən asılı olmayaraq etnik separatizm, dini ayrı-seçkilik, radikalizm, terrorizm və digər bu kimi proseslərin xüsusiyyətləri yerli çərçivəni çoxdan aşıb keçmişdir. Qorxulu cəhət isə odur ki, baş verənlərə ədalətli yanaşma olmadıqda və ya proseslərin tənzimlənməsində beynəlxalq hüququn norma və prinsipləri nəzərə alınmadıqda, dünyada söz sahibi olan ölkələrin maraqlarına uyğun siyasət həyata keçirildikdə bəşəriyyət qarşısında dayanan təhdidlər daha da mürəkkəb xarakter alır və müxtəlif radikal meyillərin güclənməsinə zəmin yaradır. İkinci Dünya müharibəsindən sonra Qərbin artmaqda olan dominant mövqeyi cəmiyyətin həyatında "birgəyaşayış və miqrasiya" nisbətini müəyyənləşdirmişdir. Bu model Qərb ölkələrinin ucuz işçi qüvvəsini mexaniki olaraq qəbul etməsi və yeni gələnlərin vahid, heç bir milli mədəni-dini xüsusiyyətini nəzərə almayan universal dəyərləri qəbul etməsi prinsipi üzərində formalaşdırılmışdır. Sonradan baş verən proseslər göstərdi ki, bu siyasət işçi miqrantların Qərb dəyərlərinə uyğunlaşdırılmasına deyil, daha çox bu dəyərlərdən təcrid olunmasına yönəlmişdir. Avropada yeni sakinlərə sanki "istismar müddəti" başa çatdıqdan sonra geriyə, gəldikləri ölkəyə qayıtmalı olan müvəqqəti sakinlər kimi baxılırdı. Bu prosesdə Avropanın yeni sakinlərinin yalnız birinci nəsli ilə bağlı problem yaşan-

madı. Artıq ikinci nəsil miqrantların sosial, ailə və mədəni dəyərlərinin nəzərə alınmaması Avropanın özünün elan etdiyi demokratik prinsiplər və multikultural dövlət doktrinası ilə ziddiyyət təşkil edirdi. Bütün bunlar üçüncü minilliyə doğru Avropa ölkələrinin daha əvvəl bəyan etdikləri demokratik, beynəlmiləlçilik prinsiplərindən geri çəkilməsinə səbəb oldu.

Bütün bunlar göstərdi ki, Avropa ölkələrinin liderlərinin bəyan etdiyi multikulturalizm müstəmləkə ölkələrdən gələn yeni sakinlərin Qərbin vahid dəyərlər sisteminə daxil olması və miqrantların assimilyasiyasına yönəlmiş ideologiyaya xidmət edirdi. Hadisələrin sonrakı gedişi göstərdi ki, Qərbin müstəmləkəçilik siyasəti həmin dövrdən etibarən tamamilə əks effekt verməyə başlamışdır. Avropalıların "böyük coğrafi kəşflər" dövründən başlayan qanlı işğalçılıq siyasətindən fərqli olaraq miqrantlar Avropada səssiz-səmirsiz məskunlaşmaqla bu məkanı zor tətbiq etmədən, "işğal" etməyə başladılar. Keçən dövr ərzində isə fərqli mədəniyyət daşıyıcılarını universal modelə tam uyğunlaşdırmaq, Avropada mozaik cəmiyyət yaratmaq sadəcə, mümkün olan məsələ deyil yanaşması ortaya çıxdı. Avropada Qərb dəyərlər sistemindən fərqli dəyər daşıyan yeni sakinlərin problemlərinin həllinə Avropa dövlətlərinin liderləri "kim bizim kimi deyilsə, bizimlə yaşaya bilməz" fəlsəfəsi ilə yanaşmağa üstünlük verdilər. Bu isə islamafobiya, ultramillətçilik, radikalizm meyillərinin və bununla paralel olaraq beynəlxalq terrorizm şəbəkəsinin "ədalətli dünya" qurulması ilə bağlı çağırışlarına qoşulanların sayının güclü şəkildə sürətlə artmasına səbəb oldu. Əslində, Qərbsayağı multikulturalizmin böhranı və ya məğlubiyyəti ilə bağlı mülahizələr də bu mərhələdən başlayaraq səslənməyə başlandı. Əsas səbəb kimi, dominant etnosun yalnız öz mədəni və dini dəyərlərinə üstünlük verməsini göstərmək heç də yanlışlıq olmaz. Yeni gələn miqrantlar Qərbin gözündə mühacir qəbul edən cəmiyyətin yeknəsəq tərkib hissəsi olmalıdır. Onların fərqli davranış və ya əxlaq normaları Qərb dəyərləri ilə uyğun gəlmədiyi üçün qəbul edilə bilməz. Lakin hətta ikinci və üçüncü nəsil miqrantların uyğunlaşma problemləri və dini-mədəni ənənələri saxlaması multikultural siyasətdə nəyinsə çatışmadığını göstərən bir əlamətdir. Dünyada artmaqda olan fərqliliklər arasında qarşıdurma və ziddiyyətlərin fonunda bəşəriyyətin gələcəyinə əsas ümid mədəniyyətlərin dialoqundadır. Çünki tarixin inkişaf mərhələlərində biz fərqli dinlər, mədəniyyətlər və sivilizasiya daşıyıcılarının eyni məkanda bərabər şərtlərlə dinc-yanaşı və birgə yaşamasının mümkün olduğu kimi, dinc-yanaşı birgə yaşamanın mümkün olmadığı hallarla da dəfələrlə rastlaşmışıq. Müxtəlif zamanlarda və fərqli şəraitdə xristian və islam, xristian və bütpərəst, islam və bütpərəst, eləcə də Qərb və Şərq dəyər daşıyıcılarının arasında baş verən münaqişələr onların biri-birindən təcrid olunmuş şəkildə yaşaması üçün zəmin yaratmış və onların biri-birlərinə qarşı dözümlülüyünün yalnız onların bərabər gücə malik olduqları hallarda mümkün olduğunun şahidi olmuşuq. Müasir dövrdə isə qloballaşan dünya fərqli mədəniyyətlərin birgəyaşayışı olmadan mövcud olması o qədər də real görünmür. Artıq dünyada monokultural və monoetnik cəmiyyət və ölkə anlayışları qəbul olunmur. Müasir Beynəlxalq münasibətlərə nəzər yetirsək - istər siyasi, istərsə iqtisadi və ya mədəni sahədə olsun - hər hansı dövlətin özünütəcrid şəraitində inkişaf edə bilməsinin qeyri mümkünlüyünü asanlıqla görmək olar. Bəşəriyyət yalnız fərqliliklərin dəyərlərinə hörmət etməklə inkişaf edə bilər. Dünyada çox az sayda mövcud olan monoetnik ölkələr isə ya coğrafi, ya tarixi, ya da ki, siyasi səbəblərdən təcrid olunmuşdur, ya da bu, ölkədə aparılan şovinist və dözümsüzlük siyasətinin təzahürüdür. Monoetnik ölkə olan Ermənistanda bu, digərlərinə qarşı dözümsüzlük ideologiyasının nəticəsi kimi özünü göstərdi.

Hazırda Suriya, İraq, Liviya, Əfqanıstan və digər müsəlman ölkələrində davam etməkdə olan qanlı hadisələr milyonlarla insanın Avropaya üz tutmasına səbəb oldu. Avropaya miqrant axınının böyük əksəriyyəninin müsəlman olması Qərbin qarşısında daha mühüm bir tələb qoymuşdur. Avropada xristian və islam dini əqidə daşıyıcılarının bərabər hüquqlarla eyni məkanda birgəyaşayışı artıq zamanın tələbidir. Qərb isə bunu çağırış deyil, öz dəyərlər sisteminə və ümumiyyətlə, gələcəyinə təhdid kimi qiymətləndirir. Beləliklə, Avropaya fərqli mədəniyyət daşıyıcılarının miqrasiyası nəticəsində Qərb islamla yenidən qarşılaşmalı oldu. Avropada müsəlmanların öz dinlərinə sadiqliyi, bununla yanaşı, islamın bir din olaraq geniş yayılması, müsəlman əhalinin demoqrafik artım göstəriciləri Qərb cəmiyyətinin gələcəyi üçün əsas narahatedici hal kimi qəbul olunmağa başladı. Bunun nəticəsi olaraq, Qərbdə bəzi siyasi qüvvələr islamı bir təhlükə olaraq görməyə başladı. Azlıqların çoxluqlara çevrilməsi qorxusu Qərbsayağı multikulturalizmin qarşısında duran əsas problem oldu. Vatikan Ədalət və Sülh İcmasının sədri kardinal Pyotr Turksonun "Sinodo" ruhani məclisində islam dinini Avropanın

gələcəyinə təhdid kimi qiymətləndirməsi də bunu göstərir. O bildirmişdir ki, 2026-cı ildə Avropa müsəlmanlar qarşısında azlıqda qalacaq, Fransa isə 39 ildən sonra islam dövləti olacaq.

Hazırda Qərb mətbuatında belə fikirlər səslənir ki, Qərb və islam mədəniyyətləri birgə yaşaya bilməz. İslam əleyhinə kəskin çıxışları ilə tanınan hollandiyalı siyasətçi Qert Vilders "Multikulturalizmin yenilməsi, yaxud islam hücumunun qarşısını necə almalı?" adlı məqaləsində islamı "təhlükəli ideologiya" adlandırır və bildirir ki, islam bizim Qərb həyat tərzimizlə uyğun gəlmir [6].

Tarixi inkişafın gedişi boyunca yəhudilər fərqli din daşıyıcıları olduğu üçün bir neçə dəfə Avropadan qovulmuşdur. Buna yəhudilərin XV əsrdə İspaniyadan qovulmasını, II Dünya müharibəsi dövründə isə bütünlükdə Avropa qitəsində təqib olunmasını misal göstərmək olar. Ərəb intibahı dövründə islam dini bütün Cənubi Avropada geniş yayılmışdı, xüsusilə, İspaniyada Kordova xilafətinin təsiri altında yerli əhali arasında islam dini özünə çoxlu tərəfdar toplamışdı. Lakin xristianlıq ideyaları üzərində yüksələn və digər dinlərə qarşı dözümsüzlük göstərən hərəkat nəticəsində müsəlmanlarla bərabər yəhudilər də qitədən qovuldular. 1492-ci ildə İspaniyada ərəblərin hakimiyyətinə son qoyulduqdan sonra, 1610-cu ilə qədər müsəlmanların və yəhudilərin hamısı İspaniyadan qovuldu. XVI əsrdə bu ölkədə üç milyon müsəlman sürgün edilmiş və ölümlə üzləşmişdir. Henri Kisencer Qərb sivilizasiyasının digərlərinə münasibətdə oynadığı rol haqqında "Dünya nizamı" kitabında yazır: "1550-1551-ci illərdə Müqəddəs Roma imperatoru V Çarlz (1519-1556) tərəfindən çağırılmış dini şura belə bir qənaətə gəldi ki, yalnız Qərb yarımkürəsində yaşayan insanlar ruha malikdirlər və bunun sayəsində dini nicat üçün uyğundurlar. Bu teoloji nəticə istila və məcburi xristianlaşdırmaya bəraət qazandıran əsas prinsip oldu. Avropalıların maddi sərvətlərini artırmaq və eyni zamanda vicdanlarını xilas etmək imkanı tanındı. Onların ərazilərə nəzarət uğrunda qlobal rəqabəti beynəlxalq nizamın təbiətini dəyişdirdi" [2].

Din Qərb sivilizasiyasının dəyərlər sistemində ən mühüm, hətta bazis rolunu oynayır, Xristianlıq Qərb üçün tarixən birləşdirici funksiyanı yerinə yetirməkdə mühüm alət olub və digər dinlərin təmsilçilərinə qarşı dözümsüzlük həmişə olub.

XX əsrin ortalarından Avropada ortaya atılan multikulturalizm ideyalarında da bu tarixi ənənə özünü göstərməkdədir. Multikultural dəyərlər Qərbdə birinci mərhələdə xristian dininə xidmət etmək üçün birləşdirici faktor olaraq nəzərdə tutulmuşdur. Tarixi hadisələrin gedişindən məlum olur ki, Qərbin dini tolerantlıq və multikultural dəyərləri yalnız öz dini dəyərlərinin digərlərinə qəbul etdirilməsi üzərində köklənmişdir. Hazırda immiqrant ölkələr kimi xarakterizə edilən Avropa dövlətləri fərqli mədəniyyət və fərqli din daşıyıcıları olan mühacirləri Qərb cəmiyyətinə yalnız assimilyasiya etməyə çalışırlar. Yəni Avropada çoxmədəniyyətlilik yalnız Qərb dəyərlərinin dominantlığı və vahid mozaik quruluşun heç nə ilə seçilməyən yeknəsəq tərkib hissəsi kimi tanınır. Bu isə müasir dövrdə əhalisi müxtəlif mədəniyyətləri və millətləri təmsil edən digər ölkələrdə multikulturalizmin gələcək taleyini qorxu altında saxlayır. Bugünkü reallıq onu göstərir ki, Avropanın əksər dövlətlərində artıq əhalinin ən az 10%-ni əcnəbilər təşkil edir. Buna görə də multikulturalizm Qərb cəmiyyəti üçün təkcə seçim deyil, zərurətdir. Tarixin axarı isə sübut edib ki, multikultural dəyərlər olmasaydı, heç bir böyük bəşər mədəniyyəti də ola bilməzdi. Çünki müəyyən sərhədlər daxilində təcrid olunmuş və özünə qapanmış hər hansı bir mədəniyyət tənəzzülə uğrayır. Dünyanın sürətlə qloballaşdığı indiki dövründə isə heç bir ölkə multikulturalizmin təsirindən kənarda qala bilməz.

Tarixən Qərbin öz dəyərlər sisteminə aid olmayanlara qarşı münasibəti xüsusi maraq kəsb edir. Roma imperiyası dövründə belə romalılar yaşadıqları şəhəri "əbədi şəhər" adlandırırdılar. Roma vətəndaşları özlərini hamıdan üstün hesab edirdilər. Əsl romalıya bütün digər insanlarla, o cümlədən başqa ölkələrdən gələnlərlə münasibətdə köklü fərq qoyulurdu. Sivilizasiyalar mövzusunun tədqiqatçılarından Rocer Osborn bununla bağlı yazır: "Yunan, Ellin və Roma sivilizasiyalarının bütün ətraf xalqlara və mədəniyyətlərə"barbar dünyası" kimi baxması sonradan ümumən Qərb sivilizasiyasının digər sivilizasiyalara ayrı-seçkilik meyarları ilə yanaşmasının başlanğıcını qoymuşdur" [3, s.144].

Keçən əsrin ortalarından Avropada elan olunan multikulturalizm ilkin mənada tarixi milli azlıqlara münasibəti nəzərə alan yanaşma hesab olunurdu. Tarixi inkişafın müxtəlif mərhələlərində bu fərqli qrupların biri və ya bir neçəsi dominant, digərləri isə azlıq (milli, dini) şəklində formalaşırlar. Əsas məqam isə dominant-azlıq münasibətlərinin fərqli dəyər daşıyıcıları olsalar belə birgəyaşayış

halında birləşə bilməsi imkanındadır. Bu cür müxtəliflik dünyanın əksər ölkələrində mövcuddur və heç də hər yerdə problemsiz deyil. Məsələn, Britaniyada keltlər və anqlo-sakslar tarixən birgəyaşayış formatında problemlər yaşamışlar və bu gün də bu problemlər davam edir. Yaxud Çində çinlilərlə uyğurların yanaşı yaşamasının tarixi yüz illərlədir, lakin hələ də harmonik münasibətlərdən söhbət gedə bilməz. Bu o demək deyil ki, əsrlərlə davam edən birgəyaşayış çoxmədəniyyətliliyə çevriləcək. Sonradan yaranan müxtəliflik isə tarixən fərqli məkanlarda yaşayan və fərqli dəyərlər sisteminin daşıyıcılarının hər hansı bir dövrdə müxtəlif siyasi, iqtisadi, sosial və digər səbəblərdən birgəyaşayışına əsaslanan bir haldır. Müasir baxımdan münaqişə, yoxsulluq, işsizlik, təhsil və digər səbəblərdən Avropa ölkələrinə üz tutan Afrika və Asiyadan olan mühacirlərin miqrasiyası nəticəsində yaranan birgəyaşayış şəraitini sonradan yaranan müxtəlifliyə aid etmək olar. Əksər hallarda bu iqtisadi cəhətdən fərqli qütbləri təmsil edən yoxsul ölkələrdən siyasi cəhətdən sabit olan varlı ölkələrə doğru insanların köç etməsi nəticəsində yaranır. Bu zaman yeni gələnlərlə yerli sakinlər arasında ziddiyyətlərin yaranması müşahidə olunur. Bu prosesin iqtisadi səbəbləri olduğu kimi mədəni barışmazlıqdan və sivilizasiyaların toqquşmasından irəli gələn səbəbləri də mövcuddur. Bununla bağlı Kamal Abdullayev yazır: "Sonrakı müxtəlifliklə bağlı real sosial nəticə odur ki, gəlmə multikultural dəyərlər dəyərləri formalaşmış ölkədə özünə asanlıqla yer eləmir. Belə bir ölkədə yeni dəyərlərin calağı istər-istəməz süni alınır. Onun üçün də bəzi Avropa ölkələrində bu modelin iflasa uğramasının obyektiv səbəbləri yox deyil" [4, s.5].

Multikultural cəmiyyətin dayanıqsızlığının ən mühüm səbəblərindən birinin Qərbi Avropa ölkələrinin yeritdiyi miqrasiya siyasətidir. Çünki multikulturalizm ilkin mənada tarixi milli azlıqlara münasibəti nəzərdə tutan yanaşma tərzi kimi qəbul edilirdi. Sonradan Avropa rəsmiləri tərəfindən işçi miqrantların vahid mədəni dəyərlərə inteqrasiyasına hesablanan miqrasiya siyasəti təşviq edilmə prosesi başlandı. Bu siyasət isə özünü doğrultmadı və sonradan yaranan müxtəlifliyi əhatə edə bilmədi. Bu gün Avropa rəsmiləri işçi miqrantların müvəqqəti gəldiklərini düşündüklərini bəyan etsələr də, bu, heç də reallığı əks etdirmir. Əslində hüquqi müstəvidə ilk dəfə Avropada miqrantlar tarixi milli azlıqlara bərabər tutulmuşdur. Belə ki, bu sahədə qabaqcıl ölkələrdən sayılan İsveçdə 1970-ci illərin ortalarından, Hollandiyada isə 1980-ci illərin əvvəllərindən miqrant azlıqların müdafiəsi ilə bağlı tədbirlər həyata keçirməyə başlamışdılar. Dövlət tərəfindən miqrantların ana dilində təhsil almaq, öz kütləvi informasiya vasitələrini yaratmaq, mədəni tədbirlər həyata keçirmək və digər hüquqları ilə bağlı addımlar maliyyələşdirilirdi. Miqrantların sayının intensiv artması və öz dəyərlərinə sadiq qalması Avropa rəsmilərinin bu yanaşmadan imtina etməsi ilə nəticələndi [5].

Qeyd etmək lazımdır ki, ilkin mövcud olan və sonradan yaranan müxtəlifliklər əhatə edə bilən multikultural tolerantlıq nümunələri də mövcuddur. Bu mənada Azərbaycan Respublikası bütün dünyaya örnək ola biləcək dəyərlərə sahibdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı ilin aprel ayında Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun açılışında səsləndirdiyi fikirlər Azərbaycanda cəmiyyətin multikultural həyat tərzinə baxışını çox dəqiqliklə ifadə edir: "Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olmuşdur. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. Multikulturalizm sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb" [1].

Azərbaycanda müxtəlif dinlərin və etnik qrupların nümayəndələri uzun əsrlərdir ki, dinc yanaşı yaşayırlar. Onlar arasında münasibətlər əvvəlcədən mövcud olan müxtəliflik konsepsiyasında tolerantlıqla müşayiət olunur və multikultural dəyərlərin əsasında dayanır. Bununla yanaşı, Azərbaycan sonradan yaranan müxtəliflik konsepsiyasında da multikultural cəmiyyətin formalaşmasında problemlərin olmadığını təsdiq etmişdir. Belə ki, sonradan yaranan müxtəlifliyin birgəyaşayışının mümkünsüzlüyünün tamamilə fərqli dəyərlər sistemini təmsil etməsi ilə əlaqədar olması ideyası Azərbaycan nümunəsində öz təsdiqini tapmamışdır.

Nəticə: Dünyada artmaqda olan fərqliliklər arasında qarşıdurma və ziddiyyətlərin fonunda bəşəriyyətin gələcəyinə əsas ümid mədəniyyətlərin dialoqundadır. Bəşəriyyət yalnız fərqliliklərin dəyərlərinə hörmət etməklə inkişaf edə bilər. "Yumşaq güc" kimi tanınan mədəniyyətlərin dialoqu in-

kişaf və tərəqqinin başlıca arqumentlərindəndir. Multikulturalizmin Azərbaycan modeli bu gün dünyada öndə gedənlərdəndir. Bu modelin həyatiliyini, canlılığını artıran əsas səbəblərdən biri onun tarixi siyasi zəminə malik olmasıdır. Tarixin müxtəlif çağlarında mədəniyyətlərə multikultural yanaşma mövcud tarixi şəraitin sosial, siyasi aspektləri ilə vəhdət təşkil etmişdir. Bu xüsusiyyət, müstəmləkəçilik, mədəni assimilyasiya, miqrant hadisələrində təzahür tapır.

ƏDƏBİYYAT

1. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında Prezident İlham Əliyevin nitqi /26 aprel 2016-cı il/ - http://www.president.az/articles/
2. Kissinger H. World Order. New York: Penguin Press, 2014, 420 p. s.18
3. Осборн Р. Цивилизация. Новая история Западного мира / Пер. с англ. М.Колопотина/. -Москва: АСТ МОСКВА: Хранитель, 2008, 764 с.
4. Abdullayev K. Multikulturalizm siyasətinin nikbinlik və bədbinlik qütbləri. "Respublika" qəzeti, 13 aprel 2016-cı il, s.5.
5. Entzinger H. The Rise and Fallof Multiculturalism: The Case of the Netherlands. /Edited by C.Joppke and E. Morawska/. In Toward Assimilation and Citizenship: Immigrants in liberal nation-states. New York: Palgrave, 2003.
6. Ə. Həbibbəyli. Multikultural dəyərlər "ilkin" və "sonrakı" müxtəliflik prizmasında. STRATEJİ TƏHLİL. Say 1-2 (15-16) • 2016 s.12.

Vüsalə MƏMMƏDZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti,
s.ü.f.d.
vusalememmedova@mail.ru

Turizm infrastrukturu və resurslarının yaranmasında mədəni irsdən istifadənin muzeyşünaslıq istiqaməti

Музейные перспективы использования культурного наследия в создании туристической инфраструктуры и ресурсов

Museum-based perspectives on the use of cultural heritage in the creation of tourism infrastructure and resources

Xülasə: Mədəniyyət müəssisələri şəbəkəsinin, o cümlədən muzeylərin mədəni turizm fəaliyyətlərindəki payı artdıqca ölkənin turizm potensialı, turist axını nəticəsində maliyyə və təbliğat resursları artır. Turizm xidmətlərindən əldə olunan gəlirlər ölkənin, o cümlədən regionların mədəni-iqtisadi inkişafında mühüm rol oynayır. Turizm gəlirlərinin dövriyyəyə daxil olması öz səmərəsini verdikcə həm turizm servisinin səviyyəsi yüksəlir, həm də mədəniyyət müəssisələrinin fəaliyyətində stimullaşdırma güclənir ki, nəticədə digər sahələrlə yanaşı mədəni irsin qorunması, istifadəsi və təbliğində də canlanma müşahidə edilir. Digər turizm növlərindən fərqli olaraq mədəni turizm sektoru ekoloji mühitin və landşaftın qorunub saxlanılması baxımından əlverişli imkanlar açır. Xüsusilə də, muzeylər tarixin müəyyən məqamını özündə yaşadan, ötən əsrlərin müxtəlif olaylarından xəbər verən maddi dəyərləri toplayan, qoruyub saxlayan, komplektləşdirən, tədqiq və təbliğ edən maddi-mənəvi xəzinə, mədəniyyət müəssisəsi və mədəni irs mərkəzi olduğu üçün buraya yalnız qiymətli əşyaların, maddi sərvətlərin saxlanc yeri kimi baxılması muzeyşünaslığın müasir meyarları baxımından məqbul sayılmır.

Açar sözlər: Muzey, turizm, mədəni irs, dövlət, sosial-iqtisadi

Резюме: Поскольку сеть учреждений культуры, в том числе музеев, увеличивается в результате доли культурно-туристической деятельности, туристический потенциал страны, финансовые и рекламные ресурсы увеличиваются в результате потока туристов. Доход от туристических услуг играет важную роль в культурном и экономическом развитии страны, включая регионы. По мере того, как доходы от туризма становятся эффективными, уровень туристических услуг растет, и стимулируется деятельность учреждений культуры, что, наряду с другими областями, способствует сохранению, по-

пуляризации и популяризации культурного наследия. В отличие от других видов туризма, сектор культурного туризма предлагает большие возможности для сохранения окружающей среды и ландшафта. Тем более что музеи являются центром материальных и духовных ценностей, культурных предприятий и культурного наследия, которое собирает, сохраняет, дополняет, исследует и распространяет материальные ценности истории, события прошлых веков. Рассмотрение ценных вещей как хранилища материальных ресурсов не считается приемлемым в контексте современных критериев музейного изучения.

Ключевые слова: Музей, туризм, культурное наследие, государство, социально-экономическое

Abstract: As the network of cultural establishments, including museums, increases as a share of cultural tourism activities, the country's tourism potential, financial and promotional resources are increased as a result of the tourist flow. Income from tourism services plays an important role in the cultural and economic development of the country, including the regions. As tourism revenues become effective, the level of tourism services is rising, and stimulation of cultural institutions is enhanced, which, along with other areas, conserves, promotes and promotes cultural heritage. Unlike other types of tourism, the cultural tourism sector offers great opportunities for the preservation of the environment and the landscape. Especially since museums are a center of material and cultural treasure, cultural enterprise and cultural heritage that collects, preserves, complements, researches and propagates the material values of the past, which reflect the events of the past centuries. Consideration of valuable things, as a storage of material resources is not considered acceptable in the context of modern criteria of museum studies.

Key words: Museum, tourism, cultural heritage, state, socio-economic

Cəmiyyətin sosial-iqtisadi inkişafı nöqteyi-nəzərindən turizmin əhəmiyyəti böyükdür. Ayrı-ayrı regonlarda, o cümlədən bütövlükdə ölkədə turizmin inkişaf etdirilməsi bir çox sosial-iqtisadi problemlərin kökündən həll edilməsi üçün əlverişli şərait yaradır. Onun inkişaf etməsi ilə çoxsaylı yeni iş yerlərinin açılmasına, kənd əhalisinin şəhərə xaotik axınının qarşısının alınmasına, əhalinin kommunikasiya və mədəni əlaqələrinin artmasına nail olmaq mümkündür. Turizm inkişaf edən regionlarda mədəniyyətlərarası inteqrasiyanın güclənməsinə də əlverişli şərait yaradır. Dünyada elə bölgələr vardır ki, burada iqtisadiyyatın digər sahələrinin inkişafı üçün sadəcə şərait olmadığı halda turizm həmin ərazinin insanlarının məşğulluq problemlərinin həll edilməsi baxımından yeganə bir vasitə sayılır. Turizmin ölkənin sosial-iqtisadi həyatındakı rolundan əlavə onun dünyadakı siyasi mövqeyinin möhkəmləndirilməsində də çox əhəmiyyəti vardır. Belə bir cəhət, ələlxüsus, öz müstəqilliyini yeni əldə etmiş olan ölkələr üçün çox mühümdür. Beynəlxalq turizmin həmin bölgələrdə inkişaf etdirilməsi, buraya turist axınına nail olunması ilə iqtisadi yüksəliş və sosial səmərədən əlavə həmin ərazi haqqında yüksək imic formalaşdırıb, canlı informasiya da yaymaq mümkündür.

Mədəniyyət müəssisələri şəbəkəsinin, o cümlədən muzeylərin mədəni turizm fəaliyyətlərindəki payı artdıqca ölkənin turizm potensialı, turist axını nəticəsində maliyyə və təbliğat resursları artır. Turizm xidmətlərindən əldə olunan gəlirlər ölkənin, o cümlədən regionların mədəni-iqtisadi inkişafında mühüm rol oynayır. Turizm gəlirlərinin dövriyyəyə daxil olması öz səmərəsini verdikcə həm turizm servisinin səviyyəsi yüksəlir, həm də mədəniyyət müəssisələrinin fəaliyyətində stimullaşdırma güclənir ki, nəticədə digər sahələrlə yanaşı mədəni irsin qorunması, istifadəsi və təbliğində də canlanma müşahidə edilir. Digər turizm növlərindən fərqli olaraq mədəni turizm sektoru ekoloji mühitin və landşaftın qorunub saxlanılması baxımından əlverişli imkanlar açır. Xüsusilə də, muzeylər tarixin müəyyən məqamını özündə yaşadan, ötən əsrlərin müxtəlif olaylarından xəbər verən maddi dəyərləri toplayan, qoruyub saxlayan, komplektləşdirən, tədqiq və təbliğ edən maddi-mənəvi xəzinə, mədəniyyət müəssisəsi və mədəni irs mərkəzi olduğu üçün buraya yalnız qiymətli əşyaların, maddi sərvətlərin saxlanc yeri kimi baxılması muzeyşünaslığın müasir meyarları baxımından məqbul sayılmır. Habelə "mədəni irs" anlayışının terminoloji mahiyyəti, məzmunu və əsas mühafizə problemlərinin izahı verilərkən qeyd edilməlidir ki, mədəni irsin təşəkkülü və inkişafının əsas mərhələlərinə dair səciyyəvi xüsusiyyətlər şərh edilərək memarlıq, monumental heykəltəraşlıq və boyakarlıq əsərləri, arxeoloji xarakterli ünsürlər və ya strukturlar, kitabələr, mağara məskənləri və tarix, incəsənət, yaxud elm baxımından görkəmli universal dəyərə malik ünsür qrupları və s. dəyərlər "mədəni irs" anlayışı altında ümumiləşdirilir. Habelə, bu anlayışa insan əlinin bəhrəsi, yaxud insan və təbiətin birgə əsəri, eləcə də, diqqətəlayiq arxeoloji yerlər daxil olmaqla, tarix, estetika, etnologi-

ya və ya antropologiya baxımından görkəmli universal dəyərə malik zonalar da daxil edilir. Müxtəlif tarixi dövrlərdə cəmiyyətin inkişafı ayrı-ayrı elm sahələrinin yaranması, tərəqqisi ilə sıx əlaqədə olduğundan, elm və mədəniyyətin təkanverici təsiri bəzi dövrlərdə hətta qanunauyğun şəkil almış, dövlətlərin mədəniyyət sistemi yaranmışdır. Dövlət mədəniyyət sisteminin əsaslarından hesab edilən muzeylər müxtəlif profilli olmaqla, hazırda aparıcı mövqeyə malikdir. Hal hazırda Azərbaycanda 250 dən artıq muzey vardır ki, bunlardan 221-i birbaşa Mədəniyyət Nazirliyinin tabeçiliyindədir.

Məlumdur ki, turizm həm də sosial-iqtisadi, ekoloji və s. kimi sahələrə böyük təsir göstərir və əksinə, onlar da turizmə təsir edirlər. Məhz, müvafiq istiqamətlərdə həyata keçirilən sosial-iqtisadi və siyasi tədbirlər nəticəsində regiona turist axını yaranır ki, həmin turizm regionu da gələn qonaqlardan (turistlərdən) qazanc əldə edir və gəlir götürür. Qonaqlara xidmət edilməsindən əldə olunan qazanc ilkin kapital kimi regionun inkişafında mühüm rol oynayır və regionun daimi sakinlərindən alınan gəlirlərdən həcm və mahiyyət baxımından daha çox əhəmiyyətlidir. Belə ki, turizmdən götürülən gəlir dövriyyəyə daxil olur və tezliklə öz səmərəsini verir. Regionda daha çox xidmət satılırsa, bu halda əldə edilən mənfəətin həcmi də yüksək olacaqdır, yəni yerli istehsalın daha da gücləndirilməsi üçün geniş imkanlar yaranacaqdır. Eyni zamanda, turizm sektoru ekoloji baxımdan da region üçün əlverişli hesab edilir. Bu da turizm xidmətlərinin göstərilməsindən əldə edilən gəlirlərin bir hissəsinin landşaftın qorunub saxlanılmasına sərf edilməsilə mümkündür Qeyd edilir ki, istənilən turizm növünün, o cümlədən kənd turizminin inkişafı ücün geniş turizm maarifçiliyinə ehtiyac vardır. Turizmin iqtisadiyyatın bir çox sahələri ilə bağlı olması, turistlərin isə demək olar ki, bütün əhali təbəqələri ilə birbaşa təmasda olması bu məsələyə xüsusi diqqət yetirilməsini tələb edir.

Məhdud mənada əsasən maddi mədəniyyət (texnika istehsal təcrübəsi, maddi sərvətlər), mənəvi mədəniyyət (elm, incəsənət və ədəbiyyat, fəlsəfə, əxlaq, maarif və s.), həmçinin siyasi mədəniyyət (cəmiyyətin, sinfin, qrupun, fərdin fəaliyyətinin ictimai münasibətlərin dəyişdirilməsinin subyekti kimi şəxsiyyətin sosial inkişafının meyarını səciyyələndirən məqsədləri, nəticələri) haqqında danışmaq qəbul olunmuşdur. Azərbaycanda Mədəniyyət siyasətinin təminatı aşağıdakı istiqamətlərdə həyata keçirilir:

1. Qanunvericilik təminatı;
2. Müəlliflik hüququ;
3. Mədəniyyətin maliyyələşməsi;
4. Mədəniyyət sahəsində təhsil, treninqlər və tədqiqatlar;
5. Beynəlxalq münasibətlər;
6. Əhalinin mədəni həyatda iştirakı;
7. Mədəni və təbii irs;
8. Muzeylər;
9. Kitabxanalar;
10. Ənənəvi incəsənət;
11. İfaçılıq sənəti yaradıcılığın dəstəklənməsi;
12. Mədəniyyət industriyaları;
13. Mədəniyyət Sahəsində Qanunvericilik və Mədəniyyət Siyasətinin İnkişafı.

Müxtəlif tarixi dövrlərdə cəmiyyətin inkişafı ayrı-ayrı elm sahələrinin yaranması, tərəqqisi ilə sıx əlaqədə olduğundan, elm və mədəniyyətin təkanverici təsiri bəzi dövrlərdə hətta qanunauyğun şəkil almış, dövlətlərin mədəniyyət sistemi yaranmışdır. Dövlət mədəniyyət sisteminin əsaslarında hesab edilən muzeylər müxtəlif profilli olmaqla, hazırda aparıcı mövqeyə malikdir. Hazırda bir sıra ölkələr məhz muzeyləri sayəsində dünya ictimaiyyətinin, xüsusilə elm, siyasət adamlarının, turistlərin diqqətini çəkir, mədəniyyətlərini qlobal miqyasda təbliğ etmək imkanı əldə edirlər. Dünyada məşhur muzeylər sırasında Parisin Luvr (Fransa), Londonun Viktoriya və Albert (Böyük Britaniya), İstanbulun Topqapı (Türkiyə), Sankt-Peterburqun Ermitaj (Rusiya) və s. muzeyləri göstərmək olar.

Ümumiləşdirmə aparılaraq belə qənaətə gəlinir ki, mədəni turizm – maraq,dincəlmə, əyləncə, sağlamlıq, idman məqsədləri ilə yanaşı, şəxsiyyətin zənginləşdirilməsi, yeni məlumatların qazanılması məqsədi ilə edilən səyahətlərdir. Başqa sözlə, mədəni turizm – turistlərin qədim sənət əsərlərini, tarixi yerləri, muzeyləri, qədim sivilizasiyalara aid müxtəlif qalıntıları, digər cəmiyyətlərin yaşayışlarını öyrənmək istəyi ilə həyata keçirilən turizm fəaliyyətləridir. Digər bir tərifə görə isə mədəni

turizm – təhsil, sənət, mədəniyyət və festival turlarını, abidələri, qədim yaşayış məskənlərini və təbii gözəllikləri, ziyarətgahları, xüsusilə fəaliyyət sahəsi mədəni fəallıq olan səyahətləri əhatə edir.

Mədəni irs nümunələrindən turizm məqsədilə istifadənin aşağıdakı əsas istiqamətlərini göstərmək olar:

1. Mədəni irs nümunələrinin geniş yayıldığı yaşayış məntəqələrində etnoqrafik muzeylərin təşkil olunması yolu ilə beynəlxalq turizmin inkişaf etdirilməsi;
2. Mədəni irs nümunələrindən kənd turizmində istifadə olunması imkanlarının müəyyənləşdirilməsi;
3. Beynəlxalq və yerli turizm marşrutlarında mədəni irs nümunələrindən istifadə olunması Mədəni irs nümunələri – xalqın adət-ənənələrin özündə əks etdirən turizm ehtiyatlarına deyilir. Mədəni irs nümunələrinə ənənəvi sənətkarlıq, folklor nümunələri, milli bayram və festivallar, milli kulinariya, etnoqrafiq və mədəni abidələr, milli musiqi, xalçaçılıq və s. daxildir. Bildiyimiz kimi, hazırda mədəni irs nümunələri daha çox beynəlxalq turizmdə istifadə olunur.

Mədəni abidələrin və xalq yaradıcılığının mədəni turizmdə istifadəsi onların ayrı-ayrı qrupları üzrə aparılır. Mədəni-mənəvi abidələrə etnoqrafiya, xalq yaradıcılığı, suvenir istehsalı, milli mətbəx nümunələri də daxil olduğuna görə onların turizm baxımından birgə istifadəsi mümkündür.

Turistlərin marağının formalaşdırılmasında fəaliyyətin müxtəlif sahələrindən istifadə mümkündür. Turist marağının istiqamətlərini müəyyənləşdirmək üçün onun sosial və mədəni istiqamətini vermək lazımdır. Turistlərin daha çox marağına səbəb olan elementlərə daxildir: xalq incəsənəti, elmi, dini, tarixi, adət-ənənəsi və s. Təsviri sənət – turist səfərlərini formalaşdıran mədəniyyət elementləri vasitələrindən biridir. Bu məşhur kurort ərazilərində həyata keçirilir. Bu binalarda milli təsviri sənət vasitəsi ilə turistləri bu ərazilərin mədəniyyəti ilə taniş etmək mümkündür.

Azərbaycanın maddi-mədəniyyət nümunələrinə daxil olan eksponatlar müxtəlif profilli - tarix və tarix-diyarşünaslıq, incəsənət və ədəbiyyat, elm, siyasət, mədəniyyət və incəsənət xadimlərinin memorial, hərbi-vətənpərvərlik və döyüş şöhrəti muzeylərində saxlanılır. Hazırda ölkənin muzeylərində ümumilikdə 1 milyon 198 min əşya vardır

Muzeyşünaslıqda tarixi mənbəşünaslığın üsul və metodlarından istifadə olunur: üzə çıxarılmamış muzey əhəmiyyətli əşyaların seçilməsi (muzeyşünaslıq evristikası), muzeyşünaslıq kontekstindən dəyərləndirilmə yolu ilə bunların içərisindən müəyyən informasiya daşıyıcısı olan muzeal əşyanın seçilməsi. Muzeal olanlardan tarixi mənbə kimi istifadə edilməsi muzey mənbəşünaslığının, muzeyşünaslığın və tarixi mənbəşünaslığın struktur elementi kimi tanınmasını obyektiv zərurətə çevirir. Müasir mənada muzeyşünaslıq XIX əsrin ikinci yarısında Qərbi Avropada formalaşmış, muzeylərin, muzeyçilik təcrübəsinin geniş yayılması ilə əlaqədar XX əsrin ilk oniliklərindən etibarən tədricən ayrıca elm sahəsinə çevrilmişdir. Bununla yanaşı qeyd edilməlidir ki, muzeyçilik və onun sələfi olan kolleksiyaçılıq ənənələri ilə bağlı olaraq meydana çıxan elmi biliklər sistemi, əməli vərdişlər hələ antik dövrdə mövcud idi. Qədim Şərq ölkələrində, eləcə də antik Yunan və Roma cəmiyyətində muzey xüsusiyyətlərinə malik olan müəssisələrin (antik zinət əşyalarının, incəsənət əsərlərinin toplandığı sarayların, məbədlərin və s.) olması burada müəyyən təcrübənin meydana gəlməsinə şərait yaradırdı. Lakin həmin dövrdə müasir mənada muzeylər olmadığından, ardıcıl, sistemli muzeyşünaslıq elmi də, təbii ki, yox idi.1977-ci ildə Beynəlxalq Muzeylər Şurasının 11-ci konfransında qəbul olunmuş qərara əsasən, hər il may ayının 18-i Beynəlxalq Muzeylər Günü kimi qeyd edilir. 1978-ci ildən etibarən dünyanın 150-yə yaxın ölkəsində bu bayram xalqlar arasında mədəni mübadilə və əməkdaşlığın inkişafına kömək şüarı ilə keçirilir. Həmin gün dünya ictimaiyyətinin diqqəti hər bir xalqın zəngin mədəni irsinə, incəsənətinə, tarixi keçmişinə yönəldilir, milli özünəməxsusluğu nümayiş etdirmək baxımından əvəzsiz imkanlar açılır. Muzeylər mahiyyətinə görə müxtəlif təmayüllü olurlar. Məsələn, dövlət, memorial, ədəbiyyat, incəsənət, tarix, musiqi, qoruq və s. Qoruq muzeylər adətən açıq havada olan, xüsusi memarlıq üslubuna malik qeyri-adi tikililər, abidələr, bulaqlar, məqbərələr, məbədlər, qalalar sayılır. Minlərlə dünya əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələrinə, ölkə və yerli əhəmiyyətli abidə xəzinəsinə malik Azərbaycanımızın muzeylərində çox qədim dövrlərə aid zəngin əşyaların olması təbii haldır.

Müstəqil dövlət quruculuğunun çağdaş dövründə cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, mədəniyyət sahəsində, o cümlədən muzey fəaliyyəti ilə bağlı tələblər və məqsədlər dəyişmişdir. Belə ki, istər siyasi, istər iqtisadi sistemlərin tamamilə yeniləşməsi, təbii olaraq, sözügedən

muzey fəaliyyətinin yeni, daha işlək mexanizmlərinin yaradılmasını aktuallaşdırır. Əslində Avropada və bir sıra Şərq ölkələrində muzey fəaliyyətinin çeşidi və istiqamətləri, onun ideya-estetik məzmunu çoxdan müəyyənləşmiş, burada zəngin təcrübə əldə edilmişdir.

Muzeyin əsas vəzifəsi əhalini maarifləndirmək, mədəniyyəti, elmi bilikləri təbliğ etməklə yanaşı, qədim Azərbaycan ərazilərinin inkişaf yolunu əks etdirən azəri türklərinin bu torpaqlarda məskunlaşma tarixinin salnaməsini sənədlərlə, arxeoloji ekspedisiyalarda aşkar edilmiş faktiki materiallarla, eksponatlarla təsdiq etməkdir.

E.ə. eləcə də eramızın ilk əsrlərində Atropatena və Albaniyanın hökmdar saraylarında, məbəd və kilsələrdə qiymətli əşyaların, nadir sənət əsərlərinin, dünyəvi və dini məzmunlu zəngin kitabların, əlyazmaların qorunub saxlanıldığı məlumdur. Azərbaycan hökmdarları - Cavanşir (VII əsr), Məhəmməd Cahan Pəhləvan (XII əsr), Qızıl Arslan (XII əsr) və bir çox başqaları mədrəsələr, məscidlər, rəsədxanalar, karvansaralar, ovdanlar, xəstəxanalar tikdirməklə yanaşı zəngin kitabxanalar yaratmış, öz saraylarında poeziya, musiqi, rəsm məclisləri təşkil etmiş, alimlərə, şairlərə, sənətkarlara hamilik etmişlər (2, 3).

Elxanilər və Eldənizlər dövründə Azərbaycanda mədəniyyət daha da inkişaf etmişdi. Görkəmli dövlət xadimi, alim və şair Fəzlullah Rəşidəddinin (1247-1318) təşəbbüsü ilə XIII əsrdə Təbriz yaxınlığında salınan Rəşidiyyə şəhərciyində digər tikililərlə yanaşı, 60 mindən artıq kitab fondu olan iki böyük kitabxana da fəaliyyət göstərirdi. Öz dövrünün bu böyük elm mərkəzində qiymətli sənət əsərləri, nadir əlyazmalar mühafizə olunur, tanınmış alimlər, hakimlər, şairlər, rəssamlar çalışırdılar.

XIII-XIV əsrlərdə mədrəsə kitabxanaları öz fondlarının zənginliyi ilə fərqlənmiş, burada dini kitablarla yanaşı dünyəvi ədəbiyyat da saxlanılmışdır.

XIV-XVI əsrlərdə Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilər dövründə Azərbaycanın bir sıra hökmdarları tərəfindən zəngin saray kitabxanaları yaradılmışdır. Bu kitabxanalar içərisində Cahanşahın (Həqiqi), Uzun Həsənin, Sultan Xəlilin və Sultan Yaqubun təşkil etdiyi saray kitabxanaları xüsusilə zəngin olmuş, onlarda dövrün bir çox alim, şair, xəttat, rəssam və digər görkəmli şəxsiyyətləri fəaliyyət göstərmişlər.

Səfəvi hökmdarı I Şah İsmayıl (Xətai) tərəfindən yaradılmış Təbriz saray kitabxanasında Şərqin böyük klassiklərindən Nizaminin, Firdovsinin, Sədinin, Hafizin, Əssar Təbrizinin qiymətli əlyazmaları vardı (109, 85-88).

Kitabxananın nəzdində həmçinin əlyazma kitablarım hazırlayan, köçürən, miniatürlərlə bəzəyən, cildləyən, bədii tərtibatını təmin edən emalatxana da fəaliyyət göstərirdi. 1522-ci ildə I Şah İsmayıl tərəfindən kitabxananın fəaliyyətinə dair xüsusi fərman imzalanmış, bu fərmanla görkəmli rəssam Kəmaləddin Behzad kitabxananın rəisi vəzifəsinə təyin olunmuşdu. I Şah İsmayıl tərəfindən ikinci kitabxana Ərdəbildə, babası Şeyx Səfinin şərəfinə tikdirdiyi məqbərənin nəzdində yaradılmış və bu elm-mədəniyyət ocağı kitabxana işi tarixində Şeyx Səfi kitabxanası kimi məşhurlaşmışdır. Səfəvilər sülaləsinin hakimiyyətdə olduğu 235 il ərzində fəaliyyət göstərən bu kitabxanaya I Şah İsmayıldan sonra bütün Səfəvi hökmdarları tərəfindən qiymətli kitabların hədiyyə edilməsi ənənəyə çevrilmişdi (2, 91-98).

Saray kitabxanası sadəcə kitabxana olmayıb, həm də böyük elm və incəsənət mərkəzi, təhsil ocağı, muzey əşyalarının qorunduğu böyük bir dövlət müəssisəsi rolunu oynayırdı. I Şah İsmayılın, I Təhmasibin dövrlərində Təbriz və Qəzvinin saray kitabxanalarında və rəssamlıq emalatxanalarında dövrünün tanınmış azərbaycanlı rəssamları – Behzad, Sutan Məhəmməd, Mir Müsəvvir, Mir Seyid Əli, Mirzə Əli Təbrizi, Müzəffər Əli, Riza Abbasi və b. yaradıcılıqla məşğul olurdu. XVI əsrin sonlarında Məhəmmədi, Sadıq bəy Əfşar, Siyavuş bəy, Mir Zeynalabdin Təbrizi kimi Azərbaycan sənətkarları Qəzvində və İsfahanda saray kitabxanalarında işləmiş, bu kitabxanalarda qorunub saxlanılan qiymətli əşyalar fondunu gözəl rəsm əsərləri ilə zənginləşdirmiş, İsfahan miniatür məktəbinin meydana gəlməsində və inkişaf etməsində həlledici rol oynamışlar.

Azərbaycanın XII-XVII əsrlər memarlıq abidələri dünya irsinin qızıl fonduna daxil edilmişdir. Bu ilk növbədə Bakının "İçərişəhər" adlanan qalasıdır. Bura kiçik bir ərazi olmasına baxmayaraq 44 nadir abidəyə malikdir. Bunlardan Şivanşahlar sarayı, Sınıqqala minarəsi, Qız qalası və digərlərini qeyd etmək olar. Bakıdan Gürcüstan sərhədinə kimi avtomagistrallar boyunca qala divarlarına, tənha qüllələrə, tarixin müxtəlif dövrlərində Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin paytaxtı,

sənətkarlıq və mədəniyyət mərkəzləri olmuş antik və orta əsr şəhərlərinin xarabalıqlarına təsadüf etmək mümkündür. Belələrinə misal olaraq qədim Gəncə, Şamaxı, Qəbələ və Bərdəni göstərmək olar.

Azərbaycanın ərəblər tərəfindən işğalından sonra burada yeni mərasim tikililəri – məscidlər inşa edilməyə başlanılmışdır. Onlardan ən qədimləri Şamaxı, Gəncə, Şəki və digər yerlərdə dövrümüzə qədər qorunub saxlanılmışdır. Orta əsrlər dövrünün memorial tikililəri İpək yolu marşrutu boyunca məqbərələrlə təmsil olunmuşdur. Məsələn, Mərəzədə Diri baba türbəsi, Şamaxıda "Yeddi gümbəz" türbələr kompleksi, Ağsuda Şeyx Dursun türbəsi, Gəncədə İmamzadə türbəsi və b. göstərmək olar (2,87).

Azərbaycanın xanlıqlar dövrünün ən möhtəşəm abidələrindən biri dünya mədəni irs siyahısına daxil olmuş Şəki xan sarayıdır.Bundan başqa Şəkidə "Gələrsən-görərsən" qalası, Zaqatalada Şamil qalası, Şəmkirdə "Koroğlu qalası" və b. maraq kəsb edir. Bunlar Azərbaycan memarlıq abidələrinin qızıl fondunu təşkil etməklə xarici qonaqların böyük marağına səbəb olan mühüm turizm məhsullarıdır (1, 36).

XIX əsrin ikinci yarısından etibarən Azərbaycanın ictimai-siyasi, mədəni fikir həyatında sürətlə cərəyan edən proseslər öz növbəsində muzey işinin təşkilinə təkan vermiş və ölkəmizdə müasir tipli muzeylərin yaradılmasına başlanmışdır. Qeyd edək ki, hələ o zamanlar Azərbaycanın ictimai şüur tərzində muzey fəaliyyətinə meyllilik formalaşsa da, kolleksiyaçılıq işində müəyyən təcrübə əldə olunsa da, real olaraq muzey tipli müəssisələrin təşkili tarixi Naxçıvanın Nehrəm kənd məktəbində görkəmli ədib Cəlil Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə ilk muzeyin yaradılması faktı ilə (XIXəsrin axırları) bağlıdır. Ötən əsrin əvvəllərində Bakıda, xalq məktəbləri müdiriyyəti nəzdində Pedaqoji muzey, həmçinin Ümumrusiya Texniki Cəmiyyətinin Bakı şöbəsi nəzdində qapalı muzeyin yaradılması artıq Azərbaycanda kolleksiyaçılıq ənənələrinin dünya təcrübəsinə müvafiq olaraq təşkilatlanmış formada həyata keçirilməsində tarixi təkan oldu. Lakin Nehrəm kəndindəki muzey istisna olmaqla, adları qeyd olunan digər muzeylər çar üsuli-idarəsinin maraqlarını ifadə etdiyindən Azərbaycanın mədəni sərvətlərini zəif işıqlandırıldığı da tarixi faktdır (3,s.4).

XX əsrin əvvəllərində isə Bakıda Xalq Məktəbləri Müdriyyəti nəzdində pedoqoji muzey fəaliyyət göstərmişdir. Muzeydən əsasən tədris prosesində istifadə edilmişdir. Elə həmin illərdə Ümumrusiya Texniki Cəmiyyətinin Bakı şöbəsi nəzdində qapalı muzey yaradılmışdır.

Respublikamızda ilk rəsmi dövlət muzeyi Azərbaycan Xalq Cumhuriyyəti dövründə yaradılmışdır. "Yaşıl qələm" Ədəbi Cəmiyyətinin üzvləri Hüseyn bəy Mirzə Camalov və Məhəmməd Ağayev Azərbaycan parlamenti qarşısında çıxış edərək Bakıda milli muzeyin yaradılması məsələsini qaldırdılar və muzeyin həmin dövrdə milli tarixi-mədəni dəyərlər baxımından böyük əhəmiyyət daşıyacağını qeyd etdilər. Onların səyi ilə muzeyin yaradılması məqsədilə qiymətli əşyalar da toplanmışdı. Yaradılacaq muzeyin sadəcə milli muzey adlandırılması nəzərdə tutulsa da, istiqlal şüarı günün əsas şüarı olduğundan muzeyə də İstiqlal adının verilməsi dəqiqləşdirilmişdi (2, 45-48).

Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Müsəlman Şərqini öyrənən Cəmiyyət"in yaradılması, bu cəmiyyət vasitəsilə maddi mədəniyyət nümunələrinin toplanması, tədqiqi üzrə işin aparılması, bir sıra sərgilərin təşkili, Naxçıvanda B.Əlibəyov tərəfindən əsasən öz şəxsi materialları hesabına muzey (1919) təşkil etməsi, Etnoqrafiya Muzeyinin yaradılması, Pedaqoji Muzeyin işinin təkmilləşdirilməsi məsələləri də həyata keçirilmişdi ki, bu işlər həmin dövr quruculuğu üçün mühüm milli əhəmiyyət kəsb edirdi (2, 114).

Muzeyin təsis edilməsi ilə əlaqədar "Azərbaycan" qəzeti 1919-cu il 23 sentyabr tarixli sayında yazırdı: "Sənələrdən bəri bəslədiyimiz bir arzu var ki, o da vətənimiz Azərbaycanda bir milli muzey təsisidir. Sabiq Rusiya zamanında təsis edəcəyimiz muzeyin adını "milli muzey" qoymaq fikrində idiksə də, bu gün fərdimizin köksünü qabardan istiqlal şüarı olmasına görə "İstiqlal muzesi" olmasını əhəmiyyətli görürüz" (1, 4).

1919-cu il dekabrın 7-də Parlament yaradılmasının ildönümü münasibətilə muzey açılmış və Azərbaycan Parlamentinin nəzdində fəaliyyət göstərməyə başlamışdır.

İstiqlal muzeyi 1919-cu il dekabrın 7-də Azərbaycan Parlamentinin yaradılmasının birinci ildönümü münasibətilə Azərbaycan Parlament binasında açılmış və onun nəzdində fəaliyyət göstərmişdir. Muzeydə arxeoloji nümunələr, rəsm əsərləri, maketlər, xalça və tikmələr, müxtəlif silahlar, numizmatika materialları, "Quran"ın nadir nüsxələri, müxtəlif əlyazmalar, bəzək əşyaları və s. əşyalar toplanmışdır. 1920-ci ilin oktyabrında muzey "Azərbaycan Dövlət Muzeyi" adlandırıldı.

1920-ci ildə Bakı şəhərində və Azərbaycanın digər bölgələrində kiçik (qapalı) muzeylər, diyarşünaslıq muzeyləri fəaliyyət göstərirdi. Belə muzeylər sırasında Ümumrusiya Texniki Cəmiyyətinin Bakı şöbəsi nəzdində fəaliyyət göstərən və 13 şöbə, 1500 eksponata malik qapalı muzeyi, Bakıda Əmək Muzeyinin sanitariya-gigiyena şöbəsinin fəaliyyətə başlaması, Azərbaycan Xalq Səhiyyə Komissarlığı Sosial Gigiyena İnstitutunda eyni adlı muzeyin təşkili, 1919-cu ildə Naxçıvanda B.Əlibəyov tərəfindən şəxsi əşyalar hesabına yaradılmış muzeyin 1920-ci ildə "milliləşdirilərək" diyarşünaslıq muzeyi kimi yenidən təşkili, 1920-ci ildə mövcud olan Lənkəran Tarix-Diyarşünaslıq muzeyini göstərmək olar.

1920-ci ilin aprelində Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra İstiqlal muzeyi ləğv edildi, lakin yeni muzeylərin yaradılmasında onun rolu əvəzsiz oldu. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan 20 gün sonra, yəni 1920-ci il mayın 18-də inqilab komitəsinin sədri N.Nərimanovun imzaladığı "Bütün muzeylər milliləşdirilsin" adlı qərara görə yeni dövlət muzeyi yaradılmalı idi (1, 66-70).

1920-ci ildə Respublika Xalq Maarif Komisarlığı Azərbaycan Dövlət Muzeyinin yaradılması barədə qərar qəbul etmiş və 1921-ci ilin noyabrında muzeyin arxeologiya, tarix, etnoqrafiya və təbiət şöbələri fəaliyyət göstərmişdir. 20-ci illərdə Respublikanın bir sıra rayonlarında, o cümlədən Gəncə, Naxçıvan, Şəki və Lənkəranda Tarix-diyarşünaslıq muzeyləri yaradılmasına başlanmışdır.

1922-ci il martın 25-də RSFSR Xalq Maarif Komissarlığının Kollegiyası "Muzey fondlarından Şərq incəsənət əsərlərinin Azərbaycan muzeyi üçün ayrılması haqqında" qərar qəbul etmişdi. Əhatəli ekspozisiyaların təşkil edilməsi sahəsində materialların toplanılması kimi məsuliyyətli, çətin iş prosesində mərkəzi muzeylərin köməyi danıl-mazdır. Tretyakov qalereyası Azərbaycan Dövlət Muzeyi üçün rus rəssamlarının əsərlərindən ibarət kolleksiya ayırmışdı, Leninqradın muzey fondlarından Azərbaycana aid maddi mədəniyyət inciləri geri alınmışdı. 1928-ci ilin yanvarında SSRİ Xalq Komissarları Soveti yanında xüsusi komissiyanın iclasında İttifaqın iri muzeyləri arasın-da vəsaitlərin bölünməsi məsələlərinə dair müzakirələrdə Azərbaycan Dövlət Muzeyinə 4 min rubl məbləğində vəsait ayrılması haqqında qərar qəbul edilmişdi. Bütün bu tədbirlər muzey işinin yenidən qurulmasına, inkişaf etməsinə əlverişli şərait yarada bildi (180, 29-36).

XX illərdə artıq bir sıra regionlarda, o cümlədən Qubada, Nuxada, Yelenendorf kəndində (indiki Göygöldə) diyarşünaslıq muzeyləri yaranırdı. Respublika rayonlarında yaradılan ilk muzeylərdən sayılan Quba Tarix Diyarşünaslıq Muzeyi, rayon mərkəzindəki "Cümə məscidi"nin yanında olan mədrəsədə din xadimi, ziyalı Əhməd Əfəndi Çələbizadə tərəfindən toplanmış Azərbaycan tarixinə dair materiallar əsasında 1924-cü ildə fəaliyyətə başlamış, ictimai əsaslarda fəaliyyətini davam etmiş, lakin 1937-ci ildə muzey bağlanmışdır (2, 25-28).

Biz bura Y.Qummel tərəfindən Xanlar rayonunda yaradılan muzeyi və Naxçıvandakı diyarşünaslıq muzeyin də əlavə edə bilərik.

XX-ci illərin əvvəllərində nümayiş etdirilən kənd təsərrüfatına aid sərginin əsasında 1923-cü ildə Azərbaycan Dövlət Kənd Təsərrüfatı Muzeyi yaradıldı.

1934-cü ildə C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi, 1936-cı ildə Azərbaycan Milli İncəsənət Muzeyi və Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Təbiət Tarixi Muzeyi təşkil olunmuşdur. Azərbaycan Dövlət Muzeyi Azərbaycan Tarix Muzeyinə çevrilmişdir. 1940-cı ildə Şəki şəhərində ilk xatirə muzeyi ,M.F. Axundovun ev muzeyi yaradılmışdır.

1940-cı ildən Bakıda Xalq Təhsili Muzeyi, 1945-ci ildən isə dahi Azərbaycan şairi N. Gəncəvinin anadan olmasının 800 illiyi münasibətilə Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi fəaliyyət göstərir.

1950-ci illərdə Quba, Masallı, Göyçay və Fizuli rayonlarının kəndlərində incəsənət profilli muzeylər açıldı. Lakin çox keçmədi ki, bu muzeylər mühafizəsi olunmadığından bağlandı.

1960-cı ildə Bakı şəhərində yeni tipli muzey-bədii sərgi salonu yaradıldı ki, bu salon sonradan Azərbaycan Dövlət Rəsm Qalereyasına çevrildi.

1965-ci ildə Bakı şəhərində görkəmli sənətkar, xalq rəssamı Əzim Əzimzadənin mənzil-muzeyi təşkil olundu. Azərbaycan hökuməti 1967-ci ildə Bakı şəhərində Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi, Sumqayıtda və Mingəçevirdə həmin şəhərlərin tarix muzeyləri, Ağdam və Zaqatalada Tarix-diyarşünaslıq muzeylə-

rinin yaradılması barədə qərar qəbul etdi. XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda muzeylərin təşəkkülü, inkişafı ayrı-ayrı illərdə baş verən ictimai-siyasi hadisələrin gedişi, mühit və şəraitlə bilavasitə bağlı olmuşdur.

Respublikamızın muzeyləri arasında Azərbaycan təhsilinin tarixini yaşadan, görkəmli pedaqoq və maarifçilərimizin həyat və fəaliyyətini işıqlandıran Xalq Təhsili Muzeyinin özünəməxsus yeri vardır. Xalq Təhsili Muzeyi XKS-nin 27 aprel 1932-ci il tarixli, 651 nömrəli qərarına əsasən 1930-cu ildə təşkil edilmiş pedaqoji sərginin və Pedaqoji muzeyin bazasında yaradılmışdır. Azərbaycan Respublikası Təhsil Nazirliyi Xalq Təhsili Muzeyinin fəaliyyətinin əsas məqsədi qədim zamanlardan etibarən müasir dövrə qədər Azərbaycanda pedaqoji fikrin, elm və təhsilin inkişaf tarixini əks etdirmək, bu sahədə elmi-axtarış işi aparmaq, bütövlükdə fasiləsiz təhsil sisteminin bütün pillələrində qazanılmış uğurların, təhsilin yetirdiyi ən görkəmli şəxsiyyətlərin fəaliyyətini təbliğ etməkdir.

1950-60-cı illərdə Şuşada dahi bəstəkar Üzeyir Hacıbəylinin, Şamaxıda M.Ə.Sabirin, Lənkəranda iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, Xızıda Cəfər Cabbarlının, Qazaxda Molla Pənah Vaqifin, Ordubadda Məmməd Səid Ordubadinin, dünya şöhrətli alim Yusif Məmmədəliyevin, 1970-80-ci illərdə Bakıda Xalq şairi Səməd Vurğunun, Nəriman Nərimanovun, Üzeyir Hacıbəylinin, Cəfər Cabbarlının, Bakıda və Şuşada Bülbülün, Naxçıvanda Hüseyn Cavidin xatirə muzeyləri yaradıldı. Muzeylərin artması ilə bərabər, muzey işi sahəsində elmi-metodiki, təşkilati fəaliyyət, fond işi, ekspozisiyanın bədii tərtibatı və s. muzeyşünaslıq əhəmiyyətli fəaliyyətə də geniş yer verilirdi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə onun şəxsi təşəbbüsü və fəaliyyəti nəticəsində respublikamızda muzey işi nəzərəçarpacaq dərəcədə inkişaf etmişdir. Həmin dövrdə və ulu öndərin təkrar hakimiyyətə qayıdışından sonrakı illərdə incəsənət və ədəbiyyat nümayəndələrinin yeni muzeylərinin açılması işi ardıcıl surətdə davam etdirilmişdir. Belə ki, 1975-ci ildə Səməd Vurğunun və Üzeyir Hacıbəyovun, 1977-ci ildə keçmiş SSRİ məkanında ilk vokalçı muzey – Bülbülün muzeyi (Heydər Əliyevin iştirakı ilə 1982-ci ildə tamaşaçılar üçün ekspozisiyası açılmışdır), Cəfər Cabbarlının (1982), Nəriman Nərimanovun (1977) ev muzeyləri, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialları olan Niyazinin mənzil muzeyi (1994), Vaqif Mustafazadənin ev muzeyi (1994) açılmışdır.

2002-ci ildə Bakıda dünyada ilk olaraq birinci özəl Miniatür Kitab muzeyinin açılış mərasimi keçirilmişdir. Hal-hazırda muzeyin kolleksiyasında 62 ölkədən 6 000 kitab saxlanılır. Onlardan 4 217-si ekspozisiyalarda, qalanları isə mübadilə fondunda yerləşdirilmişdir. Ən kiçik kitabın ölçüsü 1 mm x 1 mm, ən böyükü isə – 100 mm x 100 mm təşkil edir.

Müasir incəsənət muzeyi Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılaraq 20 mart 2009-cu ildə açılmışdır. Muzeyin kolleksiyası əsasən avanqard stilində yaradan cavan və tanınmış rəssam və heykəltəraşların 800-dən çox əsərdən ibarətdir. Muzeyin qonaqları burada nümayiş etdirilən Azərbaycan mədəniyyət xəzinəsini zənginləşdirmiş xalq rəssamları Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtahtinskaya, Tahir Salaxov, Ömər Eldarov, Nadir Əbdürəhmanovun işləri ilə tanış ola bilərlər. Burada həmçinin xarici rəssamların işlərinə də rast gəlmək olar (127).

Azərbaycan Respublikası ərazisində geoloji və geomorfoloji abidələr Abşeron, Qobustan, Qazax, Tovuz, Sədərək, Quba rayonlarında yayılıb. Abşeronda geoloji abidələrə palçıq vulkanları, Binəqədidəki Bitium gölü, dəniz sahillərində olan qayalıqlar, Məmmədli və Digah kəndlərində qazın alovlandığı ərazilər aid edilir.

Məhəmmədli kəndi ilə Digah kəndi arasında olan quru yarğanının sol yamacının qaşında yarğanın sağ tərəfində təbii alovlar – Atəşgah vardır. Suraxanıda üzə çıxan təbii qazın yanması atəşpərəstlərin ziyarətgahına çevrilmiş və orada hindlilər məqbərəsi tikilmişdir. Tektonik çaylardan və ya palçıq vulkanlarından qalxan qaz ocaqları Abşeron yarımadasından və Qobustandan başlamış Qızılqayanın (yan silsilə) güney yamacına qədər olan ərazilərdə müşahidə edilir. Təxminən Neogen dövründə başlamış, zaman və məkan daxilində bu günə qədər müxtəlif yerlərdə püskürən palçıq vulkanları təbiətin ən nadir abidələrindən sayılır. Azərbaycanda sayı üç yüzə yaxın olan həm quru, həm də sualtı palçıq vulkanları vardır.

Xınalıq kəndinə yaxın olan Qızılqaya atəşgahından qalxan alovlar sal daşların arasından çıxır. Qızılqaya yastanının cənub yamacında, okean səviyyəsindən 3000 m yüksəkdə yerləşmiş Atəşgah

da ibadətgaha çevrilmişdir. Bakı şəhərinin Binəqədi qəsəbəsindən qərbə, təpənin üstündə bitum yataqlarının tədqiqi Binəqədi faunasını aşkar etdi. Təxminən 75 min il bundan əvvəl bu təpənin yaxınlığında şirin sulu göl olmuşdur. Vaxtilə bura su içməyə gələn və batıb qalan heyvan qalıqları içərisində kərgədan, ibtidai öküz, nəhəng maral və s. vardır. Binəqədi faunasını nəinki Zaqafqaziya faunasının tarixi, hətta bütün Qafqazın, Ön Asiyanın və Avropanın paleofaunasına aid mürəkkəb problemlərin həlli üçün böyük əhəmiyyətə malikdir.

Son zamanlar ümumiyyətlə, bütün sahələrdə olduğu kimi Azərbaycan elminin, mədəniyyətinin və incəsənətinin inkişafına göstərilən qayğı getdikcə öz bəhrəsini verməkdədir. Zəngin mədəni irsimizin, milli-mənəvi dəyərlərimizin qorunmasında böyük xidmətlər göstərmiş ümummilli lider H.Əliyevin 2000-ci ilin martında imzaladığı "Muzeylər haqqında qanun"a görə muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipi kimi "milli sərvətlərin saxlandığı muzeylərin və muzey fondlarının mühafizəsinə dövlət qayğısı, onların ilk növbədə maliyyələşdirilməsi" məsələsi dövlət vəzifələri də müəyyənləşdirildi. Muzeylərin saxlanılmasına, inkişafına maddi-texniki bazasının möhkəmləndirilməsinə, muzey kadrlarının hazırlanmasına doğru yönəldilmiş həmin vəzifələrin yerinə yetirilməsi, sözsüz ki, xalqın maddi mənəvi sərvətlərinin, milli irsinin toplayıcısı, qoruyucusu və ötürücüsü olan muzeylərin fəaliyyətində həlledici rol oynamışdır.

Müasir dövrdə muzeylərimizin hərtərəfli inkişaf etdirilməsini təmin etmək üçün Azərbaycan Respublikası Prezidentinin 6 mart 2007-ci il tarixi sərəncamı dövlətimizin muzey və muzeyşünaslıq elminin inkişafına olan qayğısının parlaq ifadəsidir. Heydər Əliyevin təşəbbüsü və əməli fəaliyyəti ilə Azərbaycanda muzey və muzeyşünaslıq elminin inkişafı, müxtəlif profilli muzeylərin yaradılması, muzeylərimizdə aparılan yenidənqurma və bərpa işləri müasir texnologiyaların tətbiqi kimi tədbirlər zamanın tələbinə çevrilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev ölkədə "Turizm işçiləri günü" peşə bayramının təsis edilməsi haqqında sərəncam imzalaması da bu sahəyə verilən yüksək diqqətidir. Sərəncama əsasən, hər il sentyabr ayının 27-si Azərbaycanda "Turizm işçiləri günü" peşə bayramı kimi qeyd edilir.

Dövlət səviyyəsində həyata keçirilən önəmli addım dövlət mədəniyyət sisteminin elmi və mütərəqqi metodlarla idarəçiliyinin təmin edilməsinə zəruri imkan yaratmışdır. Mədəniyyət təchizatları tərkibində qeydə alınan yeddi mindən çox dünya əhəmiyyətli, ölkə əhəmiyyətli və yerli əhəmiyyətli maddi mədəniyyət və tarixi memarlıq abidələri bağ, park monimental və xatirə abidələri təsviri və dekorativ-tətbiqi sənət nümunələri, müxtəlif profilli muzeylərimizdə nümayiş etdirilən zəngin mədəniyyət sərvətləri həmişə, hər zaman məşhur səyyahları, xarici qonaqları və turistləri maraqlandırmışdır.

ƏDƏBİYYAT

1. Avstraliyanın ekoturizm üzrə Milli Strategiyası, Turizm Departamenti, Kanberra-1992
2. Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və etnoqrafiya institutu. Azərbaycan arxeologiyası, altı cilddə, I cild, Şərq-Qərb, Bakı:2008, 438 s.
3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009-2013), Bakı: 2009.
4. Əsgərov Ə.T., Bilalov B.Ə., Gülalıyev Ç.G. Ekoloji Turizm (Dərs vəsaiti), Bakı, "Adiloğlu" nəşriyyatı, 2011, 276 s.
5. Гейдаров Т., Багиев Т., Новрузов Д., Магеррамзаде А., Дидавари Р., Захирова В. «Азербайджан: 100 вопросов и ответов» 200 с.
6. Гулиев Н.А., Мельникова Е.В. «История путешествий, туризма и туристических организаций», Омск 2004., 294 с.
7. Храбовченко В. В. Экологический туризм. М. Финансы и статистика, 2004 г. 208 с.
8. Центр всемирного наследия ЮНЕСКО. ВСЕМИРНОЕ НАСЛЕДИЕ Информационный сборник. март 2005 г. 17 с.
9. National Parks of Azerbaijan. Baku, 2006.

Emil AĞAYEV
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası,
magistr
Emil.agayev@mail.ru

Sənətşünasların muzeylərin idarəetmə və inkişafındakı rolu: problem və perspektivlər

Роль искусствоведов в управлении и развитии музеев: проблемы и перспективы

The role of art critics in the management and development of museums: challenges and prospects

Xülasə: Bu məqalədə sənətşünasların muzeylərdəki rolu təhlil olunmuşdur.
Açar sözlər: Sənətşünaslıq, təsviri incəsənət, muzey

Резюме: В данной статье анализируется роль искусствоведы в музеях.
Ключевые слова: Искусствоведение, изобразительное искусство, музей

Summary: This article analyzes the role of art critics in museums.
Keywords: Art criticism, fine arts, museum

Sənətşünaslıq akademik sahə olub, özündə incəsənətin ayrı-ayrı sahələrinin nəzəri biliklərini birləşdirir. Sənətşünaslığın özünəməxsusluğu ilə seçilən qollarından biri də təsviri incəsənət tarixi və nəzəriyyəsidir. Özündə təkcə təsviri incəsənəti deyil fəlsəfəni, psixologiyanı və əsərlərin bərpasını birləşdirən sənətşünaslığın bu qolu muzeylərin inkişafı ilə sıx bağlıdır. Bir elm kimi özündə təhlil metodlarını birləşdirən təsviri incəsənət tarixi muzeydə yerləşən incəsənət əsərlərinin düzgün şəkildə təhlil-metodoloji üsulunda mühüm rol oynayır. Təsviri incəsənət tarixi və nəzəriyyəsi üzrə sənətşünasların muzeylərdəki roluna geniş şəkildə nəzər yetirək. Atribusiya metodu-bilicilik kimi də tərif edilir. Onun əsas məqsədi-əsərin yaranma tarixini, bədii məktəbini, yerini və rəssamın adını, manerasını müəyyən etməkdən ibarətdir. Atribusiya metodunu Vazari istifadə etsədə, əsasən Yeni dövrdə inkişaf edir. Məhz XIX əsrdən etibarən atribusiya metodu geniş şəkildə inkişaf edir. Bu metod muzeylərdə əsərlərin düzgün şəkildə müəlliflərinin araşdırılması ilə bərabər, xalqın tarixinin gələcək nəsillərə düzgün şəkildə ötürülməsinə də xidmət edir. Atribusiya sənətşünasdan böyük peşəkarlıq tələb edir. Çünki rəssamların fərdi təsvir manerasını bilərək, tarixi dövrdə cərəyan və ya üslubun xarakterlərini, əsas xüsusiyyətlərini dərindən anlayaraq əsərlərin hansı rəssama aid olduğunu araşdırmalıdır.

Muzeylərdə sərgilərin təşkili - muzeylərin özünü tanıtması sərgilərin təşkili ilə sıx bağlıdır. Hər bir sənətkar üçün də bu böyük uğur sayılır. Sənətşünas-kuratorlar bu işlə daha məsuliyyətlə məşğul olurlar. Azərbaycan üçün kuratorluq sahəsi daha gənc olduğu üçün hələ də öz inkişaf mərhələsini keçir. Sərgidə nümayiş etdirilən əsərlərin düzgün şəkildə qurulması, ardıcıllığı və məkanın dəqiq qiymətləndirilməsi kuratorların üzərinə düşür. Təsviri incəsənət tarixi və nəzəriyyəsi üzrə formalaşan sənətşünaslar kurator kimi də böyük uğurlar qazanırlar. Azərbaycan sənətşünaslarından istər öz ölkəmizdə, istərsə dəxarici ölkələrdə sərgilərin təşkil olunmasında böyük xidmətləri olmuş professor Leyla Axundzadənin adını xüsusilə vurğulamalıyıq.

Muzeylərdə kataloqlar və məqalələrin işlənilməsi- Sənətşünaslar incəsənət üzrə yazarlar hesab olunurlar. Hər bir sənətşünas yaradıcılığında olan məqalələri, monoqrafiyaları və internet portallarında çıxan yazıları ilə tanınırlar. Muzeylərdə keçirilən sərgilər zamanı kataloqlardakı məqalələrin işlənməsi tamaşaçının diqqətini çəkməlidir. Əsərlərin tarixi-xronologiyası, texnikası düzgün şəkildə planlaşdırılmalıdır. Azərbaycanda yerləşən muzeylərdəki hər bir əsər haqqında təhlillər üzərində çox zaman sənət tarixçiləri işləyirlər. Bəzən isə çox təssüflər olsunki, qeyri-ixtisas sahiblərinə bu işi həvalə edərək uğursuzluqlara da məruz qalırıq.

Muzeylərdə bələdçilik işinin təşkilinə də nəzər yetirsək sənətşünaslıq ilə sıx bağlı olduğunu vurğulamalıyıq. Çünki bu sahə üzrə təhsil alan bələdçilər əsər-eksponat barəsində daha geniş məlumat və biliklərə malikdirlər. Çox təəssüf olsun ki, bu gün biz muzeylərdə bələdçilərin hətta texniki elmlər üzrə təhsil alanları da görə bilərik. Sənətşünas-ekspert- özünəməxsus incəlikləri ilə seçilən təsviri incəsənət tarixi və nəzəriyyəsi üzrə sənətşünaslığın bu sahəsi ölkənin incəsənət tarixinin kənara çıxmasının qarşısını alır. Sənətşünas ekspertlər əsərin saxta və doğru olmasını qiymətləndirməyi bacarmalıdırlar.

Sənətşünas-bərpaçı- Muzeylərdə bu sahə ilə məşğul olan mütəxəssislər daima axtarışda olurlar. Çünki yeni bərpa metodları ildən-ilə yenilənir. Bərpaçı-sənətşünaslar hər bir əsər-eksponatın əsas xüsusiyyətini qoruyub saxlamağı bacarmalıdırlar. Azərbaycanın bu sahə üzrə ən tanınmış mütəxəssisi əməkdar incəsənət xadimi Natiq Səfərovun adını qeyd etməliyik.

Əsər-eksponatların muzeydən oğurlanmasının qarşısının alınmasında sənətşünasların rolu- Hər bir sənətşünas incəsənət üzrə öz üzərinə öhdəlikləri uğurla yerinə yetirilməlidir. Çox təssüf olsun ki, bəzən biz muzeylərimizdə xoşagəlməz oğurluqlara da rast gəlirik. Hələ 1993-cü illərdə muzeylərimizin birində baş vermiş oğurluq zamanı həmin dövrün tanınmış sənətşünasları nədənsə bu əsərləri vacib hesab etməyərək ölkədən çıxarmaq istəmişlər. Ümummilli lider Heydər Əliyevin bu işə qarışması ilə bütün hər bir mənfi halların üstü açılmışdır. Professor Ziyadxan Əliyev həmin zamanda öz etirazını açıq şəkildə bildirsə də, təəssüflər olsun ki, həmin dövrdə məşhur olan sənətşünas-alimlər ona mane olmağa çalışmışlar. Bu hadisə barəsində mətbuatda çoxlu yazılar dərc edilmişdir.

Sənətşünaslıq və muzeyşünaslıq elmlərinin qarşılıqlı əlaqəsi- Hər iki sahə bir-biri ilə sıx bağlı olub, bu sahə üzrə mütəxəssislərin hər iki elm barəsində geniş məlumatlı olmasını qeyd etməliyik. Müasir dövrdə "İncəsənətdə idarəetmə" mexanizminə nəzər yetirsək, sənətşünasların muzeylərin hər bir bölməsi və idarəetməsində rolunu xüsusilə vurğulamalıyıq.

"Sənətşünasların muzeylərin inkişafı və idarəetməsində rolu:problem və perspektivlər " tezisinin əsas nəticələri aşağıdakılardır:

1.Sənətşünaslıq elminin xüsusilə təsviri incəsənət tarixi və nəzəriyyəsi üzrə formalaşan mütəxəsislərin muzeylərdəki rolu təhlil olunmuşdur.

2. Sənətşünaslıq və muzeyşünaslıq arasında əlaqələr açıqlanmışdır.

3. Sənətşünaslığın hər bir qolu üzrə öz xidmətləri olan alim-incəsənət xadimlərinin adları və onların xidmətləri barəsində məlumatlar verilmişdir.

4.Muzeylərin idarəetməsinin inkişafında bu gündə problemlər qalmaqdadır.

ƏDƏBİYYAT

1. 1.Əliyev Ziyadxan "Sənətşünas taleyi" Bakı, 2018, 495 s
2. 2.Kərimova Sevil "İncəsənət əsərlərinin təhlili" (dərs vəsaiti), Bakı, Şərq-qərb,2018, 183 s

BÖLMƏ II

TURİZM VƏ XİDMƏT SAHƏLƏRİNİN İDARƏ EDİLMƏSİ

Əzizə MƏMMƏDOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
f.ü.f.d., dosent
a.mammadova@atmu.edu.az

Guba as a tourism destination

Quba turizm destinasiyası kimi

Губа как туристическая дестинация

Xülasə: Məqalədə Quba regionunun yerli və xarici turistlər üçün turizm destinasiyası kimi üstünlükləri haqda məlumat verirlir, ərazidə mövcud olan turizm potensialı, tarixi abidələr, Cümə və Səkinə xanım məscidləri, unikallığı ilə seçilən Xınalıq və qədim Ağbil türbələrinin turistləri cəlb etmək baxımından əhəmiyyəti qeyd olunur.
Açar sözlər: turizm, destinasiya, mənzərələr, tarixi abidələr, məscidlər, fərqli etnik özünəməxsusluq

Резюме: В статье освещаются преимущества Губинского региона как туристического направления для местных и иностранных туристов, подчеркивается туристический потенциал района, его исторические памятники, мечети Джума и Сакина ханум , а также уникальный Хиналыг и древние Агбильские святыни в привлечении туристов в регион.
Ключевые слова: туризм, дестинация, пейзажи, исторические памятники, мечети, *этническое* многообразие

Abstract: The article highlights the advantages of Guba region as a tourist destination for local and foreign tourists, emphasizes the importance of tourism potential of the region, its historical monuments, the mosques of Juma and Sakina hanim, unique Khinaliq and the ancient Aghbil shrines in attracting tourists to the region.
Keywords: tourism, destination, landscapes, historical monuments, mosques, diverse ethnicity

The Guba-Gusar region has become a favorite holiday destination for foreign tourists and local people. As tourism is one of the world's fastest growing sectors, it is strategically important for Azerbaijan to generate revenues through effective marketing and promotions. Supported by aligned market research, this approach will create jobs and promote wealth for Azerbaijanis by stimulating a demand for reasons to visit our beautiful country [2].

Guba, the most beautiful region of northeastern Azerbaijan, is located within the former territory of Guba Khanate, or Guba Khanligi. Many tourists come to this place to marvel at the landscapes, such as the natural Afurja waterfall (a powerful waterfall with 75 meters altitude), the breathtaking Tangalty gorge with steep cliffs, and the village of Khinaliq with its unique language and traditions. Guba is an actively developing recreational area with sea and mountain excursions. Here, there are a lot of beaches and rest areas with comfortable cottages located in forests and by the sea. The Guba-Gusar region is famous for the richness of its natural resources, its magnificent scenery, its stunning climate, and the inspiring beauty of its rest areas. The hospitality of the people living in this region is known to everyone. Each corner of the region has splendid highlands, majestic mountain peaks, picturesque forests, and pristine waterfalls. The blue waves of the Caspian Sea can tempt anyone to visit this appealing region. This region has become a nice recreational place for citizens of Azerbaijan and for foreign tourists.

The Strategic Road Map on Development of a Specialized Tourism Industry in the Republic of Azerbaijan defined four strategic targets, each consisting of relevant priorities. Strategic Target 3 intends to develop regional tourism sub-sectors for domestic and regional tourists, revitalize

demand for wellness tourism, support the development of winter tourism and create cultural tourism circuits. As the result of determined actions taken towards developing mountainous and winter tourism in the country, mountain slopes have been developed as a tourism destination. At present, "Shahdag" Tourism Centre has turned into popular resort. [5]

Guba Khanate was formed in the mid-18th century. The center was initially Hudat City, then Guba. According to many sources, Guba was called Kudial in ancient times, with a river dividing the city into two parts. However, according to some scholars, the word "Guba" is derived from the name of a tribe that lived in the area. During the reign of Huseynali Khan's son Fatali Khan (1758-1789), the impact of Guba Khanate grew enormously. In 1806, Guba Khanate was incorporated into the Russian Empire and turned into a province. The Guba District was annexed to Derbend Province, and later in 1860, to Baku Province. In 1930, Guba region was formed.

Guba was visited by Thor Heyerdahl, a famous Norwegian scientist and explorer, and Alexandre Dumas, a famous French writer. The "Alexandre Dumas in the Caucasus" cultural route attracts tourists and helps share the cultural heritage of the Guba region.

The great Azerbaijani writer and historian Abbasguluagha Bakikhanov lived in Guba for some time, as well. The historical and local lore museum, named after A.Bakikhanov, exhibits many items that reveal the history of the city and Guba Khanate.

Guba is located in a picturesque corner of our country, among the northeastern slopes of Shahdag, at an altitude of 600 meters above sea level. Hundreds of peaks and gorges, cliffs of unusual shape, crystal clear springs, and rich flora and fauna create beautiful landscapes. Majestic Shahdag, covered with eternal snows and glaciers and surrounded by clouds, can be seen from anywhere in the district. The fertile fields extend onto its slopes; green forests and recreational areas are comfortable and suitable for rest early in spring, on wonderful summer days, and in golden autumn.

Шабранский район богат полезными ископаемыми. Здесь расположены нефтяные, газовые, щебневые, песчаные и другие месторождения. В этом регионе есть источники лечебной минеральной воды (Галаалты). Населением в оздоровительных целях широко используются эти лечебные минеральные воды и горячие источники Халтан.

С целью развития оздоровительного туризма в 2013 году на территории Шабранского района был открыт комплекс «Qalaaltı Hotel & SPA». Он имеет важное значение с точки зрения повышения туристических возможностей региона. Комплекс расположен под отвесной скалой недалеко от крепости Чыраггала, являющейся древним историко-культурным памятником Азербайджана. Расположенный на высоте 700 метров над уровнем моря отель возведён на базе известного курорта «Галааалты». Воды Галааалты, известные своими природно-лечебными свойствами, используются при лечении воспаления жёлчных протоков, почечно-каменной болезни, хронического почечного воспаления, других урологических заболеваний. В комплексе предоставляются лечебные курсы на основе вод Галааалты под наблюдением профессионального медицинского персонала. В целях обеспечения эффективности лечения посетителям выдаются специальные карты. Врачи в электронном формате вносят в них порядок индивидуального лечения, количество приема и температуры воды, определённые для каждого посетителя. В зале для приема лечебной воды гости могут приобрести воду в необходимом количестве и нужной температуры. Это современное технологическое новшество впервые в истории Азербайджана применяется именно здесь. Этот современный комплекс отдыха, которым пользуются туристы и граждане нашей страны, вносит важный вклад в развитие туристической инфраструктуры, и особенно лечебного туризма в нашей республике. Таким образом, лечебно-оздоровительный комплекс «Qalaaltı Hotel & SPA» занимает значительное место в секторе лечебного туризма нашей страны.

На территории Шабранского района находятся историко-археологический заповедник Крепость Чыраггала, исторический заповедник «Город Шабран», албанская церковь в селении Гилавар, Пир Султан баба, Шабранский историко-краеведческий музей. Всё это разнообразное культурное наследие позволяют на территории района развивать культурно-познавательный, экскурсионный, археологический и паломнический туризм.

По своим природно-климатическим условиям Шабранский район –привлекательный регион для развития туризма и по сути является кладезью рекреационных ресурсов. В низменностях и предгорье климат умеренный жаркий, сухой субтропический, в нагорье – умеренный холодный и влажный. Средняя температура в январе колеблется от -4 до 1,5°С, в июле – от 14 до 25°С. Лето в районе сухое. Количество выпадающих в год осадков не более 300-650 мм. На высокогорных территориях расположены субальпийские и альпийские луга. Леса занимают 27000 га на горных территориях и прикаспийских равнинах.

В 12 километрах от районного центра на берегу Каспия расположено охотничье хозяйство «Лиман». «Лиман» открыт во время сезонной охоты: осенью и зимой. Охотники с лицензией могут поохотиться на кабанов, волков, лис и медведей. Здесь можно взять в аренду оружие и снаряжение, переночевать в охотничьих домиках. На территории 1180 га находятся 3 озера, окружённые камышом. Среди них – большое озеро «Лиман» с живописными зарослями по берегам. По этим озёрам можно совершить лодочную прогулку. Круглый год в озёрах водятся пресноводные рыбы. Так как озёра имеют сообщение с морем, сюда для нереста приплывают и морские рыбы. На озёрах можно полюбоваться на огромное количество перелётных птиц – лебедей, гусей, уток, бакланов и других пернатых, которых здесь очень много. Осенью и зимой на озёрах охотничий сезон. Можно поохотиться на уток, гусей, кашкалдаков и куропаток. В связи с этим в перспективе можно выделить такой вид туризма, как экологический, который сейчас очень актуален.

На территории района имеется много красивых природных памятников, которые могут быть очень привлекательны для туристов. Например, Кечи Гая – живописнейшее место, расположено между сёлами Заглы и Зейвя, к западу от города Шабрана и к югу от деревни Нохурлар. Это излюбленное место отдыха местных жителей и туристов. Здесь, в густом лесу, среди крутых труднопроходимых скал низвергаются красивые маленькие водопады и течёт горная речка. Бьют обладающие целебным свойством и богатые серой минеральные источники. Своим названием это место обязано горным козам, которые здесь водятся («Кечи гаясы» – «Скала горных коз»).

В настоящее время сельский туризм («зелёный туризм») также занимает важное место в мировой туристической индустрии. Современные люди зачастую устают от городского шума и суеты, их привлекает сельский покой и тишина. Жители мегаполисов выезжают в сельскую местность, чтобы насладиться размеренной, неторопливой сельской жизнью, поесть экологически чистых деревенских продуктов, подышать свежим воздухом. В Шабранском районе много таких мест. Например, село Нохурлар, которое находится на высоте 1000 м над уровнем моря. На территории этого села расположено 17 прекрасных горных озёр. **Село** Пирябядил расположено в 20 км от районного центра на высоте 2000 м над уровнем моря. Здесь много красивых мест, реки, густые леса, прохладные родники, большие фруктовые сады и чудесный воздух. В этих местах есть всё для тихого спокойного отдыха от городской суеты. Нужна всего лишь инфраструктура для комфортного проживания туристов по приемлемым ценам не только для иностранцев, но и для граждан нашей страны. В этом случае агротуризм в Шабранском районе будет процветать.

Согласно рекомендациям Президента Азербайджанской Республики Ильхама Алиева, в последние годы продолжаются и всё более расширяются многочисленные меры по развитию туристического потенциала нашей страны, созданию современной туристической инфраструктуры, признанию существующего туристического потенциала на международной арене, развитию различных видов туризма.

В свете этих рекомендаций президента страны, отметим, что главной задачей на сегодняшний день в Шабранском районе является создание и развитие инфраструктуры объектов туризма и отдыха, а также дальнейшее развитие индустрии отдыха и оздоровления. Для развития туристско-рекреационного потенциала Шабрана необходимы значительные инвестиции в строительство новых гостиниц, дорог, коммуникаций, должны быть использованы новые формы туризма и отдыха. Также одним из важных условий для развития туризма в этом регионе является восполнение недостатка в профессиональных кадрах на местах.

ЛИТЕРАТУРЫ

1. “Əfsanələr paytaxtı” Şabran. “Mədəniyyət”. 22-07-2011.
2. Шабран – путешествие в древний Азербайджан. Day.Az. Общество. 14-02-2016.
3. Anar Miriyev. Qədim Şabranın tarixini yaşadan muzey. “Palitra”. 9-10-2013.-S. 11.
4. О. Буланова. Путешествие в древний Шабран. «Эхо», 18-12-2017.
5. Trend News Aqency. В Шабране на территории памятника IV-III тыс. до н. э. обнаружены новые находки. 29-08-2019.
6. И. Алиев распорядился восстановить древнюю крепость «Чираггала». "Москва-Баку". 13-03-2019.
7. http://shabran-ih.gov.az/page/10.html
8. https://ru.president.az/articles/21953

Narxanım KAMİLOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim
k.narxanım@gmail.com

Abşeron yarımadasında ekoturizmin inkişafı və perspektivləri

Экономическое развитие и перспективы в создании Апшеронский

Economy development and perspectıves ın the creatıon of Absheron

Xülasə: Ətraf mühitə olan həssaslıq sosial, iqtisadi, mədəni və hüquqi cəhətdən də günümüzdə ön planda olan məsələlərdəndir. Ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan səmərəli və düşünülmüş şəkildə istifadə edilməsi gələcək nəsillərin sağlam mühitdə yaşamasına zəmanət verir. Beynəlxalq miqyasda turistlərin təbii obyektlərə olan tələbatının artması, müxtəlif təbii ehtiyatlara maraq ətraf mühitə olan təsiri artırır.

Beləliklə, dünyanın ortaq gələcəyi, hər keçən gün təhdid altında qalmış olur. Bunun üçün də ekoloji turizm fəaliyyəti təbiətə duyarlı turizm növü olub ətraf mühti daha az çirkləndirməyə xidmət edir [3].

Açar sözlər: ətraf mühitin çirklənməsi, ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan səmərəli istifadə, turizm, ekoloji turizm, Milli Parklar.

Резюме: Чувствительность к окружающей среде является одним из актуальных вопросов в нашем социальном, экономическом, культурном и правовом контексте. Охрана окружающей среды, целесообразное и продуманное использование природных ресурсов, гарантирует проживание будущих поколений в здоровой окружающей среде. Растущий спрос туристов на международном уровне, посещающих природные ресурсы увеличивает интерес к различным природным ресурсам и воздействие на окружающую среду. Таким образом, общее будущее мира подвергается угрозе каждым день. Поэтому деятельность эко-туризма является экологически чистым видом туризма и способствует меньшему загрязнению окружающей среды.

Ключевые слова: загрязнение окружающей среды, охрана окружающей среды, рациональное использование природных ресурсов, туризм, экологический туризм, национальные парки.

Abstract: Sensitivity of the environment is one of the actual objectives from the social, economic, cultural,and legal perspective as well. The protection of the environment, efficient and thoughtful use ofnatural resources guarantees the live of future generations in the healthy atmosphere.The rising demand of the tourists on the international level, increases the interest to the resourses and environmental impact. Thus, the common future of the world is at risk every day. That is why, the eco-tourism is an environmentally sensible type of tourism which promotes less environmental pollution.

Keywords: environmental pollution, environmental protection, efficient use of natural resources,tourism, eco-tourism, National Parks.

Son illər dünya ölkələrini ətraf mühitin mühafizəsi məsələləri ciddi şəkildə narahat edir. Sənayenin sürətli inkişafı, nəqliyyatın gündən-günə artması, turizm fəaliyyətinin sürətlənməsi ekoloji duruma öz neqativ təsirlərini göstərir. Ona görə də sənayenin inkişaf etdiyi ölkələrdə atılan zəhərli maddələrin miqdarını tənzimləmək məqsədilə keyfiyyətli toztutucu qurğular tətbiq edilir, ətraf mühitə az tullantı atılan nəqliyyat vasitələrinə keçid təbliğ olunur. Ekoloji turizm isə dünya turizm sənayesinin sürətlə inkişaf edən bir dövründə təbiətə dost, yeni bir sahədir. O istirahət və təbiətdən zövq almanın yeni bir şəklidir. Məqsəd isə bioloji müxtəlifliyin mühafizəsini təbliğ etməklə, təbii-rekreasiya ehtiyatlarından ən düşünülmüş formada istifadə etməkdir. Azərbaycanın təbii-coğrafi şəraiti burada ekoturizmin inkişafına imkan verir. Azərbaycan Respublikasının şərqində, Xəzər dənizi sahilində yerləşən Bakı- Abşeron turizm bölgəsi rangarəng landşaft müxtəlifliyinə (yarımsəhra, bozqır, dağ-çəmən) malikdir. Bölgə dərketmə, müalicə-sağlamlıq, idman, işgüzar turizm növləri üzrə ixtisaslaşmış və ekoloji turizm potensialı daşıyır. Bakı-Abşeron turizm bölgəsi əhalinin sıx paylaşdığı, turistlərin daha çox üz tutduğu, paytaxt Bakının yerləşdiyi zonadır.

Neft,qaz müxtəlif tikinti materialları yataqları (çınqıl, əhəng daşı, gips və s.), müalicə əhəmiyyətli mineral sular (Şıx, Suraxanı), palçıq vulkanları ilə zəngin olan Abşeron yarımadası ilk baxışda bitki örtüyü üçün əlverişsiz və ekstremal şərait təsiri bağışlasa da əslində çox zəngin floristik biomüxtəlifliyə malikdir. Respublikanın bitki örtüyünün 22%-i məhz yarımadanın payına düşür. [1, səh.41.] Onu da qeyd edək ki, Qafqaz və Azərbaycanın 29 endemik bitki növünün 5-nə məhz Abşeron yarımadasında rast gəlinir. Bunlardan : Bakı gəvəni, qafqazquş səhləbi, xəzər səhləbi, tükcüklü şiyav, itikənarlı süsən və s. [1, s.89].

Mütəxəssislərin fikrincə hal-hazırda Abşeron florasında 31 nadir və nəsli kəsilmək təhlükəsi altında olan bitki növləri mövcuddur. Endemik bitkilərin yayıldığı ərazilərin Milli park elan edilməsi qarşıdaduran zəruri məsələlərdəndir. Eyni zamanda həmin Milli parka endemik bitkilərlə tanışlıq üçün ekoturistlərin cəlb edilməsi də məqsədəuyğun hesab olunur.

Yer Kürəsində mövcud 800–dən artıq palçıq vulkanının 320-dən çoxu Azərbaycanda yerləşir. Azərbaycan hüdudlarında palçıq vulkanı təzahürləri Xəzəryanı-Quba, Şamaxı- Qobustan, Küryanı, Abşeron vilayətlərində, Bakı arxipelaqında, Kür və Qabırrı çayları arasında geniş yayılmışdır[1,4]. Palçıq vulkanlarının daha sıx yayıldığı ərazilər məhz Abşeron yarımadasının qərb hissəsində, cənubi və Mərkəzi Qobustanda və Xəzəryanı düzənliyinin Xəzər dənizi ilə qovuşan cənub-şərq hissəsində ən çox inkişaf etmişdir. Güzdək -Bozdağ, Sarınca, Qobu bozdağ, Şonqar, Gülbəxt, keyrəki, Lök-

batan, Qaradağ pilpiləsi, Qaradağ axtarması, Otman Bozdağı, Boğ-Boğa, Zığ, Üçtəpə, Atbatan, Bakı qulağı və s. Hal-hazırda palçıq vulkanlarına antropogen təsirin aradan qaldırılması və mühafizəsinin təşkili məqsədilə "Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu dövlət təbiət qoruğu" (2007-ci il 15 avqust Sərəncamı) yaradılmışdır. [2, 4] Qoruğa 43 palçıq vulkanı daxildir.

Bildiyimiz kimi palçıq vulkanları müalicə əhəmiyyətlidir. Ondan revmatizm, oynaq, müxtəlif dəri xəstəliklərinin müalicəsi, əsəb sistemi, şəkərli diabet, kosmetologiya sahəsində istifadə olunur. Müalicə məqsədindən əlavə palçıq vulkanları əsas ekoturizm ehtiyatı hesab edilir. Dünya təcrübəsində palçıq vulkanları yerləşən və əsrarəngiz mənzərəyə malik yerlərə (Milli Parklara) turistləri cəlb etmək üçün turlar təşkil olunur. Bakı və Abşeron turizm bölgsindəki qoruq hüdudlarına daxil olmayan palçıq vulkanlarına ekoturların təşkil olunması geniş turist marağına səbəb olacaqdır.

Yaxud, "Bakı və Abşeron Yarımadası Palçıq Vulkanları Qrupu Dövlət Təbiət Qoruğu " bazasında Milli parkın yaradılması və ekoturistlərin cəlb edilməsi məqsədəuyğun hesab olunur.

Milli Parkların mövcudluğu ölkədə ekoturizmin inkişafına təkan verən əsas ərazi vahididir. Bakı-Abşeron turizm bölgəsində yerləşən Abşeron Milli Parkı və Altıağac Milli parkı özündə geniş turizm potensialı daşıyır. Əsas səbəblərdən biri isə sadaladığımız Milli Parkların paytaxta yaxın yerləşməsidir.

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il Sərəncamı ilə Abşeron Dövlət Təbiət yasaqlığı bazasında Abşeron Milli Parkı, AR Prezidenti 2004-cü il Sərəncamı ilə isə Altıağac Milli Qoruğu və ona həmsərhəd olan dövlət meşə fondu torpaqlarının bazasında yaradılmışdır. Ölkədə Milli Parkın yaradılmasında başlıca məqsəd ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə edilməsi, nəsli kəsilməkdə olan nadir flora və fauna növlərinin qorunub saxlanılması, ekoturizmin inkişaf etdirilməsi, turizm və rekreasiya zonalarının yaradılması, əhalinin ekoloji cəhətdən maarifləndirilməsini təmin etməkdir. Abşeron Milli parkında torpaq örtüyü yaxşı inkişaf etməmişdir. Ərazi, demək olar ki, dəniz sahili qumluqlarla örtülmüşdür. Altıağac Milli Parkı isə flora və faunaın növ tərkibinə görə daha zəngindir. Altıağac Milli parkında 8 marşrut fəaliyyət göstərir. May-sentyabr ayları Milli Parka getmək istəyənlər üçün əlverişlidir. [4]

Ölkəmizdə hal-hazırda 10 Milli Park fəaliyyət göstərir. [4, eco.gov.az] Gələcəkdə Milli Parkların artırılması qarşıda duran vacib məsələlərdəndir.

Hazırda isə "Zaqatala biosfer qoruğunun yaradılması" layihəsi üzərində işlər aparılır. Bu Azərbaycanda faliyyət göstərəcək ilk biosfer qoruğu olacaqdır.

Bakı şəhərində yerləşən Mərkəzi Nəbatət bağı da ölkəmizin canlı yaşıl muzeyi olmaqla qiymətli nadir bitkilərin genofondunun qorunub saxlanması və mühafizəsində böyük rol oynayır. Halhazırda bağda nadir bitki növləri, müxtəlif ölklərin iqliminə xas bitki növləri vardır. Hətta bağda elə bitki növləri vardır ki onlara ölkənin heç bir yerində təsadüf edilmir (atlas sidri, livan sidri,sahil şamı, çiyələk ağacı və s.) Ekoturlar zamanı Nəbatət bağına da baş çəkmək turistlərin marağına səbəb olacaqdır.

Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərən Mərdəkan dendradisi Murtuza Muxtarovun şəxsi bağı olmuşdur. Burada əkilən ağacların suvarılması üçün mərkəzi su xətti çəkilməmişdir. Bitkilərin suya olan tələbatını ödəmək üçün 50-70 m dərinlikdə olan yeraltı su yataqlarından istifadə edilir. Dendra parka Afrika, Avropa, Asiya ölkələrinin iqliminə məxsus ağaclar gətirib mövcud iqlimə adaptasiya etdirilmişdir.

Ümumiyyətlə, turizm bölgəsinin ayrı-ayrı parklarında yaşlı ağaclara, maraqlı bitki növlərinə rast gəlmək mümkündür. Zəngin flora və fauna ehtiyatlarının nəzərə alaraq belə qənaətə gəlirik ki, Bakı-Abşeron turizm bölgəsi ekoturizmin inkişafı üçün əlverişli zonadır. Bakı-Abşeron turizm bölgəsində ekoturistlərə aşağıdakı marşrutları təşkil etmək olar:

- Nəbatət bağı →Mərdəkan Dendradisi → endemik bitkilərlə tanışlıq (oraqvarı kətan,Bakı gəvəni, itikənarlı süsən, xəzər səhləbi (Mərdəkan, Şüvəlan, Nardaran, Buzovna ərazisi))– Zirə ekoloji parkı
- Abşeron Milli parkı →Keçəldağ vulkanı → endemik bitkilərlə tanışlıq (Xəzər dənizi sahillərində)
- Abşeron Milli parkı → Nəbatət bağı → Mərdəkan Dendradisi →Zirə ekoloji parkı
- Abşeron Milli Parkı →Altıağac Milli Parkı →Keçəldağ palçıq vulkanı

ƏDƏBİYYAT
1. E. Yusifov, N.İsayeva, F.Əsgərov, Biomüxtəliflik: Abşeron yarımadasının təbiət abidələri, Bakı-2007, 424 səh.
2. Azərbaycan Turizm və Menecment Universiteti, B.Ə.Bilalovun çıxışı, http://medeniyyet. az/page/news/-5652/Palciq-vulkanlarinin-diyari.html,
3. Academia.edu, N.Dolmacı , G.Bulgan, Journal of Yaşar University 2013, 29(9), 4853 – 4871-ci səh.
4. Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli Parklar, http://www.eco.gov.az/az/tebii-servetlerimiz/milli-parklar

Səbinə Cumazadə
Azərbaycan Turizm və Menecment Universiteti
Sebine.Yusifova52@gmail.com

Aygün TƏHMƏZLİ
Azərbaycan Turizm və Menecment Universiteti
aliyeva.aygun.93@mail.ru

Azərbaycanın turizm potensialı və ondan istifadə imkanları

Туристический потенциал Азербайджана и возможности его использования

The tourism potential of Azerbaijan and usage opportunities from it

Xülasə: Turizm sektoru bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da son illərdə xüsusi önəm qazanmışdır.Tədqiqatda, Azərbaycanda turizm potensialı və ondan istifadə imkanları araşdırılmışdır. Bir çox ölkə üçün turizm əlavə gəlir mənbəyidir.Azərbaycanda da turizm potensialından səmərəli istifadə olunarsa bu gəlirlər ciddi şəkildə arta bilər.Bu məqsədlə də Azərbaycanın sahib olduğu potensialın ortaya çıxarılması çox böyük önəm daşıyır. Bu məqalə bu istiqamətdə atılan bir addım hesab olunur.Aparılan araşdırma əsasında əldə edilən nəticə Azərbaycanın əlverişli təbii-coğrafi mühiti,zəngin təbii ehtiyatları,siyasi və iqtisadi sabitliyinin bu ölkədə turizmin inkişafına birbaşa müsbət təsir göstərdiyini ifadə etmişdir.
Açar sözlər: Azərbaycan, turizm potensialı, turist axını.

Резюме: Сектор туризма в Азербайджане набирает обороты, как и во многих странах. В исследовании изучался туристический потенциал Азербайджана и его использование. Туризм во многих странах является источникам дохода. Эта статья является шагом в этом направлении. Результаты исследования говорят о том, что благоприятная природно-географическая среда Азербайджана, его богатые природные ресурсы, его политическая и экономическая стабильность оказали непоссредственное влияние на развитие туризма в этой стране.
Ключевые слова: Азербайджан ,туристический потенциал, туристический поток.

Abstract: The tourism sector, has also gained importance in Azerbaijan like the most of other countries of the world in last few years. Subject of the work has been devoted to tourism potential and usage opportunities of it in Azerbaijan. Tourism is a source of an additional income for some countries. If the potential of tourism is used efficiently then these income will increase sharply in Azerbaijan. Thus, it is important to reveal the tourism potential of Azerbaijan. This paper aims to make an attempt for this purpose. The obtained findings again show that favorable national-geographic environment, rich national resources, political and economical stability affects positively to development of tourism in this country.
Keywords: Azerbaijan, tourism potential, tourist flow.

Turizm dünyada ən sürətlə inkişaf edən sektorlardan biridir.Beynəlxalq turist axını və turizmdən əldə edilən gəlir son illərdə davamlı yüksəliş göstərməkdədir.Bunun nəticəsində turizmin iqtisadi artıma təsir edən bir faktor kimi də əhəmiyyəti artmaqda davam edir.Bir çox ölkə üçün turizm əlavə gəlir, xarici valyuta, məşğulluq və vergi gəliri mənbəyidir. Təsadüfi deyil ki, gəlir mənbəyini itirməmək üçün dünya ölkələri bir-birilə rəqabətdədir və daha çox turist cəlb etməyə çalışırlar. Tu-

rizmin inkişafı bir çox sahələrin inkişafı ilə qarşılıqlı əlaqədədir. Turizmin inkişafı yeni iş yerlərinin yaradılması və daha çox sayda insanların işlə təmin olunması səbəb olur.

Müasir dövrdə ölkəmizdə də turizm digər iqtisadi sahələr arasında özünəməxsus yer tutmuşdur. Azərbaycanın təbii sərvətləri, rəngarəng iqlimi, zəngin tarixi-mədəni irsi turizmin inkişafına və ölkəyə daha çox turistin cəlb edilməsinə imkan yaradır. Turizm sahəsi həm regionların inkişafı, həm də ölkənin iqtisadi potensialının möhkəmlənməsi, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir. Ancaq yenə də Azərbaycanın sahib olduğu tarixi və coğrafi zənginliklərindən qaynaqlanan turizm potensialından tam olaraq istifadə olunduğunu demək olmaz. Bu səbəbdən Azərbaycanın turizm potensialının ortaya çıxarılması və buna müvafiq olaraq turizm siyasətinin həyata keçirilməsi bu sektorun daha planlı inkişaf etdirilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir. Bunun da iki istiqamətinin olduğunu söyləmək olar. Birincisi, bir "istirahət ölkəsi" olmaqla yanaşı, mədəniyyət,konqres/toplantı, təbiət turizmi baxımından da diqqəti artırmaq üçün siyasətin işlənib hazırlanmasıdır. İkincisi isə Azərbaycana turist göndərən ölkələrin müxtəlifliyini artırmaq və beynəlxalq turist axınından daha çox pay əldə etmək üçün siyasətin işlənib hazırlanmasıdır.

Turizm valyuta axınını və xarici sərmayə girişini artırdığından, milli gəlirə müsbət təsiri, infrastrukturu yaxşılaşdırıcı, regional və qlobal inteqrasiyanı sürətləndirici, məşğulluq artırıcı xüsusiyyətləri ilə ölkənin regional inkişaf siyasətlərində önəmli yer tutmaqdadır. İqtisadi inkişaf və iş yaratmağa bir vasitə olan turizm siyasəti regional inkişaf, regionun tarixi, mədəni mirasının qorunması və inkişafı üçün vasitə rolunu oynamağa başlamışdır.

Təbii gözəlliklər və mədəni zənginliklər doğru və rasional siyasətlərlə istifadə olunduqda ölkələrin və bölgələrin iqtisadi tarazlıqlarına müsbət istiqamətdə təsir edən önəmli bir gəlir qaynağı olmaqdadırlar. Bölgədəki təbii və tarixi resursların müxtəlif üsullarla spesifik turizm məhsuluna çevrilməsi alternativ turizmi formalaşdırır. Regiona məşğulluq, turizm sezonunun uzadılması, cazibədarlıq və müsbət imajın formalaşması kimi bir çox təsirləri mövcuddur. Sahib olunan mədəni varlıqların dəyərləndirilməsi məqsədilə yaradılan muzeylər regionda turizmin inkişafı üçün bir vasitədir. Bu baxımdan turizm sektorunun hərtərəfli öyrənilməsi böyük əhəmiyyətə malikdir. Müşahidələr göstərir ki, insanlar davamlı yaşadıkları yerlərdən müvəqqəti müddətlərlə ayrılaraq başka ölkə və ya bölgələrə getməkdə və buralarda gəzib-görmə, istirahət, əylənmə, öyrənmə kimi psixoloji və sosial-mədəni ehtiyaclarını qarşılamaqdadırlar. İqtisadi mənada geniş təsir meydana gətirən və turizm olaraq adlandırılan bu hadisə, günümüz sivilizasiyasının əsas xüsusiyyətlərindən biridir[6,s.28]. Turizm insan ehtiyacından irəli gələn və insan ehtiyacını maksimum ödənməsinə yönələn bir sahədir.

Ümumiyyətlə turizm ilə əlaqədar verilən bir çox tərifl ər mövcuddur. Bu tərifl ərdən birində "turizm ümumi olaraq davamlı yaşanan yer xaricində istehlakçı olaraq tətil, istirahət, əylənmə kimi ehtiyacların aradan qaldırılması məqsədiylə edilən səyahət və müvəqqəti yerləşmə hərəkətləridir" fikri qeyd olunur [8,s.1]. Digər bir tərifdə turizm "istirahət və ya iş məqsədli bir yerdən yola çıxaraq müəyyən bir destinasyona yönələn insani fəaliyyətdir"[10,s.3] şəklində təyin olunmaqdadır. Turist, əsas məqsədi psixoloji təmin olan, səyahəti müddətində iqtisadi mənada istehlakçı sayılan, normal səviyyədə maliyyə gücə sahib və zamanı məhdud olan insan nəzərdə tutulur.

Turizmin uğurlu inkişafı turistlərin sayından, xalqın turizmə yanaşma tərzindən, turizm xidməti göstərən təşkilat və bizneslərin fəaliyyətlərindən asılıdır. Turizmin gəlir mənbəyi rolunu oynaması, məşğulluq potensialı, valyuta ehtiyatlarının axınına, infrastrukturun inkişafına, dövlət gəlirlərinin artımına səbəb olması iqtisadi böyümə və inkişafa təkan verir.

Turizm sektoru başlanğıc olaraq sərmayə tutumlu sahə kimi görünsədə uzunmüddətli dövrdə əməktutumlu sahə hesab olunur. Turizm müəssisəsinin yaradılması üçün ehtiyac duyulan sərmayə olduqca yüksəkdir. Lakin turizm sektoru inkişaf etdikcə sərmayə xərcləri azalmaqdadır. Struktur baxımdan turizmin avtomatlaşdırılmaya və texnologiyalardan istifadəyə az bağımlılığı səbəbdən məşğulluq yaratma təsiri böyükdür, çoxlu aşağı maaşlı iş imkanlarının mövcudluğu, part-time və müvəqqəti iş imkanlarının çoxluğu, sezonla əlaqədar iş tələbinin artması digər üstünlükləridir. Nəqliyyat, tur fəaliyyəti, restoran fəaliyyətlərində əmək/sərmayə nisbəti olduqca yüksəkdir. Turistik regionlardakı taksilər, hədiyyəlik əşya satan kiçik mağazalar, səyyar satıcılar da həmçinin turizm sektorunda çalışan işgücü hesab olunmaqdadır. Turizm müəssisənin işçiləri müəssisənin müdiri, köməkçiləri kimi idarəedici heyət, qəbul müdiri, mətbəx şefi, mühasibatlıq rəhbəri kimi texniki qrup

işçiləri, barmen kimi müəyyən bacarığa sahib işçilər,baqaj,qarderob işçisi kimi xüsusi qabiliyyət tələb etməyən qruplardan ibarət olmaqla geniş şaxəni əhatə etməkdədir [7,s.19]. Bu baxımdan turizm əməktutumlu sahə hesab olunur. Digər sektorlarla qarşılıqlı əlaqələrin mövcudluğu səbəbindən turizm sektoru üçün lazım olan mal və xidmət yerli bazarda istehsal edən ölkələrdə dolayı yolla məşğulluq artımına gətirib çıxarır. Digər sektorlarla müqayisədə, səyahət və turizm hər bir dollarlıq sektor gəlirlərində və ya investisiya qoyuluşlarında ən yüksək məşğulluq yaradan sektor olaraq qəbul edilir[9,s.278].

Hal-hazırda turizm hərəkətlərinin daha sıx ortaya çıxmasının bəzi səbəbləri vardır. Bunlara həddindən artıq iş, stress, şəhər həyatı, sıxlıq, artan gəlir miqdarı, snobizm kimi faktorları saya bilərik. Bu faktorlar səbəbiylə cəmiyyətdə demək olar ki, ən aşağı gəlir səviyyəsinə sahib insanlar belə tətilə çıxmaq üçün gəlirlərinin bir qismini ayırdıklarını görə bilirik. Gəlirə görə də turizmin 3 növü fərqlənməkdədir. İnkişaf etmiş ölkə vətəndaşları gəlirlərinin bir qismini tətil və ya lüks istehlak xərcləmələri olaraq ayırmaqdadır. Bu iki məhsul bir-birilə əvəz oluna bildikləri üçün turistlərin gəldikləri ölkədə qarşılaşacaqları xidmətin keyfiyyəti və qiyməti kimi faktorları nəzərə alaraq növbəti mövsüm üçün seçimini turizm və ya lüks istehlak xərcləməsi deyə müəyyənləşdirərlər. Bu seçimi turizm tələbinə yönəldə bilən ölkələr dünya turizmin gəlirlərindən aldıqları payı artıra və yeni məşğulluq imkanları yarada bilirlər. Lüks turizm lüks turizm məhsullarına tələblə bağlı olan növdür. Ənənəvi turizm olaraq tanınan orta sinif turizmi istehlak imkanları normaldan artıq olan insanların həyata keçirdiyi turistik fəaliyyətlər nəzərdə tutulur. Sosial turizm isə alıcılıq qabiliyyəti aşağı olan turizmdə iştirak ehtimalı məhdud şəxslərə edilən dəstək programları və təşviqlərlə ortaya çıxan turizm növüdür. Tətil kreditləri, nəqliyyat vasitələrində qiymət endirimləri, turizm müəssisələri ilə fərdlər arasında turizm xərclərinin hissə-hissə ödənilməsi kimi endirimli özəl razılaşmaların əldə edilməsi sosial turizmi yaradan faktorlardır. Üçüncü yaş turizmi da sosial turzimin önəmli hissəsini tutmaqdadır. Pensiyaya çıxmış əhalinin boş vaxtını turistik fəaliyyətlərlə keçirməyi üstün tuturlar. Sosial turizm sosial bərabərliyin təmin olunması, müxtəlif xalqlar arasında sülh və əmin-amanlıq mühitinin yaradılması, fiziki yorğunluğun aradan qaldırılması, işçilərin daha motivasiyalı işləməsi, məhsuldarlığın artdırılması məqsədlərini də daşıyır. Bu növlərə aid olan bazarlar və bu növ turistik fəaliyyəti həyata keçirmək üçün olan marketinq üsulları fərqlənməkdədir. Elmi Texniki Tərəqqi (ETT) nəticəsində texnologiyanın inkişafı turizmə öz töhfəsini vermişdir. Uzun səyahətlərin daha qısa müddətə həyata keçirilməsi, yol xərclərinin azalması kimi səbəblərdən sosial turizm inkişafı daha da artmışdır. Bu turizm hərəkətinə hər il milyonlarla yeni insanların qatılmasını təmin edir. Turizmin məhsul çeşidliliyinin artırılması məqsədilə hər üç növün ehtiyacını ödəyəcək otellərin, turizm müəssisələrinin turistik zonalarda mövcudluğu nəzərə alınmalıdır.

Aparılan tədqiqatlar göstərir ki, turizm fəaliyyətinin mövsümi xarakter almasını aradan qaldırmaq üçün məhsul çeşidliliyindən istifadə olunur. Bundan başqa, İEOÖ-lər üçün fəsli məşğulluq probleminin aradan qaldırılmasında turizm növlərinin diverfisikasiyasının həyata keçirilməsi turizm potensialından istifadəni stimullaşdıracaqdır. Bu məqsəd ilə sağlamlıq, mədəniyyət, məcara, yaxta, kırsal və ekoturizm önə çıxmaqdadır. İEÖ-də insan artımı daha az, yaşlı təbəqə daha çox olması ilə əlaqədar onlar daha çox sağlamlıq, mədəniyyət turizminə üstünlük verərkən, orta gəlirli ölkələr qrupu isə gənclərin çoxluğu ilə əlaqədar məcara, yaxta kimi turizm növlərinə üstünlük verməkdədirlər. Mədəniyyət yönümlü turizmlə boş vaxt turizmini ayırmaq tarixi abidələrin və milli sərvətlərin qorunmasına gətirib çıxarır. 3-S (sea-sand-sun) ənənəvi forması ilə başlayan turizm müasir dövrdə 3-E (exciting-educational-entertainment) şəklinə çevrilmişdir. Nəticədə, turistik məhsul çeşidlərinin başında yaxta, qolf, raftinq, atçılıq, fauna və flora turları, kənd turları, yamac paraşütü,dalğıc turları, alpinizm, inanc turizmi, quş izləmə turları, mağara, moda, safari, şəlalə, velosiped, elektrik stansiyaları, fərqli din və dəstəyə aid dini məkanlar, alış-veriş məkanları, paint ball, qış idmanları , nostaljik dəmir yolu gəzintiləri, dörd mövsümdən birini yaşadan təbiət və təbiət möcüzələrini görmə məkanı turları və s. kimi turistik məhsul növləri meydana gəlmişdir. Bu müxtəliflik gün keçdikcə də artım göstərir. Resursla zəngin ölkələr turistik məhsul çeşidliliyini artıraraq turizm gəlirindən aldıqları payı artıra bilərlər.

Turizm potensialının səmərəli istifadəsi turizm sektorunun davamlı inkişafı ilə mümkündür. İstər turizm sektorunun gəlir yaratma xüsusiyyətindən faydalanmaq istiyən İEÖ-lər, istərsə turizmin

valyuta qazandırıcı xüsusiyyətindən faydalanmaq istiyən İEOÖ-lər davamlı inkişaf strategiyaları müəyyənləşdirmədən turizm potensialından istifadəni səmərəli hala gətirə bilməzlər. Bu məqsədlə turizm sektorunda mövcud problemlərə həll yolu müəyyənləşdirilməlidir.

Dövlətlərin turizmə müdaxiləsi turizm siyasəti vasitəsilə həyata keçirilir. Turizm siyasəti bir ölkədə turizm sənayesini inkişaf etdirmək, istiqamətləndirmək, nəzarət etmək məqsədilə, idarəçilər tərəfindən müxtəlif vasitələr istifadə edilməklə müəyyənləşdirilən yanaşmalar və hədəflər, alınan tədbirlər vəya bunların cəmidir[10,s.225].

Turizm və regionların inkişaf kimi məsələlərdə dövlət müdaxiləsi mənfi yan təsirlər yarandığı, ictimai əmtəə təmin edildiyi, özəl sahibkarlıq fəaliyyətinin uğursuz olduğu zaman baş verir.Turizm çoxşaxəli bir sahə olduğundan turizmlə bağlı problemlərə kompleks çarələr tapılmalıdır. Turizmlə bağlı problemlər bunlardır: insan resurslarının inkişafı, infrastrukturun qurulması, ətraf mühitin pozulması, çirklənmə, sosial mədəni həyatda meydana gələn dəyişikliklər, turistərin və yerli əhalinin mədəniyyəti arasında qarşıdurmaların olması, turizmin gəlirlərinin mövsümi xarakter alması, turistik xərcləmələrin bölgəsəl inflyasiyaya səbəb olması, bəzi istehlak mallarının idxal olunması. Bu kimi problemlərin dövlət müdaxiləsi olmadan tam şəkildə aradan qaldırılması imkansızdır.

Turizmin yararlarından faydalanmaq üçün ilk öncə infrastruktur qurulmalıdır. İnfrastruktur və nəqliyyat sektoru yatırımları dövlət tərəfindən həyata keçirilir. Mövcud və potensial qaynaqların müəyyənləşdirilməsi, turizm sərmayə qoyuluşlarında istifadə olunan xərclərinin minumumlaşdırılması, xarici turizm xərclərinin azaldılması, turizm sektorunda istifadə olunan idxal malların azaldılması, xarici sərmayənin axını, özəl sektoru təşviq edici subsidiyalar, turizm bölgələrinin sosial infrastrukturu ilə iqtisadi infrastrukturunun birlikdə dəyərləndirilməsi, təbii tarazlığın qorunub saxlanması, çirklənmənin qarşısını alınması, arxeolojik, tarixi memarlıq abidələrinin dəyərləndirilməsi, bərpası və qorunması tədbirləri turizmin inkişafı üçün əsas hədəflərdə yer almaqdadır.

Mövcud potensial istifadə edilənə qədər turizm təşviqlərində üstünlük marketinq sahəsinə verilir. Turizmdə bazar araşdırmaları böyük önəm kəsb edir. Bazar araşdırmasının məqsədi qiymət və müəssisənin qarşılayacağı tələb miqdarını müəyyən etməkdir.Bunun üçün bazar həcmi, bazarın böyümə nisbəti, istehsal olunacaq mal və xidmətlərin miqdarı, təklif imkanlarının vəziyyəti, turist davranışları, rəqabət şərtləri, statistik göstəricilər, mövsümi dəyişikliklər, dövlət siyasətləri, məhsulun maya dəyəri və satış qiyməti, beynəlxalq marketinq imkanları müəyyənləşdirilməlidir [10,s.202].

Turistik fəaliyyətlərin artması inflyasiya yaradır. İqtisadiyyatda multiplikativ təsiri və mövsümi xarakter daşıması inflyasiyanın artmasına gətirib çıxarır.Müəyyən mövsümlərdə turistlərin kütləvi gəlişi təklif potensialı ilə tarazlaşmıyanda inflyasiya yaradır. Turistik tələbin birdən yüksəlməsi, turistik məhsulların maya dəyərlərinin yüksəlməsi, ölkəyə gələnlərin yerli xalqa təsiri ilə yerli xalqın istehlak meyilində dəyişmələr nəticəsində turistik istehlak və xərcləmələrin artımı qiymətlərdə artışa gətirib çıxarır. Gündəlik tələbat mallarının qiyməti artır. Aşağı gəlirli yerli əhali bundan ən çox təsirlənən insanlar olur. Otel tikilişlərinə olan tələbin artması ilə əlaqədar torpaq qiymətlərində də artım müşahidə olunur.İnflyasiya nəticəsində qiymətlərin artmağı turist axının azalmasına ölkənin turizm fəaliyyətindən qazanacağı gəlirdə azalmaya gətirib çıxara bilər. Dövlət tərəfindən inflyasiya dərəcəsini nəzarətdə saxlayacaq antiinflyasiya siyasəti həyata keçirilməsi şərtdir.

Cəmiyyətlər iqtisadi, ictimai və mədəni istiqamətlərdə bir bütünlük içində inkişaf etməkdədirlər. Bu prosesin azad və demokratik bir siyasi mühitə ehtiyacı vardır. Bir ölkəni digər bir ölkə ilə müqayisə edərkən, iqtisadi göstəricilərin yanında, ictimai göstəricilərdən də istifadə edilməkdədir. Əsas ictimai göstəricilər içində məşğulluq, mədəniyyət, səhiyyə və təhsil var. Bunlardan təhsil sektoru iqtisadiyyatın ehtiyac duyduğu insan kapitalını yetişdirən əsas resurslardır.

Turizm sektorunda sürətlə artan inkişaf meyillərinə paralel olaraq bu sektora birbaşa (turistik şirkətlərdə çalışaraq) və ya dolayı (nəqliyyat, təhlükəsizlik və s. quruluşlarında çalışaraq) xidmət verən ya da turist ilə birbaşa çox az təmas edib daha çox onun olduğu mühitə müsbət ya da mənfi təsir göstərən xalqın maarifləndirilməsi işləri də mühüm əhəmiyyət kəsb edir.

Negativ sosial yan təsirinin aradan qaldırılması, yerli əhalinin turizm sektorunun inkişafında məmnuniyyəti də uzunmüddətli dayanıqlı inkişaf üçün zəruridir. Kanada davamlı inkişaf mərkəzi göstərir ki, turizm sənayəsinin davamlı inkişafı ekoloji, iqtisadi və sosial stabillikdən asılıdır[6,

s.309]. Turizm hərəkətlərinin sıxlaşdığı bölgələrdə yerli rəhbərliklərin və xalqın turizm ilə əlaqədar qərarlara qatılması təmin edilməlidir.

Turizmin yaratdığı dünya gəlirindən pay almaq istəyən ölkələr dərin bir rəqabət içərisindədirlər. Xidmət sektorunun keyfiyyəti önəm daşımaqdadır. İnsan resurslarının inkişafı əhəmiyyətli rola malikdir. Turizm təhsilinin də məqsədi turizm sektorunun ehtiyac duyduğu işçini yetişdirməkdir. Turizmin makro səviyyədə planlaşdırılmasının əhəmiyyətli mərhələlərdən biri, kadr ehtiyacının müəyyən edilməsi və bu ehtiyacın qarşılanması üçün lazımlı təhsil və tədris planlamasının edilməsidir. Xüsusilə sərt bir rəqabətin cərəyan etdiyi beynəlxalq turizm bazarına keyfiyyətli xidmətlərlə girmək, cəmiyyət səviyyəsində bir turizm şüuru qədər, qabiliyyətli kadrların varlığı ilə mümkündür [8,s.47].

Təhsil, inkişafın ən böyük dəstəkçisidir. Mövcud potensial istifadə edilənə qədər turizm təşviqlərində üstünlük ümumi keyfiyyət yaxşılaşdırılmasına verilməlidir.Turizm sektorunda təsbit edilən ən əhəmiyyətli problemlərdən biri ixtisaslaşmış işçi əskikliyidir. Türkiyə üçün aparılan araşdırmaların nəticələrinə görə mütəxəsislərin 50%-nin ibtidai məktəb məzunu, qalan kadrların bir çoxunun isə peşə təhsili görməmiş olduqları müəyyən edilmişdi[8, s.20].

Turizm sahəsindəki peşə təhsilinin məqsədi, turizm seqmentinin ehtiyacı olan nəzəri-praktik məlumatlara sahib ixtisaslı kadr yetişdirməkdir. Turizm təhsili, hər səviyyədəki şagirdlərə turizm şüurunu aşılamaq, qonaqpərvərliyin təməl prinsiplərini vermək, turizm sənayesində çalışan personalların ümumi və peşə məlumatlarını artırmaq və turizm sənayesinə idarəçi, daima axtarışda olan mütəxəssis, mühafizə, texniki işçi yetişdirmək üçün edilən hər cür fəaliyyətlər hesab olunur[9,s.10]. İnsanların xoş qarşılanmadıqları yerlərə bir daha gəlmədiyi bilinən bir reallıqdır. Bu səbəbdən, bir turistin yaşadığı təcrübəni xoş bir an olaraq xatırlaması və eyni yerə təkrar getməsi, böyük ölçüdə ev sahibinin qonaqpərvərliyi ilə mümkündür. Xidmətin əsas ünsürləri olan peşəkarlıq, bacarıq, məhsuldarlıq və nəzakət təsadüfən qazanıla bilməz. Bütün bu xüsusiyyətlər, təhsil və tədris prosesinin bir nəticəsidir. İşsizlik probleminin artım göstərdiyi günümüz bazar şəraitində, sektorun ehtiyacı olan xüsusiyyətlərə sahib olmadan məşğulluq imkanları araşdıran məzunlar, əməkyönümlü sahə olan turizmdə çox aşağı əmək haqqı qarşılığında işləmək məcburiyyətində qalırlar.

Turizm təhsil planlaması, bir mənada ümumi turizm planlaması ilə paralel getməsi lazım olan bir prosesdir. Turizm təhsili, turizm sektorunun ehtiyacı olan işçiləri yetişdirmək məqsədi daşıdığından, turizm planlamasında turizm sektorunun inkişaf istiqamətini və turizm təhsilindəki digər parametrləri nəzərə almaq lazımdır. Turizmə açılan hər stansiya üçün planlaşdırma əsas bir fəaliyyət olaraq qəbul edilir[7,s.25]. Texnolojik yeniliklərin də turizm sektorunda və onun təhsil prosesində istifadəsi çox mühümdür. Eyni zamanda turizm sektorundakı təhsil siyasəti sektorun dəyişən ehtiyacları istiqamətində davamlı dəyişdirilib inkişaf etdirilməlidir.Təhsillə əlaqədar aparılan işlərdə hədəflərə çatmaq üçün hazırlanan vasitələr arasındakı ardıcıllıq əlaqəsi təmin edilməlidir.Məhz bu hədəflər istiqamətində Təhsil siyasəti hədəfləri istiqamətində Turizm Təhsil sistemini ən üst səviyyədə tutmaq üçün dövlət xüsusi təhsil təşkilatları arasında koordinasiya, tədris bütövlüyü və davamlılığı təmin etməlidir.

Turizm sektorunun ehtiyacı olan kadrların hazırlanması məqsədi daşıyan təhsil proqramlarının təşkili üçün yüksək xərclər tələb olunur. Məhdud büdcə qaynaqları ilə təhsil fəaliyyətlərini davam etdirməkdə müəyyən çətinliklər yaranır. Turizm təhsilinin inkişafında dövlət-sektor əməkdaşlığı mühüm əhəmiyyət kəsb edir. Dövlət- özəl sektor əməkdaşlığı çərçivəsində kadrların sahib olduğu peşə bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədi ilə təhsil kursları, ev pansiyonçuluğu edən şəxslərin maariflənmələrini təmin etmək və turist tələblərinə uyğun davranışlarını inkişaf etdirmək məqsədiylə xüsusi kurslar təşkil edilməlidir. Bundan əlavə sektorda çalışan bölüm müdiri, müdir müavinləri və ya bölüm rəhbərlərinin sahib olduqları məlumat və təcrübələrini alt pillədəki işçilərinə ötürə bilmək, öyrətmək məqsədiylə təlimatçılar tərəfindən keçirilən kurslar, turizm sektorunda çalışan personalın xidmət standartının yüksəldilməsi və ictimai bacarıqlarının inkişaf etdirilməsi məqsədi ilə Sosial Davranışlar Seminarları təşkil edilməlidir[5,s.107]. Təhsil adına edilən bütün investisiya və səylər yaxşı müəyyən edilmiş siyasətlər, uyğun strateji seçim, ətraflı plan və proqramların hazırlanması, eyni zamanda tətbiq davamlılığı ilə məna qazanar.

Turizm sahəsində öz tədqiqatları ilə məşhur olan rus alimi İ.V.Zorin hesab edirdi ki, regionun turizm potensialını öyrənmək üçün ona sistem kimi yanaşılmalıdır. Onun fikrincə, turizm sistemi üç iri supersistem sərhədlərində inkişaf edir ki, bunlar təbiət, cəmiyyət və xalq təsərrüfatıdır. Bu üç sistemə aid olan xüsusiyyətləri özündə daşıyır. Bu xüsusiyyətlər, təbii turizm resursları, turistlər (cəmiyyətin qısamüddətli insan qrupu ki, onları birləşdirən məqsəd turizm fəaliyyətinə aid olsun) və bunların qarşılıqlı əlaqəsi nəticəsində yaranan faydadır. Regionun turizm potensialını və cəlbediciliyini müəyyən edən faktorlar deyildikdə isə təbii-coğrafi şərait, iqlim şəraiti və tarixi-mədəni potensial nəzərdə tutulur[12].

Qeyd olunan istiqamətlərdə Azərbaycanda da mühüm potensialın olduğu bilinməkdədir. Turizmin sektorunun dayanıqlı inkişafının təmini üçün turizm potensialının dəqiq müəyyənləşdirilməsi və həmin potensialdan səmərəli istifadə mühüm əhəmiyyətə malikdir.

Ölkədə unikal təbii iqlim şəraitinin olduğu bilinməkdə və dünyada mövcud olan 11 iqlim zonalarından 9-u müşahidə olunmaqdadır. Bu o deməkdir ki, iqlimdən asılı olan hər növ turizm fəaliyyətini inkişaf etdirmək mümkündür. Dağlıq ərazilərdə soyuq və rütubətli iqlim şəraitindən istifadə edərək xizək komplekslərinin yaradılması ilə idman turizminin inkişafı, alpinizm, speleoturizm, buzadırmanma, qayayadırmanma, dağ velosipedində hərəkət, dağda marşrutlar üzrə yürüş, zirvəyə qalxma marşrutları və s. kimi ekstremal turizm növlərinin təşkil edilməsi üçün bütün təbii imkanlar mövcuddur.

Azərbaycanın müxtəlif turizm növlərin inkişafı üçün faydalı ola biləcək turizm resurslarının ümumi təbii-coğrafi, iqlim və tarixi-mədəni potensialından söz açsaq, onun zəngin təbiətini də qeyd etmək lazımdır. Ölkənin landşaftından başqa, flora və faunası da olduqca zəngindir. Son zamanlarda Azərbaycana əcnəbi qonaqları cəlb edən yeni turizm növü – ov və balıqtutma turizmidir.

Turizm yönümlü mədəni regional inkişaf vasitələri konfrans sərgi mərkəzləri, istirahət parkları, qoruqlar, alternativ turizm müəssisələri, mədəniyyət mərkəzləri olaraq tanınır. Həm dövlət, həm də özəl sektor tərəfindən təşkil olunan konfranslar keçirilən yerlərdə iqtisadi canlanmaya gətirib çıxarmaqla yanaşı regiona dinamik görüntü də qazandırır. Boş vaxt turizmi vasitələri arasında yer alan istirahət parkları eyni zamanda regionun cazibədarlığını da artırmaqdadır.Təşkil olunan əyləncə və istirahət fəaliyyətlərində ölkənin adət-ənənələrini əks etdirilməsi çox önəmlidir. Turistlər bir yandan əylənəcək bir yandan da ölkəni tanıma fürsəti tapacaqlar[11,s.83].

Bununla yanaşı, Azərbaycanda sağlamlıq turizmi də inkişaf etdirmək üçün müxtəlif resurslar var. Sağlamlıq turizmi məqsədi ilə ölkəmizə gələn qonaqlar üçün palçıq vulkanları, mineral sular qaynaqları, çəmirliklər, müalicəvi neft və s. kimi imkanlar mövcuddur. Azərbaycan öz mineral suları ilə məşhurdur. Bunun üçün olkəni "mineral sular muzeyi" adlandırmışlar.

Ölkənin turizm potensialından söz açaraq geniş imkanları təqdim edən Xəzər dənizini də qeyd etmək lazımdır. Azərbaycan günəşli günlər sayısına görə İtalya, İspaniya və Yunanıstan kimi ölkələr ilə bir sırada durur. Il ərzində günəşli günlərin sayı 250-280 qədər çatır. Bu imkandan istifadə edərək ölkədə "dəniz-qum-günəş" istirahətini təşkil etmək mümkündür. Xəzər dənizinin sahili boyunca istirahət zonaların yaradılması üçün 825 km-lik ilkin şərait mövcuddur. Sahilin 30%-dan çoxu narın qum çimərliklərindən ibarətdir. Kütləvi istirahət üçün burada ilin 7-8 ayı əlverişli hesab olunur. Dəniz suyu kifayət qədər qızdığı üçün çimərlik mövsümü 4-5 ay davam edir. Yayda suyun temperaturu +24 +26° təşkil edə bilər. Bundan əlavə, turizm sənayəsinin inkişafı mədəni dəyərlərin bərpa olunmasına, tarixi abidələrin bərpa olunub qorunması, yerli əhaliyə xas olan sənət nümunələrinə tələbatın artmasına bir vasitədir. Regionların sosial iqtisadi inkişafı üzrə dövlət proqramları çərçivəsində turizm potensialının artırılması bu üstünlüklərdən faydalanma və regionlararası inkişaf fərqlərini aradan qaldırmaq məqsədi daşıyırdı.

Ölkənin iqtisadiyyatın diversifikasiya siyasəti nəticəsində turizm sahəsinin inkişafında əsas rol oynayacaq qeyri-neft sektorunun inkişafı sahəsində görülən tədbirlər olduqca mühüm rol oynamakdadır. Tikinti və infrastrukturun müasirləşdirilməsi tədbirləri çərçivəsində görülən işlər ötən müddətdə Bakı ilə yanaşı, regionlarda da turizm komplekslərinin, otellərin, istirahət mərkəzlərinin istifadəyə verilməsi turizmin inkişafına, əhalinin istirahətinə geniş imkanlar yaratmışdır. Son illərdə inkişaf edən infrastruktur sahələrindən biri də nəqliyyat sektorudur ki, bu sahəyə davamlı və iri həcmli investisiyaların yönəldilməsi nəticəsində nəqliyyatın hərəkət heyətinin yeniləşməsi, körpülə-

rin tikilməsi, yeni avtomobil yollarının çəkilişi, yenidən qurulması və s. işlər davam etdirilmiş, strateji əhəmiyyətli layihələrin səmərəli fəaliyyəti sahənin inkişafına öz müsbət təsirini göstərmişdir[2]. Ölkənin tranzit potensialının reallaşdırılması istiqamətində tədbirlər, o cümlədən Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin fəaliyyəti, Bakı-Tbilisi-Qars dəmir yolunun, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilmişdir.

Quru nəqliyyatından fərqli olaraq bizim ölkədə dəniz nəqliyyatı turizm fəaliyyətində hələ ki cəlb olunmamışdır. Dəniz nəqliyyatı başlıca olaraq yükdaşıma istiqamətinə yönəldilib. Halbuki Orta və Cənubi Xəzərdə dəniz nəqliyyatı vasitəsilə turist kruizlərinin təşkili, zənnimizsə, çox cəlbedici ola bilər. Halhazırda belə sahilyanı səyahətlər nəinki dövlətlərarası, hətta bir dövlət daxilində sahil akvatoriyası üzrə də həyata keçirilmir. Bütün Xəzərin sahil zonası üzrə dəniz kruizinin təşkili isə ilk növbədə region dövlətləri arasında əməkdaşlığın inkişafına təkan verər.

Dövlət Proqramları çərçivəsində regionlarda infrastrukturun bərpası və inkişafı, əhalinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, qaz və su ilə təchizatının yaxşılaşdırılması, səhiyyə və təhsil müəssisələrinin tikintisi, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, bu sahəyə irihəcmli dövlət investisiyaları yönəldilmişdir[1].

Regionlarda turistlərin cəlb edilməsi üçün görülən işlər çərçivəsində bu müddət ərzində turizm nümayiş obyekti kimi istifadə olunması məqsədəuyğun hesab edilən bir sıra tarix-mədəniyyət abidələri bərpa edilmiş və turistlərin istifadəsinə verilmişdir[4]. Turizm fəaliyyətinin inkişafına kömək edəcək tədbirlərdən 2003-2008 illərində nəzərdə tutulmuş Proqram nəticəsində Azərbaycan Respublikasında investisiya mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişaf etdirilməsi, qeyri-neft sektorunun inkişafının və yeni iş yerlərinin yaradılmasının surətləndirilməsi məqsədi ilə ölkədə mövcud olan lisenziyalaşdırma sistemi köklü sürətdə dəyişdirilmiş, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı xeyli dərəcədə azaldılmış, lisenziyaların müddəti isə uzadılması tədbirləri qeyd etmək olar. Yeni lisenziyalaşdırma sisteminin tətbiqi azad rəqabətin inkişafına, istehsal olunan məhsulun, göstərilən xidmətlərin keyfiyyətinin yüksəlməsinə qulluq edir.

Ən son qəbul olunan 2014-2018 illəri əhatə edən Proqramda regionlarda turizmin inkişafı qeyri-neft sektorunun inkişafında ən önəmli sahəsi olması vurğulanır. Regionların sosial-iqtisadi inkişafı üçün hazırlanan son Dövlət Proqramında qeyd edilir ki, qeyri-neft sektorunun inkişafı istiqamətində regionlarda turizmin inkişafı qarşıdakı illərdə prioritet olaraq qalacaq, turizm ehtiyatlarının genişləndirilməsi, turistlərin istirahəti, onların tələbatının ödənilməsi üçün zəruri olan turizm xidmətləri və digər mədəni tədbirlərin çeşidinin genişləndirilməsi və müasir standartlara uyğunlaşdırılması, turizm obyektlərinin tikintisi ilə bağlı layihələrin icrası davam etdiriləcəkdir[3].

Nəticə olaraq qeyd etmək lazımdır ki, hazırki dövrdə iqtisadiyyatın mühüm gəlir gətirici sahələrindən biri olan turizmin mövcud potensialının səmərəli istifadəsi əlaqədə olduğu digər sektorlara göstərəcəyi müsbət təsirlə bərabər iqtisadi inkişafa da öz töhfəsini verməkdədir.

Nəticə və təkliflər: Turizm qlobal səviyyədə dünya ilə inteqrasiyaya səbəb olan, ölkə daxili regional inkişaf səylərinə müsbət təsir edən fəaliyyət sahəsidir. Dövlətin öhdəsinə düşən mühüm vəzifələrdən biri də turizm üçün zəruri olan mühitin formalaşdırılmasıdır. Turizmdəki təhsil formalaşdırılması və işin daha da məhsuldar olması üçün müəyyən zəruri işlərin görülməsi xeyli vacibdir. Mövcud turizm təhsil sisteminin təhlili, turizm təhsil sisteminin yenidən təşkili, personal ehtiyacının müəyyən edilməsi, məhsuldarlığın artırılması, kadrların potensialının artırılması, təhsil vasitələrinin istehsalının təşviqi, gənclərin peşə hazırlığının turizmə istiqamətləndirilməsi kimi məsələlər xeyli aktualdır. Bu istiqamətdə yeni informasiya texnologiyalarından istifadə də mühüm əhəmiyyət kəsb edir. Dövlət turizm təhsilini özü təşkil etmək yerinə, bu təhsili edəcək adam və təşkilatlara nəzarət etməlidir. Buna görə atılacaq addımlar təhsilin standartlarını müəyyən etmək, təşəbbüskarları təşviq etmək və təlim keçilənlərin xüsusiyyətlərinin sənədləşməsini təmin edəcək mühit formalaşdırmaqdır. Dünya praktikasına nəzər salsaq görərik ki, turizm potensialından ümumi istifadənin daha da artırılması yolları ilk öncə təşkilat və iqtisadi mexanizmlərin ildən ilə təkmilləşdirilməsindən, turizm xidmətlərinin yeni marketinq növlərinin yaradılması və tətbiqindən, regionda investisiya layihələrin artırılmasından, turizmin normativ-hüquqi bazasının yaradılmasından keçir. Regionun turizm potensialından istifadəsinin effektivliyini qaldırmaq üçün görülən tədbirlərdən biri kimi ölkənin müəyyən

rekreasiya obyektlərinin özəl sahibkarlığın əlinə vermək yolu təklif olunur. Həmin obyektlərin sahibkarlar tərəfindən istismarı ilk öncə bu obyektlərin istifadə dərəcəsini artırmaq, həm də onların qorunub saxlanılmasını təmin etmək, üçüncüsü isə, regionda əlavə xidmətin yaranmasını təmin etmək üçün böyük rol oynaya bilər. Özəl turizm obyektlərinin yaradılması və istismarı üçün ilk addım planın təsis edilməsi, təhlükəsizliyi və gəlirliliyi təmin edən hüquqi və iqtisadi mexanizmlərin yaradılmasıdır. Həmçinin, regionlarda turizm fəaliyyətinin təşkili zamanı turizm infrastrukturu böyük önəm daşıyır: yerləşmə, qida müəssisələri, yol, informasiya məntəqələri, maarifləndirici xidmətlər və s. Bununla yanaşı regiona turist axınının təmin olunması üçün burada turistlərə maraqlı olan təbiət və mədəni obyektlərin siyahıya alınması vacib addımlardandır. Regionlarda turizmin inkişafı naminə görülən işlər və tədbirlər ölkənin iqtisadi və mədəni inkişafına əsaslı təsir göstərir.

Regionlarda turizm infrastrukturunun yüksək beynəlxalq tələblər səviyyəsində qurulmasına istiqamətlənmiş məqsədyönlü layihələrin həyata keçirilməsi, ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması və bu sahəyə investisiyaların cəlb edilməsi məqsədilə müasir informasiya və kommunikasiya texnologiyaları vasitəsilə təşviq işinin genişləndirilməsi, regionlarda turizm və rekreasiya zonalarında müvafiq infrastrukturun yaradılması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, yeni turizm marşrutlarının yaradılması, turizm sektorunda çalışan personalın peşə hazırlığı səviyyəsinin artırılması vasitəsilə regionlarda turizm xidmətlərinin keyfiyyətinin daha da yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlərin görülməsi, regionlarda müxtəlif kateqoriyalı yeni mehmanxanaların və digər yerləşdirmə vasitələrinin, turizm xidməti obyektlərinin yaradılmasının dəstəklənməsi turizm sahəsinin inkişaf istiqamətlərindəndir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı
2. Azərbaycan Respublikası regionlarının 2009-2013-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı
3. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
4. AR "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə" Dövlət Proqramı
5. Ayhan Gökdeniz. Uluslar Arası Turizm Haraketlerində Kongre Turizminin Yeri ,Fiziksel Donanımları, Boş Zaman Rekreasyon Alışkanlıkları ve Türkiyenin Yapısal Analizi // Turizmde Seçme Makaleler 24, TUGEV YAYINI,İSTANBUL,1996
6. Gordon Taylor. Tourism and sustainable community developement report, Ottova: annual conference of the Canada Chapter, Travel and Tourism Research Association, 1995
7. Dr Gazi Uçkun, Turizmde etik ,Sakarya kitabevi, 2004 : 94
8. Milne.S, Ateljevic.J Technology and service quality in the tourism and hospitality industry, New York: Hawarth Press, 2001
9. Pr.Dr. Orhan İçöz.Turizm Ekonomisi. Turhan Kitapevi, 2005;278
10. Prof.Dr. Öcal USTA. Genel Turizm, İzmir: Anadolu Matbaacılık,2001, səh. 225
11. Qurbanov F.İ. Azərbaycanda turizmin inkişaf problemləri. Bakı: Adiloğlu, 2007, 344s.
12. Зорин И.В.,Каверина Т.П,Квартальнов В.А. Туризм как вид деятельности, 2005, 288с.

Günay QAFAROVA
Azərbaycan Turizm və Menecment Universiteti,
s.ü.f.d., dosent
gunay_gafarova@mail.ru

Şəki və Qəbələdə rayonlarında bərpa və konservasiya olunmuş tarixi əhəmiyyətli abidələr

Отреставрированные и законсервированные исторические памятники в районах Шеки и Габала

The restored and preserved historical monuments in the regions of Sheki and Gabala

Xülasə: Azərbaycan təkcə öz təbii sərvətləri ilə deyil, həm də bir çox mədəniyyət abidələri ilə zəngin bir ölkədir. Abidələr tariximizin müxtəlif dövrlərinə aiddir. Ölkəmizdə turizmin inkişafı ilə mədəni irsin təbliği ölkəmizin mədəniyyət siyasətinin əsas istiqamətlərindən olmuşdur. Müstəqillik dövründə ölkənin bir çox bölgələrində həyata keçirilən islahatlar nəticəsində müasir tipli infrastruktur nümunələri bizim rayonlarda yaradılmağa başladı.Bu da turizm sənayesinə daxil olmağa imkan verdi. Bölgələrdə turizmin inkişafı ilə mədəni irsə maraq artmışdı, lakin keçid dövrünə aid olan bir sira problemlər bizib ölkədəndə yan keçməmişdi. Bunların arasında iqtisadıi böhrav və Qarabağ münagişəsi qeyd etmək olar. Lakin bu məsələdə ölkə rəhbərləri tərəfindən bir sıra təxirə salınmaz işlər həyata keçirildi. Xüsusi ilə ən əhəmiyyətli abidələrimizin bərpa və konservasiyası həyata keçirilmişdir. Bərpa işində həm yerli, həm də xarici mütəxəssislər iştirak edirdilər. Bundan əlavə, bir neçə ərazilərdə arxeoloji qazıntılar bərpa edilmişdi. Aşkar edilmiş əsərlər azərbaycan şəhərlərinin qədimliyi ilə bağlı fərziyyələrini təsdiqlədi. Yuxarıda göstərilənlərin faktlar Şəki və Qəbələ ərazilərində yerləşən abidələrin timsalında araşdırılmışdı.

Açar sözlər: Şəki, Qəbələ, Şəki xan sarayı, Şəkixanovların evi, Kiş, qala, məbəd, karvansaray, arxeoloji qazıntı, antik dövr, SEBA, Səlbir.

Резюме: Азербайджан страна богатая не только своими природными ресурсами, но и многочисленными культурными памятниками. Памятники относятся к различным преиодам нашей истории. С развитием туризма в нашей стране пропаганда и популяризация культурного наследия стала основным направлением культурной политики нашей страны. За период независимости многие регионы страны в результате проводимых реформ стали обладателями современных инфроструктур, что позволило им внедриться в сферу туризма. С развитием туризма в регионах возрос интерес к совему культурному наслдедию, который по определенным причинам в переходный исторический период пришел в упадок, но внимание со стороны руководителей страны к данной проблеме были проведены ряд неотложных работ. В частности, реставрации и консервации были подвергнуты самые значительные наши памятники. В реставрации участвовали как местные специалисты, так и зарубежные. Помимо этого были восстановлены археологические раскопки в ряде районах, которые увенчались успехом. Обнаруженные артефакты подтвердили предположения историков относительно древности ряда наших городов. Все выше сказанное в полной мере расматривается на примере памятников расположенных на территории районов Шеки и Габала.

Ключевые слова: Шеки, Габала, Дворец Шекинских ханов, дом Шекихановых, Киш, крепость, храм, каравансарай, археологические раскопки, античный период, SEBA, Салбир.

Abstract: Azerbaijan is a country rich not only in its natural resources, but also in many cultural monuments. Monuments belong to various periods of our history. With the development of tourism in our country, the promotion and popularization of cultural heritage has become the main direction of the cultural policy of our country. Over the period of independence, many regions of the country as a result of ongoing reforms have become owners of modern infrastructure, which allowed them to infiltrate the tourism industry. With the development of tourism in the regions, interest in the cultural heritage has grown, which for some reason fell into decay, but a number of urgent work was carried out by the country's leaders on this issue. In particular, our most significant monuments have undergone restoration and conservation. Both local and foreign experts participated in the restoration. In addition, archaeological excavations in several areas that were crowned with success were restored. Discovered artifacts confirmed the assumptions of historians

regarding the antiquity of a number of our cities. All of the above is fully considered on the example of monuments located in the areas of Sheki and Gabala.

Keywords: Sheki, Gabala, the Palace of the Sheki khans, the Shekihanov's house, Kish, a fortress, a temple, a caravanserai, archaeological excavations, the ancient period, SEBA, Salbir.

Azərbaycan qədim və zəngin tarixə malik bir ölkədir, burada zəngi maddi və mənəvi mədəniyyət nümunələrinə rast gəlmək olar. Bu ilin mayında Şəki və onun tarixi hissəsi Dünya mədəni irs siyahısına daxil edilib. Öz sənətkarlığı, folkloru, tarixi və mədəni abidələri ilə məşhur olan bu şəhər xarici və yerli turistlər arasında çox populyardır. XVIII əsrdə daxil olmaqla şəhərin adı mənbələrdə və rəsmi sənədlərdə Şəki idi. Rusiyaya birləşdikdən sonra da xanlığın ərazisi inzibati vahid olmaq etibarı ilə rəsmən Şəki əyaləti adlanırdı. Yalnız 1846-cı il inzibati islahatı ilə bütün əyalətə Nuxa qəzası, qəzanın mərkəzinə isə Nuxa adı verilmişdir. Lakin bu o demək deyildir ki, Nuxa adının mənşəyi yalnız XIX əsrlə bağlıdır. Nuxa hələ X əsrdə məlumdur. [5,səh.25].

XIX əsrdə Şəki sənət və ticarətin geniş yayıldığı bir mərkəzə çevrildi. Baramaçılıq Şəkidə əsas yerlərdən birini tuturdu. Təkulduz-naxıştikmə sənəti yalnız Şəkidə inkişaf etmişdi və hətta Sovet dövründə geniş yayılan sənət növlərindən olmuşdu. Azərbaycanın bütün iri muzeylərində bu tikmə növünün nümunələri saxlanılır. Hal-hazırda bu sənət növünün qorunub saxlanılmasında dövlət tərəfindən lazımlı işlər görülür. Şəki şəhərində dərnəklərdə həmin sənət növü tədris olunur.

1920-ci il may ayının 5-də Şəkidə sovet hakimiyyəti quruldu. 1930-cu ildə Azərbaycan SSR-nin inzibati ərazi bölgüsündə dəyişiklik edildi və Nuxa rayonu təşkil edildi. 1963-cü il yanvar ayının 4-də Nuxa rayonu ləğv edilərək ərazisi Vartaşen rayonuna verildi, respublika tabeçiliyində Nuxa şəhəri yaradıldı. 1965-ci ildən yenidən müstəqil Nuxa rayonu təşkil edildi. 1968-ci ildən ərazi Şəki şəhəri adlanmağa başladı. [5,səh.25]

Şəki Azərbaycanın ən qədim şəhərlərindən biri olduğu üçün onun hər bir küçəsində, kəndində tarixin izinə rast gəlmək mümkündür. Şəhərin panoraması öz yaşılığı və qırmızı kərpiclə örtülmüş evləri ilə diqqəti cəlb edir. Təbii landşaftı nəzərə alaraq terras şəkilində tikilən evlər bədii tərtibatı ilə seçilir. Sanki bir Amfiteatra bənzəyən bu şəhər dağlar, palıd ağaclı meşələrlə əhatə olunub. Şəki məhsuldar yaylaqlar və düzənliklərin qoynunda yerləşir. Şəhər öz tarixi abidələrini və şəhərin tərtibatını yaxşı vəziyyətdə qoruyub saxlaya bilib. [5,səh.15].

Şəki küçələri yaşıl dağlar qoynunda yerləşməklə yanaşı, tarixin müxtəlif dövrlərində buradan axan çaylar vasitəsilə də yuyulmuşdur. Bu küçələr başdan-başa daşla döşənib. Bu Şəki küçələrinin əsas spesifikasıdır. Məsələ burasındadır ki, Şəkiyə tez-tez yağış yağır. Odur ki, yollar tez yuyulub, sıradan çıxmasın deyə, şəkililər şəhəri başdan-başa erroziyaya davamlı çay daşları ilə döşəyiblər. Bu, şəhərə həm yaraşıq verir, həm də daş döşəməli küçələrdən keçərkən, havaya toz qalxmır.

Binaların fasadı və interyeri ağac oyması və şəbəkə ilə bəzədilib. Binaların tikintisində geniş istifadə olunan materialardan biridə çay daşıdır. Evlər əksər hallarda bir və yaxud iki mərtəbəli olurdu, tikilinin ətrafında bağ baxçanın olması mütləq idi. Şəki küçələri özü bir tarixdir. Burada olan tikililər və emalatxanalar burada yaşamış şəxslər və sənətkərlar haqqında "məlumat " qoruyub saxlayır.

İnşaatın, dekorativ-tətbiqi incəsənətin yüksək inkişaf tapdığı, nəsildən-nəslə keçən xalq ənənələrinin dərin kök saldığı bir şəhərdə milli memarlıq tarixində silinməz iz buraxan binalar yaranmaya bilməzdi. Bu xüsusilə yaşayış binalarının arxitekturasında, onların zahiri dekorativ görkəmində, daxili tərtibatında aydın surətdə öz ifadəsini tapmışdır. İnteryerdə, divarlarda, tavanda, taxça və qapılarda şəbəkələrlə yanaşı, rəsmlərdən, naxışlardan geniş istifadə olunmuşdur. Bütün bu əlvan rənglər, ahəngi və gözəlliyi ilə bunlardan geri qalmayan məişət elementləri: xalılar, qab-qacaq, silah və s. qədim Şəkinin evlərində zəngin interyer aləmi yaradırdı. Şəki evlərini xarakterizə edən digər əsas amillərdən biri də, bu gün də Şəki evlərində istifadə edilən buxarılardır. Buxarılara bəzi evlərdə çox sadə formada, bəzilərində isə boyalarda bəzədilmiş formada rast gəlmək mümkündür. Sənətlərin əsil sintezi son dərəcə dolğun və inandırıcı bir şəkildə Şəki mənzillərində öz ifadəsini tapmışdır. Hər bir ev öz bağı ilə əhatə olunub. Bir-birindən çəpər və ya hasarla ayrılan evlərin damı kirəmitdən hazırlanmış qırmızı daş örtükləri ilə örtülüb. Bu, estetik gözəlliklə yanaşı, evlərin içini yay aylarında sərin, qış aylarında isə isti saxlamağa kömək edir. Şəki evlərində diqqəti çəkən başqa bir maraqlı cəhət taxta darvazalardır. Ağır taxta darvazaları hər dəfə açıb bağlamamaq üçün, ortasından kiçik qapı da kəsilib. Hər bir darvazanın üstündən "dəggilbab" adlanan qapı zəngləri asılıb. Darvazaların

üstündə, bir qayda olaraq, 2 döggilbab görəcəksiniz. Yuxarıda böyük və nisbətən aşağıda kiçik döggilbab müvafiq olaraq, böyüklər və kiçiklər üçün nəzərdə tutulub. Son illər dəbdə olan dəmir darvazaların sayı sürətlə artmağa başlayıb. Şəkililərin bununla da bağlı zarafatı var: "Dəmir qapının da bir gün taxta qapıya işi düşər"[8, səh.25]. Müsbət haldır ki, yaşayış evlərinin bərpasına da xüsusi diqqət yetirilib.

Sənətkarlıq məhlələrində qədim sənət nümunələri yenidən canlanır və şəhərin qonaqlarını öz gözəlliyi ilə heyran edir. Şəkidə aparılan bərpa – rekonstruksiya və abadlaşdırılma işləri onun Dünya mədəni irs siyahısına daxil olmasını təmin etdi və bu şəhərin iqtisadi cəhətdən inkişafına böyük təkən verəcək. Halbuki bu təsiri biz indidə müşahidə edə bilərik, bu şəhərə turist axını daima artmaqdadır. Vurğulamaq lazımdır ki, hələ SSSR–i dövründə Şəki sovet turizm xaritəsində mühüm yerlərdən birini tuturdu və turistlər içində maraqla səyahət edilən şəhərlərdən idi.

Son illər orada aparılan işlər, bu şəhərin abidələrinin araşdırılmasının və öyrənilməsinin vacibliyini təsdiqləyir. Tanınmış abidələrlə yanaşı yeni abidələrin üzə çıxarılması və təbliği, bərpa və konservasiya olunması son illərin böyük nailliyətlərindəndir.

Şəki şəhəri sənətkarları ilə yanaşı yuxarıda qeyd etdiyimiz kimi, xalq memarlıq nümunələri ilə də məşhurdur. Belə tikililər arasında saraylar, mülklər, evlər, karvansaraylar, məscidlər, karvansaraylar və s. adını çəkmək olar. Onların bizim dövrə qədər gəlib çatmış nümunələri kifayət qədərdi və son illərdə aparılan bərpa–rekonstruksiya və bərpa-konservasiya işləri bu abidələrin ömrünü bir qədər də uzatmışdı. Qeyd etmək lazımdır ki, Şəki də olan tarixi memarlıq abidələrinin bir qismi XX əsrdə bərpa olunmuşdu, lakin ekoloji və bioloji təsirlər, bəzi hallarda insan faktoru tarixi memarlıq abidələrinin yenidən bərpa olunması faktorunu üzə çıxarmışdı. Lakin Şəki şəhərinin abadlaşdırılması və yenidən qurulması prossesi əvvəllər aparılmamışdı.

Şəki şəhərinin Dünyanın Tarixi Şəhərləri Liqasına üzv olması barədə 2008-ci il dekabrın 8-də təşkilatın prezidenti, Yaponiyanın Kyoto şəhər bələdiyyəsinin sədri Daisaku Kodokavadan gəlmiş təbrik məktubunda bildirilir ki, Dünyanın Tarixi Şəhərləri Liqasının İdarə Heyətinin 2008-ci ilin oktyabrında keçirilmiş iclasında Şəki təşkilata üzv qəbul edilmişdir. 2012-ci ildə abadlıq, quruculuq və tikinti sahəsində görüləcək işlər müəyyənləşmişdir: Şəki Şəhər İcra Hakimiyyəti və Arxitektura Şəhərsalma Komitəsi ilə birlikdə Şəki şəhərinin Baş Planı hazırlanmışdır. Baş Plana əsasən bir sıra infrastruktur layihələrin həyata keçirilməsi, həmçinin, şəhərin qərbə doğru genişlənməsi, Oxud, İnçə, Kiş, Qoxmuq kəndlərinin də şəhər ərazisinə daxil olması nəzərdə tutulmuşdur.

Müsbət haldır ki, Şəkinin bir çox köhnə məhəllə adları bu günədək qorunub saxlanıb. "Gəncəli", "Dırrax", "Mənkərə", "Qumbaralar", "Dodu" məşhur məhəllələrdən bəziləridir. Hərəsi nə iləsə məşhurdur. "Dodu" pitisiylə tanınır. Dulusçuluğun inkişaf etdiyi məhəllədir. "Gəncəli" xanlıq vaxtı buraya köçürülən gəncəlilərin sıx yaşadığı məhəllə olub. "Qumbaralar" isə, deyilənə görə, məhəllədə mübahisə vaxtı partladılan qumbaraların şərəfinə bu ismi alıb (8).

Müsbət haldır ki, müstəqillik dövründə bərpa işlərində yerli mütəxəssislərlə yanaşı xarici bərpaçılarda iştirak etmişlər. Bərpa olunmuş abidənin bir neçəsinin təhlili aşağıda veriləcək. Bildiyimiz kimi Şəki müxtəlif vaxtlarda bir neçə dövlətin tabeçiliyində olmuşdur. Bu tabeçilik Şəki abidələrinin quruluşuna, arxitekturasına da öz təsirini göstərmişdir. Yadellilərin hücumlarından qorunmaq üçün bir çox qalalar və istehkamlar inşa etmişdilər. Kiş kəndindəki Gələrsən-Görərsən qalası da məhz bu cür tikililərdəndir.

Kişlilər bu qalaya Qız, gah da Qızlar qalası deyirlər. Qız "alınmazlıq" və "məğlubedilməzlik" anlamını ifadə edir. Bu qala barəsində məlumat verən yeganə mənbələr Kərim ağa Fatehin və Hacı Seyid Əbdülhəmid Əfəndinin əsərləridir. Həmin mənbələrdə bu qala "Qızlar" adı ilə deyil, "Gələrsən-Görərsən" adı ilə xatırlanır. Hadisələri diqqətlə izlədikdə "Gələrsən-Görərsən" adının Qızlar qalasına sonradan, daha doğrusu, 1743-cü il hadisələri ilə əlaqədar olaraq verildiyi anlaşılır. Şah Təhmasibin 1551-ci ildəki məlum hücumundan qorunmaq üçün şəkililərin həm Kişin özündə yerləşən Kiş qalasında, həm də Qızlar qalasında müdafiə olunduqlarını hər iki mənbə aydın şəkildə təsdiq etməkdədir. [1]

Qala ilə Kiş kəndi arasındakı ərazi Qala düzü də adlanır. Hazırda qala dağılmış vəziyyətdədir və konservasiya olunub. Qalanın müxtəlif hissələri dağılmış vəziyyətdə, bir-birinə yaxın ərazilərdə yerləşir. İndi qalaya ekskursiyalar təşkil olunur və turistlərə açıq şəkildə bura daxil olmağa icazə verilir. [9]

Digər bir Şəki qalası isə XVIII əsrə aid edilir. Şəki şəhəri 1969-cu ilə qədər "Nuxa" adlandığına görə bu qala da "Nuxa qalası" adlanırdı. Azərbaycan Respublikası ərazisindəki salamat qalmış ən böyük Orta Əsr istehkamıdır. Qalada hal-hazırda mövcud olan və "Dairəvi məbəd" adlanan tikili isə Şəki qəzası ərazisində yeganə pravoslav kilsəsi idi. Bu kilsənin arxasındakı torpaq sahəsində isə Nuxada vəfat etmiş rus məmurları dəfn olunurdu. Nuxa qalasının adı Lev Tolstoyun məşhur "Hacı Murad" əsərində də çəkilir. 2014-cü ilin əvvələrindən qaladakı müxtəlif təyinatlar üzrə istifadə edilən tikililərin əksəriyyəti boşaldılmışdır. Məqsəd həmin tikililərin təmir-bərpasıdır. Bu kimi abidələrin bərpa edilməsi Azərbaycan mədəniyyətinin tarixini qorumaq baxımından mühüm əhəmiyyət kəsb edir.

Şəkidə tarixi-memarlıq abidələri ilə yanaşı bir çox dini abidələrdə mövcuddur. Bir çox məhəllə məscidlərindən Şəkidə toxunulmamış qalmışdır. Lakin müəyyən hissəsi Sovet dövründə dağılmışdır və yaxud ictimayi təyinatlı binalar kimi istifadə edilirdi. Misal kimi, Quryanaçay uçurumunun kənarında yerləşən Gileyli məscidi qeyd etmək olar. Məsciddən ancaq minarə qalmışdır, hal-hazırda minarə bərpa edilmişdir. Şəkixanovlar evinin yaxınlığında yerləşən Cümə məscidi (Xan məscidi 1745-1750) xüsusi maraq doğurur. Məscidin yaxınlığında daş divar şəklində sal qəbir daşları olan qəbirstanlıq var. Qəbirüstü daşların səthində oyma daş üzrə naxışlar böyük ustalıqla işlənmişdir. [9]

Şəkinin kəndlərində Qafqaz Albaniyasının bir neçə xristian memarlıq abidələri yerləşir. Şəkinin qədim dövrünə aid edilən məşhur abidələrdən biri də Kiş kəndində yerləşən Kiş məbədidir. Kiş kilsəsi – Şəki rayonunun Kiş kəndi ərazisində yerləşir. Bəzi müəlliflərə görə Qafqazın ilk kilsəsidir. Müxtəlif dövrlərdə alban və gürcü kilsəsi kimi fəaliyyət göstərməsi haqqında bəzi fikirlər var. "Alban ölkəsinin tarixi"nə görə İsanın din qardaşı müqəddəs Yakov tərəfindən xristianlığı təbliğ etmək üçün Albaniyaya göndərilmiş Müqəddəs Yelisey əvvəlcə bir müddət Çola və Uti vilayətində missionerlik etmiş, sonra isə "Giş" adlı kəndə gedərək orada kilsə tikmişdir. Müasir xristian ilahiyyətçiləri bu hadisənin b.e.nın 60-cı ilindən az sonraya təsadüf etdiyinə inanmaqdadırlar. Nəinki Qafqaz Albaniyasının, hətta bütün Cənubi Qafqazın bu ilk xristian kilsəsinin tikildiyi yer, bir çox tədqiqatçıların fikrincə, məhz indiki Şəki rayonunun Kiş kəndidir və həmin səbəbdən də indi Şəkinin Kiş kəndindəki kilsə "Müqəddəs Yelisey kilsəsi"adı ilə tanınmaqdadır. R.Əfəndiyevin məlumatına görə də 20-ci əsrin əvvəllərində Kiş kəndində 1 nəfərdə olsun xristian yox imiş, amma o qeyd edir ki, şəhərdə, yəni Nuxa şəhərində məskən salmış Zuğ ermənіləri kilsəni mənimsəmişlər və divarının üzünə suvaq vurub üstünə dəmir çəkmişlər. Rəşidbəy həmçinin, bu kilsənin "həvarilər zamanından qalma" olduğunu vurğulamaqla yanaşı, həm də qeyd etmişdir ki abidənin ətrafında qazıntılar aparılarsa gözəl nəticələr verməyi şübhəsizdir [7,səh.23].

2000-2001-ci illərdə Kiş apostol kilsəsinin ərazisində arxeoloji qazıntılar aparılmışdır. Bu qazıntılar məhdud ərazidə aparılmasına baxmayaraq, Kiş məbədinin fəaliyyəti dövrünün bütün mərhələlərini izləməyə imkan vermişdir. Arxeoloji tədqiqatın nəticəsində aydın olmuşdur ki, Kiş məbədi sadə təkzallı bazilikadan günbəzli memarlığadək 5 tikinti mərhələsi keçmişdir. Məbədin ən aşağı qatlarının arxeoloji tədqiqi mübahisələrə səbəb olan onun ilkin tikinti tarixinin təyin etməyə imkan yaratmışdır. Abidə dövrümüzə yeniləşdirilmiş görkəmində gəlib çatmışdır [6].

Kişdə arxeoloji tədqiqatlardan sonra belə qərara gəlinmişdir ki, Şəki bölgəsinin Kiş kəndi ərazisində yerləşən məbəd həqiqətən də Müqəddəs Yelisey tərəfindən tikilmiş, şərq kilsələrinin anası və mitropoliya olmuş, Kişdə hələ xristianlıqdan da öncə Qafqaz Albaniyasında xüsusilə rəğbət bəslənilən Selena ilahəsinə həsr olunmuş məbəd mövcud olmuş və burada Gis–Kürmük arxiyepiskopluğu, sonra isə Yelisey, Çuketi və Şəki yekiskoplarının mərkəzi yerləşmişdir.

Bizim dövrümüzə qədər kilsəni salamat saxlamış tarixi Azərbaycan torpağının qədim və zəngin mədəniyyəti haqqında müasir nəsillərə maddi dəlillər vermişdir. Kişdəki məbəd nəinki Qafqaz Albaniyasında, eləcə də bütün Qafqazda təqribən iki min il bundan əvvəl xristianlığın başlandığını simvollaşdıran görkəmli tarixi abidədir[7].

Şəki şəhərinin qədimliyini, burada tarix-memarlıq abidələrinin çoxluğunu və bunun dünya mədəni irsində xüsusi yeri olduğunu nəzərə alaraq Respublika Nazirlər soveti 24 noyabr 1967-cı il tarixli qərarla şəhərin "Yuxarıbaş" hissəsini tarix–memarlıq Qoruğu elan etmişdir. Memarlıq qoruğu və Şəki Xan sarayı dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri siyahısına daxil edilmişdir. Ulu babalarımızın bizə yadigar qoyduqları Xan sarayı, Şəki xanlarının evi, dairəvi məbəd, qala divarları

qoruğun memarlıq incilərindən hesab olunur. Möminlərin ibadət yeri olan Cümə məscidi, Ömər Əfəndi məscidi, Xan məscidindən başqa məhəllə məscidləri də qoruq ərazisində yerləşir.

"Yuxarıbaş"ı iki hissəyə bölən Qurcana çayı üzərində xüsusi memarlıq üslubu ilə tikilmiş tağlı körpülər bu ərazini birləşdirir. Orta əsr memarlığının yadigarı olan Ağvanlar, Dərə və Yeraltı hamamlar da bu ərazidə yerləşir. Xalqımızın milli sərvəti və iftixarı olan diyarşünaslıq, tətbiqi sənət, M.F.Axundovun, R.Əfəndiyevin, S.Rəhmanın ev muzeylərinin və Dövlət Rəsm qalareyasını da qoruq öz qoynuna almışdır. Xalqımızın and yeri olan Şəhidlər Xiyabanı və 1941-1945-ci il ikinci Dünya Müharibəsi illərində həlak olan şəkililərin xatirəsinə ucaldılmış abidələri ziyarət etmək istəyənlər qoruq ərazisinə gəlirlər.

Şəkinin 2012-ci il üçün türk dünyasının qeyri-maddi mədəni irs paytaxtı elan edilməsi heç də təsadüfi deyildir. Qədim tarixə malik olan bu şəhər, eyni zamanda, sənətin və sənətkarlığın yüksək səviyyədə inkişaf etdiyi ərazilərdən biri olub. El sənətkarlarının fədakar əməyi sayəsində bu qədim şəhərdə çox zəngin tarixi-mədəni irs yaranıb. Burada memarlıq, tətbiqi sənət, ağac və sümük üzərində oyma, dulusçuluq, misgərlik, şəbəkə, zərgərlik və digər sənət növləri yüksək səviyyədə inkişaf edib.

Şirazlı memar Hacı Zeynalabdin tərəfindən tikilmiş Şəki xanlarının sarayı Şəkinin tanınmış abidələrindən biridi. Qədim sənət növlərini yaşadan Şəki ustaları daim yenilik axtarışındadırlar. Həmin sənət növləri arasında şəbəkə xüsusilə qiymətlidir. Bütün azərbaycanlıların və şəkililərin fəxr etdiyi Şəki Xan Sarayı 1762-ci ildə tikilmiş və onun inşasında bir dənə də mismardan istifadə olunmamışdır. "Sarayının pəncərələrindəki zərif şəbəkə bu sənətin ən gözəl nümunəsidir. Sarayda oynaq, əlvan çalarlara malik gözəl şəbəkə kompozisiyaları iki əsr öncə olan görünüşünü saxlamaqla bu gün də öz parlaqlığı ilə buraya gələn çoxsaylı turistlərin marağına səbəb olur. Şəbəkənin özəlliyi ondan ibarətdir ki, fiqurlarda yapışqan və mismardan istifadə olunmur. Taxtadan hazırlanan və rəngli şüşə ilə bəzədilən bu cür çərçivələr qapı və pəncərə yerinə istifadə edilir. Son vaxtlar Azərbaycanda nəinki abidələrin bərpasında, hətta yeni tikililərdə də şəbəkədən çox istifadə olunur. Hətta Şəkidə Şəbəkə muzeyidə təşkil edilmişdi.

Sarayın divarları bu günə qədər öz təravətini saxlayan rəsmlərlə bəzədilmişdir.

Sülh uğrunda alovlu mübariz, zamanəmizin görkəmli şairi Nazim Hikmətin sözləri ilə desək "Əgər Azərbaycanın başqa qədim tikililəri olmasaydı, bircə Şəki xan sarayını dünyaya göstərmək bəs edərdi" [8, səh.26]

Sarayda xalq təsviri incəsənətinin bir çox növləri xüsusən XVIII-XIX əsrlərin maraqlı divar rəssamlığı nümunələri ümumiləşmişdir. Saray qalanın-xan iqamətgahının içərisində yerləşirdi və tikinti kompleksinə daxil idi. Bu kompleksdən indi saraydan başqa kompleksə giriş, bir hovuz, fasadın qarşısında isə bir neçə çinar ağacı və meyvə ağacları olan bağ qalmışdır. Qeyd etmək lazımdır ki, saray qala içərisində olmasına baxmayaraq, köhnə Şərq şəhərləri üçün xarakterik olan əlavə divarlarla əhatə olunmuşdur. 1853-cü ildə tərtib olunmuş plana əsasən iqamətgahda xanın ailəsi və nökərləri üçün müxtəlif təyinatlı çoxlu miqdarda tikintilər yerləşirdi və onlarda hal hazırda bərpa olunub. Bizə qədər gəlib çatan Şəki xan sarayının memarlıq ansamblının ümumi təsvirini müqayisə etdikdə, bir çox tikintilərin keçmiş təyinatlarını aydınlaşdıra bilirik. [9, səh.183].

Şəki xanları sarayının ön fasadı cənuba baxan ikimərtəbəli binadan ibarətdir. Mərtəbələrin plani eynidir. Bir cərgədə yerləşən üç ev bir-birindən dəhlizlə ayrılır-bununla da saray planı öz sadəliyi və aydınlığı ilə fərqlənir. Sarayın baş otaqları birinci və ikinci mərtəbədə yerləşən zallar olmuşdur ki, burada da iki ensiz taxça arxa divarda və bir enli taxça ön divarda yerləşirdi. Enli taxça və birinci mərtəbənin zalı güman ki, rəsmi qəbul yeri olmuşdur. Mərtəbələr arasında daxili əlaqə olmamışdır. İkinci mərtəbəyə yan fasadlara girişləri olan, yan otaqların arxasında yerləşən pillələrlə qalxırdılar. İlk nəzərdə belə yöndəmsiz görünən pilləkənlər tikilinin yay sarayı olması ilə aydınlaşdırılır.

Saxlanılan sənədlərə görə, aşağı mərtəbənin zalı divanxana adlanırmış. Sarayın rəsmi hissəsinin başqa hissələrdən təcrid edilməsi Ümumiyyətlə, fasadın memarlığı sarayın daxili planlaşdırılmasında və onun konstruktiv həllində yüksək rəssamlıq sənətini nümayiş etdirir. Sarayın interyerindəki naxışlar daha çox maraq doğurur və bir çox tədqiqatçıların nəzərini cəlb edir. Naxışlar hər iki mərtəbənin iki qıraq otaqlarındadır. Həm birinci və həm də ikinci mərtəbədəki zalların naxışları daha qiymətlidir. Naxışlar divarların bütün səthini, taxçaları, divardan plafona olan keçidi, hər iki

mərtəbədəki zalların plafonlarını və ikinci mərtəbənin otaqlarını bəzəyir. Birinci mərtəbədəki zalın plafonu həndəsi fiqurlar şəklində olan xırda ağac hissələrdən yığılmışdır. Sarayda saxlanılan naxışlar müxtəlif vaxtlarda işlənmiş və onların qiyməti də müxtəlifdir. Rəssamlıq nöqteyi-nəzərindən daha qiymətli naxışların müəyyən qədəri, ola bilsin ki, XVIII əsrə aid olanı birinci mərtəbənin və ikinci mərtəbənin salonunda qalmışdır [8, səh.114].

Saray naxışları əsasən dörd qrupa bölünür: həndəsi və bitki naxışlar, sujetli və quşların təsviri həkk olunmuş naxışlar. Bu dörd tipli naxışlar, onların vurulduğu səthdən asılı olaraq, müxtəlif kompozisiyalarda göstərilmişdir. Şəki xanları sarayının əsas kompozisiyası taxça və aralıqları dolduran pannodur. Bu, əsas etibarı ilə bitki motivlərindən ibarət olan, hərdən quş şəkilləri əlavə olunmuş kompozisiyadır. Ümumiyyətlə, Şəki xanları sarayının naxışları koloritinin zənginliyi, qızılı rəngin geniş tətbiqi ilə xarakterizə edilir. Rənglərin seçilməsi yerli tonların tətbiqinə əsaslanır. O dövrün bütün divar naxışları kimi, bunlar da tempera ilə gips üzərinə işlənmişdir. Sarayın salonlarında olan incə daxili qapılar və buxarılar diqqəti cəlb edir. Şəki xanları sarayına müxtəlif vaxtlarda naxış vurmuş rəssamlardan beşinin adı bizə məlumdur. Çox güman ki, ən əvvəl ikinci mərtəbədəki zalın plafonuna vurulan naxışlar **ustad Abbasqulunun** adı ilə bağlıdır. Bu yazı özünün ornamentli kompozisiyası ilə düzgün və güzgüdəki əksində ustanın adının iki dəfə təkrar olunması ilə diqqətəlayiqdir. Ola bilsin ki, bu usta sarayı tikən memar olmuşdur. Birinci mərtəbədə salonun naxışlarının xeyli hissəsi 1895-1896-cı illərdə **şamaxılı rəssam-nəqqaş Mirzə Cəfər** tərəfindən işlənmişdir. İkinci mərtəbədəki zalın zəmanəmizə qədər gəlib çatan naxışlarının çoxunu **şuşalı rəssam, usta Qəmbər** vurmuşdur. Onun adı ilə bağlı olan 1902-ci il tarixli naxış ikinci mərtəbədəki zalın taxçasının yuxarı hissəsində qalmışdır. Bundan başqa, Şəki sarayında ikinci mərtəbənin qıraq otaqlarının naxışlarında adlarını qoyduqları **şamaxılı Əliqulu və Qurbanəli** adlı ustalar işləmişlər. Şəki xanları sarayı Azərbaycanda tikinti işinin aşağı səviyyədə olduğu dövrdə tikilmişdir, ancaq Şəki xanları sarayı bir daha göstərir ki, keçmişin ənənələrini qoruyub saxlayan ustalar hələ bu dövrdə də yüksək sənətkarlıq nümunəsi yaratmağa qadir idilər. [8, səh.54-56]

1952-ci ildə respublikanın görkəmli memarlarından, memarlıq namizədi Niyazi Rzayevin rəhbərliyi altında Şəki xanları sarayının ilk dəfə ölçüləri götürülmüş, tədqiq olunmuş və onun bərpa layihəsi tərtib edilmişdir. Bu bərpa işləri 1967-ci ildə başa çatdırıldı və abidə əvvəlki görkəmini aldı. Saray tikildiyi dövürdən indiyə kimi 6 dəfə təmir restavrasiya edilmişdir. Təmir və bərpa zamanı sarayın 90 faiz orijinallığı günümüzə qədər qorunub saxlanmış, 10 faiz hissəsi restavrasiya olunmuşdur **[8,səh.56].**

Dövlətimimzın böyük səyi nəticəsində bu tarixi abidəyə 24 oktyabr 2001-ci ildə mədəni irs nümunəsi kimi "gücləndirilmiş mühafizə" statusu verilmiş və UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin siyahısına daxil edilmişdi. 2002-ci ildə yenidən bərpa olunub.

2019-cu ilin iyulun 7-də isə Bakı Konqres Mərkəzində keçirilən UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının növbəti iclasında Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiyası UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Azərbaycanın XVIII əsr və XIX əsrin əvvəllərinə aid olan digər gözəl, lakin az tanınan memarlıq abidəsindən biri də **Şəkixanovların evidir.**

Abidənin tikinti tarixi barədə dəqiq məlumat yoxdur. Bəzi mənbələrdə tikilinin Şəki xanlarının qış imarəti olduğu yazılır. 1819-cu ildə rus ordusunun işğalı zamanı yazılan təsnifatda saray Məhəmməd-Həsən xanın evi kimi qeydə alınmışdır. Buna görə də "Şəkixanovların evinin" həmin dövrdə, yəni XVIII əsrin sonlarında inşa edildiyi ehtimal olunur. Bina Qacar dövrünün memarlıq üslubunda tikilmişdir. "Şəkixanovların evi" xalq yaşayış evindən saray tipli evlərə keçidi tərənnüm edən memarlıq nümunəsidir. Düzbucaqlı formada olan ikimərtəbəli bina Şəki xalq yaşayış evlərinin əlamətlərini özündə ehtiva etsə də, interyerindəki zəngin dekorativ elementlər binanın saray tipli tikintilərə aid olduğunu göstərir. "Şəkixanovların evi"ndə mətbəx, tövlə və s. köməkçi otaqların olduğu, lakin Şəki xanlığının Çar Rusiyası tərəfindən işğalından sonra söküldüyü üçün bizim dövrədək qorunub saxlanılmadığı güman edilir. 1967-ci ildə abidə dövlət tərəfindən Şəki xanlarının nəslindən olan və orada yaşayan ailədən muzey yaratmaq məqsədilə satın alınmış, lakin müxtəlif səbəblərdən muzey yaradılmamışdır və 1991-ci ildə tikili yenidən qanunsuz olaraq tarixi abidələr reyestrində ola ola şəxsi mülkiyyətçiyə satılmışdır. Evdə yaşayış olmadığından təbii amillərin təsiri altında abidə tədricən qəza vəziyyətinə düşmüşdür. 2007-ci ildə "Şəkixanovların evi" yenidən dövlət mülkiyyəti-

nə keçirilmiş və binada bərpa məqsədilə elmi tədqiqat işlərinə başlanılmışdır. 2007-ci ildə binada ölçü işləri aparılsa da, istehsalat işləri görülməmişdir. 2012-ci ildə yeni bərpa-möhkəmləndirmə layihəsi işlənib hazırlanmış və abidə 2012-2013- cü illərdə bərpa olunmuşdur.

"Şəkixanovların evi" ümumi şəhər tikililərinin arasında yerləşir. Evin həyətinə giriş əvvəllər binanın cənub-qərb tərəfində mövcud olan darvazadan idi. Hazırda binanın girişi əsas fasadın qarşısında, həyətin aşağı hissəsindədir. İkimərtəbəli evin eyni plana malik hər iki mərtəbəsi üç otaq və iki dəhlizdən ibarətdir. Binanın birinci mərtəbəsinin döşəməsi bişmiş kərpicdəndir, ikinci mərtəbənin döşəməsi isə mürəkkəb konstruksiyalıdır: şabalıd ağacından düzəldilmiş enli tirlərin üstünə taxta lövhələr düzülmüş və 200 mm qalınlığında gil qatı tökülmüşdür. Binanın muzey kimi istifadə olunacağı nəzərə alınaraq, gil qatı taxta döşəmə ilə əvəz olunmuşdur. Binada iki əsas zala açılan qapılar rəsmlərlə bəzədilmiş, ikinci mərtəbənin otaqlarında 5, dəhlizlərində isə 3 şamlı çilçıraq asılmış, birinci mərtəbədə otaqların hündürlüyü az olduğu üçün uzunsov divarüstü lampalardan istifadə olunmuşdur [9,səh.88].

İkinci mərtəbənin planı birinci mərtəbənin planını təkrarlasa da, otaqlar hündürlüklərinə və bəzəklərinə görə fərqlənirlər. Xüsusilə işlənmiş mərkəzi zalın bəzəkləri "Şəki Xan Sarayı"nın divar rəsmlərini xatırladır. Bəzi mənbələrdə divar portretləri Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan poemalarının obrazlarını əks etdirir.

Abidə həm quruluş həlli, həm də detallarına görə Azərbaycanın XVIII-XIX əsrlərinə aid yaşayış memarlığının ən zəngin nümunələrindəndir. Təkrarolunmaz divar rəsmləri, şəbəkələri, buxaraları binada işləyən memar və ustaların istedadından və bacarığından xəbər verir.

Kiş çayının 1772-ci ildə daşmasıyla qədim şəhər olan Şəki bütövlüklə dağılmış, şəhər əhalisinin bir qismi tələfata uğramış, bir hissəsi başqa yerlərə köçüb getmiş, bir hissəsi isə indiki şəhərin yerləşdiyi ərazidə məskən salmışdı. Şəhərdə daxili ticarətin inkişafını göstərmək üçün təkcə onu qeyd etmək lazımdır ki, Şəkidə yüzlərlə dükan var idi. Şəkidə 5 karvansaray mövcud idi.

Şəki əsasən, sənətkarlıq və ticarət şəhəri olduğundan burada çoxlu bazar və karvansaralar tikilmişdir. Ticarət-bazar kompleksi qaladan Qurcanaçay boyu gedən küçədə göstərilirdi. Bu küçə şəhər mərkəzinin davamı olmaqla, şəhər strukturunun əsas elementi idi. Orta əsrlərdə karvansaralar şəhər quruluşunda əsas yer tuturdu. Azərbaycanın böyük şəhərlərində külli miqdarda karvansaralar vardı. Bir məqamı da qeyd etmək lazımdır ki, tarixin müxtəlif dövrlərində karvansaralar öz əsas əlamətlərini həmişə saxlamışdır. XVIII-XIX əsrlərdə Şəkidə müxtəlif adlı 5 əsas karvansara vardır. Qurcanaçayın sağ sahili boyunun əsas özünəməxsus işgüzar mərkəzi Yuxarı və Aşağı karvansaralar sayılırdı. Bunlardan Bizim zamanlara qədər bu karvansaraylar gəlib çatmışdı. Ticarət üçün müxtəlif şəhər və ölkələrdən gələn tacirlər bu karvansaralarda yerləşirdilər.

Yuxarı Karvansara Şəki memarlığı üçün səciyəvi olan kərpic və çay daşının birlikdə işlədilməsi xüsusi kalorit verir. Tikili relyefə uyğun olaraq küçəyə baxan hissədə 14 metr, içəri üzdən isə 8 metr hündürlükdə inşa edilmişdir. 300-dən artıq otaq və zirzəmidən ibarət olan karvansaranın 2 giriş darvazası vardır. Bina üç mərtəbəlidir. Tacir öz malını zirzəmiyə yığar, birinci mərtəbədə alver edər, ikinci mərtəbədə yaşayardı. Darvazaların içəri hissəsinin tavanı kərpicdən tağlı günbəzlərdir. Yaxın Şərqdə ən böyük kərpic tağlı günbəzlərdən biri sayılan əsas girişin zəngin bəzənmiş tağı relyefin çox mailliyi üzündən binanın küncündə, üçüncü mərtəbə səviyyəsində inşa edilmişdir. Sadə həyəti, tağbəndlərlə örtülü eyni ölçülü hücrələri, həyət eyvanları, hovuz və onları əhatə edən yaşıllıq karvansaranın ümumi kompozisiyasını tamamlayır. Bu günə kimi öz gözəlliyini, memarlıq üslubunu qoruyub saxlayan və hazırda mehmanxana kimi istifadə olunan Yuxarı Karvansara Şəkinin zəngin maddi və mənəvi tarixə malik bir şəhər olmasının bariz nümunəsidir. Otel kimi istifadə edilən Yuxarı Karvansara indi də turistlərin zövqünü oxşayan yerlərdən biridir [4]. Karvansarada aparılmış bərpa işləri onun ilkin görkəmini saxlamışdı, lakin müasir tələblərə uyğun otel kimi fəaliyyət göstərir. Burada Şəki mətbəxinin inciləri turistlərə təqdim olunur.

Özünün ümumi sahəsinə görə Yuxarı Karvansaradan bir qədər böyük **Aşağı Karvansaranın** 242 otağı və dörd giriş darvazası vardır. Bu karvansara da həmçinin şəkili sənətkarların özünəməxsus memarlıq üslubunu özündə əks etdirir. Cənub-şərq hissədə üç, həyət tərəfdə isə iki mərtəbəli olan karvansaranın baş fasadı çaya baxır. Bu isə binaya sakitlik və təravət bəxş edir. Karvansaranın fasadı horizontal bölümlərlə səciyyələnir, onlar divar müstəvisini tağlı pəncərələrlə tərtib olun-

muş üç yarusa ayırır, pəncərələrin tağları şəklinə görə bir qədər fərqlənir. Tağlı eyvan aşırmaları ilə dövrəyə alınmış həyətin mərkəzində hovuz yerləşir. Karvansaranın tikintisi zamanı uzaq ölkələrdən gələn tacirlərin rahatlığı, özünün və malının təhlükəsizliyi üçün hər şey nəzərə alınmışdır. Darvazalar qonaqpərvərliklə yolçuların və tacirlərin üzünə açılsa da, bağlandıqda alınmaz bir qalaya çevrilir. Bu isə bir daha Şəki sənətkarlarının nə qədər yüksək dünyagörüşünə, əvəzsiz zövqə, müqayisəsiz memarlıq üslubuna, maddi və mənəvi dəyərlərə malik olduqlarını təsdiqləyir. Karvansara ərazisində təmir-bərpa işləri aparılmışdır. Onun qədim və əzəmətli görünüşünə toxunulmamışdır. XIX əsrə aid olan bu bina Şəkinin mərkəzi küçəsinə başqa bir gözəllik verir [4].

1812-ci ildə XIX əsr Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrindən olan, maarifçi-demokrat, Azərbaycan ədəbiyyatında realizmin banisi **Mirzə Fətəli Axundov** Şəkidə doğulmuş və ilk təhsilini burda almışdır. Onun ev muzeyi 1940-cı ildə yaradılmışdır. Bu binanın 1800-cü ildə tikildiyi təxmin edilir. Axundov bu evdə cəmi iki il yaşamışdır. 1825-ci ildə isə bu evə ilk dəfə olaraq qonaq kimi gəlmişdir. Sonralar M.F.Axundovun ev muzeyi bərpa olunmuş və genişləndirilmişdi. Onun eksponatlarının bir hissəsi əlavə tikilmiş binada yerləşdirilir. Beləliklə, M.F.Axundovun ev muzeyi 2 binadan: həyat və yaradıcılığına həsr olunmuş ekspozisiya zalından və ədibin anadan olduğu evdən ibarətdir. Ev Şəki evlərinə məxsus quruluşdadır. Evlərin astanası hündür, qapı girəcəkləri isə alçaqdır. Şəkilələr bunu evə gələnin kimliyindən asılı olmayaraq, ev sahiblərinə hörmət əlaməti olaraq baş əyməsi kimi qiymətləndirirlər. Bərpadan sonra ev bir qədər müasirləşmiş əski tarixiliyini tam şəkildə qoruyub saxlıya bilməmişdi.

Qəbələ rayonunun muzeydənkənar abidələri haqqında son illər maraqlı araşdırmalar aparılıb. Bu rayonun son 20 ildə keçdiyi inkişaf yolu və turizm sektoruna verdiyi töhvə göz qabağındadır. Bununla bərabər araşdırmalar göstərmişdir ki, Qəbələdə bir çox abidələr haqqında yetərincə məlumat yoxdur, bərpa və konservasiya işləri haqqında alimlərdən başqa heç kim məlumatlı deyil. Lakin müasir turist istirahət turizmi ilə yanaşı arxeo turizm, etno turizm və aktiv istirahətə üstünlük verir. Adı sadalanan faktorlar arasında tam şəkildə Qəbələyə aid edilə biləni arxeoturizm və etnoturizmdir. Son illər burada aparılan tədqiqatlar illər öncə aparılan araşdırmaların davamıdır. Abidələrin bir qismi mühafizədən kənar qalmış və zamanla məhv olma təhlükəsi ilə üzləşmişdir. Lakin rayon ərazisində yerləşən istər təbiət abidələri, istərsə də qədim yaşayış məskənləri, eyni zamanda burada yaşayan etnik azlıqlar rayonda turizm potensialını artırır. Burada son zamanlar dövlət qeydiyyatına alınmış abidələr haqqında geniş şəkildə tədqiqat işi aparılmış, elmi məqalələr, kitablar yazılmışdır. Məqsəd Qəbələ rayonunun muzeydənkənar abidlərinə turizm nöqtəyi nəzərdən baxımlığını önə çəkmək və burada yerləşən bütün abidələr haqqında az da olsa məlumat verməkdən ibarətdir. Bu nöqteyi nəzərdə Qəbələdə yerləşən bütün abidələr haqqında qısa da olsa şərh öz əksini tapmışdır. Azərbaycan ərazisində mövcud olmuş ilkin yaşayış məskənlərinin adları, indiki və qədim dövrlərə aid maddi və qeyri-maddi mədəniyyət nümunələri, müxtəlif zamanlarda inşa edilmiş memarlıq nümunələri, ərazidə formalaşan və inkişaf etdirilən turizm növləri, burada arxeoloji tədqiqatlar aparan arxeoloqların tədqiqatlarının müqayisəli təhlili əsas məqsəd kimi göstərilmişdir. Qarşıya qoyulan əsas məqsəd isə ölkəmizə gələn qonaqların marağını Qəbələyə və onun memarlıq abidələrinə cəlb etməkdən ibarətdir.

Qəbələ rayonun inzibati mərkəzi Qəbələ (Qutqaşın) 1959-cu ilədək kənd, 1974–ci ildən şəhər statusu almışdır. Qəbələ və onun ətrafından aşkar olunan ən qədim tapıntılar eramızdan əvvəlki III minilliyə - tarixdə ilk Tunc dövrü kimi tanınan dövrə aiddir. Bu dövrə aid yaşayış izləri Çaqqalı sahəsindəki qazıntılar zamanı ən alt təbəqələrdə aşkar olunmuşdur. Şəhər xarabalıqlarının ətrafında Tunc dövrünün müxtəlif mərhələlərinə aid kurqan tipli çoxlu qəbir abidələri vardır. Bu kurqanlardan ikisi 1966-cı ildə tədqiq olunub müəyyən edilmişdir ki, onlar eramızdan əvvəlki III minilliyə aiddir [**13**, səh.1-3]. Tədqiq olunan bu kurqanlarda çoxlu ölü dəfn olunmuşdur. Dəfn zamanı qəbrə bəzi məişət avadanlıqları, əsasən gil qablar qoyulmuşdur.

Eramızdan əvvəlki birinci minilliyin birinci yarısına aid abidələr Qutqaşen rayonunun da (indiki Qəbələ rayonu) S.M.Qazıyev tərəfindən öyrənilmişdir. Burada əsasən qəbir abidələri tədqiq olunmuşdur. O dövrdə ölüləri adi torpaq qəbirlərdə dəfn edirdilər. Albaniya dövlətinin yardılmasından sonra Qəbələ və onun ətrafında qədim Albaniya dövrünə aid çoxlu abidələr öyrənilmişdir. Hələ 1926-cı ildə Qəbələ şəhər xarabalıqları yaxınlığında, Nic-Abdallı kəndi ərazisində Yaloylutəpə adlı

yerdə torpaq qəbirləri aşkara çıxarılmışdır [13, səh.6-9]. Bu qəbrlərə dəfn zamanı müxtəlif formaları, yüksək sənətkarlığa hazırlanmış gil qablar və digər şeylər qoymuşlar. Bu tapıntılar arxeoloji ədəbiyyatda ilk tapıntı yerinin adı ilə Yaloylutəpə mədəniyyəti adlandırmışdılar. Həmin abidələr eramızdan əvvəl IV-I əsrlərə Albaniyada özünə məxsus yüksək mədəniyyətin olduğunu sübut edir.

Bu dövrdə Albaniyada bir çox şəhərlər salınmışdır. Bu şəhərlərdən biri də Albaniyanın şəhərlərinin başlıcası və ölkənin mərkəzi şəhəri olan Qəbələdir. Qəbələ-Kabalaka şəhəri haqqında ilk yazılı məlumatı eramızın I əsrində yaşamış məhşur Roma alimi Böyük Pliniy vermişdir Özünün ensiklopedik "Təbii tarix" əsərində yazmışdı: "Albaniyada əsas şəhər Kabalakadır". [5, səh.28].

S.Qazıyev və Q.Əhmədov "Qəbələ" kitabında bəhs etmişdir ki, eramızın ikinci əsrində yaşamış yunan müəllifi Klavdi Ptolomey Albaniyanın 29 yaşayış məntəqəsinin adını çəkir. Qəbələ Kapalak, ərəb, fars və türk dillərində Qəbələ kimi işlədilir. Ərəb mənbələrində IX əsrdə ərəb müəllifi Balazur buranı Xəzər adlandırmışdır. Şəhərin belə adlandırılmasına ilk orta əsrlərdə Xəzər tayfalarının Albaniyaya hücumu və onların bir qisminin Qəbələdə məskən salması ilə izah etmək olar. Hazırda qədim Qəbələ şəhərinin qalıqları Çuxur-Qəbələ ərazisindədir [13, səh.10].

1959-cu ildə Çaqqallı ərazisi ("Çaqqalı duzu") adlanan suvarılmaq üçün yararlı hala salınarkən bir təpəcik traktorla dağıdılan zaman daş sutunaltıqları və o vaxta qədər Azərbaycanda məlum olmayan iri kirəmitlər aşkar olunmuşdu. [13, səh.10]. O zaman Qəbələdə işləyən arxeoloji ekspedisiya dağıntını saxlatdırmış və həmin yerdə kəşfiyyat xarakterli qazıntı işləri aparılmışdır**.** [6, səh.3]. Bu arada aşkar olunan tikinti qalıqlarının müqayisəli təhlili nəticəsində belə güman edilir ki, bu yerdə Qəbələ şəhərinin məbədləri yerləşmişdi. Arxeoloji qazıntıların nəticəsində aşkar olunan nümunələr hal-hazırda Qəbələ Arxeoloji Mərkəzində saxlanılır.

Qəbələ ilk orta əsrlərdə - Çaqqallı sahəsində yaşayış süquta uğradığından sonra Qəbələnin Səlbir və Qala adlanan hissələrindən həyat canlanmışdır. Səlbir və Qala şərqdən Çovurluçay, qərbdən Qaraçay, Şimaldan meşəli dərə ilə əhatə olunan, şimal-cənub istiqamətində uzanan hündür yastı təpəliklərdən ibarətdir. Bu təpəliklərin ətraf ərazidən hazırki yüksəkliyi bəzi yerlərdə 20 metrdən çoxdur. Orta əsrlərdə şəhər bu ərazini bütünlüklə tutmuşdur. Hazırda bu şəhərin yerinin ümumi sahəsi 25 hektara yaxındır.

Qəbələ Azərbaycanın ən qədim, zəngin tarixi ilə seçilən şəhərlərindən biridir. Bu zəngin tarixi öyrənilməsində hələ XIX əsrin ortalarından tədqiqatçıların diqqətini cəlb etmişdir. O vaxt A.Yanovski, D.Şərifov, İ.Cəfərzadə, daha sonralar Ö.İsmizadə, S.Qazıyev, Q.Əhmədov, İ.Əliyev, F.Qədirov, İ.Babayev, Q.Cəbiyev, P.Baranski və başqaları fasilələrlə Qəbələ şəhər xarabalıqların da olmuş və burada arxeoloji qazıntılar aparmışdır [1, səh.476**].** Onlar Qəbələ haqqında öz kitablarında, məqalələrində arxeoloji qazıntıları və tarixi faktları əks etdirmişdilər.

Qəbələdə ilk dəfə D.Şərifov tədqiqat işi aparmışdır [2, səh.34]. O, 1926- cı ildə şəhərin bir neçə yerində, o cümlədən Qala darvazası yanında yoxlama qazıntıları aparmışdır. Bir il sonra isə bu barədə "Qutqaşında ilk arxeoloji qazıntılar" adlı xüsusi bir məqalə çap etdirmişdir. 1947-ci ildə İ.Şeblikinin Qəbələyə həsr edilmiş "Qabala" məqaləsi çapdan çıxmışdır. Orada şəhərin Qala divarlarından və onun memarlıq xüsusiyyətlərindən təfsilatı ilə söhbət açılır [2, səh.35].

Daha sonra isə görkəmli arxeoloq İ.Cəfərzadənin rəhbərliyi ilə 1944-cü ildə şəhərin Qala hissəsində aparılmış yoxlama qazıntısı ilk dəfə olaraq abidənin stratiqrafiyası barədə danışmağa imkan yaratdı. O zaman tapılan bir-birinin üzərinə düşən dörd qat tikinti qalığına əsasən şəhərin qala hissəsində dörd qat mədəni təbəqə olduğu müəyyənləşdirilib [2, səh.37].

1959-cu ildə Qədim Qəbələ şəhəri yerində mərhum S.Qazıyevin rəhbərliyi ilə başladılmış və son vaxtlara qədər davam etdirilən arxeoloji qazıntılar nəticəsində məlum olunmuşdur ki, Qəbələ şəhər kimi e.ə IV əsrin sonu - III əsrin əvvəllərindən XVIII əsrin əvvəllərinə kimi mövcud olmuşdur [2, səh.114]. Şəhərin bütün dövrlərinə aid tapıntı aşkar edilmişdir. Onlardan antik dövrə, Qəbələnin Alban dövrünə aid tapıntılar daha əhəmiyyətlidir. Qazıntılar zamanı bu dövrə aid müdafiə istehkamlarının, böyük ictimai binaların və yaşayış evlərinin, istehsalatla bağlı tikintilərin qaqlıqları, müxtəlif tipli qəbir abidələri, əmək alətləri, təsərüffat və məişətin müxtəlif sahələrinə aid qalıqlar, möhürlər və onların əksləri, yerli və başqa ölkədən gətirilmiş pullar tapılmışdır. [2, səh.116].

2005-ci ildən 2011-ci ilədək Antik səhədə arxeoloqlar tərəfindən aşkar edilən, Qafqaz və Yaxın Şərqdə analoqu olmayan oval planlı binalar e.ə. III-b.e. I əsrlərinə aid edilir. Formaca qədim

Yunanıstan stadionlarına və Roma amfiteatırlarına bənzəyir. Güman edilir ki, burada dövlət əhəmiyyətli tədbirlər, dini mərasimlər təşkil edilirdi. Tikinti materialı kimi divar hörgüsündə çiy kərpic və daşdan, eramızdan I əsrindən başlayaraq bişmiş kərpiclə əhəng məhsulundan da istifadə edilmişdir. Bu arada eramızdan əvvəl III əsrdən gec olmayaraq bunların üstünü örtmək üçün yüksək keyfiyyətli kərpicdən geniş istifadə edilmişdir. Son illərdə şəhər yerinin e.ə. IV-III əsrlərə aid təbəqəsində böyük ərzaq anbarının qalıqları aşkar edilib. Burada küplərdə qoz, fındıq, taxıl və s. təsərrüfat nümunələri tapılmışdı.

Hər il Qəbələdə orta hesabla 6-7 ay arxeoloji qazıntı aparılır və onların nəticələri elmi məqalələrdə və kitablarda əks olunur. Qədim dövrdən Azərbaycan ərazisi yadelli hücumlarına məruz qalmışdır. Məhz bu səbəbdən Azərbaycan ərazisində qədim dövrlərdən müdafiə istehkamları tikilmişdir. F.Qədirovda bu müdafiə istehkamlarını tədqiq etmişdir. İlk tədqiqatlara 1963-1970-ci illər ərzində Qəbələ mahalı ərazisində olan müdafiə istehkamlarını öyrənilməsi məqsədilə Şəki, Vartaşen, Qurtaşen rayonlarında arxeoloji tədqiqatlara başlamışdır. Burada o, bir sıra istehkam abidələri aşkar edilmişdir ki, bu istehkamlarının bir çoxunun əsası ilk orta əsrlərdə qoyulmuş və bunlar ilk vaxtlarda Sasani imperiyasının şimal sərhədlərinin müdafiə etmək məqsədi daşımışdır. Aşağıda həmin istehkamlardan bir neçəsi haqqında məlumat verilmişdir.

Yedditəpə qalası - Qəbələ rayonunun Bayramkoxa kəndindən 3 km şimalda olan düzənlikdə yerləşir. Ayrı-ayrı təpələrdən ibarət olan bu abidə yerli əhali tərəfindən Yedditəpə və ya Təpələr adlanır. İlk arxeoloji axtarışlar burada mühüm qala xarabalığının varlığını, təpəliklərin isə həmin qalanın ayrı-ayrı bürclərinin qalıqlarından ibarət olduğunu aydınlaşdırdı. Abidə öz əvvəlki formasını itirmişdir. Buna baxmayaraq, qalanın mövcud qalığına əsasən, onun forması və quruluşu haqda bəhs etmək mümkün olmuşdur. Bayramkoxa qalası düzbucaq formada tikilmişdir. Burada aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmişdir ki, qara xarabalığa çevrildikdən sonra burada mədəni təbəqənin üstündə təxminən 0,4 m qalınlığında lal təbəqə əmələ gəlmişdir. Qalanın divar və bürcləri 45x42x10 sm ölçülü çiy kərpicdən hörülmüşdür. Hörgü işləri zamanı, yaxşı tapdalanmış palçıq məhlulundan istifadə edilmişdir. Kərpiclərin arasında qurumuş palçıq məhlulunun qalınlığı 5 sm-dir.

Kəşfiyyat qazıntıları zamanı divar qalıqları, ocaq yeri, dəmirdən ox ucu, gil muncuq və xeyli miqdarda şirsiz qab qırıqları aşkar edilmişdir.

Kələş Qala yeri – Qəbələ rayonunun Süleyli kəndindən cənub tərəfdə, yəni Göyçay dərəsilə Vəndam çay dərəsinin birləşdiyi sahədə olan düzənlik təxminən 50 hektara qədər olub, iki dərənin arasında tutduğu coğrafi mövqeyinə görə yarımadanı xatırladır. Kələş düzünün şimal tərəfində uzunluğu təxminən 180, eni 20, hündürlüyü isə 5-10 m olan sədd vardır. Abidənin şərq, qərb və cənub tərəflərini əhatə edən dik uçurumlu dərələr əslində buranı təbii qalaya çevirmişdir. Onun şimal tərəfini möhkəmləndirən sədd isə Qala yerinin müdafiə sistemini tamamlamışdır. Kələş qala yerinin ərazisi iki hissədən ibarətdir. Hər iki hissəni bir-birindən təbii çökəklik ayırır. Qala yerində əsaslı arxeoloji qazıntılar aparılmamışdır. Lakin F.Qədirovun apardığı tədqiqatlar nəticəsində Qala yerinin cənub tərəfində şirli saxsı qab qalıqlarına təsadüf edilmişdir. Onun şimal hissəsində isə ilk orta əsrlərə aid saxsı qab qalıqları ilə yanaşı, X-XI əsrlər üçün xarakterik olan şirli saxsı qab hissələri vardır.

Aparılan ilkin tədqiqatların nəticələrinə əsasən qeyd etmək olar ki, Kələş Qala yeri sabiq Qəbələ mahalında mövcud olan Göyçay dərəsi keçidinin istehkam xarakterli arxeoloji abidələri kompleksinə daxildir. Buradan əldə edilən yerüstü materialların digər həm dövr abidələrin materialları ilə müqayisəsi Kələş Qala yerinin əsas etibarilə ilk orta əsrlər dövrünə aid etməyə imkan verir.

Beləliklə, əldə edilən arxeoloji materiallar və abidənin primitiv memarlıq xüsusiyyətləri Vəndam qalasının təxminən V-VIII əsrlərə aid olduğunu, ikinci qazıntı sahəsinin üst təbəqəsindəki yanğın qalığı isə qalanın ilk orta əsrlərin sonunda böyük yanğın nəticəsində sıradan çıxdığı güman edilir.

Yuxarıda qeyd etdiyimiz kimi Qəbələdə müxtəlif dövrlərdə ayrı-ayrı alimlər tədqiqat aparıb və maraqlı nəticələr əldə ediblər. Lakin, müstəqillik qazanıldıqdan sonra burada aparılan qazıntıların nəticələri dahada zənginləşdirir. Bu dövrdə Qəbələdə səmərəli qazınti işlər aparan alimlər arasında İ.Babayevin adını xüsusi qeyd etmək lazımdır. Uzun illər Qəbələdə və Qafqaz Albaniyasının müxtəlif abidələri üzərində aparılan tədqiqatların nəticəsində, o, 1983-cü ildə SSRİ EA arxeologiya İnstitunda "Qafqaz Albaniyasının şəhərləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Dissertasiya işi 1990-cı ildə monoqrafiya şəklində nəşr edilmişdir. Onun rəhbərlik etdiyi Qəbələ

arxeoloji ekspedisiyası beynəlxalq statusla çalışmışdır. Ekspedisiyanın apardığı qazıntılarda hər il Cənubi Koreya Respublikasından gəlmiş 30-dan artıq arxeoloq iştirak etmişdir.

Müasir dövrümüzdə də Qəbələ ərazasində tədqiqatlar davam edir. Qədim Qəbələ şəhərinin Qala hissəsində Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitunun Qəbələ arxeoloji ekspedisiyası tərəfindən, professor Qafar Cəbiyev rəhbərliyi, SEBA (Seul-Bakı) Azərbaycan Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının maliyyə dəstəyi ilə arxeoloji tədqiqatlar aparılır. Bu tədqiqatlar 2005-ci ildə başladılmışdır. 2009-cu ildən etibarən Qəbələ ekspediyası beynəlxalq tərkibdə fəaliyyət göstərir. SEBA-nın təşəbbüsü ilə Koreya arxeoloqları Səlbir ərazisində tədqiqat işləri aparılır. Hazırda antik şəhər yeri Qala və Güllütəpə adlanan ərazilərdə Seul Milli Universitetinin arxeologiya və incəsənət tarixi kafedrasının müdiri Kim Congilin rəhbərlik etdiyi arxeoloji qrupun altı üzvü və yerli mütəxəssislərlə birlikdə qazıntı işləri davam etdirilir.

Azərbaycan Respublikası Mədəniyyət və turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərən Qəbələ Dölət Tarix-Bədii Qoruğu 1978-ci ildə yaradılmışdı. Qədim Qafqaz Albaniyasının paytaxtı olan Qəbələ şəhər xarabalıqlarının yerləşdiyi qoruq 420 ha ərazini əhatə edir. Çuxur Qəbələ yaxınlığında yerləşən qoruq 3 əsas hissədən – Güllütala, Səlbir və Qala hissələrindən ibarətdir. Tarixi e.ə. IV əsrə gedib çıxan ilk antik şəhər yeri Güllütala hesab edilir.

Qeyd edim ki, 2005-ci ildən Qəbələdə aparılan arxeoloji qazıntılar zamanı əldə olunan maddi-mədəniyyət nümunələri SEBA–nın dəstəyi ilə Çuxur Qəbələdə tikilən 3 mərtəbəli binada yerləşən Qəbələ Arxeoloji Mərkəzində saxlanılır. Mərkəz 2012-ci ildə qoruq ərazisində yaradılıb. 2014-ci ildə rəsmi açılışı olub.

Arxeoliji mərkəzdə laboratoriya, konfrans zalı, kitabxana, arxeoloji fond, 2 sərgi zalı və tədqiqatçıların yaşaması üçün 24 qonaq otağı vardır. Mərkəzdə Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun ofisi də fəaliyyət göstərir. Qazıntılar zamanı əldə olunan 1860-ə yaxın eksponant sərgidə nümayiş edilir. Aşkar olunan yeni eksponantlar burada ən müasir texnologiyalara cavab verən laboratoriyalarda bərpa olunduqdan sonra qonaqlara təqdim olunur. Tapılmış artefaktlar Daş dövründən başlayaraq Mis-Daş düvrü, Tunc dövrünün kurqan abidələri və Erkən dəmir dövrü yaşayış məskənlərini əks etdirir. Bununla yanaşı antik dövr və orta əsrlərdə maraqlı nümunələrlə özünü birüzə verir.

Qafqaz Albaniyasının Qədim paytaxtı Qəbələ öz tarixi keçmişi, maddi mədəniyyət nümunələri ilə tarixdə bir iz qoymuşdur. Təsadüfi deyil ki, araşdırmalarımda müxtəlif ölkələrin alimlərinin Qəbələ və onun qədim tarixinə dair əsər və kitablarla rastlaşdım. Bu gün tarixiliyi ilə seçilən Qəbələnin yaranma tarixi, keçdiyi mərhələlər, hələ də tədqiq edilir, öyrənilir. İstər yerli, istərsə də dünya tədqiqatçıları müxtəlif dövrlərdə Qəbələ də arxeoloji tədqiqatlar aparmışdır. Bu gün bu tədqiqatlar davam edir. Yalnız tarixi ilə deyil, eləcə də təbii coğrafi komponentləri, etnik tərkibi ilə də zəngindir.

Zəngin keçmişə malik olan Qəbələ də hələ SSRİ vaxtında 72 tarix və mədəniyyət abidəsi qeydə alınmışdır. Azərbaycan SSR Nazirlər Sovetinin 27 aprel 1988-ci il tarixli qərarı ilə bu abidələrin siyahısı təsdiq olunmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixi 132 nömrəli qərarı ilə Qəbələ rayonunun ərazisində dövlət mühafizəsinə götürülmüş 93 daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgü təsdiqlənmişdir. Qəbələ rayonunda əhəmiyyət dərəcəsinə görə abidələr üç yerə bölünür.[8, səh.5]. Dünya əhəmiyyətli, ölkə əhəmiyyətli və yerli əhəmiyyətli abidələr. Rayon ərazisində 1dünya, 61 ölkə, 31 yerli əhəmiyyətli tarixi, mədəni, arxeoloji və dini abidələr vardır.Eyni zamanda Qəbələ rayonunda dövlət tərəfindən qeydə alınmamış 28 tarixi abidədə vardır. [8, səh.6].

Ən zəngin abidə isə dünya əhəmiyyətli **Çuxur Qəbələ** yaxınlığında yerləşən **Qala və Səlbir hissəsidir.** Qəbələ də yerləşən dünya əhəmiyyətli abidə - Çuxur Qəbələ yaxınlığında Qala və Səlbir hissədən ibarət olan qədim Qəbələ şəhəri. Burada öz əlverişli strateji mövqeyinə görə dövlətin paytaxtı olan və Qafqaz Albaniyasının ən qədim və iri şəhərlərindən sayılan Qəbələ yerləşirdi. Qədim dövrdə şəhəri hər tərəfdən əhatəyə alaraq müdafiə edən iri həcmli divar və qalaların qalıqları Qəbələ şəhərinin əhəmiyyətindən xəbər verir. Onların əsası iri, yonulmuş əhəng daşlarından, yuxarı hissəsi isə kvadrat formalı bişmiş kərpicdən hörülmüşdür. Xarici üzləmədə yonulmuş daşlardan, qalan hissələrdə isə çay daşlarından, kərpic qırıqlarından istifadə olunmuşdur. Hörgünün tikiş yerlərinə əhəng məhlulu bərkidici material kimi istifadə olunmuşdur. Şəhərin ərazisi xəndəklə iki yerə - şimalda yerləşən Səlbirə və cənubda yerləşən Gavurqalaya bölünmüşdü. Əmələ gəlmiş çöküntü layla-

rını və aşkara çıxarılan materialların xüsusiyyətlərini araşdıraraq, arxeoloqlar Qəbələnin müəyyən dövrlərini təxmin etməyə imkan verən üç mədəni qat aşkarlamışdılar.[2, səh.46].

Səlbir şəhərciyinin şimal hissəsində yerləşən ən qədim torpaqaltı mədəni qatı təxminən Qəbələnin b.e I-IV əsrlərində olan həyatını əks etdirir. Səlbirin ikinci qatı V-VIII əsrlərin, üçüncü qatı isə IX əsrin materiallarını verir.[2, səh.49]. Qalanın sahəsində isə ən qədim torpaqaltı qatın maddi abidələri VIII-IX əsrlərə aiddir. Burada yerləşən ikinci mədəni qat Azərbaycan tarixinin orta əsrlər dövrünün inkişafı üçün səciyyəvidir. O, təxminən X əsrdən 1387-ci ilə qədər, Qəbələnin Teymurun qoşunları tərəfindən darmadağın edildiyinə qədər müddəti əhatə edir. Qəbələnin həyatının daha qədim dövrlərini əhatə edən ən dərin arxeoloji qatın materialları daha maraqlı olub, Böyük Pliniyin məlumat verdiyi Qabala və Klavdi Ptolomeyin Xabala şəhəri haqqında bilgilər verir. Qazıntıları koreya mütəxəssisləri ilə yanaşı bizim alimlərdə aparırdı. Onların arasında Ceyhun Eminlinin 2010-2015 –ci illərəd apardığı tədgiqatlar marağ kəsb edir.

Çuxur - Qəbələdəki qazıntılar müxtəlif yaşayış və ictimai binaların qalıqlarını üzə çıxarmışdır. B.e.ə I əsrin ikinci yarısından - b.e I əsrinə qədərki dövrdə çiy kərpicdən tikilmiş ictimai binalardan birinin sahəsi 587 m^2 olmuşdur. Bina yüksək keyfiyyətli kərpiclə örtülmüşdür. Ayrı - ayrı kiramitlərdə usatının möhürü və ya çiy gil üzərində cızılmış nişanlar aşkar edilmişdir. Binanın daxilində ki iki taxta sütunların monolit daş bazaları vardır. B.e I əsrində əhəng məhlulu ilə bişmiş kərpicdən tikilən başqa bir binanın qalıqları da aşkar edilmişdir. Bu bişmiş kərpiclə yapışdırıcı əhəng məhlulunun divar hörgüsündə istifadəsinin Azərbaycanda tapılan ən qədim nümunəsidir. [2, səh.50].

Qəbələnin bişmiş kərpici yüksək keyfiyyəti və hərtərəfli bişməsi ilə seçilir. Uzun müddət yerin altında və havada qalmasına baxmayaraq, onlar öz əvvəlki bərkliyini itirməmişdilər. On bes növ kərpic ölçüləri müəyyən edilmişdir. Yerli əhali arasında indiyə qədər yaşayan rəvayətə görə, Qəbələdə tikililərin qeyri - adi möhkəmliyinə səbəb inşaatçıların bərkidici maddə kimi yumurta sarısı qatılmış yüksək keyfiyyətli əhəng məhlulundan istifadə etmələri idi. Maraqlı faktlardan biridə burada tikililərin əsasən bişmiş kərpicdən ucadılan qala divarlarının yuxarı hissələri küləklənmədən daha az zərər çəkmişdir, onların məsaməli daşlarla tikilmiş hissəsi isə daha çox zərər çəkmişdir. Qazıntılar zamanı buradan şəhərin əsas binalarınln fasadlarını bəzəyən yüksək davamlığa malik olan üzlük lövhələr tapılmışdır.

Hal-hazırda Qala və Səlbir hissədə arxeoloji qazıntılar davam etməkdədir. Buradan əldə edilən maddi - mədəniyyət nümunələri kompleksdə yerləşən Arxeologiya Mərkəzində nümayiş olunur. Burada arxeoloji kompleks haqqında yazılmış kitablar, bərpa mərkəzi, eksponatlar vardır.

Alban Udin Kilsəsi - Udinlərin yaşadığı Nic qəsəbəsində yerləşir. Qəsəbənin cənub hissəsində yerləşən qədim kilsə tarixi-memarlıq və dini nöqteyi nəzərdən böyük maraq doğurur. Məbəd XVII əsrin sonu, XVIII əsrin əvvəlində, alban kilsəsinin Eçmiədzinə birləşməsindən çox - çox əvvəl tikilmişdir. Bu fakt, bir çox memarlıq-kompazisiya xüsusiyyətləri ilə yanaşı onun alban udin kilsəsi olduğunu təsdiqləyir. [8, səh.21]. Bu səbəbdən o udinlər tərəfindən bərpa olunaraq sonradan istifadə üçün seçilmişdir. Qeyd etmək lazımdır ki, bu kilsə Albaniyada xristianlığın ilk təbliğatçısı, ölkənin maariflənməsinə xidmət göstərən və albanların böyük rəğbət etdikləri apostol Yeliseyə həsr olunmuşdur. Müqəddəs Yeliseyin adını daşıyan kilsələr Azərbaycanın Şəki, Qəbələ və Oğuz rayonlarında qorub saxlanılmışdır.

Xristian dinini saxlamış udinlər alban kilsəsinin bərpası və öz təyinatına görə istifadə məsələsini qaldırmışdılar. Norveç humanitar müəssisəsinin maddi yardımı nəticəsində 2003-2005-ci illərdə tarixi-memarlıq araşdırmaları, abidənin mühəndis diaqnostikası, bərpa layihəsinin işlənib hazırlanması və həyata keçirilməsini nəzərdə tutan "Nic" layihəsi yerinə yetirildi. Bərpa layihəsi Azərbaycan Memarlıq və İnşaat Universitetində fəaliyyət göstərən elmi tədqiqat laboratoriyasının əməkdaşları - tərəfindən işlənib hazırlanmışdır. Bərpa və İnşaat işləri Azərbaycan Mədəniyyət Nazirliyinin nəznindəki "Bərpaçı" təşkilatın Şəki bölməsinin mütəxəsisləri tərəfindən aparılmışdır.

Abidənin ərazisi çoxbucaqlı olub, bir qədər şimal - cənub istiqamətinə uzanır. Məbəd hündür ağaclı sahənin dərinliyində yerləşir. Ağacların arasında məbədin yaşıdları sayılan dörd nəhəng çinar seçilir. Yerli camaatın dediyinə görə, kilsə ucaldıqdan sonra hər məhəllənin sakinləri məbədin ərazisində çinar ağacı əkiblərmişlər. Məbədin qoruyucuları kimi ucalan bu çoxəsrlik ağaclara indi yerli əhali bir müqəddəs xatirə kimi ehtiram edir.

İslam dininin qəbul edilməsi çox əsrli yerli inşaat ənənələri əsasında memarlıq kompazisiya xüsusiyyətləri formalaşan məscidlərin, türbələrin, minarələrin, məqbərələrin və başqa tikililərin yayılmasına səbəb oldu.

Təbii iqlim, sosial-iqtisadi şərait və yerli tikinti materiallarının–fasadın bəzənməsində bişmiş kərpicin və çay daşının, interyerdə ağacın geniş istifadəsi şəhər və kənd məscidlərinin memarlıq və konstruktv həllinin əsasını təşkil etdi.

Təssüf hissi ilə qeyd etmək istəyirəm ki, bizim dövrə yalnız XV- XVI əsirdəki dövrü əhatə edən türbələr və son əsrlərdə tikilən məscidləri çatmışdır.

Qəbələ məscidlərdən ikisi daha böyük maraq doğurur. Onlardan biri-özünün səkkiz bucaqlı plan həlli ilə qeyri-adi kompozisiyaya malik olan Səkkizguşəli məsciddir. Məscid XV-XVI əsrlərdə inşa edilmişdir. Qəbələ şəhərində yerləşir. Məscidin binası bişmiş kərpicdən və çay daşından tikilmişdir. Tinləri və damı səkkizguşəlidir. İçərisində tavan və döşəmə arasında bir ağac sütun vardır. Məscidin binası 1985-1986-cı illərdə bərpa edilib. Səkkizguşə cənnət sferasının rəmzidir. Belə işarəli qılınc və qəbir daşı Qəbələ rayon Tarix-Diyarşünaslıq muzeyində var. Məscid dini icmanındır. Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsidir.[8, səh. 7].

Cümə məscidi 1898-ci ildə yerli əhalinin köməyi və şəkili usta Salamın rəhbərliyi ilə inşa olunan məscidin tikintisində çay daşlarından, dözümlülüyü ilə seçilən meşə materiallarından istifadə edilmişdir. Məscidin daxilindəki ağac materialını və binanın üst örtüyünü məşhur mesenat Hacı Zeynalabdin Tağıyev göndərmişdir. Bişmiş kərpicin, qapıların, pəncərələrin hazırlanması üçün lazım vəsaitin əldə olunmasına Qəbələnin xeyriyyəçi insanlarından olan Hacı Məhəmməd kömək göstərmişdir. Həmçinin Zaqafqaziya Ruhanilər İdarəsinin də məscidin tikintisinə müəyyən köməyi olmuşdur. Məscid 1906-cı ildə əhalinin istifadəsinə verilmişdir.

Sovet hakimiyyəti dövründə Qəbələ şəhər Cümə məscidi yığıncaq və iclas salonuna, məhkəmə iclaslarının keçirildiyi məkana və kluba çevrilmişdir. Məscidin bütün əmlakı müsadirə edilmiş, binada olan dini ədəbiyyat yandırılmışdır. Hətta məsciddə olan ərəb əlifbası ilə yazılmış bütün elmi kitablar və tariximizdən xəbər verən elmi külliyyatlar da kortəbii şəkildə məhv edilmişdir. Sovet hökumətinin süqutundan az əvvəl məscidin binasında Tarix Diyarşünaslıq muzeyi yaradılmışdır. 2004-cü ildə məscidin binası boşaldılmış, həmin il əsaslı təmir edilmiş və 2005-ci ildə məscid uzun illər sonra təkrar ibadət ocağı kimi dindarların istifadəsinə verilmişdir.

Yekün olaraq, vurğulamaq istəyirəm ki, bu iki rayonun timsalında bərpa və konservatsiya işinin vacib olduğunu göstərməyə çalışdıq. Aparılan işlərin müsbət nəticələrinin turizn sahəsinə təsiri konkret olaraq Şəki və Qəblə rayonlarının timsalında görə bilərik. Turistlərin axını bu bölgəyə il bə il artır. İstirahət turizmi ilə yanaşı turizmın yeni növləridə tətbiq olunmağa başlayıb. Bu sahədə aparılan işlər bu istiqamətdə davam etdirilsə digər bölgələrdədə müsbət nəticələri əldə edə bilərik.

ƏDƏBİYYAT

1. Azərbaycan Tarixi (7 cilddə), I cild, Bakı –Elm, 2007.
2. İ.A.Babayev, Q.M.Əhmədov, "Qəbələ". B.,1987
3. R.Bəy Əfəndiyev "Nuxa qəzasında olan asarü-ətiqələr haqqında", Bakı 1925, səh.3.
4. Ş.Fətullayev "Şəki abidələri" Bakı-1970, Gənclik.
5. O.Ş.İsmizadə, "Qədim Qafqaz Albaniyasının tarixi", B.,1962
6. Saleh Qazıyev, Qəbələ arxeoloji ekspedisiyasının hesabatı , iş №7
7. Saleh Qazıyev, Çuxur Qəbələdə apardığı ekspedisiyasının hesabatı, 1959-cu il, Azərb.SSR.EA.TİEA, №5926
8. Qəbələ tarix-diyarşünaslıq muzeyinin arxiv materialları, N3118
9. Məmmədova G.,Hacıyeva S.Abdullayev T."Kiş-Qafqaz Albaniyasının görkəmli memarlıq abidəsi". Bakı:XXI YNE, 2002.
10. Ə.R.Salamzadə, K.M.Məmmədzadə "Şəkinin memarlıq abidələri",Bakı 1987, Elm.
11. Ə.R.Salamzadə, K.M.Məmmədzadə, M.Ə.İsmayılov "Şəki", Bakı-1988, Elm.
12. Ə.Tahirzadə "Şəkinin tarixi qaynaqlarda" Bakı-2005,
13. В.Ямпольский З.Н. К изучению летописи К. Албании. AMEA-nın xəbərləri, Bakı, 1957, 9, səh 231

Güllü ƏSGƏRLİ
Azərbaycan Turizm və Menecment Universiteti
g.asgarli@atmu.edu.az

Qloballaşma şəraitində müalicə-sağlamlıq turizminin vəziyyəti

Состояние медицинского и туристического туризма в условиях глобализации

The state of medical and tourism tourism in the context of globalization

Xülasə: Turizm bu gün dünyada ən sürətli inkişaf edən xidmət sektorudur. Dünya ölkələrinin sosial-iqtisadi inkişafında turizmin payı kəskin artmaqdadır. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr öz iqtisadiyyatını şaxələndirərək turizmə də diqqət verərək ölkənin gəlirlərində turizmin payını artırmağa çalışırlar. Müasir cəmiyyətin mühüm inkişaf göstəricilərindən biri olan insan kapitalının formalaşdırılmasında əhalinin asudə vaxt, istirahət və müalicə imkanlarının yüksəlməsi mühüm yer tutur. Bu məqsədlə, ölkənin daxili imkanları ilə bərabər təbiətin də şəfalı gücündən istifadə olunması müalicə-sağlamlıq turizmi adı altında tanınaraq müasir turizm sənayesində özünə geniş yer qazanmışdır.
Açar sözlər: Dünya, turizm, müalicə turizmi, inkişaf,təbiət,rekreasiya

Резюме: Сегодня туризм является самым быстрорастущим сектором услуг в мире. Доля туризма в социально-экономическом развитии стран мира резко возрастает. Развитые и развивающиеся страны также пытаются увеличить долю туризма в доходах страны, сосредоточившись на туризме, диверсифицируя свою экономику. Одним из важнейших показателей развития современного общества является увеличение времени досуга, отдыха и оздоровительных возможностей в формировании человеческого капитала. С этой целью использование целительной силы природы, наряду с внутренними возможностями страны, получило широкое распространение в современной индустрии туризма, известной как оздоровительный и оздоровительный туризм.
Ключевые слова: Мир, туризм, лечебный туризм, развитие, природа, отдых

Abstract: Today, tourism is the fastest growing service sector in the world. The share of tourism in the socio-economic development of the world is increasing dramatically. Developed and developing countries are also trying to increase the share of tourism in the country's income by focusing on tourism, diversifying their economies. One of the most important indicators of the development of modern society is the increase in leisure time, recreation and recreational opportunities in the formation of human capital. To this end, the use of the healing power of nature, along with the domestic capabilities of the country, has become widespread in the modern tourism industry known as health and Wellness tourism.
Keywords: Mir, tourism, leisure tourism, development, tourism, rest

Turizmin bir sıra növləri vardır. Hazırda dünyanın bir çox ölkələrində geniş yayılan müalicə turizmi bu turizm növlərindən biridir. Bu turizm növü son illərdə turizmin yeni, dinamik inkişaf edən sahəsinə çevrilib. Müalicə məqsədli səfərlər turizmin digər növlərindən xüsusilə fərqləndiyindən bu mövzunun araşdırılması xüsusilə maraq kəsb edir. Çünki ilk növbədə müalicə məqsədli səfərlər olduqca fərqli səyahət növüdür.

Müalicə-sağlamlıq turizmi nədir? Bu, müalicə məqsədilə ölkə daxilində və başqa bir ölkəyə edilən səfərləri, müasir kurort-sanatoriya müəssisələri tərəfindən təqdim olunan müalicə xidmətlərini (məsələn, SPA, sağlamlıq, fitnes mərkəzləri və kompleks müayinə ("check up") proqramları) özündə birləşdirir. Belə ki, müalicəyə ehtiyacı olan şəxslərin bir gündən az, bir ildən çox qalmamaq şərti ilə öz sağlamlıqlarına qovuşmaq, müalicə almaq və ya sağlamlıqlarını qorumaq məqsədi ilə səyahət etmələri müalicə turizimindən yararlanma deməkdir. Müalicə turizmi iki formada - təbii üsullarla və klinik şəraitdə aparılır. Bir çox dünya ölkələrində bu istiqamətlərin inkişafına son dərəcə böyük əhəmiyyət verilir. Dünyanın hər bir yerində insanlar keyfiyyətli tibbi xidmət almaq üçün, ilk öncə həmin ölkənin tibbi xidmətləri, oradakı müalicəvi təbii imkanları nəzərə alırlar. Xüsusən son 10-15 ildə tibbi və müalicəvi-sağlamlıq turizm çox inkişaf etmiş bir sahəyə cevrilib.

Müalicə turizmi haqqında danışmazadan qabaq, insanların səyahət məqsədlərinə nəzər salsaq, bu turizm növünün tarixdəki ən qədim səyahətlər sırasında olduğunu görərik. Tarixi rəvayətlərdəki

cəsur qəhrəmanlar möcüzəli mineralları, şəfalı otları və müalicəvi suları tapmaq üçün uzaq səfərlərə çıxmış, təhlükələr adlamışlar. Keçilən uzun yoldan sonra isə tapılan həyat iksiri bunların bəzən heç də nağıl deyil, elmi mühakimənin və məntiqin xoşbəxt sonluğu olduğundan xəbər verir. Müasir düşüncələrə görə isə insanın təbiətə olan sonsuz inamına verilən belə mükafatlara təsadüfi sürprizdən çox, bu dünyada hər şeyin məhz insan üçün yaradıldığını sübut edən əvəzsiz bir Tanrı hədiyyəsi kimi baxmaq lazımdır. Belə müalicəvi təbii ehtiyatlar Yer üzündə qeyri-bərabər paylansa da, insanın yaradıcı qüvvəsi onlara harada olursa-olsun çatmaq və sağlamlıq məqsədilə istifadə edə bilmək imkanına malikdir. Müasir elm, texniki nailiyyətlər, sürətli nəqliyyat imkanları ilə bərabər yeni dünyanın yeddi möcüzəsindən biri sayılan turizm də öz sehrli qüvvəsini bu sahədə göstərərək son nəticə etibarilə insanların sağlamılığının bərpa olunmasına yönəlmiş xidmətlər göstərir.

Müalicə turizimin inkişafına aşağıdakı amillər təsir edir:

- Müasir tibbi avadanlıqlardan istifadə;
- İxtisaslı kadrların olması ;
- Xəstəliklərin müalicəsi və əməliyyatların ucuz başa gəlməsi ;
- Tibbi infrasturkurun yüksək səviyyədə olması, müalicəvi kurort zonaların olması və inkişaf etdirilməsi ;
- Hər hansı bir müalicə sahəsi üzrə ixtisaslaşmanın yüksək səviyyə çatması.

Geniş mənada müalicə turizmi əsasn 3 formada təşkil olunur. Bunlar:

·klinika şəraitində müalicə olunmaq üçün bir ölkədən digər bir ölkəyə edilən səfərlər;

·təbii ehtiyatlardan həkim məsləhəti və nəzarəti altında istifadə məqsədilə edəilən səfərlər;

·sır təbii ehtiyatlardan istifadə məqsədi ilə edilən səyahətlər.

Dünyada müalicə turizmi sahəsində lider olan ölkələrə nəzər salsaq görərik ki, burada həm inkişaf etmiş ölkələr, həm də inkişaf etməkdə olan ölkələr vardır. Tibbi infrastruktur və ixtisaslı kadrlarına görə inkişaf etmiş ölkələr ön sıradadır. Xüsusən, Avropada müalicə turizminin inkişat etidiyi ölkələrə Fransa, Almaniya, Macarıstan, Polşanı misal göstərmək olar.

Ölkələr arasındakı tibbi xidmətlərinin qiymətindəki ucuzluq, səhiyyə xidmətlərində bir çox ölkənin yüksək səviyyədə olması müalicə turizminin dünyanın çox geniş bir bölgəsinə yayılmasına təkan vermişdir.

Müalicə-sağlamlıq turizmi məqsədilə səyahət edən insanların çox müxtəlif məqsədləri vardır. Dünya statistikasına əsasən bu insanlar əsasən, daha çox plastik-estetik cərrahiyyə əməliyyatları, göz qüsuru düzəltmə əməliyyatları, diş müalicələri, açıq ürək cərrahiyyəsi, onkoloji xəstəliklərin müalicəsini həyata keçirillər.

Hazırda ABŞ, Macarıstan, Almaniya, İsrail, Türkiyə, Cənubi-Koreya, Hindistan, Tayland, Sinqapur, Filippin, Kuba, Kolumbiya, Kosta-Rika, Cənubi Afrika kimi dünya ölkələri sağlamlıq və rekreasiya xidmətlərinin əsas mərkəzlərindəndir.

Qitələr üzrə müalicə turistlərin hərəkət istiqamətinə baxdıqda, Hindistana ürək əməliyyatları, Taylanda plastik əməliyyatlar, Sinqapura qaraciyər müalicəsi və kök hüceyrə araşdırmaları, Meksikaya xərçəng xəstəliyinin müalicəsi, Kolumbiya, Kosta-Rika, Kubaya kosmetik cərrahiyyə, Macarıstan və Polşaya diş xəstəliklərinin müalicəsi üçün insnaların səyahət etdiyini görməkdəyik. Bu ölkələr müalicə turizmində dünyada qabaqcıl yerdədirlər və onlar həmin sahə üzrə ixtisaslaşmış hesab olunurlar .

Müalicə turizmi Türkiyədə yeni bir bir sahə hesab olunsa da bu sahədə Türkiyə böyük nailiyyətlər əldə edir. Təxminən hər il 300 mindən çox insan müalicə üçün Türkiyəyə səfər edir.

Dünyada ölkələrin müalicə-sağlamlıq turizmində ön plana çıxmaları bir neçə fərqli səbəblə bağlıdır. Bu səbəblər: ölkənin xalis gəlirlərində turizmin payının olması (Sinqapur, Tayland, Kosta-Rika və s.) coğrafi mövqe üstünlükləri (İordaniya, İran, Malaziya, Braziliya və s.) səhiyyə xidmətlərinin keyfiyyəti və texnoloji avadanlığın yaxşı olması (Almaniya, ABŞ, Cənubi Koreya və s.), keçmişdən gələn turizm və müalicə turizminə əhəmiyyət vermə siyasəti (Macarıstanda termal turizm və s.), xarici sərmayə girişi və xaricdə təhsil görmüş həkim üstünlüklərindən istifadə (İordaniya, Hindistan, Malaziya, Braziliya, Malta və s.) və bir çox üstünlüyün bir arada cəmlənməsi – coğrafi mövqe, turizm ölkəsi olması, müalicə sahəsində yüksək inkişaf etmiş texnologiya, keyfiyyətli səhiyyə xidməti təqdimatı, qiymət kimi amillər öz sözünü deyir.

Müalicə-sağlamlıq turizmi bir sıra xüsusiyyətlərinə görə sosial-humanitar məzmun daşımaqla bərabər o həm də yaxşı gəlir sahəsidir. Hazırda dünyanın, o cümlədən ölkəmizin də bir sıra tanınmış klinikalarında aparılan müalicə kursları bu sahənin fəaliyyətinə yaxşı valyuta gəlirləri gətirir. Ona görə də bu məsələyə maraqlı olan ölkələrdə sahə üzrə idarəedicilər müalicə turizmini stimullaşdırmaq üçün lazımı tədbirlər görür, güzəştlər tətbiq edirlər.

Müalicə turizminin digər yarımnövlərinə gəldikdə isə burada vəziyyət çox müxtəlif olub, qeyri-standart resurslar və təbii-iqtisadi şərtlər özünü göstərir. İlk növbədə, təbii ehtiyatlardan bu məqsədlərlə istifadə zamanı regionun coğrafi mövqeyi və onun sosial infrastruktur şəraiti ön plana çıxır. Daha doğrusu, regionun turizm imkanları birbaşa olaraq müalicə məqsədli turistlərin də səfərlərinə təkan verir. Halbuki, klinik müalicə məqsədilə səfər edənlər üçün, əsasən müalicə müəssisənin öz imkanları-bina, tibbi kadrlar, avadanlıq və sair kifayət edir. Bundan başqa, belə turistlər əlavə xidmətlərlə maraqlanmadığından onların region iqtisadiyyatına dolayı yolla təsiri də zəifdir. Ancaq müalicə turizminin digər yarımnövlərində vəziyyət tamamilə başqa olub, müasir turizmdən gözlənilə bilən hər cür səmərə haqqında fikir söyləməyə əsas verir. Belə ki, təbiətlə ünsiyyətdən şəfa umanlar gəldikləri regionun havası onlara düşdükdə özlərin yenidən doğulmuş kimi hiss edir, sanki cənnətin qapısında növbə tutmağa tələsirlər.

ƏDƏBİYYAT

1. Məmmədov C. A, Soltanov H. B, Rəhimov S. H "Beynəlxalq Turizmin Coğrafiyası" Bakı-2002
2. Təyyar Səmədzadə "Dünyada tibbi və müalicəvi-sağlamlıq turizimin inkişaf dinamikası <http://www.coqrafiya.info/2015/03/dunyada-tibbi-mualicvi-turizm.html>" məqaləsi
3. Ə.X.Cabbarov. Дары природы: лечебный туризм в Азербайджане. опыт и перспективы. Национальный туристский журнал «Туристские Фирмы». Выпуск 45, СПб.: Невский Фонд, 2008, с.139-145.
4. "Cennetmekani. wordpress. com"
5. "www. marja. az"
6. "www. onlinemedicaltourism-trends. com"

İlahə ƏLİYEVA
Azərbaycan Turizm və Menecment Universiteti,
doktorant
i.aliyeva@atmu.edu.az

Azərbaycanda turizm sahəsi üzrə fasiləsiz peşəkar təhsil sisteminin inkişaf istiqamətləri

Направления развития непрерывного профессионального образования в сфере туризма в Азербайджане

Directions of development of continuous professional education in the field of tourism in Azerbaijan

Xülasə: Təqdim olunan məqalədə əsas məqsəd turizm sahəsində innovasiyalar kompleksinin həyata keçirilməsi istiqamətində peşəkar turizm kadrlarına qarşı ortaya qoyulan tələblər və onların əsaslı surətdə və fasiləsiz hazırlığı sisteminin, ixtisas səviyyəsinin yüksəldilməsi və kadrların yenidən hazırlanmasının effektiv praktikasının mövcud olmaması arasındakı, həmçinin əhalinin turizm-ekskursiya xidmətlərinə olan tələbatlarının obyektiv artımı və həmin tələbatları ödəmək iqtidarında olan müasir peşəkar kadrların çatışmazlığı arasındakı ziddiyyətləri nəzərə almaqla turizm sahəsi üzrə fasiləsiz peşəkar təhsil sisteminin təşəkkül tapması və inkişafının əsas tendensiyaları, prinsipləri və şəraitinin istifadə olunmasıdır.

Açar sözlər: fasiləsiz təhsil, turizm təhsili, kadr hazırlığı

Резюме: Основная статья в этом документе посвящена решению проблем, с которыми сталкиваются профессиональные туристические кадры при внедрении инновационного туристического комплекса, а также отсутствию эффективных систем обучения и переподготовки, нехватке эффективных услуг по обучению и подбору персонала. основные тенденции, принципы и условия создания и

развития системы непрерывного профессионального образования в сфере туризма с учетом противоречий между объективным ростом спроса и нехваткой современных профессиональных кадров, способных удовлетворить эти потребности.

Ключевые слова: непрерывное образование, туристическое образование, подготовка кадров

Abstract: The main article in this paper is to address the challenges faced by professional tourism cadres in the implementation of the tourism innovation complex, and the lack of effective training and retraining systems, lack of effective training and staffing services. the main trends, principles and conditions for the establishment and development of a system of continuous professional education in the field of tourism, taking into account the contradictions between the objective growth of demand and the shortage of modern professional staff capable of meeting these needs.

Keywords: continuous education, tourism education, training

Tədqiqat işi nəzəri-empirik təhlil, məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın praktiki əhəmiyyəti turizm sahəsiz üzrə peşəkar fasiləsiz təhsil sisteminin inkişaf etdirilməsi nəticəsində əldə olunmuş praktiki nəticələrin, işlənib hazırlanmış normativ-hüquqi aktların, o cümlədən turizm təhsili də daxil olmaqla, tətbiq edilməsi məcmusu ilə, sosial münasibətlər, yerdəyişmələr, münasibətlər, mübadilələr, millətlərarası və beynəlxalq kontraktlar və əməkdaşlıq sferasında pedaqoji prosesi və peşəkar turizm prinsiplərini tənzimləyən metodiki tövsiyələrin və müddəaların hazırlıqlığı ilə müəyyən edilir. Tədqiqatın nəticəsi olaraq turizmin məqsədləri üçün kadrların öyrədilməsinin fasiləsiz sistemi, tədris standartları və proqramların, turizm profilli mütəxəssisin peşəkar-mühüm keyfiyyətlərin və xüsusiyyətlərinin formalaşdırılması sisteminin yaradılmasının məqsədəuyğunluğu, turizm sahəsi üzrə fasiləsiz peşəkar təhsil sisteminin fəaliyyətini müəyyənləşdirən əsas tendensiyaların, prinsiplərin və təşkilati-pedaqoji şəraitin xarakteristikası əsaslandırılmışdır. Tədqiqatın elmi yeniliyi və orjinallığı: fasiləsiz turizm təhsili sisteminin inkişaf etdirilməsinin əsas tendensiyaları üzə çıxarılmışdır, həmin tendensiyalara aid edilir: konstruktiv-iqtisadi, təcrübi-empirik, texnoloji-pedaqoji, fərdi-yönümlü və peşəkar tendensiyalar; turizmdə fasiləsiz peşəkar təhsil sisteminin effektiv fəaliyyətinin prinsipləri müəyyən edilmişdir: fasiləsizlik, mütərəqqi, nəzəri biliklərin, eləcə də ixtisaslaşma sahələrin və bacarıqların praqmatizmi, plana uyğunluğu, inteqrasiya olunması, vərəsəlik (ardıcıllıq yolu ilə ötürülmə) və sosiallaşma; turizm fəaliyyəti sferasında fasiləsiz peşəkar təhsilin təmin edilməsi istiqamətində elmi-metodiki və informasiya-texniki vasitələr kompleksi işlənib hazırlanmışdır.

XXI əsrin astanasında turizm məqsədləri üçün peşəkar turizm təhsili sisteminin inkişaf etdirilməsi milli və dünya iqtisadiyyatının müəyyənləşdirici vektoruna, habelə regionlararası və beynəlxalq əməkdaşlığın böyük sosio-mədəni fenomeninə çevrilmişdir. Turizm özünün sosial-pedoqoji və mədəni-iqtisadi məkanını formalaşdırır ki, onun çərçivəsində rəqabət, ziddiyyətlər və münaqişələr əmələ gəlməyə başlayır. Dünya iqtisadiyyatında, mədəni-tarixi irsin ideyaları və dəyərlərinin sərbəst mübadiləsində aparıcı yer tutaraq, turizm tərbiyənin və polimədəniyyət tolerantlığın effektiv vasitəsi qismində çıxış edir. Turizmin inkişafı peşəkar turizm təhsini sistemində, onun müxtəlif istiqamətlərdə: sənaye sektorunda, sosial hərəkatlarda və birliklərdə, mədəni-idrak və turizm fəaliyyətində, turizm maarifləndirilməsində, tədrisində və tərbiyəsində mütəxəssislərin hazırlanması problemini aktuallaşdırır. Kadr resursları problemi "estetik və etnik turizmin", ətraf mədəniyyəti və təbiət mühitini qoruyan turizmin aktual aspektləri ilə sıx bağlıdır. Turizm sferasında təhsil mədəni irsin qorunması və ünsiyyət üçün geniş imkanlar açır və bunun sayəsində təkcə daşdan hazırlanmış tarixi abidələri deyil, həm də ünsiyyət dilini, adət və ənənələri, rəqsləri, folkloru və bir çox digər tərkib hissələri qoruyub saxlamış olur. Turizm sferasında peşəkar təhsil ümumilikdə turizm hərəkatının bütövlükdə inkişaf etməsi ilə bağlı məsuliyyət daşıyan mütəxəssis formalaşdırır.

Turizmin ictimai və peşəkar hədəfləri turizm fəaliyyətinin həyata keçirilməsi nəzərdə tutulan məqsədləri, vəzifələri, xarakteri, tenologiyası, infrastrukturu, səbəbləri, planlaşdırılması və təyinatı vasitəsilə ifadə olunaraq həm peşəkar turizm təhsilinin təşəkkül tapması üçün, həm də təhsilin həlqələrin və komponentlərinin strukturunun sistemləşdirilməsinə onun cəhdləri, eləcə də vəhdət, bütövlülük və turizm təhsilinin əsaslarının və şəraitinin daim inkişaf etdirilməsi, turizm sferasında ça-

lışacaq mütəxəssislərin və işçilərin hazırlanması və tədrisi üçün ikinci tendensiyanın meydana gəlməsinə gətirib çıxarır.

Turizm fəaliyyəti sahəsində təhsil həm turizmin özünün inkişafının, onun qeyri-mütəşəkkiliyinin, natamam inkişafının, coğrafi rayonların və təbii-iqlim ərazilərinin məhdudluğunun nəticəsidir, bundan əlavə, nə qədər paradoksal səslənsə də, həmçinin turizmin inkişafını qabaqlayır, turizm sferasında peşəkar təhsilin hamı üçün əlçatan olan fasiləsiz sistemin formalaşdırılması və fəaliyyət göstərməsinin məntiqini, spesifik xüsusiyyətlərini, pedaqoji şəraitinin müxtəlifliyini və çoxamilliyini əsaslandırır.

Turizmin maliyyələşməsi, onun spesifik fəaliyyətinin iqtisadi nöqteyi-nəzərdən təmin edilməsi deməkdir. Turizmin inkişafı, vəziyyəti və məhsuldarığı, eləcə də kadrların hazırlanması sistemi əhəmiyyətli dərəcədə məhz bu amillə şərtləndirilir.

Sistemin sabitliyini və effektiv fəaliyyətini təmin edən cəhət onun təşkilati strukturudur. Bu zaman iki aspekt nəzərdə tutulur: turizm ümumilikdə (və növ-formaları üzrə), eləcə də turizm təhsili, turizm mütəxəssislərin hazırlanması sistemi.

Peşəkar təhsil sisteminin bütün səyləri nəticəsiz yaxud qismən reallaşdırılmış yalnız o hallarda qala bilər ki, əgər idarəetmə subyekti (o cümlədən, konkret müəllif) amillər çoxluğunu üzə çıxarmaqda və onları əsaslandırmaqda, təklif edilən fəaliyyət çərçivəsində insanların iştirakının fəallıq dərəcəsini əhəmiyyətli şəkildə müəyyənləşdirən fərdi amilləri aktiv hala gətirməkdə aciz qalacaq. Bu zaman əks əlaqə informasiyasının, yəni insanın məqsədləri, əsas istiqamətləri, münasibətləri və real davranışı haqqında məlumatların yüksək rolu və məsuliyyəti üzə çıxır və müəyyən olunur. Burada aşağıdakılar nəzərdə tutulur:

- "insan ümumiyyətlə" turizm məhsulunun istehlakçısı, turizm, ekskursiyalar həvəskarı kimi;
- turizm (ekskursiyalar, ölkəşünaslıq və s.) sferasında peşəkarcasına fəaliyyət göstərən mütəxəssis kimi;
- turizm tədbirlərinə birbaşa cəlb olunmuş şəxslərə bilavasitə sosial-pedaqoji təsir göstərən, müxtəlif növ turizm tədbirlərinin ictimai təşkilatçısı (klubun, dərnəyin, qrupun və sair) rəhbəri və fəalı kimi.

- Müasir şəraitdə həyata keçirilən turizm-təhsil fəaliyyətinin mühüm tələbi qismində aşağıdakıların olması qeyd edilməlidir: təcrübəli və gənc peşəkar müəllimlərin və işçilərin bir araya gətirilməsi, kadrlarla pedaqoji və təşkilati işinin təkmilləşdirilməsi, irəli çəkilməsi məqsədilə bilikli, səriştəli və etibarlı ehtiyatın hazırlanması, peşəkar təhsil sistemi, kadrların hazırlanması istiqamətində tətbiq edilə biləcək vasitələrin və üsulların düzgün seçilməsi məqsədilə dəqiq qiymətləndirmə işlərinin aparılması. Turizm sferasında şalışan mütəxəssisin vətəndaş mövqeyində sərgilədiyi mühüm prinsip təkcə kadrların işgüzarlığına, səriştəliliyinə, peşəkar məsuliyyətlərinə dair irəli sürülən tələblər deyil, həm də dünya təsərrüfatı turizm əlaqələrin dərinləşən beynəlmiləlləşdirilməsi prosesinin nəzərə alınmasının ciddi surətdə və ardıcıllıqla həyata keçirilməsidir. Millətlərarası və vətənpərvərlik həmrəyliyi və mütəşəkkilliyi turizm, mübadilə, kontraktlar və yerdəyişmələr vasitələri ilə vətəndaş dərkinin inkişaf etdirilməsi və yüksəlməsi, habelə çoxmillətlilik şəraitində xalqların inkişafı və qarşılıqlı surətdə mənəvi zənginləşməsi üçün təşkiledici və kadr ilkin şərtlərinin yaradılması məsələsini ön plana irəli sürmüş olur.

- Burada belə bir vəzifə hasil olunur – turizm fəaliyyətinə Azərbaycan Respublikası ərazisində yaşayan bütün xalqlar və millərlər, vətəndaşlar və əhalinin sosial təbəqələri və qrupları cəlb edilməlidir ki, ictimai turizm əlaqələrində iştirak edənlərin tərkibi milli strukturu əks etdirsin, habelə bizim ölkədə yaşayan əhalinin bütün sosial təbəqələrinin fətəndaş şüurunun formalaşdırılmasının mühüm alətinə çevrilmiş olsun.

- İnsan amilinin fəallaşdırılması turizm aktivinin ictimai və kadr aktivinin rolunu artırır və gecləndirir. Bu isə o deməkdir ki, turizm sferası üçün peşəkar kadrların hazırlanması sisteminin çıxış nöqtəsi qismində sosial-turizm birlikləri çıxış edir, o cümlədən, misal üçün, Ümumrusiya xalq turizm cəmiyyəti, turizm-idma ittifaqı, uşaq və yeniyetmələr turizmin mərkəzi – ictimai turizm hərəkatlarının təşkiledici və *sosial* bazası. Müasir xüsusiyyətlər keçmiş dövrlər ərzində toplanmış təcrübəni nəzərə alır və tənqidi nöqteyi-nəzərdən dərk edir, həmin təcrübə kəskin artımın, təşkilatçıların, funksionerlərin və turizm sferasında çalışan digər işçilərin kadrlar bazasının öyrdilməsi struktu-

runun və proqramlarının tamamlanması və yenilənməsinin zəruriliyini ortaya qoyur; ikincisi, kadrlarla işləmək və onların peşəkar tədrisi sisteminin mahiyyəti aşağıdakıları ehtiva edir: turizm fəaliyyəti sferasında peşəkar təhsil sisteminin təmin edilməsi və həyata keçirilməsinin konkret istiqamətlərini, prinsiplərini, şərtlərini, meyarlarını, qiymətləndirmələrini, eləcə də iş üsullarını və xarakterinin özünü; üçüncüsü, ünsiyyət, səriştəlilik və məlumatlandırılma vərdişlərinin formalaşdırılması məqsədilə mütəlif səviyyələrə məxsus tələbələr və dinləyicilər qismində turizm sferasında çalışan kadrların və aktivinin iştirakının genişləndirilməsi və məcburiliyi aktual xarakter daşıyır. Qeyd etdiyimiz bu tələb konkret turizm təşkilatçılarının, rəhbələrin və ixtisaslı işçilərin peşəkar, ictimai və işgüzar ixtisas səviyyəsinin yüksəldilməsinin mütləq şərti qismində çıxış edir; dördüncüsü, turizm əlaqələri sistemində fəaliyyət göstərən kadrların seçilməsi, yerləşdirilməsi, hazırlanması, təhsili və tərbiyəsi, eləcə də turizm idarə və müəssisələri, özfəaliyyət birlikləri və klubları ilə düşünülmüş peşəkar-təhsil və təşkiledicilik işi vasitəsilə, habelə onların ictimai-turizm fəaliyyətinə cəlb edilməsi və onların fəallığının yüksəldilməsi üçün turizm təsirinin gənişləndirilməsi məsələləri üzrə oxşar və qohum tədris müəssisələri ilə qarşılıqlı fəaliyyətin gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

- Problemin qoyuluşu turizm sferasında çaışlan kadrlarla aparılan iş çərçivəsində rəhbər tutulmalı olan meyarları konkretləşdirir. Həmin konkretikanı XXI əsrin əvvəlində biz yerli və xarici turizm proqramlarının, turizmin özfəaliyyət başlanğıclarının yaradılması və inkişafı sahəsində peşəkar standartların əməkdaşlığı çərçivəsində görə bilirik.

Peşəkar təhsil sosial sifarişin təsiri və sərt təzyiqi ilə üzləşir. Belə ki, ixtisaslı kadrların qıtlığı mövcuddur, və işlənib hazırlanan proqramln qarşısında qoyulan vəzifələrdən biri də turizm sistemində kadrların hazırlanmasının, yenidən hazırlanmasını və ixtisas səviyyələrinin yüksəldilməsinin müasir sisteminin yaradılmasından ibarətdir ki, bunsuz Azərbaycan Respublikasının dünya turizmi və turizm sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi sisteminə inteqrasiyası qeyri-mümkündür.

Turizm sferası üçün kadrların hazırlanması problemini hazırda mövcud olan təhsil sisteminin strukturunda müvafiq yenidənqurma işlərinin həyata keçirilməsi və əlavə tədrisin bizə bəxş etdiyi geniş imkanların hərtərəfli tətbiq edilməsi yolu ilə həll etmək nəzərdə tutulurdu[1]. Proqram çərçivəsində turizmin inkişafının kadr təminatına aşağıdakılar daxil idi:

- mütəxəssislər kadrlarına olan tələbatın müəyyənləşdirilməsi;
- turizm peşələrinin və müvafiq tədris ixtisaslarının siyahısının müəyyənləşdirilməsi;
- tədris proqramların və metodik vəsaitlərin işlənib hazırlanması;

ixtisaslaşdırılmış tədris müəssisələrinin geniş şəbəəsinin formalaşdırılmasına və müəllimlər kadrların hazırlanmasına yardım.

Dünyanın aparıcı turizm məktəblərində mütəxəssislərin hazırlanması istiqamətində toplanmış təcrübə, onların proqramlarının, tədrisin məzmununun və təhsilin əsas modellərinin araşdırılması göstərmişdir ki, bu yöndə toplanmış təcrübə turizm profilli təhsil strukturlarının praktiki fəaliyyətində turizmin spesifik xüsusiyyətlərinin nəzərə alınması ilə məntiqlə və səmərəli hüdudlar çərçivəsində tətbiq edilə bilər. Belə ki, ənənəvi isveçrə (lozann) modeli, praqmatik amerikan modeli, klassik britaniya metodikası peşəkar turizm təhsili sisteminin tələblərinə və standartlarına yalnız qismən cavab verir.

Tədrisin məzmununun gələcək peşəkar fəaliyyətin tələblərinə müvafiq olması, təhsilin istehsal təcrübəsi ilə bağlılığı, iş yerində təhsil almaq imkanı, nəzəri kursların və praktiki fənnlərin qarşılıqlı bağlılığı, tədris kursu müddətində iş yerində ödənilən uzunmüddətli təcrübə - bütün bunlar xaricdə yüksək ixtisaslı mütəxəssisin əsasını formalaşdıran amillərdəndir. Turizm təhsilinin və kadrların peşəkar artımının xarici ölkələrin təcrübəsində mövcud olan müxtəlif məktəblərin və turizm tədrisi metodiklərin təcrübəsini və xarakterini nəzərdən keçirək.

Heç bir şebhə ola bilməzk ki, turizm kadrların tədrisinin təkmilləşdirilməsi faktı, hər şeydən əvvəl, turizm prosesinin idarəetmə məsələlərin həllinə dair keyfiyyətcə tamamilə yeni yanaşmaların işlənib hazırlanması ilə bağlıdır. İdarəetmə dedikdə daha ümumi şəklidə sistemin bir vəziyyətdən di-

gər vəziyyətə məqsədyönlü keçid sistemi başa düşülür. Beləliklə, mütəxəssisin hazırlanması prosesini daha effektiv surətdə idarə etmək məqsədilə belə hazırlığın oriyentirini və son hədəfini dəqiq və dürüst görmək lazımdır. Uzun müddət ərzində bu kimi oriyentir qismində bu və ya digər ixtisaslaşma üzrə mütəxəssisin ixtisas xarakteristikası çıxış edirdi. Burada, bir qayda olaraq, gələcək peşəkara zərurət halında lazım ola biləcək biliklər, bacarıqlar və səriştələr müfəssəl formada təsvir olunur.

Mülahizələrimizə görə, ixtisas xarakteristikası mütəxəssisin az çox adekvat modeli qismində dəyərləndirilə bilməz, məsələ burasındadır ki, həmin xarakteristika psixofiziki keyfiyyətlər kimi mühüm bir parametri ehtiva etmir, ancaq bu keyfiyyətlərə öz peşəkar fəaliyyətində uğur qazanmaq üçün mütəxəssis mütləq şəkildə sahib olmalıdır. Hamı tərəfindən qəbul edilib ki, məhz bu kimi keyfiyyətlərin spesifik səciyyə daşıyan çeşidi sadəcə olaraq peşəkar fəaliyyətin müvəffəqiyyətliliyini və effektivliyini limitləşdirmir, həm də mütəxəssisin peşəkar ozonömürlülüyünü müəyyən etmiş olur. Həmin tezis turizm əlaqələrin dinamikasının təhlili ilə təsdiqlənir. Son illər ərzində tələb olunan mütəxəssislərin biliklər və səriştələr struktrunda kifayət qədər əhəmiyyətli dəyişikliklər müşahidə olunur.

Beləliklə, ixtisaslaşma xarakteristikasının kifayət edəcək qədər olmaması mütəxəssisləri mütəxəssisə qarşı irəli sürülən tələbləri daha dolğun və daha adekvar surətdə əks etdirən başqa bir tədris modelinin axtarışlarına mütəxəssisləri sövq etmiş oldu. Belə model qismində mütəxəssisin fəaliyyətinin professioqrafik xarakteristikaqı göstərilə bilər ki, onu professioqrammanın tərkib hissəsi kimi dəyərləndirmək lazımdır. Belə professioqrafik xarakteristika zəruri biliklərin, bacarıqların və səriştələrin sadalanması ilə yanaşı aşağıdakıları müəyyənləşdirən psixofiziki keyfiyyətlərin kifayət qədər tam siyahısını ehtiva etməlidir:

- insanın müstəqil təşəkkürə və düşüncə qabiliyyətinə malik olması, o cümlədən, onun peşəkar fəaliyyəti çərçivəsində rast gələ biləcək məsələlərin həlli zamanı;

- öyrənmək qabiliyyəti, yəni biliklərin həmin sahəsində istifadə olunan müəyyən kanonların və qaydaların mənimsənilməsi bacarığı;

- təhsil prosesində və gələcək praktiki fəaliyyət zamanı özünü təkmilləşdirilməsi, öz bacarıqlarının artırılması qabiliyyəti;

- peşəkarlıq uzunömürlülüyü, yəni işin effektivlik göstəricilərində hər hansı azalmalar yaxud geriləmələr müşahidə olunmadan uzun illər ərzində öz peşə öhdəliklərini yerinə yetirmək qabiliyyəti.

Yuxarıda deyilənlərdən aydın görmək mümkündür ki, turizm sferasında peşəkar təhsilin başlıca məqsədi qismində tədris sisteminin ixtisaslarının və ixtisaslaşma sahələrinin çeşidinin genişləndirilməsi zərurəti dayanır, buda turizm məşğulluğu problemləri, eləcə də əhalinin turizm təhsilinin sosial nöqteyi-nəzərdən dəstəklənməsi şəraitinin yaradılması ilə olduqca sıx bağlıdır. Xüsusən, təbii resursların, turizm əlaqələrinin, milli mədəniyyət dəyərlərinin əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində istifadə olunmasıeffekti bir çox cəhətdən mütəxəssislərin işinin keyfiyyətindən asılıdır. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, turizm opereytinqi sferası üçün mütəxəssislərin hazırlanması təcrübəsi sağlam şəkildə asudə vaxtının keçirilməsinin və turizm tərbiyələndirilməsinin, şəxsiyyətin sağlamlaşdırılması və təhsil tələbatların ödənilməsinin təşkilediciliyi sahəsində əhalinin maraqlarının təmin edilməsinə deyil, "yanaşı infrastruktur" adı ilə tanınan (yerləşdirmə, xidmət, yerdəyişmə, reklam və s.) sahədə əməyin təşkil edilməsinə yönəldilib.

Hazırki dövrdə kadr resurslarının hazırlanması istiqamətində təşəbbüs edilən və həyata keçirilməkdə olan tədbirlər həm turizm ittifaqları və birliklərin iştirakçıları ilə, həm də yerli təcrübəyə qarşı diqqətçil münasibətilə əlaqədardır ki, bu da turizm kompleksində fəaliyyət göstərəcək mütəxəssislərin hazırlanması gedişində təhsilin yeni məqsədlərinin və oriyentasiyaların sərgilənməsinin zəruriliyinə gətirib çıxaracaq, daha dəqiq:

- Azərbaycan Respublikası regionları üzrə xüsusi turizm və sosial proqramların animatorların (ixtisaslaşma ilə);

- turopereytinq və sağlamlaşdırıcı mübadilə üzrə mütəxəssislərin (turizm əlaqələri və informasiya texnologiyaların növləri üzrə ixtisaslaşşma ilə);

- turizm və ixtisaslaşmış mübadilə üzrə mütəxəssislərin (yerdəyişmə və mübadilələrin növləri üzrə ixtisaslaşma ilə).

ƏDƏBİYYAT

1. Ağamalıyev K., Orucov Z. H., Azərbaycanda müasir peşə təhsili: kadr hazırlığı və idarəetmə, texniki peşə təhsili üçün dərs vəsaiti, Bakı: Mütərcim, 2009, 240 s.
2. Atay L., Yıldırım M. Lisans Düzeyinde Turizm Eğitimi Alan Öğrencilerin Memnuniyetine Yönelik Bir Araştırma, 2009.
3. Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət proqramı. Bakı şəhəri, 2 avqust 2002.
4. Bazar iqtisadiyyatı şəraitində əmək bazarının tələblərinə uyğun peşə və orta ixtisas təhsilli kadr hazırlığı problemləri. Əmək və Sosial Problemlər üzrə ETTM "Əmək bazarı və məşğulluq problemləri" şöbəsinin hesabatı, 2006.
5. Aymankuy Y., Aymankuy Ş. Önlisans ve Lisans Düzeyindeki Turizm Eğitimi Veren Yüksek Öğretim Kurumlarının Bulundukları Yerlerin Analizi ve Turizm İçin Bir Model / Turizm Eğitim Konferansı, Ankara, 2002
6. Yrd. Doç. Dr. Hüseyin Altay, Yrd. Doç. Dr. Mehmet Oğuzhan İlban. Turizm işletmelerinde çalışan personelin güçlendirme konusundakı algılarına yönelik bir araştırma, 2002,
7. Bakieva G. R., Organizing Training Of Personnel For Tourist Enterprises // Transfer inovácií 29/2014, 22-25 p.
8. Batool A.&Bariha B. Effects of Employees training on Organizational Competitive Advantage: An Empirical study, 6 (1)
9. Аверин А. Н. Профессиональная подготовка кадров. М.: Издательство «Альфа-Пресс», 2008
10. Алакбаров У.К. Кадровая политика в целях устойчивого развития как приоритет государственной политики Азербайджанской республики. Жур. Проблемы управления. №1(58), 2016С.40-43
11. Бурякова Е. Модель профессиональных компетенций // Кадровик. 2006, № 4, С. 55-57.

Azər QƏDİRLİ
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
azer.qedirli1994@mail.ru

Abşeron yarımadasının "Yaşıl zonası"

"Зеленая зона" Апшеронского полуострова

"Green zone" of the Absheron peninsula

Xülasə: Abşeron rayonu həm infrastruktur cəhətdən həm də təbii-rekreasiya ehtiyatlarının zənginliyinə görə ölkənin daha çox turist qəbul edən bölgəsidir. Son zamanlar Yaşıllaşdırma Təsərrüfat Birliyi yarımadanın müxtəlif ərazilərində, xüsusilə Bakı şəhərində parklar, bağlar və digər istirahət yerlərində yaşıllıq plantasiyaları salmışdır. Həmin ərazilərə dünyanın müxtəlif bölgələrindən ot toxumları, bitki və kol örtüyü, gül kolları, ağac növləri gətirilmiş və şəraitə uyğunlaşdırılmışdır. Abşeron yarımadasında park və bağların salınmasında iynəyarpaqlı ağacların əkilməsi ərazinin ümumi quruluşunu dəyişməsinə baxmayaraq havada olan zərərli maddələrin qarsısını almaqda böyük rol oynayır. İnsanların kütləvi gəzinti və asudə vaxtı səmərəli keçirməsi üçün ərazidə meşə örtüyünün olmaması baxımından yaşıllıq ərazilərin sayının artırılması zəruri haldır.

Açar sözlər: infrastruktur, təbii-rekreasiya, yaşıllaşdırma, yaşıllıq, park, bağ, ot, gül, ağac, kol, bitki, meşə örtüyü və s.

Резюме: Апшеронский район является наиболее туристическим регионом страны из-за своей инфраструктуры и богатых природных и рекреационных ресурсов. В последные время Объединение Зеленого Хозяйства создал парки, сады в разных странах полуострова, особенно в Баку, а также зелёные плантации в других местах для отдыха. На это место привезены из других стран мира и адаптированы к условиям семена кустарников, растение и кустарники цветов, виды деревьев. В Апшеронским полуострове посадка хвойных деревьев при создании парков и садов не смотря изменяют общую струкуры зоны, но играют важную роль в предотвращение вредных веществ в погоде. Чтобы осуществить массовые прогульки людей и эффективно проводить свабодное время необходимо увеличить количество зелёных насаждений.

Ключевые слова: инфраструктура, природно-рекреационные ресурсы, озеленение, зелень, парк, сад, трава, цветок, дерево, кустарник, растение, лесной покров и т. Д

Abstract: Absheron district is the most tourist-accepting region in the country due to both infrastructure and rich natural and recreational resources. Recently, the Greening Association has planted greenery in parks, gardens and other recreational areas in the peninsula, especially in Baku. The grasslands, vegetation and shrubs, flower bush species, tree species from various regions of the world have been brought to these areas and adapted to the conditions. Planting coniferous trees in the Absheron peninsula, while planting trees, plays a major role in preventing harmful substances in the air, despite changing the overall structure of the area. Increasing the number of green areas is a must for people to carry out mass walks and spend leisure time effectively.

Keywords: infrastructure, natural-recreational, greenery, greenness, park, garden, grass, flowers, trees, shrubs, plants, forest cover and so on.

Abşeron yarımadasında yaşıllaşdırma işlərinin aparılması XIX əsrin sonlarına təsadüf edir. Abşeron ərazisində yaşıllıq zonaların salınması, buraya gətirilmiş ot və kol bitkilərinin əraziyə adaptasiya olma dərəcəsi yoxlanılmış və mühitə uyğun olaraq salınmışdır. Çünki, bitkilərin uzunömürlü olması üçün bu kimi amillər nəzərə alınmalıdır. Müxtəlif yarpaq və rənglərə malik olan kol və ağac növləri yarımadanın torpaq örtüyünə uyğun gəldiyi üçün meşəlik və yaşıllıq ərazilərin salınmasında böyük rola malik olmuşdur. İnsanlar əsasən, yaşıllıq ərazilər çox olan yerlərə üz tutaraq, burada əsəb gərginliyi, iş yorğunluğu kimi problemlərini aradan qaldıraraq həyatdan mənəvi zövq almağa çalışırlar. Ümumilikdə, ekoloji tarazlığın bərpa olunması, insanların asudə vaxtlarının normal şəraitdə keçirtməsi üçün Bakı şəhərində yaradılmış parkların xüsusi əhəmiyyəti olduğunu qeyd etməliyik. Bakı və şəhərətrafı ərazilərdə çoxsaylı parklar inşa edilmiş və ya köhnə tipli parklarda yenidənqurma işləri aparılmışdır. Bakı şəhərinin yaşıllaşdırma tarixi haqqında ilkin məlumatları Əbdürrəşid Bakuvi və Övliya Çələbi vermişdir. Övliya Çələbinin verdiyi məlumatlardan məlum olur ki, hələ XVII əsrdə Bakıda minlərlə ev, hamamlar, bağlar, baxçalar, məscidlər, karvansaralar fəaliyyət göstərirmiş. Abşeronda ilk parkların yaradılması qədim Şumer və Babilistan mədəniyyətindən götürüldüyü qeyd olunur. Bakı şəhəri quberniya mərkəzi olduqdan sonra burada yaşıllaşdırma işləri daha da sürətlənmişdir. Ümumilikdə, Bakı şəhərində yaşıllaşdırma işlərinin həyata keçirilməsində R.R.Xovenin böyük fəaliyyəti olmuş və onun verdiyi tapşırığa əsasən, Bakıda mövcud olan boş ərazilər yaşıllıqla örtülmüşdür [3, s 218].

İndi isə Abşeron yarmadasına daxil olan parklar və bağlara nəzər yetirək:

Dənizkənarı Milli Park - 1909-cu ildə əsası qoyulmuş Dənizkənarı Milli Parkın hal-hazırda ümumi sahəsi 214,164 hektar təşkil edir. XIX əsrin əvvəllərindən bu günə kimi Dənizkənarı Milli Parkda aparılmış yenidən qurma işləri nəticəsində həm parkın cəlbedici görünüşü, həm də ərazisi xeyli artmışdır. Ulu Öndər Heydər Əliyevin həm ölkənin, həm də bu ərazinin tarixiliyinin qorunmasına göstərdiyi diqqət ölkəmizi dünyada tanıtdıran, mədəniyyət incisi olan parka 1998-ci il dekabrın 29-da Milli Park statusu verməsi bu ərazinin inkişafına böyük təkan vermişdir. Parka göstərilən diqqət və qayğı nəticəsində ərazidə həm təmir-bərpa işləri, həmdə yaşıllaşdırma işlərinin sürətlənməsi baş verdi. Dünyanın müxtəlif ölkələrindən parkın ərazisinə fərqli ağac və kol bitkiləri gətirildi. Parkın ərazisində mövcud olan bir neçə obyektin təmir edilməsi və yenisinin inşa edilməsi prosesi başlanıldı.

Dənizkənarı Milli Park tarixiliyin qorunması və təbliğ olunması ilə yanaşı, şəhər əhalisi və ölkəyə gələn qonaqların ən sevimli, istirahət etdikləri ərazilərdən biridir. Şəhər əhalisinin parkda rahat və təhlükəsiz istirahət etməsi üçün təhlükəsizlik xidməti yaradılmışdır. Parkın müxtəlif hissələrində yerləşən kameralar və təhlükəsizlik xidmətinin işçilərinin insanların arasında xüsusi nəqliyyat vasitəsilə gəzməsi, insanların həm parkda sərbəst hərəkətinə, həm də sərbəst istirahətinə şərait yaradır. Hər il aparılan təmir-bərpa işləri nəticəsində parkın ərazisi xeyli məsafədə genişlənmiş və parkın ərazisinin infrastrukturu xeyli inkişaf etdirilmişdir. Parkın müxtəlif hissələrində salınmış oturacaqlar köhnəsi ilə əvəz olunmuş, müasir işıqlandırma sistemlərinin quraşdırılması sayəsində insanların parkda gecə rahat şəkildə hərəkət etməsinə şərait yaradılmışdır.

Şəhər sakinləri və qonaqların diqqət mərkəzində olan, onların istirahət etmək, gözəl rəsmlər çəkmək üçün daim gəldikləri ərazilərdən biri də Bulvar ərazisində inşa edilmiş "Kiçik Vensiya şəhər-

ciyidir". İtaliyanın Venesiya şəhərinin oxşarı olan bu şəhərcik 1960-cı ildən sakinlərin istifadəsinə verilmişdir. 9,8 m^2 ərazini əhatə edən şəhərcikdə uzunluğu 1350 m, dərinliyi 1,3 m olan kanal fəaliyyət göstərir. Kanalın üzərində qurulmuş kiçik körpülər digər əraziyə keçməyə şərait yaradır. Ölkə Prezidenti İlham Əliyev cənablarının 2011-ci il martın 30-da verdiyi sərəncama əsasən, Kiçik Venesiya şəhərciyində təmir-bərpa işləri aparılmış, kanalın ümumi sahəsi genişləndirilmişdir. Təmir-bərpa işləri aparıldıqdan sonra şəhərcik sakinlərin istifadəsinə 2012-ci il may ayının 28-də verilmişdir. [4]

Mərkəzi Nəbatat Bağı - Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərən, şəhərimizin qiymətli incilərindən biri də Mərkəzi Nəbatat Bağıdır. Mərkəzi Nəbatat bağında son zamanlar yerli əhalidən əlavə şəhərimizə gələn xarici qonaqları da görmək mümkündür. Bağda uşaqların əylənməsi üçün xüsusi yerlərin olması və yelləncəklərin asılması da diqqət çəkir. Son zamanlar bağ xüsusilə, gənclərin buraya fotosessiya etmək üçün gəlməsi və pikniklərin təşkil olunması baxımından da məşhurdur. Bağda aparılmış sorğulardan məlum olur ki, insanlar daha çox yalnız qalmaq, ağaclardan, balıqlardan zövq almaq və daha çox sakitliyə dalmaq üçün bura üz tuturlar. Bağ xüsusilə payız aylarında daha cəlbedici olur.

Nəbatat bağının yaradılmasının əsas məqsədi elmi tədqiqat işlərinin aparılması, yerli və dünyanın müxtəlif ölkələrindən buraya gətirlmiş bitki növlərinin öyrənilməsi, onların şəraitə adaptasiya olunması, yayılması ilə bağlıdır. Paytaxtda Nəbatat bağının əsasının qoyulması ilə bağlı fikirlər 1930-cu ildən başlamışdır. 1934-cü il iyulun 3-dən etibarən Mərkəzi Nəbatat bağının inşasına başlanması haqqında verilmiş tapşırığa əsasən, Dağüstü Park və Qurd Qapısı arasında bağın inşa edilməsi üçün 100 hektara qədər torpaq sahəsi ayrılır. Mərkəzi Nəbatat bağında dünyanın bir sıra ərazisindən və Azərbaycanın bölgələrindən toplanmış 2000- ə qədər kol və ağac, bitki və çiçək növləri mövcuddur [2, s.182]

Azərbaycan Milli Elmlər Akademiyasının Mərdəkan Dendrarisi - Şəhər əhalisinin istirahət etmək, öz asudə vaxtlarını səmərəli şəkildə dəyərləndirməsi və mənəvi cəhətdən zövq ala biləcəkləri bağ massivlərindən biri də Mərdəkan Dendrarisidir. Mərdəkan qəsəbəsində yerləşən bağ 1895-ci ildən 1920-ci ilə kimi ölkənin tanınmış şəxslərindən biri, böyük xeyriyyəçi və milyonçu Murtuza Muxtarovun şəxsi mülkü olmuşdur.

Bağ massivinin iqliminin quru-subtropik və mülayim-subtropik olması burada dünyanın müxtəlif ərazilərində mövcud olan kol və bitki növlərinin bağda saxlanılmasına şərait yaradır. Bağın iqlim şəraitinin dünyanın müxtəlif ərazilərinin iqlim şəraitinə uyğun olması, Mərdəkan Dendrarisinə gətirilmiş müxtəlif kol və meyvə bitkilərinin Abşeronun iqlim şəraitində yetişdirilməsinə və paylanmasına şərait yaradır. Hal-hazırda bağ massivində floranının inkişaf etdirilməsi üzrə , dünyada mövcud olan bitki növlərindən səmərəli istifadə olunması, onların şəraitə adaptasiyası üzrə tədqiqat işləri görülür. [1, s 205]

Filarmoniya Bağı-Bakı şəhər Yaşıllaşdırma İdarəsinin tabeçiliyində olan, şəhər əhalisinin asudə vaxtlarını səmərəli keçirdikləri bağın əsası 1830-cu ildə qoyulmuşdur. İçərişəhər metrostansiyasının yaxınlığında yerləşən bağda həm gənclərin, həm yaşlı nəslin, həm də körpə uşaqlarla gələn ailələrin istirahət etmələrinin şahidi oluruq. Bağın ümumi sahəsi 4,6 hektardır. Bağın ərazisində yaxşıllaşdırma işlərinin artırılması, ərazidə təmir-bərpa işlərinin aparılması 2009-cu ildə əsaslı şəkildə həyata keçirilmişdir. XIX əsrin sonlarında bu ərazidə əkilmiş gül və kol bitkiləri, salınmış yaşıllıq ərazisi saxlanılmış və yenidənqurma işləri aparılarkən burada nadir ağac növləri-palıd, sidri, göyüş ağacları əkilmişdir. Hal-hazırda ərazidə müasir işıqlandırma sistemi, suvarma sistemi salınmış və ərazi gül kompozisiyaları ilə bəzədilmişdir. Bağın ərazisinə Türkiyə və İtaliyadan gətirilmiş gül və kol bitkiləri bağa xüsusi gözəllik verir. Burada olan qızılgül kolları ağaca sarmaşaraq 7-8 metr hündürlüyə qalxa bilir. Qızılgül kolları yaz aylarında açır. Bağda bitən ən qədim ağaclardan biri də Xan çinarıdır. Filarmoniya bağında həmçinin, pixta, iliks, qarağac, daş palıd, kedr, sidr, maqnoliya, yuka, aliyandr, sukas, quşalması, söyüd və başqa bitkilər də yetişdirilir.

Fəvvarələr meydanı- Fontanlar bağı adı ilə də tanınan bu bağ şəhərin mərkəzi hissəsində yerləşir. Bağın ətrafında Mcdonalds restoranın, istirahət yerlərinin, kafelər, restoranlar, ticarət mərkəzlərinin olması buraya insanların mütəmadi gəlişinə səbəb olur. Bağın ətrafında əcnəbi qonağlarada rast gəlmək mümkündür . Fontanlar bağının əsası 1900 cü ildə qoyulmuşdur. Ərazidə mövcud olan ağacların isə 100 illik yaşının olmasıda bağa xüsusi özəllik verən amillərdəndir.

Mərkəzi park-“Sovetski” adlanan ərazidə söküntü işlərinin aparılmasından sonra yaxşıllaşdırma layihəsi çərçivəsində salınmış parklardan biridə Mərkəzi parkdır. 2019-cu il may ayının 22-dən əhalinin istifadəsinə verilmiş parkın yaradılmasının əsas məqsədi şəhər əhalisinin və ölkəyə gələn qonaqların mədəni asudə vaxtlarını səmərəli keçirə bilməsi üçün salınmışdır. 20 hektar sahəyə malik parkda müasir standartlara cavab verə biləcək şərait yaradılmışdır. Parkda müxtəlif yaş təbəqəsinə malik olan insanlar üçün oyun meydançalarının, azyaşlı uşaqlar üçün yelləncəklərin asılması və istirahət yerlərinin salınması, müxtəlif idman növlərinin (şahmat, nərd, futbol) keçirilməsi üçün şərait yaradılmışdır. Parkın digər xüsusi özəlliyindən biri 350- dək avtomobilin saxlanması üçün yeraltı dayanacaqların olmasıdır. Parkın dörd bir tərəfinə kamera vasitəsilə nəzarət olunması və parkın hər bir tərəfinin müasir işıqlandırma sistemi ilə idarə edilməsi insanların parkda sərbəst hərəkət etməsinə zəmin yaradır.

Dədə Qorqud Parkı - Daha çox tələbələrin üz tutduğu, pikniklərin təşkil olunduğu Dədə Qorqud parkının əsası 2013-cü ildə qoyulub. Sahəsi 6 hektar olan bu park şəhərin iri parkları sırasındadır. Bu parkda da yaşıllaşdırma işləri aparılmış, yeni növ işıqlandırma sistemləri qurulmuş və süni göl salınmışdır. Ərazidə müxtəlif növ ağaclar və kol bitkiləri əkilmişdir. Parkın kənarında bir neçə kafe və restoran insanların xidmətində durur. Heykəltaraş Göyüş Babayevin ərsəyə gətirdiyi “Dədə Qorqud” abidəsi parkın mərkəzi hissəsində salınmışdır.

Xaqani Bağı - Mariin Bağı, el arasında Molokan Bağı kimi də tanınan bu əraziyə insanların mütəmadi gəldiyinin şahidi oluruq. Hal- hazırda bu bağın adı Xaqani bağı kimi tanınır. Bağın adının Molokan bağı olmasının maraqlı bir tarixi vardır. 19-cu əsri əhatə edən dövr ərzində, ölkəyə ticarət məqsədilə gələn molokanlar bağın ətrafında yerləşmiş mehmanxanalar və karvansaralarda qalırdı.

Xaqani bağı insanların ən sevimli, yayın ən qızğın vaxtlarında belə istirahət edə biləcəkləri ərazilərdən biridir. Parkın daxilində yaradılmış fəvvarələrin içindəki 3 pərinin heykəli də insanların diqqətini cəlb edir. Parkın ətrafında mövcud olan hündür ağaclar yay ərzində parkı sərin saxlayır. Burada uşaqların əylənməsi üçün attraksionlarda fəaliyyət göstərir. Xaqani bağı insanların daim hərəkətdə olduğu ərazidə yerləşdiyi üçün parkı boş görmək mümkün deyil.

Heydər Əliyev Muzey-Park Kompleksi - Paytaxtın mərkəzi hissəsində, Heydər Əliyev sarayının qarşısında, Bakı Musiqi Akademiyası ilə üzbəüz yerləşən, insanları boş vaxtlarında istirahət etmək üçün üz tutduqları parklardan biri də Heydər Əliyev Muzey-Park Kompleksidir. Parkda səkkizguşəli ulduzdan ibarət- milli rəmz formasında, üç yeni formalı fəvvarə yaradılmışdır. Park demək olar ki, hər tərəfdən Biznes Mərkəzləri və Ticarət Mərkəzləri ilə əhatə olunmuş və əhali üçün əlverişli ərazidə salınmışdır.

Xırdalan Şəhər Heydər Əliyev Adına Mədəniyyət və İstirahət Parkı-Xırdalan şəhərində yerləşən bu park 1980-ci ildə salınmışdır. Park 2006-cı ildən etibarən, Ümummilli Lider Heydər Əliyevin adını daşıyır. Parkda insanların istirahət etməsi üçün hər cür şərait vardır. Qeyd edək ki, ərazidə Heydər Əliyev Muzeyi, yay estrada səhnəsi, müxtəlif istirahət məkanları fəaliyyət göstərir. Parkın ərazisində uşaqlar üçün də yelləncəklər və attraksionlar salınmışdır. Parkda insanların hərəkət etdiyi yollar təmir edilmiş və müasir işıqlandırma sistemləri salınmışdır. Əraziyə müxtəlif ağac və kol bitkiləri gətirilmiş, səki və meydançalar üzlük daşlarla yenilənmişdir. Parkın yaşıllıq sahəsi şam və xan çinarı ağaclarından ibarətdir. [2, s 188]

Nəticə: Abşeron yarımadasının yaşıl zonaları tədqiq olunarkən məlum olur ki:

- Abşeron yarımadasında aparılmış yaşıllaşdırma işləri ekoloji tarazlığın bərpa olunması və ətraf mühitin mühafizəsi üçün xüsusi əhəmiyyətə malikdir.
- Ümumilikdə, Abşeron yarımadasında salınmış parklar və bağlar şəhər əhalisinin asudə vaxtını səmərəli keçirtməsi üçün əsas məkanlara çevrilmişdir.
- Bakı şəhərində yerləşən parklar və bağlarda aparılmış yenidənqurma işləri, ətraf ərazilərdə infrastrukturun inkişaf etdirilməsi şəhər əhalisinin yaşayış tərzinin yaxşılaşdırılması və onlara qayğı göstərilməsi dövlət siyasətinin mühüm tərkib hissələridir.
- Qeyd edək ki, yaşıllaşdırma işlərinin davamlı şəkildə həyata keçirilməsi ölkənin bu ərazisinə xarici qonaqların gəlməsinə də səbəb olacaqdır.
- Daha çox park və bağların salınması nəticəsində şəhər əhalisi və təbiət arasında mövcud olan bərabərliyin pozulması və insanların tədricən təbiətdən uzaqlaşması prosesinin qarşısı alınacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, Milli Parklar 12 səh.
2. Turizm bələdçiləri tərəfindən Bakı və Abşeron yarımadası haqqında məlumatın verilməsi üzrə vahid metodika, Bakı "Təknur" , 2012,328 səh.
3. Yusifov E.F., İsayeva N.S., Əsgərov F.S. "Bioloji müxtəliflik: Abşeron yarımadasının təbiət abidələri" Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007,424 səh.
4. https://azertag.az/xeber/Denizkenari_Milli_Park___20_il-1229283 (24.10.2019, 15^{20})
5. http://dendrologiya.az/wp-content/uploads/Ab%C5%9Feronun-a%C4%9Fac-v%C9%99-kollar%C4%B1.pdf (31.10.2019, 17^{40})

Ramin QULAMZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
ramin.gulamzade@gmail.com

Azərbaycanda turizmin əhalinin sosial-mədəni səviyyəsinə təsirinin xarakteristikasi

The characteristics impact of tourism social-cultural level of the population in Azerbaijan

Характеристика воздействия туризма на социально-культурный уровень населения в Азербайджане

Xülasə: Turizm inkişafının sosial-mədəni təsiri dedikdə , turizm destinasiyasındakı sakinlərin həyat keyfiyyətində baş verən dəyişikliklər başa düşülür. Bu təsir təkcə turizmin inkişafına deyil, eyni zamanda həmin ərazidəki əhali ilə ziyarətçilərin arasındakı qarşılıqlı əlaqənin yaranmasına da imkan yaradır. Turizmin sosial və mədəni təsirləri destinasiyadakı fərdi davranış , ailə əlaqələri , təhlükəsizlik səviyəsi, əxlaqi davranış qaydaları, din, dil, destinasiyadakı şəxslərarası münasibətlərdə nə dərəcədə müsbət və ya mənfi dəyişikliyə səbəb olmasıdır. Bu sosyal təsir , ev sahibi ölkənin əhalisinin , turistlərlə birbaşa və dolayı yolla qarşılıqlı münasibətdə olmalarına imkan yaradır.

Açar sözlər : Turizm , Sosial təsir, Mədəni təsir, Sosial- mədəni qatqı, Azərbaycan

Резюме: Социальное воздействие туристических разработок ссылается к изменениям качеству жизни резидентов туристических назначений. Социальное воздействие не только плюс для разработки туризма, но и положительно взаимодействие между резидентами и клиентами и промоутерской социальной трансформации. Скорость и концентрация, величина и направление социальных воздействий должны быть взяты в счет при попытке приписывать причины социальных воздействий. Социальные и культурные причины воздействия туризма, методы в которых туризм содействует к изменению системы значения, индивидуальному поведению, семейным отношениям, жизненному стилю, уровня безопасности, моральным рассуждениям, религии, языку, к меж личному отношению в назначениях.

Ключевые слова: Туризм, социальный урон, культурный урон, социально культурный вклад, Азербайджан

Abstract: The social impact of tourism development refer to changes in the quality of life of residents of tourist destination. Social impacts not only benefit for the development of tourism but also interaction between residents and visitors and promote social transformation. The speed and concentration and the magnitude and direction of social impacts must be taken into account when attempting to attribute the cause of social impacts. The social and cultural impacts of tourism are the way in which tourism is contributing to change in value system, individual behavior, family relationship, life style, safety level, moral conduct, religion, language, interpersonal relationship at the destination. This social impact effect on the local people of host communities of their direct and indirect association with tourists.

Keywords: Tourism, Social Damage, Cultural Damage, Socio-Cultural Contribution, Azerbaijan

Turizm fəaliyyətləri məşğulluq, ölkə iqtisadiyyatında inkişaf , bölgələrarası balansın pozulmasını aradan qaldırmaqla, ödəmələr sistemində borcların azaldılması kimi təsir göstərməklə yanaşı, cə-

miyyətin sosial quruluşunun formalaşmasında də əhəmiyyətli rol oynayır. Turizmin sosial təsirləri, mövcud ictimai dəyərlərə ,fərdi davranışlara, əxlaqi qaydalara, cəmiyyətin sosial quruluşuna birbaşa və dolayı olaraq göstərdiyi təsiri ifadə etməkdə istifadə olunan geniş anlayışdır. Sosial qarşılıqlı əlaqə və dəyişikliyin əsas ünsürlərindən olan turizm sənayeləşmiş ölkələrdən inkişaf etmiş ölkələrə (İEÖ) doğru reallaşaraq, inkişaf etmiş ölkələrdən gələn turistlər öz ölkələrinin dəyərinin daşıyıcısı vəziyyətində olurlar. Bu şəkildə turizm, inkişaf etmiş cəmiyyətin dəyərlərini, davranış xüsusiyyətlərini və təşkilati strukturlarını inkişaf etməkdə olan cəmiyyətə yayaraq təsir göstərir. Lakin bu qarşılıqlı müddət ərzində turizmin ev sahibi kimi cəmiyyət üzərində bir sıra müsbət və mənfi təsirləri meydana çıxır. Bu təsirlərin mənfi nəticələrinin minimuma endirilməsi əhalinin müvafiq sahədə davranış xüsusiyyətləri ilə müqayisə olunması ilə mümkündür.Bu araşdırma Azərbaycan xalqının turizmdə sosial-mədəni cəhətdən dünyagörüşünün müəyyən edilməsi məqsədilə həyata keçirilmişdir (6).

Çox geniş bir anlayış olan turizm, insanların gündəlik həyatının vərdiş etdikləri mühitdən ayrılaraq sosial-mədəni və iqtisadi xüsusiyyətləri özündə birləşdirən bir mühiti ,dəyişiklik şəraitində yaşamalarını və qısa, orta, uzun müddətli , davamlı olaraq gecələmələrini ifadə etməkdədir. Bu mənada turizm ölkəyə valyuta gətirməklə və məşğulluq yaratmaq xüsusiyyəti ilə iqtisadi, turistlərə xidmət təqdim etmə, onların əyləncə, istirahət və digər ehtiyaclarını təmin etmə və fərqli mədəniyyətlərini bir araya gətirmə xüsusiyyəti ilə sosial-mədəni, ekoloji bir fəaliyyətdir (1).

Turistlərin həyat tərzləri və davranış xüsusiyyətləri təmasda olduğu əhaliyə təsir göstərir. Hər il turizm ilə bağlı minlərlə insanın ailə, mədəni, siyasi quruluşunda həmçinin ictimai quruluşda çox əhəmiyyətli dəyişikliklər meydana gəlməkdədir.Turist və bölgə əhalisinin iqtisadi, təhsil və mədəniyyət səviyyələri baxımından oxşar xüsusiyyətlər olduqda ictimaidəyişmə daha az yaşanır. Turizmin ictimai və mədəni təsirləri müsbət və mənfi olmaq üzrə iki ölçüdə göstərilə bilər.Bunlar cədvəl 1-də göstərilmişdir: (1)

Turizm fərqli mədəniyyətlərin tanınması üçün əhəmiyyətli bir vasitədir. Lakin turizm fəaliyyəti ilə mədəni birliklərinin olması da lazımdır. Əks təqdirdə turizm , mədəni quruluşun formalaşması üçün mənfi faktor ola bilər.

Turizmin əhaliyə sosial-mədəni cəhətdən müsbət və mənfi təsirləri	
Turizmin əhaliyə sosial-mədəni cəhətdən müsbət təsirləri	Turizmin əhaliyə sosial-mədəni cəhətdən mənfi təsirləri
• Əhali arasında sülh və xoş münasibəti artırır. • Əhalinin öz üzərində işləmək vərdişi və xarici dil səviyyələrini artıraraq mədəni səviyyənin yüksəldilməsinə imkan yaradır. • Yerli mədəniyyətin canlanmasına kömək edərək, bölgənin mədəniyyətinə güclü təsir edir. • Yerli əhalidə bir maraq və fəaliyyət sahəsi meydana gətirir. • Sosial münasibətləri zənginləşdirir.	• Gənclərin dəyər və inanc quruluşuna mənfi təsir göstərərək, geyim və həyat normalarında dəyişikliklər meydana gətirir • Turist qəbul edən ölkənin ana dilinin itirilməsinə səbəb olur. • Adət-ənənələrin unudulmasına gətirib çıxarır. • Pis vərdişləri artırır. • Ailə əlaqələrini zəiflədir. • İrqi gərginliklərə yol açır.

Mədəniyyət və turizm arasında bir-birini tamamlayan bir əlaqənin olması zəruridir.Yerli əhali turizmin mənfi təsirlərindən ən çox zərər görən qrupdur. Belə ki ,görülən işlərdə turizmin ekoloji və bəzi sosialmədəni təsirləri yerli xalq tərəfindən narahatçılığa səbəb olur. Bu təsirin yerli əhalinin yaşama müddəti və turizmin inkişafı müddətilə bağlı olduğu düşünülür. Ev sahibi olaraq yerli əhali turizmin xüsusilə kütləvi turizmin iqtisadi gəlir gətirməsi arzusunda olduğuna baxmayaraq , kütləvi turizmin gətirdiyi ekoloji problemlərdən və həll edilə bilməyən ictimai anlaşılmazlıqlardan narazı-

dır. Ətraf mühit amillərinin istifadə hüququnun sonradan gələnlər tərəfindən yerli əhalinin əlindən alınması, əvvəlcə narazılıq daha sonra isə qarşıdurmalara səbəb olur. Bu səbəbdən yerli əhalinin turizmin inkişaf prosesindən uzun müddətli bir müvəffəqiyyət gözləməsi uğursuzluğa gətirib çıxara bilər.(7)

Turizm kütləvi turizmə nə qədər çox çevrilərsə, yerli mədəniyyətə təsiri o qədər də dərinləşər. Kütləvi turizmin sıx olduğu ərazidə , həmin əraziyə aid xüsusiyyətlər və mədəniyyət getdikcə dəyişməyə başlaya bilər. Ənənəvi dəyərlər yerli ticarət anlayışına çevrilə bilər.

Azərbaycanda turizm ətraf mühit baxımından, sosial-mədəni cəhətdən aşağıdakı kateqoriyalar üzrə bölünür: (2)

Sağlamlıq və müalicə: Bu kateqoriyada əsas məqsəd əsasən çoxlu sayda xəstəxana yataqlarının təşkil olunması və ölkədə peşəkar tibb işçilərinin fəaliyyət göstərməsidir.

Turizmin yüksək dərəcədə priorietləşdirilməsi:Bu sahədə dövlətin göstərdiyi diqqət əsasında gəliri və ona həvalə edilmiş büdcə xərclərinin payı ölçülür.

Nəqliyyat infrastrukturu: Ölkə ərazisinin nisbətən ümumi sahəsinin yollarla örtülməsi Azərbaycan üçün üstünlükdür.Qeyd etmək lazımdır ki , bu kateqoriyada yenilənmiş naviqator xəritələrinin mövcudluğu , ingilis dilində hərtərəfli yol nişanları , nəqliyyat şəbəkələri və ya şəhər xəritələri üçün qiymətləndirmə nəzərə alınmır.

Qiymət və rəqabət: Bu kateqoriyada yanacaq qiymətlərinin təsiri otel qiymətləri və hava limanı xərcləri də nəzərə alınaraq, ölkənin profilinə görə Azərbaycanda yaxşı mövqe tutur. Azərbaycanın turizm bazarının beynəlxalq bazara daxil olması təkmilləşdirilmiş güclü rəqabətə təsir edir.Mehmanxanalar ümumi iqtisadi inkişafın bütün səviyyələrində mühüm rol oynayır və belə ki , orta səviyyədə istirahət üçün müasir beynəlxalq səviyyəli iki –üç ulduzlu mehmanxanalara üstünlük verilir. Bu mehmanxanalar təhlükəsizliyi təmin edir və obyektlərinin azlığı ,lüks səviyyəsinə görə seçilirlər.

Təhlükəsizlik: Adambaşı yol qəzalarının sayının az olması Azərbaycanda turistlərin marağını cəlb edir.

“Bakı 2015” Azərbaycanda keçirilən ilk Avropa oyunlarının həyata keçməsi dünyanın müxtəlif ölkələrindən gələn turist axınına səbəb oldu.İlk Avropa Oyunları Azərbaycanın mədəniyyətinə, idmanına, iqtisadiyyatına, turizminə böyük töhfələr verdi.Avropa Oyunlarının möhtəşəmliyi , təşkilatçılıq və qonaqpərvərliyimiz turistlərin yaddaşına həkk olundu. I Avropa Oyunları ərəfəsində Azərbaycanın milli geyimləri , xalq sənətinin növlərini real və virtual aləmdə təbliğ etməsi turistlərin diqqətini cəlb etmişdir. Bunun nəticəsində Azərbaycan vətəndaşlarının tarixi, mədəni və mənəvi dəyərlərimizə həssaslığının artırılması, onlarda yüksək vətəndaş keyfiyyətlərinin formalaşması, Azərbaycanın milli-mədəni dəyərlərinin qorunması və təbliğ olunmasının əhəmiyyətinin xarici qonaqlara çatdırılmasında mühüm rol oynamışdır.

Beləliklə, turizmi canlandırmaq üçün sosial xərcləri artırmaqla daha çox sosial-mədəni tədbirlər həyata keçirməklə nail olmaq olar.Mədəni irsi qorumaq və bir çox problemlərin həlli ilə məşğul olmaq əsasdır. Belə ki , qanunsuz tarixi obyektlərin ticarəti, qeyri-rəsmi arxeoloji tədqiqatlar , estetik dəyərlərin eroziyası və yüksək keyfiyyətli sənətkarlıq bacarıqlarının yox olması və s. problemlərinin həlli çox əhəmiyyətli hadisələrdən biridir. Turizm baxımından insanın ətraf mühiti, sosial-mədəni fəaliyyəti, fiziki hörmət və digər müsbət üstünlüklərini qeyd etmək olar.Onlardan ən əhəmiyyətlisi aşağıda qeyd edilmişdir: (4)

1) Turizm sosial-mədəni baxımdan daim inkişaf edir və ənənəvi fəaliyyəti olan bölgələrdə yoxsulluğun azaldılması kimi müsbət təsir göstərir.
2) Cəmiyyətin daim inkişaf edən istirahət və əyləncəsini təmin edən ətraf mühitin sosial dəyərlərini artırır.
3) Turizmin estetik və mədəni dəyərləri, təbii gözəllikləri (muzey, park, kinoteatr və s.) düzgün idarəetmə nəticəsində uzunmüddətli qorunmasını təmin edə bilər.
4) Yerli memarlıq ənənələrinin, regional xüsusiyyətlərin , sosialmədəni mühitin qorunması şərtilə turizm yenilənir. Bu şəhərin canlanması və turist axınının artmasına səbəb olur.

Turizmin vacib xüsusiyyətlərindən biri ondadır ki, turizmdən əldə olunan gəlir əhali arasındakı müxtəlif təbəqələr üzrə nisbətən bərabər bölünür.Belə ki, turizm xidmətlərini hazırlayan da, suve-

nirlər hazırlayan və satan da, öz mənzilini kirayə verən də, yeyinti məhsullarını hazırlayan da turizmdən gəlir əldə edə bilir. Turizmin əhalinin rifahının artmasına müsbət təsiri ilə yanaşı olaraq ölkənin sosial səviyyəsinə də müsbət təsiri olur.Çünki maddi rifahın artması nəticəsində təhsilin, mədəniyyətin, incəsənət növlərinin və həyat tərzinin müsbət inkişafı ölkənin sosial səviyyəsinin də yüksək inkişafına səbəb olur.Sosial nöqteyi-nəzərindən turizm regionlarının inkişafına böyük təsir göstərir, regionlarda minlərlə iş yerləri açılır, kommunikasiya inkişaf edir, yerli əhalinin mədəniyyət, savad və dünyagörüş səviyyəsi yüksəlir.Regionlarda turizmin inkişafı işsizlərin paytaxta axınının qarşısını alır.Mənfi təsirləri isə səyahət zamanı turistlərin yerli xalqın mədəni və əxlaqi dəyərlərinə hörmətsiz davranmaları (dini və ənənəvi dəyərlərə, yerli geyim nümunələrinə,əyləncə formalarına və s.) ,yerli mədəni əsərlər və ekologiyaya qeyri-mühafizəkar davranmaları bu qəbildəndir (5).

Azərbaycan xalqının adət-ənənələrini təbliğ etmək, mill bayram və mərasimləri qorumaq, tarixi rəmzləri yenidən yaratmaq, milli musiqi və rəqsləri məşhur etmək, şifahi xalq sənətini qorumaq , milli oyun və tamaşalar bərpa etmək , bədii dekorativ və miniatür sənəti inkişaf etdirmək insanların sosial-mədəni səviyyəsinin daha intensiv inkişaf etməsinə səbəb olar. Azərbaycan Respublikasının 2013-2020 ci illəri əhatə edən tarixi və mədəniyyət abidələrinin qorunması və bərpası, tarixi və mədəni ehtiyatların inkişafı və modernləşdirilməsi üzrə Dövlət Proqramında vahid elekton məlumat bazası və qeydiyyatı bu sahədə inkişaf etdiriləcəkdir. Əhalinin aztəminatlı kateqoriyaları üçün mədəniyyət obyektləri və xidmətlərindən istifadə etmək imkanlarının genişləndirilməsini nəzərdə tutan inkişaf etdiriləcəkdir.Mədəni sahələrdə -özəl təşkilatlarda işləyənlər üçün dövlət dəstəyinin artırılması, kitabxana fondlarının ədəbiyyat və müasir informasiya daşıyıcıları ilə təmin edilməsi , həmçinin ölkənin turizm ehtiyatlarının inkişafı üçün zəruri işlər həyata keçiriləcəkdir (3).

ƏDƏBİYYAT

1. E-Journal of New World Sciences Academy. 2010; Ahmet -Tartan, Seljuk University, Konya-Turkey. "Halkla Ilişkilerde Medyayla Ilişkileri, Medya çalışanlarının görüşleri üzerine bir Saha araştırması. [5, səh 72-86.]
2. The Travel and Tourism Competitiveness Report 2013. World Economic Forum [4, səh 12,76-80.]
3. "AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ" İNKİŞAF KONSEPSİYASI. [1, səh 37.]
4. Петрова Е.В. Социокультурные аспекты туризма в овременной России: Социологический анализ. Автор. Диссерт.к.с.р. М., 2009. [3, səh 12-17.]
5. Абанкина Т.В. Экономика желаний в современной «цивилизации досуга» // Отечественные записки. – 2005. – 4 (24). – [7, səh 132-146.]
6. Абуков А.Х. Туризм на новом этапе. Социальные аспекты развития туризма в СССР. – М.: Профиздат, 1983. – 296 с. [6, səh 112-128.]
7. Биржаков М.Б. Введение в туризм. – СПб.: «Издательский дом Герда», 2007. -576 с [5, səh 232-256.]
8. Городецкий П.Г. Социально-демографические аспекты туризма // Социолог, исслед. – 1985. – №4. – С.34-41. [2, səh 2-8.]

Kamran ABDULLAYEV
AMEA İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi
i.ü.f.d., dosent
kamran.abdullayev.1978@mail.ru

Turizm infrastrukturunun inkişafının əsas xüsusiyyətləri

Основные особенности развития туристической инфраструктуры

Maın features of development of tourısm ınfrastructure

Xülasə: Məqalədə Azərbaycanda turizm infrastrukturunun inkişafının əsas xüsusiyyətlərinə baxılmışdır. Aparılmış təhlil onu göstərir ki, son illər ölkədə turizm sahəsinin inkişafı üzrə ciddi tədbirlər həyata keçirilməkdədir. Məqalədə eyni zamanda mövcud problemlər müəyyən edilmiş, onların aradan qaldırılması istiqamətində təklif və tövsiyələr verilmişdir.

Açar sözlər : turizm, infrastruktur, inkişaf, milli iqtisadiyyat, inteqrasiya, qloballaşma, tendensiya

Резюме: В статье рассматриваются основные особенности развития туристической инфраструктуры в Азербайджане. Анализ показывает, что в последние годы предпринимаются серьезные меры по развитию туризма в стране. В статье также выявляются существующие проблемы и предлагаются рекомендации по их устранению.
Ключевые слова: туризм, инфраструктура, развитие, национальная экономика, интеграция, глобализация, тренд

Abstract: The article looks at key features of tourism infrastructure development in Azerbaijan. The analysis shows that in recent years serious measures are being taken to develop tourism in the country. The article also identifies existing problems and offers recommendations for their elimination.
Key words: tourism, infrastructure, development, national economy, integration, globalization, trend.

Digər postsovet məkanı ölkələrində olduğu kimi turizm sahəsi Azərbaycanda da iqtisadiyyatın insanların tələbatlarının ödənilməsinə və əhalinin həyat səviyyəsinin yüksəlməsinə yönəlmiş mühüm fəaliyyət sahələrindən biri hesab olunur. Nəzərə almaq lazımdır ki, milli iqtisadiyyatın digər sahələrindən fərqli olaraq turizm təbii ehtiyatların tükənməsinə səbəb olmur. Ölkənin iqtisadi inkişafında turizm bu baxımdan mühüm rol oynayır. Buna görə də turizm sahəsinin inkişafı bütün ölkələrdə, o cümlədən sürətlə qlobal məkana inteqrasiya olunan Azərbaycan Respublikasında da əsas prioritet məsələlərdən hesab olunur.Yaxın perspektiv dövr ərzində ölkəyə ən böyük gəlir gətirən sahələrdən birinin də məhz turizm sahəsinin olacağını nəzərə alsaq bu sahənin inişafına daha çox diqqət ayrılmasının vacib olduğunu görə bilərik.

Turizm sahəsi gəlirlərin və məşğulluğun mühüm mənbəyi olmaqla, turistlərə xidmət edən yeni sahələr yaratmaqla iqtisadiyyatın şaxələndirilməsinə də təkan verə bilir. Turizm ölkəmizdə də xarici siyasətinin həyata keçirilməsinin mühüm faktorlarından biridir. Ölkəmizin mövcud təbii ehtiyatları turizm infrastrukturunun yüksək səviyyədə inkişaf etdirilməsinə imkan verir. Bu da Azərbaycanda xarici turistlərin qəbulunu dəfələrlə artırmağa tam imkan verir. Turizm sahəsinin ölkə regionlarının sosial-iqtisadi inkişafında çox böyük rola malikdir.


Azərbaycanda turizmin sahəsinin inkişafının əsas istiqaməti yerli və xarici vətəndaşların turizm xidmətlərinə olan tələbatlarının təmini, əhalinin məşğulluğu və gəlirlərin artırılması üçün geniş imkanlar açan müasir rəqabətə davamlı turizm bazarını inkişaf etdirməkdir. Bunun üçün ölkənin beynəlxalq nüfuzunun möhkəmləndirilməsi və regionlarda əhalinin həyat səviyyəsinin yüksəldilməsi məqsədilə ölkəyə turizm axınının artırılması zəruridir [1, s.125].

Cədvəl 1

Azərbaycan Respublikasına turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayı ilə (min. nəfər) turizm müəssisələrinin əldə etdiyi gəlirlər (mln. manat)

İllər	Öıkəyə gələn xarici turistlərin sayı	Ölkə üzrə turizm müəssisələrinin gəlirləri
2014	2159,7	181,1
2015	1921,9	183,1
2016	2044,7	240
2017	2454,0	284,4
2018	2605,3	359,4

Digər postsovet məkanı ölkələri ilə müqayisədə Azərbaycana gələn turistlərin sayı və müvafiq olaraq turizm müəssisələrinin göstərdiyi xidmətlərdən əldə etdiyi gəlirlər də daha çox artmaqdadır [3]. Belə ki, 2014-cü ildə Azərbaycana gələn xarici turistlərin sayı 2159,7 min nəfər , 2017-ci ildə 2454 min nəfər, 2018-ci ildə bu göstərici 2605,3 min nəfər olmuşdur. Turizm müəssisələrinin gəlirləri də turist axınlarına mütənasib olaraq artmışdır. Məsələn, Azərbaycanda turizm müəssisələrinin gəlirləri 2014-cü ildə 181,1 mln. manat olmuşdursa, 2018-ci ildə bu göstərici 2 dəfə artaraq 359,4 mln manat təşkil etmişdir. (Cədvəl 7).



Şəkil 1

Azərbaycana son illər üzrə turizm məqsədilə gələn xarici turistlərin sayı üzrə dəyişən dinamika (min nəfər)

Təhlildən də göründüyü kimi ölkəmiz üzrə son illər turizm axınının çoxalması regionlar üzrə turizm təsisatlarının, əlaqəli infrastruktur sahələrinin çoxalmasını təmin etmişdir [3].

Beynəlxalq təcrübələrin təhlili onu göstərir ki, turizm bazarı özünü azad bazar qanunları əsasında tənzimlənmək imkanlarına malikdir. Məhz ölkədə aparılan milli turizm siyasətinin əsas funksiyası daxili turizm xidmətləri bazarını inkişaf etdirməkdir. Məsələn, yerli və xarici turizm xidmətləri bazarına çıxarılan milli turizm xidmətləri innovativ və rəqabətqabiliyyətli olmalıdır [2, s. 158].

Azərbaycan Respublikasında bütün regionlarda turizm müəssisələrinin, əlaqəli infrastruktur sahələrinin yerli və xarici sahibkarlar tərəfindən regionlarda da inkişafı təmin olunmalıdır.

Ölkəmizə gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı (min nəfər) ilə onlardan hava nəqliyyatı ilə gələn vətəndaşların sayı

Cədvəl 2

İllər	Azərbaycana gələnlərin sayı	Hava nəqliyyatı ilə
2014	2297,8	1089,2
2015	2006,2	968,9
2016	2248,8	1164,9
2017	2696,7	1151,5
2018	2849	1183,8

Son illər Azərbaycan gələn yerli və xarici vətəndaşların sayında da artım müşahidə olunmaqdadır. Biz bunu xüsusən hava nəqliyyatı ilə gələnlərin sayında olan statistic artımda da görə bilərik. Belə ki, 2014-cü ildə Azərbaycana gələnlərin ümumi sayı 2297,8 min nəfər olmuşdursa, 2017-ci ildə bu göstərici 2696,7 min nəfər, 2018-ci ildə isə 2849 min nəfər olmuşdur. 2014-cü illə müqayisədə hava nəqliyyatı ilə ölkəmizə gələn vətəndaşların sayı 94,6 min nəfər artaraq 2018-ci ildə 1183,8 min nəfərə çatmışdır [3]. Təhlildən də göründüyü kimi, digər nəqliyyat növləri ilə müqayisədə ölkəmizə gələn yerli və xarici vətəndaşların əsasən daha çox hava nəqliyyatına üstünlük verirlər. Bu da hava nəqliyyatı üzrə göstərilən xidmətlərin daha keyfiyyətli , uçuşların müasir hava nəqliyyat vasitələrində həyata keçirilməsi və təhlükəsiz olması və sərnişin daşıma tariflərinin aşağı olması ilə bağlıdır. Nəticədə ölkəmizə gələn turistlərin daha çox hava nəqliyyatına üstünlük verirlər.

Ümumiyyətlə, yaxın dövrlər ərzində turizm sahəsinin və infrastrukturunun ölkənin sosial-iqtisadi inkişafına olan təsirlərinin artırılması üçün aşağıdakı iqtisadi tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur :

-ölkə üzrə daxili turizm xidmətləri bazarında rəqabət proselərini yüksəltmək üçün dövlət və bələdiyyə turizm müəssisələrinin formalaşdırılması və inkişafı istiqamətində davamlı iqtisadi tədbirlərin həyata keçirilməsi ;

- xarici turistlərin ölkə sərhədlərindən sərbəst, maneəsiz daxil olması üçün viza rejiminin bütün xarici ölkələr üzrə ikitərəfli olaraq tədricən aradan qaldırılması ;

-turizm sahəsində regionlarda fəaliyyət göstərən turizm infrastrukturunun sayının və rəqabətqabiliyyətinin artırılması;

- sərnişin daşıyan xarici hava nəqliyyat şirkətlərinin ölkəmizin turizm regionları üzrə hava limanlarına uçuşlarının stimullaşdırılması və onların sərnişin daşıma xərclərinin müəyyən hissəsinin dövlətimiz tərəfindən ödənilməsi ;

- regionlarda turizm müəssisələrində göstərilən xidmətlər üzrə qiymətlərin sabit saxlanılması üçün dövlətin nəzarəti artırılmalı və tənzimləmə tədbirləri həyata keçirilməlidir;

-regionlar üzrə kiçik ulduzlu mehmanxana şəbəkələrinin yaradılması üçün bu sahəyə yerli və xarici investorların cəlbi məqsədilə əlverişli iqtisadi tədbirlərin həyata keçirilməsi ;

- Azərbaycana xarici ölkələrdən turist cəlb edən yerli turizm müəssisələrinə dövlət tərəfindən maliyyə yardımlarının edilməsi və s.

ƏDƏBİYYAT

1. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Dərs vəsaiti. Bakı: Mütərcim, 2006-280 s.
2. Abdullayev K.N. Azərbaycan Respublikasında turizm sahəsinin ölkənin sosial-iqtisadi inkişafına təsiri məsələləri // Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Azərbaycan Turizm və Menecment Universiteti, Bakı: Mütərcim, 2019, s.157-164
3. www.stat.gov.az/turizm/2019

Eldar MƏMMƏDBƏYOV
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
eldar.mammadbayov@gmail.com

Müasir dünyada turizm sahəsində icra edilən strategiyaların Azərbaycana tətbiqi imkanları

Возможности для реализации стратегий развития туризма в современном мире в Азербайджане

Opportunities for ımplementing strategies for tourism in the modern world in Azerbaijan

Xülasə: Sənayenin hansı sahəsindən asılı olmayaraq, biznesin inkişafı üçün uyğun strategiyanın seçilməsi əsas faktordur. Turizm nəhəng və öncül iqtisadi sahələrdən biri olduğu üçün onun inkişaf etdirilməsi müəyyən və dəqiq strategiyasız çox çətindir. Turizm strategiyaları və inkişaf planları adətən inkişaf etmiş ölkələrdə qərarlaşdırılır və qurulur. Bu onların onilliklər boyu inkişaf periodlarını keçməsi və təkmilləşməsi ilə əlaqədardır. Bu məqalədə illik startistikalarda turistlərin seçimləri və əldə edilən gəlirlələrə görə yüksək pillələrdə qərarlaşan bir neçə ölkənin strategiyaları təhlil edilir. Nəzərə alsaq ki, Azərbaycan turizmin formalaşdırılması yolunda yeni istiqamətdədir, bu təsdiq edilmiş strategiyalar nümunə kimi istifadə edilə bilər.

Açar sözlər: turizm, iqtisadiyyat, strategiya, plan, qonaqpərvərlik

Резюме: Независимо от отрасли, поиск подходящей стратегии для развития бизнеса является решающим фактором. Поскольку туризм является одной из огромных и ведущих отраслей экономики, вряд ли можно развивать ее без правильно выбранной и конкретной стратегии туризма. Стратегии туризма и планы развития обычно концентрируются и устанавливаются в развитых странах, поскольку они прошли определенные периоды и пережили десятилетия улучшений. В этой статье анализируются стратегии туризма в некоторых развитых странах, которые занимают более высокие позиции из-за своих доходов и туристических предпочтений в ежегодной статистике туризма. Учитывая тот

факт, что Азербайджан находится на новом направлении формирования туризма, эти проверенные стратегии могут быть примером для местной индустрии туризма.
Ключевые слова: туризм, экономика, стратегия, план, гостеприимство

Abstract: Regardless of field of industry finding appropriate strategy to elevate the business is crucial factor. As tourism is one of enormous and leading field of economy it is hardly possible to develop it without well-chosen and concrete tourism strategy. Tourism strategies and development plans are usually concentrated and set in developed countries as they have gone through certain periods and experienced decades of improvement. This article analyzes about tourism strategies of a few developed countries that place higher because of their income and tourist preferences in the annual tourism statistics. Considering the fact that Azerbaijan is in the new direction of tourism formulation these proved strategies can be an example for the local tourism industry.
Keywords: tourism, economy, strategy, plans, hospitality

Turizmin inkişaf etdirilməsi hal-hazırda bir çox dünya ölkələrinin qarşısına qoyduqları prioritet məsələlərdəndir. Hər il dünya turizm sferasının dəyişkən temperamentli fonunda ölkələr müxtəlif inkişaf planları və startegiyaları formalaşdırmaqla bazarda yüksək mövqeyə sahiblənməyə çalışırlar. Bunun üçün iri miqyaslı beynəlxalq korporasiyaların investor kimi marağının cəlb edilməsi, geniş miqyaslı elmi-praktiki tədqiqatlar keçirməklə cari boşluqların doldurulması, müsbət tərəflərin inkişaf etdirilməsi və yeni bir mərhələyə köçürülməsi, dəyişkən və sərhədsiz turist-alıcı istəklərinə uyğun destinasiya və ya turizm məhsulu yaratmaqda ölkələr ciddi rəqabətdədirlər. Turizmdə planlı inkişafın tətbiqi və strategiların hazırlanması əsasən inkişaf etmiş ölkələr üçün xarakterikdir. Bu kateqoriyaya aid olan ölkələr cari turizm sənayesinin tədqiqatlarına ciddi maliyyə vəsaitləri cəlb edərək qısa və uzun dövrə istiqamətlənən "yol xəritələri" formalaşdırırlar. Bu qəbildən olan ölkələrə ABŞ, Avropa, Şərqi Asiya və Avstraliya daxildir.

Amerika Birləşmiş Ştatları turizmdə öncül pillələrdə qərarlaşmasına baxmayaraq turizmin davamlı inkişafını əsas məqsəd seçmiş ölkələrdəndir. Səyahət və turizm Amerika iqtisadiyyatı üçün vacibdir. Bu böyüyən sənaye, ölkənin bütün bölgələrində iş yerlərinin açılması üçün əhəmiyyətli potensial təklif edir. Milli təhlükəsizlik, nəqliyyat və ticarətdən təbii ehtiyatların idarə edilməsinə qədər bütün sahələri özündə ehtiva edən federal siyasət səyahət və turizmin böyümə potensialına təsir göstərir. 2019-ci ildə səyahət və turizm sənayesi 1,2 trilyon dollar büdcəyə valyuta gətirmiş və 7.6 milyon iş yerinin açılmasına səbəb olmuşdur. Həqiqi səyahət və turizm xərcləri 2019-ci ildə bütövlükdə iqtisadiyyat üçün 1.7 faiz artımla müqayisədə 3,5 faiz artmışdır. ABŞ milli strategiyasında da vurğulandığı kimi: bir destinasiya olaraq, heç bir başqa destinasiya Amerika Birləşmiş Ştatları və əraziləri boyunca tapılan təcrübələrin müxtəlifliyi, ictimai məkanları, suları və nadir mədəni və tarixi yerləri ilə rəqabət edə bilmir. Sənayeni daha da gücləndirmək üçün ABŞ Turizm və Səyahət Bürosu bir neçə hədəf istiqamətlər müəyyən etmişdir: ABŞ-ı təbliğ etmək; Birləşmiş Ştatlarda daxili səyahət və turizmin inkişafı; dünya səviyyəli müştəri xidməti və qonaq təcrübəsinin təkmilləşdirilməsi; hökumət daxilində vahid koordinasiya; tədqiqat və nəticələrin ölçülməsi. Bununlada 2029-ci ilin sonunadək hər il 250 milyard dollar xərcləyəcəyini təxmin etdilir və 100 milyon beynəlxalq qonağı cəlb etmək və qarşılamaq üçün ABŞ-da iş yerlərini artırmağı hədəfləyirlər. [4,s.16]

Turizm həmişə Paris üçün əsas iqtisadi qaynaq olmuşdur. Hər il bu sektor İl-de-Fransa üçün təxminən 40 milyon avro iqtisadi fayda gətirir və 524.000 iş yeri yaradır. İnkişaf etməkdə olan ölkələrin yüksək tələbatına əsaslanaraq sektorda dünya miqyasında ciddi inkişaf müşahidə olunur. Beynəlxalq turizm sabit bir tempdə (ildə + 5% aralığında) artır. Bunu nəzərə alaraq, Parisin bu ilkin Turizmin İnkişaf Planında əks olunan turizm üçün hərtərəfli strategiya qəbul etməsini zəruridir. Plan, Fransa kapitalının aktivlərini daha da artırmaq və altı il ərzində yeni irəliləyişlər əldə etmək məqsədi daşıyır. Bu məqsədlə konkret fəaliyyət göstərmək üçün bir sıra təkliflərdən hazırlanmışdır. Xüsusilə, Montparnasse və rəssamların yerləşdiyi bölgə, 11-ci məkandakı şənlik məhəllələri, Çaynataun (Chinatown) və küçə sənəti, Bastildəki Yaşıl Paris və ya Vincennes meşəsi kimi turistlərin daha az tanıdığı bölgələr üçün yeni təkliflər hazırlamağa imkan verəcəkdir. [3,s.3]

"İnnovasiya Norveç" adlandırılan turizm strategiyası ölkənin cari sənayesinin inkişaf perspektivlərini 2014-2020-ci illər üçün tərənnüm edir. Strategiyanın özəyində yeni dəyərlər yaradabili-

nən biznesin inkişafı dayanır. Bu startegiyanın misiyası Norveçdəki turizm biznesinin və sənayesinin daha da gücləndirilməsi və dayanıqlı inkişafa əsaslanmasıdır. Burada əsasən üç prioritet sahə qərarlaşdırılmışdır. Bu sahələr bütövlükdə ölkənin ümumi maraqları fonunda ahəngdarlıq yaradır. Turizm destinasiyası kimi Norveçin brend kimi inkişafı və ÜTT-nin dayanıqlı turizm konseptinin tətbiqi bu strategiyanın istiqamətverən faktorudur. Strategiyanın tətbiq edilməsində əsas ambisiya rəqabət, inkişaf və marketinq məsələlərində sənayenin üstünlük verilən tərəfdaşına çevrilməkdir. Bu turizm destinasiyası olaraq Norveçin geniş miqyaslı struktur layihələri icra etməklə kiçik və böyük şirkətlər, podratçılar, birbaşa və dolayı yolla bu sənayedə fəaliyyət göstərən 3-cü tərəflərə unikal perspektivlər yaradır. [3,s.16]

Azərbaycana ən yaxın ölkə kimi Türkiyənin turizm strategiyasının da təhlil edilməsi məqsədə uyğun olardı. Türkiyədə Turizmə verilən təkan 2003-cü illərdən başlayır. Ölkənin 2003-cü ildən başlararaq ölkənin bir turizm destinasiyası kimi dünya platformasında tanıdılması və inkişafı hazırki uğurunun bir nişanıdır. Türkiyə müxtəlifliklər məkanıdır. Burada mədəniyyətlər, etnoslar, dadlar, hisslər musiqilər qovuşaraq vəhdət təşkil edir. 2007-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin 2023-cü il hədəf planı turizm cəhətdən ölkənin ön pillələrdə qərarlaşmasına səbəb olmuşdur. Təhsil, müalicə, biznes-konqres, çimərlik və balneoloji turizm istiqamətlərində yeni fəaliyyət planları hazırlanıb və bunun inkişaf etdirilməsi prioritetlərdəndir. [5,s.6]

Azərbaycanda tətbiq olunan Strateji Yol Xəritəsi Azərbaycan Respublikasının cəlbedici turizm məkanı kimi qabaqcıl mövqe tutmasına imkan yaradır və ölkəmizdə turizm xidmətləri üzrə keyfiyyətin yüksəldilməsinə gətirib çıxarır. Turizm sektorunun inkişafının dəstəklənməsi, beynəlxalq və yerli bazarlarda yüksək keyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin göstərilməsinə nail olunması, milli dəyərlərə uyğun turizm təcrübəsinin formalaşdırılması, investisiya layihələrinin cəlb edilməsi və turizmin inkişafı ilə əlaqədar aidiyyəti orqanların qarşılıqlı koordinasiyası kimi tədbirləri özündə əks etdirir. 2020-ci ilədək olan dövrdə Bakının turizm potensialından tam istifadə, milli səviyyədə daha yaxşı idarəetmənin təşkili, turizm zonalarının yaradılması, mövsümiliyin aradan qaldırılması üçün regional səviyyədə turizm infrastrukturunun inkişafı, viza prosedurlarının sadələşdirilməsi, regionlarda turizmin inkişaf etdirilməsi, turizm sahəsində təhsil proqramlarına investisiya qoyuluşunu həyata keçirməklə milli turizmin keyfiyyət sisteminin yaradılması istiqamətində tədbirlərin həyata keçirilməsi planlaşdırılır. 2020-ci ilədək olan hədəflərin reallaşdırılması nəticəsində Azərbaycanda ÜDM-in birbaşa 303 milyon və dolayı 172 milyon manatadək artacaq. [6]

Təbii ki bu adı çəkilən ölkələrin yürütdükləri turizm siyasəti ilə gənc və sənayesi yeni formalaşmağa başlayan Azərbaycan Respublikasının turizm strategiyasını müqayisə etmək bir o qədər də düzgün addım olmazdı. Çünki, ABŞ, Avropa, Şərqi Asiya və Avstraliyada turizm münasibətlərin inkişafı fərqli zamanlarda fərqli səpkilərdə baş vermişdir. Burada digər bir məsələ isə mili, dini, etnik faktorların habelə yerli icmaların, azsaylı xalqların və etnosların, daxili düşüncə tərzlərinin qoyduğu müsbət və mənfi barierlərdir. Bəzi strategiyalardan irəli gələn addımlar yerli seqmentasiyaya tətbiq etmək olmur və ya uğursuz alınır. Azərbaycanın hazırki turizm hədəflərinə çatmaq üçün Keçmiş Sovetlər Birliyinin digər turizm cəhətdən öndə olan ölkələrindən nümunə kimi istifadə etmək olardı. Onu da qeyd etmək lazımdır ki, müasir qərb yanaşmasını tamamilə kənara qoymaq və müsbət xüsusiyyətlərindən nümunə kimi istifadə etməmək də səhv qərardır. Çünki, bu gün qlobal proseslərin mərkəzində duran iri miqyaslı dövlətlər həm də turizmin axarına, orada yeni trendlərin yaranmasına da yön verirlər. Müasir standartların tətbiqi ilə yerli turizm startegiyasını formalaşdırmaqla unikal turizm məhsulu yaratmaq mümkündür.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 2016
2. France’s Tourism Strategy: Development Plan, Paris, 2016
3. Innovation Norway: Tourism Strategy. Oslo, 2015
4. National Travel & Tourism Strategy: Task Force on Travel & Competitiveness. Washington, 2019
5. Türkiye Turizm Stratejisi 2023: Eylem Planı. Ankara, 2007
6. http://iqtisadiislahat.org/news/azerbaycan_respublikasinda_ixtisaslasmis_turizm_senayesinin_inkisafina_dair_strateji_yol_xeritesi_aciqlanib-160

Gülnar HƏSƏNOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
doktorant
gunka251085@gmail.com

Sosial-mədəni xidmətlər turizm sahəsinin əsas amili kimi

Социокультурные услуги как ключевой фактор в туризме

Socio-cultural services as a key factor in tourism

Xülasə: Bildiyimiz kimi turizm müasir dünya iqtisadiyyatının demək olar ki, ən böyük xidmət sahələrindən biridir. Bu baxımdan xidmətlər iqtisadiyyatının əsas tərkib hissələrindən biri kimi turizm xidmətlərini xidmət iqtisadiyyatının multiplikatorlarından biri kimi dəyərləndirmək olar. Məqalədə turizm xidmətinin bu aspektdə araşdırılır, onun formalaşmasının mahiyyəti tədqiq olunur. Respublikada xidmət sferasının, xüsusilə də turizm xidmətinin mövcud vəziyyəti təhlil edilir, onun formalaşması istiqamətlərinə aydınlıq gətirilir. Məqalədə həmçinin Azərbaycanda bu xidmət sferasının ölkə iqtisadiyyatının tərkibində xüsusi çəkisinin mövcud vəiyyəti, bu sahənin qeyri-neft sektorunun əsas tərkib elementlərindən biri olaraq inkişafının zərurliyi ön plana çıxır. Müəllif turizm xidmət sektorunda olan mövcud problemləri açıqlayır və onlrın aradan qaldırılması yollarını müəyyənləşdirir.

Açar sözləri: turizm xidməti, sosial-mədəni xidmətlər, turizm məhsulu, turoperator, turagent

Резюме: Как известно, туризм является едва ли не одной из крупнейших услуг в современной мировой экономике.С этой точки зрения, туристические услуги как одна из основных составляющих экономики услуг могут рассматриваться как один из мультипликаторов экономики услуг.

В статье исследуется этот аспект туристического сервиса и рассматривается сущность его формирования. Проанализирована текущая ситуация в сфере услуг в стране, в частности, в сфере туризма, и уточнены направления ее формирования. В статье также подчеркивается тот факт, что сфера услуг в Азербайджане имеет особый вес в экономике страны и необходимость развивать этот сектор как один из ключевых элементов ненефтяного сектора. Автор описывает существующие проблемы в сфере туристических услуг и определяет пути их решения.

Ключевые слова: туристический сервис, социально-культурные услуги, туристический продукт, туроператор, турист

Abstract: As we know, tourism is almost one of the largest services in the modern world economy. From this point of view, tourism services as one of the main components of the services economy can be considered as one of the service economy multipliers.

The article explores this aspect of tourism service and examines the essence of its formation. The current situation in the sphere of services in the country, in particular, tourism, is analyzed, and the directions of its formation are clarified. The article also highlights the fact that the service sector in Azerbaijan has a special weight in the country's economy and the need to develop this sector as one of the key elements of the non-oil sector. The author describes the existing problems in the tourism services sector and identifies ways to address them.

Keywords: tourism service, socio-cultural services, tourism product, tour operator, tourist

Turizm sahəsinin inkişafı hər bir dövlətdə iqtisadi imkanların istifadəsi və eləcədə ölkə iqtisadiyyatının perspektiv inkişafı ilə əlaqədar əsaslandırılır. Turizmin inkişafı zəruriliyi Azərbaycan Respublikasının iqtisadi-inkişaf dinamikası və regionların sosial-iqtisadi inkişaf zərurəti ilə əlaqədardır. Ölkədə turizm sahəsinin inkişafı dünya təcrübəsi və dünya turizm xüsusiyyətləri ilə əlaqədardır. [1]

Müasir şəraitdə turizm sahəsi ölkənin həm iqtisadi həm də sosial inkişafının əsas amillərindən biridir. Belə ki, qeyri- neft sektorunun inkişaf strategiyasının reallaşdırılmasında milli və eləcədə regional turizmin rolu dinamik olaraq artmaqdadır. Azərbaycan Respublikasının müasir inkişaf problemlərinin həll olunması, onun dünya iqtisadi birliyində səmərəli iştirakı və ölkənin mövcud resurs potensialından səmərəli istifadə edilməsi turizmin hərtərəfli inkişafını tələb edir. Bununla yanaşı, ölkədə sosial bazar iqtisadiyyatının formalaşması turizm sferasının müasir təzahür formalarının ya-

ranmasını zəruri edir. Turizm fəaliyyətinin iqtisadi səmərəliliyi çox zaman turizm formalarının düzgün təsnifəlşdirilməsi ilə müəyyən edilir. [7, səh-12] Turizmin təsnifləşdirilməsi dedikdə turist sahələrinin oxşar əlamətlərə görə praktiki məqsədlər üçün qruplaşdırılması başa düşülür. Turizmin hər bir forması turistin tələbatından asılı olaraq müəyyən növ xidmətlərin düzgün təyin olunub qruplaşdırılması ilə xarakterizə olunur. Dünyanın hər bir ölkəsi öz sosial-iqtisadi və coğrafi şəraitinə uyğun olaraq turimzin inkişaf modelini qəbul edir və ona uyğun olaraq sahənin inkişaf konsepsiyasını tərtib edir. Bu baxımdan, turizmin inkişaf etdirilməsinin əsas istiqamətləri ölkə iqtisadiyyatının bütün sahələri ilə sıx əlaqəsi olan turizm sənayesinin yaradılması eləcədə son nəticədə rəqabətə davamlı turizm məhsulunun hazırlanması və onun satılmasıdır. Xalq təsərrüfatının hər hansı bir sahəsində təsərrüfat fəaliyyəti ilə məşğul olan zaman müəyyən məhsul istehsalı zərurəti meydana gəlir. Məhsul istehsalı dedikdə, müəyyən təsərrüfat fəaliyyəti zamanı əmtəədə maddiləşən və mənəvi informasiya, eyni zamanda müəyyən xidmət növləri formasında yerinə yetirilən insan əməyinin son nəticəsi başa düşülür. Onuda nəzərə almaq lazımdır ki, turizm sahəsinin istehsal dairələri elə turizm məhsulları və suvenerləri ilə istehsal edən müəssisə və şirkətlər mövcuddur. Lakin turizm qeyri-istehsal sahələrinə, yəni sosial sahəyə olduğundan burada sərf olunan əməyin nəticəsi kimi əhaliyə göstərilən xidmətlər çıxış edir [6, səh-34]. Xidmət dedikdə maddi əşya forması almayan və istehlak dəyəri canlı əməyin faydalılığı ilə ölçülən, alqı-satqı obyektinə, istehlak predmetinə çevrilən xüsusi növ əmək məhsulları başa düşülür. Əmtəələrdən fərqli olaraq göstərilən xidmətlərin istehsalı və istehlakı eyni vaxtda baş verdiyindən, bu zaman yığımın həyata keçirilməsi mümkün olmur. Bunda başqa turizm sahəsində göstərilən xidmıtlərin istehlakı həm maddi, həm də uzun müddətli xarakter daşıya bilər.

Sosial-mədəni xidmətlər dedikdə, istehlakçının normal fəaliyyətini təmin etmək üçün ona göstərilən mənəvi, intellektual-əqli tələbatların ödənilməsi nəzərdə tutulur. Bazar iqtisadiyyatı şəraitində xidmət alqı-satqı obyekti olduğuna görə onun istehsalçıları satıcı, istehlakçıları isə alıcı rolunda çıxış edirlər. [2, səh-67] Iqtisadiyyatın əsas elementi olan bazarda mövcud olan bu şəraiti tamamilə turizm sahəsinə də şamil etmək olar, baxmayaraq ki, buarad kommersiya fəaliyyəti ilə yanaşı daha geniş surətdə qeyri-kommersiya fəaliyyəti təmsil olunur. Ümumiyyətlə turizm sahəsi üzrə xidmət bazarında (həm alıcı, həm də satıcı) balans o zmaan yaranır ki, həm istehsalçılar istehsal etdikləri işin, xidmətlərin müqabilində gəlir əldə edə bilsinlər, həm də istehlakçılar onlara göstərilən xidmətlərin keyfiyyətində razı qalmış olsunlar.

Turizm sahəsinin məhsulu haqqında tam təsəvvür yaratmaq üçün bəzi dünya alimlərinin fikirləri ilə də tanışlıq yerinə düşərdi. Onların əksəriyyətinin fikrincə əmtəələrin, maddi xidmətlərin və sosial–mədəni xidmətlərin istehlakı vahid bir kompleks şəkildə araşdırılmalıdır. [8] Belə ki, qeyri-maddi xidmətlərə olan tələbatın artması, öz arxasınca maddi xidmətlərə- əmtəələrə olan tələbatın yüksəlməsinə gətirib çıxarır. Almaniyalı mütəxəssis K.Heinemann turizm sahəsinə əmtəə-mal istehsal edən özünəməxsus sənaye müəssisəsi kimi baxır. Fransalı W.Andreff bu sahənin məhsuluna kompleks şəkildə yanaşır və onun içərisindən tamaşaçı və ekskursiya xidmətlərini, informasiya xidmətlərini və mütəxəssisləri ayıraraq xüsusi qeyd edir.

Turizm sahəsində sosial-mədəni xidmətləri araşdıran zaman bu xidmətləri bazarda həyata keçirən subyektlər, yəni turist məhsulunun formalaşması və satışında iştirak edən hüquqi və fiziki şəxslərin rolu da araşdırma obyekti olmalıdır. [4, səh-45] Bu baxımdan, bazarda fəaliyyət göstərən subyektlərə aşağıdakıları aid etmək olar:

-Turoperator (turların təşkilatçısı) – turizm məhsulunun istehsalı, yayılması və satışı ilə məşğul olan hüquqi və fiziki şəxslər. Bəzi ədəbiyyatlarda onları turun təşkiltçıları da adlandırırlar.

- Turizm xidmətlərinin icraçıları (kotragent) – turpaketə daxil olan yerləşdirmə, yeməklə, nəqliyyat, ekskursiya və digər xidmətləri yerinə yetirən hüquqi və fiziki şəxslər, otellər, restoranlar, nəqliyyat şirkətləri, idman klubları, stasionar müalicə və sağlamlıq müəssisələri və s. Bunlar turoperatorlara xidmət göstərən xarici və daxili kotragentlərdir.

- Turagentlər – turizm məhsullarını yayımlayan, satan hüquqi və fiziki şəxslər, yəni vasitəçilərdir.

- Turist məhsullarının alıcıları –şəxsi ehtiyacları üçün turist xidmətlərini alan, istifadə edən fiziki şəxslərdir.

Bildiyimiz kimi bazar iqtisadiyyatında qiymətin əmələ gəlməsi tələb və təklif əsasında formalaşır. Ilkin və törəmə təkliflərin cəmi turist məhsulunun qiymətinin formalaşmasında vacib amildir. Son zamanlar normativ-hüquqi sənədlərdə turist məhsullarının tərifi turist üçün nəzərdə tutulmuş turu almaq hüquq kimi müəyyən edilir. Bu isə danışma, yerləşdirmə və gəzinti proqramlarından ibarətdir [5, səh-50]. Bu baxımdan turist məhsulunun istehsalı ilə hava, dəniz, dəmiryol, avtomobil şirkətləri, mehmanxanalar, onlarla bərabər tutulan yerləşdirmə vasitələri, idman və kurort təşkilatları məşğul olur. Qısa şəkildə onu belə formada yazmaq olar:

Turizm məhsulu = marşurtu+xidmətlər paketi .

Turizm və sosial-mədəni servis xidməti fəaliyyət növü kimi əhalinin asudə vaxtının səmərəli istifadə edilməsiinin eyni zamanda turistlərin digər xidmət növlərindən istifadənin gücləndirilməsinə təkan verir. Turizm xidmətləri bilavasitə turist təşkilatlarının fəaliyyətinin nəticəsidir. [6, səh-23]Turizm xidməti əməyin spesifik xüsusiyyətlərini və məzmununu müəyyən edən milli iqtisadiyyatın müstəqil bir sahəsidir. Turizm sahəsində əmək məhsuldarlığının artım sürəti üçün xidmətin səviyyəsinin yüksəldilməsi, əməyin təşkili və stimullaşdırılmasının forma və üsullarının təkmilləşdirilməsi, turizm və sosial-mədəni servis xidmətlərinin təşkilinin yenidən qurulması zəruridir.

ƏDƏBİYYAT

1. Azərbaycanda Turizm strategiyasının inkişafı üçün texniki yardım. Bakı: 2006, 188 s
2. Əlirzayev.Ə.Q. Turizmin iqtisadiyyatı və idarə edilməsi. Bakı: İqtisad Universiteti, 2010
3. Qurbanov F.İ. Azərbaycanda Turizmin inkişaf problemləri. Bakı: Adiloğlu, 2007
4. Mehbalıyev F.F., İsrafilov V.V., Əliyeva S.F. İdman və Turizmin sosial –iqtisadi əsasları, turist bazası. Bakı-2016.
5. Rəhimov S.H. Turizm-ekskursiya işinin təşkili. Bakı: "Mütəcim", 2004, 312 s
6. Promoting Foreign Investment in Tourism – United Nations, New York and Geneva 2010
7. Measuring Employment in the Tourism Industries, UNWTO Publications, 2013
8. https://www.economy.gov.az/

Nigar HABİBULLAYEVA
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim
nigar_hashimova@hotmail.com

Mineral waters of Guba-Khachmaz region

Quba-Xaçmaz bölgəsinin mineral suları

Минеральные воды Губа-Хачмазского района

Xülasə: İngilis dili kafedrasının elmi-tədqiqat planı olan "Regionların tarixi və turizm abidələrinin marketinq strategiyasının təbliğinin ingilis dilində hazırlanması" işi çərçivəsində "Quba-Xacmaz regionunda mineral sular" mövzusu haqqında məlumat topanmış və ingilis dilinə tərcümə edilmişdir. Tədqiqatda Quba rayonunun yerli və xarici turistlər üçün turizm destinasiyası kimi üstünlükləri haqda məlumat toplanmış, ərazidə mövcud olan mineral sular haqqında məlumat verilmış və onların turizm potensialı baxımından əhəmiyyəti araşdırılmışdır.

Açar sözlər: region, mineral sular, istirahət(müalicə) turizmi

Резюме: В рамках плана научных исследований кафедры английского языка «Разработка маркетинговой стратегии исторических памятников и туристических памятников на английском языке» был составлен и переведен исследовательский материал «Минеральные воды в Губа-Хачмазском регионе». В ходе исследования была собрана информация о преимуществах Губа-Хачмазского региона как туристического направления для местных и иностранных туристов и предоставлена информация о минеральных водах, имеющихся в этом районе, и их важности с точки зрения туристического потенциала.

Ключевые слова: регион, минеральные воды, рекреационный туризм

Abstract: Within the framework of the scientific research plan of the English language department "Development of marketing strategy of historical monuments and tourism monuments in the English language", an English-language research material about “Mineral waters in Guba-Khachmaz region” was compiled and translated. The study collected information on the advantages of Guba region as a tourist destination for local and foreign tourists and provided information on mineral waters available in the area and their importance in terms of tourism potential.
Keywords: region, mineral water, recreational tourism

Guba-Khachmaz economic region is located in the northeastern part of Azerbaijan, covering Davachi, Khachmaz, Guba, Gusar and Siyazan administrative districts. The total area of the economic region is 7.66 thousand sq.km, which makes up 8.8% of the country's territory. The economic region has its own relief. The area is divided into four altitudes (from 26 to 4466 meters), sharply different from each other - plains, foothills, middle mountainous and high altitude zones. The climatic conditions of the region are also varied according to these zones. The hilly zone is characterized by a warm climate, while the mountainous zone has cold, humid and cold climatic conditions. The total population of the region is 453.1 thousand, which is 5.6% of the country's population. Guba-Khachmaz economic region is one of the most important resort and sanatorium regions and has rich natural-recreational resources. There is a resort on the basis of Galaalti mineral water in Devechi. Guba - Khachmaz economic region has very favorable transport - geographical position. The railway, highways, trunk oil, gas and water pipelines, telecommunication lines passing through the economic region play an important role in the development of transport and economic relations of the country. Communication lines connecting Azerbaijan with the Russian Federation (RF) pass through this region. Guba. It is one of the most developed agricultural regions in Azerbaijan. The fruits and vegetables grown here are exported to the capital markets, processed at local canning industries, and exported to other countries. Despite the fact that there are many kinds of fruits and vegetables grown in Guba region, every Azerbaijani is called "Guba". People selling apples in Baku markets are emphasizing that it is definitely taking Quba to praise their goods. Guba region, rich in flora, is also represented by a wide range of medicinal plants. Here are grown juniors, juniper, cats, swine, swine, effedra and some other herbs.

There are many picturesque shades around Guba. Gagrash, Balbulag, as well as the Tangartti ravine, with a depth of 400 to 600 meters, are especially popular with tourists.

The famous AFURCA GALLERY on Valluvalik is included in the list of natural monuments of Azerbaijan and is protected by the state. There are other waterfalls attracting the attention of tourists and travelers with their unequality and indifference. These picturesque places have a unique taste of walking around the tourist trails. Tall trees are replaced by arms, and upstream from the cliffs of the river Khashichay, thermal waters are drawn. In the ancient times, skilled craftsmen built three small holes in a rocky roof and constructed unopened baths and covered them with stones.

Those who come here can dry in warm water with sulfur-hedrotine baths. According to experts, this natural stone made of bath water further improves the healing effect.

Chiragqala sanatorium attracts attention in the resort town of GALAALTI. There is a sulfur mineral water springs that have healing properties in its territory. This is particularly useful for patients with gallbladder and urine bladder.

The Guba-Khachmaz economic region is located in the north-eastern part of Azerbaijan, covering Shabran, Khachmaz, Guba, Gusar and Siyazan administrative districts. The natural geographical position of the economic region is useful for tourism. This region is rich in tourism resources. The Guba-Khachmaz economic region falls on the southeastern part of the Greater Caucasus, a geological age-old mountain system. From this point of view, mineral springs have reached the surface of the tectonic cracks. These springs are useful in terms of tourism. Fountains are used for health-care purposes. These springs are the most valuable natural resources in Guba - Khaltan, Khashy, Cimi, Siyazand - Galaalti. Xaltan mineral spring is located in the village of Xaltan in the foothills of the Guba region.

In the northern zone, nitrogen and sulfur oxygen-free thermal and cold waters are observed. The most valuable of these are Khaltan, Jimi and Hashim waters (Guba region), Chukhururd sullari (Shamakhi district).

According to ANAS, the deposit reserves of "Galaalti" mineral water fields, which is analogous to mineral water "Naftusiya" in Davachi region, were approved at 154 thousand liters a day. In Khachmaz region "Nabran" (reserves of 29,900 l / gun), "Chukhururd" (140,000 l / day) in Shamakhi region.

The therapeutic properties of mineral waters are determined by the following 6 major ions: sodium, calcium, magnesium, chlorine, sulfate and hydrocarbonate. The diversity of these waters depends on the combination of these six elements in different proportions.

High temperature mineral waters are known in Goturlu (64 °), Duzuzuten (64 °, Masalli), Istisu (62 ° C Kelbajar region). Temperatures are 35-36 degrees Celsius. That temperature corresponds to the human body temperature. The importance of treating such waters is much higher. Such waters include Khaltan (Davachi district), Ilisu (Gakh district) (36 ° -42 ° C) and others. On the basis of international balneological classification, mineral waters known on Earth differ according to the following rule;

1. Cold water (below 20 ° C);
2. Subtermable (warm) water (20 ° -37 ° C);
3. Thermal (hot water (37 ° to 42 °);
4. Hypothermic (very hot) waters (over 42 °).

The Guba-Khachmaz economic region has a very favorable transport-geographical position. Railways, highways, main oil, gas and water pipelines, telecommunication lines passing through the economic region play an important role in the development of transport economic relations of the country. Communication lines linking Azerbaijan with the Russian Federation pass through this region.

Guba-Khachmaz economic region is rich in mineral resources. The mineral and cold springs in Galaalti, Khaltan, Plain Bilic, Cimi and Nabran are very important for the development of resort recreational farms. The flow rates in Nabran are 2400 l / day. The indicated waters can be used for the treatment of the support organs, joints, blood, nerves and skin diseases. Ghalalti mineral water flow rate is 225 l / day with carbonate and hydro-carbonate and mineralization rate is 1.5-4 mg / l, temperature is + 12-25 S.

This water is used to treat kidney and rheumatic diseases. Hammer mineral water flow rate is 100,000 l / day. It includes 30 springs with hydrogensulfide content and temperatures are + 2530 C. The mineral water of the same name in the Zeyve settlement is 4000 l / day and the temperature is + 10-20 S.

In Khachmaz region "Nabran" (reserves of 29.9 thousand l / gun),

In Shamakhi district, "Chukhururd" (140 thousand l / day),

Scientific and experimental researches are conducted in many developed countries of the world in connection with the solution of non-traditional solar, wind and groundwater thermal energy problems. The fact that thermal waters are the accumulator of the underground thermal energy and high thermal-energy attributes, characterize thermal waters as a special energy carrier during non-traditional energy sources.

Thermal waters with a total flow rate of 30000 m <sup> 3 </ sup> / day and 50-81 ° C on the surface of the Caspian Sea were discovered by exploration wells at depth of 3000 m in the Khazarian (Khudat-Khachmaz) zone.

The Khudat-Khachmaz thermal water reservoir was discovered in the Guba-Khachmaz zone and operational reserves of 25,700 m 3 3 / day / day were approved and registered at the State Balance.

Although thermal waters are widely spread across the country, it is unsatisfactory to use them in different sectors of the economy.

Geological exploration wells currently being drilled to thermal waters are partly used for the treatment and household utility services in Khachmaz region.

Predicted operational resources of thermal waters are evaluated as follows:

- The southern slope of the Greater Caucasus - 2000 m3 / day (t-30-50 ° C);
- Guba-Khachmaz zone - 21000 m3 / day (t-40-85 ° C);

- Absheron peninsula - 20000 m3 / day (t-40-90 ° C);
- Mountainous part of the Lesser Caucasus - 4000-5000 m3 / day (t-30-74 ° C);
- Nakhchivan MR - 3000 m3 / day (t-40-50 ° C);
- Talish Mountain Region - 15000 m3 / day (t-31-43 ° C);
- Lankaran plain - 7000-8000 m3 / day (t-44-64 ° C);
- Kur basement - 170000 m3 / day (t-30-71 ° C);
- on the Republic - 249,000 m3 / day.

Analysis of the geological materials of thermal water deposits indicates that the thermal waters of the entire reservoir are much higher than above mentioned.

It is of utmost importance that the underground thermal water, which is an environmentally sound source of energy, along with other types of fuels (mainly oil, gas), is complexly studied and given to the public.

At present, the National Geological Survey Service conducts special studies to determine the direction of use of thermal waters in the territory of the Republic.

ЛИТЕРАТУРА

1. И.И. Тагиев, И.Ш. Ибрагимов, А.М. Бабаев [Ресурсы Минеральных и Термальных Вод Азербайджана] 167 ст. Баку (2001)
2. Perspectives of the use of alternative energy sources in the Republic of Azerbaijan, Azerbaijan National Academy of Science, Engineering Problems, № 1, Baku 2004, 40p.
3. https://az.wikipedia.org/wiki/Quba-Xa%C3%A7maz_iqtisadi_rayonu
4. http://www.eco.gov.az/az/tebii-servetlerimiz/termal-sular

Çingiz ƏLİYEV
Azərbaycan Turizm və Menecment Universiteti,
a.e.ü.f.d., dosent
s.aliyeva1@hotmail.com

Novruz QULİYEV
Azərbaycan Turizm və Menecment Universiteti,
p.e.ü.f.d., dosent
n.quliev@atmu.edu.az

Emal olunmuş bəzi tərəvəz məhsullarının kimyəvi – texnoloji göstəricilərinin qiymətləndirilməsi

The evaluation of chemical-technological indicators of some processed vegetables.

Оценивания химико -технических показателей некоторых растительных продуктов

Xülasə: Məqalədə tədqiqat illərində (2017-2018-ci illərdə) pomidor və mətbəx kökü bitkilərinin emala qədər və emaldan sonra saxlanmaya, daşınmaya və konservləşdirməyə yararlığının bir sıra morfoloji, bioloji, fiziki-mexaniki və biokimyəvi göstəriciləri öyrənilmişdir.

Açar sözlər: biomorfoloji, məhsul, qida, sort, təsnifat.

Резюме: В данной статье изучена степень полезности ряда морфологических, биологических, физико-механических и биохимических показателей растений томата и моркови до и после обработки и их для консервирования, хранения, перевозки в исследовательские годы (2017-2018).

Ключевые слова: биоморфология, урожай, продовольствие, сорт, классификация.

Abstract: In this article, usefulness rate of tomato and carrot plants' some several morphological, biological, physical-mechanical and biochemical indicators have studied for canning, storage, carriage pre and after processing during the research years (2017-2018)

Keywords: bio morphological, crop, food, sort, classification.

Kənd təsərrüfatı bitkiləri arasında əhalinin istifadə xüsusiyyətlərinə görə tərəvəz bitkilərinin xüsusi yeri vardır.Regionların torpaq-iqlim şəraitindən asılı olaraq tərəvəz bitkilərin bəzi növləri bir ildə iki dəfə becərilir.Buna baxmayaraq tərəvəz məhsullarının istehsalı mövsümü xarakter daşıyır. Bu baxımdan ölkə bazarında müəyyən dövrə təsadüf edən məhsul bolluğu yaranır.Belə halda məhsulun çox vaxt maya dəyərindən aşağı qiymətə satılmasına və ya kütləvi şəkildə xarab olaraq sıradan çıxmasına, əhalinin son nəticədə tərəvəz məhsullarına tələbatının ödənməməsinə gətirib çıxarır. Statistik məlumatlara əsasən son 3 il ərzində respublikada tərəvəz, bostan və kartof bitkilərinin əkin sahəsi 184-190 min hektara çatmış və il ərzində 1.2-1.4 mln tondan çox tərəvəz, 1.1 mln tondan çox kartof məhsulu istehsal edilmişdir.Tərəvəz və bostan bitkillərinin orta məhsuldarlığı 139.3-145.6 sen/ha təşkil etmişdir.Hazırda ölkəmizdə il ərzində adambaşına istehsal olunmuş tərəvəz məhsullarının miqdarı 93 kq qəbul edilsədə, faktiki olaraq bu göstərici 130 kq-dan çoxdur [1].

Dünyanın əksər inkişaf etmiş ölkələrində bu göstərici 190 kq-a çatır.Ekspertlər bunu həmin ölkələrdə saxlayıcıların olması və əhalinin ilboyu həmin məhsullarla müntəzəm təmin edilə bilməsi ilə izah edirlər [2].

Bu gün tərəvəz məhsullarının səmərəli saxlanması əhalinin həmin məhsullarla təminatının yaxşılaşdırılmasında vacib mənbə olub, bu üsulla 20%-dək əlavə məhsul əldə etmək mümkün olur. Məhsulun düzgün emalı da bir növ onun saxlanmasına xidmət edir.Odur ki, bütün ilboyu tərəvəz bitkiləri məhsullarının saxlanması hesabına xammal bazası yaradılması aktual məsələlərdən biridir.

Tədqiqatın məqsədi-pomidor və kökümeyvəli məhsulların uzun müddət keyfiyyətli saxlanması hesabına tomat və kök şirəsi istehsalı üçün xammal bazasının yaradılmasıdır.

Qarşıya qoyulan vəzifələr. Azərbaycanda ekoloji baxımdan təmiz, keyfiyyətli pomidor və kök şirəsi istehsal etmək üçün aşağıda qeyd olunan məsələlərin həlli elmi-tədqiqat işində ön plana çəkilmişdir:

- Bütün il boyu şirə istehsalına nail olmaq üçün yerli şəraitdə yetişdirilən pomidor və mətbəx kökünün emala qədər müxtəlif üsullarla saxlanmasının tədqiqi.

a) İlkin variantda zavoda gətirilmiş pmidor və kökün emala qədər ön gün müddətində adi şəraitdə 16-18^0 C temperaturda saxlamaq;
b) İkinci variantda pomidor və kökün soyuducu kamerada +3-5^0 C temperaturda, nəmliyi 80-85 % arasında olmaqla üç ay müddətində saxlamaq.

Qeyd olunan variantlar üzrə pomidorun və kökün saxlanmasında kimyəvi göstəricilərin miqdarca dəyişməsini araşdırmaq, eyni zamanda təbii itkini miqdarca müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqatın obyekti və metodikası. Tədqiqatın obyekti kimi AMEA Botanika İnstitutunun Kürdəmir DM-nın ərazisində becərilən (pomidorun Titan və Leyla, mətbəx kökünün Abşeronskaya mestnaya sortları) tərəvəz məhsullarından istifadə olunmuşdur.Emal prosesi Lənkəran konserv zavodunda həyata keçirilmişdir.

Tədqiqatın metodikası. Tomat və kök şirəsi istehsalı üçün müxtəlif rejimlərindən asılı olaraq saxlanması iki variant üzrə yerinə yetirilmişdir.

Tədqiqat işindən alınmış nəticələrin riyazi hesabatı və iqtisadi səmərəliliyi Excel proqramından və İBM tipli fərdi kompüterdə Turbo Pascal yüksək səviyyəli proqramlaşdırma dilindən istifadə edilərək öyrənilmişdir [4].

Tədqiqat işinin nəticələrinin riyazi təhlili dispersion analiz metodu əsasında yerinə yetirilmişdir [5].

Tədqiqat nəticələrinin təhlili. Pomidor və kökün qısa və uzun müddət saxlanmasında fermentlər tədqiq edilmişdir.Göstərilən məhsulların saxlanmasında fermentlərin aktivliyinin dəyişməsi cədvəl 1-dəki kimi olmuşdur.

Cədvəl 1. Pomidor və kökün qısa və uzun müddət saxlanmasında fermentlərin aktivliyinin dəyişməsi, %-lə (2017-2018-ci illər)

Göstəricilər	Qısa müddətli saxlanma (10 gün müddətinə 16-18^0 C temperaturda)	Uzun müddət soyuducu və kamerada saxlanma
Pomidor üzrə		
askorbatoksidoza	+17.1	-16.1
o-difenoloksidoza	+18.0	-13.9

peroksidoza	+21.3	-10.8
katalaza	+18.2	-20.2
invertaza	+34.1	+5.0
pektinesteraza	+18.7	+4.2
Mətbəx kökü üzrə		
askorbatoksidoza	+16.1	-22.3
o-difenoloksidoza	+17.9	-19.5
peroksidoza	+22.5	-16.8
katalaza	+18.3	-27.5
invertaza	+35.2	+5.9
pektinesteraza	+21.6	+4.7

Cədvəldən göründüyü kimi pomidor və kök məhsulları emala qədər adi şəraitdə on gün müddətində saxlanmasında bütün tədqiq olunan fermentlərin aktivliyi daim artmağa meyl göstərir 16.1-35.2%.Bu variantda ferment sisteminin, yəni oksidoreduktozaların və hidrolazaların nümayəndələrinin aktivliyinin artması tənəffüs prosesinin sürətlənməsinə şərait yaradır.Məhsulların uzun müddət saxlanması zamanı oksidoreduktozaların fəallığı azalmış (10.8-27.5%), hidrolazaların aktivliyi isə əksinə olaraq artmışdır (4.7-5.9%).

Pomidor və kök məhsullarının qısa və uzun müddət saxlanmasında kimyəvi göstəricilər tədqiq edilmişdir.Bu zaman müxtəlif variantlar üzrə məhsulların saxlanması zamanı bəzi göstəricilərin miqdarca dəyişməsi cədvəl 2 və 3-də verilmişdir.

Cədvəl 2. Pomidor və kök məhsullarının qısa və uzun müddətli saxlanmasında kimyəvi göstəricilərin dəyişməsi, %-lə (2017-2018-ci illər)

Göstəricilər	Qısa müddətli saxlanma (10 gün müddətinə 16-18^0 C temperaturda)	Uzun müddət soyuducu və kamerada saxlanma
Pomidor üzrə		
Ümumi pektin maddələri	10.2	14.7
Pektin	0.2	0.3
Protopektin	19.1	19.3
Selluloza	8.3	4.2
Saxaroza	3.6	2.2
C vitamini	36.7	30.7
Mətbəx kökü üzrə		
Ümumi pektin maddələri	22.8	20.1
Pektin	20.3	20.3
Protopektin	25.0	18.6
Selluloza	15.7	15.7
Saxaroza	8.6	6.3
C vitamini	56.5	51.7

Cədvəl 3.Müxtəlif temperatur rejimlərinən asılı olaraq pomidor və kök məhsullarının günlər üzrə saxlanmasında şəkərliliyin miqdarca azalması, %-lə

Günlər	Qısa müddətli saxlanma	Uzun müddət soyuducu kamerada saxlanma
Pomidor üzrə		
3	1.8	-
5	3.6	-
8	7.5	-
10	8.9	-
30	9.6	-
60	-	2.4
90	-	4.6
Mətbəx kökü üzrə		
3	2.0	-
5	3.8	-

8	8.1	-
10	9.6	-
30	-	-
60	-	2.7
90	-	4.9

Cədvəldən göründüyü kimi hər iki variant üzrə analiz olunmuş kimyəvi göstəricilər miqdarca azalmışdır.

Əsas keyfiyyət göstəricilərdən biri hesab edilən C vitamini birinci variant üzrə 36.7-56.5%, ikinci variantda 30.7-51.7% azalmışdır.

C vitamininin miqdarca çox azalması məhsulların tərkibindəki askorbatoksidoza fermentinin aktivliyinin yüksəlməsi ilə əlaqədardır.Variantlar üzrə saxaroza itkisidə müəyyən edilmişdir.

Cədvəl 4-də saxarozanın müxtəlif variantlar üzrə təbii itkinin əmələ gəlməsi göstərilmişdir.

Cədvəl 4. Pomidor və kök məhsullarının saxlanmasında baş verən təbii itkinin miqdarı, %-lə (2018-ci il).

Variantlar	Saxlanmadan əvvəl, kq-la	Saxlanmadan sonra, kq-la	Fərq, kq-la	%-lə
Pomidor üzrə				
Adi şəraitdə saxlanma	90	86.4	3.6	4
Soyuducu kamerada uzun müddət saxlanma	90	84.4	5.1	6
Kök üzrə				
Adi şəraitdə saxlanma	90	87.3	2.7	3
Soyuducu kamerada uzun müddət saxlanma	90	85.6	3.6	4

Emala qədər təbii itki birinci variantda pmidor üzrə 4% olmuşdursa, ikinci variantda bu göstərici 6% təşkil etmişdir.Kök məhsulu variantlar üzrə 3 və 4% civarında olmuşdur.

Tədqiqatın təhlilindən və alınmış nəticələrdən məlum olmuşdur ki, zavoda gətirilmiş pomidor və kök məhsuları tez bir müddətdə və yaxud uzun müddət soyuducu kamerada saxlanmaqla emal olunması məqsədəuyğun hesab edilir.

Analiz nəticəsində alınmış rəqəmlərin dürüstlüyünü qiymətləndirmək üçü riyazi-statistik üsullar əsasında aşağıda göstərilən kriteriyalardan istifadə olunmuşdur:

1. Orta riyazi kəmiyyət

$$\bar{x} = \frac{1}{n} \sum_i^n x_i \qquad \textbf{(1)}$$

$$\bar{x} = \frac{15.2+15.0+14.7+14.9+14.6+14.7+14.6+14.5+14.1+14.9+14.2+14.0}{12} = 14.61$$

Burada n təcrübənin sayıdır.

2. Orta riyazi kəmiyyət, tapılmış ədədin orta qiymətdən (riyazi gözləmədən) kənarlaşmasını, səpələnmə ölçüsünü göstərən və orta kvadratik meyl adlanan ədəddir.Alınmış n sayda qiymətlər üçün $\bar{x}$ orta riyazi kəmiyyətin dispersiyası aşağıdakı kimi təyin olunmuşdur:

$$S^2 = \sum_i^n (x_i - \bar{x})^2 / (n-1) = 0.108 \quad \textbf{(2)}$$

Mərkəzləşmiş təsadüfi kəmiyyət aşağıdakı düsturla hesablanmışdır:

$$S = \sqrt{\sum_i^n (x_i - \bar{x})^2}/(n-1)\ \sqrt{8.89} = 0.329 \qquad \textbf{(3)}$$

3. Alınmış nəticələrin qiymətləndirilməsi üçün həm də orta riyazi kəmiyyətin seçmə dispersiyası aşağıdakı düsturla hesablanmışdır:

$S_x = \frac{S}{\sqrt{n}} = 0.095$ **(4)**

Bizim apardığımız analizlərdə

$n - 1 = 12 - 1 = 11$ və $\alpha = 0.97$ üçün $t_\alpha = 2.2$

$$E = 2.2 \times \sqrt{0.095} = 0.209$$

Burada, α – sabit kəmiyyətdir (0.95-0.99 olmaqla məhsulun keyfiyyətinə nəzarət üçün qəbul edilmişdir);

t_α= Styudent əmsalıdır;

E- nisbi kənarlaşmadır.

Metodun dəqiqliyinin xarakterizəsi üçün yalnız E-nin tapılması kifayət etmədiyi məqsədilə, metodun ehtimal olunan nisbi kənarlaşması müəyyənləşdirilmişdir (variyasiya əmsalı).

$$V = \frac{E}{\bar{x}} \times 100\% = \frac{0.209}{14.61} \times 100\% = 1.43\% \ (\mathbf{5})$$

Orta kəmiyyətin interval qiymətləri aşağıdakı kimi təyin edilmişdir:

$$\bar{x} \mp E = 14.6 \mp 0.209 \ (\mathbf{6})$$

Buradan məlum olmuşdur ki, metodun sistematik səhvləri nisbi olduğundan karotinin miqdarının həqiqi qiyməti 17.82% təşkil etmişdir.

Mətbəx kökünün müxtəlif temperatur rejimlərindən asılı olarq saxlanmasından məlum olmuşdur ki, kök xammalını adi şəraitdə emala qədər saxladıqda karotin itkisi 8.7% olmuşdursa, bu göstərici ikinci variantda 6.9% qədər azalmışdır.

Birinci variantda emala qədər təbii itki 5.2% olmuşdursa, bu göstərici ikinci variantda 5.8% olduğu müəyyənləşdirilmişdir.

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, ölkədə becərilən mətbəx kökünün bir neçə ay soyuducu kamerada keyfiyyətli saxlamaqla, həmçinin yarımfabrikat hazırlamaqla zavodun il ərzində xammala olan ehtiyacını ödəmək mümkündür.Eyni zamanda belə halda əhalinin rifah halının daha da yaxşılaşmasına xidmət etmiş olar.

Nəticələr

1. Pomidor və kök məhsullarının müxtəlif temperatur rejimlərindən asılı olaraq saxladıqda tədqiq olunan fermentlərin aktivliyi müxtəlif cür dəyişir.Fermentlərin aktivliyinin dəyişməsi məhsulların emala qədər saxlanmasında anabolizm və katobolizm proseslərinin davam etməsini göstərir.
2. İqtisadi səmərəliliyin nəticələrindən məlum olmuşdur ki, pomidor və kök məhsullarının emala qədər birinci variantda 245.5-256.5 manat ikinci variant üzrə 290-310 manat əlavə gəlir əldə etmək mümkündur.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında 2017-ci ildə kənd təsərrüfatı bitkilərinin əkin sahəsi, məhsul yığımı və məhsuldarlığı haqqında.Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.Bakı, 2018, səh.4-525.
2. Fətəliyev H.K. Bitkiçilik məhsullarının saxlanması və emalı texnologiyası.Bakı, "Elm", 2010, 432 səh.
3. Fətəliyev H.K., Mikayılov V.Ş.Qida məhsulları mühəndisliyinin hesabatları.Bakı, "Kooperasiya", 2012, 174 səh.
4. Qasımova A.A., Nəbiyev Ə.Ə.Şəkər istehsalında innovasiya texnologiyasının tədqiqi.AMEA-nın Elmi İnnovasiyalar Mərkəzi.Korparativ idarəetmə və iqtisadiyyatın innovasiya inkişafı.Beynəlxalq elmi-praktiki konfransın materialları.Bakı, 31 mart, 2011, səh.335-336.
5. Доспехов Б.А. Методика полевого опыта.М.: Колос, 1985, с.207-239.

Elnarə İSMAYILOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim
allaqiyeva@gmail.com

Bakı –Abşeron turizm bölgəsində qastronomik turizmin inkişafı

Развитие гастрономического туризма в Баку - Абшеронская туристическая зона

Development of gastronomic tourism in Baku - Absheron tourism area

Xülasə: Bakı-Abşeron turizm bölgəsi bir sıra turizm növlərinin eyni anda inkişaf edə biləcəyi ərazilərdən sayılır. Beynəlxalq səyahətlərə diqqət yetirsək fərqlilik görmək istəyən turistlərin əksəriyyəti qeyri-ənənəvi turizm növlərinə üstünlük verməyə başlamışdır. Qastronomik turizmin inkişaf etdirilməsi burada mövcud olan potensialın dəyərləndirilməsinə səbəb olacaqdır. Bu turizm adı altında ərazinin mədəniyyəti, tarixi, kulinariyası, milli dəyərləri, adət-ənənəsi, hətta müxtəlif yerlərdə olan memarlıq nümunələri də gələn turistlərə təqdim ediləcəkdir.
Açar sözlər: turizm, qastronomik turizm, Bakı-Abşeron turizm bölgəsi, qurman turizmi.

Резюме: Баку-Абшеронский туристический регион является регионом, где одновременно можно развивать несколько видов туризма. Обратив внимание на тенденции в международном туризме, большинство туристов стремящихся к разнообразию и необычности в международных путешествиях, все чаще стали предпочитать виды нетрадиционного туризма. Развитие гастрономического туризма поможет оценить потенциал исследуемого региона. Под данным видом туризма иностранным туристам будут представлены культура, история, кулинарные, национальные ценности, традиции, и даже, образцы архитектурного наследия в различных местностях исследуемого региона.
Ключевые слова: туризм, гастрономический туризм, Баку-Абшеронский туристический регион, гурман туризм

Abstract: The Baku-Absheron tourism region is one of the areas where a number of tourism types can develop at the same time. Most of the tourists who want to make a difference when they participate in international travel, have started to prefer non-traditional tourism. The development of gastronomic tourism will help evaluate the potential here. Under the name of tourism, the area's culture, history, culinary, national values, traditions and even architectural examples from various places will be presented to tourists.
Keywords: tourism, gastronomy tourism, Baku-Absheron tourism region, gourmet tourism

Beynəlxalq turizm bazarının inkişaf səviyyəsi araşdırıldıqda turizm destinasiyaları öz ərazilərini vahid şəkildə inkişaf etdirmək istəyir və onların marketinq strategiyalarının əsas hissələrindən birini də qastronomiya təşkil edir. Dünya statistikasına diqqət yetirsək turistlər getdikləri ölkədə nəqliyyat, yerləşdirmə və qidalanmaya daha çox maliyyə vəsaiti sərf edirlər. Deməli onların sərf etdikləri xərclərdən asılı olaraq qastronomik turizm fəaliyyətindən əldə olunan gəlirlər də olduqca böyükdür. Qastronomiya dedikdə ilk öncə ağıla Fransız mətbəxi gəlsə də, bu sahədən ən çox gəlir əldə edən ölkə İtaliyadır. Çin kimi ölkələr isə öz restoranları ilə dünya ölkələrinin hər birində fəaliyyət göstərərək öz kulinariyalarını və qədim mətbəx mədəniyyətlərini bir daha təsdiq etmiş olurlar. Bu tendensiyaya diqqət yetirsək Fransız, Meksika, Yapon, Hindistan və Vyetnam mətbəxləri də bir sıra restoranları ilə dünya arenasında tanınır. Yerli qidalar və ya qastronomiya turistlərə müxtəlif aspektdən təsir etmə gücünə malikdir. Turistlər gəlmək istədikləri destinasiyanı seçərkən onları cəlb edən amillər arasında həmin ərazinin qidalanma mədəniyyəti mühüm rola malik olsa da, bəzən bu kimi amillər mənfi imicin formalaşmasına da imkan yaradır. Turist gedəcəyi regionu seçərkən qidalanma üzrə olan bir sıra meyarlar ona təsir göstərə bilər: turist profili, psixoloji amillər, sosial-demoqrafik amillər, destinasiyanın imic formalaşdırması, tur rəhbəri, mədəniyyət, müxtəliflik və motivasiyaedici amillər [1, s. 172].

Qastronomiya elminin inkişafı ilə bağlı olaraq bir sıra tədqiqatlar həyata keçirilmiş və müxtəlis istiqamətli terminlər yaranmışdır. Bu terminlərdən biri də qastronom sözünün mənasıdır. Belə ki, Qastronom (Gastronome)**:** "Qastronom", ingilis dilində "Qastronomist" olaraq ifadə oluna bilən yemə-içmə üzrə mütəxəssis, bu işlə məşğul olan insan deməkdir [2, s. 179]. Başqa sözlə, qastronom - sözün həqiqi mənasında damaq dadı olan, ağzının dadını bilən, keyfiyyətli yeməyi seçə bilən hər hansı şəxs mənasını verir. Qastronomik turist isə mətbəx mədəniyyətini özündə birləşdirən turlara üstünlük verən, müxtəlif təamların dadına baxaraq gəzintisini həyata keçirən şəxs hesab olunur. Bu kimi turistlər əsasən məşhur restoranlarda aşbazların mətbəx nümunələrini hazırlamaq və təqdim etmək kimi performanslarını izləməyə üstünlük verirlər. Bir sıra ölkələrdən gələn bəzi turistlər isə hamının getdiyi və ziyarət etdiyi yerləri deyil, daha çox tapılması çətin olan və ölkənin yerli mədəniyyətini daha sıx özündə birləşdirən restoran və barlara üz tuturlar.

Qastronomik turizm adı altında həyata keçirilən bir sıra yemək, şərab, pivə və s. kimi festivallar mövcuddur. Dünya ölkələrində bu kimi tədbirlərin iştirakçıları da üstünlük təşkil edir. Bu festivallara qatılaraq nəinki yerli təamları dadmaq, yeni ləzzətlərlə tanış olmaq, eyni zamanda bölgəyə uyğun olan yeni qidaları da tədqiq etmək, onların hazırlanma üsullarını öz gözünüzlə görmək mümkündür. Yemək nümunələrindən əlavə məhz şərabçılıqla bağlı hazırlanan turların sayına görə Avropa ölkələri xüsusi rola malikdir. Bu kimi turlarda müxtəlif maraqlı yerləri gəzməklə yanaşı, dequsdasiya prosesində iştirak etmək, hazırlanma qaydası ilə tanışlıq, müxtəlif hədiyyələrin alınması və s. kimi təkliflər mövcuddur.

Aralıq dənizi ölkələrində inkişaf edən bu turizm növü ilə bağlı bir sıra master klass-lar da təşkil edilir. Son dövrlərdə İspaniya, İtaliya, Fransa kimi ölkələr qurman turizminin inkişafında olduqca maraqlı olan ölkələrdən yalnız bir neçəsidir. Bu kimi ölkələr turizm adı altında bir sıra kurslar təşkil edərək, əraziləri daxilində müxtəlif regionlara səyahətlər təşkil edir və tanınmış aşpazlarla görüşlər keçirirlər. Belə kurslar adətən 7 gün və daha artıq təşkil edilərək sonda iştirakçılara sertifikatların verilməsi ilə nəticələnir.

Dünyada qastronomik sözündən geniş istifadə edilsə də Azərbaycan Respublikası daxilində bu turizm növü əksər zamanlarda qurman sözü ilə əvəz edilir. Qurme (Gourmet): Fransız mənşəli olan "qurman" sözündən götürülmüş, leksik mənası "ləzzəti kəşf etmiş, damaq dadına sahib insan" deməkdir. Hazırda qurme yeməyin və içkinin dadını anlayan, başqa insanlardan fərqli olaraq o yeməyi dəyərləndirə bilən ,"dad ustası" olan insan kimi başa düşülür. Ölkədə qurman turizmi adı altında fəaliyyət göstərən hər hansı turizm şirkətləri mövcud olmasa da, müxtəlif istiqamətli turların hazırlanması həyata keçirilir. Xüsusən ötən dövr ərzində Azərbaycan Respublikası daxilində Şərab yolu, Kulinariya turizmi və s. kimi adlar altında yeni turların hazırlanması prosesi həyata keçirilmişdi. Çox təəssüflə qeyd etmək lazımdır ki, Kulinariya adı altında təşkil edilmiş bu tur daha çox Bakı şəhərini əhatə edir və regionlara istiqamətlənən hər hansı təkliflər mövcud deyildi. Paytaxt Bakı ilə yanaşı, müxtəlif regionlar da özlərinin mətbəx nümunələrini gələn xarici qonaqlara təqdim etmək üçün müəyyənləşdirməli və bütün turizm regionları üzrə müxtəlif aspektli tur proqramları hazırlanmalıdır.

Hazırda turistlərin axın etdiyi əsas mərkəz Bakı-Abşeron turizm bölgəsi hesab olunur. Ərazidə bir sıra qidalanma mərkəzlərinin olmasına baxmayaraq onların heç biri beynəlxalq standartlara cavab verən Mişlen ulduz nişanı ilə mükafatlanmamışdır. Bunun üçün restoranların dünya arenasında tanınması, müəssisədə işləyən aşpazların ixtisaslaşmış olması və s. kimi amillərə cavab verməsi mütləqdir. Bakı-Abşeron turizm bölgəsi özünün xəmir xörəkləri və şirniyyat növləri ilə seçilir və ərazinin yerli sakinləri də bu istiqamətdə olan kulinariya nümunələrinə üstünlük verirlər. Turizm bölgəsində soğan bozbaşı, Corat qutabı, ət qutabı, Fisincan plov, Bakı düşbərəsi, şəkərbura, paxlava, gürzə, xəmiraşı, qoğal, çığırtmalı aş, Bakı qurabiyəsi, səməni halvası, mütəncəm və s. kimi təamlar zövqlə hazırlanır [3, s. 93].

Bakı-Abşeron turizm bölgəsinə gələn turistlərin gecələdiyi yüksək səviyyəli yerləşdirmə müəssisələrinin qidalanma rejimi ölkə kulinariyasına əsaslanmır. Belə ki, paytaxtda yerləşən beş ulduzlu hotellərin əksəriyyəti dünya ölkələrinin mətbəx nümunələrini gələn qonaqlar üçün təklif edirlər. Bu da ölkə mədəniyyətinin tanıtımına vurulan ən ciddi nöqsanlardan biridir. Xüsusən Respublika turizm sənayesinin inkişafı üçün Türkiyə təcrübəsindən yararlandığını nəzərə alsaq, bu

ölkədə günün istənilən saatında təşkil olunan qidalanma menyuları yalnız türk mətbəx nümunələrindən təşkil edilir. Əlbəttə ki, bütün dünya ölkələrində istənilən yerləşdirmə müəssisəsinin tərkibində digər ölkələrin mədəniyyətlərini özündə birləşdirən restoranlara da rast gəlmək olar. Bu turistin şəxsi seçimindən asılı olaraq və əlavə ödənişlə həyata keçirilən təkliflər qrupuna aid edilir.

Bakı-Abşeron turizm bölgəsində vahid menyulardan istifadə istər mehmanxana istərsə də restoranların zəif inkişafına yol açan səbəblərdən biridir. Yerləşdirmə müəssisələri günün istənilən saatında eyni menyudan istifadə edir və bəzən bu kimi hallar illərlə təkrar olunur. Nəticədə dəyişməyən menyu ilə əlaqədar əraziyə gələn nəinki gəlmə turizm iştirakçıları, bəzən daxili turistlər də bu prosesdən sıxılırlar.

Uzun illərdir dövlətin apardığı uğurlu siyasət nəticəsində respublika ərazisinə gələn turist sayına kəskin inkişaf hiss edilir. 2017-ci ilin statistik göstəricilərinə əsasən Azərbaycan Respublikası ərazisinə 2.5 milyon turist səfər etmişdir [4, s. 18]. Bunların arasında ərəb ölkələrindən gələn turistlərin sayı isə illər üzrə artım tempi ilə inkişaf edir. Bu kimi turistlərin axın etdiyi əsas yerlər sırasında əsasən ticarət mərkəzləri yer alır. Çox təəssüflə qeyd etmək lazımdır ki, Bakı-Abşeron turizm bölgəsində yerləşən müasir və beynəlxalq standartlara cavab verən bu kimi müəssisələrin tərkibində yerli mətbəx nümunələrinin əks olunduğu restoranlar tapmaq olduqca çətin bir prosesdir. Bu kimi müəssisələrdə əsaslı şəkildə türk mətbəx nümunələrinin cəmləndiyi restoranlar və müxtəlif kabab növlərinin əks olunduğu menyulara rast gəlmək olar.

Bakı-Abşeron turizm bölgəsində qurman turizminin inkişafı məqsədi ilə bir sıra tur proqramlarının hazırlanmasına ehtiyac var. Bu turların hazırlanma prosesi zamanı beynəlxalq standartlar nəzərə alınmalı və çox çeşidli məhsullar təklif edilməlidir. Yalnız təamların dadına baxmaq deyil, hazırlanan turların tərkibində öyrədici istiqamətlər də yer almalıdır. Bu kimi turların təşkili zamanı qurman turizminin inkişaf etdiyi Fransa, İtaliya kimi ölkələrin proqramları ilə tanış olmaq və onların mövcud praktikasından istifadə etmək mümkündür.

ƏDƏBİYYAT

1. C.Michael Hall, Liz Sharples, Richard Mitchell, Niki Macionis and Brock Cambourne. Food Tourism Around the World - Development, managment and markets. 2003. Elsevier Ltd. 373 səh.
2. Gökhan Yılmaz. Gastronomi ve Turizm İlişkisi Üzerine Bir Değerlendirme. Seyahat ve Otel İşletmeciliği Dergisi. 2017. 171-191 səh.
3. İsmayılova Elnarə. Tarixi və mədəni turizm. Bakı 2017. Səda nəşriyyatı. 271 səh.
4. UNWTO International Tourism Highlights. 2019 Edition. Spain, Madrid. 24 p.

Elmar MƏHƏRRƏMZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
elmar.mahharramzada@gmail.com

“Hilton Baku” mehmanxanasında restoran xidmətləri

Ресторанные услуги в отеле Hilton Baku

Restaurant services in Hilton Baku hotel

Xülasə: Məqalədə 1919-cu ildə ABŞ-da Konrad Hilton tərəfindən yaradılmış bir dünya mehmanxana brendinə aid olan “Hilton Worldwide”-a məxsus Bakıda yerləşən otelin iş prinsipi və strukturundan bəhs edilir. Həmçinin “Hilton Baku”otelinin daxilində fəaliyyət göstərən restoran və barda turistlərə göstərilən xidmətlər araşdırılmışdır. Bundan əlavə otelin restoranın meneceri, barmen və ofisiantının vəzifə borcları, onların qarşısında qoyulan tələblər qeyd edilmişdir.

Açar sözlər: Mehmanxana şəbəkəsi,otel, Konrad Hilton, Hilton Baku, restoran meneceri, barmen.

Резюме: В статье говорится о принципе работы и структуре расположенного в Баку отеля, принадлежащего «Hilton Worldwide», глобальной сети отелей, которая была основана в 1919 году в США Конрадом Хилтоном. В статье также исследуются услуги, предоставляемые туристам в баре и ресторане, которые функционируют внутри отеля «Hilton Baku». Кроме того, указаны обязанности менеджера, бармена и официанта ресторана отеля и выдвигаемые к ним требования.
Ключевые слова: сеть гостиниц, отель, Конрад Хилтон, Hilton Baku, менеджер ресторана, бармен

Abstract: The article refers to the work principle and structure of the hotel located in Baku and owned by Hilton Worldwide, a global brand of full-service hotels, founded in 1919 in the United States by Conrad Hilton. The article also examines the services provided to tourists in the bar and restaurant, which operate inside Hilton Baku hotel. In addition, the duties of manager, bartender and waiter of the hotel restaurant and requirements to their job positions are indicated
Keywords: Hotel chain, hotel, Conrad Hilton, Hilton Baku, restaurant manager, bartender

Qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirildiyi Azərbaycanda turizmin inkişafı da sürətlənir, otel biznesi keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. Azərbaycanda turizmin inkişafı ilə bağlı böyük addımlar atılıb. Paytaxtımız Bakıda bir neçə beş ulduzlu otellər istifadəyə verilib. Bunlardan biridə "Hilton Baku" otelidir.

2011-ci ilin oktyabr ayının 3-də açılışı olan beşulduzlu "Hilton Baku" otel kompleksi də dünyanın məşhur brendinin paytaxt şəhərimizdə təmsilçisidir. Heydər Əliyev Beynəlxalq Aeroportundan 24 kilometr məsafədə yerləşən "Hilton Baku" oteli paytaxtın müasir görkəminə uyğunlaşdırılmışdır. Otelin inşasında beynəlxalq və milli memarlıq üslubu peşəkarlıqla uzlaşdırılmışdır. 25 mərtəbədən ibarət olan oteldə ümumilikdə 309 otaq vardır. Otelin binasının 17 mərtəbəsi nömrə fondundan ibarətdir. Otaqların 231-i standart, digərləri isə xidmət çeşidlərinə görə fərqlənən otaqlardır. Ən yüksək standartlara cavab verən otaqlardan həm şəhərimizə, həm də Xəzər dənizinə gözəl mənzərə açılır. Burada dünya otel biznesində mövcud ən yüksək xidmət göstərilir. Bütün otaqlarda istirahət üçün maksimum şərait yaradılmışdır. Otel simsiz internet şəbəkəsi ilə təmin edilmiş, nömrələrə restoran xidməti göstərilməkdədir[7].

Otelin ikinci və üçüncü mərtəbələrində müxtəlif səviyyəli tədbir və görüşlərin keçirilməsi üçün ən son informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş 18 zal fəaliyyət göstərir. İkinci mərtəbədəki 750 nəfərlik böyük konfrans zalında beynəlxalq və respublika əhəmiyyətli tədbirlərin keçirilməsi üçün lazımi şərait yaradılmışdır. Zalda, həmçinin müxtəlif ziyafətlərin, təqdimat mərasimlərinin, şadlıqların keçirilməsi də mümkündür. Birinci mərtəbədən buraya avtomobillərin qaldırılması üçün xüsusi lift sistemi quraşdırılmışdır ki, bu, toy mərasimləri zamanı avtomaşının birbaşa maneəsiz hərəkətini təmin edir. Eyni zamanda, bu, müxtəlif avtomobillərin təqdimatının keçirilməsinə də imkan yaradır. Rəsmi görüş və qəbulların yüksək səviyyədə təşkili üçün ayrıca otaq da vardır. Burada həm işıq, həm də səsləndirmə sistemi yüksək səviyyədə qurulmuşdur.

"Hilton Baku" mehmanxanasında restoran – onun əsas siması, həm də gəlir mənbəyi sayılır. Restoransız mehmanxana, sadəcə gecələmək üçün yerdir. Mehmanxananın tərkibində bir neçə restoran var. Burada əsasən qəşəng, dəbdəbəli restoran və çox da böyük olmayan kafe tipli restoranlar var. Bunlardan vestibüldə yerləşən 97 yerlik **"Lobby bar"** və 158 yerlik **"All day restaurant"**, 24-cü mərtəbədə yerləşən və flaqman adlandırılan **"Sky Grill"** restoranı, **"Sugar Lounge"** barı, **"WOK"** və **"Cilantro"** restoranları qonaqlara yüksək səviyyədə xidmət göstərir[8].

"Sky Grill" restoranı otelin 24-cü mərtəbəsində fəaliyyət göstərir. Öz gözəl və dəbdəbəli görünüşü ilə buraya gələn qonaqları heyran edir. Qonaqlar açıq terasda isti yay günlərində Xəzər dənizinin və paytaxtımız Bakı şəhərinin möhtəşəm mənzərəsini seyr edə bilmək imkanı əldə edirlər. Əlbəttə bu restoranın flaqman adlandırılması təəccüblü deyil. Qonaqların da bu restorana marağı böyükdür. Oteldə yaşamayanlar belə, otelin qəbul və qeydiyyat şöbəsinə yaxınlaşaraq bu restoran haqqında məlumat əldə etmək və əgər mümkündürsə burada nahar etmək istədiklərini bildirirlər. Mövsüm zamanı bu restoranda boş yer tapmaq mümkün olmur, bu səbəbdən bəzən bir-iki gün öncədən yer sifariş etmək lazımdır.

Restoranın mətbəxində təcrübəli aşbazlar fəaliyyət göstərir. Baş aşbaz Argentina əsilli xanım Qabriela Qomez dir. Əla qızardılmış ət, Argentina ənənəsi ilə açıq manqalda, Argentina əsilli baş

aşpaz, xanım Qabriela Qomezin nəzarəti altında hazırlanır. Sky Grill ən yaxşı ət çeşidlərinin və təamların regionun istənilən yerinə çatdırılmasını vəd edir. Həmçinin xüsusi hallar üçün ideal şəkildə uyğun olan geniş nahar terasında müxtəlif növ çeşiddə və dadda gündəlik təzə dəniz məhsulları təklif edilir[2].

Barcelonadan dəvət olunmuş Aşbaz xanım Qomez bunları demişdir: "Sky Grill restoranında heyətə rəhbərlik etdiyim üçün qürur duyuram. Təravətləndirici və geniş çeşidli nahar menyusu vəd edən ən yaxşı təamları, içkiləri və inqrediyentləri əldə etmək üçün biz çox ciddi çalışmışıq. Panoramlı mənzərə və açıq mətbəx səhnəsi ilə qonaqlarımız unudulmaz kulinariya təcrübədən zövq alacaqlar."

"Sky Grill" restoranının meneceri restoranın interyerini, servisin növlərini, mətbəxi nəzərə alaraq, restoranda menyuların qonaqların istəyinə uyğun olmasına nəzarət edir. Restoranda müxtəlif günlərdə daxili, interyerləri, quruluşu və bəzəyi müxtəlif olur. Bu əsasən əlamətdar günlərdə həyata keçirilir.

Ümumilikdə restoran menecerinin aşağıdakıları həyata keçirir[3]:

- Qonaqlara yüksək səviyyədə xidmət göstərilməsini təşkil etmək;
- İşçilərin seçilməsi, öyrədilməsi və onlardan səmərəli istifadə olunması;
- Servisin yüksək standartlarını təşkil etmək və onu inkişaf etdirmək;
- Marketinq siyasəti aparmaq;
- Şöbə müdirinə yeməklərin və içkilərin büdcə hesabatını və qarşıdakı həftə, ay, il üçün biznes proqnozu vermək.

Menecer mehmanxanada yaşayan qonaqların sayını dəqiqləşdirir ki, bu məlumat əsasında restoranda müvafiq olaraq yemək hazırlanır. Hər səhər yeməyi, nahar və şam yeməyi üçün nə qədər yemək bişirmək və içkilər hazırlamağın hesabını aparmaq üçün, oteldə nə qədər qonağın yaşadığını (hal-hazırda) və qonaqların tipləri (məsələn, konfrans iştirakçıları, turistlər, fərdi qonaqlar və s.) nəzərə alınır.

Digər mühüm restoranlarından biri də **"Cilantro"** restoranıdır. Bu restoran 200 yerlikdir. Restoranda müştərilərə milli və dünyanın tanınmış mətbəxlərinin ləziz yeməkləri təqdim olunur[6]. Orta-şərq mətbəxindən ilhamlanaraq və ənənəvi regional təamlara müasirlik qatmaqla, restoran biznes və istirahət daxil olmaqla geniş miqyaslı tədbirlər üçün ideal şəkildə uyğun məkandır. Restoran həmçinin alıcılar üçün yaxşı şərait yaradır, belə ki, mehmanxanaya və onun nahar obyektlərinə Park Bulvar Ticarət Mərkəzinin yeraltı keçidindən birbaşa yol var.

"Cilantro" restoranında ofisiantlara çox diqqət edilir. Burada ofisiantların xidmət səviyyəsinin yüksək olması vacib şərtdir. Restoranda göstərilən xidmətin qaydaları vardır ki, ofisiantlar bu qaydalara ciddi şəkildə əməl etməlidir. Onlara restoran meneceri rəhbərlik edir. Restoranda xidmətin əsas tələblərindən biri yeməklərin masaya soyutmadan verilməsidir. Buna görə də cəld işləmək lazımdır. Müştəriyə xidmət göstərən zaman ofisiant aşağıdakıları yerinə yetirməlidir[4]:

- Müştəriləri əyləşdirməli və menyunu təqdim etməlidir;
- Su süzməlidir;
- Yeməkdən qabaq içiləcək içkilərin-aperitiv, kokteyllərin sifarişini qəbul etməli və yerinə yetirməlidir;
- Menyu üzrə sifariş qəbul etməli, şərab təklif etməlidir;
- Aperitiv içkilər içildikdən sonra, qabları yığışdırmalıdır;
- Qəlyanaltıları gətirməli, çirkli qabları yığışdırmalıdır;
- Birinci yeməyi gətirməli, çirkli qabları yığışdırmalıdır;
- Əsas yeməyi gətirməli: İkinci yemək qonağa nümayiş olunur, qonaq yeməyin xarici görünüşündən razılığını bildirir və sifarişi təsdiqləyir, yeməkdən sonra ofisiant qabları yığışdırmalıdır;
- Desert təklif etməlidir;
- Qabları yığışdırmalıdır;
- Qəhvə, çay təklif etməlidir;
- Hesabı yazır (müştərinin yanında yazmır), pulu alır, masa arxasından qonağın qalxmasına kömək edir, qonaqlarla sağollaşır
- Masanı yığışdırır.

Ofisiantdan aşağıdakılar tələb olunur:

- Şəxsi gigiyena qaydalarına və xarici görünüşünə (uniforma təmiz və ütülü olmalı, təmiz əllər, az bəzək və qadınlarda azacıq kosmetika) diqqət verməlidir;
- Menyunu əzbər bilməli, ofisiant menyudakı yeməklərin hansı ərzaqlardan və necə hazırlandığını qonağa başa sala bilməlidir;
- Müştəri ilə ünsiyyət qura bilməlidir (nəzakət, ədəb, səbr, səsin ahəngi, gülümsəmə);
- Kollektiv ilə işləmək bacarığı olmalıdır.

Bütün bu ümumi tələblərdən başqa ofisiant bir sıra digər peşəkar vərdişlərə də malik olmalıdır. Şərab süzmək üçün vaxtında müştərinin yanında olmalı, ikinci kokteyli təklif etməli (əgər birincinin dörddə bir hissəsi içilməmiş qalıbsa), su süzməli, qəlyanaltıları təqdim etmək bacarığı olmalı (əgər sifariş olunmuş əsas yemək gecikirsə), yeməyi boşqabda səliqəli yerləşdirməli, özünün hərhansı bir yeməkdən xoşu gəlmirsə, bunu hiss etdirməməli, yeməyi müştəriyə elə təqdim etməlidir ki, qonaq yeməkdən imtina etməsin.

“WOK” restoranında dünyaca tanınan Çin mətbəxindən nümunələr hazırlanır. Qonaqların istək və arzuları müxtəlif olduğu üçün, bəzi qonaqlar Çin mətbəxini sevir, bəziləri isə heç də bu mətbəxi sevmir. Lakin bir reallıq məlumdur ki, suşi ilə bir çoxlarımız maraqlanmışıq və onun necə bir dada malik olduğu əksəriyyətimizə maraqlı gəlmişdir.Suşinin dadına baxmaq və qiymətləndirmək üçün oteldə **“WOK”** restoranında gözəl şərait yaradılmışdır. Restoranın dizaynı elə qurulmuşdur ki, bir anlıq özünüzü Çində hiss edəcəksiniz. Ofisiantlar xüsusi təlim görmüşdür. Onların geyim forması Asia ənənələrinə uyğun tərzdə hazırlanmışdır.

Axşam və gecə əyləncələri üçün **"360" barı** Bakının sosial axşam tədbirlərini optimistik atmosferi və unikal firlanan bar ilə idarə etməyi öhdəsinə götürür. Bir saat ərzində 360 dərəcə fırlanır. Burada qonaqlar canlı musiqi və DJ-lərin yaratdığı atmosfer ilə Bakı şəhəri və Xəzər dənizi mənzərəsinin möhtəşəm görünüşünü seyr etməkdən zövq alırlar. Hər axşam müxtəlif musiqili qonaqlar dəvət olunur. Bakı gənclərinin artıq sevimli məkanlarından birinə çevrilmişdir. Mehmanxananın əla keyfiyyətli obyekti olan 360 Bar, ekspertlər heyətinin hazırladığı nəfis kokteyllər və ən qaynar Bakı gecəsi ünvanı olmağı vəd edən əla keyfiyyətli içki nişanları, çaxırlar və şampanlar təklif edir.

Bar meneceri aşağıdakı vəzifələri yerinə yetirir[5]:

- Sifarişlərin nəzarəti və şərabların saxlanılması;
- Şərabların siyahısının hazırlanması;
- Personalın işinə nəzarət;
- Xərclər üzərində daimi nəzarət;
- İçkilərin seçilməsində qonaqlara kömək etmək;
- Qonaqlara Şərabların düzgün servis edilməsi;
- Likör, pivə şərab, araq, viski və digər spirtli və spirtsiz içkilərin növlərini tanımalı və onları necə təqdim etmək qaydalarını izah etməlidir.

ƏDƏBİYYAT

1. Ağakərimov M.M. Otel. Bakı: ” R.N.Novruzov-94”, 2008, 327 s.
2. Ağakərimov M.M. Mehmanxanada Ön büro. Bakı: “Aypara Nəşriyyatı”, 2013
3. Ağakərimov M.M. Otel menecmenti. Bakı “Mürtəcim”, 2016, 312 s.
4. Медлик С. Гостиничный бизнес: учебник для студентов вузов, обучающихся по специальностям сервиса / С. Медлик, Х. Инграм; пер. с англ. А.В. Павлов. - М.: ЮНИТИ-ДАНА, 2005. - 239 с.
5. Шматько Л.П. Туризм и гостиничное хозяйство: учеб. пособие / Л.П. Шматько. - М.: МарТ, 2013. - 252 с.
6. Hilton İnternational and Resorts, 2017., 127 p.
7. http:// www. Hilton İnternational.com/pdfs/.../2016
8. http:// /www. Hilton İnternational.com/pdfs/
9. http:// www. Hilton İnternational.com//PDF/FS
10. http://www.WTO- barometr.com-2017

Rəşad ƏHMƏDOV
Azərbaycan Turizm və Menecment Universiteti,
doktorant
rashad.ahmedov.88@inbox.ru

Cəlbedici turizm məkanlarının müəyyən edilməsində müasir yanaşmalar

Современные подходы к определению привлекательных туристических направлений

Modern approaches to the definition of attractive tourism destinations

Xülasə: Məqalədə cəlbedici turizm məkanlarının formalaşmasının nəzəri-metodoloji xüsusiyyətləri, bu sahədə mövcud olan elmi araşdırmalar və yanaşmalar, onların əsas istiqamətləri, Azərbaycanda onun tətbiqinin imkanları göstərilmişdir. Eyni zamanda cəlbedici destinasiyaların seçilməsində coğrafi, iqtisadi, ekoloji amillərin birgə nəzərə alınması və üstünlükləri qeyd edilmişdir.
Açar sözlər: cəlbedici məkanlar, destinasiya, tələb-təklif, prezentativ, perseptual, kurort, sağlamlıq turizmi

Резюме: В статье представлены теоретико-методологические особенности формирования привлекательных туристических направлений, существующие научные исследования и подходы в этой области, их основные направления, возможности его применения в Азербайджане. В то же время географические, экономические и экологические факторы были приняты во внимание при выборе привлекательных направлений.
Ключевые слова: привлекательные места, направление, предложение, спрос, презентация, перспектива, спа, оздоровительный туризм.

Abstract: The article presents theoretical and methodological peculiarities of the formation of attractive tourism destinations, the existing scientific researches and approaches in this area, their main directions, the possibilities of its application in Azerbaijan. At the same time, geographical, economic, and environmental factors have been taken into account in the selection of attractive destinations.
Keywords: attractive places, destination, supply, demand, presentation, perspective, spa, health tourism.

Təbii və tarixi-mədəni obyekt hər ikisi – tədqiq olunduğu və müxtəlif formalarda qorunduğu üçün daxili, o cümlədən turizmdə tətbiq olunduğu üçün xarici dəyərlə xarakterizə olunur. Bu iki xüsusiyyət bir birindən fərqlənir, digər aspektlər isə məkanların müəyyən edilməsində tətbiq olunur. Obyekt və ya destinasiyanın qiymətləndirilməsi müxtəlif prinsip və meyarlara əsaslanır. Pompurovaya görə, turizm destinasiyasının cəlbediciliyi "turistərin səyahət zamanı destinasiya və gecələmələri barədə qərar vermə prosesində ərazinin cəlbediciliyinə dair ətraflı məlumat" kimi müəyyən olunur. Bununla belə, destinasiya turist səfərlərinin məqsədi olduğuna görə, bu xüsusiyyətlər potensial və cəlbediciliyi tamamlayır. Qeyd olunan bu kimi hallarda, birbaşa və ya dolayı formada olan mühüm insan faktoru, avadanlıq və məhsullar üzrə tərtibatçı və operatorların təşəbbüsü turizmlə əlaqələnir. Təbii və tarixi-mədəni baxımdan bütün ərazilər yerlər və məhdudiyyətlərin birləşməsi tam cəlbediciliyi əhatə edən icra şərtlərinin nəzərə alınmasıdır. Bu da, araşdırılan ərazinin rekreasiya baxımından gözlənilən dərəcədə cəlb edib etməməsini əks etdirir. Turizm destinasiyalarının cəlbediciliyi ilə bağlı tədqiqatları iki əsas qrupa bölmək olar: təklif və tələb-yönümlü. Təklif-yönümlü təcrübələrdə potensial səyahətçilərə təsir edən mövcud resursları əhatələyən görməli yerlər üçün cəlbedici turizm destinasiyası nəzərdə tutulur. Onlar turizmdə destinasiya üzrə ilkin və ikinci dərəcəli təkliflərlə əlaqəli bütün faktorların sayı, əlçatanlığı, bölünməsi və təqdimatının qiymətləndirilməsinə əsaslanır. Əksinə olaraq, tələb-yönümlü yanaşmalar, əsasən, səyahətçilərin destinasiyaya olan ehtiyacı, maraqları və davranışının təhlilinə əsaslanır.

Turizmdə cəlbediciliyinin qiymətləndirilməsi yanaşmalar dörd əsas qrupa bölür: coğrafi, prezentativ, iqtisadi və perseptual yanaşma.

Cəlbediciliyin qiymətləndirmə meyarları

Turizm destinas	***Coğrafi yanaşma***	***İqtisadi yanaşma***	**Qarşıla nan potensi al tələb**
	Göstəricilər: turizm təklifi üzrə fərdi elementlərin ərazi üzrə bölünməsi, sayı və	*Göstəricilər*: turizm destinasiyasının iqtisadi cəhətdən qiymətləndi-	

	əhəmiyyəti	rilməsi üzrə göstəricilər, ziyarətçilərə hədəflənən ərazilərin istifadəsi barədə informasiya	
	Prezentativ yanaşma *Göstəricilər*: destinasiyanı uyğun bazarla spesifik kommunikasiya vasitəsilə əlaqələndirən informasiya	***Perseptual yanaşma*** *Göstəricilər*: turizm destinasiyasının potensialını dərk edən ziyarətçilər öz tələblərini ödəyir.	

Coğrafi əlçatanlıq ərazinin turizm üzrə mənimsənilməsi imkanları ilə müəyyən olunur. Coğrafi və iqtisadi yanaşma turist destinasiyalarının cəlbediciliyinin nisbətən obyektiv şəkildə qiymətləndirilməsinə imkan yaradır. Prezentativ və perseptual yanaşma isə mahiyyətcə subyektiv qiymətləndirmə metodunu təklif edir. Bu bölgü turizm destinasiyalarının dəyərinin müxtəlif formada nəzərdən keçirilməsinə imkan verir. Bu yanaşmalar birlikdə, müəyyən olunan faktorların nisbətən kompleks formada ifadəsilə destinasiyanın cəlbedicilyinin dəyərini müəyyən edə bilər. Aydındır ki, turizm destinasiyalarının cəlbediciliyinin ölçülməsi üçün əsas nəzəri yanaşmalar coğrafiya, iqtisadiyyat, marketinq, sosiologiya, psixologiya, riyazi statistika, kartoqrafiya və s. kimi bir neçə sahəyə dair biliyə əsaslanır.

Coğrafi yanaşma destinasiyanın cəlbediciliyi qeyd olunan trendlə bağlı fərdi elementlərin ərazi üzrə yerləşməsi, sayı və əhəmiyyəti ilə müəyyən olunur. Bu elementlərə relyef, landşaftın ümumi görünüşü, iqlim, su, flora və fauna, arxitektural irs, folklor mədəniyyəti və tarixi faktorlar daxildir. Aparılan bir neçə sorğuya əsasən, landşaft, iqlim və qiymət istənilən turist regionunun cəlbediciliyi ilə bağlı əksər qərarlarda meyar rolunu oynayır.

Coğrafi yanaşma ilə bağlı əsas ümumi model trendlər üzrəpotensial turist destinasiyasının qiymətləndirilməsinə əsaslanır. Hər bir görməli yerin potensialının dəyəri xüsusi seqmentin qəbul edilmiş faydalılıq əmsalına vurulur. Destinasiyanın potensial cəlbediciliyi qeyd olunan ayrı-ayrı komponentlərin cəmindən ibarətdir.

$$PA_{js} = \sum_{i=1}^{n} (q_{ij} \times k_{is})$$

Burada PA_{js}, ***s*** seqmenti üzrə

j destinasiyasının potensial cəlbediciliyini

q_{ij} ***j*** destinasiyasında dəyərini,

k_{is} destinasiyasının qəbul edilmiş faydalılıq əmsalı

s destinasiya seqmentinin tam cəlbediciliyi simvolu isə qiymətləndirilən simvolların sayıdır. Nəticədə alınan qiymətin şərhetmə gücü müxtəlif destinasiyaların cəlbediciliyinin müqayisə edilməsi və ya eyni destinasiyanın cəlbediciliyinin vaxtaşırı qiymətləndirilməsilə əldə olunur.

Təkliflə bağlı bəzi elementlər özünəməxsus xüsusiyyətlərin nəzərə almaqla qeyri-maddi və ölçülə bilməyən dəyərlərə hədəflənə bilər. Digər problem qeyd olunan hansısa elementin qəbul edilmiş faydalılıq əmsalının müəyyən edilməsidir, bu da, sorğular, şəxsi və ya ekspert dəyərləndirməsi, müvafiq olaraq, bir qrup ekspertin mühakiməsinə əsasən seçilə bilər.

Destinasiyanın potensial cəlbediciliyi aşağıdakı formula ilə hesablanır:

PA = f [ICR; LZ; R]

ICR- turizm infrastrukturu,

LZ- insan resursu,

R- risk faktoru.

Prezentativ yanaşma turistlərin destinasiya ilə bağlı təkliflərinin subyektiv dəyişənlərə görə təqdim edilməsinə əsaslanır. Bu proses destinasiya ilə bağlı marketinq kommunikasiyaları ilə yaxından əlaqəlidir. Prosedur destinasiya, o cümlədən onun faktor və qrup təhlilləri, bal kriteriyaları və s. vasitəsilə qiymətləndirilməsi və internetdə əldə oluna bilən informasiya ilə təhlilinə əsaslanır.

Realizə olunma prosesi və ya istehlak, müvafiq olaraq, reallaşan tələbə dair təxminlərə əsaslanan, turizm destinasiyalarının cəlbediciliyi ilə bağlı ***iqtisadi yanaşma*** destinasiyaya dair əsl marağın təzahürüdür ki, bu da destinasiyanın cəlbediciliyini əks etdirir. Destinasiyanın cəlbediciliyini müəyyənləşdirən əsas göstəriciləri, turistlərin və gecələmələrin sayı, turizmdən gələn gəlir və ya turizm

fəaliyyəti iştirakçılarının ümumi xərcləri, yerləşdirmə potensialı, turizmdə məşğulluq və s. daxil edilir.

Turist destinasiyasının cəlbediliyində ***perseptual yanaşma*** marketinq və qismən psixologiyaya dair biliklərə əsaslanır. Turizm destinasiyasının cəlbediciliyi mənfəətlərin nisbi əhəmiyyəti və fərdlərin bu şəxsi mənfəətlərin qarşılanmasını istəmə imkanının kombinasiyası hesab olunur. Bu o deməkdir ki, turistin öncəlikləri turizm destinasiyasının ümumi cəlbediciliyinin müəyyənləşdirilməsində ümumi ticari proses və ya gəlirdən daha dəqiq vasitədir.

Bu yanaşma, əsasən, empirik olaraq tərtib olunan klassifikasiya sxemlərinə əsaslanır ki, burada qiymətləndirənin qrup şkalası üzrə obyekt üzrə mənfəət və ya mənfi cəhətlərlə bağlı rəyində nəzərə alınan aspektləri seçən müəllif tərəfindən bal kriteriyaları tətbiq edilir. Ümumiyyətlə, bu heuristikada ekspertin kateqorik dəyişənlər üzrə subyektiv ehtimallarla bağlı düşüncəsi nəzərə alınır ki, bura müəllifin sistem üzrə seçdiyi müəyyən prosedurlar daxildir. Belə ki, ərazidə (ölkə, region və ya destinasiya) yerləşən obyektin dəyərləndirilməsi üçün ən yaxşı üsul hesab edilir. Müxtəlif prosedurlar ziyarətçilərin sayı, yataqların sayı, xərclənən pul, obyektin mərkəzdən uzaqlığı və s. kimi fərqli iqtisadi və coğrafi dəyişənlərin cəlbediciliyinə əsaslanır.

Obyekt və ərazilərin cəlbediciliyinin xarakterizə edilməsində tətbiq olunan, əvvəlcədən müəyyənləşdirilən meyarlarla təqdim edilən bölgünün formalaşdırlması sorğulara əsaslanır. Həmin sorğu respondentlərinə, ziyarətçilər, rezidentlər və ya məsələyə fokuslanan, fəaliyyətdə xüsusi olaraq iştirak edən dövlət müəssisələri və qurumlarından olan nümayəndələr daxil edilir. Bütün sorğularla birlikdə, nəticə həm sorğunun məzmunu və sualların yazılışı, həm də respondentlərin seçilməsindən asılı olur.

Hal hazırda turizmdə əsas diqqət xüsusən təbii və tarixi abidələrə yönəlib. Onların turizm üçün cəlbediciliyi təbiət elmləri və müşahidə olunan obyektlərin texnoloji xarakteristikasının əks olunması ilə, xüsusi aspektlərlə qiymətləndirilmə tələb edir. Obyektin təbii xarakterinin qiymətləndirilməsi üçün geoloji və geomorfoloji xüsusiyyətlər, turistik ərazidə yerləşən tikilinin əlçatanlığı və unikallığı, səfər və turların mümkünlüyü, təhlükəsizlik şərtləri və s. qeyd oluna bilər. Tikilinin antropogen xarakterinə gəldikdə, qiymətləndirmə meyarları kimi bura tikilinin yaşı, tarixi dəyəri, eksklüzivliyi, faydalılığı, estetika və mənəvi dəyəri, təhlükəsizliyi və s. daxildir.

Yeni ideya və məhsulların üzə çıxarılması, tələbatın öyrənilməsi, düzgün reklam elementlərinin seçilməsi, yüksək keyfiyyətin təmin olunması uğurlu cəlbedici məkanların müəyyən edilməsin tələb edir.

Ölkədə kurort-sağlamlıq turizminin inkişafında dövlətin gördüyü işlərin əsasını bu sahədə qanunvercilik imkanlarının yaxşılaşdırılması, bu sahədə brendlərin formalaşmasına dəstək göstərməsin qeyd etmək olar. Kurort müalicə turizminin inkişafı üçün bir dövlət proqramının qəbulu və turizmin inkişafına dair strateji yol xəritəsində bu sahənin pioritet kimi seçilməsi brendin yaradılmasının əsas planlaşdırma istiqamətlərindən sayıla bilər. Bu baxımdan dövlətin bu sahəyə ayırdığı maliyyə vəsaitlərinin artması da strateji planlaşdırmanın tərkib hissəsi olduğunu qeyd etmək olar.Tədqiqatın aparılması. Burada əsas hədəf kütləsinin seqmentasiyası, məhsulun keyfiyyəti üzrə araşdırmanın aparılması, onun müxtəlif vasitələrlə aktual reytinqinin öyrənilməsi, əldə olunan məlumatların təhlili, nəticə üzrə hesabatın hazırlanması daxildir. Bununla yanaşı, tədqiqat nəticəsində brendin inkişaf səviyyəsini, hədəf qruplarını, onların motiv və gözləntilərini, KİV-in reytinqini müəyyənləşdirməyə imkan vermiş olur. Kurort-sağlamlıq turizmi sahəsində brend platformasının hazırlanmasına onun real qavranılmasının təhlili olunması, onun atributlarının hazırlanması, dəyərləri və mahiyyətindən ibarət kombinasiyanın təsvir olunması vacibdir.

Azərbaycanda kurort sağlamlıq turizminin inkişafı üzrə həm elmi tədqiqat işlərinin aparılmasının sürətlənməsi, balneoloji ehtiyatların müalicəvi xüsusiyyətlərinin öyrənilməsi, onların beynəlxalq analoqları ilə müqayisəsinin aparılması, üstünlüklərinin müəyyən edilməsi bu sahədə araşdırmaların əsasın təşkil edir. Bununla yanaşı, hədəf müştəri kütləsinə istiqamətlənən xidmətlərin təqdim olunması, bu sahəyə marağı olan seqmentasiyalara istiqamətlənən məhsulların hazırlanması effektiv olardı. Müsbət brend imici olan destinasiyalar daha güvənli bir formaya sahibdirlər və bütün yuxarıda sadaladığımız xüsusiyyətlərlə birlikdə xidmət və məhsul bir dəyər qazanır və bu dəyər alı-

cılar tərəfindən yüksək qiymətləndirilir və seçimlərinə təsir edir, nəticədə isə satışda artma və brendin daha da güclənməsi müşahidə olunur.

Cəlbedicilik platformasının hazırlanması. Ölkədə kurort sağlamlıq turizm xidmətləri üzrə cəlbediçilik platformasının hazırlanmasında müxtəlif atribut və dəyərlərin təhlili, kombinasiyasına əsaslanmalıdır. Bu baxımdan belə dəyərin yaradılması ilk növbədə Naftalan müalicəvi neftinin beynəlxalq İSO standartı alması vacibdir. Haızrda Naftalan neftinin müalicəvi xüsusiyyətinin beynəlxalq səviyyədə təsdiqlənməsi artıq brend platformasının formalaşmasında müvafiq hədəf kütləsinin seçilməsinə imkan verir. Burada Naftalan kurortlarının hədəf auditoriyasının seçilməsi, onların maraqlarının təmin olunması və yeni müştəri kütləsinə istiqamətlənən xidmətlərin təklif edilməsi üstünlüyünü qeyd etmək olar. Brend fərdiyyətinin (identikliyinin) yaradılması. Bu mərhələ loqotipin hazırlanması, fərdi elementlərinin yaradılması, vizual kommunikasiya vasitələrinin monitorinqi və yerləşdirilməsinin əsas qaydalarının hazırlanmasından ibarətdir. Bu mərhələ nəticəsində brendin mahiyyəti, onun dəyərləri və üstünlüklərini əks etdirən vizual obrazı yaradılır[56]. Burada qeyd olunan kurortların loqotipinin hazırlanması, vizual kommunikasiya imkanlarından istifadə olunması, onlayn reklamın aparılması, birinci mərhələyə uyğun olaraq bu sahə də strategiyanın seçilməsi brendin formalaşmasının növbəti mərhələsini təmin etmiş olardı.

Ölkədə kurort sağlamlıq turizmində brendləşmiş məhsulların təqdim olunması Naftalan, Qalaaltı və Duzdağ kompleksi üçün əhəmiyyətli sayıla bilər. Eyni zamanda qeyd olunan mərkəzlərə uyğun məhsulların hazırlanması və satışı imkanlarının təmin olunması da daha çox effekt vermiş olardı.

▪ Brend strategiyasının kreativliyinin işlənməsi. Bu mərhələdə ideyaların yığılması, seçilməsi, ən yaxşılarının təhlili, brendin təşviqi, mövcud olan maneələrin təhlili və s. öyrənilmiş olur.

Ölkədə kurort müalicəvi turizmdə kreativ strategiyanın hazırlanması üçün beynəlxalq təcrübənin öyrənilməsi və mövcud imkanların yuxarıda sadalanan ardıcılığı təmin edildikdən sonra həyata keçirilməsi ilə mümkündür. Bu baxımdan Naftalan brendinin hazırlanması qeyd olunan mərhələləri əhatə etdiyinə görə daha kreativ sayıla bilər. Burada kurort destinasiyanın daha keyfiyyətli və peşəkar fəaliyyətinin göstərilməsi istiqamətində tədbirlərin aparılması vacibdir. Brendləşmə imkan verir ki, məhsul haqqında müştəri daha dolğun məlumata malik olsun. Bununla yanaşı, beynəlxalq və ya yerli səviyyədə vahid imicin formalaşmasına gətirib çıxarır, həmçinin baş vermiş böhranlardan maksimum az zərərlə çıxmağa imkan verir.

Naftalan cəlbediçiliyin formalaşdırılmasının son istiqaməti onun təbliği və nəticələrin monitorinq əsasında qiymətləndirilməsindən ibarət ola bilər. Burada brendin vizual təqdimi, reklam məhsulları və monitorinqinin təşkilində müqayisəli imkanlardan istifadə olunması, cari vəziyyətin təhlili əhəmiyyətlidir. Naftalan kurort məhsullarının brendləşdirlməsində reklamın effektivliyi son illər yüksək olsa da, onun həyata keçirlməsində, onlayn reklamında problemlər mövcuddur. Müxtəlif bronlaşdırma şirkətləri və səyahət agentlikləri üzrə təqdim etdiyi qiymət siyasətindəki uyğunsuzluqlar onun effektiv reklamının olmaması ilə bağlıdır.

Müalicəvi turizm sahəsində brendlərin yaradılmasında əsas istiqamət olaraq onların beynəlxalq sertifikatların əldə olunması, imicinin formalaşdırılması və müxtəlif ixrac məhsullarında onun loqosunun yerləşdirilməsi üzrə işlər görülür. Beynəlxalq miqyasda qəbul olunan sertifikatların əldə edilməsi və ona maraqğın yaradılması bu sahə də qarşıda duran əsas problemlərdən sayılır. Ölkənin turizm srtategiyasında müalicəvi-sağlamlıq turizminin pioritet olması imakn verir ki, bununla bağlı brendin yaradıması və təbliğatına dövlətin dəstəyi üstünlük təşkil edəcəkdir. Hazırda Naftalan və Qalaaltı kurort mərkəzlərinin brendinin yaradılması və təbliğində dövlət birbaşa iştirak edir ki, bu da turistlərin cəlb olunmasınada əhəmiyyətli rolu vardır.

Eyni zamanda səyahət agentlikləri ilə birlikdə müalicəvi turizm mərkəzləri birgə məhsul təqdim edə bilər ki, bu da onun iqtisadi effektivliyin artırmış olardı. Qeyd olunan kurort mərkəzlərinə xarici turistlərin cəlb olunması üçün orta və uzun müddətli paket turların satılması da səmərəlim olardı.

Nəticə. Turizm üçün potensial obyektlərin qiymətləndirilməsi turizm destinasiyasının əhəmiyyətinin müəyyən olunmasının mühüm hissəsidir. Təbii və tarixi-mədəni potensialı, müvafiq olaraq onların kombinasiyasını qiymətləndirin. Turizm destinasiyasının cəlbediciliyi, əsasən, mühakimə edənin subyektiv fikridir, burada cəlbediciliyin dərəcəsinin müəyyənləşdirilməsi üçün heç bir ob-

yektiv meyar yoxdur. Destinasiya potensialı, həmçinin obyektiv faktorlara da təsir göstərir. Turizm bir istehlak formasıdır, o, öz müştəriləri, turistlər, istirahət edənlər və ziyarətçilərin ehtiyaclarını qarşılayır, lakin onlar faktiki olaraq bu sənayenin işçiləri və destinasiya rezidentləridir. Turizm destinasiyasının cəlbediciliyinin müəyyənləşdirilməsində başlıca problem destinasiya ziyarətçilərinin sayının müəyyənləşdirilməsidir. Təmin edilən xidmətlər və təklif edilən əlavə xidmətlərin keyfiyyət və xarakteri əsas məhsul və xidmətin, beləliklə də, destinasiyanın tam cəlbediciliyinin artması və ya azalması dövrünü davam etdirə bilər. Hal hazırda destinasiyanın ilkin cəlbediciliyi, əsasən, destinasiyanın orijinallığının azalmasına gətirib çıxaran, tədricən süni şəkildə yaradılan cəlbediciliyi sıxışdırır. Bununla belə, münasib turistik yerlər və destinasiyaların forma və növlərinin dinamikasına nəzarət etmək vacibdir. Göstəricilərlə turizm destinasiyasının cəlbediciliyi, həmçinin turizm bazarında öz yerini müəyyənləşdirə bilər, bu da, düzgün şəkildə hədəflənmiş turist seqmentinin müəyyənləşdirilməsilə marketinq strategiyası və əlaqəli destinasiyanın inkişafı və turizm məhsullarının inkişafında məntiqi problemlərin həll edilməsi üçün çox vacibdir.

ƏDƏBİYYAT

11. “Azərbaycan Respublikası Strateji Yol Xəritəsi ixtisaslaşmış turizm sənayesinin inkişafına dair”. Azərbaycan Respublikasnın Qanunvericiliyi toplusu. XI cild, Bakı: “Avrasiya press”, 2017.
12. Soltanova H.B., Qasımov M.S., Ağasiyev Ə.R. Azərbaycanın kurort təsərrüfatı. Bakı 2017, 215 s.
13. Dərgahov V.S. Regionlarda turizmin inkişafının strateji planlaşdırılması. AMEA. Gənclərin İntellektual İnkişaf mərkəzi. Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyəti. Gənc alimlərin əsərləri. N-6 2012. c.122-132
14. Qurbanov F.İ. Azərbaycanda turizmin inkişaf problemləri, Bakı 2007, 344 s.
15. Shields, Ann (November 10, 2016). "The World's 50 Most Visited Tourist Attractions – No. 3: Times Square, New York City
16. "A Golden Gate Fantasy on the Kansas Prairie" article by A.G. Suleberger in The New York Times September 15, 2010, accessed September 16, 2010
17. Beirman, David (2003). Restoring Tourism Destinations in Crisis: A Strategic Marketing Approach. CABI Publishing. ISBN 9781865089119.
18. "10 Most Visited Countries In The World". WorldAtlas. 2018-01-25. Retrieved 2018-05-01.
19. "Contribution of travel and tourism to GDP (% of GDP) by countries, 2017 - knoema.com". Knoema. Retrieved 2018-05-01.
20. Saraniemi, S; Kylanen, M (2011). "Problemizing the concept of tourist destination: An analysis of different theoretical approaches". Journal of Travel Research. 50 (2): 133.
21. Pike, Steven (2016). Destination Marketing Essentials (Second ed.). Oxford: Routledge. ISBN 978-1-138-91290-8.

Rəfiqə AĞASIYEVA
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim
nadjafova159@gmail.com

Bakı-dünya turizm destinasiyası kimi

Бакy-мировой туризм назначение воз

Baku-world tourism destination

Xülasə. Destinasiya spesefik təbii və rekreasiya resursları, görməli yerləri, tarixi və mədəni irsi ilə turistləri cəlb edən ərazidir. Hazırda əksər ölkələr turistləri və gəliri cəlb etmək üçün destinasiyalar yaradırlar. Sözü gedən turizm ərazi vahidinə ölkəmizdə yerləşən Bakı Destinasiyası da aiddir. Məqalədə turizm destinasiyası anlayışına turizm sistemi çərçivəsində aydınlıq gətirilmişdir. Eyni zamanda Bakı şəhərinin turizm destinasiyası olub-olmaması müəyyənləşdirilmiş, eləcə də onun destinasiyasının hansı tipologiyalarına aid olması və destinasiyanın həyat dövrünə görə hansı mərhələdə olmasına aydınlıq gətirilmişdir.

Açar sözlər: turizm sistemi, turizm destinasiyası, destinasiyanın həyat dövrü, Bakı destinasiyası

Резюме. Дестинация - это территория, которая привлекает туристов особыми природными и рекреационными ресурсами, достопримечательностями, историческим и культурным наследием. В настоящее время многие страны создают дестинации с целью привлечение туристов и доходов. В нашей стране такому территориальному единице относиться дестинация Баку. В статье уточняется понятия дестинация в рамках туристической системы. В то же время выясняется, является ли город Баку дестинацией, какому типологии и этапу жизненного цикла дестинации оно относиться.
Ключевые слова: туристическое система, дестинация туризма, жизненный цикл дестинации, дестинация Баку

Abstract. Destination is an area that attracts tourists with special natural and recreational resources, attractions, historical and cultural heritage. At present, many countries are creating destinations to attract tourists and incoming. In our country, such a territorial unit is concerned destination of Baku. The article specifies defination of destination within the tourism system. At the same time, it is revealed whether the city of Baku is a destination, which of the typology and life cycle of destination it`s belong.
Keywords: tourism sistem, tourism destination, destination life cycle, destination of Baku

Turizm destinasiyası – turizm sisteminin vacib elementidir. Sistem müəyyən bir məqsədə çatmaq üçün yaradılan, bir-birinə inteqrasiya olunmuş, daima qarşılıqlı əlaqədə və asılı olan elementlərin cəmidir. Özünəməxsus xüsusiyyətlərə malik turizm sistemi turistlərin tələbatlarının ödənilməsi üçün bilavasitə və ya dolayı istehsala cəlb olunmuş element və fəaliyyətlərin cəmi kimi ictimai, iqtisadi və siyasi münasibətlərin təkamülü çərçivəsində daima inkişaf edir, mürəkkəbləşir və yeni çizgilər qazanır [1, s 79]. Turizm sistemi bir neçə alt sistemlərdən (iqtisadi, sosial, informasiya və s.) ibarətdir və onların arasında önəmli alt sistemə turistləri cəlb edən, səfərləri zamanı üz tutduqları və bir müddət zaman keçirdikləri ərazi – turizm destinasiyası hesab edilir.

"Destinasiya" anlayışına XX əsrin 90-cı illərindən etibarən diqqət yetirilməyə başlanılmışdır. Xarici ədəbiyyatlarda "turizm destinasiyası"na dair tədqiq edən alimlərə N.Leyper, M.Porter, F.Kotler, R.Batler, T.Biqer, S.Ploq, Y.Louza, İ.V.Zorin, A.İ.Zorin, A.İ.Tarasenok, B.Q.Qulyaev, A.Y.Aleksandrova, M.A.Morozov, N.N.Pidqurskaya, L.Q.Kiryanova, T.V.Rassoxina və başqalarını misal göstərmək olar.

XX əsrin sonu "destinasiya" turizm sahəsində rəsmi terminə çevrildi. BMÜTT bu anlayışın təyinini öz sənədlərində aşağıdakı kimi verir: "Destinasiya – ziyarətçinin ən azı bir gecə vaxt keçirdiyi; xidmət, cəlb edən vasitələr və turizm resurslarından ibarət olan turizm məhsullarının daxil olduğu; onun idarəetmə üsulunu müəyyən edən fiziki və inzibati sərhədə malik olan; bazarda rəqabətədavamlığına görə fərqlənən fiziki məkandır [2]".

Destinasiyaya yalnız turizm məhsulu kimi baxmaq da düzgün deyil. O həm də coğrafi məkan, turistin səyahət məqsədi, rəqabətin subyekti və sahibkarlığın obyekti kimi də çıxış edir [3, s 19]. Digər tərəfdən destinasiya fərqli turizm məhsullarının cəmindən ibarətdir. Sadəcə hansı turizm məhsulunu və ya turizm xidməti istehsal edən müəssisələri tərcih etmək turistin individual istəyindən asılı olur. Ona görə də destinasiya çalışmalıdır ki, turistlərin maksimum rekreasiya tələblərini təmin etmək imkanına malik olsunlar. Son zamanlar əksər ölkələr dünya turizm bazarında mövqeyini möhkəmlətmək üçün şəhər destinasiyalar yaradırlar. Ölkənin brendinə çevrilən bu destinasiyalar sayəsində ölkəyə gələn turist axınını çoxaltmaqla turizm sahəsindən gələn gəlirin miqdarını artırmaq istəyirlər. Belə şəhər destinasiyalara Antalya, Lion, Qoa və s. misal göstərmək olar. Bəs görəsən paytaxt Bakı şəhərini destinasiya hesab etmək olarmı?

2018-ci ildə ölkəmizdə qəbul edilən xarici turistlərin sayı 12777 nəfər olmuşdur və onların 10103 nəfəri Bakı şəhərini seçmişdir [4, s. 47]. Qeyd etmək lazımdır ki, dövlətin turizmin inkişafına dair yeritdiyi siyasət sayəsində Bakı şəhərinin turizm baxımından cəlbediciliyi ilbə-il artır. Bir şəhərin turizm baxımından cəlbediciliyi dedikdə, şəhərin istirahət və səyahət məkanı kimi resurs və imkanlarının ümumi qiymətləndirilməsi nəzərdə tutulur. Bura görməli yerlərin mövcudluğu, inkişaf etmiş turizm infrastrukturu, təhlükəsizlik göstəricisi, cəmiyyətdəki tendensiyaları və s aiddir [5, s.284]. Beləliklə, Bakı şəhəri destinasiya hesab edilməsi üçün lazım gələn aşağıdakı əsas xüsusiyyətlərə malikdir:

- ✓ cəlbedicilik (tarixi-mədəni abidələr, təşkil olunan hadisələr və s.);
- ✓ infrasturktur (yerləşdirmə vasitələri, qida sistemi, mağazalar və s.)
- ✓ əlçatarlıq (nəqliyyat, asan viza və s.);

- ✓ tədbirlər, fəaliyyət növləri (turistin destinasiyada olduğu zaman məşğul ola biləcəyi bütün fəaliyyətlər);
- ✓ köməkçi xidmətlər (banklar, telekommunikasiya, səhiyyə sistemi, təhlükəsizlik sistemi və s.);
- ✓ əlçatar səyahət paketləri

Törəməsinə görə destinasiyalar mövcud resursların bazasında və qəsdən yaradılmış resursların bazasında formalaşan olmaqla iki qrupa ayrılır. Bakı destinasiyası birinci qrupa aid edilir. Adətən paytaxt şəhərlər əksər turizm resursları ilə zəngin olduqları üçün birinci qrupa aid edilir. Ölkəmizdə ikinci qrupa aid olan destinasiya kimi Qəbələ destinasiyasını göstərmək olar. Hazırda bölgələrdə, ölkəmizdə turizm sənayesinin inkişafına nəzarət edən Azərbaycan Dövlət Turizm Agentliyi tərəfindən Destinasiya Menecment Təşkilatları (Quba və Şəki Destinasiya Menecment Təşkilatları) yaradılmışdır. Gələcəkdə bu təşkilatların sayının artırılması nəzərdə tutulur. Əsas məqsəd isə regionlarda ikinci qrupa aid olan, qəsdən yaradılmış resursların bazasında formalaşan turizm destinasiyalarını yaratmaqdır.

Destinasiyanın ixtisaslaşması istehlakçını bu və ya digər turizm məqsədi üçün təmin edən resurs potensialına görə müəyyənləşdirilir. Destinasiyanın ixtisaslaşmasında seçimin çox olması onun mövsümülük amilini dəf edərək il boyu turist cəlb etməsinə müsbət təsir göstərir. Qeyd etmək lazımdır ki, bir destinasiya bir neçə istiqamət üzrə ixtisaslaşa bilər. Lakin onlar inkişaf göstəricisinə görə bir-birindən fərqlənə bilərlər. Belə ki, digərləri köməkçi olsa da, ilk bir neçə istiqamət üzrə ixtisaslaşma əsas olaraq seçilməlidir. Bakı destinasiyası aşağıdakı istiqamətlər üzrə ixtisaslaşıb:

- iş turizmi;
- dərketmə turizmi;
- hadisə turizmi;
- rekreasiya turizmi;
- çimərlik turizmi;
- qastronomik turizm;
- şopinq turizmi;
- qolf turizmi və s.

Hazırda paytaxtda destinasiyanın tipologiyasına görə əsas ixtisaslaşma iş turizmi hesab edilir.

Turizm və qonaqpərvərlik sahəsi iqtisadiyyatın digər sahələrindən ona görə fərqlənir ki, burada turizm məhsulunun ərsəyə gəlməsi ilə əlaqədar bütün proseslər turistlərin (istehlakçıların) gözü önündə baş verir, turizm məhsulunun istehsalı isə onun istehlakı ilə üst-üstə düşür. Destinasiyanın yaranması və inkişafı da elə turistlərin gözləri önündə baş verir. Buradan belə nəticə çıxarmaq olar ki, hər destinasiyanın həyat dövrü var. Destinasiyaların həyat dövrünə aid araşdırmalar V.Kristaller, S.Plot, R.Batler və başqaları tərəfindən aparılmışdır. R.Batlerin bölgüsünə görə destinasiyanın həyat dövrü yaxın məntəqələrdən gələn azsaylı turistlərin önəmli qonaq kimi qarşılanması ilə səciyyələnən kəşfiyyat mərhələsindən başlamaqla, tədricən turistlərin sayının artması və turizm infrastrukturunun formalaşdığı cəlbetmə mərhələsi, daha sonra destinasiyanın ərtaf mühitə təsirinin hiss edildiyi inkişaf mərhələsi, destinasiyanın tamamilə qlobal turizm sisteminə daxil olduğu möhkəmlənmə mərhələsini keçib və nəhayət destinasiyanın artıq dəbdə olmadığı staqnasiya mərhələləsində bitir. Bəzi destinasiyalar yenilənmə mərhələsini yaşayaraq yenidən canlana bilərlər. Turistlərin sayında (xüsusilə qonşu regionlardan gələn) artımın müşahidə edilməsini, turizm infrastrukturunda formalaşmanı, turizmin ətraf mühitə olan təsirinin hələ az olmasını, yerli əhalidən xidmət üçün istafə edilməyə xüsusi diqqət yetirildiyini və s. nəzərə alsaq, Bakı destinasiya kimi cəlbetmə mərhələsini yaşayır.

Səyahət yerinin seçimi – həyat tərzinin indiqatorudur. İnsan bir yerə getməyi planlayarkən ona dəyərli vaxtını sərf etməyi, eləcə də bəlkə illərlə və ya əziyyətlə topladığı pulunu xərcləmi nəzərdə tutur. Son zamanlar bu seçimə turistin statusu (həyatdakı mövqeyi) da təsir edir. BMÜTT-ının da qeydlərinə görə tuizm destinasiyaları XXI əsrdə dəb aksessuarına çevriləcək [6, s. 100]. Rəqabət bazarında ölkələr ən böyük tikəni qoparmaq üçün daim can atacaqlar. Ona görə də turizm destinasiyasının inkişafı və təşviqində brend, imic və mövqeləndirilmədən istifadə edilir. Bu istiqamətdə Milli Turizm Təbliğat Bürosunun, 2016-cı ilin dekabrında təsdiq edilmiş Azərbaycan Respublikasının ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Stateji Yol Xəritəsində nəzərdə tutulan addımlar Bakı destinasiyası üzərində tədricən həyata keçirilir.

ƏDƏBİYYAT

1. Основы туризма: учебник/коллектив авторов; под ред. Е.Л.Писаревского. –М.:Федеральное агентство по туризму, 2014.-384 с.
2. Terminology within Destination Management and Quality. Executive Council May 2016. URL: http://cf.cdn.unwto.org/sites/all/files/docpdf/terminologydm.pdf. (daxil olma tarixi: 10.11.2019)
3. Тарасенок А.И. Создание туристских дестинаций: проблемы и практика стратегического планирования на местном уровне. Туризм и гостеприимство. Учреждение образования «Полесский государственный университет». 2014. ст 19-23.
4. Azərbaycanda turizm. Bakı: DSK, 2019
5. Светлана Яковлева. Территориальное проектирование туристских местностей. Palmarium Academic Publishing. Saarbrücken 2014. pp 305.
6. Кирьянова Л.Г. Маркетинг и брендинг туристских дестинаций: учебное пособие. Томск: Изд-во Томского политехнического университета, 2011. 264 с.

Məsumə QURBANOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
magistr
m.qurbanova96@mail.ru

Turizm və rekreasiya üzrə biliklər sisteminin öyrədilməsinin əhəmiyyəti

Важность изучение систем знакий по туризму и рекреации

The ımportance of teaching the tourism and recreation knowledge system

Xülasə: İnkişaf etməkdə olan turizm və rekreasiya sahəsinin gələcək inkişaf perspektivlərini nəzərə alsaq, burada baza rolunu coğrafiya dərslikləri təşkil edir. Elə bu səbəbdən də böyük əhəmiyyətə malik dərsliklərlə yanaşı, müəllimlərində bu işdə rolu əvəzsizdir. Dərslikləri müəllim və şagird nöqteyi nəzərdən təhlil edərkən turizm və rekreasiya üzrə biliklər sisteminin öyrənilməsi, həmçinin bu biliklərdən müəyyən mövzularda istifadə olunmasının vacibliyini araşdırdıq.

Açar sözlər: turizm əraziləri, coğrafiya dərsliklərinin problemi , turizm və rekreasiya üzrə biliklər

Резюме: Если учесть дальнейшие перспективы развития и так уже развивающихся сфер туризма и рекреации, то мы увидем, что главную роль на себя берут учебные пособия по географии. И по этой причине, наряду с важной функцией учебных пособий, незаменима так же роль учителей в этом деле. Анализируя пособия с точки зрения учителей и учеников, мы наблюдаем важность изучения систем знаний по туризму и рекреации и другим темам.

Ключевые слова: туристические зоны, проблемы учебников по географии ,знание туризма и отдыха

Abstract: Taking into account the future developmental perspectives of Tourism and Recreation, Geographical text books are considered as base. Therefore beside the textbooks, teachers have irreplaceable role. We analyse the text books and studying of Tourism and recreation knowledge by the teacher and student point of view also the Importance of teaching and usage of this knowledge.

Key words: tourist areas, problems of textbooks on geography , knowledge of tourism and recreation.

Turizm və rekreasiya üzrə biliklər sisteminin öyrədilməsində coğrafiya fənninin tədrisi prosesində mühüm yer tutur. Coğrafiya fənninin tədrisi zamanı bu biliklər kursdan-kursa keçdikcə daha da dərinləşdirilir. Respublikamız müstəqillik əldə etdikdən sonra istər siyasi həyatda, istər iqtisadi, istərsə də təhsil sahəsində əsaslı dəyişikliklər baş verdi. Dəyişikliklərin müsbət yöndə olması sevindirici hal idi. Yeni dərsliklər yazılır, yeni metodik vəsaitlər, proqramlar işlənib hazırlanırdı. Bütün bu dəyişikliklərin əsasında yeni tərtibatlı, zəngin məlumatlı, oxunaqlı dərsliklər şagirdlərin istifadəsinə verildi. Beləliklə, dərsliklərimizin təhlili zamanı turizm və rekreasiya üzrə biliklər sisteminin necə və hansı şəkildə öyrədilməsini araşdıraq. 10-cu sinif coğrafiya dərsliyinin "Xəritə ümumiləşdirilmiş təsvirdir" mövzusu verilmişdir. Mövzu daxilində xəritə haqqında müxtəlif məlumatlar verilmişdir. Kartoqrafik generalizasiya, məzmununa görə xəritələr, miqyasına görə, topoqrafik xəritələr və s. haqqında məlumat verilib, lakin mövzuda bu xəritələrin hansı əhəmiyyətə malik olması, kimlə-

rin istifadəsi üçün yararlı olması haqqında heç bir məlumat verilməyib. Mövzunun müzakirə edin bölməsində "Xəritələr kimlər üçün lazımdır?", "Onu bilənlər yoxsa bilməyənlər üçün?" və s. kimi suallar verilə bilər. Bu suallar şagirdlərdə maraq doğuracaq. Onlar bunu düşünərək müxtəlif cavablar verə bilərlər. Müəllimin "Ölkəni, ərazini tanımayan turistlər, xarici vətəndaşlar nə etməlidir? yönləndirici sualı da onları düşünməyə vadar edəcəkdir. "Azərbaycanın faydalı qazıntıları və onların geoloji quruluşla əlaqəsi" mövzusunda ölkəmizdə mövcud olan faydalı qazıntılar haqqında məlumat verilib. Burada faydalı qazıntıların müxtəlif növləri- yanar, filiz və qeyri-filiz qeyd olunub. Mövzunun sonunda Azərbaycanda mineral bulaqların sayının 1000-dən çox olması deyilir. Mineral bulaqların kurort-turizm əhəmiyyəti olması qeyd olunur [1,s.66]. Mövzunun sonunda müəyyən olunmuş ərazilərdə mineral bulaqların yayılmasında cədvəlin tamamlanması tapşırığı verilir. Lakin mövzunun son cümləsinə aid heç bir əlavə məlumat və yaxud tapşırıq yoxdur. Şagirdlərimiz kurort-turizm komplekslərinin hansı ərazilərdə yaradılması barədə məlumatlara yiyələnsə daha yaxşı olardı. Bundan əlavə şagirdlərin turizm ve rekreasiya üzrə biliklərinin artırılması üçün kurort-turizm komplekslərini araşdırmağı, onların ölkəmizin iqtisadiyyatına necə təsir edəcəyini araşdırmaq tapşırıla bilərdi. "Yer kürəsinin çayları" mövzusunda çaylar haqqında geniş məlumat verilib. Burada çay şəbəkəsi, sıxlığı, eroziya, akkumlyasiya və s. kimi məlumatlar əks olunub. Mövzunun sonundan "Dərsdən sonra" hissəsində materik və qitələrin iqtisadi əhəmiyyəti haqqında təqdimat hazırlanması tapşırılır. Burada düşünməyi bacaran, tədqiqatçı ruhlu şagird onsuzda iqtisadi əhəmiyyət dedikdə dərin düşünməlidir. Şagirdlər çaylardan gəmiçilikdə, suvarma işlərində və s. məqsədlərlə istifadə olunmasını bilməklə yanaşı digər tərəfini də görməlidirlər. Onların çayların turizm ve rekreasiya əhəmiyyətini bilmələri vacibdir. "Xəzər dənizinin iqtisadi əhəmiyyəti" mövzusunda şagirdlərə bir sıra layihələrin hazırlanması tapşırılır. Bu layihələr içərisində "Xəzərin turizm imkanları" adı altında layihə mövzusu verilib. Mövzuda Xəzər dənizinin zəngin mineral, bioloji və rekreasiya ehtiyatları ilə zəngin olması qeyd olunur. Xəzərin sahilboyu turizm-rekreasiya zonaları olan Nabran-Yalama, Lənkəran, Giləzi və s. əraziləri qeyd olunub. Şagirdlər "Xəzərin turizm imkanları" haqqında müxtəlif tərtibatlı layihələr hazırlaya bilərlər. "Azərbaycanın qoruqları və yasaqlıqları" mövzusunda qoruqlar, milli parklar, yasaqlıqlar haqqında məlumat verilir. Burada onların hər birinin statusu, yerləşdiyi ərazi qeyd olunub. Lakin burada milli parkların, yasaqlıqların rekreasiya əhəmiyyəti haqqında bəhs olunmayıb. Dərsliyin sonuncu mövzusunda "Azərbaycanın ekoloji problemləri" verilib. Burada şagirdlərə müxtəlif problemlər üzrə layihələr hazırlanması tapşırılır. Bunların içərisində "Su hövzələrini çirkləndirən mənbələr: sənaye, kənd təsərrüfatı və turizm" diqqəti özünə cəlb edir. Təbiidir ki, ilk baxışda şagirdlərin turizmin su hövzələrini hansı dərəcədə çirkləndirdikləri bəlkə də ağıla gəlməz. "Tədqiqatçı" şagirdlər isə ölkəyə gələn turistlərin regionlarımızın çay, göl hövzələrindən tutmuş, hətta Xəzər dənizini də çirkləndirdiklərini deyə bilər. Məlumdur ki, əksər turistlər Xəzər dənizinə qarşı laqeyd davranır,istər çimərliklərdə, istərsə də Dəniz Kənarı Milli Parkda onu tullantılarla çirkləndirir. Layihənin sonunda şagirdlərin fikir və təkliflərinə nəzər salsaq, onların bu çirklənməyə qarşı hansı tədbirlər planının olmasını görə bilərik. Digər bir mövzuda isə "Torpaqların müxtəlif mənbələr tərəfindən çirklənməsi: neft,neft-kimya,kənd təsərrüfatı və turizm" layihəsi verilib. Bu layihəni hazırlayan şagird turizm əsasında meydana gələn çətinlikləri artıq dərindən bilir. Turizmin ölkə iqtisadiyyatına müsbət təsirini olduğu halda, çatışmayan cəhətləri də var. Turistlərin şəhərlərdə, kəndlərdə ətrafı zibilliklərlə çirkləndirməsi, tullantıların yerə atılması və s. kimi problemlər aktualdır. Maraqlıdır ki, günümüzün şagirdləri ölkəmiz üçün hansı tədbirlərin həyata keçirilməsini istərdi? Ölkəmizdə olan xarici vətəndaşların maariflənməsini necə həyata keçirmək olar? Onların bizim qədər diqqətli olması üçün nə edə bilərik və s. kimi suallar müəllim tərəfindən verilə bilər [2,s.199].

11-ci sinif dərsliyində "Meşə ehtiyyatları və onlardan istifadə" mövzusu verilib. Mövzuda dünyanın və Azərbaycanın meşə ehtiyatlarından danışılır. Həmçinin meşə ehtiyyatların məhv olması haqda məlumat verilir. Bununla yanaşı meşələrin çoxfunksiyalı əhəmiyyətə malik olması deyilir. Meşələrin funksiyalarından kurort ərazilərdə meşələr, şəhər yaşıllığı yəni, parklar və bağlardan bəhs olunur. Mövzunun sonunda bir neçə layihə mövzuları verilsə də, kurort ərazilərdə, bağlarda, parklarda yaşıllığın qorunması, əhəmiyyəti haqqında layihə verilməyib. Şagirdlərə müzakirə edin bölməsində "Parklarımızı, bağlarımızı rekreasiya əraziləri olaraq hesab etmək olarmı?" sualı verilə bilərdi. "Dünyada dil ailələri" mövzusu verilib. Mövzunun daxilində müxtəlif dil qrupları öz əksini

tapıb. Şagirdlərə "Dünyada dil ailələrinin regionlar üzrə yayılmasının xəritə-sxeminin tərtibi tapşırılır. Bundan əlavə şagirdlərə "Ölkəmizdə hansı dil qrupuna mənsub turistlər gəlir?" sualını vermək olardı. "İşsizlik və onun növləri" mövzusunda işsizlik, onun müxtəlif növləri və səbəbləri qeyd olunub. Bundan əlavə isə Azərbaycanda işsizlik göstəricisi 5% olaraq göstərilir. Bununda həqiqəti əks etdirdiyini demək olmaz. Müəllimlər şagirdlərə "İşsizliyi hansı yollarla aradan qaldırmaq olar?" sualını verə bilər [4,s.114].Lakin metodiki vəsaitdə buna yer verilməyib. Şagirdlərin bu suala cavabları müxtəlif ola bilər. Onlar ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirildiyini bilməlidirlər. Qeyri-neft sektorunun inkişafında isə turizm və rekreasiya sahəsini xüsusilə qeyd etmək lazımdır. Turizm və rekreasiya sahəsinin inkişafı üçün təməl olan məktəb coğrafiyasını bilməliyik. Bu bilikləri bizə hər mövzuda aşılıya biləcək müəllimlərə ehtiyacımız var. Təbii ki, burada metodiki vəsaitlərin zənginləşdirilməsi lazım gəlir. "Müasir dünyada miqrasiya axınları" mövzusu verilib. Mövzunun daxilində miqrasiyanın müxtəlif növləri, səbəbləri qeyd olunub. Digər ölkələrdəki miqrasiya axınlarına qarşı suallar qoyulub. Diqqəti çəkən fakt isə təlim-tərbiyə əhəmiyyəti daşıyan, ölkəmizə aid heç bir sualın verilməməsidir. Fəaliyyət bölməsində hesablama işlərində Almaniyanın əhali sayı və ora gələn miqrantların sayı verilib. Azərbaycanda yaşayan şəxslər və ya şagirdlər üçün maraqlı deyilmi ölkəsinin əhalisi, immiqrantların sayı və s. Mövzu daxilində və sonunda Azərbaycanla bağlı heç bir sual və ya tapşırıq verilməyib. Bunun əvəzinə "Fəaliyyət bölməsində" Azərbaycanın statistikası, digər hesablama işləri ola bilərdi. Ölkəmizi gəzməyə, görməyə, burada çalışmağa gələn turistlər, xarici vətəndaşlar haqqında məlumat verilə bilərdi. Çünki indiki nəsillərin maraq dairəsinin geniş olduğunu nəzərə alsaq, onların turizm sahəsi haqqında kifayət qədər məlumatı olmalıdır. "Davamlı inkişaf" mövzusu verilib. Mövzunun daxilində davamlı inkişafın bir sıra istiqamətləri qeyd olunub. Burada müxtəlif istehsal sahələri, təsərrüfat sahələri, təbii ehtiyatlardan səmərəli istifadədən bəhs olunur. Burada müəllim şagirdlərə davamlı inkişafın ölkənin hər bir sahəsini əhatə etməli olduğunu deməlidir. Şagirdlərə "Davamlı inkişafda turizm və rekreasiya sahəsinin inkişaf tempini araşdırın" tapşırığı verilə bilər. "İqtisadi inkişaf yolları" mövzusu verilib. Mövzunun daxilində hər hansı bir ölkənin inkişafı üçün kənd təsərrüfatı, sənaye və xidmət sahələrinin inkişafından asılıdır. İqtisadi münasibətlərdə beynəlxalq turizmin rolunun daha da artması qeyd olunur. Mövzunun sonunda 2017-ci ilin sentyabr ayınadək Azərbaycana gələn turistlərin sayının 2 milyon nəfərə çatdığı qeyd olunub. Hər il dərsliklərin yenilənmədiyini nəzərə alaraq müəllim şagirdlərə yeni məlumatların, statistikanın araşdırılmasını tapşıra bilər. Bütün bunların müəllimlər üçün olan metodik vəsaitdə öz əksini tapası məqsədəuyğun olardı. "Azərbaycanın iqtisadi-coğrafi rayonlarının sənayesi" mövzusu verilib [3,s.124]. Mövzunun əvvəlində şagirdlərə müxtəlif təqdimat materiallarının hazırlanması tapşırılır. İqtisadi-coğrafi rayonun inkişafına dair təkliflərdən tezis hazırlanması tələb olunur. Şagirdlər iqtisadi-coğrafi rayonların inkişafında turizm və rekreasiya sahəsinin rolunu bilməli və qeyd etməlidirlər. "Azərbaycanın nəqliyyatı və xarici ticarət əlaqələri" mövzusunda nəqliyyatda yük və sərnişin daşıma haqqında məlumat verilib. 2015-ci ildə Bakı Dəniz Ticarət Limanı vasitəsilə 8.5 min sərnişin daşınması və hava nəqliyyatı ilə eyni ildə 0.9 mln sərnişin daşınması qeyd olunub. Bu məlumatların yenilənməsi məqsədilə müəllim şagirdlərə yeni statistik göstəricilərin araşdırılmasını tapşıra bilər. Ölkəyə gələn turistlərin və ya ölkədən gedənlərin statistikası araşdırıla bilər. "Dünyada sülh problemi" mövzusunun daxilində bəşəriyyəti narahat edən məsələlərdən bəhs olunur. Münaqişə zonaları qeyd olunub. "Müzakirə edin və nəticə çıxarın" bölməsində "Siz münaqişə zonalarına turist olaraq getmək istərdinizmi?"sualı verilə bilər. Digər tərəfdən düşündürücü bir sual "Münaqişələrin baş verdiyi ölkələrdə turistlərin sayının azalmasının qarşısını almaq mümkündür?" ola bilər.

ƏDƏBİYYAT

1. Coğrafiya-10. Ümumtəhsil məktəbləri üçün dərslik. Y.Qəribov, O.Alxasov, Ş.Hüseynli, M.Babayeva, "Bakınəşr" Bakı-2017, 208 səh.
2. Coğrafiya-10. Müəllim üçün metodik vəsait. Y.Qəribov, O.Alxasov, Ş.Hüseynli, M.Babayeva, "Bakınəşr" Bakı-2017, 208 səh.
3. Coğrafiya-11. Ümumtəhsil məktəbləri üçün dərslik. N.Seyfullayeva, Z.İmrani, Y.Şabanova, "Bakınəşr" Bakı-2018, 208 səh.
4. Coğrafiya-11. Müəllim üçün metodik vəsait. N.Seyfullayeva, Z.İmrani, Y.Şabanova, "Bakınəşr" Bakı-2018, 208 səh.

Məhbubə UMUDOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim
mehbube.umudova@gmail.com

Gilgilçay – müdafiə divari tarixi və turizm abidəsi kimi

The Gilgilchay defensive wall as a historical and tourism monument

Гильгильчайская оборонительная стена как памятник истории и туризма

Xülasə: Gilgilçay səddi Dərbənd keçidində tikilmiş "Uzun divarlar" adlanan müdafiə isthekamlarından ən əhəmiyyətlisidir. Erkən feodalizm dövründə məlumdur ki, Qafqaz Albaniyasında köçərilərin hücumlarının qarşısını almaq üçün müdafiə sədləri tikilirdi. Həmin sədlərdən ən möhtəşəmi Gilgilçay müdafiə istehkamıdır. Bu müdafiə istehkamı haqqında ilk məlumat verən ərəb tarixçisi Əl-Bəlazuri (IX əsr) "Kitab Fütuh Əl-Buldən" - ("Ölkələrin fəthi" kitabı) adlı əsərində yazır ki, Sasani şahı Firuzun oğlu Qubad özü də onlara qoşuldu və Şirvanla Arran vilayətlərinin qapısı arasında çiy kərpicdən sədd tikdirdi. A. Bakıxanov "Gülüstani-İrəm" kitabında qeyd edir ki, bu sədd "dənizdən başlayıb... Əlixanlı-ehtimala görə, əslən Alğonlu olmuş - kəndinin üst tərəfindən keçərək Çıraq qalasına bitişir. Oradan da üzərində böyük bir şəhərin xarabası olan Ata dağından keçərək, Qonaqkəndin üstündən Baba dağına doğru gedir. Bərmək səddindən 23 km şimala Abzud-Kavad adlanan divarlar Gilgilçay boyunca uzanıb gedir.
Açar sözlər: Gilgilçay müdafiə divarı, Beşbarmag dağı, Babadağ dağı, Çıraq Kala

Резюме:Гильгильчайский барьер является наиболее важным из укреплений, называемых «Длинные стены», построенных на пересечении Дербента. Во времена раннего феодализма известно, что на Кавказе в Албании был построен защитный барьер для предотвращения нападений поселенцев. Наиболее впечатляющим из этих барьеров является крепость Гилгилай. Арабский историк Аль-Балазури (IX век), который первым предоставил информацию об этом укреплении, пишет в книге «Фухух аль-Булдан» («Книга покорения стран»), что Кубад, сын Фирузуна, царя Сасани, присоединился к себе и открыл ворота Ширвана и Аррана. Он построил барьер между кирпичами. А. Бакиханов отмечает в книге Гулустан-Ирам, что этот барьер возник "с моря ... Оттуда он пересекает гору Ата, которая разрушена большим городом, и проходит через гору Гость к горе Баба. В 23 км к северу от барьерной стены вдоль Гильгильчай простираются стены, называемые Абзуд-Кавад.
Ключевые слова: Гильгильчайская оборонительная стена, гора Бешбармаг, гора Бабадаг, Чирах-кала

Abstract: The Gilgilchay barrier is the most important of the fortifications called "Long Walls" built at the Derbent Pass. During the early feudalism it is known that in the Caucasus Albania a protective barrier was built to prevent the attacks of the settlers. The most spectacular of these barriers is the Gilgilay fortress. The Arab historian Al-Balazuri (IX century), who gave the first insights on this fortification, writes in his book Futuh al-Buldan (Book of the Conquest of Countries) that Qubad, the son of Firuzun, king of Sassani, joined himself and opened the gate of Shirvan and Arran. He built a barrier between the bricks. A. Bakikhanov states in the book Gulustan-Iram that this barrier started "from the sea... From there, it crosses the Ata mountain, which is ruined by a large city, and runs over the Guest Mountain to Baba Mountain. 23 km north of the barrier wall, the walls called Abzud-Kavad stretches along Gilgilchay.
Keywords: Gilgilchayaya obelonitelnaya stena, Gora Beshbarmag, Gora Babaad, Chirah-Kala

The geographical boundary of Caspian Shore defensive constructions occupies the territory from Derbent city to Apsheron peninsula. In order to protect such big territory, there has been built. huge constructions, extending on many kilometers, composing united defensive system. Between Behsbarmag Mountain, located in the end of the Caucasus range,, in the southeast part, and the Caspian shore exists the narrowest passage (11.75 km). This passage was built from the raw brick and finished by two parallel walls, which were at the distance of 200 meters from each other. Taking the name from Beshbarmag Mountain, according to the writing sources, Beshbarmag barrier was built in the period of Shah Sasanid Yezdegird 2 (438-457). In this barrier, in the mountain, separately was built a stone

stronghold, and on the caravan way, at the foot of the mountain was a caravan shed. Beshbarmag is also a place of imposing warship. In the north from Beshbarmag, there is the Gil-gilchay barrier, which is the biggest monument among the Caspian Shore defensive constructions. The Gil-gilchay defensive barrier was built in the period of Shah Gubad, from Sasanid dynasty(488-531).

The Gilgilchay Defensive Long Wall in it finds indirect confirmation in Michael the Syrian's (12th century) reference to John of Ephesus' (6th century) statement that 'the Gate of Turaiè' (i.e. Derbent) 8 is a city constructed by the Romans (Byzantines) (Chron. d.1199). Subsequently, the written sources (Ieshu Stylit, Procopius) report that during the reigns of the Shahanshahs Peroz, Kavad I and Khusraw I Byzantium gave financial support under the treaty (in fact, not continuously, but under pressure) to Sasanian Iran for the struggle with the nomads, including monies for the construction and service of the defensive structures. Among them in addition to the mud-brick fortifications at Derbent and Torpakh-kala, the Ghilghilchay long wall, Besh-Barmak fortification, military camps and fortresses, and fortified cities and settlements were built. The Derbent stone defensive complex, dating to the middle of the 6th century AD, replaced the mud-brick fortification and included the city fortification and a 40 km mountain wall (Dagh bari). This complex became a model of defensive architecture and a crowning achievement in the system of Limes Caspius. The cordoned long walls on the eastern and western shores of the Caspian Sea served as the border between the settled agricultural and the nomadic stockbreeding worlds.

Historiography. The first mention of the Ghilghilchay defensive long wall dates to the 7th century AD: Ananias of Shirak (Pseudo-Moses of Khorene) in his Geography (Armenian: Ashkharatsuyts) mentions not only 'the wall of Darband,' but also 'the long wall Apzut Kavat up to the Alminon marshes and to the sea' (Moïse Corène; Ananias of Shirak).9 The identification of the Apzut Kavat wall (in translation from the Middle Persian, 'Kavat is exalted') with the Ghilghilchay wall was first made by S.T. Yeremyan,10 who attributed its construction to the reign of Shahanshah Kavad, and that opinion is now widely accepted and does not cause disagreements among scholars. It is indirectly confirmed by the presence of extensive marshlands now known under the Azeri name Akh-zybyr near the sea in an area close to the eastern end of the Ghilghilchay wall. In the 10th century AD, al-Mas"udi described the building activity of Shahanshah Kavad in the eastern Caucasus and referred to 'the walls, which The Gilgilchay Defensive Long Wall 147 he had constructed in Shirwan, known as Sur at-tin (from the Arabic—"wall of clay") and about the stone wall Barmaki'. It is possible to interpret the Barmaki wall as the fortification near the Besh-Barmak Rock (from the Azeri Turkish—'five fingers'; compare with the Lesgian barmak—'tall sheepskin hat/papakha'), and the Sur at-tin/'Wall of Clay' as the Ghilghilchay long wall. In the middle of the 13th century AD, the ruins of the Ghilghilchay wall were seen by Wilhelm Rubrouck, the ambassador of King Louis IX (1214–1270). He observed (chapter 50) both the plain and mountain portions of this long wall: Two days away from here [i.e. from Derbent] we have found another city, named Samaron [i.e. Shabran/Shabiran],12 in which many Jews live; when we passed through it, we saw the walls descend from the mountains to the sea. And having left a road through these mountain walls, as it turned off there to the east, we rose on mountains in a southerly direction. The next day we passed through a certain valley, on which the bases of these walls were visible extending from one mountain to another, and on top of the mountains there was no road. They were Alexander's fortifications that held back the wild tribes—that is, herders from the desert—from advancing to the cultivated grounds and cities. In 1770–1773 the Russian scientist-naturalist and member of the St Petersburg Academy of Sciences, Samuel Gottlib Gmelin (1745–1774), travelled in Iran along the western Caspian coast. [4, s. 61]

In 1963–64 this defensive line was visually inspected in its entirety by H.P. Abdullaev, who determined its length to be about 60 km from the sea up to the foot of Mount Babadagh (3629 m), thus confirming Bakikhanov's information.18 The author was inclined to date its construction to the 5th–6th centuries AD. In 1980 the Ghilghilchay wall was examined by an expedition of Azeri archaeologists from the Institute of History, Academy of Sciences of Azerbaijan, and then the first excavation of it was carried out by A.A. Aliev. The wall and towers were carefully plastered with a clay solution. In separate places the plaster (2–8 cm thick) had two layers. The excavated section of

the tower established that it was solid (i.e. blind) and had a semicircular form advancing out from the line of the wall on both sides [6, s.25].

New investigations. In the 2002 field season during August, the Azerbaijani-Daghestani-American archaeological expedition (or ADA) carried out careful visual investigations of portions of the Ghilghilchay long wall.20 The work was first conducted on the flat coastal plain (about 6 km) and then followed the foothill portion (about 8 km) up to its crossing of the Ghilghilchay river to the south-west of the village of Eynibulak. The purpose of the research was: 1) to make a detailed plan of the given parts of the defensive wall, fixing all its fortified features (towers, fortresses, military camps); 2) to determine the character and the features of the fortification at various points; 3) to reveal the important sites of defense and strategic places on this fortified defensive line; and 4) to choose prospective sites for future archaeological excavation. A Garmin GPS was used for exact placement of the detailed plan with precise latitude and longitude coordinates. GPS measurements were made periodically after certain distances (e.g. on every fifth tower) and at base points. The Ghilghilchay long wall is located in the Divichi district of Azerbaijan and derives its name from the name of the river, along which it extends for its initial 14 km. In the earlier literature (18th to the beginning of the 20th century) this river also had other names—Gilgin, Gilgen, Gilgeni. The official modern name of the river is Ghilghilchay (chay being 'river' in Azeri Turkish). In the literature, there is also another name for this defensive line; the term Shirwan Wall is used for the name of the historical area occupying the territory of north-eastern Azerbaijan. [1, s. 47]

The regular distance between towers, however, is maintained. The measurement of distances between towers was made from the centre (top) of the towers. The diagram in Table 1 shows that the distances along the wall between the towers range between 38 and 40 m in 40% of the cases.. Note that this portion of the wall is located in the central part of the defensive wall and probably is one of the strategically important points in the defence system. It is possible to assume, for example, that this location represented a most convenient and shallow point to cross the river. The differences in the size of the wall and the towers on various sections were determined by the strategic importance of these sections and the natural fortifications or topographic features present. Where the strategic importance and natural vulnerability were significant, the fortification and defensive capacity of the sections of the wall and towers were greater. [3, s. 64]

The remains of the Ghilghilchay wall were not found immediately adjacent to the settlement, but it is not possible to doubt that the Ghilghilchay wall continued here and included the fortified settlement of Eynibulak-1 in its defensive line for controlling the most convenient passage into and across the river. The passage here is low and most convenient for connecting the riverbed with the plateau located to the west. The remains of the mountain portion of the Ghilghilchay defensive wall begin on the opposite coast of the river on a mountain spur that descends down to the riverbed. The remains of the wall extend farther to the west up to the Chirakh-kala fortress at the top of the mountain range and then to the foot of Mount Babadagh.

REFERENSES

1. Məmmədov R.M. Əliyev İ.N. Gilgilçay. Bakı – 2006. Səh. 44
2. M. Gaye Gaither. The Ghilghilchay Fortification Wall and Sasanian System of Limes: Symbol Or Security. Wellesley College., 2002. pp.154
3. Aliev A. A., Gadjiev M. S., Gaither, M. Gaye. "The Ghilghilchay defensive long wall: new investigations." Ancient West & East 5 (2006): p.p. 43–177.
4. Гаджиев, Муртазали. "Новые Находки и Топография Среднеперсидских Надписей Дербента." Вестник Древней Истории . (2000): 116–129.
5. Karim Alizadeh, Journal of Ancient History, 2014.

Məmməd SADIQOV
Azərbaycan Turizm və Menecment Universiteti,
dosent
Memmed_sarvan@rambler.ru

Abşeron turizm bölgəsində mineral və termal suların öyrənilməsinin tarixi-coğrafi aspektləri

Историко-географические аспекты изучения минеральных и термальных вод в районе Апшеронского туризма

Historical and geographical aspects of studying mineral and thermal waters in the Absheron tourism area

Xülasə: Abşeron iqtisadi coğrafi rayonu təbii və mineral sərvətlərinin zənginliyi, coğrafi mövqeyi, nəqliyyat infrastrukturunun çox funksialığı, sənaye və iqtisadi məziyyətliyi baxımından nəinki respublikada eyni zamanda Qafqazın cənub regionlarında inkişaf etmiş fərqli bir regiondur. XVIII əsrin ortalarından ərazidə neft-qaz ehtiyatlarının zənginliyi, son 60-70 ildə mineral və termal su ehtiyatlarının bolluğu bu iqtisadi-coğrafi rayonun şöhrətini daha da artırmışdır. Son 70-80 ildə ölkə turizm sənayesinin sürətlə inkişaf edən və qədim arxeoloji, geomorfoloji və təbiət abidələrinin cəmləşdiyi bu yarımada turistlərin ən çox iştirak etdiyi regiondur. Abşeron regionu turistlərin ən çox cəlb etdiyi ərazidir.Onların sayı ildən ilə artır.

Açar sözlər: Turizm-rekreasiya amilləri; geoloji, geomorfoloji, hidroloji turizm növləri; arxeoloji turizm mədəni, irsi nümunədir.

Резюме: Апшерон-экономический географический район, он развивающийся различный регион не молько в нашей стране но и в южных регионах Кафказа; с точки зрения богатства природных и минералных ресурсов, географического положения, многофункционалность инфраструктуры транспорта, индустрии и экономического качества. С середины -ого века богатства ресурсов нефть и газа в этом регионе, а также в последные 60-и -70-и годы изобились минералных и термалных ресурсов еще болше прославил этом экономическо географический район. Этот полуостров часто посешающий регион со стороны туристов, а также здесь в последных 70-х -80-х годах развивалась туристическая индустрия страны и скопились старые археологические, геоморфологические и природные памятники. Регион Апшерон привлекает к себе много туристов и каждый год их количества размножаются.

Ключевые слова: Туристические рекреационные факторы; виды геологического, геоморфологического, гидрологического туризма; археологический туризм является примером культурного наследия

Abstract: Absheron economic geographical region is a developed, different region not only in our republic but also in the southern regions of the Caucasus in terms of richness of natural and mineral resources, geographical location, multi-functionality of transport infrastructure, industrial and economic importance. The richness of oil and gas fields in the area, the abundance of mineral and thermal water resources for the last 60-70 years enhanced the fame of this economic geographical region more since the middle of the 18th century. This peninsula which developing rapidly in the tourism industry of the country for the last 70-80 years and concentrates ancient archeological, geomorphological and natural monuments is the region with the highest number of tourists. The Absheron region is the most attractive region for tourists. Their number has been increasing year by year .

Key words: Tourism and recreational factors; types of geological, geomorphological, hydrological tourism; archeological tourism is an example of cultural, heredity

Azərbaycan Respublikasının səth quruluşunun müxtəlifliyi, dağ əmələgəlmə prosesinin davam etməsi və ərazisinin yüksək seysmikliyi, şərqdən 825 km məsafədə Xəzər dənizi ilə əhatələnməsi, zəngin neft-qaz ehtiyatları, çox funksiyalı termal və mineral su mənbələrinə malik olması Azərbaycanda müalicə və kanyon turizm sahələrinin inkişaf etdirilməsi üçün əlverişli imkanlar yaradır. XX əsrin sonlarında Azərbaycanın siyasi iqtisadi və sosial həyatında baş verən dəyişikliklər kurort kompleksinin təşkili, idarə edilməsi, maliyyələşdirilməsi, insanların istirahətinin, müalicəsinin və sağlamlığının bərpasının təşkili, yeni kurort texnologiyalarının tətbiq edilməsi, kadr təminatı sahəsindən də təsirsiz ötüşməmişdir. Nəticədə mərkəzləşdirilmiş kurort sanatoriya kompleksinin və

istirahət xidmətlərinin ümumdövlət sisteminin ahəngdar fəaliyyəti pozulmuşdur. Bu kompleksə olduqca böyük zərər Ermənistanın Azərbaycan Respublikasına təcavüzü nəticəsində vurulmuşdur. Azərbaycanın 20% ərazisi işğal olunmuş, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Həmin ərazilərdə unikal təbii xüsusiyyətlərə malik sanatoriya və istirahət yerləri dağıdılmışdır.

Azərbaycan ərazisində kurort işini təşkil etmək üçün hər bir təbii şərait və təbii ehtiyatlar mövcuddur.Belə ərazilərdə istirahət və müalicəni təmin edən müəssisələr, sanatoriya mühafizə zonaları və digər kurort infrastrukturunun təşkili çox vacibdir.

Təbii müalicə ehtiyatlarına görə Azərbaycanda kurortların balneoloji, müalicəvi palçıq kurortları və Naftalan nefti kurortu kimi ocaqlar da mövcuddur. Balneoloji kurortlara əsasən, təbii mineral sulardan istifadə olunan kurortlar aiddir. Azərbaycan ərazisində müalicəvi xüsusiyyətlərinə görə dünyada qəbul olunan səkkiz qrup mineral suyun hər biri mövcuddur. Müalicəvi palçıq kurortlarında (palçıqda əsasən lilləşmiş) (Masazır və Zığ gölünün palçıqları) və təpə (vulkan) palçıqlarından istifadə yolu ilə də müalicə aparılır.

Dünyanın 80-dən çox ölkəsində termal və mineral su mənbələri mövcuddur ki, onlardan da ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsalında, istixana, binaların qızdırılmasında, müxtəlif xəstəliklərin müalicəsində və s. sahələrdə geniş istifadə edilir. Azərbaycanın bu sahədə perspektiv imkanlara və geniş potensiala malik olması diqqəti cəlb edir. Lakin, bu sahədə aparılan araşdırmalar və elmi ümumiləşmələr göstərir ki, Respublikada termal su ilə yanaşı yaxşı təmin olunmuş rayonları müxtəlif tədqiqatçılar tərəfindən 8 rayona bölünsə də müasir dövrdə Azərbaycanda termal su mənbələrinin sayı tam dəqiqləşdirilməmişdir. Azərbaycanda termal suların geniş yayıldığı Abşeron iqtisadi –coğrafi rayonunda termal suların inkişafı və ərazi təşkili məsələlərinin iqtisadi-coğrafi baxımdan tədqiq edilib öyrənilməsi böyük elmi praktik əhəmiyyət kəsb edir. Abşeron iqtisadi-coğrafi rayonu Azərbaycan Respublikasının təsərrüfat cəhətdən ən inkişaf etmiş rayonu olub, Abşeron və Xızı inzibati rayonlarının əraziləri də bura daxildir. Abşeron rayonu Bakı arxipelaqı adalarını özündə birləşdirir və Azərbaycanın mövcud termal su regionları içərisində tarixin bütün mərhələlərində istehsal sahələrinin və sosial infrastrukturun təmərküzləşmə sahəsi kimi daim diqqət mərkəzində olmuşdur.

Abşeron iqtisadi-coğrafi rayonunun ərazisi əsasən eyni adlı yarımadadan ibarət olub Xəzər dənizinin 825 km əhatəsində yerləşir. Sahəsi 5,87 min km^2 ,əhalisi 2783,6 min nəfər olmaqla, Azərbaycan Respublikasının ərazisinin 6,8%-ni və əhalisinin isə 28,7%-ni təşkil edir.

Ərazinin Xəzər dənizi ilə əhatələnməsi, dəniz sahili boyu narın qumlu çimərliklərin, çox əlverişli quru subtropik iqlim və unikal tarixi abidələr, və müalicə palçıqlarının debiti gündə 2000 m^3 olan 180-dən çox termal su mənbələrinin və digər təbii ehtiyatların Abşeron iqtisadi-coğrafi rayonunun ərazisində cəmlənməsi burada daha prioritet sahələrin inkişaf etdirilməsi üçün zəmin yaradır. Abşeron iqtisadi-coğrafi rayonu təbii şəraitinin müxtəlifliyinə, təbii və mineral sərvətlərinin zənginliyinə və onların keyfiyyət göstəricilərinə görə Azərbaycanın digər termal su ilə zəngin regionlarından müalicəvi xassələrinə və buraya gələn xarici turistlərin sayına görə kəskin fərqlənir. Göstərilənlərə şərait yaradan digər amillərdən biri də, region ərazisinin mühüm dəmir, avtomobil, su boru-kəmər və hava yolları ilə təmin olunmasıdır. Ərazinin Xəzər dənizi ilə əhatə olunması rayonun nəqliyyat əlaqələrini xeyli artırır. Bakı şəhəri Xəzərin ən böyük dəniz limanı olmaqla onu Volqa-Don, Volqa-Baltik kanalları vasitəsi ilə Atlantik okeanı hövzəsi ilə birləşdirir. Regionun ərazisində çoxlu sayda metan, yod, brom, kükürd və s. tərkibli termal suların mövcud olması onlardan gələcəkdə istifadə imkanlarını daha da artıracaqdır.

Əsasən yerli və qismən xarici ölkələrdən gələn turistlərin müalicəsində istifadə olunan termal sular və ən çox Suraxanı rayonunun Əmircan qəsəbəsində və Səbail rayonunun Şıx burnu ərazisində yerləşmişdir. Abşeron iqtisadi-coğrafi rayonunda mövcud olan termal sular temperaturlarına görə 4 qrupa ayrılır: temperaturu 20^0 C-ə qədər olan sular; temperaturu 40-50^0 C olan sular; temperaturu 50^0 C-dən çox olan termal sular. Temperaturu 20^0 C-ə qədər olan sulara yarımadanın şimal-qərb hissəsində nisbətən az dərinliklərdə, Abşeron çöküntülərinin yayıldığı sahələrdə rast gəlinir. Termal sular yerin təkinin dərinliklərinə doğru getdikcə temperaturun tədricən artmasından, həmin ərazinin geoloji inkişaf tarixindən, tektonik proseslərin fəallığından, vulkan fəaliyyətindən, süxurların yatımının geoloji struktur şəraitindən, süxurların istilikkeçirmə qabiliyyətindən və digər coğrafi amillər-

dən asılıdır. Abşeron iqtisadi-coğrafi rayonu məhsuldar qatının lay sularının temperaturu 20-70^0 C arasında dəyişir. Yer təkinin dərinliklərinə doğru getdikcə termal suların temperaturu artır və 1500 m-də 65-75^0 C-ə çatır. Məhsuldar qatın üst hissəsinin termal suları təzyiqli olub, yüksək minerallaşma dərəcəsinə (150 qr/litr) malikdir. Abşeron yarımadasının Şıx sahəsində məhsuldar qat sularının temperaturu 71^0 C, debiti 2500 m^3/ sutka, istilik gücü 62 kvt/m^3 –dur. Temperaturu 80^0 C-dən yüksək olan məhsuldar qatın alt şöbəsinin lay sularına Abşeron yarımadasının cənub hissəsində 2000 m-dən artıq dərinlikdə rast gəlinir. Məhsuldar qat çöküntüləri Abşeronda geniş yayılmışdır. Bu çöküntülərin qalınlığı cənub-qərb hissədə Fatmayı və Novxanı sahəsində 500-700 m, yarımadanın cənub-şərq hissəsində Qum adası və Zirə sahəsində isə 3500 metrə çatır.

Bu günləri Abşeronun termal suları içərisində ən çox isdifadə olunanı Suraxanı termal sularıdır. Suraxanı termal suları Suraxanı rayonunun Əmircan qəsəbəsinin mərkəzində, Bakı şəhərindən 14 km şimal-qərb məsafədə yerləşir. Bu müalicəvi termal su azotlu hidrosulfid, neytral və ya zəif qələvili tərkibə malikdir. Yeni istifadəyə verilmiş Suraxanı Tibbi Bərpa Mərkəzi sağlamlıq kompleksində dəri, oynaq, sinir sistemi,ginekoloji, uroloji və s. xəstəliklərin müalicə kursun almaq üçün hər il əsasən yerli və qismən də xarici ölkə vətəndaşları göstərilən sağlamlıq ocağında öz sağlamlıqlarını bərpa edir. Kompleksdə termal su, vanna qəbulu, hidroterapiya, masaj, palçıqla müalicə və s. sahələr üzrə müalicə xidmətləri insanların sağlamlığını bərpa edir.

Yer səthinə çıxan termal suda hidrosulfidin ümumi miqdarı 55 mq/l-dən 240 mq/l intervalında dəyişir. Suyun orta temperaturu 16-25^0 C arasında dəyişərək, onun orta debiti 500000 l/sutka-ya bərabərdir. Suyun minerallaşma dərəcəsi çıxdığı dərinlikdən asılı olaraq dəyişir. Belə ki, dərinlik 1,5 metrdə 82,3 mq/l, 3 metrdə 130 mq/l, 5 metrdə 153 mq/l, 1800 metr dərinlikdə bu göstərici 285 mq/l-ə bərabərdir.

Yuxarıda qeyd olunan göstəricilərinə görə Suraxanı termal suları Matesta suyu ilə analoji cəhətdən eynidir. Sağlamlıq kompleksində işləyənlərin sayı 37 nəfər olub, bunlardan 26 nəfər texniki işçi, 4 nəfər həkim, 7 nəfər tibb bacısı fəaliyyət göstərir. Suraxanı Tibbi Bərpa Mərkəzi müasir tibbi avadanlıqlarla təchiz olunmuşdur.

Kompleksə xidmət pullu olub müalicə vannalarının təyinatından asılı olaraq 1 nəfər üçün xidmət haqqı 15-20 manat arasında dəyişir. Tibbi Bərpa Mərkəzində ilin fəsillərindən asılı olaraq hər ay 350-400 nəfər adam sağlamlıqlarının bərpası üçün mərkəzə müraciət edir.

Tibbi Bərpa Mərkəzinə gələnlərin sayının az olmasının səbəbi sağlamlıq mərkəzi haqqında formal olaraq internet saytının adı olsa da, göstərilən saytda yalnız müalicə olunan xəstəliklər haqqında məlumat əldə etməyin mümkün olmasıdır. Bu mərkəz haqqında daha ətraflı məlumat əldə etmək üçün mütləq sağlamlıq mərkəzinə gedilməlidir və ya telefon vasitəsi ilə maraqlandırılan məsələlər haqqında səthi məlumat alına bilər. Halbuki, dünyanın bütün məşhur termal suları haqqında bütün lazımi məlumatları internet vasitəsi ilə əldə etmək olur. Suraxanı Tibbi Bərpa Mərkəzi haqqında reklam bukletləri çox bəsit səviyyədə çap olunub, belə ki, burada yalnız hansı xəsdəliklərin müalicə olunması sadalanır.

Yuxarıda deyilənləri ümumiləşdirərək aşağıdakı nəticəyə gəlmək olar:

1)Suraxanı termal suları Azərbaycanın digər termal su rayonlarına nisbətən tarixən daha əvvəl isdifadə edilməsinə baxmayaraq, onun bu günkü inkişafı qənaətbəxş hesab edilə bilməz.

2)Çox yüksək müalicəvi əhəmiyyəti olan Suraxanı termal suları haqqında reklam xarakterli məlumatları dünya ölkələrinə internet saytları vasitəsi ilə çatdırmaqla Suraxanı Tibbi Bərpa Mərkəzini dünyada tanıdaraq, göstərilən bərpa mərkəzinə hər il gələnlərin sayını qat-qat artırılmasına nail ola bilərik.

Abşeronun termal sularının səmərəli isdifadə etməklə Suraxanı , Biniheybət, Zığ , Mərdəkan və digər yaşayış məntəqələrində böyük sağlamlıq kurort müəssisələri inşa etməklə, minlərlə insanlar üçün daimi iş yerləri yaratmaq olar.

Vüqar NƏZƏROV
Azərbaycan Turizm və Menecment Universiteti,
i.ü.f.d.,dosent
v.nazarov@atmu.edu.az

Turanə HÜSEYNOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
turanehuseynova90@mail.ru

Banklarda risk səviyyəsinin qiymətləndirilməsi

Оценка уровня риска в банках

Assessment of risk level in banks

Xülasə: Banklar bazar quruluşları sistemində əsas əlaqələndiricidir. Onların fəaliyyətinin inkişafı bazar mexanizminin real yaradılması üçün zəruri şərtdir. Müasir bank sistemi istənilən inkişaf etmiş dövlətin milli iqtisadiyyatının ən vacib sahəsidir. Son illərdə Bank sistemində əhəmiyyətli dərəcədə dəyişikliklər baş vermişdir.Ölkədə Kredit dəstəyi olmadan təsərrüfatların, müəssisələrin sürətli və sivil şəkildə formalaşmasını, daxili və xarici iqtisadi məkanda digər sahibkarlıq fəaliyyət növlərinin tətbiqini təmin etmək mümkün deyil. Bunun üçün Risklərin idarə edilməsi bank işində əsasdır. Əvvəlcə banklar yalnız əmanətləri qəbul etsələr də, tez bir zamanda pul köçürməsində vasitəçi oldular və bununla da kredit kimi digər riskləri də götürdülər. Dünyadakı bankların müflisləşməsinin tədqiqatları göstərir ki, əsas səbəb aktivlərin keyfiyyətinin aşağı olması idi.Bu işin məqsədi bank riskləri nəzəriyyəsini təhlil etmək, risklərin növlərini, idarəetmə və risk qiymətləndirmə metodlarını, Peşəkar bankçılıq və milli bankların xüsusiyyətləri ilə əlaqəli risklərin idarə edilməsi problemlərini, habelə risklərin idarə edilməsində bank idarəçiliyinin perspektivlərini müəyyənləşdirməkdir.
Açar sözlər: bank sektoru, erkən xəbərdarlıq, maliyyə davamlılığı, risklərin qiymətləndirməsi, analitik sistem, vahid qiymətləndirmə sistemi,kredit portfeli.

Резюме: банки являются основным координатором в системе рыночных структур. Развитие их деятельности является предпосылкой реального рыночного механизма. Современная банковская система является важнейшим направлением национальной экономики любой развитой страны. В последние годы в банковской системе произошли существенные изменения: без кредитной поддержки невозможно обеспечить быстрое и цивилизованное формирование фермерских хозяйств, предприятий и других видов предпринимательской деятельности как в отечественном, так и во внешнеэкономическом секторах. Для этого управление рисками является основой банковского дела. Первоначально банки принимали только депозиты, но вскоре были опосредованы денежными переводами, что привело к принятию других рисков, таких как кредитование. Исследования банкротства банков показывают, что основной причиной низкого качества активов является анализ теории банковских рисков, типов рисков, методов управления рисками и управления рисками, а также вопросов управления рисками, связанных с профессиональными банковскими и национальными банками. определение перспектив банковского менеджмента.
Ключевые слова: банковский сектор, раннее предупреждение, финансовая устойчивость, оценка рисков, аналитическая система, интегрированная система оценки, кредитный портфель.

Abstract: Banks are the main coordinator in the system of market structures. The development of their activities is a prerequisite for a real market mechanism. Modern banking system is the most important area of the national economy of any developed country. Significant changes have taken place in the banking system in recent years. It is impossible to ensure rapid and civilized formation of farms, businesses and other types of entrepreneurial activity both in the domestic and foreign economic sectors, without credit support. For this purpose, risk management is the basis of banking. Initially, banks only accepted deposits, but were soon mediated by remittances, thereby taking on other risks, such as credit. Banking bankruptcy studies show that the main reason for poor quality of assets is the analysis of bank risk theory, risk types, risk management and risk management techniques, and risk management issues related to professional banking and national banks. determination of banking management perspectives.
Keywords: banking sector, early warning, financial sustainability, risk assessment, analytical system, integrated valuation system, loan portfolio.

Risklərin qiymətləndirilməsi bankın fəaliyyətinin müəyyən bir mərhələsində risklərin təzahürü ilə əlaqəli xərclərin kəmiyyətcə müəyyənləşdirilməsidir. Risklərin qiymətləndirilməsində məqsəd bankın fəaliyyətinin bazar şərtlərinə uyğunluğunu müəyyənetməkdir.

Ümumi kredit portfelinin və onun xüsusiyyətlərinin təhlili ümumiyyətlə bankın fəaliyyəti, prioritetləri və məruz qaldığı kredit risklərinin növləri haqqında kifayət qədər tam təsəvvür yaradır. Bu vəziyyətdə, müştəri haqqında məlumat, orta kredit müddəti və orta faiz dərəcəsi daxil olmaqla əsas kredit növlərinin siyahısını təhlil etməliyik. Kredit portfelinin müxtəlif resurslarda, məsələn, valyuta, ödəmə müddəti üzrə təhlilini daxil etməklə bölüşdürülməsi; hökumət və ya digər zəmanətləri olan kreditlər; risk növü üzrə kreditlər; işləməyən kreditlər.Bu alətlər ümumi kredit portfelinin tərkibini və xüsusiyyətlərini hərtərəfli qiymətləndirməyə imkan verir. Yuxarıda göstərilən məlumatların təhlili kredit riskinin konsentrasiyası dərəcəsini müəyyənləşdirəcək, göstəricilərdəki meylləri və kredit borcunun keyfiyyətini qiymətləndirəcəkdir.

Valyuta riskinin tənzimlənməsində əsas konsepsiya valyuta mövqeyidir. Valyuta mövqeyi bankın xarici valyutada tələb və öhdəliklərinin nisbətidir. Açıq (satılan və satılmayan xarici valyutanın məbləğləri arasında uyğunsuzluq olduqda) və qapalı (bu məbləğlər bərabər olduqda) valyuta mövqeyi arasında fərq qoyulur. Valyuta riski bir bankda açıq valyuta mövqeyi ilə əlaqələndirilir. Öhdəliklər tələbləri üstələyirsə, valyuta mövqeyi qısa hesab olunur; satın alınan valyutaya olan tələblər onun satış öhdəliklərini aşarsa, uzun bir valyuta mövqeyi yaranır.[5,s.118]

Əməliyyat növləri üzrə mövqelərini hesablayarkən nəzərə almaq lazımdır ki, bank təcili, opsion əməliyyatları müxtəlif vaxtlarda və fərqli dərəcələrdə həyata keçirə bilər. Uzun bir valyuta mövqeyinə sahib olan bank, alıcıları cəlb etmək üçün müvafiq valyutanın kotirovkasını azaldır, qısa bir şərtlə valyutanı cəlb etmək dərəcəsini artıra bilər. Valyuta mövqeyinin bağlanmasının mümkün nəticəsini qiymətləndirmək üçün uzun və qısa valyuta mövqeləri milli və ya xarici valyutaya çevrilir. İş gününün sonuna banklar açıq valyuta mövqelərini bağlayır.

Faiz dərəcəsi riskini ölçməyin ən asan yolu, aktiv və öhdəliklər arasındakı boşluğu ödəmə müddətinə təyin etməkdir. Metodun mahiyyəti, faiz dərəcələrinin dəyişməsinə həssas olan bankın aktiv və öhdəliklərinin vaxt intervalları, ödəmə və ya yenidən qiymətləndirmə ilə qruplaşdırılmasıdır.

Göstəricinin mənfi dəyəri araşdırılan dövrdə bankın faiz dərəcəsinə həssas olan aktivlərdən daha çox öhdəliklərə sahib olduğunu göstərir. Bütün faiz dərəcələri eyni vaxtda eyni miqdarda artırılarsa, faiz ödəməsinin dəyəri faiz gəlirindən daha çox artacaqdır. Xalis faiz gəlirləri azalır. Faiz dərəcələri aşağı düşərsə, faiz xərclərinin azalması faiz gəlirlərinin azalmasını üstələyir, bunun nəticəsində xalis faiz gəlirləri artır.

Göstərici müsbət olarsa, bank öhdəliklərdən daha həssas aktivlərə malikdir. Bu vəziyyətdə faiz dərəcələrinin artması ilə xalis faiz gəlirləri artır və azalma ilə azalır.Yəni düz mütənasib asılılıq var.[4,s.128]

Gəlirdə gözlənilən dəyişiklik, əgər göstərilən müddət ərzində dərəcələr gözlənilən səviyyəyə çatmış sahəyata keçiriləcəkdir.

Faiz dərəcəsi riskini hərtərəfli qiymətləndirmək üçün faiz marjası hesablanır. Faiz marjası alınan faizlə ödənilən faiz arasındakı fərqdir. Faiz marjası nisbəti həqiqi səviyyəsini göstərir .

Likvidlik riskini qiymətləndirmək üçün müxtəlif üsullar mövcuddur: bir bankın likvidlik mövqeyini müəyyənləşdirmək; aktivlərin, aktivlərin və öhdəliklərin, öhdəliklərin birlikdə idarə edilməsi (struktur likvidliyi); likvidlik göstəriciləri metodu. Banklar, bir qayda olaraq, likvidlik risklərini idarəetmə fəaliyyətlərində müxtəlif metodlardan istifadə edirlər. Likvidlik riskinin idarə edilməsi, nəzarət mexanizminin qurulmasını və likvidliyin azlığını və ya artıqlığının qarşısını alan, həqiqi göstəricilərin normativlərdən kənara çıxmaları aradan qaldıran qərarların qəbul edilməsini təmin edir.

Likvidlik riskinin qiymətləndirilməsi sistemi üç əsas aspektə malikdir: xalis yenidən maliyyələşdirmə, bazarlara çıxış və fövqəladə halların planlaşdırılması tələblərinin idarə edilməsi.

Xalis yenidən maliyyələşdirmə tələblərinin təhlili ödəmə müddətinin yaradılması və müəyyən tarixlərdə vəsaitlərin artıq və ya çatışmazlığının müəyyənləşdirilməsini əhatə edir.

Banklar nəğd pul axını gözlənildiyi zaman yalnız müqavilə şərtlərinə diqqət yetirməli, həm də gözlənilən pul vəsaitlərinin axını mütəmadi olaraq qiymətləndirməlidirlər.

İkinci seçim, bank öhdəliklərinin əhəmiyyətli bir hissəsi uzadıla və ya dəyişdirilə bilmədiyi, nəticədə bank balansının azaldığı böhran vəziyyətində bankın likvidliyini nəzərə alır.

Üçüncü seçim, bütün bank sisteminin likvidliyinə təsir göstərildiyi zaman ümumi bazar böhranlarına aiddir. Daimi bir likvidlik çatışmazlığının gözlənildiyi və ya bankın öhdəliklərinin uzadıl-

ması və ya dəyişdirilməsi ilə əlaqədar çətinliklərdən istifadə etməyə başladığı bir anda böhran vəziyyətində likvidliyi proqnozlaşdırmaq lazımdır.

Beləliklə, risklərin qiymətləndirilməsi bank risklərinin effektiv idarə olunması üçün əsasdır. Bankın etibarlılığı və fəaliyyətinin maliyyə nəticəsi də risklərin keyfiyyətli qiymətləndirilməsindən asılıdır. Riskin qiymətləndirilməsinə ehtiyac odur ki, bu, bankın aktiv və passiv əməliyyatları nəticəsində mümkün zərərlərin yaranma ehtimalını müəyyənləşdirməyə köməkedir.

Risklərin idarə edilməsində məqsəd, bankın maliyyə itkilərini azaltmaq və müvafiq olaraq bankın etibarlılığının müvafiq səviyyəsini təmin etməklə gəlirliliyi artırmaqdır.

Passiv əməliyyatlardan istifadə edərək, bank aktiv bank əməliyyatları üçün ehtiyatlarını tənzimləyir. Bankın əsas passiv əməliyyatı əmanətlər və depozitlər cəlb etməkdir. Passiv əməliyyatların riskləri aktiv əməliyyatları resurslarla təmin etməkdə mümkün çətinliklərlə əlaqələndirilir. Çox vaxt bu risk müəyyən bir investorun fəaliyyəti ilə əlaqələndirilir. Depozit riskinin qarşısını almaq üçün banklar passiv və aktiv depozit əməliyyatları arasında optimal nisbətə riayət etməlidirlər.[2,s.125]

Aktiv əməliyyatlar üçün risklərin idarə edilməsi kredit, valyuta, faiz dərəcəsi riskləri, likvidlik riski və digərlərini idarə etməyi əhatə edir.

Kredit risklərinin idarə edilməsi siyasəti çox müxtəlifdir. Lakin xüsusi kredit riskinin idarə edilməsi tədbirləri adətən üç növ direktivləri əhatə edəcəkdir.

Birinci növ, kredit risklərinin məhdudlaşdırılmasına və ya azaldılmasına yönəldilən təlimatlardır. İdarəetmənin bu üsulu bir borcalana verilmiş kreditin həcmində limitin qoyulmasını nəzərdə tutur. Bank Nəzarəti üzrə Bazel Komitəsi bu həddin maksimum dəyərinin 25% -ə bərabər olmasını tövsiyəedir.[1,s.165]

İkinci növə aktivlərin təsnifatı qaydaları daxildir. Buraya kredit portfelinin, o cümlədən hesablanmış və ödənilməmiş faizlərin bankın kredit riskinə məruz qalma ehtimalının təhlili daxildir. Aktiv təsnifatı əsas risk idarəetmə vasitəsidir.

Üçüncü növə kredit ehtiyat təlimatları daxildir. Aktivlərin təsnifatı mümkün kredit itkiləri üçün ehtiyatların adekvat səviyyəsini müəyyən etmək üçün əsasdır. Müvafiq ehtiyatların həcmini müəyyən etmək üçün kredit tarixçəsini, girovu və kredit portfelinin geri qaytarılma ehtimalına təsir göstərən bütün digər vacib amilləri nəzərə almaq lazımdır.

Məsələn,Valyuta mövqeyini hesablayarkən valyuta riskini məhdudlaşdırmaq üçün Rusiya Federasiyasının Mərkəzi Bankı banklar üçün açıq valyuta mövqeyinə məhdudiyyətlər qoyur. Bütün uzun (qısa) açıq mövqelərin ümumi dəyəri bankın öz vəsaitinin 20% -dən çox olmamalıdır. Müəyyən xarici valyutalarda və qiymətli metallarda istənilən uzun (qısa) açıq valyuta mövqeyi, həmçinin rubldakı balans mövqeyi bankın öz vəsaitlərinin 10% -dən çox olmamalıdır.[3,s.109]

Fəal əməliyyatların başqa bir riski maraqdır. Faiz dərəcəsi riskinin idarə edilməsi həm bir bankın aktivlərinin, həm də öhdəliklərinin idarə edilməsini əhatə edir. Bu idarəetmənin xüsusiyyəti məhdud olmasıdır. Bir tərəfdən likvidlik və kredit riski, digər tərəfdən digər bankların qiymət rəqabəti.

Bazarda faiz dərəcələri səviyyəsində dəyişikliklər bankın gəlirliliyini azalda və kapitalın azalmasına səbəb ola bilər. Riskləri azaltmaq üçün banklar yerləşdirilən vəsaitlər üzrə faiz dərəcəsinə bir risk mükafatı və ya sığorta faizini daxil edir.

ƏDƏBİYYAT

1. Лаврушин О. И.. Банковская система в современной экономике: учебное пособие. — 2. — М.: Кнорус, 2016. — 360 с.
2. Обзор развития банковского сектора 2015 г. // Официальный сайт Банка России. URL: http://www.cbr.ru/analytics/Default.aspx?Prtid=bnksyst (дата обращения: 11.08.2016).
3. Рыбин Е. В., Василенко Н. А.. Банки развития международный опыт и перспективы развития // Деньги и кредит. — 2012. — № 2. — С. 18–21.
4. С.Донец, А.Пономаренко. Индикаторы долговой нагрузки // Банк России, Серия докладов об экономических исследованиях, №5, 2015
5. Кузнецов Б. Т. Экономика и финансовое обеспечение инновационной деятельности. М. ЮНИТИ-ДАНА, 2012 г.
6. http://www.maliyye.gov.az
7. www.economy.gov.az
8. www.stat.gov.az

BÖLMƏ III

İDARƏETMƏ MƏDƏNİYYƏTİ VƏ İDARƏETMƏYƏ İNNOVATİV YANAŞMA

Sabir QULUZADƏ
Azərbaycan turizm və Menecment Universiteti,
dekan müavini
sa.quluzade066@gmail.com

Azərbaycanın süd məhsulları üzrə xarici ticarətinin müasir vəziyyəti

Современное состояние внешней торговли молочными продуктами в Азербайджане

The current state of foreign trade in dairy products in Azerbaijan

Xülasə: Məqalədə, müəllif göstərir ki, istehsalın artım tempinin azalmasına təsir edən mühüm amillərdən biri, sözsüz ki, xarici valyutalarda götürülmüş kreditlərin həcminin yüksək olması idi. Həqiqətən, devalvasiyadan əvvəlki uzun illər ərzində neftin dünya qiymətinin yüksəlməsi və Azərbaycan neftinin istehsalının davamlı olaraq artması dolların məzənnəsinin azalma meylinə səbəb olmuşdur (qeyd edək ki, həmin illərdə dolların məzənnəsinin stabil səviyyədə saxlanılması Azərbaycan Mərkəzi Bankı üçün çox çətin bir vəzifə idi və buna böyük səylər nəticəsində nail olunurdu). Dolların məzənnəsinin, cüzi də olsa, azalması və ya ən azından stabil olması dollarla kreditlərin əlverişliliyi fikri yaratmışdı ki, kəskin devalvasiya əksəriyyəti şirkətlər olan bu kreditlərin sahiblərini şok vəziyyətinə salmışdı.

Bu isə o deməkdir ki, qeyri-neft məhsullarının ixrac həcmi bir ildə iki dəfə azalmışdır. Hətta bütün 2016-cı il boyunca əvvəlki dövrlərlə müqayisədə azalma meyli saxlanmışdır. Milli valyutanın iki dəfədən artıq devalvasiyası və qeyri-neft sektorunda istehsalın artması fonunda bu sektorun ixracının artmaq əvəzinə belə kəskin azalması xüsusi izah tələb edir.

Açar sözlər: devalvasiya, qeyri-neft sektoru, milli valyuta, istehsal, xarici ticarət.

Резюме: В статье, автор указывает, что одним из важных факторов, влияющих на замедление роста производства, был, конечно же, высокий объем валютных кредитов. Действительно, рост мировых цен на нефть за годы, предшествовавшие девальвации, и устойчивый рост производства азербайджанской нефти привели к падению доллара США (обратите внимание, что поддержание курса доллара в то время было сложной задачей для Центрального банка Азербайджана). Падение доллара, хотя и незначительное для стабилизации иностранной валюты привело к более благоприятной обстановке и потрясло владельцев займов, большинство из которых - компании.

Таким образом, это означало, что объем ненефтяного экспорта уменьшался в тот период времени. Даже в течение 2016 года наблюдалась тенденция к снижению по сравнению с предыдущими периодами. Поэтому, двукратная девальвация национальной валюты и рост производства нуждается в особом объяснении, который отразился на увеличении экспорта в ненефтяном секторе.

Ключевые слова: девальвация, ненефтяной сектор, национальная валюта, производство, внешняя торговля.


Abstract: In the article, the author points out that one of the important factors affecting the slowdown in production growth was, of course, the high volume of foreign currency loans. Indeed, the increase in world oil prices over the years preceding the devaluation and the steady increase in the production of Azerbaijani oil led to a drop in the US dollar (note that maintaining the dollar at that time was a difficult task for the Central Bank of Azerbaijan). The fall of the dollar, although insignificant to stabilize the dollar, which made the idea of dollar loans more favorable and shocked the owners of these loans, most of which are companies. Thus, this meant that non-oil exports were declining at that time. Even during 2016, there was a downward trend compared to previous periods. Therefore, against the background of more than two-fold devaluation of the national currency and growth in production, it needs a special explanation, which was reflected in increased exports in the non-oil sector.

Keywords: devaluation, non-oil sector, national currency, production, foreign trade.

Tədqiqatımızın əvvəlindən bizim yanaşmamız ondan ibarət olmuşdur ki, Azərbaycanın emal şirkətlərində valyuta risklərinin idarə olunması məsələsini mikrosəviyyədə - konkret bir müəssisənin timsalında bilavasitə araşdırılması və əldə olunan nəticələrin ümumiləşdirilməsi məqsədəmüvafiqdir. Lakin təəssüf ki, bu araşdırma üçün zəruri olan məlumat nə rəsmi statistikada mövcuddur, nə də bizim müraciət etdiyimiz bir neçə müəssisə bu informasiya bizə təqdim olunmasına razılıq verdi. Odur ki, biz dolayı üsullara müraciət etmək məcburiyyətində qaldıq – tədqiqatımızı rəsmi statistikada mövcud olan verilənlər əsasında gerçəkləşdirməli olduq. Bununla əlaqədar bir neçə məqamın zəruri olmasını hesab edirik [1].

1) Rəsmi statistikadakı məlumatların aqreqat şəklində olmasının müəssisə səviyyəsində tədqiqata imkan verməməsi bizim üçün mənfi hal olsa da, burada mühüm müsbət məqam da var. Yüksək səviyyələrdə tədqiqat ümumi trendləri müəyyənləşdirməklə ölkənin tədqiq olunan seqmentində meyillərin aşkarlanmasına imkan verir. İş burasındadır ki, bir-iki müəssisə səviyyəsində tədqiqat konkret olsa da, onlardakı meyillər təsadüfi və ya spesifik xarakterli ola bilər ki, bu ümumi qanunauyğunluqların aşkara çıxarılmasında problem yarada bilər.

2) Azərbaycanda 2015-ci ildə baş vermiş milli valyutanın iki dəfə sıçrayışlı devalvasiyasının (şəkil 1) iqtisadi böhran vəziyyəti yaratması ölkənin karbohidrogen resurslarından asılılığını əyani şəkildə sübut etdi və qeyri-neft sektorunun inkişafı məsələsini kəskin şəkildə gündəmə gətirdi. Eyni zamanda devalvasiyanın bir şirkətə deyil, ümumən emal sənayesinə təsirinin qiymətləndirilməsi, sözsüz ki, xüsusi maraq kəsb edir.




Şəkil 1. Azərbaycan manatının ABŞ dollarına nəzərən məzənnəsinin dinamikası ([108]-nın məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur)

3) Holland sindromuna xas olan əlamətlərin uzun illər boyu Azərbaycanda gerçəkləşməsi, o cümlədən emal sənayesinə mənfi təsirinin sahə səviyyəsində öyrənilməsi bütöv bir sahənin valyuta risklərinə həssaslığını qiymətləndirməyə imkan verir ki, belə bir qiymətləndirmə metodikasının işlənib hazırlanması və onun aprobasiya nümunəsi Azərbaycan üçün prioritet sahələrin seçilməsində bir alət kimi istifadə oluna bilər [2].

4) Biz valyuta məzənnəsinin kəskin sıçrayışı nəticəsində milli emal sənayesi üçün səciyyəvi olan mühüm bir problemi hədəf götürmüşük. İş burasındadır ki, məlum nəzəri fakta görə manatın devalvasiyası Azərbaycanın ixracının artmasına, idxalınınsa azalmasına səbəb olmalı idi. Lakin aşağıda göstərildiyi kimi, bu gözlənti özünü doğrultmadı. Ən mühümü isə emal sənaye məhsullarının ixracında azalmalar baş verdi. Bununla əlaqədar biz bu bölmədə bu gözlənilməz faktın səbəblərini araşdırmaq üçün "emal sənayesində idxal olunan xammalından asılılıq" hipotezini irəli sürərək, onu yoxlamağa çalışırıq.

5) Yuxarıda qeyd etdiyimiz konkretliyi təmin etmək üçün və qeyd olunan hipotezi araşdırmaq məqsədilə biz bu fəsildə tədqiqat obyekti olaraq süd emalı sənayesini seçmişik və bu sahə üçün mühüm xammal olan süd tozunun xarici ölkələrdən idxal olunması faktının valyuta risklərinə təsirini araşdırırıq [3].

Beləliklə, 2015-ci il fevralın 21-də dolların məzənnəsinin 34,6% artımından sonra emal sənayesində yanvar-iyun aylarında istehsalın artım tempi gözlənildiyi kimi yanvar-mart aylarındakı 4%-lə müqayisədə 4,5dəfə artaraq 18-19% təşkil etmişdir (şəkil 2). Lakin sonrakı dinamika bunun bu göstərici üçün maksimal həddi olduğunu aşkarlayır – sonrakı dövrlərdə istehsalın artım tempi sürətlə azalaraq 2016-cı ilin avqust ayında 2015-ci ilin yanvar-mart göstəricisindən də aşağı düşərək sıfıra yaxınlaşmışdır.




Şəkil 2. Emal sənayesində illik artım tempi və emal sənayesinə verilmiş kreditlər ([107] və [110]-in məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur)

Bu fenomeni dərk etmək zəruridir.

1. Əvvəla, qeyd olunması zəruridir ki, sıfır həddinə düşən istehsal deyil, istehsalın artım tempidir və bu, əslində təbii hal ola bilər – bu hal iqtisadi nəzəriyyədə verimliyin azalması qanunu (law of diminishing marginal returns) [39] kimi məlumdur. Başqa sözlə, bunu verimliyin doyması kimi adlandırmaq olar ki, bunun da məğzi ondan ibarətdir ki, hər əlavə qoyulan investisiyanın verimliliyi get-gedə azalır. Makrosəviyyədə bu qanunun ən gözəl təzahürü müxtəlif inkişaf səviyyələrinə malik olan ölkələrdə ÜDM-in (yada salaq ki, ÜDM məhz ölkədəki istehsal səviyyəsini əks etdirən aqreqat göstəricidir ki, bu da mikrosəviyyədə müəssisələrin istehsalının məcmusudur) artım tempinin müxtəlif olmasıdır. Həqiqətən, adambaşına ÜDM-də yüksək səviyyələrə çatmış inkişaf etmiş Şimali Amerika, Avropa və Yaponiya kimi ölkələrdə ÜDM-in artım tempi 2-4% səviyyəsində olduğu halda, Çin, Hindistan, Türkiyə, Braziliya və digər sürətli iqtisadi artım ölkələrində bu göstərici bəzi hallarda ikirəqəmli həddə çatır [6]. Beləliklə, yuxarıda şərh olunan Azərbaycanın emal sənayesində istehsalın tempinin azalması ilk baxışdan narahatlıq doğurmayan təbii hal kimi, hətta ölkəmizin doyma həddinə çatma halı kimi dəyərləndirilə bilər. Lakin aşağıda aparacağımız təhlil bu qənaətin səhv və eyni zamanda təhlükəli olmasına dəlalət edir.


2. İkincisi. İstehsalın artım tempinin azalmasına təsir edən mühüm amillərdən biri, sözsüz ki, xarici valyutalarda götürülmüş kreditlərin həcminin yüksək olması idi. Həqiqətən, devalvasiyadan əvvəlki uzun illər ərzində neftin dünya qiymətinin yüksəlməsi və Azərbaycan neftinin istehsalının davamlı olaraq artması dolların məzənnəsinin azalma meylinə səbəb olmuşdur (qeyd edək ki, həmin illərdə dolların məzənnəsinin stabil səviyyədə saxlanılması Azərbaycan Mərkəzi Bankı üçün çox çətin bir vəzifə idi və buna böyük səylər nəticəsində nail olunurdu). Dolların məzənnəsinin, cüzi də olsa, azalması və ya ən azından stabil olması dollarla kreditlərin əlverişliliyi fikri yaratmışdı ki, kəskin devalvasiya əksəriyyəti şirkətlər olan bu kreditlərin sahiblərini şok vəziyyətinə salmışdı. Nəticədə devalvasiyadan sonra hətta manat üzrə kreditlərin faiz dərəcələrinin azalmasına rəğmən firmalara verilmiş kreditlər artmaq əvəzinə azalmışdır (şəkil 3). Qeyd edək ki, burada söhbət kredit-

lərin artım tempindən deyil, məhz onların həcmindən gedir ki, bunun da azalması biznes aktivliyinin azalması, yəni iqtisadi böhran elementi kimi dəyərləndirilə bilər.



Şəkil 3. Firmalara verilmiş kreditlər və manat kreditləri üzrə faiz dərəcəsi ([1]-nin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur)

3. Alacağımız nəticələri daha dolğun əsaslandırmaq üçün həmin periodda ixraca da nəzər salaq. Şəkil 3.4-dən göründüyü kimi 2015-ci ilin fevralındakı ilk devalvasiyadan sonra qeyri-neft sektorunun ixracının artım tempi sürətlə azalaraq, 2016-cı ilin yanvarında 2015-ci ilin yanvarı ilə müqayisədə -50%-ə çatmışdır.



Şəkil 3.4. Qeyri-neft məhsullarının ixracı və emal sənayesinə verilmiş kreditlər, dövrün sonuna ([110]-in məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur)

Bu isə o deməkdir ki, qeyri-neft məhsullarının ixrac həcmi bir ildə iki dəfə azalmışdır. Hətta bütün 2016-cı il boyunca əvvəlki dövrlərlə müqayisədə azalma meyli saxlanmışdır. Milli valyutanın iki dəfədən artıq devalvasiyası və qeyri-neft sektorunda istehsalın artması fonunda bu sektorun ixracının artmaq əvəzinə belə kəskin azalması xüsusi izah tələb edir.

Tədqiqatımızın bu hissəsində biz əvvəlki bölmələrdə araşdırdığımız valyuta riskləri üzrə nəzəri ümumiləşdirmələr (I fəsil), digər ölkələrin təcrübəsi (II fəsil) və Azərbaycan emal sənayesinin

problemlərinə əsaslanaraq, valyuta məzənnəsindəki dəyişmələrin emal müəssisələrinin təsərrüfat-maliyyə göstəricilərinə təsirinin kəmiyyət qiymətləndirməsi üçün metodika təklif edirik. Metodikanın vacib tərkib hissəsi araşdırılan problemin iqtisadi-riyazi modelidir. Qeyd edək ki, modelə daxil edilən parametrlərin metodika çərçivəsində hər bir ayrıca götürülmüş müəssisə üçün müəyyənləşdirilməsi üsulları da təklif olunur ki, bu da metodikanın tətbiqi imkanlarını konkretləşdirir.

Modeli təsvir etməzdən əvvəl aşağıdakı sadələşdirici fərziyyələr irəli sürək.

- Əvvəla, sadəlik üçün fərz edək ki, müəssisə yalnız bir növ məhsul istehsal edir.
- İstehsalın təmin olunması üçün müəssisə xaricdən bir növ xammal idxal edir və onu ABŞ dolları ilə alır.
- İdxal və ixracda logistika xərcləri nəzərə alınmır [7].

Qeyd edək ki, model daha çox məhsul və xammal üçün də asanlıqla təsvirini oluna bilər. Sadəcə bir məhsul və bir xammal modelin mahiyyətinə təsir göstərməməklə onun qavranmasını asanlaşdırır.

ƏDƏBİYYAT

1. "Banklarda risklərin idarə olunması haqqında" Qaydalar. - AR Milli Bankı. Bakı, 2009
2. Əlirzayeva T. İnkişaf edən ölkələrdə məzənnə rejimləri və Azərbaycan təcrübəsi. // Mərkəzi Bank və İqtisadiyyat jurnalı, 2013, N2, s. 45-61
3. Əlıyev N., Qasımov A., Adıgözəlov Ş. İdxal və ixracın tələb və məzənnə elastikliyi. Mərkəzi Bank və İqtisadiyyat jurnalı, 2014, N2
4. Həsənov T. Məzənnə riskinin hesablanması: Riskə Məruz Dəyər yanaşması. // Mərkəzi Bank və İqtisadiyyat jurnalı, 2013, N2, s. 114-129
5. Kərimov X. Manatın məzənnəsinin inflyasiyaya ötürücülük qabiliyyəti. // Mərkəzi Bank və İqtisadiyyat jurnalı, 2013, N1, s. 119-132
6. Qasımov A., Kərimov X. Mübadilə məzənnəsinin real sektorun sahələrinə təsiri. // Mərkəzi Bank və İqtisadiyyat jurnalı, 2013, N1, s. 133-143
7. Rahimov V., Jafarova N. The exchange rate pass-through to CPI inflation and its components in Azerbaijan. – CB of Azerbaijan Republic. Working paper series №01/2017
8. Rahimov V., Jafarova N., Ganbarov F. Exchange rate pass-through to CPI and its components in oil exporting CIS countries. - The Graduate Institute of International Studies. IHEID WP 06-2017
9. Zülfüqarov A., Yusıfzadə İ., Məmmədova A. Məzənnə rıskının rıskə məruz dəyər əsasında ölçülməsi. // Mərkəzi Bank və İqtisadiyyat jurnalı, 2014, N1.

İsmayıl MURADOV
Azərbaycan Turizm və Menecment Universiteti,
doktorant
ismayil.muradov.1993@mail.ru

Qloballaşma prosesinin dövlət idarəetmə orqanlarına təsiri

İnfluence of globalization on public administration bodies

Влияние глобализации на органы государственного управления

Xülasə*:* Hal-hazırki dövrdə elə vəziyyət yaranmışdır ki, qloballaşma prosesi ayrı-ayrı ölkələri bir-birindən qarşılıqlı şəkildə asılı edir və dövlət bu prosesin təbii gedişinə əngəl törətməməlidir. Müasir dövrdə dövlət qlobal problemlərin həllini reallaşdıran institut olmalıdır. Aydındır ki, qlobal problemlərin həllində beynəlxalq, dövlətlərarası və dövləti məsələlərdə vətəndaş cəmiyyətinin iştirakı həlledici əhəmiyyət kəsb edir. Ümumiyyətlə, qlobal problemlərin həllində aktiv fəaliyyət göstərmək, ixtisaslaşdırılmış institutlarla əməkdaşlıq postindustrial cəmiyyətdə dövlətin mühüm funksiyalarından birinə çevrilmişdir Hal-hazırda informasiya əsrinin, eləcə də, qloballaşmanın tələblərinə uyğun olaraq siyasi institutların və dövlət idarəçiliyinin transformasiyası tendensiyaları müşahidə olunur. Qloballaşma prosesinin dərinləşməsi kontekstində milli hökumətlər dövlət idarəçiliyində baş verən dəyişikliklərə münasibət bildirməklə beynəlxalq əməkdaşlığın, hökumətlər və vətəndaşlar arasında əlaqələrin lazımi səviyyədə qurulmasını təmin etməyə çalışırlar. Qloballaşma – XX və XXI əsrin sərhəddində beynəlxalq münasibətlərin inkişafının ən mühüm xüsusiyyətidir. Bu prosesə qeyri-ixtiyari olaraq təkcə dövlətlər deyil, ayrı-ayrı beynəlxalq hökumət və qeyri-hökumət təşkilatları, beynəlxalq maliyyə qurumları, transmilli korporasiyalar, ictimai birliklər qoşulur. Qloballaşma şəraitində

milli maneələr tədricən aradan qalxmağa başladı. Bu isə müsbət nəticələri ilə birlikdə neqativ halların yaranmasına və bir sıra narazılıqlara səbəb oldu. Antiqlobalist hərəkatları bu narazılıqların əsas göstərici və son həddi oldu. Bəzi ölkələrin qloballaşmanın mənfi nəticələrinin qarşısını almaq üçün qapalı siyasət yeritməyə çalışırlar. Lakin bu heç də problemdən çıxış yolu deyil. Qloballaşmanın mənfi nəticələrinin qarşısı yalnız dərin və düşünülmüş, milli maraqların prioritet olduğu iqtisadi, siyasi, mədəni və digər sahədə regional və beynəlxalq inteqrasiya ilə mümkündür. Bu gün müasir dünyada antiqloballaşma qloballaşmanın özü qədər tanınmış və izlənilən tendensiyadır. Maraqlı haldır ki, dünyadakı qloballaşma əleyhinə olan hərəkat və nümayişlər qloballaşmadan əziyyət çəkən ölkələrdə yox,məhz qloballaşmanın "yaradıcıları" – onu idarə edən və faydalanan qərb dövlətləri və ABŞ-da baş verir. Görünür, Qərb, qloballaşma prosesi kimi antiqloballaşma proseslərini də öz nəzarətində saxlayır. Bundan əlavə, bu cür layihələrin maliyyələşməsinə nəzər saldıqda onların nə dərəcədə səmimi və həqiqi məqsədə xidmət etmələri şübhə altına düşür. Etiraz aksiyaları zamanı kəskin toqquşmalar, insan tələfatı baş verir, şəxsi mülkiyyətə ziyan vurulur, lakin heç bir səmərəli nəticə əldə edilmir. Aydındır ki, dünya sürətlə dəyişir. Bu dəyişikliklər yeni eranın aparıcı tendensiyasıdır. Nəticədə biz özümüz dəyişirik, bütövlükdə cəmiyyət dəyişir. Amma bəşəriyyəti gələcəkdə nələr gözlədiyini hətta ən böyük zəka sahibləri də qabaqcadan xəbər verə bilmirlər. Müasir dövlətlərin rolunun möhkəmlənməsi, daxili və xarici siyasətdə onların funksiyalarının güclənməsi tendensiyası məhz gələcəyin bəlli olmaması ilə müəyyən edilir. Bu, həm də bəşəriyyəti ümumdünya xaosuna düçar etməmək üçün lazımdır. Son zamanlar getdikcə daha çox elm adamları təsdiqləyərək bu qənaətə gəlməyə başlayıblar ki, bir sosial qurum kimi, dövlətin rolu və əhəmiyyəti artacaq, gələcək planetar inkişaf mövcud dövlət qurumları çərçivəsində baş verəcək.

Açar sözlər: Qloballaşma, müstəqillik, idarəetmə, dövlət qulluğu, elektron hökumət, ictimayyətlə əlaqələr (PR).

Резюме: В настоящее время ситуация такова, что процесс глобализации делает определенные страны взаимозависимыми друг от друга, и государство не должно вмешиваться в естественный ход этого процесса. В наше время государство должно стать институтом, реализующим решение глобальных проблем. Очевидно, что участие гражданского общества в международных, межгосударственных и государственных вопросах имеет решающее значение для решения глобальных проблем. В целом, активное участие в решении глобальных проблем, сотрудничество со специализированными институтами стало одной из важных функций государства в постиндустриальном обществе.

В настоящее время наблюдается тенденция к трансформации политических институтов и государственного управления в соответствии с требованиями информационной эпохи и глобализации. В контексте углубления процесса глобализации национальные правительства реагируют на изменения в государственном управлении, стремясь обеспечить надлежащее установление международного сотрудничества между правительствами и гражданами. Глобализация - важнейшая особенность развития международных отношений на рубеже XX и XXI веков. В этом процессе участвуют не только государства, но и различные международные правительства и неправительственные организации, международные финансовые институты, транснациональные корпорации и общественные объединения. В условиях глобализации национальные барьеры постепенно начали исчезать. Это, наряду с положительными эффектами, привело к негативным последствиям и ряду недовольства. Антиглобалистские движения были основным и конечным пределом этого недовольства.

Некоторые страны пытаются проводить закрытую политику, чтобы предотвратить негативные последствия глобализации. Но это не выход из проблемы. Негативные последствия глобализации возможны только благодаря глубокой и вдумчивой региональной и международной интеграции в экономической, политической, культурной и других областях, где национальные интересы являются приоритетными. В современном мире антиглобализация является хорошо известной и отслеживаемой тенденцией самой глобализации. Примечательно, что антиглобалистские движения и демонстрации в мире происходят не в странах, страдающих от глобализации, а в западных штатах и США, которые являются «создателями» глобализации. Очевидно, что Запад также контролирует антиглобалистские процессы, такие как процесс глобализации. Кроме того, при рассмотрении вопроса о финансировании таких проектов сомнительно, насколько подлинными и подлинными они будут служить. Протестующие были замешаны в насильственных столкновениях, человеческих жертвах и повреждении личного имущества, но никаких эффективных результатов не поступало.

Очевидно, мир быстро меняется. Эти изменения являются ведущей тенденцией в новую эру. В результате мы меняем себя, и общество в целом меняется. Но даже величайшие умы не могут предсказать, что человечество ожидает в будущем. Тенденция современных государств усиливать свои функции во внутренней и внешней политике определяется неопределенностью будущего. Это также необходимо для предотвращения попадания мира в хаос мира. В последнее время все больше и боль-

ше ученых приходят к выводу, что как социальный институт роль и значение государства будут возрастать, и что будущее планетарное развитие будет происходить в рамках существующих государственных институтов.

Ключевые слова: Глобализация, Независимость, Управление, Государственная служба, Электронное правительство, Связи с общественностью (PR).

Abstract: At present, the situation is that the process of globalization makes certain countries mutually dependent on each other, and the state should not interfere with the natural course of the process. In modern times, the state must become an institution that realizes the solution of global problems. Obviously, the participation of civil society in international, interstate and state issues is crucial in addressing global challenges. In general, active participation in addressing global challenges, cooperation with specialized institutions has become one of the important functions of the state in the post-industrial society. At present, there is a tendency for transformation of political institutions and public administration in accordance with the requirements of the information age and globalization. In the context of deepening the globalization process, national governments respond to the changes in public administration, striving to ensure that international cooperation is properly established between governments and citizens. Globalization is the most important feature of the development of international relations at the border of the 20th and 21st centuries. Not only states, but also various international governments and non-governmental organizations, international financial institutions, transnational corporations and public associations are involved in this process. In the context of globalization, national barriers gradually began to disappear. This, along with the positive effects, has led to negative consequences and a number of discontent. Anti-globalist movements have been the main and the ultimate limit of these discontent. Some countries are trying to implement a closed policy to prevent the negative consequences of globalization. But this is not the way out of the problem. The negative consequences of globalization are only possible through deep and thoughtful regional and international integration in economic, political, cultural and other areas where national interests are a priority. In today's world, anti-globalization is a well-known and tracked trend of globalization itself. It is noteworthy that anti-globalization movements and demonstrations in the world occur not in the countries suffering from globalization, but in the western states and the US, which are the "creators" of globalization. Apparently, the West is also in control of anti-globalization processes, such as the process of globalization. In addition, when looking at the financing of such projects, it is doubtful how genuine and genuine they will serve. Protesters have been involved in violent clashes, human casualties, and personal property damage, but no effective results have been reported. Obviously, the world is changing rapidly. These changes are a leading trend in the new era. As a result, we change ourselves, and society as a whole changes. But even the greatest minds are not able to predict what mankind will expect in the future. The tendency of the modern states to strengthen their functions in domestic and foreign policy is determined by the uncertainty of the future. This is also necessary to prevent the world from falling into the chaos of the world. Recently, more and more scientists have come to the conclusion that as a social institution, the role and importance of the state will increase, and that future planetary development will take place within the framework of existing state institutions.

Key words: Globalization, Independence, Governance, Public Service, e-Government, Public Relations (PR).

Qloballaşmaya müxtəlif aspektlərdən yanaşıldığı üçün çox müxtəlif qiymətləndirilən və demək olar ki, bütün anlayışlarla əlaqəsi qurulan bir termindir. Qloballaşma tərifi üzərində bir razılaşma olmadığı kimi, qloballaşmanın mahiyyəti, əhatə dairəsi və hətta mövcud olub olmadığı haqqında çox geniş fikir ayrılıqları mövcuddur. Qloballaşma, hər kəsin fərqli məna yüklədiyi bir anlayış halına gəlmiş, beləliklə qloballaşmanı iqtisadi və sosial problemlərin səbəbi, nəticəsi və ya həll yolu kimi görən bir çox münasibət inkişaf etdirilmişdir.

Qloballaşma, ümumiyyətlə, iqtisadi tədbirlərin beynəlxalq xarakter almasını ifadə edən bir anlayış olaraq razılaşdırılmaqla birlikdə, bir fakt olaraq əslində bundan daha çox məna daşıyır və çox ölçülü bir prosesi ifadə edir [1, s.229].

Qloballaşma, hər şeydən əvvəl beynəlxalq sistemdəki sürətli hərəkətin bir məhsuludur. Hazırda beynəlxalq sistem, artıq yalnız dövlətlərdən və onların arasındakı əlaqələrdən ibarət olan bir struktur olmaqdan çıxaraq, güc və tədbirləri getdikcə artmaqda olan yeni qlobal iştirakçıları əhatə edən bir struktur bütövlüyünə çevrilir. Yeni qlobal iştirakçılar içində transmilli şirkətlər, beynəlxalq təşkilatlar və qlobal qeyri-hökumət təşkilatları kimi bəzi obyektlər ön plana çıxır.

Qloballaşmanın başlıca hərəkətverici amillərindən biri, bəlkə də ən mühümü, şübhəsiz ki texnoloji sahədəki sürətli inkişafdır. Xüsusilə telekommunikasiya və informasiya texnologiyalarındakı başdöndürücü hadisələr, qloballaşma prosesində mühüm rol oynamışdır.

Bütün bu proseslər, dünyadakı şəxs, qurum, sistem, struktur, proses və s. bütün subyektlərin qarşılıqlı təsirini qaçınılmaz etmiş və dəyişikliyi ən mühüm təşkilati vasitə halına gətirmişdir. Bu qarşılıqlı təsirdən və davamlı dəyişiklikdən dövlət sistemi və dövlətin üzvi quruluşunu təşkil edən dövlət idarəçiliyi də əhəmiyyətli ölçüdə təsirlənmişdir.

Qloballaşmanın dövlət idarəçiliyində əks olunan təsirlərindən başqa dövlət idarəetmə orqanlarına olan təsirini də qeyd etmək lazımdır. XX əsrin 2-ci yarısından başlayaraq baş verən informasiya texnologiyaları sıçrayışı və əsrin sonlarına yaxın yaradılan qlobal kompüter şəbəkəsi, internetin yaradılması insan həyatının bütün sahələrinə əhəmiyyətli dərəcədə təsir göstərməyə başladı. Başlanğıcda bu texnologiyaların sürətli inkişafı istehsalçı və istehlakçı arasında istərsə də servis təklif edən bir şirkətlə fiziki şəxslər arasında virtual bir mühitin yaranmasına təsri göstərdi. İnkişaf etmiş ölkələr hökumət ilə sadə vətəndaşların bu mühitdə əlaqə saxlamaları üçün internet üzərindən proqram təminatlarının yaradılmasına başladılar. Belə ki vətəndaşın hərhansı bir dövlət qurumuna müraciət etməsi üçün reallıqda xeyli rəsmi prosedurlara əməl olunmalı idi, bu isə öz növbəsində hər iki tərəf üçün həm maddi həmdə zaman baxımından problemlər və gecikmələr yaradırdı. Lakin yeni informasiya texnologiyalar sayəsində bu poblemlər sürətli şəkildə aradan qalxdı, şəffaflıq təmin olundu və nəticədə dünya ölkələri bu texnologiyalardan istifadə etməyə başladı.

Son illər inkişaf etmiş ölkələrdə demokratiyanı daha da inkişaf etdirən amillərdən biri "Elektron Hökumət"in (ingilis dilində e-Government) formalaşdırılması hesab edilir. Bu gün əhalinin rahatlığının təmin edilməsi və dövlət orqanlarının işinin daha səmərəli təşkili üçün elektron xidmətlərin göstərilməsi də mühüm əhəmiyyət kəsb edir.

Məhz elektron-hökumətin yaradılması dövlət idarəetmə orqanlarında əhaliyə göstərilən xidmətin daha yüksək səviyyəyə çatmasına kömək edən ən başlıca amillərdən biridir. Belə ki, elektron xidmətlər sayəsində vətəndaşlar vaxtlarına qənaət edərək birbaşa istədikləri məkandan öz işlərini həll etmək imkanına sahib oldular.

Müasir zamanın tələblərinə uyğun olaraq uğurla inkişafını davam etdirən ölkəmiz də öz dövlət idaretmə orqanlarında elektron hökumətin faydalarından yararlanmaya bilməzdi. Ölkəmizdə indiyə qədər ayrı-ayrı dövlət orqanlarında bu sahədə müxtəlif məlumat bazaları və hesablama mərkəzləri mövcud idi. Lakin 23-may tarixində Azərbaycan Respublikası Prezidentinin imzaladığı "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Sərəncamı və "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli Fərmanı ilə yeni informasiya texnologiyalarına inteqrasiyanın əsaslı təməli qoyuldu. Beləki Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi(RİTN) bu proqram çərçivəsində yeni layihələrə imza atdı. Bunlardan ictimaiyyətdə ən böyük səs-səda doğuran Elektron Hökumət Portalının və Milli Sertifikasiya Xidmətləri Mərkəzinin, E-imzanın yaradılması oldu. [5].

Dünyada əhalinin internetdən geniş istifadəsi onların dövlət qurumları qarşısında gözləntilərini artırırır. Həmçinin, dövlətlərin fiskal tələblərinin artması, eləcə də dövlətlərin qloballaşma prosesi ilə əlaqədar daha çox aktorlarla təmasa keçməsi də onların yükünü artırır. Məhz bu və digər səbəblər ucbatından dövətlər informasiya və kommunikasiya texnologiyaları (İKT) vasitələrinin verdiyi imkanlardan faydalanaraq öz ənənəvi xidmətlərini elektron mühitdə göstərməyə başlamışlar. Artıq elektron hökumət quruculuğu müasir dünyada dövlət siyasətinin əsas meyllərindən birinə çevrilmişdir.

"Elektron Hökumət" - müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsininə şərait yaradır.

Yaradılan imkanların əsas məqsədi sosial xidmət təminatında dövlət qulluqçuları və vətəndaşlar arasında olan "məsafəni" azaltmaq, həmçinin, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır. Dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi bu məqsədə çatmağın va-

sitələridir. Beynəlxalq təcrübəyə əsasən vətəndaşların dövlət orqanları ilə təmaslarının daha münasib şəkildə təşkili üçün "bir pəncərə" prinsipi əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi "Elektron Hökumət" portalı tətbiq edilir.

Ölkəmizdə "Elektron Hökumət"in formalaşdırılması beynəlxalq təcrübəyə əsaslanır və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Sərəncamı, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli Fərmanı və digər normativ hüquqi aktlarla fəaliyyəti üçün hüquqi baza yaradılmışdır[6]. Artıq elektron imzaların istifadəsi üçün Milli Sertifikasiya Xidmətləri Mərkəzi yaradılmışdır, dövlət qurumlarının informasiya sistemləri arasında informasiya mübadiləsini təmin edən infrastruktur qurulmuşdur, "Elektron Hökumət" portalı hazırlanaraq istifadəyə verilmişdir. Bütün dövlət qurumları bunlardan bəhrələnərək vətəndaşlara elektron xidmətlərin göstərilməsini təmin edə bilirlər. Məhz yeni termin olaraq həyatımıza daxil olan qloballaşmanın təsirlərindən biridir ki, elektron hökumət həm dövlət orqanları, həm də vətəndaşlar üçün çox böyük əhəmiyyət kəsb edir. "Elektron Hökumət" virtual məkanın, müasir texnologiyaların imkanlarından, dövlət orqanlarında informasiyalaşdırmanın yüksək səviyyəsindən istifadə edərək ölkə vətəndaşlarına göstərilən xidmətlərin keyfiyyətcə yeni formada təqdim edilməsinə xidmət edir.

Son illər Azərbaycanda dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər görülmüş, müvafiq hüquqi baza formalaşdırılmışdır. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilmişdir. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır, vətəndaşları dövlət xidmətlərinə yaxınlaşdırır. 2012-ci il iyulun 13-də isə bu sahədə mühüm islahata imza atılmışdır – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri yaradılmışdır. Sentyabrın 5-də Agentliyin əsasnaməsi və strukturu müəyyən olunmuşdur. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək "ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsidir. Buraya xidmət mərkəzlərini əhatə edən dövlət orqanlarının əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir.

Qloballaşmanın gətirdiyi təsirlərin nəticəsi olaraq müasir dövrdə əsas tələblərdən biri də daha əlverişli şərtlərlə dövlət idarəetmə orqanlarının xalqa xidmət etmək olduğu bəllidir. Azərbaycanda da düzgün və uğurlu siyasətin nəticəsi olaraq idarəetmə orqanlarında lazımi islahatlar həyata keçirilmişdir. Azərbaycanda 2013-cü ildən başlayaraq dövlət idarəetmə xərclərinin optimallaşdırılması və idarəetmədə struktur islahatları geniş şəkildə həyata keçirilməyə başlanılıb. Prezident İlham Əliyev son 4 ildə bir neçə nazirliyi, dövlət komitəsini və komissiyasını ləğv edib və ya birləşdirib. Bu ölkəmizdə dövlət idarəetmə orqanlarının işinin təkmilləşdirilməsinin və xidmət səviyyəsinin yüksəldilməsinin bariz nümunəsidir.

Yerli özünüidarəetmə orqanlarının da dövlət idarəetməsinin subyektlərindən biri olduğunu nəzərə alaraq qloballaşmanın yerliözünü idarəetmə orqanlarına da olan təsirindən bəhs etmək yerinə düşərdi. Yerli özünüidarəetmə orqanları qloballaşma prosesindən bu vəya digər şəkildə təsirlənirlər. Qloballaşma prosesi öz siyasi istiqaməti ilə dövlətə və onun idarəetmə sisteminə ciddi təsirlər göstərir. Bu təsirlər ictimai xidmətlərin icrası sahəsindəki səlahiyyətlərin ya fövqəldövlət təşkilatlara (beynəlxalq və regional təşkilatlar kimi) və ya yerli özünüidarəetmə orqanlarına ötürülməsini tələb edir. Hər iki halda da dövlət öz səlahiyyətlərinin bir hissəsindən vaz keçmək kimi bir məcburiyyətlə qarşı qarşıya qalır. Qloballaşma prosesinin təsiri ilə dünyada geniş vüsət almış demokratiya, insan hüquq və azadlıqları, bazar iqtisadiyyatı, liberalizm kimi anlayışlar da bu tendensiyanın artaraq davam etməsinə təkan verirlər. Bu baxımdan yerli özünüidarəetmə orqanları son dövrlərdə ictimai xidmətlərin icrası sahəsində daha aktiv rol almağa başlayıblar. Qloballaşma prosesi bu orqanların inkişafına müsbət yöndə təsir göstərir.

Qloballaşma prosesi ənənəvi idarəetmə sistemlərini, milli suverenlik və demokratiya anlayışını kökündən dəyişdirməklə milli dövlətin təşkilati quruluşunu dəyişərkən, yerli özünüidarəetmə orqanları üçün də əhəmiyyətli fürsətlər təmin etməkdədir.

Qloballaşma prosesində beynəlxalq və yerli xarakterli problemlərin qarışıq hal alması da yerli özünüidarəetmə orqanlarının fəaliyyətlərinə beynəlxalq əhəmiyyət qazandırmaqdadır. Məsələn regional problemlərin beynəlxalq xarakter qazanması ilə bərabər, eyni zamanda yerli bir problem olması yerli özünüidarəetmə orqanlarının iştirakı olmadan regional çirklənmə, ətraf mühiti qoruma, abadlaşdırma və inkişaf etdirmə prosesinə bağlı fəaliyyətlərin effektiv bir şəkildə icra edilə bilməyəcəyini ortaya qoymaqdadır. Bu prosesdə yerli özünüidarəetmə orqanları üzərindəki beynəlxalq nəzarət də təsirini daha çox hiss etdirməkdədir. Məlum olduğu kimi qloballaşma prosesi, zaman, məkan, uzaqlıq və sərhəd kimi anlayışları dəyişdirməkdə, aralarında yerli demokratiyanın da olduğu bir çox dəyərli tək bir ölkənin deyil, beynəlxalq birliyin də sahib çıxdığı dəyərlər arasında sayılmaqdadır. Bu vəziyyət, dövlətlər üzərində, beynəlxalq müqavilələr tərəfdarı olmaqdan doğan öhdəçiliklərini nə ölçüdə yerinə yetirməkdə məsul olduqlarını araşdırmaq üzrə beynəlxalq təşkilatlar tərəfindən bilavasitə bir nəzarətin tətbiq olunmasını da qaçılmaz etməkdədir. [2, s.52].

Mərkəzi idarəetmə və yerli özünüidarəetmə orqanlarının səlahiyyətləri, vəzifələri və aralarındakı əlaqələr də qloballaşma prosesindən təsirlənməkdədir. Bu prosesdə mərkəzi idarəetməyə aid bəzi səlahiyyətlər milli dövlətlər xaricində, fövqəlmilli qlobal təşkilatlar vasitəsilə müzakirə edilir. Qloballaşma dövlət suverenliyinin artıq bölünməz olmadığını və beynəlxalq orqanlarla, lokallaşma prosesindən sonra da yerli qurumlarla paylaşılmasının mümkünlüyünü müdafiə etməkdədir. Suverenlik anlayışının müstəqil dövlətdəki mərkəzi hakimiyyətə aid olduğu anlayışı get-gedə tərk edilir. Burada əsas məqsəd suverenliyin dövlətlərdən şəhərlərə və özəl birliklərə doğru yayılmasını və beləcə milli, regional və yerli suverenliklərin qlobal prosesə uyğun olmasını təmin etməkdir. Yəni milli dövlətlər bundan sonra beynəlxalq suverenlikdən istifadə edən qurumlardan götürəcəkləri əmrləri yerli səviyyədə həyata keçirməkdə səlahiyyətli olacaqlar. Ən üst səviyyədə qlobal bir siyasi mərkəz, daha sonra milli dövlət və daha altda isə yerli təşkilatların olduğu bir sistem göz önündə canlanmaqdadır. Bu yeni dünya sistemində milli dövlətlərin funksiyası bələdiyyələrin fəaliyyətlərinə, milli siyasətlər də qlobal sistemin təyin edəcəyi xidmətləri yerinə yetirən bələdiyyələrin siyasətlərinə bənzəməkdədir. Buradan belə bir nəticə çıxartmaq olar ki, milli dövlətlər qlobal siyasi mərkəzin yerli özünüidarəetmə qurumlarına çevrilmək prosesindədirlər. Milli dövlətlərə isə yalnız müəyyən bir ərazinin təhlükəsizliyini təmin etmək vəzifəsi, ya da rolu verilməkdədir. Qloballaşma prosesi mərkəzi idarəetməyə aid səlahiyyət, vəzifə, resurs və mənbələrin ilk öncə yerli özünüidarəetmə orqanalarına, daha sonra da qeyri hökumət təşkilatları sayılan vətəndaş cəmiyyəti təşkilatlarına təhvil verilməsini hədəf alır. Vətəndaş cəmiyyəti təşkilatları demokratiyanın inkişafında əhəmiyyətli yer tutmaqla birlikdə bu təşkilatları mərkəzi idarəetməyə, yerli özünüidarəetmələrə və ya dövlət bürokratiyasına alternativ olaraq görmək doğru deyil. [3]

Yerli xarakterli problemlərin qlobal olma potensialı hər zaman mövcuddur. Tam tərsinə qlobal problemlər də lokallaşa bilməkdədir. Əmək miqrasiyaları, terrorizm, narkotika qaçaqmalçılığı, etnik və dini problemlər beynəlxalq cəmiyyətin olduğu qədər milli dövlətlərin və yerli özünüidarəetmə orqanlarının da problemləri arasında yer alır. Qloballaşma ilə birlikdə beynəlxalq təşkilatlar və milli dövlətlər bu problemlərin həllində yerli özünüidarəetmə orqanları ilə əməkdaşlıq etməyə başlamışlar. Beləcə yerli özünüidarəetmələrlə mərkəzi idarəetmə, hətta qlobal təşkilatlar arasındakı əlaqələr yeni və fərqli bir görünüş qazanmışdır [4,s.164].

Hal-hazırda inkişaf etməkdə olan dünyada yerli özünüidarəetmə orqanlarına olan münasibət də tədricən dəyişməkdədir. Problemlərin böyüməsi və qlobal hala gəlməsi yerli özünüidarəetmə orqanlarının əhəmiyyətini azaltmaq əvəzinə, getdikcə artırmaqdadır.

İndiki dövrdə hər bir sahədə dəyişmə və inkişaflar gedir və buna paralel olaraq idarəetmə anlayışları da qlobal proseslərdən təsirlənərək yeni şəkil almağa yönəlirlər. Müasir idarəetmə tərzinin əsas xarakteristik xüsusiyyətləri, ya da idarəetmə prosesində modernləşmənin əsas ölçüləri təşkilat və idarəetmənin içindəki bütün idarə edənlər və idarə olunanlar arasında insana xas olan davranışların yerləşdirilməsi, hökümət ilə xalq arasında yaxşı və mülayim əlaqələrin təsis edilməsi, həm təşkilat içindən, həm də təşkilat xaricindən idarəetmədə iştirak, şəffaflıq, keyfiyyətli xidmət etmə, hədəf kütlənin istək və arzuları istiqamətində mal və xidmət istehsalı, xidmət sahələrində xidməti təqdim edilənlərin həmin xidmətləri təqdim edənlər tərəfindən maddi və mənəvi baxımdan məmnun edilməsidir.

ƏDƏBİYYAT
1. Marcuse, Peter (2000), "Küreselleşmenin Dili", (Çev: Ali Tartanoğlu), Mülkiye Dergisi, Cilt:XXV, Sayı:229.
2. Köse, Ömer "Yerel Yönetim Olgusu ve Küreselleşme Sürecindeki Yükselişi", Sayıştay Dergisi, S. 52.
3. X.Heydərov "Qloballaşma Prosesinin Yerli Özünüidarəetmə Orqanlarina Təsiri Və Azərbaycanda Yerli Özünüidarəetmənin Inkişafi", Journal Of Qafqaz University- Economics And Administration, 2013
4. Azərbaycanda Yerli Özünüidarəetmə İnkişaf Yolunda (Bakı, Adiloğlu nəşriyyatı, 2003), 164.
5. http://windows-az.com/elektron-hkumt-mvcud-vziyyt-problemlr-perspektiv-v-gzlntilr.html
6. https://www.e-gov.az/az/content/read/2

Anar İBRAHİMOV
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
magistr
ibrahimov.11.09.97@gmail.com

Mədəniyyət və təhsilin formalaşmasında idarəetmənin rolu

Роль управления в формировании культуры и образования

The role of governance in the formation of culture and education

Xülasə: Mədəniyyət və təhsil sahələrinin idarə edilməsi hər zaman öz aktuallığı ilə seçilib. Bu sahələrin hər biri özlüyündə bəşəriyyətin inkişafında əsaslı rol oynamaqdadır. Bu səbəbi rəhbər tutaraq mövcud məqalədə əsas məqsəd bu sahələrin idarə olunmasında olan bəzi problemləri işıqlandırmaqdır.
Açar sözlər: Mədəniyyət, təhsil, elm, idarə edilmə, inkişaf, problem

Резюме: Управление культурой и образованием всегда было актуальным. Каждая из этих областей играет ключевую роль в развитии человечества. В свете этой причины основная цель настоящей статьи состоит в том, чтобы осветить некоторые проблемы в управлении этими областями.
Ключевые слова: культура, образование, наука, управление, развитие, проблемы

Abstract: Management of culture and education has always been relevant. Each of these areas plays a key role in the development of mankind. In the light of this reason, the main purpose of the current article is to highlight some of the challenges in managing these areas.
Key words: Culture, Education, Science, Management, Development, Problems

Cəmiyyətinin düzgün formalaşması üçün mədəniyyət və təhsili olduqca mühim yerə malikdir. Tarix boyu bu iki amil insanların ərsəyə gətirdikləri sivilizasiyaların əsasını təşkil edib. İlkin insan icmalarının tərəqqisini genişləndirən əsas faktorlardan biri məhz onların ərsəyə gətirdikləri mədəniyyət olmuşdur. Bu ilkin mədəniyyət özündən sonra yaranacaq digər mədəniyyətlərin qurularaq, inkişaf etməsində müstəəsna əhəmiyyət daşıyır. Bu zaman ortaya belə bir sual çıxır. Bəs mədəniyyət özü nədir? Və necə idarə olunmalıdır? Müxtəlif kultroloqlar, sənətşünaslar və dilçilər mədəniyyət anlayışının mənasını bır termin olaraq fərqli şəkildə izah etməyə çalışıblar. Bu nəzəriyyələrdən belə bir nəticə ortaya çıxır ki, mədəniyyət insanların fəaliyyətlərinin və bu fəaliyyətlərdən yaranan nəticələri birləşdirən bir sahədir. Bu fəaliyyət istər tək, istərsə də qrup şəklində ola bilər. Ortaya çıxan nəticələr arasına incəsənət əsəridən başlayaraq elm-texnologiyaya aid kəşf və ixtiralara kimi hər bir nümunə daxildir. Mədəniyyətin idarə olunması onun yaranmasından daha çətin sayılır. Yaranmış mədəniyyətin təbliğ olunması və idarə olunması bu sahədə fəaliyyət göstərən təşkilat və qrumların vəzifə öhtəliklərinə daxildir. Mədəniyyətin təbliğ olunduğu əsas obyektlər arasında muzeylər, qalereyalar və tarixi memarlıq abidələri və s. daxildir. Təbii haldır ki, muzeylərin idarə olunması onların iş prinsipini müəyyən şəkildə təşkil edir. Hər hansısa mədəniyyət ocağında keçirilən bir sərginin təşkilatı işlərində olan problemlər idarə etmənin düzgün qurulmadığının göstəricisidir. Hesab olunur ki, bu sahədə olan problemlərin bəzilərini göz önünə gətirmək vacibdir. Nümunə kimi

mədəniyyət ocağında keçirilən bir sərgiyə qoyulan adla orada nümayiş olunan əsərlər arasında bir uyğunsuzluğu göstərə bilərik. Bu isə öz növbəsində sərgi təşkil olunan yerin idarəçiliyində olan boşluqların göstəricisidir. Daxili nəzarətin zəif olması bu kimi xoşagəlməz halların yaranmasına zəmin yaradır. Göstərilən irada uyğun konkret sərgi adını qeyd edə bilməsəkdə, amma, müşahidələr nəticəsində belə qərara gəlmək olar ki, son 5 ildə keçirilən sərgilərin əksərində bu kimi hal özünü biruzə verir. Bu barədə dəqiq statistika və araşdırma olmadığından real rəqəmlələ bu göstəricini deyə bilmirik. Bu isə muzeylərdə və qalereyalarda olan sərgilərə nəzarətin zəifliyi ilə əlaqədardır. Elə bu kimi halların mövcudluğu mədəniyyətin idarə olunmasında olan problemlərin göstəricisidir. Nəzarət sisteminin qurulması və bu sistemi idarə edəcək kadrların əsasən də sərgi kuratorlarının yetişdirilməsinin vacib olduğunu deyə bilərik. Digər mənfi səbəb isə reklam işinin düzgün qurulmaması ilə bağlıdır. Hər hansısa bir mövzuda sərgi keçirilirsə bu barədə qabaqcadan xəbər verilməsi və bu xəbərin daha çox insana çatmasını təmin etmək yenə də sərgi keçirilən obyektlərin idarəsində fəaliyyət göstərənlərdən aslıdır. Bu iş üçün xüsusi olaraq ictimaiyyətlə əlaqələr şövbəsin müasir dövrə bu sahənin bir qolu olan sosial media menecerlik fəaliyyətinin olduqca önəmi vardır. Düzgün təşkil olunmayan reklam işinin ağır nəticələrindən biri sərgi keçirən bir və ya bir qrup rəssamın ictimaiyyətə tanıdılmasının qarşısını alınmasıdır. Əgər sərgisi keçirilən rəssamlar gənc nəslin nümayəndəsidirsə bu zaman reklam üçün daha böyük səylə çalışılmalıdır. Təbii haldır ki, gənc rəssamın tanıdılmasında mühim rolu onlar üçün keçirilən sərgilər oynayır. İncəsənət sərgilərin əsasəndə stış sərgilərin keçirilməsinin mahiyyət etibarı ilə sənətkarların öz yaradıcılıqlarında inkişaf etmələrinə təsir göstərəcək. Bu kimi sərgilərin keçirilməsinin haqqında məlumatın daha çox rəssama çatması üçün sosial media meneceri daha fəal iştirak etməlidir. Bu barədə 2014-cü ilin 14 fevral tarixində qəbul olunan "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nda 2.4. İnformasiya təminatının təkmilləşdirilməsi maddəsinin aşağıdakı bəndlərində göstərilmişdir.

- informasiya və reklam işinin müasirləşdirilməsi, milli və xarici kütləvi informasiya vasitələrində və internet şəbəkəsində Azərbaycan mədəniyyətinin, o cümlədən incəsənətinin layiqincə təmsil olunması;

- mədəniyyət, informasiya, reklam və yayım proqramları vasitəsi ilə mədəniyyət-informasiya məkanının formalaşdırılması: (7)

Bu bəndlər özündə mədəniyyət sahəsinin düzgün idarə olunmasının hüquqi əsaslarını təmsil edir. Sərgilərin düzgün təşkil olunması ilə art menecer və art biznesin sahələri formalaşıb inkişaf etməyə başlayır. Adları çəkilən sahələrdə öz növbəsində mədəniyyətin təbliğinin idarə olunmasının bir hissəsini təşkil edir. Mövcud olan mədəniyyətin tanıdılması bu sahədə olan idarə etmənin üzərinə düşən böyük məsuliyyətin olduğunun göstərir. Hər kəsə məlumdur ki, Azərbaycan xalqının ənənəvi və milli mədəniyyətinin kökləri çox dərinə gedib çatır. Bir faktı qeyd etmək yerinə düşər ki, bir xalqın tarixi mədəniyyətini digər yerlərdə təbliğ olunmaması onun başqaları tərəfindən mənimsənilməsi ilə nəticələnə bilər. Bunun üçün isə bu yönümlü təbliğatla bağlı sərgilərin və tədbirlərin keçirilməsi çox vacibdir. Keçirilən tədbir və sərgiləırin düzgün təşkil olunması idarəçilikdə məsuliyyətin və milli ənənələrə bağlılıqla bilavasitə əlaqədardır. Əksər sərgilərlə bağlı idarəçilikdə və təşkilatçılıqda olan boşluqların göstəricilərindən digəri isə orada nümayiş olunan eksponat haqqında məlumatın qeyd olunmamasıdır. Əgər hər hansısa bir sərgi keçirilirsə orada nümayiş olunan eksponatların yanında mütləq üç dildə məlumat lövhəsi olmalıdır. Bu lövhədə əsərin adı, müəllifin adı və soyadı, əsərin ölçüsü, texnikası və matrealı qeyd olunmalıdır. Nəzərə alsaq ki, qloballaşma dövrüdür və Azərbaycana gələn turistlərin və sayı artır məhz buna görə də qeyd olunan məlumat lövhəsinin üç əsas dildə olunması o əsərin xaricdə tanınmasına xidmət edir. Son zamanlar sərgiyə gedən insanların sayının azalmasını idarəçilikdə olan bu kimi mənfi səbəblərdən irəli gəldiyini müşühidə edirik.

Ad məsələsi ümumi idarəçilikdə olan problemlər arasınadadır. Misal üçün şəhərlərdə olan heykəl nümunələrinin və tarixi binaların yanında bu əsər haqqında məlumat qeyd olunması olduqca vacibdir. Hər hansısa bir hetkəl nümunəsinin yanında onun müəllifi, ölçüsü, matrealı və tarixi üç dildə qeyd olunmalıdır. Bu şəhərə gələn qonaqlarında bu maddi-mədəniyyət nümunəsi haqqında məlumat almasına bir dəstək göstərəcək. Bəşəriyyətin inkişafını təmin edən mədəniyyət hər zaman bu inkişafı sürətləndirən təhsillə birbaşa bağlı olmuşdur. Təhsil insanların gələcəyinin düzgün for-

malaşmasını təmin edən əsas amillərdən biridir. Təhsilin düzgün idarə olunması onun effektivliyini daha da artırır. Ancaq, təəssüflər olsun ki, təhsilin idarə olunmasında qarşıya çıxan problemlər onun inkişafının qarşısını alır. İlkin olaraq bu problemlərin yaranmasından yox təhsilin necə qurulmasından başlamaq daha məqsədəuyğundur. Təhsil sisteminin ali forması olan universitetlərin yeni istiqamət alıb irəliləməsinin əsas səbəbkarlarından biri məhz alman alimi olan Aleksandr von Humboldt (1769-1859) olmuşdur. Onun elmi yeniliyi ondan ibarətdir ki, universitet məhz elmi tədqiqat mərkəzi olmalı və burada aparılan elmi araşdırmaların nəticələri tələbələrə öyrədilməlidir. Bu üsulla ali təhsilin idarə olunması onun keyfiyyətinin artması ilə nəticələnə bilər. Bundan başqa təhsilin idarə olunmasında kadr hazırlığıda əsas problemlər arasındadır. Bu idarəçilik sistemində geniş pedaqoji təcrübəyə malik şəxslərin olması daha məqsədə uyğun sayılır. Tədrisin effektiv təşkil olunmasıda idarəçiliyin öhdəliyindədir. Daha çox nəzəri dərslərlə yanaşı elmi-praktiki kursların tez-tez keçirilməsi və bu kursları keçirən mütəxəsislərlə geniş əlaqə yaradılması olduqca vacibdir.

Təhsilin idarə olunmasında daha bir problem isə pedaqoqların ixtisas profillərindən kənar tədrislə məşğul olması və ya müasir elmlərin yaşlı nəslin pedaqoqları tərəfindən tədris olunmasıdır. Misal üçün kompyüter texnologiyaları yönümlü təhsil ixtisaslarında oxuyan tələbələrə əsasən gənc və orta yaş müəllimlərin dərs keçməsi daha effektiv göstəricilərin olması ilə nəticələnər. Bu isə təhsilin idarə edən şəxslərin müasir tədris sitemindən xəbərdar olmalarını tələb edir. İstər mədəniyyət, istərsə də təhsilin idarə olunması böyük məsuliyyət tələb edir. Hər ikisi bir xalqın dünyada tanıdılması xidmətini göstərdiyindən onlar yüksək dərəcədə təşkil olunmalıdır. Mədəniyyətin formalşması və təbliği idarəçiliyin ideallaşması ilə bərabər sürətdə getməsi vacibdir. Təhsil isə öz növbəsində bir xalqın gələcəyinin inkişafını təmin etdiyi üçün onun düzgün idarə olunması olduqca vacib sayılır.

ƏDƏBİYYAT

1. Abbasov Namiq Ələkbər oğlu- Mədəniyyət siyasəti və mədəni irs: kulturoloji təhlil. Bakı.2011. 220s
2. Aslanova Rəbiyyət Nurullah qızı- XXI əsr: Yeni mədəniyyət məkanına inteqrasiya. Bakı.2007. 440s
3. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 fevral tarixli 273 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında.
4. Əhədova Sevda Ağamirzə qızı- Müasir dünyada mədəniyyətlərarası münasibətlər. Bakı.2014. 348s
5. Xəlilov Səlahəddin- Elm haqqında elm/ Bak;/2011/ 712s
6. M.Əbilov-Mədəniyyətşünaslıq: tədris və təbliğat. Mədəniyyət qəzeti 21.03.2011. s.15
7. Məmmədov Fuad Teyyub oğlu- Kulturologiya effektivli həyat və fəaliyyətə aparan yol kimi. Bakı.2008. 400s
8. Mərdanov Misir Cumayıl oğlu-Azərbaycan təhsil tarixi: I cild/ Bak;/ 2011/ 296s
9. http://www.e-qanun.az/framework/27056

Zamin QAFAROV
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
magistr
zamin.qafarov23@gmail.com

Arxivşünaslıq təhsili və onun idarə edilməsi

Архив исследования и управление им

Archıve study and ıts management

Xülasə: Arxivşünaslıq təhsili ilə bağlı məsələlər XX əsrin ortalarından etibarən müzakirə mövzusu olmuşdur. Bu məqsədlə bir sıra tədqiqatlar həyata keçirilmiş, təkliflər irəli sürülmüşdür. Təklif olunan tədris proqramlarından əlavə hər ölkə öz arxiv problemlərinə görə arxivşünaslıq təhsilini adaptasiya etməyə çalışmışdır. Problemin həlli ilə bağlı hələ də təkliflər müzakirə olunur.

Açar sözlər: arxivşünaslıq, təhsil, tədris, idarəetmə

Резюме: Вопросы, связанные с архивными исследованиями, были предметом обсуждения с середины 20-го века. С этой целью был проведен ряд исследований и были внесены предложения. В допол-

нение к предлагаемым учебным программам каждая страна стремилась адаптировать архивное образование к своим архивным проблемам. Предложения по решению проблемы все еще обсуждаются.
Ключевые слова: архивоведение, образование, преподавание, управление

Abstract: Issues related to archival studies have been the subject of discussion since the middle of the 20th century. To this end, a number of studies have been carried out and suggestions have been made. In addition to the proposed curricula, each country has sought to adapt archival studies to its archival problems. Proposals for the solution of the problem are still under discussion.
Key words: archival science, education, teaching, management

Arxivlər və arxiv sənədləri mədəni – irs kimi ölkə mədəniyyətinin və onun tarixinin önəmli bir hissəsi olmaqla yanaşı, həm də restrospektiv informasiya daşıyıcısı və gələcəyin informasiya qoruyucusudur. Azərbaycanda arxivlərin yaranması və arxivdə işləmək üçün ilk kadrların hazırlanması XX əsrin əvvəllərinə təsadüf edir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə muzeekskursun təşkili və daha sonra Nəriman Nərimanovun 1921-ci il 6 dekabr dekreti ilə Azərbaycan arxivşünaslığı öz tarixini başlatmışdır. SSRİ-nin tərkibində olarkən bir çox arxiv idarələri fəaliyyətə başlamış, müstəqillik dövründə isə arxiv və onu təşkil edən sənədlərdən istifadəni özündə ehtiva edən müxtəlif qərarlar qəbul edilmiş, qanunlar verilmişdir. Öz müstəqilliyinin gənclik çağında olan Azərbaycan arxiv sənədlərinin mühafizəsinə və onlar istifadəsinə yönəlmiş işlər görsə də, arxivşünaslıq təhsili ilə bağlı hələ ki tam təşəküllü plan hazırlanmamış və həyata keçirilməmişdir. Bu problemin qaynaqlandığı iki səbəb vardır: ilk olaraq arxivşünaslıq ali tədris ocaqlarında fənn kimi tədris olunsa da, müstəqil sahə və ixtisas kimi çox az, hətta bir neçə universitetdə mövcuddur. İkincisi arxivşünaslığın iqtisadi baxımdan gəlir gətirməyən bir sahə olmasıdır ki, gənclər bu sahəyə maraq göstərmirlər. Məhz bu səbəblərə və Azərbaycan arxivşünaslığının inkişafına görə arxivşünaslıq təhsilinə və onun idarə olunmasına yönəlmiş konseptual yanaşmalar tədqiq edilməlidir. Bu zaman ortaya belə bir sual çıxır: Arxivşünaslıq təhsili necə olmalıdır? Bu suala cavab verə bilmək üçün öncə "Arxiv" deyildiyində nə başa düşüldüyünün və arxivlərdən nə tip fayda gözlənildiyinin tərifindən asılıdır. Təxminən Birinci Dünya müharibəsinə qədər arxiv deyildiyində ağıla gələn ilk şey tarixin bir sahəsi olması idi. Bu səbəbdən, bu dövrə qədərki arxivşünaslıq təhsil proqramları da, hansı formada olursa olsun, tarix təhsilinin inkişaf etmiş bir hissəsi kimi özünü göstərirdi. Müasir arxivlərin kəmiyyətinin artması və mürəkkəbliyi ilə bağlı yaranan problemlərdən sonra bu elm sahəsi daxilində yeni və xüsusi bir peşə yaranmışdır: sənədşünaslıq. Əsrin ortalarından etibarən informasiya elmləri anlayışı kitabxanaçılıq, sənədləşmə və bütün rabitə mühitinin inkişafı ilə yavaş-yavaş öz yerini tutmağa başladı. [1, s.19]

Xidmət sahəsi olmasına baxmayaraq, yuxarıda qeyd etdiyimiz iki səbəbdən biri olan, iqtisadi marağın az olması problemi hələ də qalmaqdadır. Mikael Kuk bu problemin həlli ilə bağlı yazır: "Bütün bu inkişafların arxasındakı əsas faktor, istər ictimai istərsə də şəxsi seqmentdə, investisiya qoyuluşundan birbaşa iqtisadi fayda gözləyən inkişafın cəmiyyətin bütün təbəqələri arasında yayıldığını göstərdi. Arxivşünaslardan da artıq "mədəni irsi qoruma" yerinə iqtisadiyyata gözlə görüləcək dərəcədə xeyir vermələri gözlənilirdi. Bu səbəbdən, bu yanaşma altında olan müasir dünyada arxivşünaslar etdikləri işin haqqını vermək və xərclədikləri pulun qarşılığını ödəmək məcburiyyətindədirlər. "İnformasiya Gücdür" şüarı ilə təyin olunan informasiya dünyası içində arxivşünasların rolu artıq fəaliyyət prosesində yaradılan informasiyanı ən rasional formada saxlamaq və bu informasiyaya ən sürətli, effektiv və səmərəli əlçatmanı təmin etməkdir. Buna görə də, müasir dövrdəki hökumətlərlə arxivşünaslar arasında əvvəl mövcud olan əlaqələrin yenilənməsi lazımdır. Beləliklə, bu sahədəki investisiyaların əvəzində arxivşünaslar informasiya idarəçiləri arasında yer alaraq borclarını ödəyərlər [4, s.22].

Bu informasiyalar işığında arxivşünaslıq təhsili də yeni bir yanaşma ilə tədris edilməlidir. Bu müasir sənədlərlə paralel olaraq, gün keçdikcə artan problemlərin miqdar və müxtəlifliyində dünyanın bütün ölkələrində müəyyən bir oxşarlıq mövcud olduğundan, arxivşünaslıq təhsilində bu problemlərin həllinə yönəlmiş metod və texnikalara getdikcə daha çox önəm verilməsi lazımdır. Təhsil proqramları da tək-tək ölkələrin xüsusi ehtiyaclarına uyğun olaraq adaptasiya edilən bu metod və texnikaları əks etdirmək üçün yenidən işlənilməlidir. Daha köhnə sənədlərlə işləmək üçün, tarixi xidmət bölmələrində çalışmaq üçün peşəkar kadr hazırlığına ehtiyac nəzərə alınsa da, əslində dün-

yanın bütün ölkələrində arxiv işçilərinin müasir informasiya problemlərini həll etmək üçün lazımi məlumatlarla təchiz olunmasına ehtiyac vardır [5, s.8]. Keçən əsrdə Avropada arxivşünaslar dil və ədəbiyyat sahəsindən və ya tarixdən məzun olmuş şəxslərdən seçilirdi. Bu şəxslərin magistr və doktorluq təhsili üçün bir neçə nəfərlik yer təyin olunurdu. Lakin son illərdə arxivşünaslıq daha çox müraciət olunan bir elm sahəsi olduğuna görə daha professional arxivşünaslara ehtiyac duyulur. Professional arxivşünasların təhsili üçün də xüsusi hazırlanmış dərs proqramı gərəklidir. Bu tip dərs proqramının ilk versiyası UNESCO tərəfindən təklif edilmişdir. Həmin dərs proqramı da bir başa Mikael Kukun təklif etdiyi dərs proqramının demək olar ki, kiçik fərqlər nəzərə alınmazsa eynisidir. [2] Əlbəttə arxivşünaslıq ümumdünya üçün ortaq bir elm sahəsidir, lakin onun dərs proqramındakı aspektlərin müəyyənləşdirilməsi tədris olunduğu dövlətə uyğunlaşdırılmalıdır.

Azərbaycanda arxivşünaslar adətən təhsilin magistr pilləsində hazırlanır. Və nəzərə alsaq ki, bu sahəyə yönələn gənclərin baza təhsili muzey, tarix, kulturologiya və s. bu kimi ixtisaslardır, onların professional arxivşünas kimi yetişmələri üçün hazırlanan dərs proqramında da bu faktorlar nəzərə alınmalıdır. Bu baxımdan tələbələrə 3 semestr boyunca aşağıdakı fənlərin tədrisi olunması məqsədə uyğun hesab edilir:

I. Semestr: Sənədşünaslıq; Arxivşünaslıq (əsasları və metodologiyası); Tarix (sənədlərin meydana çıxdığı dövrdən bu günə qədər ki qısa tarix); Mənbəşünaslıq; Azərbaycan arxivşünaslığı; Xarici dil (rus, ingilis, ərəb, fars və əski əlifba tədris oluna bilər); Xarici arxivşünaslıq

II. Semestr – İstiqamətlər:

- Arxivşünaslıq (sənədlərin mühafizəsi və restavrasiyası)
- Arxiv işi (sənədlərlə iş)

Yuxarıda göstərilən iki istiqamətdən birini tələbə öz istəyinə uyğun olaraq seçə bilər. Onun istiqaməti elmi şurada müzakirə olunur və o seçdiyi sahə üzrə arxivə yönlədirilir. Fənlər də onun seçdiyi istiqamətə görə müəyyənləşdirilir.

Konservatorlar və Restavratorlar: Arxiv sənədlərinin qüsur problemi (bioloji, kimyəvi və fiziki qüsurların araşdırılması); Arxiv sənədlərinin bərpası (bərpa və qorumanın metodları); Kağız kimyaçılığı; Rəqəmsallaşma və müasir texnologiyalar

Arxiv işçiləri: Arxivlərin idarə olunmasının hüquqi əsasları; Demoqrafiya və Statistika; Kataloqlaşdırma və Sənədlərin ekspertizası; Kargüzarlıq

III. Semestr - Bu dövrdə tələbələr artıq təcrübə üçün arxivlərə göndərilir. Lakin buradakı təcrübə anlayışı tələbənin müşahidəsindən ibarət deyildir. Gənc arxivşünas artıq burada işləməyə başlayır. O sənədlərlə işi və ya onların bərpasının praktiki tərəfini mənimsəyir.

Konservatorlar və Restavratorlar: Restavrasiya; Konservasiya; Praktiki Fəaliyyət (Bərpa və Laboratoriya Mərkəzləri); Dissertasiya işinin yazılma qaydaları

Arxiv işçiləri: Kataloqlaşdırma və ekspertiza; Sənədlərlə İş; Praktiki Fəaliyyət (müxtəlif arxiv idarələri); Dissertasiya işinin yazılma qaydaları

Onu qeyd edək ki, yuxarıda təklif olunan dərs proqramı şərti xarakter daşıyır. Bu proqram ADMİU-nin Kulturologiya fakültəsinin Muzeyşünaslıq kafedrasının arxivşünaslar üçün nəzərdə tutulmuş dərs proqramına və Mikael Kukun təklif etdiyi tədris proqramına əsaslanır.

Azərbaycan arxivlərinin konservator və restavratora olan ehtiyacını tam ödəmək üçün gələcəkdə yuxarıda qeyd olunan şərti dərs proqramına kimya, fizika, mikrobiologiya, nanotexnologiya, nanokimya, mikologiya (göbələkləri öyrənən elm sahəsi), ekologiya, entomologiya (həşəratları öyrənən elm sahəsi) fənləri də əlavə edilə bilər.

Mikael Kuk yazır: "Qoruma və restavrasiya təhsilinin lazım bildiyi tətbiq imkanları daha qarışıqdır. Qoruma – restavrator və sənəd bərpaçısı yetişdirən ali təhsil ocaqlarında, gerçək təmir əməliyyatları əsnasında lazım olan bütün materiallarla zəngin laboratoriya imkanlarının mövcud olması lazımdır. Buna görə də, restavrator təhsilinin, böyük arxiv qurumlarının restavrasiya ateleyeleri ilə əlaqəli olan təhsil ocaqlarında həyata keçirilməsi daha məqsədə uyğun hesab olunur. [3, s.43-44]

Arxivşünaslıq təhsilinin daha yüksək səviyyədə həyata keçirilməsi ilk vaxtlarda təbii ki, çox çətin olacaqdır. Tədqiqat, tətbiq etmələr, laboratoriyalar və s. bu kimi problemlərin mövcud olduğunu nəzərə alaraq, qeyd etməliyik ki, təhsil və tədrisin problemləri ilə məşğul olan şəxslər, arxiv işçiləri və ali təhsil ocaqlarında arxivşünaslıq və arxivşünaslığa yaxın fənlər tədris edən müəllimlər mə-

sələ ilə bağlı iclasları keçirməli, qərarlar səsə qoyulmalı, qəbul edilməli, arxivşünaslığın problemləri və gələcək prioritetləri müzakirə olunmalı yalnız bundan sonra xarici dövlətlərdən mütəxəssislər dəvət olunmalı və ya tələbələr xaric ölkələrə təcrübə üçün göndərilməlidirlər. Bu üsulla 5 illik plan hazırlamaq və yaxşı nəticələr əldə etmək olar.

ƏDƏBİYYAT

1. B. Delmas, The Training of Archivists. Analysis of the Study Programmes of Different Coutries and Thoughts on tee possibilities of Harmonization, UNESCO-GIP and RAMP, 1979. 76 p.
2. M. Cooc, Guidelines for Curriculum Development in Records Management and the Administration of Modern Archives. A RAMP Study, UNESCO-GIP AND RAMP, 1982. 74 p.
3. M. Cooc, The Education and Training of Archivists - Status Report of Archival Training Programmes and Assessment of Manpower Needs, UNESCO-GIP and RAMP, 1979. 90 p.
4. M. Cooc, Günümüzde Arşiv Yönetimi Meslek Eğitiminin Temelleri. (Hazırlayan Jale Baysal), İstanbul 1984, 68 p.
5. Meeting of Experts on the Harmonization of Archival Training Programmes. Paris, 26-30 November 1979. Final Report, UNESCO GIP and RAMP

Nigar ADİLOVA
Azərbaycan Turizm və Menecment Universiteti
adilova.nigar@gmail.com

Dövlətin idarə olunmasında siyasi mədəniyyətin rolu

Роль политической культуры в государственном управлении

The role of political culture in public administration

Xülasə: Məqalədə dövlət idarəetməsi və siyasi mədəniyyətin onun təşkilində rolu məsələləri araşdırılır. Dövlət idarəetməsinin necə həyata keçirilməsi, irəli sürülmüş idarəetmə modelləri haqqında məlumat verilir. Eyni zamanda, siyasi mədəniyyətin əsas elementlərininin dövlət idarəçiliyinə təsiri araşdırılır. Araşdırmanın yekunu olaraq, dövlətlərin idarəetməsinin təşkilində cəmiyyətin siyasi mədəniyyətinin nəzərə alınmasının mühüm olduğu nəticəsinə gəlinir.

Açar sözlər: Dövlət idarəçiliyi, siyasi mədəniyyət, dövlətin inkişafı, dəyərlər, siyasi sistem.

Резюме: В статье рассматривается государственного управления и роль политической культуры в его организации. Он предоставляет информацию о том, как осуществляется государственное управление, и о предлагаемых моделях управления. В то же время изучается влияние ключевых элементов политической культуры на управление. В исследовании делается вывод о том, что важно учитывать политическую культуру общества в организации государственного управления.

Ключевые слова: государственное управление, политическая культура, государственное развитие, ценности, политическая система.

Abstract: The article examines public administration and the role of political culture in its organization. It provides information on implemention of public administration and proposed governance models. At the same time, the influence of key elements of political culture on governance is being investigated. The research work concludes that it is important to consider the political culture of society in the organization of public administration.

Keywords: Public administration, political culture, state development, values, political system.

Dövlət idarəçiliyi özündə dövlətin mahiyyətini, təşkil olunma strukturunu, vəzifəli şəxslərinin fəaliyyətinin təşkilini, əhalinin rifahını və dövlətdən razılığını təmin edəcək siyasətlərin (qanunvericiliyin, islahatların) həyata keçirilməsini, eyni zamanda, qeyd edilənlər vasitəsilə dövlətin müasir beynəlxalq tələblərə cavab verən inkişafa nail olması məsələlərini özündə ehtiva edir.

Tarixən idarəetməni həyata keçirmək üçün müxtəlif dövlət quruluşlarına, tiplərinə müraciət olunmuşdur. Lakin təcrübə və faktlar göstərir ki, uğurlu idarəetmə dövlətin quruluşundan və tipindən asılı deyildir. Burada nəzərə alınmalı olan əsas məqam yürüdülən siyasətlər olmalıdır. Məhz cəmiyyətə uyğun olan (yəni onun norma və dəyərlərini nəzərə alaraq təşkil olunmuş) ən optimal siyasətin seçilməsi ilə idarəetmə aparatı üçün də uyğun model (struktur) qurmaq imkanı olur. Müasir dövrdə dövlətlərin inkişaf siyasətlərinin mahiyyətini iki məsələ təşkil edir: Həm xarici, həm də daxili mühitin tələblərinə cavab verə bilən bir idarəçilik sistemi yaratmaq. Məqalədə dövlətlərin bu problemləri haqqında əsas məqamlara toxunulmağa çalışılır.

Dövlət idarəçiliyinin mahiyyəti və əsas modelləri

Dövlət idarəçiliyi dövlət orqanlarının və bu orqanlarda fəaliyyət göstərən vəzifəli şəxslərin vasitəsilə cəmiyyətin rifahı və dövlətin möhkəmləndirilməsi naminə nəzərdə tutulan dövlət planının həyata keçirilməsidir.

Dövlət idarəetməsi 1980-ci illərədək ənənəvi idarəetmə modelinə - Veberin idarəçilik prinsiplərinin üstünlük təşkil etdiyi iyerarxik quruluşlu modelə əsaslanırdı. Bu idarəetmə modeli bəzən qanunun idarəçiliyini deyil, qanunla idarəçiliyi özündə ehtiva edirdi. (Çin, Meydzi dövründə Yaponiya). XX əsrin sonlarına doğru beynəlxalq sistemin dəyişməsi, yeni dəyərlərin formalaşması milli səviyyədə də dövlətləri struktur dəyişiklikləri etməyə sövq etdi. Dövlət idarəetməsində dəyişikliyin tətbiq edilməsi ilk öncə qərb olkələrində, xüsusilə İngiltərədə həyata keçirildi. Bu model "New Public Management" adlanırdı və bir növ biznes aləmində mövcud olan sirkət idarəetməsinin imitasiyası idi. Dövlət idarəçiliyi vətəndaşlara xidmət şəklində həyata keçirilirdi və dövlətin müəyyən orqanları özəlləşdirilirdi. Bu modeli qəbul etməyən bir çox Avropa dövlətləri, məsələn Almaniya, Belçika, Fransa və s. Geert Bouckert və Christopher Pollitt-in "Neo-Veber idarəçiliyi" adlandırdığı modeli istifadə etdilər. [3, s. 3] Yeni model Veber modelinin iyerarxik strukturunu saxlayaraq, vətəndaş yönümlü xidməti həyata keçirir. Veber modelində dövlət əsas mərkəz rolunu oynayırdısa, neo-Veber modelində cəmiyyət əsas diqqət mərkəzində idi.

Müasir beynəlxalq münasibətlər sahəsində aktual olan digər məsələ isə idarəetmənin xüsusiyyətlərinin araşdırılması və yaxşı idarəçiliyin qurulmasına nail olmaqdır. Bu yanaşma "Yaxşı İdarəçilik" (Good governance) adlanır və 1997-ci ildə BMT-in İnkişaf proqramında irəli sürülmüşdür [6].

BMT-in Dayanıqlı İnkişaf proqramına əsasən dövlətin yaxşı idarəçiliyi özündə alt meyarları ehtiva edən üç göstəriciyə əsasən müəyyən olunur. Bunlar aşağıdakılardan ibarətdir: 1. İştirak: inkluzivlik; 2. Məsuliyyətlilik: hesabatlılıq; 3. Effektivlik: səmərəlilik, bərabərlik, şəffaflıq [7].

Bu göstəriciləri yüksək olan dövlətlər inkişaf etmiş dövlətlər hesab olunur. 2030-cu il üçün hədəflənmiş Dayanıqlı İnkişaf proqramına görə inkişaf etməkdə olan dövlətlər inkişafa nail olmaq üçün bu kriteriyalara malik olmalıdırlar və ya mövcud olan bu göstəriciləri daha da artırmalıdırlar.

Good governance müasir dövrdə çox aktual olsa da, bir çox müəlliflərin tənqidinə məruz qalmışdır. Belə tənqidçilərdən biri olan Meri Qrindl hesab edir ki, yaxşı idarəçılik yanaşması nəzəri baxımdan əhəmiyyətli olsa da, praktiki baxımdan özünü doğrulda bilmir. O qeyd edir ki, yaxşı idarəçilik dövlətləri beynəlxalq münasibətlər sistemində daha səmərəli şəkildə təmsil olunmaq üçün öz institutlaşmaları barədə dərindən düşünməyə, fəaliyyət göstərən institularda müasir islahatlar aparmağa sövq etsə də, qeyd edilən göstəricilər konkret olmadığı üçün tam istənilən nəticənin alınması qeyri-mümkündür. Qrindlın yanaşmasına görə, hər bir dövlər unikal cəmiyyətə, mədəniyyətə və ənənələrə malikdir. Onların hamısı eyni yolla inkişafa nail ola bilməzlər və inkişaf üçün öz modellərini yaratmalıdırlar.

İdarəçiliyin əsas hissələrini iqtisadçı və idarəçilik sahəsində araşdırmaçı olan Daniel Kaufman belə müəyyən etmişdir:

1. Hökumətlərin seçilmə, nəzarət olunma və dəyişdirilmə prosesləri; 2. Hökumətin nəzərdə tutulan siyasətləri səmərəli şəkildə tərtib etməsi və həyata keçirmək bacarığı; 3. Vətəndaşların və dövlətin onlar arasında iqtisadi və sosial münasibətləri həyata keçirən institutlara hörmətlə yanaşması [4, s. 8].

Eyni zamanda, Kaufman hesab edirdi ki, iqtisadi inkişafa nail olmaq üçün dövlət idarəçiliyində inkişafına nail olmaq lazımdır. Onun araşdırmalarına əsasən qanunun aliliyi təmin olunduqca adambaşına düşən gəlir də artmış olur. Lakin Kaufmana əks olaraq, Harvard Universitetinin professoru Qoldsmit bildirir ki, qanunun aliliyi məqsəddir və iqtisadi inkişafa səbəb kimi qəbul edilə bil-

məz. [4, s. 37] Müasir zamanın əsas tələbi keyfiyyətli dövlət idarəçiliyinin qurulmasına nail olmaqdır. Keyfiyyətli idarəetmənin qurulması isə cəmiyyətin inam sistemi ilə də sıx əlaqəlidir.

Siyasi mədəniyyətin dövlət idarəçiliyində mövqeyi

Dövlət idarəetməsinin nəzəri aspektlərinə nəzər saldıqda idarəetmənin yalnız siyasi, hüquqi və təşkilati amillərdən asılı olmadığını müəyyən etmək olar. Bu elementlərin hər biri cəmiyyətin məxsus olduğu siyasi mədəniyyətə bağlıdır. Siyasi mədəniyyətin dövlət idarəetməsinə necə təsir etdiyini müəyyən etmək üçün ilk ölcə onun mahiyyətini aydınlaşdırmaq lazımdır.

Siyasi mədəniyyət cəmiyyətin tarixinə, keçmişə əsaslanır. Cəmiyyətin yaşadığı hər dövr onda müəyyən izlər qoyur, vərdişlər formalaşdırır və ümümi mədəniyyətinin formalaşmasına səbəb olur. Siyasi mədəniyyət ümumi mədəniyyətin bir hissəsidir və 1960-ci ildən başlayaraq siyasi elmin bir sahəsi kimi öyrənilir. Siyasi idarəetmədə də siyasi mədəniyyətin nəzərə alınması 2000-ci illərdən başlayaraq bir sıra dövlətlərin elmi araşdırmaları siyahısına daxil edilmişdir.

Siyasi mədəniyyəti siyasətin tərkib hissəsi kimi araşdıran ilk müəlliflər: Q.Almond və S. Verba, onun üç tipini müəyyən etmişlər: [1, s.16] **1. Patriarxal mədəniyyət** (ənənəvi): Buna bəzən icma mədəniyyəti də deyilir. Siyasi sistemə sistemə yönəlik heç bir meyl yoxdur. **2. Tabelilik mədəniyyəti** (beyət – bağlılıq) Siyasi sistemin yalnız nəticələrinə yönəlik rasional meyl, yəni passiv münasibətdir. **3**. **İştirak mədəniyyəti** Siyasi mədəniyyətin həm daxili prosesinə, həm də nəticələrinə yönəlik rasional meyl, yəni aktiv münasibətdir.

Müəlliflər qeyd edir ki, vətəndaş mədəniyyəti bu üç mədəniyyətin vəhdətidir. [1, s. 18-2] Digər bir siyasi mədəniyyət və modernləşmə araşdırıcısı Velzel isə qeyd edir ki, müxtəlif dövlətlərin malik olduğu cəmiyyətlərdə qeyd edilən siyasi mədəniyyət tiplərinin hamısına rast gəlinsə də, biri üstünlük təşkil edir. Məhz üstünlük təşkil edən siyasi mədəniyyət tipi o dövlətin idarə olunmasına təsir göstərir və onu müəyyən istiqamətdə yönləndirir.

XXI əsr informasiya texnologiyalar əsri olmaqla, cəmiyyətlərə yeni dəyər dəyişiklikləri gətirir. İnqilabi modernləşmə nəzəriyyəsinin banisi olan Ronald İnqlhart, cəmiyyətdə dəyər dəyişikliyinin "yaşamaq" tələbindən (materialist yanaşma – iqtisadi və fiziki təhlükəsizliyin təmini) "özünü ifadə" tələbinə keçidin (postmaterialist yanaşma) baş verdiyini müəyyən edir. [5, s. 23] İnqlhartın dəyər dəyişikliyi haqqında mülahizələrdən bəhrələnən Velzel daha sonra tabe olan (allegiance) cəmiyyətlərdən iddia edən (assertion) cəmiyyətlərə keçid nəzəriyyəsinin əsasını qoymuşdur. Təbii ki, bu cür mədəni dəyişikliklər vətəndaşların qərarların qəbulunda iştirakını və onlar qarşısında dövlət nümayəndələrinin məsuliyyətinin daha da artırılmasını təmin edən idarəetmə sisteminin qurulmasını tələb edir.

Fukuyamanın fikrincə isə, dövlət idarəetməsinin əsas keyfiyyət göstəricisi bir-biri ilə sıx əlaqəli olan dövlətin bacarığı (hökumət işçilərinin təhsil və peşəkarlıq səviyyəsi) və bürokratiyanin avtonomiya dərəcəsi (Hantinqtonun modeli) ilə ölçülməlidir. Bu göstəricilərin hər ikisi dəyərlər və siyasi mədəniyyətlə sıx əlaqəlidir. Xüsusilə, dövlət məmuru və dövlət qulluqçılarının peşəkarlığı və təhsil səviyyəsi idarəetmənin əsas elementi olmaqla yanaşı, həm də cəmiyyətin siyasi mədəniyyətinin simasıdır. [2, s. 13]

Cəmiyyətin inkişafına nail olmaq üçün ilk öncə dəyərlərin inkişafına nail olmaq gərəkdir. Məsələn, siyasi mədəniyyətin əsas keyfiyyətlərindən biri kimi sosial kapital həm dövlət idarəetməsinin təşkilində, həm də dövlətin inkişafında mühüm rola malikdir. Təsadüfi deyil ki, Jon Elster (1989) sosial normaları "cəmiyyətin sementi" adlandırmışdır. İqtisad tarixçisi, Nobel mükafatçısı Douqlas North isə bildirmişdi ki, formal institutlar iqtisadi inkişafa şərait yaratmağa rəvac versə də, qeyri formal institutlar, hansılar ki, buraya, sosial kapital və ümümi inam daxildir, bu prosesə təsir edə bilər və edir də. [4, s. 166]

Nəticə: Yuxarıda qeyd edilənlərdən aydın olur ki, dövlət idarəetməsi siyasi sistemin tərkib hissəsidir və siyasi institutlar vasitəsilə həyata keçirilir. Siyasi sistemlərin kökündə siyasi mədəniyyət durduğu kimi, onun idarəçiliyi prosesində də əsas rolu siyasi mədəniyyət oynayır.

Siyasi mədəniyyət idarəetmə sistemin uğurlu olub olmadığını müəyyən etmək üçün mühüm bir vasitədir. Siyasi sistemin mövcudluğu üçün siyasi mədəniyyət bir dayaq rolunu oynayır. Əgər siyasi sistemlə siyasi mədəniyyət arasında uyğunluq yoxdursa, siyasi sistem səmərəli fəaliyyət göstərə bilməz və daxili elementin xarici elementə dönüşümü natamam xarakter daşıyacaqdır. Odur ki,

idarəetmədə cəmiyyətin siyasi mədəniyyətinin nəzərə alınması çox mühüm məsələdir. Eyni zamanda, mövcud siyasi mədəniyyətdə inkişafa mane olan elementləri araşdırmaq və onların islahına çalışmaq lazımdır. Siyasi mədəniyyətlərin inkişafı idarəetmənin inkişafına, idarəetmənin inkişafı isə dövlətin inkişafına səbəb olacaqdır.

ƏDƏBİYYAT

1. Almond Gabriel Abraham, Sidney Verba - The Civic Culture_ Political Attitudes and Democracy in Five Nations, Princeton University Press, 1963
2. Fukuyama Francis,What Is Governance?,Working Paper 314, January 2013
3. Lynn Laurence E., Jr. What is a Neo-Weberian State? Reflections on a Concept and its Implications, NISPAcee Journal of Public Administration and Policy, January 2008
4. Rothstein Bo - The quality of government _ corruption, social trust, and inequality in international perspective-University of Chicago Press, 2011
5. Russell J. Dalton, Christian Welzel - The Civic Culture Transformed_ From Allegiant to Assertive Citizens, Cambridge University Press, 2014
6. https://web.archive.org/web/20060428063306/http://www.unescap.org/huset/gg/governance.htm
7. http://workspace.unpan.org/sites/Internet/Documents/UNPAN97214.pdf

Sevinc HACIYEVA
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
magistr
sevinc.hajiyeva95@mail.ru

Valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı dövlətin idarə etmə siyasəti

Государственная политика в отношении детей, лишенных родительской опеки

Government policy on children deprived of parental care

Xülasə: Məqalədə Valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı dövlətin apardığı siyasət və onun idarə edilməsi haqqında qeyd edilib. Eyni zamanda, " Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqında" qanundan istifadə edilərək müxtəlif məqamlara toxunulub. Valideyn himayəsindən məhrum olmuş şəxslərlə bağlı dövlət qurumlarının fəaliyyəti və onlara hansı xidmətlərin göstərilməsi araşdırılıb.

Açar sözlər: ailə, uşaq, valideyn, qəyyumçuluq, himayəçi ailə, himayə olunan şəxs və himayədən məhrum olunma.

Резюме: В статье освещается политика правительства в отношении детей, лишенных родительской опеки и управления ими. В то же время в различных пунктах затрагивался закон «О социальной защите детей, потерявших родителей и потерявших родительскую опеку». Была проведена проверка деятельности государственных органов и их служб, связанных с лицами, лишенными родительской опеки.

Ключевые слова: семья, дети, родитель, опека, приемная семья, защищенное лицо и не теряй заботу.

Abstract: The article highlights the government's policies and its management, regarding the children deprived of parental care. At the same time, the law "On social protection of children who lost their parents and was deprived of parental care" was touched upon at various points. The activities of state agencies and their services related to people deprived of parental care were investigated.

Key words: famil, child, parents, guardianship, foster family, protected person and don't lose care.

Ailə cəmiyyətin ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, ayrıca sosial bir institutdur. Ailəni dövlət siyasətindən ayrı hesab etmək olmaz. Çünki hər bir ailə "kiçik dövlət" hesab edilir. Bəs ailə nədir?- Ailə anlayışı hər bir şəxsin düşüncəsindən asılı olaraq fərqli anlamlara gələ bilər. Lakin cə-

miyyətdə ailə anlayışı valideynlərdən, uşaqlardan ibarət olan və qohumluq əlaqələrin qurulması kimi qəbul edilir. Ailə qurarkən həm qadının, həm də kişinin üzərinə müəyyən hüquqlar düşür. Bu hüquqlardan biri hər iki valideynin üzərinə düşən uşaqlarına dair hüquq və öhdəliklərdir. Lakin bəzi valideynlər müəyyən səbəblərdən və ya heç bir səbəb olmadan bu öhdəlikdən və vəzifədən boyun qaçırır. Nəticədə uşaqlar kimsəsiz olaraq cəmiyyətin, dövlətin himayəsi altında böyüyür. Bu gün cəmiyyətdə elə övladlar da var ki, onlar dünyaya gəldiyi gündən valideynlərini görməyib. Belə uşaqlar doğulduğu andan ailə qayğısından məhrum olurlar. Bu uşaqlar yaşadığı dövr ərzində psixoloji, sosial, maddi, mənəvi və hüquqi çətinliklərlə qarşılaşır. Psixoloqların belə uşaqlar üzərində apardığı terapiyalar əsasında məlum olmuşdur ki, əgər uşaqlar doğulduğu andan 3 yaşına qədər lazımı diqqət və qayğıdan məhrum olarsa, bu uşaqların sosial keyfiyyətləri zəifləyir, əqli və fiziki inkişafında ləngimələr gedir və normal inkişafdan qalırlar. Eyni zamanda bu amillər onların sosial inkişafına mənfi təsir göstərir.

Bəzi valideynlərdən fərqli olaraq dövlət bu kiçik fidanlara biganə qala bilməz. Dövlət valideyni itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı müxtəlif sahələrdə siyasət aparır və bu siyasəti istər hüquqi, istər siyasi, istərsə də sosial sahələrdə həyata keçirir.

Azərbaycanda ailə qayğısından məhrum olmuş uşaqlarla bağlı aparılan siyasətin tarixi iyirminci əsrin əvvəllərinən başlanmışdır. Bu dövrdə ailə qayğısından məhrum olmuş uşaqlar dövlət tərəfindən təsis edilmiş qayğı müəssisələrində yerləşdirilirdi. Bu dövrdə qayğı müəssisələrinin yaranma məqsədi küçədə yaşayan, evi olmayan, qidaya ehtiyacı olan və bu ehtiyacını ödəmək üçün işləməyə məcbur olan uşaqların müdafiəsi üçün təşkil olunmuşdur. İkinci dünya müharibəsindən sonra sosial cəhətdən zəif olan ailələrin və əlilliyi olan uşaqların müdafiəsi istiqamətində belə müəssisələr daha çox təşkil olunmağa başladı. Lakin 90-cı illərin əvvəllərinə qədər belə müəssisələrin sayında azalma müşahidə edildi. Yenidən 90-cı illərin sonu bu sahədə dövlətin apardığı düzgün siyasətin nəticəsi olaraq, bir çox irəliləyişlər əldə olundu. Dövlət ailə qayğısından məhrum olmuş uşaqlar haqqında müxtəlif hüquqi və sosial istiqamətdə qanunlar qəbul etdi. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 1998-ci ildə 19 may tarixində "Uşaq hüquqları haqqında" 499-İQ nömrəli qanun imzalandı. 1999-cı ildə 22 iyun tarixində dövlət qayğı müəssisələrində yaşayan və qayğı müəssisələrini tərk edən şəxslərin hüquq və imtiyazlarına dair hüquqi münasibətlərini özündə əks etdirən qanun "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" 693-İQ nömrəli qanun imzalandı. 1999-ci il 28 dekabr tarixində isə "Azərbaycan Respublikasının Ailə Məcəlləsi" haqqında da qanun imzalandı. Həmçinin 2015-ci ildə 22 may tarixində "Uşaq evləri sosial xidmət müəssisələrinin nümunəvi Nizamnaməsi" təsdiq edildi [8].

Dövlətimiz bu siyasəti beynəlxalq istiqamətdə həyata keçirmişdir. BMT-nin "Uşaq hüquqlar Bəyannaməsi" 1959-ci ildə qəbul edilsə də, "Uşaq Hüquqları Konvensiyası" BMT-nin Baş Məclisi tərəfindən 1990-ci ildən 20 dövlət tərəfindən ratifikasiyasından sonra qüvvəyə minmişdir. Azərbaycan isə BMT-nin "Uşaq Hüquqları Konvensiyasını" ratifikasiya etdikdən sonra ilk hesabatını 1995-ci ildə BMT-nin Uşaq Hüquqlar Komitəsinə göndərmişdir [7].

Qanuna əsasən " Valideyn himayəsindən məhrum olmuş uşaqlar" anlayışına aşağıdakılar aid edilir:

1. hər iki valideyni məlum olmayan;
2. xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan (fəaliyyət qabiliyyəti məhdudlaşdırılan) hesab edilən, ölmüş elan edilən;
3. uşaqlarının tərbiyə edilməsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən imtina edən;
4. valideynlik hüquqlarından məhrum edilən və ya valideynlik hüquqları məhdudlaşdırılan;
5. cəzaçəkmə müəssisələrində cəzasını çəkən.

Azərbaycan Respublikasının "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanuna əsasən, 18 yaşına çatmamış və ailə qayğısından məhrum olan şəxslər valideyn himayəsindən məhrum olmuş hesab edilir. 14 yaşına qədər olan uşaqlara qəyyumluq, 14-18 yaş arasında olanlara isə himayədarlıq təyin edilir [3].

Valideyn himayəsindən məhrum olmuş və ya valideyni itirmiş uşaqların təlim-tərbiyə məsələləri ilə məşğul olan müxtəlif qayğı müəssisələri yaranmışdır. Məsələn: ailə tipli uşaq evləri, əhalinin

sosial müdafiəsi müəssisələri (uşaq evləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün internatlar, sosial-reabilitasiya yardım mərkəzləri, sosial sığınacaqlar), səhiyyə sistem müəssisələri, qanunla müəyyən edilmiş dövlət və qeyri-dövlət müəssisələri və s. Hər bir müəssisə Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi, Gənclər və İdman Nazirliyi tabeliyində fəaliyyət göstərir. Bu qurumlar valideyni itirmiş və valideyn himayəsindən məhrum olmuş şəxslərlə bağlı müxtəlif proqramlar, layihələr hazırlayır və onların qarşılıqlı əlaqələri nəticəsində yaradılmış müəssisələrdə sosial xidmətlər, reabilitasiya və təhsillə bağlı müxtəlif işlər həyata keçirilir.

Dövlət bu müəssisələrdəki uşaqların sayını azaltmaq onların öz ailələrində və qəyyum ailələrdə böyüməsi üçün 2006-2015-ci illəri əhatə edən dövlət proqramı qəbul etmişdir. "Azərbaycan Respublikasının dövlət uşaq müəssisələrində uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı ilə bağlı dövlət proqramı"nın əsas məqsədi müəssisədə yaşayan uşaqların ailələrə verilməsi və alternativ qayğıya cəlb edilməsi ilə əlaqəli olan pilot layihənin reallaşdırmaqdan ibarət idi. Bu pilot layihə əsasında uşaqların müəssisəyə düşməsinin qarşısı alınmalı, uşaqların himayəyə və qəyyumluğa veriləcək ailələr haqqında məlumat bankı yaradılmalı, ailə qayğı sistemi və icmaya əsaslanan sosial xidmətlər yaradılmalı idi. Eyni zamanda, bu layihənin həyata keçirilməsi zamanı dövlət qurumları arasında əlaqələr də yaradılmalı idi. Bu qurumlara daxildir: Təhsil Nazirliyi, Səhiyyə nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi, Ailə Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi. 2008-2015-ci illəri əhatə edən "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramına" əsasən valideyni itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar sosial cəhətdən dövlət qayğısına ehtiyacı olan həssas əhali qrupu kimi müəyyən edilmişdir. Dövlət orqanları həssas əhali qruplarının sosial müdafiəsinin təşkili istiqamətində xüsusi idarəetmə sisteminə malikdirlər.

Qanuna əsasən, dövlət valideyni itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı müxtəlif təminatlar verir. Dövlət və bələdiyyə müəssisələrində, himayəçinin ailəsində olduqları zaman dövlət müəyyən olmuş qaydalarla bu şəxsləri paltar, ayaqqabı, yemək, tibbi xidmətlər, təhsil almaq üçün lazım olan ləvazimatlarla təmin edir. Dövlət bu təzminatları 18 yaşına qədər davam etdirir. 18 yaşından sonra qaldığı müəssisəni tərk edir. Ali və ya orta peşə-ixtisasına sahib olduğu zaman həmin şəxsin müəssisədə və qəyyumun ailəsində 23 yaşına qədər qalmaq hüququ var.

Valideyn himayəsindən məhrum olmuş şəxslər dövlət tərəfindən təyin olunmuş sosial müavinətlərlə təmin edilir. Himayəçi yanında yaşayan şəxsin valideynləri vəfat edibsə, itkin düşübsə bu zaman ailə başçısının itirməsinə görə pensiya almaq hüququ var. Eyni zamanda, əyani olaraq ali və ya orta peşə-ixtisas təhsil müəssisələrində 23 yaşına qədər əmək pensiyası almaq hüququna malikdir. Valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumluğunu və himayədarlığını yerinə yetirən şəxslərə dövlət tərəfindən təyin olunmuş qaydada müavinətlər verilir.

Dövlət valideyn himayəsindən məhrum olmuş şəxslərlə əlaqəli müxtəlif sosial xidmətlər göstərir. Bu şəxslərə göstərilən sosial xidmətlər ödənişsiz olaraq təmin edilir. Göstərilən sosial xidmətlərə daxildir:

1. Sosial-pedaqoji xidmətlər;
2. Palliativ xidmətləri;
3. Sosial-məişət xidmətlər;
4. Sosial-iqtisadi xidmətlər;
5. Sosial-hüquqi xidmətlər;
6. Sosial-psixoloji xidmətlər;
7. Tibbi-sosial xidmətlər.

Dövlət valideyn himayəsindən məhrum olmuş şəxslərə müəssisəni tərk etdikdən sonra da xüsusi nəzarət edir. Onların bu xidmətlərdən ödənişsiz istifadəsini təmin edir. Bunun üçün şəxs ərizə ilə Əmək və Əhalinin sosial Müdafiə Nazirliyinə müraciət etməli və onun valideyn himayəsindən məhrum olması haqda təsdiq edən sənədi təqdim etilməlidir. Bunun üçün yerli icra hakimiyyəti orqanına müraciət edə bilər.

Ailə qayğısından məhrum olmuş şəxslər 18 yaşınadək bioloji ailəsindən aliment almaq hüququna malikdir. Bu iddia icra hakimiyyəti tərəfindən qəyyum seçilən müəssisə və ya himayəyə götürmüş ailə tərəfindən qaldırıla bilər.

Valideyn himayəsindən məhrum olmuş şəxslər dövlət büdcəsi vəsaitləri hesabına tibbi xidmətlərdən yararlanaraq ödənişsiz tibbi müayinələrdən keçə bilərlər. Eyni zamanda, bu şəxslər sanatoriya-kurort müalicəsi xidmətlərindən istifadə etmək hüququna sahibdirlər. Əgər sanatoriya-kurort müalicəsi ilə bağlı göndəriş olarsa, gediş-gəliş xərcləri dövlət tərəfindən ödənilir.

Təhsil sahəsində araşdırmalar əsasında müəyyən olunub ki, valideyn himayəsindən məhrum olmuş uşaqların təhsil səviyyələri aşağıdır. Buna səbəb bu şəxslərin yalnız müəssisə daxilində yaşayaraq müxtəlif psixoloji problemlərin yaranması, özünə inamın olmaması, oxumaq haqqında ümumiyyətlə düşünməmələri, texniki vəsaitlərdən istifadə etmə bacarıqlarının zəif və ya heç olmaması kimi amillər daxildir. Valideyn himayəsindən məhrum olmuş şəxslərin təhsilə marağının artırmaq məqsədi ilə qanuna 2013-ci ildə "Valideyni itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi" ilə bağlı qanuna əlavə edilmişdir. Bu əlavəyə görə, ödənişli əsaslarla təhsil alan tələbələr təhsil haqqını ödəməkdən azad olublar. [3]

Valideyn himayəsindən məhrum olmuş uşaqlar müəssisələrə yerləşdirilərkən, hər bir müəssisələrin qarşısında müəyyən vəzifələr qoyulur. Bu vəzifələrə daxildir:

1. hər bir uşağı lazımı sosial xidmətlər ilə təmin etmək;
2. uşaqların istedad və qabiliyyətini ortaya çıxarmaq, onların fiziki, mənəvi, psixoloji və sosial inkişafının formalaşmasını təmin etmək;
3. hər bir uşaq üçün layiqli yaşayış şəraiti təmin etmək;
4. uşaqların qəyyumluğa və himayədarlığa verilməsi üçün himayə və qəyyumluq orqanları ilə əməkdaşlıq qurmaq;
5. uşaqları müstəqil həyata və cəmiyyətə inteqrasiya olunmaq üçün hazırlamaq.[4]

Sonda belə nəticəyə gəlmək olar ki, Azərbaycanda 1990-cı ilin sonlarından etibarən valideyni itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara dair dövlətin idarəetmə siyasəti yenidən qurulmuş və onların hüquqlarına dair müxtəlif qanunlar hazırlanmışdır. Eyni zamanda, dövlət valideyni itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların müdafiəsi üçün dövlət müəssisələri yaratmışdır. Bununla yanaşı, uşaqların müdafiə sisteminə dair müxtəlif QHT-lər təşkil olunmuşdur. Bu uşaqların ailə mühitində böyüməsi üçün dövlət proqramları müəyyən olunmuşdur.

ƏDƏBİYYAT

1. https://edu.gov.az/az/page/405/5088
2. VALC:\Users\HP\Downloads\Valideyn himayəsindən məhrum uşaqlar üçün alternativ qayğı vasitələri - Uşaq Hüquqları.html
3. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının 22 iyun 1999-cu il tarixli Qanunu
4. http://www.anl.az/down/meqale/azerbaycan/2015/iyun/442300.htm
5. https://president.az/articles/33288
6. HTTPS://EDU.GOV.AZ/AZ/PAGE/83/1377
7. UNİCEF: Uşaq Hüquqları və onlarin tədrisi, səh 5
8. SOS Uşaq KƏNDLƏRİ: "Dövlət uşağa qayğı müəssisələrini tərk etmiş gənclərin sonrakı həyatını tənzimləyən mexanizmlərin yaradılması" layihəsi çərçivəsində təlim vəsaiti [s. 8-22]

Ramilə HÜSEYNOVA
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
magistr
grr_3@mail.ru

Azərbaycan Demokratik Respublikası dövründə təhsil və mədəniyyətin idarə edilməsi

Управление образованием и культурой в Азербайджанской Демократической Республике

Education and culture management during the Democratic Republic of Azerbaijan

Xülasə: Məqalədə Azərbaycan Demokratik Respublikası dövründə təhsil və mədəniyyət sahəsində həyata keçirilən islahatlar haqqında məlumat verilmişdir. Məqalədə ADR dövründə təhsil, məktəblər, kurslar, kitabxana, mədəni quruculuq haqqında yığcam məlumat verilməklə yanaşı, bu sahədə mövcud olan tədqiqat işləri də qeyd olunmuşdur.
Açar sözlər: təhsil, məktəblər, kurslar, kitabxana, mədəni quruculuq.

Резюме: В статье представлена информация об образовательных и культурных реформах в Азербайджанской Демократической Республике. В статье представлен всесторонний обзор образования, школ, курсов, библиотек и культурного строительства во время ADR, а также исследовательской деятельности, доступной в этой области.
Ключевые слова: образование, школы, курсы, библиотеки, культурное строительство.

Abstract: The article provides information on educational and cultural reforms in the Democratic Republic of Azerbaijan.

The article provides a comprehensive overview of education, schools, courses, libraries, and cultural construction during ADR, as well as research activities available in this area.
Keywords: education, schools, courses, libraries, cultural construction.

1918-ci il 28 may tarixində Birinci Dünya müharibəsi dövründə Şimali Azərbaycanda yaranmış müstəqil dövlət və Müsəlman Şərqində ilk parlament respublikası olan Azərbaycan Demokratik Respublikası yarandığı ilk gündən təhsilin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirirdi. Belə ki, 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildiyi gün Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış birinci Hökumət kabinəsində Xalq Maarifi Nazirliyi də təsis olundu. Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi nazirlik öz fəaliyyətinə Azərbaycan xalq maarifinin vəziyyətinin və bu sahədə həyata keçiriləcək vəzifələrin müəyyənləşdirilməsi ilə başladı. Şimali Azərbaycanda fəaliyyət göstərən keçmiş maarif şəbəkəsi gənc respublikanın təhsil sahəsində qarşıya qoyduğu tələblərə cavab verə bilmədiyindən, nazirlik bu sahədə islahatlar keçirmək üçün təkliflər hazırlayıb Hökumətə təqdim etdi. İslahatın məqsədi gənc respublikanın məhdud iqtisadi imkanları daxilində xalq maarifini qısa müddətdə sürətlə inkişaf etdirmək idi. Bunun üçün xalq məktəbləri və tədris dairələrinin direktoru vəzifələri ləğv olundu. Bütün respublikada məktəb və maarif işinin idarə olunması Xalq Maarifi Nazirliyinin və xalq məktəbləri təlimatçılarının ixtiyarına verildi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Gəncəyə köçdükdən sonra iyunun 30-da Hökumətin xüsusi qərarı ilə Xalq Maarifi Nazirliyinin ştat tərkibi təsdiq olundu.

Nazirliyin səlahiyyətinə daxil idi: xalq maarifinə aid qanun layihələri hazırlamaq, respublikada elmin və maarifin inkişafına dair tədbirlər planı müəyyən etmək və s.

Nazirliyin məktəblər idarə nəzdində üç müstəqil şöbə yaradılmışdı: 1) ali və orta ixtisas təhsili; 2) xalq təhsili; 3) peşə təhsili işləri üzrə. Azərbaycan Demokratik Respublikasının təhsilin inkişafına çox mühüm təkan verən ilk tədbirlərindən biri 1918-ci il 27 iyun tarixli qərarı oldu. Bu qərara əsasən, Azərbaycan-türk dili dövlət dili elan edildi. Lakin Azərbaycan dilini mükəmməl bilən ixtisaslı kadrların olmaması qərarın həyata keçirilməsini çətinləşdirirdi. Buna görə də inzibati idarə or-

qanları, məhkəmə işi və s. sahələrdə Äzərbaycan dilini bilən ixtisaslı kadrlar hazırlanana qədər, müvəqqəti olaraq, rus dilindən istifadəyə də yol verildi.

Azərbaycan Hökuməti milli kadrların yetişdirilməsinə, bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verirdi. Təhsil sahəsində həyata keçirilən ilk mühüm tədbir məktəblərin milliləşdirilməsi oldu. Azərbaycan Hökumətinin 1918-ci il 28 avqust tarixli qərarında göstərilirdi ki, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin öz ana dilində aparılmalı və dövlət dili olan Azərbaycan dilinin tədrisi icbari surətdə həyata keçirilməlidir. Azərbaycan dilini bilməyən şagirdlər üçün üçüncü və dördüncü siniflərdə rus şöbələri açılır və burada Azərbaycan dili intensiv surətdə tədris olunurdu ki, 2 ildən sonra həmin şagirdlər artıq Azərbaycan dilində təhsillərini davam etdirə bilsinlər. 5-ci sinifdən sonra şagirdlər məktəbi qurtarana qədər tədris prosesi rus dilində aparılırdı, Azərbaycan dili isə həmin siniflərdə məcburi fənn kimi tədris olunurdu. Bu siniflərdə Azərbaycan dilinin tədrisi həftədə 4 saatdan az olmamalı idi.

Azərbaycan Hökuməti tədris işini milliləşdirərkən azsaylı xalqların uşaqlarının da mənafeyini nəzərə almışdı. Hökumətin 1918-ci il 7 sentyabr tarixli qərarı ilə sinifdə başqa millətdən olan şagirdlərin sayı 10 nəfərdən az olmadıqda, onlara öz dillərində ilahiyyat və ana dili dərsləri keçilməli idi. Bununla belə, məktəblərin milliləşdirilməsi ilə əlaqədar olaraq Azərbaycan dilini bilməyən çoxlu uşaq təhsildən kənarda qalırdı. Buna görə də, Azərbaycan Hökuməti 1918-ci il noyabrın 13-də özünün xalq təhsili haqqındakı əvvəlki qərarlarında dəyişikliklər etdi. Yeni qərara görə, bir orta təhsil müəssisəsi olan şəhərlərdə Xalq Maarifi Nazirliyinin icazəsi ilə, yuxarı hazırlıq siniflərindən başlayaraq, paralel surətdə rus bölməsinin də açılmasına icazə verildi. Eyni tipli bir neçə təhsil ocağının fəaliyyət göstərdiyi şəhərdə onların bir hissəsi milliləşdirildi, qalan hissəsində isə təhsil rus dilində aparıldı. Lakin həmin məktəblərin hamısında Azərbaycan dili məcburi fənn kimi tədris olunmalı idi. Həmin qərarla azərbaycanlı uşaqlardan yalnız milliləşdirilmiş, yaxud milliləşdirilməsi nəzərdə tutulan məktəblərdə oxumaları tələb olunurdu.

Azərbaycan Hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində, artıq 1919-cu ilin əvvəllərində ölkədə dövlət hesabına 637 ibtidai məktəb və 23 orta ixtisas təhsili məktəbi fəaliyyət göstərirdi. Orta məktəblər arasında 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 müqəddəs Nina qız tədris müəssisəsi, politexnik məktəb və kommersiya məktəbi var idi. 1919-cu ilin əvvəllərində Bakı qadın müəllimlər seminariyası kişi müəllimlər seminariyasına çevrildi. 1919-cu ilin iyulundan Lənkəran kişi və qadın gimnaziyaları da Xalq Maarifi Nazirliyinin sərəncamına keçirildi. Həmin il avqustun 11-də Xalq Maarifi Nazirliyinin qərarı ilə Bakı, Gəncə və Nuxadakı (Şəki) müqəddəs Nina qız tədris müəssisələrinin adları dəyişdirilərək Bakıdakı birinci Azərbaycan qız gimnaziyası, Gəncə və Nuxadakılar isə qız gimnaziyaları adlandırıldı. 1919-cu ildə Xalq Maarifi Nazirliyi Göyçay şəhərində realnı məktəb, Bakıda qız, Nuxada kişi və qız, Şuşada kişi məktəb və seminariyaları açmaq barədə Azərbaycan Parlamentinə qərar layihələri təqdim etdi. Parlament respublikanın imkanlarını nəzərə alaraq, onlardan ancaq birini həyata keçirdi. 1919-cu ildə Göyçayda realnı məktəb açmaq haqqında qanun layihəsi təsdiq olundu. Xalq təhsilini milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitinə böyük ehtiyac var idi. O dövrdə Azərbaycandakı mövcud müəllim kadrları ilə bu işin öhdəsindən gəlmək mümkün deyildi. Bu vəzifəni yerinə yetirmək üçün başlıca addım Türkiyədən müəllim kadrları dəvət etmək və qısamüddətli kurslarda Azərbaycan dilində savadı olan şəxslərdən müəllim kadrları hazırlamaq idi. 1918-ci il iyulun 23-də Azərbaycan Hökuməti ölkənin tədris müəssisələri üçün Türkiyədən müəllim kadrları dəvət etmək və dərs vəsaiti tədarükü haqqında xüsusi qərar qəbul etdi. Türkiyə həyatı ilə yaxşı tanış olan Ə.Ağayevin bu məqsədlə İstanbula ezam edilməsi Xalq Maarifi Nazirliyinə tövsiyə olundu.

Tədris müəssisələrinin milliləşdirilməsini daha uğurla həyata keçirmək üçün 1919-cu ilin yayında ibtidai və orta məktəblərin aşağı siniflərini müvafiq milli müəllim kadrları ilə təmin etmək məqsədilə qısamüddətli pedaqoji kurslar təşkil olundu. Hökumətin qərarına görə, bu məqsədlə Xalq Maarifi Nazirliyinin sərəncamına 2 milyon 390 min manat vəsait ayrıldı. Bakı, Gəncə və Nuxada kişi və qadın, Şuşa, Qazax, Qusar, Salyan və Zaqatalada isə kişi pedaqoji kursları açıldı. Hər kursda ən azı 50 nəfər müdavim təhsil alırdı. Kursları bitirənlərin, demək olar ki, hamısına məktəblərdə müəllim yeri verilirdi. Bundan əlavə, Türkiyədən 50 nəfərə yaxın müəllim dəvət edildi. Cümhuriyyət Hökuməti məktəb dərsliklərinin hazırlanması və nəşrinə də ciddi diqqət yetirirdi.

Bunun üçün maarif nazirliyinin xüsusi komissiyası təşkil edilmişdi. 1919-cu ildə "Türk əlifbası", "Təzə elmi-hesab", "İkinci il", "Yeni məktəb", "Ədəbiyyat dərsləri", "Müntəxəbat", "Türk çələngi", "Tarixi-təbii", "Rəhbər cəbr" dərslikləri nəşr olundu. Dərsliklərin hazırlanmasında Azərbaycan maarif və ədəbiyyatının görkəmli nümayəndələri H.Cavid, M.Mahmudbəyov, A.Şaiq, C.Cəbrayılbəyli, S.Ağamalıoğlu, F.Ağazadə, A.İsrafilbəyov, A.Əfəndizadə və b. fəal iştirak edirdilər. Məktəblər Türkiyədən alınmış dərsliklər və tədris vəsaitləri ilə də təmin olundu. Azərbaycan Parlamenti 1919-cu il 18 sentyabr tarixli qərarı ilə türk dilində yeni kitablar almaq üçün Xalq Maarifi Nazirliyinin sərəncamına 1 milyon manat vəsait ayırdı.

Azərbaycan Demokratik Respublikası qarşısında duran ən mühüm vəzifələrdən biri də Azərbaycanda ali təhsilin təşkili və ali təhsilli milli kadrların hazırlanması idi. Hökumət bu məsələni, bir tərəfdən, ölkədə ali təhsil müəssisələri yaratmaq, digər tərəfdən, azərbaycanlı gəncləri xarici ölkələrin müxtəlif ali təhsil müəssisələrinə göndərməklə həll etməyə çalışırdı. 1919-cu il sentyabrın 1-də Azərbaycan Parlamenti, nəhayət, Bakıda dövlət universitetinin açılması haqqında qanun qəbul etdi. 1919-cu il noyabrın 15-də universitetin auditoriyalarında ilk mühazirələr başlandı. Tarix-filologiya fakültəsində M.Ə.Rəsulzadə və maarif naziri R.Qaplanov Osmanlı ədəbiyyatından, M.Şahtaxtlı isə Azərbaycan dilinin qrammatikasından mühazirələr oxuyurdular. 1919-1920-ci tədris ilində universitetdə 1094 tələbə təhsil alırdı ki, onların da 217 nəfəri azad dinləyici idi. ADR dövründə Azərbaycanda ali təhsilli mütəxəssis kadrları hazırlamağın digər yolu azərbaycanlı gənclərin xarici ölkələrin ali məktəblərinə göndərilməsi idi. Azərbaycan Parlamenti 1919-ci il sentyabrın 1-də Bakıda dövlət universitetinin açılması haqqında qanunla bərabər, 1919-1920-ci tədris ilində dünyanın müxtəlif ali məktəblərində dövlət hesabına təhsil almaq üçün 100 nəfər azərbaycanlı gəncin xaricə göndərilməsi haqqında da qərar qəbul etdi. Bunun üçün 7 milyon manat vəsait ayrıldı. Avropanın ali məktəblərinə göndərilən hər tələbəyə 400 frank təqaüd təyin olundu və 1000 frank yol xərci ayrıldı. Dövlət hesabına təhsil alacaq tələbələr ali məktəbi bitirdikdən sonra dörd il icbari qaydada Azərbaycan Hökumətinin təyinatına əsasən göndərildiyi yerdə işləməli idilər.Azərbaycan Demokratik Respublikasının təhsil sahəsində həyata keçirdiyi mühüm tədbirlərdən biri də ibtidai təhsil müəssisələri şəbəkəsini genişləndirmək idi. İbtidai məktəbi qurtaran şagirdlər təhsillərini ali-ibtidai və orta təhsil məktəblərində davam etdirə bilərdilər. Təkcə 1919-cu ildə Azərbaycanda dövlət hesabına 15 ali-ibtidai məktəb fəaliyyət göstərirdi. Yaşlılar arasında savadsızlığın ləğv edilməsi də ADR Hökumətinin həyata keçirdiyi mühüm tədbirlərdən idi. 1919-cu il sentyabrın 15-dən etibarən Bakı, Gəncə, Şuşa, Nuxa, Zaqatala və Qazaxda yaşlılar üçün Azərbaycan dilini öyrədən kurslar açıldı. Bu kurslar 3 bölməyə ayrılırdı. Birinci bölmə Azərbaycan dilini və yazmağı tamamilə bilməyənlər, ikinci bölmə dili bilib yazmağı bilməyənlər, üçüncü bölmə isə dili və yazmağı bilib, xüsusi terminləri, Azərbaycan dilində dərs demək üsulları və vasitələrini öyrənmək istəyənlər üçün idi. Bu kurslarla yanaşı, Bakıda Parlamentin üzvü A.Əfəndizadənin rəhbərliyi ilə milli məktəblər üçün xüsusi müdərris kursları açıldı. Bu kurslarda, əsasən, Azərbaycan dilinin tədrisi qaydaları öyrədilirdi. Bakıda birinci realnı məktəbin binasında açılan kurslara Bakı müəllimlər seminariyasının direktoru R.Əfəndiyev rəhbərlik edirdi. S.Qənizadə və bir neçə Parlament üzvünün iştirakı ilə 1919-cu il sentyabrın 17-də Bakıda açılan kursların 500 nəfərə qədər müdavimi vardı ki, onların da çoxu nazirliklərin və digər Hökumət idarələrinin əməkdaşları idi. 1919-cu ilin noyabrından Bakıda azərbaycanlı fəhlələr üçün xüsusi texniki axşam kursları açıldı. Kursların təşkilində onun müdiri mühəndis-texnik Ə.Babayev xüsusi fəallıq göstərmişdi. Xalq Maarifı Nazirliyi kursun işlərinə yaxından kömək göstərirdi. Nazirlik ölkədə xalq maarifinin inkişafına dair geniş tədbirlər planı hazırlamışdı. Hökumət bu planı bəyənmiş və həyata keçirilməsinə razılıq vermişdi. Həmin plana əsasən, təhsil almaq üçün maddi imkanı olmayan 650 şagirdə təqaüd təyin olunması, Bakıda qızlar üçün 25 nəfərlik pansionatın təşkili, Xalq Maarifı Nazirliyi nəzdində pedaqoji və elmi-bədii jurnalların nəşr edilməsi, Gəncə, Qazax, Şuşa və Nuxada kişi, Bakı, Nuxa və Gəncədə isə ikiillik qadın kurslarının açılması, xaricdən gətirilən tədris-çap məhsullarının gömrük xərclərindən azad olunması və s. nəzərdə tutulmuşdu.

ADR dövründə təhsilin inkişafı ilə bağlı görülən mühüm tədbirlərlə yanaşı, maarifi və milli mədəniyyəti təbliğ edən və yayan cəmiyyətlərin, xeyriyyəçi təşkilatların, ittifaqların fəaliyyəti də geniş vüsət almışdı. Xalqın maariflənməsi yolunda fəaliyyət göstərən bütün bu qurumlar milli özünüdərkin dirçəldilməsi istiqamətində mədəni-maarif tədbirləri həyata keçirirdilər. 1919-cu ildə Ba-

kıda Müsəlman Şərqini öyrənən cəmiyyət təsis edilmişdi. Bakı Universitetinin nəzdində yaradılmış bu cəmiyyet Azərbaycan tarixini, ədəbiyyat və mədəniyyətini öyrənmək və təbliğ etmək sahəsində xeyli iş görmüşdü. Xalqm qədim dövr mədəniyyətini araşdırmaq məqsədilə 1920-ci ilin əvvəllərində Xalq Maarifı Nazirliyində arxeologiya şöbəsi yaradılmışdı. "Yaşıl qələm" ədəbi birliyi, İslam incəsənətini və mədəniyyətini mühafizə cəmiyyəti, "Türk ocağı" və s. cəmiyyətlər də fəaliyyət göstərirdi. ADR dövründəki milli cəmiyyətlər içərisində 1918-ci ilin oktyabrında yaradılmış "Türk ocağı" mərkəzinin fəaliyyəti daha əhəmiyyətli olmuşdur. Cəmiyyətin əsas məqsədi Azərbaycan və Osmanlı türkləri, habelə keçmiş Rusiya imperiyası ərazisində yaşayan türk xalqları arasında mədəni əlaqələri inkişaf etdirmək, onları bir-birinə yaxınlaşdırmaq, qarşılıqlı yardımı daha da möhkəmləndirmək idi.

Azərbaycan Hökuməti xalqın milli ənənələr, vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayan muzeylərin, digər maarif və sənət ocaqlarının açılması sahəsində də bir sıra tədbirlər həyata keçirmişdi. 1919-cu ilin dekabrında "İstiqlal" muzeyinin açılması Azərbaycan mədəniyyəti tarixində mühüm hadisə oldu. Burada milli dekorativ sənət nümunələri, xalça və bədii tikmələr, silahlar, əlyazmalar, Quranın nadir nüsxələri, müxtəlif mövzularda qiymətli kitablar toplanmışdı. Muzeyin açılışının Azərbaycan Parlamentinin fəaliyyətinin bir illiyi gününə – 7 dekabra təsadüf etməsi də rəmzi məna kəsb edirdi. Hökumət əhalinin maariflənməsində, elmi biliklərə yiyələnməsində mühüm rol oynayan kitabxana şəbəkəsinin genişlənməsinə xüsusi diqqət yetirirdi. Bu məqsədlə Bakıda dövlət və kütləvi xalq kitabxanalarının açılması haqqında layihələr işlənib hazırlandı.1919-cu ildə Balaxanı-Sabunçu, Bibiheybət və Ağşəhər fəhlələri üçün kitabxanalar açıldı. Həmkarlar ittifaqlarının nəzdində kitabxanalar təşkil olundu. Bunlardan ən böyüyü, əsasən, gənclərin və yeniyetmələrin birləşdikləri mətbəə işçiləri həmkarlar ittifaqının nəzdində Bakıda açıldı.Azərbaycan dilində ilk böyük kitabxana – Milli kitabxananın yaradılması sahəsində xeyli iş görüldü. Onu Bakının mərkəzi hissəsində açmaq nəzərdə tutulmuşdu. Milli kitabxanada Azərbaycana aid kitabları, qəzet və jurnalları, əlyazmaları və digər qaynaqları toplamaq üçün Hökumət tərəfindən İstanbul, Qahirə, Beyrut və Avropanın bir sıra paytaxt şəhərlərinə mütəxəssislər ezam edildi. Bakı Dövlət Universitetinin təsis olunması ilə əlaqədar burada tələbələrin və müəllim heyətinin istifadəsi üçün kitabxana yaradıldı. Bundan başqa, ADR dövründə 1918-1920-ci illərdə Bakı, Gəncə və d. şəhərlərdə 89 adda qəzet və jurnallar nəşr olunurdu. Dövlətin rəsmi orqanı kimi "Azərbaycan" qəzeti nəşr olundu. Bu dövrdə Azərbaycan ədəbiyyatında baş verən dəyişikliklər və irəliləyişlər teatrın inkişafına da təkan vermişdi. Ceyhun və Üzeyir Hacıbəyov qardaşları tərəfindən Bakıda teatr truppası yaradılmışdı. Bakıda Hüseyn Ərəblinskinin rəhbərliyi altında Azərbaycan Dövlət teatrı fəaliyyətə başlamışdı. Azərbaycan hökuməti kinomatoqrafiyanın inkişafına da xüsusi diqqət yetirirdi. Belə ki, 1919-cu ildə Bakıda 16 kinomatoqraf fəaliyyət göstərirdi. 1919-cu ildə ilk rəssamlıq studiyası yaradıldı. Azərbaycan Demokratik Respublikasının təhsilin inkişafında və mədəni quruculuq sahəsində qısa müddət ərzində həyata keçirdiyi mühüm tədbirlər sonralar respublikada xalq maarifinin təşkilində mühüm rol oynadı.

ƏDƏBİYYAT

1. "Azərbaycan Milli Ensiklopediyası". Elmi Mərkəz. Bakı-2007.
2. Yaqub Mahmudov. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası I cild. "Lider Nəşriyyat". Bakı-2004.
3. Azərbaycan Cümhuriyyəti (1918-1920). "Elm" nəşriyyatı. Bakı-1998.

Tərlan ŞIXIYEV
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
terlan_shikhiyev@mail.ru

İdarəetmədə əmək fəaliyyətinin səmərəliliyinin artırılmasının sosial-psixoloji əsasları

Socio-psychological bases of increasing the efficiency of work in the hotel

Социально-психологические основы повышения эффективности работы в отеле

Xülasə. Elmi-tədqiqat işində əmək fəaliyyətinin səmərəliliyin artırılmasının vacibliyinə toxunulmuş, bazar münasibətlərinə uyğun sərbəst iqtisadi sistemin qurulması, elmi-texniki inkişafın sürətləndirilməsi, peşə hazırlığı səviyyəsinin yüksəldilməsi, müasir biliklərin mənimsənilməsi, idarəetmənin sosial-psixoloji üsullarının mərhələləri və kollektiv üzvlərinin sosial inkişafının planlaşdırılması kimi mövzular təhlil edilmişdir. Mehmanxanada əməkfəaliyyətinin səmərəliliyinin artırılmasının təhlili və qiymətləndirilməsi aparılmışdır.
Açar sözlər. Bazar münasibətləri, elmi-texniki inkişafın sürətləndirilməsi, əmək fəaliyyətinin səmərəliliyi, kollektiv üzvləri, sosial-psixoloji.

Резюме. Исследование посвящено важности повышения эффективности трудовой деятельности, создания свободной экономической системы в соответствии с рыночными отношениями, ускорению научно-технического развития, совершенствованию профессиональной подготовки, овладению современными знаниями, социально-психологическому планированию социально-психологического планирования. , Отель был проанализирован и оценен для повышения его эффективности.
Ключевые слова. Рыночные отношения, ускорение научно-технического развития, эффективность трудовой деятельности, коллективных членов, социально-психологические.

Abstract. The research focuses on the importance of enhancing the efficiency of labor activities, establishing a free economic system in line with market relations, accelerating scientific and technical development, enhancing professional training, mastering modern knowledge, social and psychological planning of social and psychological planning. . The hotel has been analyzed and evaluated to improve its efficiency.
Keywords. Market relations, acceleration of scientific and technical development, efficiency of labor activity, collective members, social and psychological.

Cəmiyyətdə baş verən dəyişikliklər indi ciddi şəkildə iqtisadiyyatda da sirayət etmişdir. Bazar münasibətlərinə uyğun sərbəst iqtisadi sistemin qurulması inzibati amirlik idarəetmənin əvəzinə çoxsaylı təsərrüfatçı subyektlərə arxalanan təsərrüfat mexanizminin formalaşmasını nəzərdə tutur. Bu məsələnin həlli isə ümumi təşkilati tipindən sahibkarlığın təşkilatı tipinə keçilməsindən asılıdır. Sahibkarlığın təşkilati tipində özünəməxsus yeri idarəetmə kadrlarının səriştəliyi, işgüzarlığı, təşəbbüskarlığı, risketmə qabiliyyəti, işçiləri ruhlandırma bacarığı və s. tutur [5,s 91]. Elmi-texniki inkişafın sürətləndirilməsi və bazar iqtisadiyyatı idarəetmə işçilərindən fəal iş tələb edir. Bu iş hər şeydən əvvəl icra funksiyası ilə daha sonra isə qabağı görmə əsasında təsərrüfat quruculuğuna kompleks yanaşma əsasında və sözün geniş mənasında səmərəliliyə meyl etmə əsasında liderliyin reallaşdırılması ilə bağlıdır [3,s.44]. Müasir şəraitdə istehsal rəhbərləri texniki cəhətdən savadlı olmalı və müəyyən peşə hazırlığı səviyyəsinə malik olmalıdır. Rəhbərlik etmək üçün səlahiyyətli olmaq, bütün istehsal şəraitini tam və ya dəqiq bilmək istehsal texnikasını müasir biliklər səviyyəsində mənimsəmək və yeni idarəçilik təcrübəsinə malik olmaq lazımdır. Idarəetmə rəhbəri xeyli dərəcədə insan amili ilə zəruri biliklərə və ehtiyatlara malik olmalıdır ki, dəyişən xarici şəraitə tez uyğunlaşsın. Məhz buna görə kollektiv fəaliyyətin məqsədyönlü idarəetmə üsulları vasitəsilə həyata keçirilməsinə çalışmaq vacibdir. Həmin üsullar içərisində inzibati-sərəncam və ya təşkilati, iqtisadi və sosial-psixoloji amilləri nəzərə alan formalara üstünlik verilməlidir [5,s.159].

İdarəetmənin sosial-psixoloji üsulları öz növbəsində bir neçə aralıq mərhələlərdən ibarət olmaqla kollektiv fəaliyyətdə onların hər biri ayrı-ayrılıqda mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətlər təsnifat üzrə aşağıdakı sahələri əhatə edə bilər:

- Kollektiv üzvlərinin sosial inkişafının planlaşdırılması müəssisənin ümumi işinin tərkib hissəsinə çevrilməsi, onun reallığının təmin edilməsi;
- Kollektiv üzvlərinin istehsalat və yaradıcılıq fəallıqlarının və təşəbbüskarlıqlarının artırılması, o cümlədən onların, səmərələşdiricilər və ixtiraçılar hərəkatına geniş miqyasda cəlb olunması;
- Kollektivdə əlverişli psixoloji iqlimin yaradılması qarşılıqlı əlaqə münasibətlərinin genişləndirilməsi vasitəsilə işçi fəallığının yüksəldilməsi; [1,s.67]
- Kollektiv üzvlərinin və fərdlərin mükafatlandırılmasının müxtəlif formalarından istifadə edilməsi, əməyin nəticələrinə görə işçiləri vəzifədə irəliləyişə sövq etmək, həvəsləndirmək;
- Kollektivdə qrup özünündəkini tərbiyə edilməsi;
- Kollektiv ənənələrinin qorunması, inkişaf etdirilməsi və şəxsi təşəbbüskarlığın artırılması, birgə yaradıcılıq meylinin artırılması;
- Idarəetmədə kollektiv üzvlərinin fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınması və onlardan ictimai-zəruri sahələrdə istifadə etmək;
- Kollektiv üzvlərinin əmək fəaliyyətinin motivlərinin formalaşdırılmasının öyrənilməsi və istiqamətləndirilməsi, idarəetmədə onların nəzərə alınması və s. [1,s.68]

İctimai və əmək fəallığının yüksəldilməsinin sosial amillər arasında ilk yerlərdən birini işçinin şəxsi planda inkişaf etmək məqsədi tutur. Bu məsələnin həllində başlıcası elmin və təcrübənin irəli sürdüyü vasitə və üsulların hamısından mümkün qədər geniş və hərtərəfli istifadə etməkdir. Yenilikçi olmaq, təşəbbüs göstərmək, təcrübə mübadiləsində bəhrələnməklə təkcə kollektiv maraqların təmin edilməsi deyil, həm də şəxsin özünün mədəni və proporsional inkişafına səbəb olur. Heyət üzvlərinin fəallıq göstərdiyi bütün yarışlarda, müsabiqələrdə səmərələşdirici işlərdə fəaliyyətləri təkcə mənəvi cəhətdən deyil, həm də maddi cəhətdən mükafatlandırılmalıdır, bu özü bazar münasibətlərinin genişlənməsinə güclü kömək edir. [2, s.56]

İdarəetmədə maddi həvəsləndirmə və əməyin düzgün ödənilməsindən başqa, fərdi-əmək fəallığı üçün mükafatlandırma da nəzərdə tutulmalıdır. Bunun böyük stimullaşdırıcı əhəmiyyəti vardır, çünki o digər işçiləri yaradıcı fəaliyyətə, texniki və idarəetmə məqsədlərinin həllinə cəlb edilməsinə kömək edir. Kollektivdə münasibətlərin tənzimlənməsi, yəni əlverişli psixoloji iqliminyaradılması idarəetmənin mühüm vasitəsi sayılır. Kollektivin sağlam psixoloji mühitin formalaşdırılmasında, rəhbərdə şəxsi nümunə, səriştəlik və ümumi mədəniyyət, özünə və kollektivə tələbkarlıq, əmək və istehsalat intizamı kimi keyfiyyətlərin böyük əhəmiyyəti vardır. Rəhbərin tənqidə obyektiv münasibəti, tabeçilikdə olanlara köməyi kollektivin işinin yaxşılaşdırılmasına böyük dayaq verir. İşçilər tərəfindən verilmiş təkliflərin müdafiə olunması, tapşırıqların düzgün bölüşdürülməsi və kollektiv üzvlərinin mükafatlandırılması zamanı idarəetmə heyətinin obyektivliyi psixoloji mühitə böyük təsir göstərir. Kollektivin üzvləri arasında və ayrı-ayrı kollektivlər arasındakı münaqişə hallarının aradan qaldırılmasında rəhbərin şəxsən iştirakı psixoloji mühiti əsaslı surətdə yaxşılaşdırmaqla bərabər, idarəetmə heyətinin nüfuzunu xeyli yüksəldir [4, s.47]. Əlverişli psixoloji mühitin yaradılmasında və əmək fəallığının yüksəldilməsində əməyin humanistləşdirilməsi, müsiqili müşaiyət, rənglərin fonu, idman fasilələri, rahat istirahət yerləri kimi mərhələlərin də böyük əhəmiyyəti vardır. Insanların idarəedilməsi – elm və sənətdir, bu fikir hələ çox-çox əvvəllər insanları məşğul etmiş və onu həmişə öz yaradıcılıqları ilə zənginləşdirməyə çalışmışlar. İdarəetmə elmi dedikdə - onun aid olduğu sahənin məxsus olduğu nəzəriyyənin dərindən öyrənilməsi, aidiyyatı qərarların elmi əsaslandırılması, rəhbərlik üsullarının və fəndlərinin işlənib hazırlanması başa düşülür. Təbii ki, idarəetmənin elmi xüsusiyyətləri mövcud nəzəriyyənin öyrənilməsinə əsaslanmaqla, idarəetmə fəaliyyəti təcrübə və intuisiya ilə sıx əlaqəli şəkildə həyata keçirilməlidir [5, s.69].

İstehsal kollektivinin sosial-psixoloji mühiti bir çox daxili amillərin təsirindən asılı olmaqla formalaşır, onlardan ən əsasları aşağıdakılardır:

- kollektivin işçi heyətinin quruluşu;
- kollektiv məqsədlərinin vahidliyi və üzvlər arasında iş səviyyəsi; - kollektiv üzvlərinin qarşılıqlı əmək və şəxsi münasibətlər uyğunluğu; [3, s.74]

- istehsal-texnoloji vəziyyət və işçi münasibətləri;

- istehsalat mühitinin mövcud durumu və s. İstehsalat kollektivi, briqadanın, sexin sahənin və ya hər hansı qrupların kollektivi bir-birindən təkcə kəmiyyətcə deyil, həm də keyfiyyətcə, tələbat və məqsədlərin səviyyəsinə görə fərqlənirlər. Lakin bundan asılı olaraq, hər bir istehsal kollektivi ümumi cəhətlərə malikdir və müxtəlif səviyyədə olsa da, konkret qanunlara tabedirlər. [3, s.75]

ƏDƏBİYYAT

1. T.Ə.Quliyev "İdarəetmənin əsasları", Bakı – 1993
2. T.Ə.Quliyev, Ə.İ.Məmmədov "Əməyin iqtisadiyyatı və sosiologiyası" Bakı2009.136 s.
3. T.Ə.Quliyev "Əməyin sosiologiyası", Bakı – 1998 179 s.
4. T.Ə.Quliyev "Əməyin iqtisadiyyatı", Bakı – 2003. 144 s.
5. M.Ə.Əliyev, H.İ.Həmidov. "Biznesdə insan resurslarının idarə edilməsi" Bakı2013. 531 s.

İlkin ƏLİZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
alizade_ilkin96@mail.ru

Dünya mehmanxana sənayesində idarəetmə formaları

Forms of management in the global hotel industry

Формы управления в мировой гостиничной индустрии

Xülasə. Elmi-tədqiqat işində dünya mehmanxana idarəetmə sisteminə toxunulmuş, idarəetmə sisteminin tarixinə nəzər salınmış və iri mehmanxanalar üzərində təhlillər aparılmışdır. Dünya mehmanxana sferasında françayzer və françayz mehmanxanalarının mənfi və müsbət, o cümlədən standlarların qoyulmasına diqqət yetirilmişdir. Yekun olaraq ölkəmizdə idarəetmə formalarına yanaşma analiz olunaraq qeydlər aparılmışdır.

Açar sözlər. Mehmanxana sənayesi, Françayzinq, Françayzer, Françayz, müqavilə, mehmanxana bazarı.

Резюме. Исследование сосредоточено на глобальной системе управления отелями, рассматривает историю систем управления и анализирует основные отели. В мировой гостиничной индустрии внимание было уделено плюсам и минусам франчайзи и франшизных отелей, в том числе и фуршетам. Наконец, подход к формам управления в нашей стране был проанализирован и записан.

Ключевые слова. Гостиничная индустрия, франшиза, франчайзи, франшиза, договор, гостиничный рынок.

Abstract. The research focuses on the global hotel management system, looks at the history of management systems, and analyzes major hotels. In the world hotel industry, attention has been paid to the pros and cons of franchisee and franchise hotels, including stand-ups. Finally, the approach to the forms of governance in our country has been analyzed and recorded.

Keywords. Hotel industry, franchise, franchisee, franchise, contract, hotel market.

Françayzinq - İri və kiçik müstəqil müəssisələrin müqavilə münasibətləri sistemidir. Bu idarəetmədə bir xüsusiyyət vardı ki, kiçik mehmanxana iri məşhur mehmanxana nişanı (markası) altında fəaliyyət göstərir [2, s 46]. Beynəlxalq Françayzinq Təşkilatları Assosiasiyası françayzinqin geniş təyinatını verir. Françayzinq müəyyən münasibətləri təyin edir. Françayzer" (franşizverən) françayziyə*'(franşizalan) qanuni qaydada müdafiə olunmaqla, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququ verir, habelə bu fəaliyyətin təşkilinə, təlim-təhsil almağa və s. kömək edir [5, s 21].

Françayzer müəssisənin tam konsepsiyasını və iş üsullarını yaradır, franşizalan bu imtiyazlardan istifadə etmək hüququ qazanır. Fransız mənşəli termin olmasına baxmayaraq, françayzinq müxtəlif spesifik müqavilə formasında ABŞ-da yaranmışdır. 1907-ci ildə «Rits-Development Company» Nyu-York firmasından «Rits Carlton» adını almaqla bu sistemin əsasını qoymuşdur.

1927-ci ildə Hovard Conson françayzinq müqaviləsi əsasında otellərini idarə etməyə başlayır. Bu ona əvvəlcə ABŞ-ın şərq sahillərində, sonra otra qərbdə, 60-cı illərdə Kaliforniyada öz biznesini genişləndirməyə imkan verir. Hal-hazırda Hovard Consonun mehmanxana şəbəkəsinə 900 müəssisə daxildir. 60-cı illərdə françayzinq mehmanxana və motellərin yüksəliş və inkişaf strategiyası olur. 90-cı illərdə də bu tendensiya qalmaqda idi.

Françayzinq mehmanxana sənayesində şirkətin öz fəaliyyətini daha dinamik aparmağa imkan verən konsepsiyadır. Şirkətin kənardan maliyyə cəlb edib daha sürətlə inkişaf etməsi bu konsepsiyanın əsas mahiyyətidir. Mehmanxana sənayesində françayzinqlə məşğul olan ən iri şirkət «Hospitality Franchise System» sayılır. Parsippani şəhərində (Nyu-Cersi ştatı) yerləşən bu şirkətin 5300 oteli var. Onun ardınca «Choice Hotels international» şirkəti gəlir (3130 otel). Bu siyahıda üçüncü yeri «Holiday inn Worldwide» (2082 otel) tutur [3, s 45]. Hər bir françayzinq müqaviləsində françayzer françayziyə öz firma nişanı, iş texnologiyası və metodları, bron (sifariş) sistemi, marketinq üsulu, güzəşt sistemi və s.-dən istifadə etmək hüququ verir. Françayzer özünün bazar şəbəkəsinə yeni mehmanxanalar cəlb etməkdə maraqlıdır. Bu məqsədlə adətən françayzer maraqlı tərəflər üçün xüsusi sənədlər hazırlayır, bunlardan ən əsası şərtlər haqqında məlumatdır. Şərtlər haqqında məlumatda françayzerin rəhbər heyətinin ixtisası, şirkətin maliyyə durumu, müqavilə bağlanarsa, münasibətlərin mahiyyəti, hansı konkret məsələlərdə françayzer françayziyə yardım edir, müəssisədə çatışmayan hansı əlavə avadanlıq almağa və s. kömək göstərir. Françayzer və françayzi arasında hüquqi münasibət müqavilənin imzalanması ilə təsdiq olunur [2, s 134]. Mehmanxana sənayesi üçün françayzinq müqaviləsi mehmanxananın xarici görünüşü, vestibülün interyeri, nömrələrin sayı, qonaqlara təqdim olunan xidmətlər, onların keyfiyyəti və s. şərtləri müəyyən edir. Müqavilənin əsas elementlərindən biri razılaşdırılmış pul ödəmələrinin formalarıdır. Mərkəzi bronlaşdırma sistemindən istifadə edən mehmanxana pul ödəməlidir. Bundan əlavə, mehmanxana ona verilən hüquq və imtiyazlara, göstərilən xidmətə görə birdəfəlik müəyyən edilmiş məbləğ ödəməlidir. Bir qayda olaraq bu ödəməyə layihə sənədlərinin paketi, müəssisəni idarə etmək üçün tam təlimat toplusu, orta və yüksək rəhbər heyətin ixtisasını artırmaq, müəssisənin açılışına qədər xidmət heyətinin təlim və təhsili daxildir. [1, s 98]

Daxilolma haqqı françayzinq müqaviləsi bağlanan gündən verilir və ya iki bərabər hissəyə bölünür, bunun 50 faizi təlimdən əvvəl, qalanı isə təlim müddətində ödənilir. Françayzerə ilk ödənilən məbləğin haqqı onun nişanının nüfuzundan asılıdır. Bəzən françayzdan reklam üçün ümumi gəlirin 1-5%-ni təşkil edən məbləğ alınır. Françayzinq müqaviləsinə xitam vermək üçün potensial səbəblər müxtəlif ola bilər: [4, s 77]

4. Françayzer tərəfindən təyin edilmiş standartlar səviyyəsini françayz yerinə yetirməsə;
5. Mehmanxananın xidmət mexanizmi, çeşidi, keyfiyyəti, restoran menyusu müəyyən edilmiş normalara uyğun olmasa;
6. Müqavilə üzrə pul ödəmələri olmasa. Françayzinq sistemi hər iki tərəf üçün müsbət və mənfi cəhətlərə malikdir. [4, s 78]

Françayzinq müqaviləsinin françayz üçün müsbət cəhətləri:

7. Fəaliyyətinin əvvəlində ona planlar paketi ilə yardım göstərilir;
8. Ölkə və dünya üzrə reklamı təmin olunur;
9. Mərkəzləşdirilmiş bron sisteminə qoşulur;
10. Qonaqlara xidmət göstərmək məqsədilə alınan avadanlıq güzəştlə verilir. [3, s 82]

Françayzinq müqaviləsinin françayz üçün mənfi cəhətləri:

1. Françayzerə zəruri qəbul haqqı ödənişini vermək;
2. Françayzerin tələb etdiyi zəruri standartlara əməl etmək;
3. Françayzerin yarıtmaz fəaliyyəti nəticəsində firmanın nişan imicinin nüfuzdan düşməsi. [3, s 83]

Françayzinq müqaviləsinin françayzer üçün müsbət cəhətləri:

11. Mehmanxana bazarında az investisiya qoymaqla biznesini genişləndirir;
12. Françayzer ödəmələrdən əlavə gəlir qazanır.

Françayzer üçün mənfi cəhətlər:

1. Gəlir ancaq françayzinin ödəmələri ilə məhdudlaşır.

2. Françayzi müəyyən edilmiş keyfiyyət standartlarına əməl etmədikdə françayzerin imici, nişanı nüfuzdan düşür.

Beynəlxalq françayzinq təşkilatının apardığı tədqiqatlar göstərir ki, onun üzvlərinin ancaq 1 faizi iflasa uğrayır.

1960-cı ilə qədər «Hilton» və «Şeraton» şirkətləri françayzinq müqavilə formasından imtina etmişdilər. Yalnız 1960-cı ildən sonra bu şirkətlərin strategiyasını françayzinq müqavilələri təşkil etməyə başlayıb. Bu hələ də davam edir. [4, s 114]

ƏDƏBİYYAT

1. Борисова Ю.И., Гаранин Н.И. и др. «Менеджмент гостиничного и ресторанного обслуживания», М., РМАТ, 1997 г.
2. Борисов К.Г. «Введение в гостеприимство», М., 2000 г.
3. Праймер Р.А. «Основы управления в индустрии гостеприимства», М.. 1995 г.
4. S. Гвозденко А.А. «Страхование в туризме», М, 2002 г.
5. Гололоб С'.Т. «Эксплуатация инженерно-технического оборудования гостиниц Гоекоминтуриста ССРИ», М., 1984 г,

Elmira QOCAYEVA
Azərbaycan Turizm və Menecment Universiteti,
i.ü.f.d.,dosent
e.qocayeva@atmu.edu.az

Azərbaycan Respublikasının inteqrasiya proseslərinin sosial – iqtisadi sahələrinin perspektivləri

Социально-экономические перспективы интеграционных процессов Азербайджанской Республики

Socio-economic prospects of integration processes in the Republic of Azerbaijan

Xülasə: Müəllif məqalədə qeyd edir ki, təbii resursların hasilatının və ixracının artması ilə 2009-cu ildə özünü büruzə verməklə yeni impuls almış iqtisadi artım dinamikası hətta qlobal iqtisadi böhran şəraitində belə öz tempini saxlamış və bu hal Azərbaycan iqtisadiyyatında sabitliyin, eləcə də seçilmiş strateji kursun müvəffəqiyyətlə həyata keçirilməsinin bariz nümunəsidir. Beləliklə, Azərbaycanda son illər ərzində sosial problemlərin effektiv həlli istiqamətində böyük tərəqqi əldə edilmişdir, əhalinin sosial müdafiəsi sistemi qabaqcıl beynəlxalq standrtlarına uyğun bir şəkildə yenidən qurulmuşdur.

Açar sözlər: qeyri-neft sektoru, sosial – iqtisadi proseslər, təhsil, elm, turizm.

Резюме: Автор отмечает, что динамика экономического роста, которая получила новый импульс, проявившись в 2009 году в результате увеличения производства и экспорта природных ресурсов, сохранила свои темпы даже в условиях глобального экономического кризиса.

Таким образом, за последние годы в Азербайджане достигнут значительный прогресс в направлении эффективного решения социальных проблем, и система социальной защиты населения была реконструирована в соответствии с лучшими международными стандартами.

Ключевые слова: ненефтяной сектор, социально-экономические процессы, образование, наука, туризм.

Abstract: The author notes that the dynamics of economic growth, which received a new impetus, manifested in 2009 as a result of increased production and export of natural resources, has maintained its pace even in the context of the global economic crisis. Thus, in recent years, significant progress has been made in Azerbaijan towards the effective solution of social problems, and the system of social protection of the population has been reconstructed in accordance with the best international standards.

Key words: non-oil sector, socio-economic processes, education, science, tourism.

Ötən əsrin 90-cı illərin ortalarından başlayaraq ulu öndər Heydər Əliyevin rəhbərliyi altında ölkəmiz tədricən dirçəlməyə və problemlərin həllinə yönəlmiş möhkəm addımlar atmağa başlamışdır. İlk növbədə, bərpa edilmiş dövlət müstəqilliyinin dayanıqlığı təmin edilmiş və ölkə daxilində siyasi sabitlik bərqərar olunmuşdur. Həmçinin makroiqtisadi balansın formalaşmasına və həmin dövrdə mövcud olmuş hiperinflyasiyanın cilovlanmasına istiqamətləndirilmiş təsirli tədbirlərin aparılması ilə bağlı qərar qəbul edilmiş, mürəkkəb və ağır sosial məsələlərin həllinə yönəlmiş işlər qətiyyətlə görülməyə başladı.Xalqın maraqları naminə Azərbaycanın malik olduğu zəngin karbohidrogen resursların istifadəsinin təməli məhz o illərdə "Əsrin kontraktı"nın bağlanılması ilə qoyulmuşdur, eyni zamanda dərin düşünülmüş və elmi əsaslara söykənən iri miqyaslı iqtisadi islahatların aparılmasına start verilmişdir. Məhz həmin illərdə qalıqları hələ də mövcud olmuş idarəetmənin inzibati-amirlik sisteminin azad rəqabətlə şərtləndirilən yeni münasibətlərlə əvəzlənməsinə istiqamətlənmiş və bazar iqtisadi sistemin formalaşdırılmasına yönəlmiş siyasi tədbirlər kimi məqsədyönlü xarakter daşıyan köklü institusional dəyişikliklər, dövlət əmlakının özəlləşdirilməsinin və yeni əmlak münasibətlərin formalaşdırılması, eləcə də torpaq islahatların keçirilməsi kimi mühüm dəyişikliklərin və yeniliklərin əsası qoyulmuşdur [2].

2000-ci illərdə bizim ölkədə həyata keçirilən genişmiqyaslı islahatların sonrakı dərinləşməsi sürətli inkişaf üçün əlverişli imkanların olduğunu üzə çıxarmış, cəmiyyətin sosial-iqtisadi tərəqqinin daha yüksək mərhələsinə qədəm qoyması üçün lazımi şərait yaratmışdır. Ölkədə investisiya mühitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmış, dövlət idarəçiliyi müasir meyarlara uyğun bir şəkildə yenidən qurulmuşdur.

Təbii resursların hasilatının və ixracının artması ilə 2009-cu ildə özünü büruzə verməklə yeni impuls almış iqtisadi artım dinamikası hətta qlobal iqtisadi böhran şəraitində belə öz tempini saxlamış və bu hal Azərbaycan iqtisadiyyatında sabitliyin, eləcə də seçilmiş strateji kursun müvəffəqiyyətlə həyata keçirilməsinin bariz nümunəsidir. Bununla yanaşı, neftdən əldə olunan gəlirlərin qeyri-neft sektoruna istiqamətləndirilməsi bu sahədə də ciddi uğurların əldə olunmasına və sürətli inkişafın reallaşdırılmasına səbəb olmuşdurdur ki, bunun sayəsində son on il ərzində qeyri-neft sektorunun ortaillik artım templəri, demək olar ki, 11 faizə çatmışdır.

Bununla bərabər, qeyri-neft sektorunda yeni istehsal sahələrinin açılması və yeni iş yerlərinin açılması, istehsalat, nəqliyyat və kommunal infrastrukturunun görünməmiş miqyasları, müasir sosial inrastruktur müəssisələrin yaradılması, o cümlədən, yeni tədris, səhiyyə, idman müəssisələrin tikintisi və bu kimi digər genişmiqyaslı layihələrin həyata keçirilməsi qeyd etdiyimiz dövrdə ümumilikdə ölkəmizin dinamik və dayanıqlı inkişafının təməli qismində çıxış etmişdir.


Cədvəl 1

Yoxsulluq həddi və yoxsulluğun səviyyəsi

	2014	**2015**	**2016**	**2017**	**2018**
Yoxsulluq həddi, manat	129.6	135.6	148.5	165.7	175.2
Yoxsulluq səviyyəsi, faizlə	5.0	4.9	5.9	5.4	5.1

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycanda bu illər ərzində sosial problemlərin effektiv həlli istiqamətində böyük tərəqqi əldə edilmişdir, əhalinin sosial müdafiəsi sistemi qabaqcıl beynəlxalq standrtlarına uyğun bir şəkildə yenidən qurulmuşdur. Uğurlu sosial siyasətin həyata keçirilməsi sayəsində yoxsulluq səviyyəsi 2014-ci ildə 5,0 faiz və 2018-ci ildə 5,1 faiz təşkil etmişdir [1].

Yeni pensiya sistemi qüvvəyə düşmüş, ünvanlı dövlət sosial yardım sistemi və sosial müavinətlərin verilməsi sistemi inkişaf etdirilmişdir (2006 – ci ildən).




Respublikanın iqtisadi potensialının yüksəlməsi ilə səhiyyə sisteminin inkişafı üçün əlverişli şərait yaradılmış, əhalinin sağlamlığının qorunması istiqamətində mövcud olmuş problemlərin ardıcıl surətdə həll edilməsi həyata keçirilməyə başlamışdır. Son on il ərzində səhiyyə sisteminin inkişafına ayrılan büdcə vəsaitləri 10 dəfədən çox artmışdır və hal-hazırda 650 milyon manat məbləğini üstələyir. Bundan əlavə, son onillik ərzində 569 tib müəssisəsi inşa edilmiş yaxud əsaslı surətdə təmir edilmişdir ki, onların da böyük əksəriyyəti məhz respublikamızın regionlarında cəmləşir, hazırda fəaliyyət göstərən bütün tibb müəssisələri ən qabaqcıl müasir texnika və avadanlıqları ilə təchiz olunmuşdur [1].

Respublikada yaşayan əhalinin sağlamlığının qorunması istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində əməli tədbirlər görülmüşdür. İnfeksion əstəliklərlə mübarizədə əhəmiyyətli uğurlar əldə edilmiş və sözügedən bu sfera, praktiki səhiyyənin prioritet istiqaməti qismində, daim dövlətin diqqət mərkəzindədir.

Son illər ərzində təhsil sferasında da xeyli müvəfəqiyyətlər əldə olunmuşdur, bu uğurlar da bilavasitə ölkəmizin müasirləşməsinə yönəlmiş sosial-iqtisadi siyasətlə bağlıdır. Söyləmək kifayətdir ki, elmi sferaya ayrılan büdcə vəsaitlərin ümumi həcmi 2005-ci illə müqayisədə 5 dəfədən də çox artaraq 2016-cı ilə yaxın 110,2 faiz təşkil etmişdir ki, bu da ÜDM-ə nisbətən 0,2 faiz, dövlət büdcəsinin xərclərinə nisbətən isə 0,6% təşkil etmişdir. Bununla yanaşı, təhsilin məzmunu nöqteyi-nəzərdən yenilənməsinə və müasirləşdirilməsinə yönəlmiş mühüm islahatlar həyata keçirilmiş, Azərbaycan təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyası üzrə əhəmiyyətli addımlar atılmışdır [1].

Elm, təhsil, səhiyyə, mədəniyyət, idman və digər obyektlərin inşa edilməsinə və yenidən qurulmasına 16 milyon manat məbləğində maliyyə vəsaiti yönəldilmişdir, energetika, su və qaz təchizatı sferalarında, eləcə də nəqliyyat, kommunail xidmətlər və meliorasiya təsərrüfatında infrastruktur layihələrin tikintisinə 153,4 milyon manat sərf olunmuşdur.



Qrafik 1. Elmi -Tədqiqat işlərinə çəkilən ümumi xərclər, manat

Qrafikdə görmək olar ki, son 19 ildə Tədqiqata çəkilən xərclər artır və təhsil sahəsinə müsbət təsirini göstərir.

Azərbaycan Respublikasında turizm dövlət səviyyəsində milli iqtisadiyyatın prioritet sferası qismində qəbul olunub. Məsələ burasındadır ki, turizm ölkənin milli iqtisadiyyatının inkişafında əhəmiyyətli rol oynayır. Sonuncu statistik məlumatlara uyğun olaraq, ölkəmizdə turizm sektorunun ÜDM-də payı 7,1 faizə çatmışdır [1].

Turizm sektorunun inkişafı səviyyəsi ölkə turistlərinin ümumi dövriyyəsi ilə müəyyən olunur və bura turizm məqsədilə xarici ölkələrdən Azərbaycana gəlmiş əcnəbi vətəndaşlar və xaricə səyahət etmək məqsədilə yollanan Azərbaycan rezidentlərin ümumi sayı daxildir. Başqa sözlə desək, söhbət həm giriş, həm də getmə turizmdən gedir. Gəlmə turizmi – Azərbaycan Respublikasında daim yaşamayan şəxslərin ölkə hüdudlarında səyahət etmələri. Getmə turizmi – Azərbaycan Respublikasında daim yaşayan şəxslərin başqa ölkələrə səyahət etmələri. Beləliklə, statistik məlumatlar əsasında gəlmə və getmə turizmin inkişafı tendensiyalarını müfəssəl surətdə nəzərdən keçirək.

Gəlmə turizmlə müqayisədə, getmə turizmi üçün bir o qədər də ciddi stimulladşaırıcı tədbirlərin həyata keçirilməsinə ehtiyac yoxdur. Cədvəldə təqdim olunan statistik göstəricilərə uyğun olaraq, son beş il ərzində ölkədən çıxan turistlərin sayında 1819,6 min nəfərdən 3319,4 nəfərə qədər artım qeydə alınmışdır ki, bu da 1499,8 nəfər təşkil edir, bununla yanaşı, ildən ilə xarici ölkələrə səyahətə və səfərlərə yollanan vətəndaşlarımızın və turistlərimizin sayında əvvəlki illə müqayisədə artımlar baş verir [1].

Cədvəl 2.

Turizm üçün xarakterik sahələr üzrə əsas göstəricilər

	2014	**2015**	**2016**	**2017**	**2018**
Turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı, nəfər	41,886	49,449	43,477	46,837	53,222
Turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərin həcmi, milyon manat	2,404.2	2,437.3	2,746.1	3,151.0	3,464.3
Turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi, faizlə	4.1	4.5	4.3	4.5	4.3
Turizm üçün xarakterik sahələr üzrə qoyulan investisiyaların həcmi, milyon manat	2,204.0	1,063.9	363.0	267.3	229.7

Gəlmə turizmlə bağlı vəziyyət isə bir qədər fərqlidir. 2014-2018-cı illər ərzində Azərbaycanın beynəlxalq turist axınlarının dinamikası və strukturu sosial-iqtisadi və digər xarakterli bir sıra müxtəlif istiqamətli amillərin təsiri altında formalaşırdı. Cədvəldə göründüyü kimi turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı 2018 – ci ildə 2014 – cü ilə nisbətən 11 336 nəfər çjxalmışdır.

Nəzərə alsaq ki, Azərbaycanda turizm şirkətləri sektoru kifayət qədər inkişaf etməmişdir, ölkəmizə gələn insanların böyük əksəriyyəti respublikamıza müstəqil şəkildə səfərə yollanırlar. 2012-ci ildə əvvəlki illə müqayisədə turistlərin daxil olma axını 9,9% artmışdır. Bu, ilk növbədə, ölkəmizdə dünya miqyaslı müxtəlif beynəlxalq tədbirlərin, xüsusilə də "Avroviziya" müsabiqəsinin keçirilməsi ilə bağlıdır. Son beş illik dövrə nəzər salsaq görərik ki, Azərbaycana gələn turistlərin ən böyük axını 2013-cü ildə qeydə alınmışdır (2,508,9 milyon nəfər). Burada uzaq xarici ölkələrdən gələn turistlər üçün viza prosedurunun asanlaşdırılması da kifayət qədər böyük rol oynamışdır. İndi, Azərbaycana turun əldə olunması zaman turistlər giriş vizasını birbaşa aeroportda almaq imkanına malikdirlər [4].

Nəticə. Beləliklə, qeyd etdiyimiz göstəricilər Azərbaycanda giriş və o cümlədən də daxili turizmin artım tempini xarakterizə edirlakin eyni zamanda bir sıra aktual problemlərin həll edilməsi zərurəti meydana gəlir ki, onların sırasında aşaıdakıları göstərə bilərik:

1. turizm xidmətlərinə olan yüksək qiymətlər;
2. bazarda büdcə aviaşirkətlərin olmaması, eləcə də aviadaşımalar üzrə xidmətlərin yüksək dəyəri. Azərbaycan aviadaşımalar bazarına digər şirkətlərin də cəlb edilməsində maraqlı olmalıdır, aeroportda tətbiq edilən yığımlara endirimlər etməlidir, bu da aviabiletlərin qiymətlərinə müsbət təsir göstərməklə onların miqdarının azaldılmasına səbəb olacaqdır;
3. Azərbaycanın turizm imkanlarının dünya turizm bazarında kifayət qədər reklam edilməməsi;
4. mehmanxana xidmətləri bazarında mükəmməl rəqabətin kifayət edəcək dərəcədə inkişaf etməməsi;
5. sahibkarlara büdcə turistləri üçün nəzərdə tutulmuş 2 və 3 ulduzlu otellərin və hostellərin inşa edilməsi məqsədilə müvafiq güzəştlər təqdim etmək lazımdır.

ƏDƏBİYYAT

13. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2019, səh. 814.
14. Veçkanov G. S. İqtisadi təhlükəsizlik: Dərs vəsaiti / G. S. Veçkanov. - Sankt-Peterburq: Piter, 2010 .- 384 s.
15. Burov, V.Yu. Sahibkarlığın əsasları: dərs vəsaiti / V.Yu. Burov. - Çita, 2011 .- 441 səh.
16. Nabatnikov V. M. Sahibkarlıq fəaliyyətinin təşkili. Dərslik / V.M. Nabatnikov. - Rostov –D.: Feniks, 2011 - 256 səh.

Esmira QOCAYEVA
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
esmiragodjaeva98@gmail.com

İqtisadi mədəniyyətini dayanıqlı inkişafının əsas tendensiyaları

Основные тенденции устойчивого развития экономической культуры

The main directions of sustainable development of the economy of culture

Xülasə: Əvvəlki bir neçə il ərzində Azərbaycan Respublikasında bazar iqtisadiyyatının, yaradıcılıq və sahibkarlıq fəaliyyətinin, habelə rəqabət münasibətlərinin inkişaf etdirilməsi üçün əlverişli şərait yaradılmış, istehsal münasibətləri sistemində dəyişikliklər baş vermişdir. Prioritetləri təqib edən dövlət mədəniyyət və incəsənət sferalarına sərf edilən dövlət xərclərini əhəmiyyətli dərəcədə artırmışdır. Beləliklə, dünya ictimai fikirdə mədəniyyət ölkənin nüfuzunun əsas qarantlarından biri qismində çıxış edir. Mədəniyyətdə əldə olunan nailiyyətlər – bu, qədim aforizmdə deyildiyi kimi, "ömürlük nailiyyyətdir" və bu fayda bütün dünya üçün xidmət göstərir.

Açar sözlər: mədəniyyət, dövlət xərcləri, sahibkarlıq fəaliyyəti, davamlı inkişaf, rəqabət.

Резюме: За последние несколько лет в Азербайджанской Республике были созданы благоприятные условия для развития рыночной экономики, творческой и предпринимательской деятельности, а также для конкурентных отношений. Следуя приоритетам, государство значительно увеличило государственные расходы на культуру. Таким образом, в мировом общественном мнении культура выступает одним из главных гарантов имиджа страны. Достижения в культуре, как говорится в древнем афоризме, являются «жизненным достижением», и выгодой для всего мира.

Ключевые слова: культура, государственные расходы, предпринимательская деятельность, устойчивое развитие, конкуренция.

Abstract: Over the past few years, favorable conditions have been created in the Republic of Azerbaijan for the development of a market economy, creative and entrepreneurial activities, as well as for competitive relations. Following the priorities, the state significantly increased government spending on culture. In this way, in world public opinion, culture is one of the main guarantors of the country's image.

Achievements in culture, as they say in the ancient aphorism, are a “life achievement”, and benefit for the whole world.

Keywords: culture, government spending, entrepreneurial activity, sustainable development, competition.


Sosial sferada başlıca məqsəd əhalinin həyat səviyyəsinin və keyfiyyətinin elmi cəhətdən əsaslandırılmış parametrlərinin əldə olunmasından, əhalinin orta həyat səviyyəsinin artırılmasından, insanın yaşayış mühitinin yaxşılaşdırılmasından ibarətdir.

Əvvəlki bir neçə il ərzində Azərbaycan Respublikasında bazar iqtisadiyyatının, yaradıcılıq və sahibkarlıq fəaliyyətinin, habelə rəqabət münasibətlərinin inkişaf etdirilməsi üçün əlverişli şərait yaradılmış, istehsal münasibətləri sistemində dəyişikliklər baş vermişdir. Prioritetləri təqib edən dövlət mədəniyyət və incəsənət sferalarına sərf edilən dövlət xərclərini əhəmiyyətli dərəcədə artırmışdır.

Mədəniyyətin daşıdığı əhəmiyyət müasir mərhələdə cəmiyyətin inkişafı prosesində onun tutduğu mövqe ilə müəyyən edilir:

- mədəniyyət insan kapitalının inkişaf etdirilməsinin amili qismində çıxış edir. Mədəniyyətin inkişaf etdirilməsi – bu, məqsəd deyil, insan kapitalının inkişaf etdirilməsinin ümumi kontekstində bir vəzifədir;
- müasir mərhələdə mədəniyyət sferası məsrəfli sahə kimi deyil, ölkənin sosial-iqtisadi inkişafına mühüm təsir göstərən investisiya sferası kimi dəyərləndirilməlidir;
- mədəniyyət dövlətin sosial sabitliyinin və sosial-mədəni bütövlüyünün təmin edilməsinin mühüm amilidir.

Sosial məsrəflərə tələbatın olması iqtisad elmində çoxdandır ki, sübut olunur. Yerli maliyyə vəsaitlərin sosial xərclərinin formalaşdırılması konsepsiyaların, elm nöqteyi-nəzərdən onların funksiyalarının əsaslandırılması maliyyənin yerini təyin edir, belə xərclərin sərf olunmasının obyektiv tələbatının mövcudluğunu sübuta yetirir. Şəkil 1-də təqdim olunan yanaşmaların təsnif edilməsinin təməlini belə meyarların əsaslandırılması təşkil edir ki, onlara uyğun olaraq, müxtəlif elmi məktəblərin və cərəyanlarının nümayəndələri tərəfindən sərgilənən baxışların nəzərə alınması ilə sosial-mədəni xərclərə olan tələbatlar formalaşır.



Şəkil 1. Sosial-mədəni xərcləri
Mənbə: https://www.stat.gov.az

Mədəniyyət (latın dilində cultura, colo, colere felindən əmələ gəlib – becərilmə, daha sonra isə - tərbiyələndirmə, təhsil, inkişaf, ehtiram və pərəstiş mənasında işlənilirdi) – insanın həyat fəaliyyətinin müxtəlif sahələrində nəhəng sayda məna və izahlara malik olan bir anlayışdır [2].

Geniş mənada mədəniyyət dedikdə sosial bir varlıq kimi insanın vaqlığının üsulu – “ən müxtəlif təzahürlərdə, o cümlədən insanın özünü dərkin və özünü ifadə etməsinin bütün forma və üsulları da daxil olmaqla insan fəaliyyəti, insan və sosium tərəfindən ümumilikdə səriştə və bacarıqların toplanılması” başa düşülür. Buna oxşar tərzdə YUNESCO-nun Ümumi deklarasiyasında da “mədəniyyət” məfhumunun tərifi verilir: “mədəniyyət cəmiyyətə yaxud sosial qrupa xas olan fərqləndirici əlamətlərin – mənəvi və maddi, intellektual və emosional əlamətlərin məcmusu kimi dəyərləndirilməlidir – və bu məfhum incəsənət və ədəbiyyatdan başqa həyat tərzini də, “birgə yaşamaq bacarığını, dəyərlər sistemini, ənənələri və inancları” əhatə edir”. XX əsrin sonlarında XXI əsrin əvvəllərində Azərbaycanda cəmiyyətdə müşahidə olunan sosial-iqtisadi münasibətlərin dəyişikliyə uğraması, dünya məkanına inteqrasiya prosesi ilə bərabər mədəniyyət sferasında dövlət idarəçiliyin münasibətinin köklü surətdə yenidən dərki, onun dövlət siyasətinin dəstəklənməsi baş verir. Mədəniyyətin dar bir çərçivədə dərk edilməsindən onun inteqrasiya rolunun anlaşılmasına doğru bir tendensiya

müşahidə olunur. Qeyd etdiyimiz bu aspektdə isə, mədəniyyət dedikdə "dövlət, əsas etibarilə qeyri-kommersiya təsisatların və mədəniyyət sferasının sosial infrastrukturunun digər elementlərinin məcmusu başa düşülür ki, onlar (həmin elementlər) mədəni irsin qorunub saxlanılması və incəsənətin inkişaf etdirilməsi çərçivəsində öz fəaliyyətini həyata keçirir, xüsusi növə aid edilməli olan məhsulların, eləcə də vətəndaşların mədəni, estetik, idraki və yaradıcı tələbatları təmin etməli olan və onlara göstərilən xidmətlərin əmələ gətirilməsi prosesində bir-birilə qarşılıqlı fəaliyyət göstərir" [2]. "Mədəniyyət haqqında Azərbaycan Respublikasının qanunvericiliyin əsasların"da göstərilir ki, mədəniyyət – bu, "mədəni irsə dair olan obyektlərin qorunub saxlanılması, kitabxana, muzey, arxiv fəaliyyətinin inkişaf etdirilməsi, ifaçılıq sənətlərin, kinematoqrafın, təsviri incəsənətin dəstəklənməsi və inkişaf etdirilməsi, Azərbaycan ərazisində yaşayan bütün xalqların qeyri-maddi mədəniyyət irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi, mədəniyyət sferasında mövcud olan regionlararası və beynəlxalq əlaqələrin möhkəmləndirilməsi, xaricdə yaşayan həmvətənlərimiz, digər mədəniyyətlər və konfessiyalar nümayəndələri üçün Azərbaycan mədəniyyətinin cəlbediciliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən bir fəaliyyətdir.

Beləliklə, mədəniyyət – bu, mədəni fəaliyyətin institutlaşdırılmış, hüquqi və idarəetmə münasibətlərinə inteqrasiya olunmuş bir sahəsidir. Bura mədəni irsinin qorunub saxlanılması, yaradılması, yayılması və istifadəsi istiqamətində reallaşdırılan fəaliyyətin dövlət tərəfindən tənzimlənməsi, bədii təhsil və uşaq yaradıcılığı, incəsənət, yaradıcı fəaliyyət, ifaçılıq, konsert fəaliyyəti, istirahət və əyləncənin təşkilediciliyi, həvəskarlıq, etnoqrafik sənətlər və peşələr, eləcə də onların təmin edən fəaliyyət daxildir. Mədəniyyət sferasında idarəçilik dedikdə mədəniyyət sferası sahələrinin, idarə, müəssisələrinin və digər institutların fəaliyyətinin effektiv surətdə təşkil edilməsinə yönəlmiş, onların qarşısında qoyulan hədəflərin nail olunması və öz ictimai missiyasının yerinə yetirilməsinə yönəlmiş fəaliyyət nəzərdə tutulur [3, s. 57].


Bu zaman dövlət idarəçiliyin bir sahəsi kimi, mədəniyyət sferası müəyyən spesifik xüsusiyyətə malikdir ki, bu da onn qarşı standart yanaşmaları və üsulları tətbiq etməyə imkan vermir. Mədəniyyət sferasında dövlət idarəçiliyinin xüsusiyyətləri "mədəniyyət" anlayışının məzmununun dayanıqlı və müvazinətli xarakter almış dərki çərçivəsindən, mədəniyyət sahəsinə dövlət tərəfindən müdaxilə edilməsi hüdudlarının və müdaxilə edilməməsi hüdudlarının qəbul olunmuş anlayışından, eləcə də konkret dövlətdə mədəniyyətin xüsusiyyətlərindən və habelə vəziyyətindən asılıdır [3, s. 45]. Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət idarəetmənin aşağıdakı istiqamətlərini və alətlərini ayırd edirlər [2, s. 27]: Azərbaycan Respublikasının vahid informasiya və mədəniyyət məkanının qorunub saxlanılması və inkişaf etdirilməsi, əhali üçün mədəniyyət nemətlərin əlçatanlığının artırılması; mədəniyyət və incəsənət sferalarının inkişaf etdirilməsi məqsədilə əlverişli şəraitin yaradılmasının, o cümlədən də, dövlət mədəniyyət idarə və müəssisələrin yaradılması formasında, habelə dövlət qrantlarının verilməsi formasında dəstəyin, xüsusilə maliyyə dəstəyinin təqdim olunması formasında təmin edilməsi; şəxsiyyətin yaradıcı inkişafına, cəmiyyətin insan kapitalının yüksəldilməsinə səbəb olan mədəniyyət mühitinin yaradılması; bütün əhalinin mədəni həyatda iştirakının dövlət tərəfindən təşviq edilməsi, xüsusilə də insanın mədəniyyət hüquqlarının təmin edilməsi, kütləvi mədəniyyətin inkişafının təşviq edilməsi, eləcə də kitabxana resurslarının inkişaf etdirilməsi şəklində; ədəbiyyatın və incəsənətin, kinematoqrafın, teatrın, sirkin, musiqi sferasının dəstəklənməsi; mədəniyyət-rekreasiya layihələrin və məkanların dəstəklənməsi; xalq incəsənətinin və yaradıcılığın dəstəklənməsi; mədəniyyət sferasında təhsil və elm sisteminin təkmilləşdirilməsi; Azərbaycanda yaşayan bütün xalqların mədəni irsinin Azərbaycan cəmiyyətinin mədəniyyət eniləşdirilməsi və birliyi kimi qorunub saxlanılması və inkişaf etdirilməsi; mədəni irsin qorunması və istifadəsi sisteminin normativ-hüquqi bazasının təkmilləşdirilməsi; mədəni-idraki turizmin dəstəklənməsi; mədəni irs sferasında nəzarətin və lisenziyalaşdırılmasının həyata keçirilməsi; Azərbaycan Respublikasının xaricdə müsbət imicinin möhkəmləndirilməsi və həmvətənlərlə əlaqələrin inkişaf etdirilməsi. Bununla yanaşı, dövlət, bir tərəfdən, cəmiyyətin ümumilikdə mədəni həyatını formalaşdırır, digər tərəfdən isə cəmiyyətin müxtəlif təbəqələrinin, ərazi, milli və digər ümumiliklərin mədəni tələbatlarını və maraqlarını uzlaşdırır.

Beləliklə, mədəniyyət anlayışı belə izah olunur: varlığın mənəvi hissəsi, ənənə və var-dövlətin məcmusu kimi; dövlət idarəçiliyi obyekti olan ictimai-əhəmiyyətli institut. Mədəniyyət siyasətinin yö-

nəldilməsi məsələləri ilə bağlı qərarları planlaşdıran və onları qəbul edən başlıca orqanlar qismində dövlət orqanları göstərilə bilər, dövlət tərəfindən formalaşdırılan mədəniyyət siyasətini həyata keçirilən əsas orqanlar isə mədəniyyət institutlarıdır. Misal üçün, mədəni irsinin toplanılması və qorunub saxlanılması məsələləri ilə məşğul olan institutlar olaraq kitabxanalar, arxivlər, profilli muzeylər, dövlət tarixi-mədəni qoruqlar və s. qeyd edilə bilər. Bununla yanaşı, mədəniyyətin idarə olunması prosesində Azərbaycanın həm qanunvericilik, həm də icra hakimiyyəti orqanları da iştirak edir.

Ümumilikdə isə, dayanıqlı tendensiyaların mövcudluğu ilə bağlı nəticələr əldə etməyə imkan verir: dövlətin məqsədli proqramların reallaşdırılmasına yönəlmiş sahənin maliyyələşdirilməsi həcminin artırılması zamanı mədəniyyət sferasının struktur tərkib hissələrinin inkişafının müxtəlif istiqamətli dinamikası müşahidə olunur. Lakin, müsbət dinamikaya baxmayaraq, mədəniyyət sahəsi əvvəlki kimi daha çox qalıq prinsipi üzrə maliyyələşir ki, bu da idarə etmə prosesi ilə bağlı qəbul olunmuş qərarların həyata keçirilməsi effektivliyinə mənfi cəhətdən təsir göstərir. Mövcud olan mədəniyyət potensialını tam həcmdə istifadə etməyə imkan vermir.

Mövcud sosial-mədəni mühitinin bu mənfi təsirinin aradan qaldırılması innovativ iqtisadiyyata keçidi şəraitində daha böyük əhəmiyyət kəsb edir, burada iqtisadi artım üçün baza kimi məhz insan potensialı göstərilə bilər. Mövcud vəziyyətin prinsip etibarilə dəyişdirilməsi mümkünlüyü, hər şeydən əvvəl, mədəniyyət sferasında həyata keçirilən dövlət siyasətindən asılıdır. "Mədəniyyət sferasında dövlət siyasətinin məqsədi qismində ümumilikdə cəmiyyətin və ayrı-ayrılıqda hər bir fərdin mədəni və mənəvi potensialının inkişaf etdirilməsi və reallaşdırılması qəbul olunur" [2, s. 37]. Bu zaman "Azərbaycanda mədəniyyət sferasında dövlət siyasətinin göstərilmiş istiqamətlər üzrə 2020-ci ilə qədər yürüdülməsi zamanı prinsipial xüsusiyyət sahənin idarə olunmasında desentralizasiya (mərkəzləşdirmə meyllərin azaldılması) olmağa başlayır. Belə bir şəraitdə mədəniyyət təsisatların layihə-yönümlü maliyyələşməsi onların müasir iqtisadi münasibətlər sisteminə daxil etməyə imkan verəcəkdir. Mədəniyyət sferasında dövlət-özəl tərəfdaşlıq institutunun inkişaf etfdirilməsi büdcədənkənar vəsaitlərin cəlb olunmasına, büdcə xərclərinin aşağı salınmasına səbəb olacaq" [2, s.60]. Belə ki, peşəkar teatrların sayı üçə qədər azalmışdır, muzey kompleksi isə 14 faiz genişlənmişdir. Hal-hazırda Azərbaycan Respublikasında 233 muzey və 728 dövlət teatrı fəaliyyət göstərir.



Şəkil 2. Muzeynlərin sayı
Mənbə: https://www.stat.gov.az

Bədən tərbiyəsi və idman sosial həyat sferasına aiddir və qeyri-maddi istehsalın ayrılmaz elementi qismində çıxış edir. Bununla əlaqədar olaraq, heç bir şübhə ola bilməz ki, L.İ.Lubışevin müəllif olduğu "Bədən tərbiyəsi və idmanın idarə olunması" dərsliyində verilmiş izaha müvafiq olaraq "idarəetmə" anlayışının tətbiq edilmə səlahiyyəti tam məntiqli və qanunauyğundur: "Bədən tərbiyəsi və idmanın idarə olunması şüurlu fəaliyyətin konkret forma və üsullarının sistemindən ibarətdir və bu, ölkə əhalisinin fiziki cəhətdən təkmilləşdirilməsi istiqamətində mövcud olan bütün tələbatların daha dolğun və tam şəkildə ödənilməsi məqsədilə bədən tərbiyəsi və idman sahəsinin effektiv fəaliyyətinə və planlı şəkildə inkişaf etdirilməsinə yönəlib" [2, s.59]. Belə ki, misal üçün, 2012-2016-cı illər ərzində olimpiya mərkəzlərinin mövcudluğu 32-dən 39-a qədər artım tendensiyasına malik idi; kompleks idman zallarının sayı 172-dən 189-a qədər artırılmışdır; üzgüçülük hovuzların sayı da 62-dən 105-ə qədər çoxalmışdır; bədən tərbiyəsi ilə məşğul olanların sayı isə 1660,4 nəfərdən 1725 nəfərə qədər artmışdır. Bəşəriyyət şüurlu surətdə idmanla məşğul olmaq zəruriliyini dərk

etmişdir. Bu, spesifik qaydada sosial cəhətdən təşkil olunmuş fiziki və intellektual bacarıqların müqayisəsi və sosial ümumilik tərəfindən bəyənilən ayrı-ayrı insanın yaxud komandanın hazırlığının müqayisə olunması forması və sahəsidir, burada bütün fəaliyyət növləri spesifik (idman) yarışlarında iştirakı və müvafiq hazırlığ prosesi vasitəsilə yüksək nəticələrin əldə olunmasına yönəldilib.

Beləliklə, dünya ictimai fikirdə mədəniyyət ölkənin nüfuzunun əsas qarantlarından biri qismində çıxış edir. Mədəniyyətdə əldə olunan nailiyyətlər – bu, qədim aforizmdə deyildiyi kimi, "ömürlük nailiyyyətdir" və bu fayda bütün dünya üçün xidmət göstərir. Dərin sistemli dəyişikliklərin həyata keçirilməsi zərurəti meydana gəlmişdir ki, bunu yalnız mədəniyyətin cəmiyyətdə oynadığı mühüm rolunun, onun ölkənin mədəni həyatında məsuliyyət ölçülərinin yenidən dərk edilməsi və mənalandırılması vasitəsilə gerçəkləşdirmək mümkündür. Azərbaycanda mədəniyyəti inkişaf etdirilməsi sosial-iqtiadi artımına, ölkənin ərazi bütövlüyünün və müdafiə qabiliyyətinin məhkəmləndirilməsinə yönəlmiş dövlət siyasətinin mühüm əhəmiyyət kəsb edən strateji istiqamətə çevrilməlidir.

ƏDƏBİYYAT

1. «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı». //Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal.-2008.№ 2.-s.6-29.
2. Abalkina T.V. Yeni formanın mədəniyyət təsisatlarının maliyyə sabitliyinin təmin edilməsi. Mədəniyyət idarəsi rəhbərinin soraq kitabçası - 2007. - № 1.
3. Quliyev O.İ. Bakı şəhərində kitabxana resurslarının yerləşməsi və onun kadr təminatının müasir vəziyyəti. //Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2010.-№ 2.-s. 58-59.

Elvin İBRAHİMOV
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
İbrahimovelvin96@gmail.com

Müasir texnologiyaların turizm və qonaqpərvərlik sənayesindəki əhəmiyyəti

İmportance of modern technologicies on tourism and hospitality industry

Значение современных технологий в индустрии туризма и гостеприимства

Xülasə: Müasir texnologiyalar turizm və qonaqpərvərlik sənayesində mühüm rola malikdir. Turizm və qonaqpərvərlik ölkələr və şəhərlər üçün çox vacib bir sahədir. Müasir texnologiyalar turizm və qonaqpərvərlik sənayesinin inkişafına köməklik edir .Hər gün müasir texnologiyalar haqqında xəbərlər eşidirik.Çünki biz XXI əsrdə yaşayırıq. Buna görə bütün ölkələr yeni texnologiyalardan istifadə etmək istəyirlər. Niyə -çünki bu texnologiyalar bizə fərqli xidmətlər təklif etmək üçün yeni bir yol tapmağımıza köməklik edir. Bu da bütün dünyada turizm sahəsində lider ölkələr olmağa öz köməkliyini göstərir. Turizm və qonaqpərvərlik sənayesinin iştirakçılarının hər biri bir addım qabaqda olmaq istəyir .Müasir texnologiyalar onlara irəliləməyə kömək edir.

Açar sözlər:Müasir texnologiyalar,smart TV,encoder,simzsiz internet,lift qurğuları ,komputer texnologiyaları,ağıllı smartfonlar.

Резюме: Современные технологии играют важную роль в индустрии туризма и гостеприимства. Туризм и гостеприимство в мире являются очень важной областью для стран и городов. Современные технологии помогают развивающейся индустрии туризма и гостеприимства. Каждый день мы слышали новости о современных технологиях. Потому что мы живем В XXI веке. По этой причине все страны хотят использовать новые технологии. Почему, потому что это помогает получить новый способ предлагать различные услуги. И это помогает быть ведущим туристическим странам во всем мире. Каждый из участников туризма и зона гостеприимства хочет быть на шаг впереди. Современные технологии помогают им быть впереди.

Ключевые слова: Современные технологии, smart TV, енкодер, беспроводной интернет, грузоподъемные устройства, компьютерные технологии, смартфоны.

Abstract: Modern technologies have important role on tourism and hospitality industry.Tourism and hospitality in the world are very important area for countries and cities.Modern technologies help to growing tourism and hospitality industry.Every day we heard news about the modern technologies . Because we are living in XXI centuries.Because of this reason all of countries want to use new tecnologies.Why –because this help to get new way for suggesting different services.And this helps to be leading tourism countries all over the world.Each of the participants of tourism and hospitality area wants to be one step ahead .Modern technologies help them to be ahead

Keywords: Modern technologies, smart TV, encoder, wireless internet, lifting devices, computer technologies, smartphones.

Müasir texnologiyalar- dünyamızın ayrılmaz bir hissəsinə çevrilmişdir.Müasir texnologiyalar hər zaman qarşımıza çıxan və müştərilərin yaddaşlarında xoş təəssürat yaratmağa istiqamətlənmiş texnologiyalardır .Həmçinin müştərilərin rahatlığının təmin edilməsinə istiqamətlənən müasir texnologiyalar hər zaman öz artma tempini saxlayır.Müasir texnologiyaların inkişafı və irəlilməsi öz növbəsində həm də turizm və qonaqpərvərlik sənayesinin inkişafına da təsir edir. Turistlər və səyahətçilər gedəcəyi yerdə istirahətlərinin təşkil edildiyi müddət ərzində öz istirahətlərinin fərqli, əyləncəli,zövqoxşayan keçməsini istəyirlər.Mehmanxanaların həmçinin digər yerləşdirmə müəssisələrinin bir qayda olaraq öz qonaqları və turist seqmenti olur ki , onlar həmin seqmentin istək və arzularına uyğun olaraq fəaliyyət göstərirlər.Təklif edəcəkləri xidmətlər yerləşdirmə vasitəsinin növündən həmçinin ulduz dərəcəsindən aslı olaraq müəyyənləşir.Çünki turistlərin fərqli istək,arzu , tələbatları olur ki,bu da onların daima xidmətlərə qarşı həssas və tələbkar olmalarına təsir edir.

Turizm və qonaqpərvərlik sənayesində müasir texnologiyaların rolu

Müasir texnologiyalar inkişaf edərkən turizm və qonaqpərvərlik sənayesi də bu inkişafdan kənarda qalmırlar.Onlar da daima bu yenilikləri izləyir və bu sənayedə olan müsbət irəliləyişləri tətbiq etməyə və daha da təkmilləşdirməyə çalışırlar.Müasir texnologiyaların inkişafı turizm və qonaqpərvərlik sənayesinin iştirakçılarının hər birinə öz müsbət təsirini göstərir.Bura həm mehmanxana və yerləşdirmə müəssisələri həm turizm sənayesində fəaliyyət göstərən qidalanma və nəqliyyat vasitələri həmçinin turistlər və digər səyahətçilər də faydalanırlar.Onlar müasir texnologiya və avadanlıqların verdiyi faydaları daima gedəcəkləri yerdə görmək və onlardan yararlanmaq arzusunda olurlar.

Müasir dövrümüzdə istifadə edilən bu texnologiyalar günbəgün öz əhəmiyyətlərini artırılar.Müasir texnologiyalardan istifadə edən mehmanxana və yerləşdirmə müəssisələri həmçinin digər turizm və qonaqpərvərlik sənayesinin iştirakçıları bu texnologiyaları daima yaxından izləyir və öz rəqiblərindən öncə istifadə etməyə çalışırlar.Ona görə də bu texnologiyalardan istifadə edən və keyfiyyətli xidmətlər təklif edən yerləşdirmə müəssiələri və mehmanxana müəssisələri öz rəqiblərindən daha çox müştərini qəbul edə bilirlər.Bu texnologiyaların oynadığı rolu qiymətləndirə bilən müəssisələr daima digər rəqiblərindən bir addım öndə olurlar.Onlar anlayırlar ki, əgər bu gün bu texnologiyalara sərf etdikləri vəsaitin qarşılığı qonaqların məmnunluğuna və gələcəkdə daha çox qonaq axınına imkan yarada biləcək.

Müasir texnologiyalara nələrə daxildir?

Müasir texnologiyalara müxtəlif ünsürlər daxildir.Bura komputer avadanıqları,sosial şəbəkələr , simsiz internet şəbəkəsi,lift qurğuları,təhlüksəizlik sistemləri,bronlaşdırma sistemləri və s.bu kimi müxtəlif texnologiyalar aiddir.Bu cür texnologiyaların olması turizm və qonaqpərvərlik sənayesində olduqca effektli irəliləyişlərin olmasına və iqtisadiyyatın bu sahəsinin yüksək sürətlə inkişafına imkan yaradır.Müasir texnologiyalardan yerləşdirmə vasitələri və digər turizm və qonaqpərvərlik sənayesi ilə əlaqəli olan bütün iştirakçılar faydalanmağa çalışırlar.

Turistlər və səyahətçilər artıq gedəcəyi ölkədə necə bir mehmanxana və ya yerləşdirmə müəssisəsini seçəcəyini artıq özləri onlayn şəkildə bronlaşdırma saytlarından istifadə edərək görüb bəyənib birbaşa bronlaşdıra bilirlər.Bu dünyada yayılmış və müasir texnologiyaların yaratdığı ən böyük əhəmiyyətli ünsürlərdən biridir.Bunun sayəsində hər bir turizm və səyahətlə məğul olan şəxslər rahatlıqla öz mehmanxanasını və nömrəsini bronlaşdıra bilirlər.Bunun üçün sadəcə dünyada məşhur olan booking.com , expedia,hotels.com,tripadvisor və s. bu kimi inkişaf etmiş bronlaşdırma saytlardından istifadə etmək kifayətdir.Turislər və digər səyahətçilər bu müasir texnologiyalardan istifadə edərək öz rahatlıqlarını təmin etmiş olurlar.Müasir texnologiyaların istifadə edildiyi ən çox yerlər-

dən biri də mehmanxana və digər yerləşdirmə müəssisələridir.Belə ki ,onlar öz qonaqlarının rahatlığının təminatı üçün müasir texnologiyaları daima öz müəssisələrində görmək istəyirlər.

Mehmanxanaların istifadə etdiyi müasir texnologiyalar hansılardır?Müasir texnologiyalar mehmanxana və yerləşdirmə müəssisələrinə fayda verdiyi kimi öz müştərilərinə də xeyir və fayda verirlər.Turistlərin və digər səyahətçilərin mehmanxanada qalarkən rahatlığınnın təminatı üçün onlar müxtəlif texnologiyalardan istifadə edilir.Gələn qonaqları qarşılayarkən ilk növbədə ön büro əməkdaşları qarşılayır.Qonaqların qəbul və qeydiyyatı zamanı müasir texnologiyalardan istifadə edirlər.Bu zaman gələn qonaqların qeydiyyatının həyata keçirilməsi üçün kompyuter texnologiyasından istifadə edilir .Burada müasir qurğulardan da istifadə edilir. Bu qurğulara çap qurğuları ,n skaner qurğuları,qonaqların ödənişinin həyata keçirilməsi üçün pos-terminallar,kart qurğularını aktivləşdirmək üçün enkoder qurğuları və s.qurğular isitfadə edilir.Gələn qonaqların məlumatlarını müasir proqramların yardımı ilə bazaya qeyd edirlər.Bu proqramlara Fidelio, Opera, Amadeus, Shelter kimi proqramlardan istifadə edirlər.Gələn qonaqların xarici passportlarının sürətinin çıxarılması üçün müasir sürətçıxarma qurğularından istifadə edilir.Digər bir tərəfdən gələn qonaqların ödənişlərini nəğd və ya nəğdsiz şəkildə həyata keçirilməsini həyata keçirtməkdən ötrü pos-terminal qurğularından istifadə edilir ki,bu da qonaqların bank kartları vasitəslə ödənişinin həyata keçirilməsini həyata keçirtməkdən ötrü həyata keçrilir.Digər bir tərəfdən lazımı sənədlərin elektron variantda nüsxələrinin saxlanmasını həyata keçirtməkdən ötrü skanerlərdən istifadə edirlər ki,bu da onların lazım gəldikdə istifadəsi üçün nəzərdə tutulur.Buna örnək kimi qonaqların miqrasiyasının həyata keçirilməsi üçün onların xarici passportlarının və vizalaının elektron şəkildə skanerdən istifadə edilərək saxlamasını misal göstərmək olar.

Qonaqların təhlüksəizliyinin təmin edilməsindən ötrü müasir texnologiyalardan istifadə edilir. Bura müasir təhlükəsizlik sistemlərini müsal göstərəmək olar.Bura mehmanxana və yerləşdirmə müəssisələrinin yanğından qorunması üçün həyata keçirilən təhlükəsizlik addımlarını misal göstərmək olar.Belə ki ,bu sistemlərin sayəsində hansı mərtəbədə yanğın təhlükəsi baş verərkən bu sistemlər xəbərdarlıq edir və təhlükəni bildirirlər.Digər bir tərəfdən zallarda təhlükələri xəbər verməkdən ötrü səs ötürən qurğulardan istifadə edilir ki,bu da onların həyatı üçün təhlükələrin qabaqcadan qarşsının alınması üçün həyata keçirilir.Qonaqların təhlüksəziliyinin təminatı üçün həmçinin də müasir kamera sistemlərindən istifadə edilir.Bu truistlərin həm mehmanxananın daxilində həm də ki mehmanxana ərazisində rahat şəkildə öz istirahətlərinin həyata keçirmələri üçün yerinə yetirilir.Bu sistemlər daima qonaqların təhlüksizliyinin nəzarətdə saxlanılması üçün aprılır.

Mehmanxana və yerləşdirmə müəssisələrin həmçinin qonaqların istirahətinin təminatı üçün otaq avadanlıqlarının da keyfiyyətinə fikir verirlər. Otaqlarda müasir istimə-soyutma sistemlərindən, smart televizorlardan , card readerlərdən , simsiz internetdən(WI-FI) istifadə edilir. Qonaqlar öz otaqlarında rahatlıqla otağın temperatur dərəcəsini istədikləri şəkildə tənzimləyə bilirlər.Card reader-in otaqlarda olması mehmanxanaya imkan verir ki, onlar boş yerə elektrik enerjisinin istifadəsinin qarşısını alır.Həmçinin zallarda boş yerə elektrik enerjisinin qarşısının alınması üçün sensorlarla işləyən işıqlandırma sistemlərindən istifadə edilir.Otaqlarda həmçinin müasir isitmə və soyutma sistemlərinin olması istənilən fəsildə mehmaxana nömrələrinin temperatur dərəcəsini tənzimləməyə imkan verir.

Mehmanxanalarda istifadə edilən digər müasir texnologiyalardan biri də lift qurğusudur.Lift qurğuları qonaqların və onları yüklərinin nömrələrə qaldırılması üçün nəzərdə tutulmuuşdur.Dörd və beş ulduzlu mehmanxanalarda lift qurğuları iki və daha çox olur .Bu da qonaqların rahatlığının təminatı üçün həyata keçirilir.

Restoranda qonaqların hesablarının və sifarişlərinin həyata keçirilməsin üçün də müasir qurğulardan istifadə edilir.Bunun üçün qonaqların hesablarının birbaşa qaldığı nömrəyə yazılması və yaxud da həmin dəqiqə ödənişinin həyata keçirilməsi üçün müasir komyuter və proqramlardan istifadə edilir.

Son dövrlər müasir texnologiyalar daha sürətlə inkişaf edir.Artıq qonaqlara kartlar əvəzinə bəzi mehamanxanalar ağıllı smartfonları təqdim edirlər.Bu isə həmin qonaqlara imkan yaradır ki , nömrəyə yaxınlaşan kimi nömrənin qapısını açа bilsin .Həmçinin də bu texnologiya imkan yaradır ki, qonaq öz otağındakı elektriklə işləyən hər bir əşyanı bir toxunuşla smartfon vasitəsilə onları ida-

rə edə bilsinlər.Bu sitem sayəsində televizoru,otağın isitmə-soyutma sistemlərini,işıqlandırmanı və s. işləri həyata keçirmək daha rahat olur.Bu texnologiyalardan əlavə dünyada digər texnologiyalardan da istifadə edilir .Bura mehmanxanaların istifadə etdiyi müasir texnologiyanı misal göstərmək olar. Məsələn mehmanxanalar istifadə edilən çirkli suyun yenidən təmizlənərək texniki su kimi istifadə etmək üçün təmizləyici qurğulardan və saxlamaq üçün yeraltı çənlərdən istifadə edirlər.Bu ekologiyanı nəzərə alan bir addımdır.

Dünyada müasir texnologiyalardan istifadə edilərək mehmaxnanaların və onların qonaqlarının daha rahat bir şəkildə istirahətinin təmin edilməsi üçün tədbirlər həyata keçirirlər.Bu müasir texnologiyaların istifadəsi nəticəsində təqdim edilən mehmanxana xidmətlərinin və onların təqdim edilməsi həmçinin operativliyinin artması da həyata keçirilir.Müasir texnologiyaların təsiri nəticəsində xidmətlərin keyfiyyətinə və onların qısa bir zamanda həyata keçirilməsi də daha rahat olur. Xidmətlərin keyfiyyətinin yüksək olması gələn müştərilərin xidmətlərdən razı qalmasına şərait yaradır.Müasir texnologiyaların verdiyi faydalar nəticəsində müştəri məmnunluğu artır.Müştəri məmnunluğunun artması isə yeni müştərilərin cəlb edilməsinə həmçinin xidmətlərin keyfiyyətinin daha da artırılmasına imkan verir.Gələn müştərilərin məmnuniyyətinin artmasında personalın fəaliyyəti qədər onların istifadə edəcəyi müasir texnologiyalar da mühüm rol oynayır.Hətta son zamanlar mehmanxanalar xidmətlərin göstərilməsində robotlardan da istifadə edilir.Robotlar restoranlarda qonaqlara qida və içkinin servis edilməsində istifadə edilir.Bu robotlar qonaqlara tez bir şəkildə xidmət göstərilməsində olduqca faydalıdırlar.Həmçinin müasir texnologiyanın istifadəsi nəticəsində qonaqlar daha rahat və tez şəkildə xidmətlərini əldə edə bilirlər.

ƏDƏBİYYAT

1. Evangelos Christou ,Social Media in Travel, Tourism and Hospitality: Theory, Practice and Cases
2. Taylor & Francis,Hotel Accommodation Management, 10 окт. 2017 Bernardo B. Rodolfa , Management Information System in Tourism and Hospitality Industry
3. Məqalə: The Use of Smart Technology in Tourism: Evidence From Wearable Devices *-s.226,227
4. İnternet:The Latest Technology Trends in the Hospitality Industry-https://www.revfine.com/technology-trends-hospitality-industry/
5. İnternet: 10 New Hotel technologies for modern rooms https://www.hospitalitynet.org/news/-4079748.html

Hacı QASIMLI
Bakı Dövlət Universiteti,
magistr
Haci_qasimli@list.ru

Respublikanın kitabxana-informasiya müəssisələrinin idarəedilməsində innovasiyaların tətbiqi

Применение инноваций в управлении библиотечно-информационными учреждениями республики

Application of innovations in the management of library and information institutions of the republic

Xülasə: Məqalə informasiya cəmiyyəti şəraitində elektron kitabxanaların idarəedilməsində innovasiya texnologiyalarının tətbiqinə və elektron kataloqlaşdırmanın perspektivlərinə həsr olunmuşdur. Müasir cəmiyyətin informasiya və bilik resurslarına tələbatının dolğun ödənilməsi zərurəti göstərilmişdir. İnformasiya cəmiyyəti şəraitində elektron kitabxana texnologiyaları, kitabxana sferasında innovativ idarəetmə siyasətin əsasları, kitabxana innovasiyalarının məzmunu və təsnifatı izah olunmuşdur. Elektron kitabxana texnologiyalarında innovasiyaların xüsusiyyətləri müəyyənləşdirilmişdir. Elektron kitabxanaların innovativ potensialı və inkişaf istiqamətləri, e-kitabxana texnologiyalarının tətbiq səviyyəsi ADA universitetinin kitabxanasının elektron kataloqu əsasında təhlil olunmuşdur.

Açar sözlər: elektron kitabxana texnologiyaları, elektron innovasiyalar, intellektual resurslar, innovativ kataloqlaşdırma.


Резюме: Статья посвящена применению инновационных технологий в управлении электронными библиотеками в информационном обществе и перспективам электронной каталогизации. Была продемонстрирована необходимость полного удовлетворения потребностей современного общества в ресурсах информации и знаний. Они объяснили экологию библиотечных технологий в информационном обществе, основы инновационной политики управления в библиотечном секторе, содержание и классификацию библиотечных инноваций. Выявлены особенности инноваций в технологиях электронных библиотек. Инновационный потенциал и тенденции развития электронных библиотек, уровень применения технологий электронных библиотек были проанализированы на основе каталога электронных библиотек Университета АДА.
Ключевые слова: электронные библиотечные технологии, электронные инновации, интеллектуальные ресурсы, инновационная каталогизация.

Abstract: The article is devoted to the application of innovative technologies in the management of electronic libraries in the information society and the prospects of electronic cataloging. The need for full satisfaction of the needs of modern society for information and knowledge resources has been demonstrated. They explained the ecology of library technologies in the information society, the basics of innovative management policy in the library sector, the content and classification of library innovations. Features of innovation in e-library technologies have been identified. The innovative potential and development trends of e-libraries, the level of application of e-library technologies were analyzed on the basis of ADA University's electronic library catalog.
Keywords: e-library technologies, e-innovation, intellectual resources, innovative cataloging.

Bildiyimiz kimi müasir dövr informasiya cəmiyyətinin qurulması ilə xarakterizə olunur. Bu dövrdə bütün sahələrdə olduğu kimi respublikanın kitabxana-informasiya müəssisələrində də fundamental innovasiyalara əsaslanan texnologiyaların tətbiqi nəzərə çarpmaqda idi. Müasir dövrdə idarəetmədə artıq sənaye erası arxada qalmış, iqtisadiyyatın ənənəvi hərəkətverici qüvvələri öz yerlərini intellektual resurslara vermiş, həm fərdin, həm də təşkilat və müəssisələrin, bütövlükdə cəmiyyətin informasiya və bilik resurslarına tələbatı durmadan artmaqda davam edir. İnformasiya və bilik resursları bazarının effektiv təşkili və fəaliyyəti məsələsi günümüzün aktual məsələlərindən birinə çevrilmişdir. Bu istiqamətdə dövlət səviyyəsində bir sıra qanunlar, qərarlar, strategiya və planlar qəbul edilmişdir. İnformasiya və bilik bəşər cəmiyyətinin inkişafında mühüm rol oynamışdır. Hazırda iqtisadi artım informasiya mənbələrinin və resurslarının istifadəsi hesabına təmin olunur. İnformasiya və bilik istehsal faktorlarının daha səmərəli istifadəsi üçün şərait yaradır. Müasir şəraitdə informasiya texnologiyalarına əsaslanan texnoloji postsənaye istehsal üsulu formalaşır ki, burada da inkişafın əsas hərəkətverici qüvvələri informasiya və bilik olur. İnformasiya və bilik resurslarının formalaşmasında müasir elektron kitabxana texnologiyaları mühüm rol oynayır. Ona görə də həmin texnologiyaların innovativ potensialının və kommersiyalaşdırılma imkanlarının tədqiq olunması aktual əhəmiyyətə malikdir. Yeni cəmiyyətdə və iqtisadiyyatda informasiya və bilik istehsal amili kimi ənənəvi amillərdən fərqli bir sıra xüsusiyyətlərə malikdir [1]. Onların inkişaf imkanları qeyri-məhduddur. İnformasiya və bilik resurslarının müstəqil istehsal resursun olmamasının səbəbi onların maddi, enerji, əmək resurslarını tamamilə əvəz etmək qabiliyyətinə malik olmamasıdır. Bununla bərabər, informasiya və bilik özlüyündə potensial əhəmiyyətə malik resurslardır və yalnız digər resurslarla əlaqədə olduqda istehsal amili kimi özünü göstərə bilər. İnformasiya və bilik resursları iqtisadi resursların ümumi xüsusiyyətləri ilə yanaşı, bir sıra unikal xüsusiyyətlərə də malikdir [2]. Onlar praktiki olaraq tükənməzdir, istifadə prosesində yox olmur, olduqca asan təkrarlanır və yayılır. Onların tətbiqi digər resursların istehlakını azaltmağa və ekoloji cəhətdən təmiz texnologiyaların və istehsalın yaranmasına imkan verir. İnformasiya və bilik olduqca ekoloji cəhətdən təmiz resursdur. Hazırda dünyada informasiyanın çirkləndirmə dərəcəsi təhlükəli hallardan kifayət qədər uzaqdır. Beləliklə, müasir informasiya və bilik iqtisadiyyatında informasiya və bilik təkcə ənənəvi istehsal faktorlarının səmərəliliyinin yüksəlməsinə təsir göstərmirlər, həm də müstəqil istehsal amilinə çevrilirlər. Eyni zamanda, ənənəvi istehsal amillərindən fərqli olaraq, informasiya və bilik resursları iq-

tisadi fəlakətlərin və qəzaların qarşısını almağa və davamlı iqtisadi inkişafı təmin etməyə imkan verirlər. İnformasiya və bilik resurslarının formalaşması və idarə olunması sistemində müasir elektron kitabxanalar mühüm əhəmiyyətə malik olduğundan onların innovasiya və kommersiyalaşdırma potensialının müəyyənləşdirilməsinə ehtiyac vardır. Müasir cəmiyyətin qarşısında duran əsas inkişaf prioritetlərini yerinə yetirmək üçün onun müvafiq infrastrukturu formalaşdırılır. E-kitabxana texnologiyaları informasiya cəmiyyətinin əsas infrastruktur elementlərindən biri hesab olunur. Tarixən mövcud olan kitabxanaların fəaliyyətinin avtomatlaşdırılması və elektron kitabxanaların yaradılması da daha çox ehtiyac duyulan texnologiyalardandır. Hazırda İKT-nin tətbiqinin səviyyəsi hər bir ölkənin elmi potensialının, dövlət idarəçiliyində şəffaflığın və demokratiyanın inkişafının, sosial-iqtisadi problemlərin həllinin əsas göstəricilərindən hesab olunur. İKT ictimaisiyasi, sosial-iqtisadi, mədəni sahələri əhatə edərək cəmiyyətin inkişafına güclü təsir göstərən əsas amillərdən birinə çevrilmişdir. Son illərdə ölkəmizdə cəmiyyətin sənədinformasiya tələbatının daha dolğun şəkildə ödənilməsi və bu işdə İKT-dən istifadə sahəsində bir sıra ciddi addımlar atılmışdır. Müasir İKT-nin xarakterik inkişaf istiqamətləri içərisində müxtəlif tipli və məzmunlu sənədləri, kitabları xarakterizə edən elektron informasiya kontentlərinin hazırlanması, sistemləşdirilməsi, mühafizəsi və şəbəkə rejimində istifadəsi vacib yer tutur. Bütün bu istiqamətlər elektron kitabxanaların yaradılmasında və elektron kitabxana-informasiya təminatının təşkilində ifadə olunur. Elektron kitabxana – informasiya cəmiyyətinin baza prinsiplərinə: informasiyanın əmtəəyə çevrilməsi, informasiya bazarının formalaşması cəmiyyət üzvlərinin peşə və təhsil hazırlığının yüksəlməsinə, qlobal informasiya mühitinin yaranmasına xidmət edir [3, 4]. E-kitabxana oxuculara daha dolğun informasiya xidməti göstərərək, bu xidmətin zaman və məkandan asılılığına son qoyur. Ənənəvi kitabxanalarda informasiya xidməti məhdud sayda oxuculara göstərildiyi halda, e-kitabxana fasiləsiz fəaliyyət göstərir və dünyanın istənilən nöqtəsində yerləşən qeyri-məhdud sayda oxuculara eyni zamanda xidmət edir. E-kitabxana ümumi istifadə üçün açıq olan lokal və paylanmış informasiya ehtiyatlarına malikdir. Elektron kitabxanaların informasiya ehtiyatı rəqəmli formada hazırlanmış müxtəlif formatlı sənədlərdən ibarətdir. Həmin sənədlər mərkəzləşmiş formada elektron kitabxananın Web serverlərində toplanır və ənənəvi ədəbiyyatın elektron nüsxələrindən və kitabxana tərəfindən alınmış elektron sənəd və nəşr toplusundan ibarət olur. E-kitabxanalar müxtəlif qurumlar tərəfindən yaradılan və şəbəkə xidməti imkanlarını xeyli dərəcədə genişləndirən informasiya sistemidir. Onlar tarixən mövcud olan şəbəkə kitabxana-informasiya xidmətinin yeni metod, vasitə və texnologiyalar baxımından məntiqi davamıdır. Dünyanın əksər ölkələrində kitabxana xidmətinin, sənədinformasiya təminatının təşkili səviyyəsi milli prioritetə malik məsələ kimi qiymətləndirilir. Bu sahənin inkişafına həm rəsmi orqanlar, həm işgüzar dairələr, həm də qeyri-hökumət təşkilatları tərəfindən böyük diqqət və qayğı göstərilir. Kitabxanalara həm də vətəndaşların informasiya hüququnun reallaşdırıldığı bir məkan kimi də xüsusi önəm verilir. Kitabxana siyasəti dövlətin həm iqtisadi, həm təhsil, həm mədəniyyət, həm də informasiya siyasətinin üst-üstə düşdüyü sahədir. Cəmiyyətin sənəd-informasiya tələbatının ödənilməsi funksiyasını həyata keçirən kitabxanalar vətəndaş cəmiyyətinin formalaşmasında zəruri vasitə rolunu oynayır. Kitabxanaların informasiya resurslarının zaman və məkan məhdudiyyəti yoxdur. Onlar mövcud sənədlərin saxlanma yeri olmaqla yanaşı, müasir texnologiyalar sayəsində informasiya dünyasına açılan qapı rolunu oynayır. Ölkədə kitabxana fəaliyyətinin əsas istiqamətləri sənədinformasiya fondlarının formalaşmasından, mühafizəsindən və bu materialların hüquqi və fiziki şəxslərə istifadəyə verilməsindən, kitabxanalarda toplanıb saxlanılan informasiya vasitələrinin mübadiləsinə imkan verən vahid informasiya məkanının yaradılmasından ibarətdir. Bu sferada ölkədə innovativ siyasətin əsasları, demək olar ki, işlənməyib. Kitabxana sferasında innovasiya, başqa sözlə, kitabxana innovatikası - kitabxanaşünaslığın yeni bir istiqaməti kimi kompleks multidissiplinar elmdir və özündə müxtəlif elmlərin nailiyyətlərini innovasiya və elmşünaslığın, pedaqogika və psixologiyanın, idarəetmənin və marketinqin, kitabxanaşünaslığın, iqtisadiyyatın, hüququn və informatikanın ümumi nəzəri əsaslarını birləşdirir. Kitabxana sferasında innovativ siyasət ölkənin müasir hərtərəfli inkişafı şəraitində kitabxanaların innovasiya fəaliyyətlərinin təcrübi effektivliyinin artırılması məqsədi daşıyır və kitabxana fəaliyyətinin effektiv dəyişilməsi, inkişafı prosesini araşdırıb öyrənir. Bu proses müasir ictimai tərəqqi dövründə kitabxana işinin səmərəli inkişafına təkan verən ideyaların hazırlanması, onların kitabxana fəaliyyətinin konkret şəraitinə uyğunlaşdırılmasından


başlamış, kitabxana sahəsində və əlaqədar sferalarda innovasiya layihələrinin geniş yayılmasına qədər olan məsələləri əhatə edir. Kitabxanaların innovasiya fəaliyyətini tədqiq etmək, müsbət və mənfi cəhətləri ortaya çıxarmaq, xarici təcrübə ilə müqayisə etmək, nəticələri analiz və sintez edərək sonda kitabxanaların innovativ fəaliyyətinin inkişaf konsepsiyasına dair müəyyən təkliflər irəli sürmək olar. Dünya təcrübəsi göstərir ki, kitabxanalarda yeniliklərin tətbiqi problemləri həmişə aktual olub. İdarəetmə, təşkilati, texnoloji və digər inkişafa təkan verən yeniliklər "innovasiya" termini altında formalaşdı ki, bu da kitabxana işində ilk dəfə ötən əsrin sonlarında meydana cıxdı. O zaman innovasiya kitabxananın həyata keçirdiyi məhsul və xidmətlərin yenilənməsi, onun texnologiyasının, idarə olunmasının forma və metodlarının yenilənməsi kimi müəyyən olunurdu. Kitabxana fəaliyyətində olan innovasiya proseslərinə həsr edilmiş ilk xarici nəşrlər o illərdə işıq üzü görüb. Xarici mütəxəssislər, əsasən elektron informasiya resurslarından istifadə və onlara çıxış vasitələrinə aid problemləri yenilik olaraq görürdülər və bu məsələləri təhlil edirdilər. Kitabxana innovasiyaları məsələlərinə maraq göstərən mütəxəssislər bu problemi kitabxanaların işinin inkişafıyla əlaqələndirmişlər. Həmin sahədə dünya kitabxanalarının innovasiya fəaliyyətinin təcrübəsini, yenilənmənin vəziyyətini, onların inkişaf problemləri və perspektivlərini xarakterizə edən elmi işlər üstünlük təşkil edilmişdir [4,5]. Müasir kitabxana sferasının effektiv formalaşması və idarə olunması sistemi həmin sahədə innovasiyaların tətbiqini qaçılmaz etmişdir. Bütövlükdə, kitabxana sahəsində innovasiya siyasəti formalaşma mərhələsindədir. Bütöv iqtisadiyyatda və onun ayrı-ayrı sektorlarında yüksək və artan səviyyəni saxlamaq üçün uyğun informasiya infrastrukturu, həmçinin e-kitabxana texnologiyalarının köməyi ilə informasiyanın toplanması, emalı və yayılması mexanizmi xüsusi əhəmiyyət kəsb edir. E-kitabxanaların fəaliyyətində innovativ texnologiyaların tətbiqi, kitabxanalarda innovativ məhsul və xidmətlərə olan tələbatın artması müasir dövr üçün səciyyəvi məsələlərdən hesab olunur. E-kitabxanalarda innovasiya yüksək səmərəliliyə malik yeniliyin tətbiqi, insanın intellektual fəaliyyətinin, kəşfinin, ixtirasının müvafiq sahələrdə tətbiq olunmasının, ondan fayda götürülməsinin son nəticəsidir. E-kitabxanaların fəaliyyətində innovasiyaya dair müxtəlif yanaşmaların ümumiləşdirilmiş formasını aşağıdakı kimi qruplaşdırmaq olar: (Bax:şəkil-1)



Şəkil-1


Həmçinin qeyd edək ki, kitabxana innovasiyalarını müxtəlif əlamətlərə görə təsnif etmək olar. E-kitabxanada innovasiyalar tərkibinə, təyinatına, məzmununa və digər əlamətlərinə müvafiq olaraq təsnif olunurlar: texnoloji, istehsal, iqtisadi, ticarət, sosial, idarə etmə. Kitabxanada innovasiyaların təsnifatı müəyyən meyarlar üzrə konkret qruplara görə innovasiyaların qruplaşdırılmasını və bölgüsünü ifadə edir [6]. Oxşar sahədəki innovasiyalar aşağıdakı əlamətlərə görə təsnif oluna bilər: əhəmiyyətlilik, istiqamətlilik, reallaşdırılma yeri, dəyişilmələrin dərinliyi (yenidən qruplaşdırma, adaptiv dəyişilmələr, yeni variant, yeni nəsil, yeni görünüş, yeni növ), işləmələr (müəssisənin gücü ilə, xarici güc), yayılma əhatəsi, xidmət prosesində rolu, yenilik dərəcəsi (yeni elmi kəşf əsasında, növ-

cud proseslərə yeni üsulun tətbiqi əsasında), bazara çıxış müddəti, yaranma səbəbi, tətbiq sahəsi və s. Kitabxana sferasında innovasiyaların tətbiqini sürətləndirən, ləngidən və onun reallaşmasına təsir edən amilləri aşağıdakı kimi qruplaşdırmaq olar: ictimai, siyasi və hüquqi, sosial-psixoloji və mədəni, iqtisadi, texnoloji, təşkilati-idarə etmə. Xidmət və proses innovasiyaları. E-kitabxanada innovasiya özünü xidmət və ya proses formasında ifadə edir. Xidmət innovasiyasına yeni və ya əhəmiyyətli şəkildə təkmilləşdirilmiş xidmətlər daxildir Bunu sxem əsasında izah edək. Aşağıdakı sxemdən göründüyü kimi xidmət innovasiyalarının əsas məqsədinə sadalananları daxil etmək olar:(Bax: şəkil-2)



Şəkil-2


Efektiv idarəetmədə kitabxana-informasiya müəssisələrinin innovativ idarəedilməsi bir proses olaraq səciyyələdirilir və respublika kitbaxanalarında elə sosial innovasiya məhsulları da vardır ki, onlar proses innovasiyasının tətbiqinin nəticəsi olaraq yaranır. Proses innovasiyası yeni və ya əhəmiyyətli dərəcədə texnoloji cəhətdən təkmilləşdirilmiş istehsal və ya xidmət metodunun və texnologiyalarının işlənilməsidir. Kitabxana innovasiyasına aid proseslərlə aşağıdakı sxem vasitəsilə tanış olmaq olar: (Bax:şəkil-3)



Şəkil-3


Elektron kitabxanalarda informasiya sistemləri sahəsində, informasiyalaşdırma proseslərində, kompüter şəbəkələrində, telekommunikasiya avadanlıqlarında, virtual mühitdə və s. olan xidmət və proses innovasiyalarını elektron innovasiyalar hesab etmək olar. Bu tip innovasiyalar təhsilin, elmin, sosial sahənin, idarəetmənin innovativ inkişafında əsas istiqamətlərdən hesab olunur [5]. E-kitabxanaların innovasiya potensialını maddi və elmi-texniki potensial, maliyyə-iqtisadi resurslar, təşkilati resurslar, insan resursları, istehsal-texnoloji potensial, sosial-psixoloji amillər və s. kimi elementlər təşkil edir. E-kitabxana vasitəsilə intellektual resursların geniş cəmiyyətə tanıdılması, ölkə daxilində və xaricdə təbliği, Azərbaycan ictimaiyyətinin, xüsusən də onun ən yeni nəslinin təlim-tərbiyəsi, estetik-intellektual formalaşması, yeni bilgilərin əldə edilməsi, yeni e-oxu və e-yazı mədəniyyətinə yiyələnməsi, Virtual kitabxanadan yararlanması, yaradıcı təfəkküründün inkişafı, şəbəkədən istifadənin səmərəliyinin artırılması baxımından çox gərəkli nəticələr ortaya qoyur. Yeni ədəbiyyatın zənginləşməsi, innovativ texnologiyalar vasitəsilə təbliği, yayılması, yeni nəsil nümayəndələri üçün nəzərdə tutulmuş elektron resursların zənginləşdirilməsinə təkan verir. Azərbaycandilli İnternet resurslarının genişləndirilməsinə səbəb olur, insanların elektron ünsiyyətini möhkəmləndirir, şəbəkə ədəbiyyatı nümunələri yaranmasına şərait yaradır, dəyərli əsərlərin yazılmasına həvəs yaradır, yeni elektron mütaliə, həmçinin elektron yazı mədəniyyətini formalaşdırır. Kitabxanalarda tətbiq edilən innovasiyalara nümunə olaraq, ADA Universiteti Kitabxanasının elektron kataloqunun interfeysini qeyd edə bilərik. Bildiyimiz kimi ADA Universiteti kitabxanasında Avtomatlaşdırılmış İnformasiya Sistemlərinin tətbiqi prosesində müasir qaydada sənədlərin elektronlaşdırılması prosesi həyata keçirilir. Sənədlər elektron kataloqa daxil edilən zaman ilkin baxış keçirilərək onların hansı elm sahəsinə aid olması və hansı parametrlər üzrə sistemləşdirilməsi bilavasitə nəzərə alınır.

ADA Universiteti kitabxanasının elektron interfeysi




Şəkil-4

Kitabxananın elektron kataloqunda tövsiyə edilən vəsaitlərin quruluş sxemi



Şəkil-5

Kitabxananın elektron kataloqunda biblioqrafik sifarişlərin yaradılması prosesi



Şəkil-6

Elektron kataolqda kataloqlaşdırma prosesinin zahiri görünüş sxemi



Şəkil-7

ADA Universiteti kitabxanası inkişaf etmiş bir texnoloji infrastrukturun, elektron məlumat bazalarının korporativ informasiya çatdırılmasında ön plana çıxmasına imkan verən qabaqcıl texnologiyadan istifadə edir. Müasir texnologiya sayəsində elektron kitabxana biliklərin yaradılması və araşdırma üsullarını təkmilləşdirir. Elektron avtomatlaşdırma prosesi nəticəsində son dərəcə müasirləşən kitabxana sistemləri ADA Universitetində cəmiyyətimizin beynəlxalq əlaqələrini, siyasi və iqtisadi nəzəriyyəsini, biznes və ingilis dilinin tədrisini və öyrənilməsi kontekstini daha da genişləndirərək, keyfiyyətli çap və elektron resurslara ən səmərəli şəkildə məlumatların əldə edilməsini təmin edir.

Kitabxanalar həm texnikitexnoloji cəhətdən, həm kontent təminatı, həm də oxucuya istiqamətlənmə cəhətindən bütün innovativ yenilikləri tətbiq etməlidirlər. Yeni kitabxana xidmətləri məhsulları yaradılmalıdır. Oxucunun ən müxtəlif informasiya və bilik resurslarına tələbatı onun tələb etdiyi formada, zamanda, həcmdə, qiymətdə ödənilməsi üçün müvafiq tədbirlər həyata keçirilməlidir. Ölkənin qeyri-neft sferasının inkişaf etdirilməsində müasir kitabxana texnologiyaları mühüm rol oynaya bilər. Təhsil, mədəniyyət, elm, səhiyyə, media, kitab çapı və s. kimi sahələrdə kitabxana texnologiyalarının kommersiyalaşdırılmasında böyük potensial mövcuddur. Bununla yanaşı olaraq, bir cox hallarda kitabxana sahəsində kommersiyalaşdırma dedikdə həm də innovasiya fəaliyyətinin sona çatmış və mənimsənilmiş nəticələrinin qiymətləndirilməsi və ötürülməsi də daxil olmaqla, innovasiyalara vəsait ayrılması və onların xərclənməsinə nəzarət prosesi də başa düşülür. E-kitabxanalarda innovasiyanın kommersiyalaşdırılması - innovasiya proseslərinin nəticəsi olan innovasiya məhsullarının və xidmətlərinin satışı və ya satışına kömək edən fəaliyyət növüdür. Bu prosesin gedişində elmi nəticə və ya texnoloji layihə kommersiya effekti alınmaqla həyata keçirilir. Kitabxana innovasiyalarının kommersiyalaşdırılmasının təşkilatimetodoloji əsasları haqqında onu demək olar ki, kitabxana sferasında struktur dəyişikliklərinin rəqabətqabiliyyətli olması üçün müvafiq mexanizm və instrumentariya formalaşır, yeniliklərin mənimsənilmə və tətbiq edilmə müddətləri qısaldılır, yeni məhsulun keyfiyyəti yüksəldilir və satış bazarları genişləndirilir. Kitabxana sferasında inkubasiya üçün şərait yaradılır, mövcud kitabxana-biblioqrafiya informasiya sistemləri inteqrasiya şəraitində fəaliyyət göstərir. İntensifikasiya mexanizmi vasitəsilə investisiyaların həyata keçirilməsi kitabxana innovasiyalarının fəaliyyətindən alınan gəliri artırmağa imkan verir. Kitabxana sahəsində xidmət innovasiyası istehsalı üçün kadr potensialı aktivləşir və möhkəmlənir. Belə şəraitdə kitabxana innovasiya fəaliyyətinin maliyyə təminatı ilə digər innovasiya prosesinin mərhələliliyi arasında qarşılıqlı əlaqənin müasir mexanizmlərindən istifadə olunur.

Müasir dövrdə e-kitabxanaların yaradılması işi informasiya cəmiyyətinin qurulması və informasiya proseslərinin avtomatlaşdırılması sahəsində mühüm yer tutan mürəkkəb və perspektivli məsələlərdən biridir. Dünyanın əksər ölkələrində kitabxana xidmətinin, sənəd-informasiya təminatının təşkili səviyyəsi milli prioritetə malik məsələ kimi qiymətləndirilir və bu sahənin inkişafına həm rəsmi orqanlar, həm işgüzar dairələr, həm də qeyri-hökumət təşkilatları tərəfindən böyük diqqət və qayğı göstərilir. Elektron kitabxana müəllif hüquqlarını qoruyub saxlamaqla, milli ədəbiyyat nümunələrini elektron daşıyıcılara tam dolğunluğuyla köçürür. Ekitabxanaların məlumat bazaları gələcəkdə daha da inkişaf edərək, Azərbaycanın iqtisadi-texnoloji yüksəlişinə xidmət edən informasiya mərkəzlərinə, bilik və təhsilin inkişafı üçün etibarlı bir mənbəyə çevriləcəkdir.

ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 02.04.2014-cü il, www.president.az
2. “Azərbaycan - 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası. Bakı, 29 dekabr 2012-ci il. www.president.az
3. Е.Н.Гусева. “Библиотечная инновация,” Вестник библиотек Москвы. 2011. №1. с. 19-22
4. Е.Н.Гусева “Инновации в библиотеках страны: подходы, проблемы, проекты,” Библиотечное дело — XXI век. 2010. Вып. 1 (19). с. 93-109
5. М.Я.Дворкина Нормативное обеспечение инновационной деятельности библиотек // Инновации в библиотеках /. – М., 2010. с. 47-56

Şükriyyə TAĞIZADƏ
Bakı Dövlət Universiteti,
magistr
shukriyye.tagizade@bk.ru

İdarəetmədə inzibati hüquq anlayışı

Понятие административного права в управлении

The concept of administrative law in management

Xülasə: Məqalədə idarəetmənin mahiyyəti, və onun hüquqi cəhətdən məzmunu izah edilmiş, inzibati hüququn ümumi problematikası qoyulmuş, idarəetmədə inzibati hüquq prosedurası şərh olunmuşdur.

Açar sözlər: hüquq, idarəetmə, inzibati hüquq, qanunçuluq, demokratizm, humanizm

Резюме: В статье разъясняется сущность управления и его правовое содержание, обобщается общая проблема понятия административного права, разъясняется общая процедура административного права в управлении.

Ключевые слова: право, управление, административное право, право, демократия, гуманизм

Abstract: The article explains the essence of management and its legal content, summarizes the general problem of the concept of administrative law, explains the general procedure of administrative law in governance.

Keywords: law, management, administrative law, legality, democracy, humanism


İlk öncə məqalədə idarəetmə anlayışının mahiyyətini izah edək. İdarəetmə çoxcəhətli bir prosesi əhatə edir. O, cəmiyyətin bütün fəaliyyət dairəsi ilə əlaqədardır. Çünki hər bir idarəetmə mərhələsi nəticə etibarilə insanların fəaliyyətinin nizamlanması, qaydaya salınması, kiçik və böyük kollektivlərin idarə olunması,bu isə istehsal, əmək kooperasiyasının həyata keçirilməsi, habelə canlı əməklə istehsal vasitələrinin müəyyən qaydada əlaqəndirilməsi ilə bağlıdır. Hər bir elmin predmeti olduğu kimi idarəetmə elminin də öz predmeti vardır. Aydındır ki, elmin məzmunu onun predmetindən daha genişdir. İnzibati hüquq isə idarə orqanlarının təşkil edilməsi və fəaliyyət göstərməsi onun iş formaları və metodları, dövlət qulluqçularının hüquq və vəzifələrini, habelə dövlət idarəetməsi sahəsində vətəndaşların və ictimai təşkilatların hüquqlarını və vəzifələrini müəyyən edir. İnzibati hüquq münasibətlərinin xüsusiyyəti ondan ibarətdir ki, bu münasibətlərdə hökmən müəyyən dövlət vəzifələrini yerinə yetirən dövlət idarəetmə orqanı iştirak edir. Onun səlahiyyətləri hökmlü səlahiyyətlər adlanır. Məsələn: həmin dövlət idarəetmə orqanı vətəndaşı məktəbə qəbul edə bilər, mənzilə köçməyə ona order verə bilər, şikayəti həll edə bilər, inzibati məsuliyyətə cəlb edə bilər.

İnzibati hüquq, Azərbaycan Respublikasının qanunverici hüquq sisteminin bir əsas meyarı kimi ictimai əlaqələrin xüsusi bir qrupunu tənzimləmək üçün icra hakimiyyətinin praktiki icrası ilə əlaqəli (geniş mənada, dövlət idarəetmə fəaliyyətinin həyata keçirilməsində) yaranan hüquq normalarının məcmusudur. Əsas xüsusiyyət, ictimai idarəetmə sahəsində yaranan, inkişaf edən və dayan-

dırılan, yəni Azərbaycan Respublikasının bütün milli-dövlət və ərazi səviyyələrində icra hakimiyyəti sisteminin təşkili və işləməsi ilə əlaqədar proseslərin həyata keçirilməsi kompleksi hesab edilir. Bu cür münasibətlər, təbiəti müxtəlifdir və inzibati hüququn subyektini təşkil edir. Bu sosial münasibətlər birbaşa dövlət idarəçiliyi ilə əlaqəlidir. Bütün ictimai münasibətlər idarəedici xarakter daşımır və inzibati hüququn subyektinə aid edilə bilməz.

Bu sahə üzrə apardığım araşdırmalardan aydın oldu ki, inzibati hüququ öyrənməyə başlamışdan əvvəl ilk növbədə Azərbaycan Respublikasının hüquq sisteminin formalaşmasının metodoloji əsaslarını müəyyənləşdirmək lazımdır. İdarəetmə təyinatını almış bir ictimai fenomen ilə əlaqələndirilmişdir. Beləliklə, Latın mənşəli termin (idarəetmə-idarəetmə) müəyyən bir fəaliyyət növü, görülən tədbirlər toplusunu xarakterizə edən universal bir vasitə halını ifadə edir.

İnzibati hüquq dövlət idarəetmə sistemində icra hakimiyyətinin təşkili və həyata keçirilməsi zamanı yaranan, dəyişən və xitam olunan ictimai münasibətləri nizama salan hüquq normalarının məcmusundan ibarət olan Azərbaycan Respublikasının hüquq sisteminin sahəsidir. İnzibati hüququn aşağıdakı məqsədləri mövcuddur. Bunu sxem əsasında izah edək (Bax:şəkil-1) [2].



Şəkil-1

İnzibati hüquq da, hüquq sisteminin digər sahələri kimi bir-biri ilə sıx bağlı olan ayrı-ayrı inzibati hüquq normalarından və institutlarından ibarət olan sistemə malikdir.

İnzibati hüquq normaları ilə tənzimlənən ictimai münasibətlərin konkret məzmunlarına görə inzibati hüquq normaları aşağıdakı qruplara bölünürlər: Ümumi xarakterli idarəçilik münasibətlərini tənzimləyən, yəni bütün idarəetmə üçün ümumi olan normalar: bu normalar inzibati hüququn birinci, yəni ümumi hissəsini təşkil edir. İdarəetmənin bu və ya digər sahəsinin və ya bölməsinin ictimai münasibətlərini tənzimləyən normalar: bu normalar inzibati hüququn ikinci, yəni xüsusi hissəsini təşkil edir. İnzibati-yurisdiksiya fəaliyyəti sahəsində yarananb ictimai münasibətləri tənzimləyən normalar: bu normalar inzibati hüququn üçüncü hissəsini təşkil edir. İnzibati hüququn prinsipləri dedikdə, inzibati hüququn mahiyyətini əks etdirən əsas ideyalar, tələblər, müdəalar başa düşülür [2].

İnzibati hüququn prinsipləri öz məzmun və məqsədlərinə görə iki qrupa bölünürlər:

1. Konstitusion (ümumi) prinsipləri;

2. Xüsusi prinsiplər;

Konstitusion (ümumi) prinsiplərə aşağıdakı prinsiplər aiddir:

- Qanunçuluq
- Demokratizm
- Humanizm
- Vətəndaşların qanun və hüquqtətbiqedici qarşısında bərabərliyi

- Dövlət və şəxsiyyətin qarşılıqlı məsuliyyəti
- Insan və vətəndaş hüquq və azadlıqlarına hörmət edilməsi
- Təqsirsizlik prezumpsiyası
- Ədalətlilik və.s

Xüsusi prinsiplərə aşağıdakılar aiddir:

1. Dövlət qulluğunun keçirilməsi prinsipləri
2. İnzibati məsuliyyət prinsipləri
3. İnzibati xətalar haqqında işlərin icraatı prinsipləri və.s [4].

Qeyd edək ki, inzibati idarəetmə ümumilikdə cəmiyyətin hüquqi cəhətdən idarəedilməsində və qanunların tənzimləşməsində mühüm rola malikdir. "İnzibati idarəetmə hüququ" geniş mənada ictimai idarəetmənin və onu həyata keçirən orqanların hüququnu ifadə edir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı,1995.-34 s.
2. Abdullayev E.İ. İnzibati hüquq. Dərslik, Bakı, ABU, 2001,-740 s.
3. Abdullayev E.İ Dövlət qulluğu. -Bakı: 2007-432 s.
4. Бенетон Филипп. Введение в политическую науку.- Москва, 2002.

Bahar HƏSƏNLİ
Azərbaycan Universiteti,
magistr
1994.bh@mail.ru

Uşaq zorakılığı və onun əlamətləri

Жестокое обращение с детьми и его симптомы

Child abuse and its symptoms

Xülasə: Məqalədə zorakılığa səbəb olan amillərin və uşaq inkişafındakı fəsadların dərk edilməsinin insan inkişafı üçün zərurətindən söz açılır. Valideynlər, xüsusən də bəzən bilərəkdən, bəzən də dərk etmədən, uşaqlarının inkişafı üçün mənfi nəticələrə səbəb olacaq zorakılıq və ya laqeydlik kimi davranışlarla məşğul ola bilərlər. Nəticədə, sui-istifadə və laqeydliyi tanımaq, qarşısını almaq və cavab vermək üçün göstərilən səylər göz önünə alınır. Buna görə, ilk növbədə uşaqların valideynlərinə sui-istifadənin təhlükələri barədə izah etmək məqsədi haqqında məlumat verilir.

Açar sözlər: uşaq zorakılığı, fiziki zorakılıq, cinsi istismar, pis rəftar, təcavüz

Резюме: В статье подчеркивается необходимость развития человеческого потенциала, чтобы понять причины насилия и последствия развития ребенка. Родители могут участвовать в поведении, таком как насилие или пренебрежение, которое может привести к негативным последствиям для развития их детей, особенно сознательно, а иногда и неосознанно. В результате, усилия по распознаванию, предотвращению и реагированию на злоупотребления и пренебрежение игнорируются. Поэтому родители в первую очередь информируются о целях разъяснения опасности жестокого обращения с детьми.

Ключевые слова: жестокое обращение с детьми, физическое насилие, сексуальное насилие, жестокое обращение, агрессия

Abstract: The article highlights the need for human development to understand the causes of violence and the consequences of child development. Parents may engage in behaviors, such as violence or neglect, which can lead to negative consequences for the development of their children, especially deliberately and sometimes unknowingly. As a result, efforts to recognize, prevent, and respond to abuse and neglect are overlooked. Therefore, parents are primarily informed about the purpose of explaining the dangers of child abuse.

Keywords: child abuse, physical violence, sexual abuse, ill-treatment, aggression

Uşaq zorakılığı fiziki, şifahi və ya cinsi zərər nəticəsində ola bilər. Uşaq zorakılığı ümumiyyətlə bir hərəkət kimi qəbul edilsə də, laqeydlik kimi zərər verə biləcək hərəkətsizlik nümunələri də

var. Zorakılığa məruz qalan bir çox uşaqların daha sonra alkoqolizm, maddə asılılığı və ya əsəb problemlərindən əziyyət çəkdiyi aşkar olunmuşdur. Uşaq zorakılığının nəticələri həm qısa, həm də uzunmüddətli yaralanma və ya ölümlə nəticələnə bilər. Bəzi uşaqlar uşaq zorakılığının qurbanı olduqlarını bilmirlər. Uşaq zorakılığı geniş yayılmışdır və hər hansı bir mədəni, etnik və ya gəlir qrupunda baş verə bilər.

Uşaq zorakılığın bir neçə formaları vardır. Fiziki zorakılıq, uşağa fiziki qüsurlar yaradacaq zərər verələr, məsələn, sümükləri yandırmaq, döymək və ya qırmaq daxildir. Şifahi zorakılıq onları təhqir etmək və ya təhdid etməkdir. Duygusal travma, sui-istifadənin bir neçə forması nəticəsində yarana bilər.

Tədqiqatlar göstərir ki, hər dörd qızdan biri və səkkiz oğlan uşağından biri 18 yaşına çatmamışdan əvvəl cinsi istismar olunur və hər 20 uşağın hər biri fiziki təhqir olunur. Uşaq cinsi istismarı bir uşağa qəsdən məruz qalmaqdır. Bu davranış, uşağın döş və ya cinsiyyət orqanlarına uyğun olmayan toxunuş, kiminsə cinsiyyət orqanlarını bir uşağa məruz qoyması, xoşagəlməz, ağız-cinsiyyət əlaqə, cinsiyyət və anal əlaqələri, həmçinin sərgi, voyeurizm və pornoqrafiyaya məruz qalma kimi hərəkətləri əhatə edir.(2,34)

Zorakı həssaslıq kimsə həyat zərurətlərini təmin etmədikdə baş verir. Buraya yemək, geyim, sığınacaq və ya digər zəruri əşyalar kimi fiziki laqeydlik daxil ola bilər. Mənəvi laqeydliyə sevgi və ya rahatlıq daxildir. Tibbi qayğı laqeyd olduqda tibbi laqeydlik yaranır.

Dini etiqad azadlığı, mümkün uşaq istismarı hallarında mübahisə nöqtəsinə çevrildi. Müəyyən ölkələrdə uşaq istismarı hesab edilən, lakin digərlərində məqbul olan bəzi ifrat dini aktların nümunələri də mövcuddur.

Bir uşağa təcavüz edildiyi zaman onu tanımaq həmişə asan olmur. Zorakılığa məruz qalan uşaqlar qorxduğu üçün şikayət etməkdən çəkinirlər. Bundan əlavə, onlardan sui-istifadə edən şəxs sevdikləri biri ola bilər. Valideynlər tez-tez sui-istifadə əlamətlərini tanıya bilmirlər, çünki bu reallıqla qarşılaşmaq istəmirlər.

Bir uşağın cinsi istismara məruz qaldığından şübhələnirsə, uşağı ən qısa müddətdə təlim keçmiş bir sağlamlıq mütəxəssisi tərəfindən müayinə etmək lazımdır. İstismar olunan hər hansı bir uşağın dərhal xüsusi dəstək və müalicəyə dərhal girməsi vacibdir; Bir həkim müayinəsi heç bir səbəbdən təxirə salınmamalıdır. Cinsi istismarla əlaqəli bir çox yaralanma əlaməti müvəqqətidir. İdeal olaraq, imtahan hadisə və ya kəşfdən 72 saat sonra baş verməlidir. Tam fiziki imtahan keçirilməlidir ki, imtahan verən şəxs fiziki və ya cinsi istismar əlamətlərini görə bilsin.(3,42) Bu iki sui-istifadə forması birlikdə yaşaya bilər. İstismar nə qədər davam edərsə, uşağın tam fiziki və ya emosional sağalma ehtimalı az olar.

Valideynlər bir uşağın bədənində və ya davranışında izah olunmamış dəyişiklikləri izləməlidirlər. Rəsmi müayinə yalnız bir valideynin uşağının zorlandığından şübhələnmək üçün səbəb olduqda aparılmalıdır. Əks təqdirdə, uşaq qorxuya düşə bilər. Valideynlər aşağıdakı dəyişikliklərdən hər hansı birinə diqqətli olmalıdırlar:

1. Fiziki sui-istifadə əlamətləri-İzahat verilə bilməyən hər hansı bir zədə (qançır, yanma, sınıq, qarın və ya baş zədəsi).
2. Cinsi istismar əlamətləri:

- Qorxulu davranış (kabuslar, depressiyalar, qeyri-adi qorxular, qaçmaq cəhdləri)
- Qarın ağrısı
- Yataq otağından çıxmamaq
- Sidik yollarının infeksiyası
- Genital ağrı və ya qanaxma
- Cinsi yolla keçən xəstəlik
- Uşağın yaşına uyğun olmayan həddindən artıq cinsi davranış

3. Mənəvi istismar əlamətləri:

- Özünə inamın qəfil dəyişməsi
- Heç bir tibbi səbəbi olmayan baş və ya mədə ağrısı
- Anormal qorxu, kabusların artması və ya qaçmaq cəhdləri

4. Mənəvi laqeydliyin əlamətləri:

- Arıqlamamaq (xüsusilə körpələrdə)
- Ümidsiz bir davranış

- Qarışıq iştaha və ya yemək oğurlamaq

Fərdi, əlaqəli, icma və sosial amillərin birləşməsi uşağa pis rəftar və zorakılıq riskini artırır. Uşaqlar heç vaxt onlara dəyən zərər üçün cavabdeh deyillər, lakin müəyyən fərdi xüsusiyyətlər bir uşağın pis davranış riskini artırdığı aşkar edilmişdir. Risk faktorları birbaşa səbəblər deyil amillərdir.

Risk amillərinin nümunələri:

- Baxım yükünü artıra biləcək uşaqlarda əlillik və ya zehni gerilik
- Ailələrin sosial təcridi
- Valideynlərin uşaq ehtiyaclarını və uşağın inkişafı barədə anlayışlarının olmaması
- Valideynlərin məişət zorakılığı tarixi
- Yoxsulluq və digər sosial-iqtisadi çatışmazlıqlar, məsələn, işsizlik
- Ailənin pozulması, dağılması və zorakılıq, o cümlədən intim partnyor zorakılığı
- Ailə birliyinin olmaması
- Ailədə maddə istismarı
- Gənc, subay və ya bioloji olmayan valideynlər
- Zəif valideyn-uşaq münasibətləri və mənfi qarşılıqlı münasibətlər
- Zərərli davranışları dəstəkləyən valideyn düşüncələri və duyğular
- Depressiya və ya digər zehni sağlamlıq şərtləri daxil olmaqla valideynlərin stressi və sıxıntıları
- İcma zorakılığı

Kimsə uşağın zorlandığından şübhələnirsə, kömək üçün bir pediatr və ya yerli uşaq qoruyucu agentliyinə müraciət etməlidir. Həkimlər qanunsuz olaraq sui-istifadə və ya etinasızlıq halları barədə səlahiyyətli orqanlara məlumat vermək məcburiyyətindədirlər. Ayrıca bir terapevt tövsiyə edə və araşdırmaçılara lazımi məlumat verə bilərlər. Həkimlər, uşağın hüquqi qorunması və ya uşağın cinsi istismarında şübhəli bilinən şəxsi cinayət məsuliyyətinə cəlb etmək üçün məhkəmədə ifadə verə bilərlər. İstismarın mahiyyəti nə olursa olsun, təcavüz barədə məlumat vermək və kömək almaq üçün dərhal addımlar atılmalıdır. Bir hesabatın gecikməsi uşağın tam sağalma şansını azaldır. Zorakılığa məruz qalmışdırsa, bir uşaq ixtisaslı psixi sağlamlıq mütəxəssisinin xidmətlərindən faydalanacaqdır. Valideynlərə və ailənin digər üzvlərinə uşağa lazım olan dəstəyi və rahatlığı təmin etmək üçün məsləhət istəmək tövsiyə edilə bilər. Əgər ailədə kimlərsə sui-istifadə üçün məsuliyyət daşıyırsa, psixi sağlamlıq mütəxəssisi də həmin insanı uğurla müalicə edə bilər. (1,57)

Bir uşağa təcavüz edilmişdirsə, valideyn ona kömək edə biləcək yeganə şəxs ola bilər. Sui-istifadə şübhələri barədə məlumat verməyin. Problemi inkar etmək yalnız vəziyyəti pisləşdirəcəkdir. Uşaq istismarında hər hansı bir vəziyyətdə, istismar edilən gəncin təhlükəsizliyi əsas narahatlıq doğurur. Davamlı sui-istifadə halları üçün təhlükəsiz bir mühitdə olmalıdır.

Əksər hallarda istismar olunan və ya laqeyd olan uşaqlar fiziki ziyandan daha çox emosionaldırlar. Zorakılığa məruz qalan və ya başqa bir şəkildə pis rəftara məruz qalan uşaq depresiyaya düşə bilər və ya intihar, geri çəkilmə və ya zorakı davranış inkişaf edə bilər. Yaşlı bir uşaq narkotik və ya alkoqoldan istifadə edə bilər, qaçmağa və ya başqalarına sui-istifadə edə bilər. Uşaq nə qədər gənc olarsa və uşağın istismarçı ilə münasibətləri nə qədər yaxın olarsa, emosional ziyan bir o qədər ciddi olar. Yetkinlər kimi, ailə və cinsi çətinliklər, depressiya və ya intihar davranışları inkişaf edə bilər. Erkən müdaxilə və müalicə ilə bu nəticələrin qarşısını almaq olar. (5,33)

Nəzəri olaraq, hər kəs, iqtisadi, sosial və mədəni inkişafın təməl şərtlərindən biri kimi uşaq rifahının fəzilətləri ilə də razılaşır. Uşaqlar hamımızın gələcəyimizdir və ritorika bu gün demək olar ki, hər müasir cəmiyyətdə mövcud olan peşə və peşə səviyyəsindən kənarda da yaxşı davam edir. Praktikada, demək olar ki, hər ölkədə təkrarən uşağın rifahının maddi və mənəvi olmayan aspektləri daxil olmaqla həll edilə bilən məhdudiyyətlər var. Bu sahədə əməllər və sözlər, yaxşı niyyətlər və konkret həll yolları da rəqabət aparır və çoxları asanlıqla qəbul edərsə, təcrübə baxımından mövzularda çox konflikt hökm sürür.

Uşaq istismarı mürəkkəb səbəblər və faciəvi nəticələr və tibbi, hüquqi, inkişaf və psixo-sosial aspektləri ilə ciddi bir problemdir.

ƏDƏBİYYAT

1. Atakişiyeva G. Uşaq hüquqları Azərbaycanda : maarifçilərin başlatdığı yol // Azərbaycan Müəllimi. - 2017. - 27 oktyabr. - № 41.

2. Hüseynova H. Uşaq hüquqları: dünəndən bu günə // Yeni Azərbaycan. - 2018. - 5 iyun. - № 106.
3. Ömərov V. Uşaq hüquqları beynəlxalq qanunlarda // Səs. - 2018. - 3 iyul. - № 122.
4. Süleymanova E. Gələcəyimiz naminə uşaqlara qayğı // Respublika. - 2016. - 20 noyabr. - № 257.
5. Bahar Muradova: Azərbaycan dövləti uşaqların hüquqlarının qorunmasına xüsusi diqqət və qayğı ilə yanaşır // Respublika. - 2016. - 16 dekabr. - № 279.

Flora ƏLƏSGƏROVA
Azərbaycan Turizm və Menecment Universiteti,
i.ü.f.d., dosent
flora.aleskerova@gmail.com

Əkbər QULİYEV
Azərbaycan Turizm və Menecment Universiteti,
t.ü.f.d., dosent
akber_guliyev@yahoo.com

Turizmdə kadr potensialı haqqında statistik məlumatların toplanması

Сбор статистических данных о туристическом потенциале в туризме

Collection of statistical data on tourism potential in tourism

Xülasə: Məqalədə turizm sahəsindəki innovativ fəaliyyət, iqtisadi kapitalın vəziyyətinə və insan potensialına birbaşa təsirindən bəhs olunur. Azərbaycanda turizmin inkişafı perspektivli və dinamikdir. Azərbaycan bacarıqlı bir yanaşma ilə minlərlə turisti cəlb edən bir maqnitə çevrilə bilən imkanlarla tamamlanır. İnsan kapitalının ən dəyərli qaynaq rolu təbii sərvətlərdən və ya yığılan sərvətdən daha vacibdir.
Açar sözlər: turizm, resurslar, insan kapitalı

Резюме: В статье рассматриваются инновационная деятельность в туризме непосредственное влияние на состояние экономического капитала и человеческого потенциала. Развития туризма, является перспективным и динамичном в Азербайджане. Азербайджан изобилует возможностями, которые при умелом подходе смогут стать магнитом, притягивающим тысячи туристов. Роль человеческого капитала как наиболее ценного ресурса, гораздо важнее, чем природные ресурсы или накопленное богатство.
Ключевые слова: туризм, ресурсы, человеческий капитал

Abstract: The article discusses the innovative activity in tourism, a direct impact on the state of economic capital and human potential. Tourism development is promising and dynamic in Azerbaijan. Azerbaijan is replete with opportunities that, with a skillful approach, can become a magnet that attracts thousands of tourists. The role of human capital as the most valuable resource is much more important than natural resources or accumulated wealth.
Keywords: tourism, resources, human capital

XXI əsrdə texnologiyanın sürətli inkişafı yeni peşələrin yaranmasına səbəb oldu. Bu peşələrə yiyələnmələri üçün tələbələr yaradıcı düşüncə və birgə öyrənmə kimi bacarıqlara sahib olmalıdırlar. Müasir təhsilin əsas vəzifələrindən biri tələbələri bu peşələrə hazırlamaqdır. Beynəlxalq Təhsil Texnologiyaları Assosiasiyasının standartlarında şagird və tələbələrin hansı xüsusiyyətlərə sahib olmaları müəyyənləşdirmişdir (ISTE, 2016). Yaradıcı düşüncə və əməkdaşlıq bacarıqları tələbələrin bu standartlara sahib olmalı olduqları önəmli xüsusiyyətlərdir. Bu baxımdan turizmdə kadr potensialı bu istiqamət üzrə mütəxəssis hazırlayan peşə məktəblərində, orta ixtisas məktəblərində və ali məktəbdə təhsilin qarşısında mühüm vəzifələr durur.

Müasir dövrdə sosial-iqtisadi proseslərin idarə olunmasında, informasiya məkanının formalaşdırılmasında, ölkələrin inkişaf səviyyəsinin qiymətləndirilməsində rəsmi statistikanın əhəmiyyəti

daha da artmışdır. Islahatlar rəsmi statistikanın da inkişafına güclü təkan vermiş, statistika sisteminin hüquqi bazası yaradılmış, bu sahədə ardıcıl olaraq icra edilmiş 5 dövlət proqramı çərçivəsində milli statistik təsnifatların hazırlanmışdır.

Dünyada baş verən qlobal siyasi, sosial və iqtisadi proseslər fonunda çevik qərarların qəbul edilməsi, onların icra vəziyyətinin qiymətləndirilməsi üçün adekvat informasiya təminatının təşkili zərurəti statistika sisteminin üzərinə bu gün yeni və daha mürəkkəb vəzifələr qoyumuşdur. Təsadüfi deyildir ki, BMT-nin Dayanıqlı İnkişaf Sammitində üzv dövlətlər statistika potensialının gücləndirilməsini öhdəlik kimi qəbul etmişlər və milli statistika infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı tədbir Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə öz əksini tapmışdır.

Turizm statistikası müxtəlif səviyyələrdə turizm bazarlarının statistik tədqiqinin həyata keçirilməsinə istiqamətlənmişdir. Daxili, getmə, gəlmə turizmə dair statistik müayinənin keçirilməsi turizm statistikası üzrə göstəricilər sisteminin əhatə dairəsinin Ümumdünya Turizm Təşkilatının tövsiyələri əsasında genişləndirilməsinə, "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə qarşıya qoyulmuş hədəflərə çatma vəziyyətinin statistik qiymətləndirilməsinə imkan verəcəkdir. Onun məlumatlarından eyni zamanda tədiyə balansının turizmlə bağlı göstəricilərinin işlənib hazırlanması və milli hesablar sisteminin hesablarının tərtibində istifadə edilir. Turizm statistikasının mühüm xüsusiyyəti turizm sferasının öyrənilməsinə sistemli yanaşmasıdır. Bu turizm sferasında baş verən proseslərin müxtəlif tərəflərini və turizm fəaliyyətinin əsas növlərini əhatə edən göstəricilər sisteminin işlənib hazırlanmasını nəzərdə tutur. Ən sadə göstəricilərə turist axınlarının həcmi, turist xərclərinin kəmiyyəti və strukturu, təyinat yerinə gələn turistlərin müddəti, turist sənayesi müəssisələrinin aid etmək olar.

Turizm potensialında iş qüvvəsi resursları əsasdır. Adı çıkilən sektorunun peşəkar kadrlarının səviyyəsi, onların sayı sektorun inkişaf etməsinə bilavasitə təsir edir. Kadr potensialı, beynəlxalq təşkilatlara yiyələnən, müasir standartlara görə personalın hazırlanması və onların bu sahəsində işlə təmin olunmasıdır. Azərbaycanda turizm sektorunda çalışanların sayı getdikcə artır. Artıq dövlət sektoru ilə yanaşı, özəl sektorun da inkişaf etdirilməsi önəmli bir səviyyədədir.

Kütləvi müşahidələr və təsadüfi amillərin fəaliyyəti şəraitində əlaqələrin tədqiqi bir qayda olaraq iqtisadi-statistik modellərin köməyi ilə həyata keçirilir. Geniş mənada model hər hansı bir obyektin, prosesin şərti oxşarıdır. Model modelləşdirilən obyektin yaxud prosesin mühüm xüsusiyyətlərini əks etdirən komponentlərin məntiqi yaxud riyazi təsviridir. Bunun vasitəsilə öyrənilən obyktin və yaxud prosesin dəyişməsinin əsas qanunauyğunluğu müəyyən edilir.

Hal-hazırda bölgələrə turist axını artır və bu da öz növbəsində yüksək ixtisaslı kadr bazasının artırılmasına ehtiyac yaradır. Beləliklə, qonaqpərvərlik sahəsində insan kapitalı probleminə hərtərəfli diqqət yetirməyə ehtiyac yaranır.

Turizmdə innovativ fəaliyyət iqtisadi kapitalın vəziyyətinə və insan potensialına və bunlar vasitəsilə insan kapitalına birbaşa təsir göstərir. Ümumiləşdirərək, insan resurslarına yönəlmiş sosial-iqtisadi amillərin və qurumun sosial-iqtisadi alt sisteminin həm insan kapitalına, həm də sosial-iqtisadi kapitala təsir göstərdiyini söyləmək olar.

Bu məqsədlə, SWOT analiz aparılmış və hər bir şəhəri ayrıca nəzərdən keçirməklə, yəni güclü və zəif tərəflərini qiymətləndirmək mümkün olmuşdur. Nəticədə, bir şəhərin turizmin inkişafına əsas töhfəni qeyri-maddi irs olmaqla yanaşı, təbii və mədəni obyektlərin də qoyduğu müəyyən edilmişdir. Bu mədəni yolun infrastrukturu haqqında məlumat verir: yerləşmə vasitələri, nəqliyyat imkanları, yerli sənaye. Həmçinin mədəniyyətlərarası və şəxsiyyətlərarası ünsiyyətin imkanları da öz əksini tapmışdır.

Müəyyən edilmiş güclü və zəif tərəflərə əsaslanaraq, imkanların artırılmasında və təhdidlərin azaldılmasında insan resurslarının rolunu müəyyənləşdirmək mümkün oldu.

İnsan kapitalının inkişafı üçün aşağıdakı üsul və yanaşmalar müəyyənləşdirilir:

- Suvenirləri, nadir əşyalar sataraq turizm yarmarkaları və festivallar kimi tədbirlərə cəlb etməklə turizm məhsulunu satma prosesində yerli sakinləri cəlb etmək üçün maarifləndirmə seminarlarının keçirilməsi;

- Otel işçiləri və digər xidmət müəssisələri arasında ixtisasartırma təliminin təşkili;
- Mehmanxana və restoran kimi xidmət işçiləri üçün yenidən hazırlıq kursları və qısamüddətli təlim kurslarının təşkili, şəhərlərdən paytaxta işçi axınının dayandırılması üsulu kimi.

Beləliklə, təhlillər və nəticələr əsasında turizmin inkişafına töhfə vermək, şəxsi kadr ehtiyatınızı yaratmaq və insan kapitalını səmərəli, səmərəli işə həvəsləndirmək mümkündür.

Araşdırmadan ölkədə turizmin inkişafını xarakterizə edən göstəricilərin dinamikasında davamlı olaraq artım müşahdə edildiyini göstərir. Perspektivdə ölkənin tuirizm potensialından daha yüksək səviyyədə istifadə edilməsinə istiqamətlərnmiş işlərin sürətləndirilməsi və genişləndirilməsi , kadr potensialının yaxşılaşdırılması bu göstəricilərin daha da artmasınba müsbət təsir göstərə bilər. Bunun üçün turizm xidmətlərinin keyfiyyətinin artırılması, turizm sahəsində sahibkarlığın dəstəkləndirilməsi, turizm əhəmiyyətli obyektlərin fəaliyyətinin tənzimlənməsi, turizm bazarının statistik təhlili və s. sahəsində işlərin təkmilləşdirilməsi və inkişafı olduğca vacibdir. Fikrimizcə, qeyd olunan problemlərin həlli Azərbaycanı dünyanın qabaqcıl turizm mərkəzlərindən birini çevirməklə, ölkənin iqtisadi inkişafına güclü təkan verə bilər.

ƏDƏBİYYAT

1. Дятлов С.А. Теория человеческого капитала: Учебное пособие. СПб.: СПбУЭФ, 2014
2. 2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair dövlət proqramı https://www.stat.gov.az/menu/2/state_programs/2018_2025/source/az/
3. О Баку http://www.bhos.edu.az/az/page/1-baki-haqqinda - 15.09.2017
4. Политика по туризму. http://azerbaijan.az/portal/Society/Tourism/tourism_r.html

Roza ƏLİYEVA
Azərbaycan Texniki Universiteti,
dosent
farida94@mail.ru

Azərbaycanda turizm sənayesinin idarə edilməsi

Управление индустрией туризма в Азербайджане

Management of tourism industry in Azerbaijan

Xülasə: Azərbaycanda turizm sənayesinin iqtisadi səmərəliliyi iqtisadiyyatın digər sektorlarına nisbətən muxtariyyət inkişaf səviyyəsindədir. Öz növbəsində, turizm sənayesinin özerkliyi resursların bərpası və iqtisadiyyatın digər sektorlarından turizmin nisbi müstəqilliyidir.

Açar sözlər: turizm, Azərbaycan, infrastruktur, iqtisadi, xidmətlər

Резюме: Экономическая эффективность индустрии туризма в Азербайджане отличается высокой степенью автономности развития по сравнению с другими отраслями экономики. В свою очередь, автономия индустрии туризма заключается в возобновляемости ресурсов и относительной независимости туризма от других секторов экономики.

Ключевые слова: туризм, Азербайджан, инфраструктура, экономика, услуги

Abstract: The economic efficiency of the tourism industry in Azerbaijan is a high degree of development autonomy compared to other sectors of the economy. In turn, the autonomy of the tourism industry lies in the renewability of resources and the relative independence of tourism from other sectors of the economy.

Keywords: tourism, Azerbaijan, infrastructure, economic, services

Müasir dünyada turizm müsbət rol yalnız müxtəlif ölkələr arasında mədəniyyət mübadiləsində oynamır. Turizmin inkişafı insanların istirahət ehtiyaclarının təmin olunmasını təmin edə bilər və həm sənayeləşmiş, həm də inkişaf etməkdə olan ölkələrdə ən vacib sosial-iqtisadi problemlərin həl-

linə kömək edə bilər. Turizmin müasir rolu son nəticədə insanların keyfiyyətinə və uzunömürlülüyünə təsirinin effektivliyi ilə müəyyən edilir. Buna görə turizm tədqiqatlarında biyomedikal, iqtisadi və sosial turizm səmərəliliyi anlayışları istifadə olunur. Biyomedikalın səmərəliliyi turizmin əhalinin xəstəliklərinin qarşısının alınmasına təsirinin qiymətləndirilməsini nəzərdə tutur. Əhalinin insidentinin artması və ömür sürətinin azalması ilə bağlı əsas risk faktorlarından biri hipodinamiya, əhəmiyyətli emosional stress ilə birləşdirilmişdir. Turizm, yüksək intensivliyinə görə, vaxt vahidinə maksimum istirahət ehtiyaclarını ödəmək qabiliyyəti digər fəaliyyət növləri ilə müqayisədə yüksək profilaktik effektə malikdir. Turizmin səmərəli təşkili ilə əhalinin ümumi vəziyyətini 30% azalda bilər. Aktiv turizm növləri digər idman növlərindən fərqlənir. Həqiqətən, bir insanın genetik bütövlüyünü və fiziki qabiliyyətlərini qoruyan bir vəzifə var, əksinə hipodinamiya və əlverişsiz mühit bioloji bir növ olaraq onu məhv edə bilər. Xatırladaq ki, bir adam heyvan mühitindən təcrid olunduğundan etibarən onun hərəkəti əsasən uzun yürüş, işləmə (ovlanma və toplama prosesində) və özü üzərinə götürdüyü yeməkləri azaldıb. Bu sürüşmə üsulu Yer üzündə böyük buzlanma başlayandan sonra xüsusilə zəhmət çəkdi. Çünki mamont kimi böyük heyvanlar üçün ovlamaq lazım idi.

Gəzinti, ağırlıq çəkmək, atı, dəvə və ya eşşək sürmə, külək və yelkənli gəmilərdə üzmə, bioloji növ kimi uğurla inkişaf edən insanlar sayəsində oldu. Və yalnız sənaye inqilabından və bir lokomotivinin, avtomobil, təyyarə, genişmiqyaslı sənayenin ortaya çıxmasından sonra insanın ətraf mühitini çirkləndirən adamın fiziki deqradasiyası başlamışdır. İndi hipodinamiya və ekoloji problemlər insan mövcudluğuna ciddi şəkildə təhdid edir. Yuxarıdan iki ön nəticə çıxarmaq olar. Birincisi, insanın optimal yolda bioloji bir növ kimi fiziki bərpası qədim motor texnologiyaları və ekoloji cəhətdən təmiz bir mühitdə mümkündür, yəni aktiv turistik səyahətlər vasitəsilə. İkincisi, turizmin tibbi və fizioloji effektivliyi iqtisadi səmərəliliklə müqayisədə birincidir, çünki insanın bioloji növ və sosial varlıq kimi qorunması vacibdir. Turizm sənayesinin iqtisadi səmərəliliyi də iqtisadiyyatın digər sahələrinə nisbətən inkişafın yüksək dərəcəsidir. Öz növbəsində, turizm sənayesinin özerkliyi resursların bərpası və iqtisadiyyatın digər sektorlarından turizmin nisbi müstəqilliyidir. Azərbaycan müxtəlif növ ekskursiyaların, gəzintilərin, səyahətlərin və istirahətlərin təşkili və keçirilməsi üçün böyük imkanlara malikdir. Hal-hazırda, respublikanın inkişaf edən turizm sənayesi sosial turizmlə müqayisədə, istirahət meydançası, kommunikativ funksiyanın istifadə olunduğu sosial turizmin üzərində iqtisadi turizmin (onun effektivliyi turist fəaliyyətindən əldə olunan mənfəət miqdarı ilə ölçülür) tam üstünlüyü ilə xarakterizə olunur. Bundan əlavə, hər bir turizm quruluşu (firma, agentlik) turizm biznesinin bütün növlərini (turların inkişafı, onların iqtisadi əsaslandırılması, reklam, texniki xidmət, logistika və s.) həll edir. Buna görə, turist-ekskursiya qurumlarının universitet təşkilatçısı (menecerləri) hazırlamaq, qazanclı və sosial faydaları təmin etmək tələb olundu.

Turizmin idman və istirahət funksiyaları təbiətin resursları, qalan hissələr isə TIR qrupları tərəfindən həyata keçirilir.

İnkişaf prosesində bioloji bir növ kimi insan birbaşa olub və ətraf təbiətinin təsiri altındadır. Bir şəxsin bir bütün olaraq fiziki və mənəvi ehtiyacları əvvəlcə onları təmin etmək üçün təbii imkanlarla uyğunlaşdırılıb. İnsan sağlamlığının təbiət və insanlarla ünsiyyət prosesində bərpası istehsalda əsas əməyin xaricində istirahətə bərabərdir. Eyni zamanda, istirahət aktiv ola bilər (idman və turist) və ya passiv (internat).

İnsan istirahətində əhəmiyyətli rol TIR-nin ikinci qrupu tərəfindən oynanır. Mədəni və tarixi obyektlər ekskursiyalar vasitəsilə passiv istirahət üçün məkan əsasını təşkil edir.

Ekspertlərin fikrincə, gəzinti obyektləri iki növ informasiya daşıyır:

17. məntiqi xarakterli və insan şüuruna yönəldilmiş semantik;
18. etik.

Bəzi istirahət təsiri əldə etmək üçün, yalnız informativ məlumatlar deyil, mədəni və tarixi obyektlərin estetik xüsusiyyətlərinin qəbuluna əsaslanan insan emosional təcrübələri də vacibdir.

Fərdi ölkələrin iqtisadiyyatında beynəlxalq turizm bir sıra funksiyaları yerinə yetirir. Bunlar:

19. ölkə üçün valyuta mənbələrinin mənbəyi və məşğulluq təmin etmək vasitələri;
20. ödəmə balansında və ölkənin depozitlərin genişləndirilməsi vasitələri;
21. iqtisadiyyatı diversifikasiya etmək, turizm sənayesinə xidmət edən sənayelər yaratmaq;
22. məşğulluq artımının, gəlirlərin artımının və millətin rifahının yüksəldilməsinin bir vasitədir.

İnsanlar səyahət etmək üçün artan ehtiyacları ilə turizm sənayesi də turistlərin mal və xidmətlərini istehsal edən və istehlak edən müəssisə, qurum və təşkilatların bir dəsti olaraq həcmdə artır. Buna görə, turizmin insan həyatında sosial-iqtisadi rolu sürətlə artır. Meksika, Braziliya, Peru, Argentina, Keniya, Misir ən inkişaf etmiş ölkələr arasında deyil. Ancaq burada səlahiyyətlilər uzun müddət dövlətin köməyi ilə qurulan mükəmməl turizm xidmətinin bütün iqtisadiyyatın yüksəlməsinə kömək etdiyini anlamışlar. Son illərdə nümunələr Çin, Tayland və İndoneziyanın turizmində uğurlardır. Keniyada turizm, kimlik, sənətkarlıq və ətraf mühitin qorunması üçün demək olar ki, yalnız vəsait qaynağı olmuşdur. Turizm Nazirliyi hətta Seyşel adalarında da var.

ƏDƏBİYYAT

23. Turizm kimi fəaliyyət: Universitet tələbələri üçün dərslik. Profil / I. Volomin, N.V. İsaeva, E.İ. İlyin. - M.: Maliyyə və Statistika, 2013. - 327 p.
24. Tumanov S.Y., Azar V.İ. "Turizm bazarının iqtisadiyyatı" .- M., 2017
25. Aleksandrova A.Y. "İqtisadiyyat və beynəlxalq turizmin ərazi təşkilatı" .- M., 2016.

BÖLMƏ IV

ETNİK MÜNASİBƏTLƏR VƏ DİLLƏR

Məhərrəm ZÜLFÜQARLI
Azərbaycan Turizm və Menecment Universiteti,
t.ü.e.d.,professor
mzulfugarli@gmail.com

Sovet idarə sistemində “Allahsızlar cəmiyyəti”nin rolu

Роль «Всего также общества» в советской системе управления

Role of “All also socıety” in the soviet governance system

Xülasə: Azərbaycan Xalq Cümhuriyyəti sovet Rusiyası işğalı nəticəsində süqut etdikdən sonra 23 ayda əldə edilmiş nailiyyətləri üstündən xətt çəkilərək, dövlət idarə sistemini kommunist ideologiyasının tələblərinə uyğun formalaşdırılmasına başlanıdı. Yeni kadrların hazırlanması və tərbiyəsində ateist, yəni allahı inkar edən baxışların təbliğinə üstünlük verilirdi. Cəmiyyətin idarəsi belə demək mümkündürsə imansız, allahı inkar edən, vicdansız şəxslərə həvalə olunurdu. Bu cür baxışların təsiri ilə sovet rejimində allahdan və qanunlardan qorxmayan həddən artıq qorxulu bir məmur təbəqəsi yaranmağa başlandı ki, bu da sonraki faciələrin əsasını qoydu. Hazırda postsovet məkanında demokratikləşmə prosesinə mane olan bu cür təfəkkür daşıyıcılarının hələ də qalması təəssüf doğurmaya bilməz. Sovet rejimində allahsızlığın geniş təbliği qısa müddətdə öz acı nəticələrini verməyə başladı.
Açar sözlər: sovet rejimi, tarixin saxtalaşdırılması, tarixşünaslıq.

Резюме: Через 23 месяца после распада Советской Народной Республики Азербайджан в результате оккупации Советской России государственная система была сформирована для удовлетворения требований коммунистической идеологии. При обучении и воспитании новых кадров предпочтение отдавалось атеистам, то есть отрицанию Бога. Управление обществом было поручено неверующим, отрицающим и нечестным, если это возможно. Под влиянием таких взглядов советский режим начал создавать чрезвычайно опасный класс чиновников, которые не боялись Бога и законов, что заложило основу для дальнейших трагедий. Не следует сожалеть о том, что такие носители мышления все еще присутствуют в процессе постсоветской демократизации. Широко распространенная пропаганда неверности в советском режиме вскоре стала приносить горькие результаты.
Ключевые слова: советская власть, фальсификация истории, историография.

Abstract: 23 months after the collapse of the Soviet People's Republic of Azerbaijan as a result of the occupation of Soviet Russia, the state system was formed to meet the requirements of communist ideology. In the training and upbringing of new cadres, preference was given to the atheists, that is, denial of God. The management of the society was entrusted to the faithless, denying, and dishonest, if possible. Under the influence of such views, the Soviet regime began to create an extremely dangerous class of officials who were not afraid of God and laws, which laid the foundation for further tragedies. It should not be regretted that there are still such carriers of thinking in the post-Soviet democratization process. The widespread propaganda of infidelity in the Soviet regime soon began to yield bitter results.
Keywords: Soviet regime, falsification of history, historiography.

1924-cü ildə Azərbaycanda təşkil olunan “Allahsızlar cəmiyyəti” islam dininə qarşı xüsusi qəddarlıqla mübarizə apararaq, dindarları təqib etməklə yanaşı hətta tarixi memarlıq abidələri olan məscidlərin də dağıdılmasına rəhbərlik edib. Kollektivləşmə dövründə onların fəaliyyəti daha da gücləndirilmiş və hətta Azərbaycan K(b)P MK-nın aprel (1929-cu il) plenumu bunun üçün xüsusi göstərişlər də verib. Məhz bundan sonra cəmiyyət “Mübariz Allahsızlar İttifaqına” çevrilmiş, Qurban, Ramazan, Novruz bayramları kimi xalqın əsrlərlə həyata keçirdiyi bayramlar qadağan edilmiş, məscidlər bağlanmış və dindarlara qarşı mübarizə daha da kəskinləşmişdi.

1931-ci il aprelin 14-də Azərbaycan K(b)P MK Katibliyinin qərarı ilə C.Məmmədquluzadənin yaradıcısı olduğu "Molla Nəsrəddin" jurnalı Azərbaycan Mübariz Allahsızlar Mərkəzinin orqanına çevrildi.

1920-30-cu illərdə Azərbaycanda marksist fəlsəfənin əsas sahələri olan dialektik və tarixi materializmin təbliğinə xüsusi diqqət verilib. Bu dövrdə marksizm-leninizm klassiklərinin azərbaycan dilinə tərcümə edilmiş əsərləri, 1923-cü ilin dekabrında yaradılmış "Materialistlər kulubu" bu işdə mühüm rol oynayıb. Bu illərdə fəlsəfi fikrin aparıcı istiqamətləri dinə qarşı, xüsusilə islam dininə qarşı mübarizə, ateizmin təbliği, allahsızlar cəmiyyətinin işinə ideoloji istiqamət verməkdən ibarət olub. Bu problemə aid Azərbaycan alimləri tərəfindən bir sıra məqalə və kitablar yazıblar.

X.S.Nəcəfovun 1968-ci ildə nəşr olunmuş "S. Ağamalıoğlunun siyasi və ateist görüşləri" kitabında 20-ci illər Azərbaycan SSR-də müxtəlif rəhbər vəzifələrdə çalışmış, 1922-ci ilin martında təşkil olunmuş əlifba komissiyasına rəhbərlik etmiş S.Ağamalıoğlunun kommunist ideologiyasına sədaqətini əks etdirən siyasi dünyagörüşü, dinə qarşı, xüsusilə islama qarşı irəli sürdüyü fikirlər geniş şərh olunub. Lakin müəllif ərəb əlifbasının latın əlifbası ilə əvəz edilməsi prosesi zamanı islam dininə aid kitabların, hətta əski əlifba ilə yazılmış müxtəlif elmi əsərlərin məhv edilməsi, dinə qarşı mübarizədə təbliğat, inandırma metodlarından daha çox zorakılıqlar yoluna üstünlük verilməsinə və s. məsələlərə öz münasibətni bildirməyib [2].

20-ci illərdə Azərbaycanda savadsızlığın ləğvi, mədəni inqilab pərdəsi altında milli dəyərlərə, adət-ənənələrə qarşı mübarizə başlayıb. Azərbaycan MİK və respublika hökümətinin qərarı ilə 1 yanvar 1929-cu il tarixdən ərəb əlifbasının latın əlifbası ilə, 1939-cu ildən isə latın əlifbasının kiril əlifbası ilə əvəz edilməsi xalqa böyük mənəvi zərbə vurub. Ərəb əlifbasının dəyişdirilməsi xalqın 1300 illik mədəniyyətinə böyük zərbə vururdusa, 10 il sonra yenidən əlifbanın dəyişdirilməsi isə Azərbaycan ilə Türkiyə arasında mənəvi yaxınlaşmanın qarşısının alınmasına və ruslaşdırma siyasətinə xidmət edirdi. Ərəb əlifbasının dəyişdirilməsi ilə islama qarşı aparılan zorakı mübarizədə dini kitablarla yanaşı ərəb əlifbası ilə yazılmış digər kitabların da ucdantutma məhv edilməsi və digər tədbirlər kommunist rejiminin xalqın mənəviyyatına vurduğu ən böyük zərbələrdən biri idi.

1924-cü ildə Azərbaycanda təşkil olunan "Allahsızlar cəmiyyəti" islam dininə qarşı xüsusi qəddarlıqla mübarizə apararaq, dindarları təqib etməklə yanaşı hətta tarixi memarlıq abidləri olan məscidlərin də dağıdılmasına rəhbərlik edib. Kollektivləşmə dövründə onların fəaliyyəti daha da gücləndirilmiş və hətta Azərbaycan K(b)P MK-nın aprel (1929-cu il) plenumu bunun üçün xüsusi göstərişlər də verib. Məhz bundan sonra cəmiyyət "Mübariz Allahsızlar İttifaqına" çevrilmiş, Qurban, Ramazan, Novruz bayramları kimi xalqın əsrlərlə həyata keçirdiyi bayramlar qadağan edilmiş, məscidlər bağlanmış və dindarlara qarşı mübarizə daha da kəskinləşmişdi.

Təkcə Azərbaycanda 1928-1929-cu illərdə komsomolçu gənclər tərəfindən 400-dən artıq məscid dağıdılmış, "Rədd olsun tar!", "Rədd olsun kamança!", "Rədd olsun çuxa!", "Rədd olsun papaq" şüarları altında çoxlu sayda kampaniyalar keçirmişlər [3,s.24].

B.Rəfiyevin 1993-cü ildə tərtib etdiyi və "Azərnəşr" tərəfi ndən nəşr olunmuş "İstila qurbanları" kitabında M.B.Məmmədzadənin "Odlu yurd" qəzetinin 1929-cu il 2-ci sayında verilmiş "Azərbaycan həyat və mətbuatından" adlı məqaləsi yenidən çap olunub. Məqalədə gənclərin milli ruhda tərbiyəsini Müsavat firqəsinin məktəblərdəki fəaliyyəti ilə əlaqələndirən "Kommunist" qəzetinin mövqeyi şərh edilir. Qəzet müəllimlərin proletar sinifindən olmasına əhəmiyyət verməyi, millətçi müəllimləri məktəbdən çıxarmağı, millət əleyhinə proqramları çoxaltmağı, milli və dini bayramların tamamilə ləğv edilməsini, bunların yerinə inqilabi bayramların qoyulmasını, məktəblilərin ata-anaları arasında milli adət-ənənə, din, və s. ilə mübarizə işlərini qüvvətləndirmək üçün "Allahsızlar cəmiyyəti"nin işləri canlandırılmasını tələb edirdi.

Məqalənin sonunda kommunist rejiminin səylərinin heç bir nəticə verməyəcəyinə böyük inam öz əksini tapıb.

Kommunistlərin kənddə həyata keçiridikləri elliklə kollektivləşmə siyasəti sovet tarixşünaslığında yazıldığından fərqli olaraq insanlığa zidd bir siyasət olmuşdur.

B.Xandrosun "Yunost" jurnalının 1990-cı il 12-ci sayında nəşr olunmuş "Ölüm səhifələri (Ukraynada 1932-1933-cü illər kütləvi aclıq haqqında)", L.Kapleyuşinin "Aclıq (1933-cü ilin dəhşətli aclığı haqqında)" (6,3 iyul 1993) və digər müəllifl ərin məqalələri sovet tarixşünaslığında öz

əksini tapması mümkün olmayan problemə, ellikcə kollektivləşmənin həyata keçirilməsi nəticəsində 1932- 1933-cü illərdə Ukrayna, Volqaboyu və s. ərazilərdə baş vermiş kütləvi aclığa həsr olunub. Bu məqalələrdə göstərilən faktlardan məlum olur ki, kollektivləşmə heç də sovet tarixşünaslığında göstərildiyi kimi müvəff əqiyyətlə həyata keçirilməyib, əksinə kəndlilərə yeni-yeni faciələr gətirib. Hətta vəziyyət o qədər acınacaqlı olub ki, kütləvi aclıq nəticəsində çoxlu kəndlər boşalmış, acından insan yeyilməsi halları da baş verib.

V.P.Danilov "Kollektivləşmə: bu necə olmuşdur?" başlıqlı yazısında göstərir ki, aclıqdan ölənlərin sayını dəqiq göstərmək çox çətindir. Xarici sovetoloqlar elliklə kollektivləşmə dövründə 13 milyon kəndlinin məhv edildiyini, bunların da 7 milyon nəfərinin acından öldüyünü qeyd edirlər [7].

Reyimin həyata keçirdiyi bu antihümanis siyasətə qarşı digər ərazilərdə olduğu kimi Azərbaycanda da coxlu sayda üsyanlar baş verirdi.

M.Ə.Rəsulzadə kommunist rejiminin yeritdiyi antihümanist siyasət, bu siyasətə qarşı baş vermiş üsyanlar haqqında demişdir:"Bütün milli müəssisələr bağlanılır, milli ordu dağıdılır, ziyalılar öldürülür,...sinfi mübarizə alovlandırılır, ictimai nifrət qızışdırılır, qardaş qardaşa qarşı təhrik edilir, bir sözlə, məmləkət sovetləşirdi. Bütün bunlarla bərabər milli müqavimət davam edirdi və Azərbaycanın hər tərəfində qanlı hadisələr olurdu" [5,s.92].

Allasızların rəhbər etdiyi bir cəmiyyətdə insan haqlarının kütləvi şəkildə pozulması, repressiyalar adi hal almışdı.

1921-1922-ci illərdə Azərbaycanın Türkiyədə hərbi attaşesi vəzifəsində işləmiş Ə.Ələsgərov "Azərbaycan faciəsi" memuarında yazırdı : "Azərbaycanda 1920-ci ilin aprelindən 1921-ci ilin avqustuna kimi 48 min adam qırmızı terrorun qurbanı olmuşdur ki, bunların da böyük bir hissəsi ziyalıların payına düşür."(1, s.56)

Azərbaycan AK(b)P-nin XIII qurultayından sonra görkəmli partiya və dövlət xadimlərindən R.Axundov, D.Bünyadzadə, M.Hacıyev, M.D.Hüseynov, Ç.İldırım, M.İsrafilbəyov (Qədirli), Ə.H.Qarayev, M.Quliyev, Q.Musabəyov, M.Nərimanov,

H.Rəhmanov, H.Sultanov, S.M.Əfəndiyev, N.Rzayev, görkəmli mədəniyyət və elm nümayəndələrindən Hüseyn Cavid, Mikayıl Müşfiq, B.A.Talıblı, V.Xuluflu, Yusif Vəzir (Çəmənzəminli), Əhməd Cavad, T.Şahbazi, M.Cuvarlinski, B.Çobanzadə, B.Həsənbəyov və başqaları məhv edilmişdir. Bağırov və K°-nın məhkəmə prosesində aydın olmuşdu ki, saxtalaşdırma və qanunsuzluq nəticəsində 300 nəfərdən artıq rəhbər partiya və sovet işçisi, o cümlədən 32 rayon partiya komitəsi katibi, 28 rayon icraiyyə komitəsi sədri, 18 xalq komissarı və onların müavinləri, 66 mühəndis, Qızıl Ordu və Hərbi Dəniz Donanmasının 88 komandiri və siyasi isçisi, 8 professor və bir çox başqa şəxslər həbs olunaraq ya uzun müddətə azadlıqdan, ya da həyatdan həmişəlik məhrum edilmişdir [1, s.25].

Azərbaycanda da "böyük terror" illərində çoxlu sayda rəhbər işçi məhv ediməsi ilə bağlı M.Ə.Rəsulzadə belə yazmışdı: "1937-ci ildə Moskvada qurulan bir inqilabi məhkəmədə Trotski tərəfdarlarını təmizləmək üzrə məşhur məhkəmələr başlamışdı. Bu məhkəmələr əsnasında Qafqaz kommunistlərindən Budu Mdivani Qafqaz millətçiliyində, xüsusilə, milli Azərbaycan partiyası "Müsavat"la münasibətdə olmaqda ittiham edilmişdi. Bu, Azərbaycanda başlanacaq genişmiqyaslı təmizləməyə işarə idi. Bu isə qorxunc bir sadizmlə başlandı...Həqiqətdə də, 1937-ci il təmizləməsindən sonra nə məşhur yazıçılardan, nə görkəmli professor və müəllimlərdən, nə sevilən artistlərdən, nə də az-çox tanınan ictimai xadimlərdən kimsə meydanda qalmır. Az-çox ad-san sahibi olanlar məhv edilirlər" [5, s.19].

Faktlar sübut edir ki, 1930-1940-cı illərdə və 50-ci illərin əvvələrində Azərbaycanda 70 min adam repressiyaya məruz qalmışdı ki, bunun da 29 min nəfəri ziyalı idi.Təkcə 1937-ci ildə 16 Azərbaycan generalı qətlə yetirilmişdi. Repressiya illərində Qazaxstana sürgün olunmuş azərbaycanlılardan 150 mini öldürülmüş, onlardan 28 min nəfəri məhkəmə və istintaq olmadan güllələnmişdi [1, s.152].

Sovet reyimi repressiyalarının bir cəhətini də qeyd etmək lazımdır ki, bu cəza maşını sosial mövqeyindən, milliyyətindən, dinindən, irqindən, sovet hakimiyyətinə xidmət edib, etməməsindən asılı olmayaraq bütün təbəqələrdən olan insanları məhv etmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutunda işğalçı XI orduya yaxından kömək göstərmiş, öz xalqının mənafeyinə xəyanət edrək sovet hakimiyyətinə ürəkdən xidmət göstərmiş kommunist rəhbərlərin əksəriyyəti, o cümlədən Hə-

mid Sultanov, Ayna Sultanova, Qəzənfər Musabəyov, Əlheydər Qarayev, Ruhulla Axundov, Çingiz İldırım və başqaları həbs olunaraq güllələnmişlər.

Stalin öz ətrafında olan əksər rəhbər işçilərin qadınlarını "vətən xaini" damğası ilə həbsə atdırır, ərlərini isə gözükölgəli şəkildə özünə xidmət etməyə məcbur edirdi. Buna misal olaraq 1920-ci ilin aprelində Azərbaycanı işğal etməyə gələn XI qırmızı ordunun komandanı Serqo Orconikidzenin həyat yoldaşı Zinaida Qavrilovna Orconikidze represiyaya məruz qalaraq həbsxanaya atılmasını göstərmək olar. Zinaida Qavrilovna Orconikidze məhkəmədə ifadə verərkən koftasını çıxararaq qızmış dəmirlə dağ basılmaqdan zolaq-zolaq olan kürəyini məhkəmədə iştirak edənlərə göstərmişdir [4,s.22].

Faktlar sübut edir ki, dövlət idarəçiliyində vicdanlı, hümanist, yüksək əxlaqi keyfiyyətlərə malik insanların geniş təmsil olunması dövlətin, millətin inkişafına müsbət təsir göstərir. Dövlət idarəçiliyində vətəndaşların əqidəsinə, dini baxışlarına hörmətlə yanaşan, korrupsiya üçün münbit şərait yaradan yerlibazlığa, tayfabazlığa yol verməyən kadrlar nə qədər çox təmsil olunarlarsa problemlər daha tez həll olunar və cəmiyyət inkişaf edər.

ƏDƏBİYYAT

1. "Ağ ləkələr" silinir.."Bakı, 1991
2. Nəcəfov X.S. Ağamalıoğlunun siyasi və ateist görüşləri. Bakı, Azərnəşr,1968, 142 s.
3. Qafqazda Sovet totalitarizmi (20-30 -cu illər). Elmi konfransın materialları. Xəzər Universiteti 6-7 noyabr 1998.Bakı, 1998.
4. Süleymanov E., Zülfüqarlı M. Musayev D. " Şamaxı Qırmızı terrorun hədəfində. (1930-40-cı illər represiyaları)". Bakı 2012, 223 s. s.22
5. Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı,Gənclik,1991,110
6. 566. "Известия" газ., Москва (на рус. языке).
7. 728. Страницы истории советского общества. факты, пролемы, люди. Москва, Политиздат, 1989, 447 с.

Санубар ГАНБАРОВА
Азербайджанский университет туризма и менеджмента
Qsenuber@rambler.ru

Основные направления внешней политики Азербайджана

Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri

The main directions of foreign policy of Azerbaijan

Резюме: Внешняя политика является неотъемлемой частью общей политики государства и продолжением его внутренней политики. Каждое государство выстраивает свою внешнюю политику, основываясь на своих интересах, а также на других объективных и субъективных факторах. Сегодня Азербайджан занял свое достойное место в системе международных отношений благодаря сбалансированной и многовекторной внешней политике, которую целенаправленно проводит руководство страны. Наша страна зарекомендовала себя как надежный партнер, которому можно доверять и с которым можно выстраивать продолжительное сотрудничество. В статье дается информация об основных направлениях внешней политики Азербайджана.

Ключевые слова: Азербайджан, политика, внешняя политика, национальные интересы, международные отношения.

Xülasə: Xarici siyasət dövlətin ümumi siyasətinin tərkib hissəsidir və daxili siyasətinin davamıdır. Hər bir dövlət xarici siyasətini maraqlarına, eləcə də digər obyektiv və subyektiv amillərə əsaslanaraq qurur. Bu gün Azərbaycan ölkə rəhbərliyinin yürütdüyü balanslı və çoxvektorlu xarici siyasət sayəsində beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutur. Azərbaycan özünü *dünyada* etibarlı tərəfdaş kimi təsdiq edib. Məqalədə Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri araşdırılır.

Açar sözlər: Azərbaycan, siyasət, xarici siyasət, milli maraqlar, beynəlxalq münasibətlər.

Abstract: Foreign policy is an integral part of the general policy of the state and a continuation of its domestic policy. Each state builds its foreign policy based on its interests, as well as on other objective and subjective factors. Today, Azerbaijan has taken its rightful place in the system of international relations thanks to a balanced and multi-vector foreign policy pursued by the country's leadership. It has proved to be a reliable partner who can be trusted and with whom it is worth building a long cooperation. The article explores the main directions of Azerbaijan's foreign policy.
Keywords: Azerbaijan, politics, foreign policy, national interests, international relations.

Политическая деятельность любого государства осуществляется прежде всего в системе внутренних общественных отношений, а потом уже за его пределами, то есть в системе внешних отношений. В результате различают внутреннюю и внешнюю политику. Внешняя и внутренняя политика призваны обеспечивать сохранение и упрочнение существующей в данном государстве системы общественных отношений. Внешняя политика регулирует отношения государства с другими государствами и народами, обеспечивает реализацию их потребностей и интересов на международной арене. Внешняя политика - это деятельность и взаимодействие официальных субъектов, получивших или присвоивших право от имени всего народа выражать и защищать национальные интересы на международной арене, избирать адекватные средства и методы их реализации.

Внешняя политика – это обобщенный курс государства в системе международных отношений, регулирующий взаимоотношения суверенной державы с другими социально-государственными образованиями в соответствии со своими целями и принципами. Внешняя политика является продолжением внутренней политики, так как формируется за ней следом и осуществляется в качественно иных условиях [5]. На основе внешнеполитической деятельности отдельных государств складываются определенные международные отношения, то есть совокупность экономических, политических, культурных, правовых, военных и других связей и взаимоотношений между народами, государствами, экономическими, политическими, научными, культурными религиозными организациями и учреждениями на международной арене. Главным средством внешней политики является дипломатия. Следует отметить, что внешняя политика любого государства определяется многочисленными факторами, такими как сложившаяся ситуация в мировой экономике, военно-стратегическая ситуация, особенности взаимодействия с отдельными государствами, природная среда, а также состояние природных и сырьевых ресурсов.

Среди основных целей внешней политики следует выделить, во-первых, обеспечение безопасности государства, во-вторых, стремление к увеличению материального, политического, военного, интеллектуального и др. потенциала страны, в-третьих, рост ее престижа в международных отношениях. Реализация этих целей обусловливается определенным этапом развития международных отношений и конкретной ситуацией в мире. При этом деятельность государства во внешней политике должна учитывать цели, интересы и деятельность других государств, иначе она окажется неэффективной и может стать тормозом на пути социального прогресса.

После обретения независимости Азербайджан получил шанс самостоятельно определить свою внутреннюю и внешнюю политику. В первые годы независимости, когда страна находилась в военном положении из-за армяно-азербайджанского нагорно-карабахского конфликта, она столкнулась с большими трудностями как в вопросе внешней, так и внутренней политики. Но общенациональный лидер Гейдар Алиев, несмотря на все трудности, смог объединить азербайджанский народ вокруг единой общенародной цели, а также сохранить независимость страны. Благодаря обдуманной и мудрой политике общенационального лидера началось осуществление успешной стратегии, направленной на укрепление независимости и суверенитета Азербайджана, являющееся начальным условием благополучия народа и устойчивого развития страны.

Сегодня успешная политика Г. Алиева, направленная на укрепление Азербайджанской государственности, продолжается нынешним Президентом Азербайджанской Республики Ильхамом Алиевым. Наша страна обладает стабильной экономической и политической систе-

мой, которая является примером для большинства стран. Азербайджан обладает многими экономическими и политическими возможностями для реализации государственных интересов, а также укрепления своих позиций как в регионе, так и в мире. Азербайджан является лидером в регионе и надежным партнером на международной арене. Сегодня в регионе не может быть реализован ни один проект стратегического назначения без участия нашей страны.

В Конституции нашей страны указано, что «Азербайджанская Республика строит свои взаимоотношения с другими государствами в соответствии с принятыми международными правовыми нормами» [1]. Принципы, предусмотренные международными правовыми нормами, отражены в Уставе ООН, членом которой является и Азербайджан, в Хельсинкском Акте ОБСЕ, Парижской и Стамбульской хартиях.

Главные задачи, нацеленные на обеспечение устойчивого развития и безопасности Азербайджана в долгосрочной перспективе, которыми руководствуется Азербайджанское государство во внешней политике, можно сгруппировать по следующим направлениям [3, 279 s.]:

- сохранять независимость, суверенитет и территориальную целостность страны в рамках, признанных на международной арене границ, тесно увязывать ее безопасность с системой региональной и международной безопасности;
- добиться того, чтобы Азербайджан был представлен во всех международных и региональных организациях, вовлечен в мировую политику, занял достойное место на политической карте мира на основе активного участия в решении международных и региональных проблем;
- создавать со всеми государствами мира равноправные, взаимовыгодные связи сотрудничества, использовать эти связи как эффективный фактор в развитии экономики, науки и культуры республики, а также использовать их возможности для укрепления международной позиции республики;
- стремиться к установлению благоприятной международной ситуации для продвижения страны вперед путем демократии и свободной рыночной экономики, проведения независимой внутренней и внешней политики;
- создавать условия для реализации международных норм, направленных на защиту основных прав и свобод населения;
- прилагать усилия для устранения напряжения в регионе и создания добрососедских отношений;
- добиться создания механизма международной опеки, предотвращающего или сокращающего до минимума внешнее давление на Азербайджан;
- стремиться к активному участию государства во всех международных, региональных, экономических, научно-технических, культурных, гуманитарных и других организациях;
- проводить подчиненную интересам народа внешнюю экономическую политику, использовать все внешние и внутренние факторы для интеграции экономики страны в мировую экономическую систему;
- создавать с зарубежными странами научные, культурные гуманитарные связи и механизмы широкого информационного обмена и т.д.

Основные задачи внешней политики Азербайджана, исходя из угроз и вызовов современной системы международных отношений, можно классифицировать следующим образом:

- урегулирование армяно-азербайджанского нагорно-карабахского конфликта в соответствии с нормами и принципами международного права, резолюциями Совета Безопасности ООН в пределах признанных международным сообществом границ Азербайджана на основе его территориальной целостности и суверенитета;
- защита страны от внешних рисков и обеспечение ее безопасности;
- невмешательство во внутренние дела государств и поддержка межгосударственных отношений;
- избежание международных действий и инициатив, не отвечающих национальным интересам Азербайджана;
- расширение сотрудничества с международными организациями и расширение многосторонней дипломатии;

- поощрение межрелигиозного и межкультурного диалога и мультикультурализма;

- повышение конкурентоспособности национальной экономики, расширение экспорта и получение выхода на новые рынки [4].

Сегодня Азербайджан- это страна, которая способствует региональному сотрудничеству и имеет международную репутацию инициатора и участника крупных проектов. Внешнеполитические достижения нашей страны как надежного партнера, безусловно, основаны на сбалансированных отношениях с соседними странами и другими странами мира, установлении равноправного диалога и сотрудничества на основе взаимных интересов.

Азербайджан также занял свое достойное место в исламском мире, пользуется поддержкой и уважением мусульманских стран, активно участвует и отстаивает свои интересы, будучи членом европейских структур. Основополагающим фактором во внешней политике государства является стремление сохранить позитивный вектор развития, способствующий укреплению региональной стабильности. Прозрачность и предсказуемость являются основными особенностями, характеризующими внешнюю политику Азербайджана. Развивая дружественные, взаимовыгодные двусторонние и многосторонние связи со всеми странами, Азербайджан заинтересован в стимулировании мирного сосуществования и добрососедства в своем регионе и за его пределами.

В своей речи к участникам VI совещания, посвященного 100-летнему юбилею органов дипломатической службы Азербайджанской Республики, Президент Азербайджана отметил: «Сегодня Азербайджан является страной, которая проводит в подлинном смысле слова независимую политику, обладает большим авторитетом на международной арене. Число стран, которые сотрудничают с нами, постоянно растет. Мы дважды председательствовали в самой авторитетной структуре мира - Совете Безопасности ООН. Мы очень тесно сотрудничаем со всеми другими ведущими международными организациями. Азербайджан во всем мире признан как надежный партнер, проводит представительные международные мероприятия, поэтому к нашей стране относятся с большим уважением и симпатией» Он также отметил, что внешняя политика нашей страны является продолжением нашей успешной внутренней политики. Нашим дипломатам, органам дипломатической службы принадлежат исключительные заслуги в укреплении нашей независимости, доведении азербайджанских реалий до всего мира, превращении нашей страны в активного члена международного сообщества [4].

Несмотря на то что, Азербайджанская Республика располагается в сложном геополитическом регионе, она проводит независимую политику, основанную на национальных интересах. За исключением Арменией-оккупантом наша страна установила добрососедские отношения со всеми государствами региона, а также заложила в регионе основу для международного сотрудничества. Благодаря целенаправленной и дальновидной политике Президента Ильхама Алиева страна превратилась в один из мировых центров политического диалога.

Внешняя политика Азербайджана соответствует принципам Движения неприсоединения. Наша страна является сторонником решения международных конфликтов, в том числе, армяно-азербайджанского нагорно-карабахского конфликта мирным путем по признанным нормам и принципам международного права, уважения принципа территориальной целостности государств.

ЛИТЕРАТУРА

1. Конституция Азербайджанской Республики. Баку, 12 ноября 1995 г.
2. Речь Президента Азербайджана Ильхама Алиева к участникам VI совещания, посвященного 100-летнему юбилею органов дипломатической службы Азербайджанской Республики, город Баку, 8 июля 2019 года.
3. Гасанов А. Современные международные отношения и внешняя политика Азербайджана, Баку, 2013,279 s.
4. Мамедъяров Э. Внешнеполитическая стратегия Азербайджана основана на национальных интересах и соответствует вызовам времени. Политика. № 5 (89), 2017.
5. www.histerl.ru/slovar/vnutrennjaja-i-vneshnjaja-politika.htm.

Mehriban ALLAHQULUYEVA
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim
m.allahquluyeva@atmu.edu.az

Şabran rayonunda etnoqrafik xüsusiyyətlər: etnoslar və dillər

Этнографические особенности в Шабране: этносы и языки

Ethnographic peculiarities in Shabran district: ethnos and languages

Xülasə: Şabran rayonunda azərbaycanlılardan başqa respublikada bir sıra azsaylı xalqlar və milli azlıqlar da məskunlaşmışdır. Şabranda əhalinin əksəriyyəti tatlardan ibarətdir. Tatlar İran dilli etnoslardan biridir. Kompakt yaşadıqları ərazidə tat dili əsas ünsiyyət vasitəsi hesab olunur. Şabranda ləzgilər və axıska türkləri də yaşayır. Axıska türklərinin azərbaycanlılarla mənşəcə bir kökdən olmaları, ümumi dil, adət və ənənələrdə yaxınlıq onların Azərbaycanda adaptasiyasına əlverişli zəmin yaratmışdır. Qədim mədəniyyətə sahib olan bu xalqlar Şabran rayonunun inkişafında çox mühüm rol oynamışdır.
Açar sözlər: Şabran, etnos, dil. xalq, milli

Резюме: В Шабране, помимо азербайджанцев, в республике также проживают и этнические меньшинства. Большая часть населения в Шабране состоит из таты. Таты - одна из ираноязычных этнических групп. В компактной области Татский язык является основным средством общения. Лезгийцы и акшские турки тоже живут в Шабране. Общий язык, обычаи и традиции способствовали их адаптации в Азербайджане. Эти народы с древней культурой сыграли очень важную роль в развитии Шабранского района.
Ключевые слово: Шабран, этнос, язык, народ, национальность

Abstract: In addition to Azerbaijanis, several minorities and ethnic minorities live in Shabran. Most of the population in Shabran consists of flavors. Tats are one of the Iranian-speaking ethnic groups. In the compact area, the language is the main means of communication. Lezghians and Akshka Turks also live in Shabran. These peoples with ancient culture have played a very important role in the development of the Shabran region.
Keywords: Shabran, ethnicity, language, people, national

Azərbaycanlılardan başqa respublikada bir sıra azsaylı xalqlar və milli azlıqlar da məskunlaşmışdır. Tarix boyu Azərbaycanda yaşayan xalqlar arasında milli münasibətlər ahəngdar, öz dinc axarı ilə getmiş, etnik münaqişələr və gərginlik üçün zəmin olmamışdır. Burada xalqların ənənəvi məişət və mədəniyyətlərindəki ümumi və spesifik cəhətlər sıx vəhdətdə olub bir-birini tamamlayır. Bununla yanaşı hər bir xalq sayından asılı olmayaraq spesifik, lokal mədəniyyətə malikdir. Respublikada fəaliyyət göstərən mədəniyyət mərkəzləri bu xalqların milli adət-ənənələrinin dirçəlişi, qorunub saxlanması sahəsində böyük rol oynayır. Bu xalqlar respublikanın siyasi-ictimai həyatında fəal iştirak edirlər. Azərbaycanlıların ölkədə yaşayan xalqlar arasında birləşdirici rol oynaması xüsusilə vurğulanmalıdır. Şübhəsiz ki, bu fenomen azərbaycanlıların milli mentalitetindən, xalqların mədəniyyətlərinə tolerant münasibətindən irəli gəlir.

2009-cu il hesablamalarına görə Şabranın 54.666 nəfər əhalisi var. Bunlardan 54 942-si azərbaycanlı, 1967-si tat, 1376- si axıska-mehseti türkü, 70-i ləzgi, 32-si rus, 8-i tatar, 2-si ukraynalıdır. Şabranda əhalinin əksəriyyəti tatlardan ibarətdir və burada bir çox Tat kəndləri var. Şabranda azərbaycanlılar, ukraynalılar, həmçinin, 1947-ci il Stalin sürgünündən sonra Şabrana gəlmiş və bəzi kəndlərdə yaşayan azsayda axıska türkləri də yaşayır.

Tatlar İran dilli etnoslardan biridir. Yayılma ərazilərinə, etnik əlamətlərinə, dialekt xüsusiyyətlərinə görə Azərbaycan tatları müəyyən fərqli cəhətlərə malik olsalar da, əslində onlar vahid bir azsaylı etnos sayılırlar. A. Bakıxanovun və b. tədqiqatçıların fikrinə görə tatların əcdadları Azərbaycana 4-6 əsrlərdə Sasani şahları tərəfindən köçürülmüşdü. Tatların ənənəvi məşğuliyyəti əkinçilik

və bağçılıqdır. Xalçaçılıq sənəti geniş yayılmışdır. Ailə-məişət münasibətləri təxminən azərbaycanlılarda olduğu kimidir. Dini mənsubiyyətlərinə görə müsəlmandırlar.

Azərbaycan tatları arasında başlıca fərq onların dillərində özünü göstərir. Yəni Abşeron, Şamaxı tatları ilə Quba, Şabran tatlarının dillərində müəyyən dialekt və ləhcə fərqləri var. Dilçilər ləhcə fərqlərinə görə tat dilini müxtəlif qruplara bölürlər və bu bölgüyə əsasən, Quba, Şabran ərazisində yaşayan tat əhalisi – tat dilinin şimal ləhcəsi adlandırılır.

Bəzi tədqiqatcıların fikrincə, Xəzər dənizinin qərb sahili boyunca Abşerondan Dərbəndədək məskunlaşmış tatlar buraya köçürülmüş qədim İrandilli xalqlardan biridir və onlar Şirvan ərazisinin ən qədim etnik təbəqələrindəndir. Qədim mədəniyyətə sahib olan bu xalq Şabranın və ətraf rayonların inkişafında çox mühüm rol oynamışdır.

İran və Azərbaycan ərazisində məskunlaşan tatlar fars dilli etnoslardan sayılır. Bəzi tarixi mənbələrdə qeyd olunur ki, etnik xalq Şimali Azərbaycana köçürülərkən yerli türkdilli əhalini müəyyən qədər öz təsiri altına salmağa cəhd edirdi. Buna başlanğıcda qismən nail olsalar da zamanla daha çox özləri türkdillilərin təsirinə düşüblər. Etnik xalqın tarixi və dili barədə bu günümüzə kimi çox səthi araşdırmalar aparılıb. Publisist Maqsud Hacıyev 1995- ci il nəşrli "Toy-düyün xəzinəmizdən" kitabında qeyd edir ki tatların sayı barədə dəqiq məlumat yoxdur.

Buna isə səbəb assimilasiya və tatların ölkənin bəzi yerlərində pərakəndə yaşaması olub. 2009-cu ildə rəsmi siyahıyaalınmada Azərbaycandakı tatların sayı 25,200 kimi qeyd edilir. Əsas məşğuliyyəti heyvandarlıq, qismən əkinçilik olan tat xalqı Azərbaycanın Şimal-şərq rayonları və dağlıq zonalarında yaşayır. Tatlar eyni zamanda həm tat, həm də azərbaycan dilində danışa bilir. Kompakt yaşadıqları ərazidə tat dili əsas ünsiyyət vasitəsi hesab olunur. Şabranın Tat kəndləri aşağıdakılardır: Zeyvə, Gendob, Bilici qorqan, Caraq, Çinarlar, Çuxrazimi, Dag Bilici, Dehne, Düz Bilici, Gulex, Kuncal, Qeriblik, Mumli, Nohurlar, Sumaqa, Taxtalar, Tekye, Uqah, Zaqli, Pirəbədil, Pirəmisən, Sincanboyad, Kuybişev, Qelegah, Muci, Qorqan, Çalgan, Leyti, Sumaqoba, Sumaqobaqazma, Xelfeler, Ərəblər, Lecedi, Yelekasan, Lecedi leced.

Əhalisi tatlardan ibarət olan Zarat Xeybəri kəndi Şamaxı şəhər mərkəzindən 45 km aralı, Böyük Qafqaz dağlarının ətəyində, dəniz səviyyəsindən 1700 m hündürlükdə yerləşir. Çay daşlarından tikilən bir-iki mərtəbəli kürsülü kənd evlərinin damları dəmir şiferlə örtülüb. Hər evin yanında qoyun-quzunu saxlamaq üçün tövlə və kiçik ev eyvanları üçün daxmalar var. Kəndin ümumi bir məktəbi, 14-15 evi, təxminən 70 nəfər sakini var.

Axıska türkləri. Axıska *türklərinin* Azərbaycana ilk böyük qrupu 1958-ci ildə gəlmişdir. Bunlar 1944-cü ildə tarixi vətənləri olan Axıska, Adıgün, Axılkələk (Gürcüstan) və b. qonşu rayonlardan Orta Asiya və Qazaxıstana sürgün edilmiş Axıska türkləri idi.

1989-cu il Fərqanə hadisələrindən sonra Azərbaycana Axıska türklərinin ikinci miqrasiyası başlandı. Azərbaycanlılarla mənşəcə bir kökdən olmaları, ümumi dil, adət və ənənələrdə yaxınlıq onların Azərbaycanda adaptasiyasına əlverişli zəmin yaratmışdır. Ənənəvi məşğuliyyətləri bağçılıq və əkinçilikdir. Şabran rayonunda onlar əsas etibarilə pambıqçılıqla məşğul olurlar. Ahıska türklərinin Azərbaycanda məskunlaşması onların tarixi-mədəni, etnik dəyərlərinə hörmətdən əlavə, həm də Azərbaycanla daha yaxın tarixi-mədəni təmasda olmasında yeni mərhələ oldu. Beləliklə, Azərbaycanda ahıskalıların yerli xalqla ünsiyyəti üçün etnososial mühitin formalaşmasına yeni şərait yaranmış oldu. Bütün türk xalqları kimi, ahıskalıların da məişət və mədəniyyətində onun həyat tərzi üçün xarakterik olan özünəməxsus etnoqrafik cəhətlər mövcuddur. “Bununla yanaşı onu da qeyd etmək lazımdır ki, 1958-ci ildən Azərbaycanda məskunlaşmış ahıskalıların bəzi qədim və milli xüsusiyyətləri aradan çıxmış, əvəzində məişət və mədəniyyətlərində azərbaycanlılara xas olan adət və ənənələri mənimsəmişlər. Lakin etiraf edilməlidir 19 ki, keçmiş SSRİ-nin digər respublikalarında yaşayan ahıskalılardan fərqli olaraq, Azərbaycanda məskunlaşan ahıskalılar öz milli-etnik xüsusiyyətlərini qismən də olsa saxlaya bilmişlər” (4,s.19).

Bu əməksevər, mərd, doğru-dürüst, səmimi xalq tarixdə analoqu olmayan ağır sınaqlardan, əzablardan qəhrəmancasına çıxmış, əzilməmiş, bütün təhqirlərə sinə gərmiş, qırılmamış, sınmamış, yox olmamış, sadəcə cismani, fiziki varlıqlarını deyil, bütün mənəvi dünyalarını, ruhlarını, türklüklərini qoruyub saxlaya bilmiş, yaşadıqları bölgələri gülüstana çevirmişlər.

Ləzgilərin əksəriyyəti respublikanın Qusar rayonunda yaşayır. Quba, Xaçmaz, İsmayıllı və Şabran rayonlarında da ləzgi kəndləri var. Mütəxəssislərin fikrincə, ləzgilərin əcdadlarından biri qədim alban tayfası olmuş leqlərdir. Dini mənsubiyyətlərinə görə müsəlmandırlar. Ənənəvi məşğuliyyətləri əkinçilik, maldarlıq və sənətkarlıqdır (toxuculuq, xüsusilə xalçaçılıq, qalayçılıq, keçəçilik və s.).

Əsrlər boyu ləzgilərin məskunlaşdığı ərazidə salınmış Digah kəndinin adının mənasını da məhz ləzgi dilinin köməyi ilə şərh etmək olar. Bu ad лəзgicə "gözəl", "yaraşıqlı", "bərəkətli" mənalarını verən "digay" sözündən əmələ gəlib. XIX əsrə aid bir sıra ləzgi, rus və Dağıstan mənbələrində həmin ad məhz belə yazılıb. Həqiqətən də kənd gözəl və yaraşıqlı bir yerdə yerləşir.

ƏDƏBİYYAT

1. Azərbaycanda yaşayan azsaylı xalqların adət və ənənələrinin təbliğində kitabxanaların rolu: metodik vəsait /M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2012.- 45 s.
2. İbrahim Ağayev. «Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər», Bakı, «MBM», 2006, 180 səh.
3. AzərTac. Azərbaycanda azsaylı xalqlar bütün proseslərdə bərabər hüquqlarla iştirak edirlər [Mətn] /AzərTac //Azərbaycan.- 2011.- 17 iyun.- S.
4. Bünyadzadə, G. Xalqımızın bölünməz sərvəti [Mətn] : [Azərbaycanda yaşayan azsaylı xalqlar haq.] /G.Bünyadzadə //Paritet.- 2009.- 7-8 iyul.- S.103.
5. Sevil Piriyeva. Ahıska türkləri Azərbaycanda (tarixi, sosial-mədəni həyatı). Bakı, «Elm», 2005, 264 səh.
6. http://shahdagpeoples.az/xeberler/5-azrbaycanda-btn-etnik-qruplar-z-mdniyytlrini-qoruyub-saxlayblar.html http://multiculturalism.preslib.az/az_a3.html

İrina UÇAYKİNA
Azərbaijan Turizm və Menecment Universiteti,
müəllim
i.uchaykina@inbox.ru

The age of continuous connection

Davamlı ələqə yaşı

Эра непрерывной связи

Xülasə: Bu məqalədə İnternetdə turist məlumatlarının mübadiləsi müzakirə olunur.Bu strategiya mədəniyyətlərarası icma üzvləri ilə davamlı əlaqənin inkişafı və idarə olunması üçün geniş imkanlar açır. Xüsusilə beynəlxalq təşkilat üçün Azərbaycan Turizm və Turizm Menecmenti Universitetinin bir layihəsi təklif olunur

Açar sözlər: fasiləsiz, rabitə ,məlumat mübadiləsi, strategiyasının inkişaf etdirilməsi, mədəniyyətlərarası, turist məkanı

Резюме: В данной статье рассматриваются вопросы обмена туристической информацией в Инете.Данная стратегия открывает широкие возможности развития и управления непрерывного общения с членами межкультурного сообщества. В частности предлагается для международной организации проект Азербайджанского Университета Туризма и Менеджмента-Туристические направления Азербайджана.

Ключевые слова: обмен ,стратегия, межкультурный , проект,направления.

Abstract: This article discusses the exchange of tourist information on the Internet. This strategy opens up wide opportunities for the development and management of continuous communication with members of the intercultural community. In particular, a project of the Azerbaijan University of Tourism and Management-Tourism Destinations of Azerbaijan is proposed for an international organization.

Key words: exchange, crosscultural ,development, project, directions

The rise of of the Internet changed the way we interact with objects around us.We can exchange information in a network and create a strong relationship with other members of crosscultural society.The piece inspired some exciting new strategies to stay ahead of the competition.If you are slow to respond,you will fall behind.You have a periodic dialogue with world into one in which you are continuously engaged.The continuous connection opens,in this

regard,new opportunities and technology can change the way associations gain feedback about their target audience through continuous research and big data.In this context, the challenge in the continuous connection is not about how to use technology-which has become a necessity-but how to find a way to develop and manage a continuous relationship with members of other communities.Associations have recognized the importance of integrating the digital dimension in their day-today activities and engaging efficiently their audience online. According to theWorld Economic Forum, digitalization is one of the key disruptors of the 21 century. This process has caused profound changes in the way ew interact and has also trasformed the nature of work.Ernest & Young suggests that the digital transformation is here to stay and so it is essential for associations to jump on board,embrace the digital mindset and bring added value to their members –especially to new generations who are digital natives.The fact that digital tools allow information to be spread quickly among the members of your target audience constitutes a real added value. To always remain competitive,it is also key monitor the competition.Keeping informed of the tourist market is a part of the digital mindset and necessary for improvements.

The digital revolution has had a profound impact on tourism in the world.While in the past many customers booked their trips in high-street travel agencies, nowadays they tend to plan and book trips on their own through online travel agencies or search and meta-search engines, and are making increasing use of mobile technology and apps. Digital technologies have also provided people an opportunity to share their travel experiences through personal exchanges on social media platforms, travel blogs or through commercial channels such as TripAdvisor. Social media platforms have been particularly influential in shaping younger people's tourism-related decisions. Furthermore, real-time software is making it easier for tourists to travel to places whose language they do not speak. Most establishments serving tourists have understood the need to use digital technologies. The majority of tourism businesses have access to the internet and have a website or a homepage. In 2015 99 % of businesses in the world tourist accommodation sector had access to the internet, 95 % had a website or a homepage, and 74 % provided online reservation or booking options.

Digital tourism can be defined in two ways: travelling from here to there without leaving your chair and the way “critical digital tourism studies defines a new cross-disciplinary field where the sociality of virtual tourism interactions is examined (entailing the study of structures, social rules, ideologies, power relations, sustainability dimensions, ethics, and cultural values shaping digital tourism)” . The virtual landscape of tourism is the newest concept of this decade and the former definition has been introduced at the beginning of the 21st century, whereas scholars have been using the latter since 2012. Information technologies are closely related to management and marketing tools, therefore IT studies have been connected to business studies and tourism. At the same time, language has crossed the bridge from being an obstacle in communication to becoming a key ingredient in facilitating communication, ever since English has become an international language.Regardening all facts above,I would represent an international network movement”Life beyond Tourism.”“Life beyond Tourism” originated in 2008 and it is based on the activity of the Romualdo Del Bianco Foundation,which started operating in Florence and is now active all over the world.This Foundation was born in 1991 and its first 20 years of activity ewre mainly dedicated to creating opportunities of dialogue through international university students’.The network includes over 500 institutions in 111 countries in 5 continents.“Life beyond Tourism” introduces a new way of thinking and acting responsibly,focusing on dialogue among cultures.The peculiarities that differentiate the various cultures show a heritage to be preserved,disseminated and made known through occasions of meeting.This net movement contributes to the affirmation of universal values such as respect and harmony among peoples,transforming the tourist experience from a simple occasion of leisure into a precious moment of a cultural encounter.

You can have benefits:

-Be visible all over the world thanks to the autonomous creation, development and management of your own webpage on the portal

-Promote your tourist product

-Present your activity during the international events promoted by the Movement

-Advertise events and information on the international portal
- Create relationships with other members of the network
Universities can become self-certified by:
-offering tourist products with the identity of the place
-preparing tools to foster the knowledge of local heritage
-creating moments of dialogue among cultures
-adopting management policies for dialogue among culture
-taking part in training courses through the e-learning platform

Azerbaijan Tourism and Management University is preparing a project"Tourist Destinations of Azerbaijan".I offer will represent a virtual platform on the Global Cultural Portal Life beyond Tourism .This platform should contain cultural expressions of territories,foster knowledge about our country,suggest services and tourist products in respect of territory.The project will be a new way of experiencing travel that goes benyond photographs,souvenirs, shopping,and local cuisine.Travelling creates a network of interactions between travellers and the place of stay,which makes an unmissible opportunity for knowledge among cultures.

I created my part of this project- the region of AltiAgac.

It is situated in Greater Caucasus. Total area is approximately 11 000 hectares. The most territory is forest and hills. The flora and fauna is very rich. You can observe here rare plants and animals.

Alti Agac National Park was created in 2004 by the Decree of the President of Azerbaijan I.Aliyev. The main task of formation of the National Natural Reserve is to protect unique flora and species of animals which are included in the Red Book of Azerbaijan, for example, Caucasian oak, Caucasian hornbeam, oriental beech, ash and birch. Among animals and birds- Roe deer, brown bear, wild boar, lynx, raccoon, hair, fox, squirrel, wolf of mammals and pheasant, partridge, eagle, thrush, goatsucker, ring-dove of birds. The climate here is mild round the year and tourists can visit Alti Agac in all seasons. Summer is dry, but not very hot, winter is snowy ,but not severe frosty, spring and autumn are pleasant. There is located the largest river in this area-Atachay.Near the river tourist camps are organized in summer. On the main road you can travel to the village Alti Agach.In the Azerbaijanian language this name is translated as six trees. The old view of this village attracts tourists to visit it. Near the village there is a modern tourist resort.Its name is Cennet Bagi .Here you can find all comfortable conditions: a hotel,tennis courts, spa, a gym , winter and summer swimming pools ,restaraunts .



Recently, a modern medical centre has been opened on the territory of the resort.Highly quallified doctors offer modern methods for recovering health. Except they use unique natural treatment and drugs from Altai(Russia).Tourists can get a medical voucher at the medical centre from October to April or order at tourist agencies in Baku.

Little guests will be pleased to visit a Zoo and ride a cable car.

In Alti Agac National Reserve tourists can use all tourist routes without any limitations. One of the best route is by the river. Tourists can walk or go by car and observe the hills and the forest on the both banks of the river. Guests can enjoy Azerbaijanian food in many cafes and restaraunts. You must eat all kinds of kebabs, plov,dolma,greens, vegetables and fruit. Incredible impression will leave tea drinking with national sweets.

From Baku you can reach Alti Agac by car on Quba road. There are special signs on the road for this direction.



REFERENCES

1. Sergey Balandin, Santa Laizane, “e-Tourism: The Role of ICT in Tourism Industry”, Proceedings of 13th Conference of FRUCT association, 2013[, pp. 184–185.]
2. Alexey M. Kashevnik “Intelligent Tourist Guiding Service for eTourism Application Proceedings of 13th Conference of FRUCT association, 2013,[p. 191.]
3. Gyimóthy S., Ana María Munar. 2017 “Critical Digital Tourism Studies in Welcoming Encounters: Tourism Research in a Post Disciplinary Era. ed. William Feighery [p.25-29]
4. www.istitutointernazionalelbt.org
5. www.lifebeyondtourism.org

Ramil BABAYEV
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
Rbtlvrp@gmail.com

Miqrantlarla sosial işin təşkili problemləri

Проблемы организации социальной работы с мигрантами

Problems of organization of social work with migrants

Xülasə: Məqalədə miqrantlarla sosial işin təşkili sahəsində mövcud olan yanaşmalar qeyd olunur. Sosial işçilərin dövlət və sosial işin müştəriləri arasında seçim etməli olduqları dilemma vəziyyətlər də araşdırma mövzusu daxilindədir. Bununla yanaşı, sosial işçilərin bu sahədə rolları, onların qarşılaşa biləcəkləri problemlərdən də bəhs olunub.
Açar sözlər: miqrasiya, sosial iş, qaçqın, əmək miqrantı, etik dilemma

Резюме: В статье исследуются существующие подходы к организации социальной работы с мигрантами. Ситуации дилеммы, в которых социальные работники должны делать выбор между правительством и клиентами социальной работы, также являются частью исследования. Кроме того, обсуждаются роль социальных работников в этой области и проблемы, с которыми они могут столкнуться.
Ключевые слова: миграция, социальная работа, беженец, рабочий-мигрант, этическая дилемма.

Abstract: The article investigates existing approaches to the organization of social work with migrants. The dilemma situations in which social workers have to make choices between government and social work clients are also part of the study. In addition, the role of social workers in this area and the problems they can face are also discussed.
Keywords: migration, social work, refugee, migrant worker, ethical dilemma.

Beynəlxalq miqrantlarla sosial işin təşkilində ən yaxşı təcrübələr aşağıdakı istiqamətlərdədir: insan hüquqları əsaslı (1) güc əsaslı (2) dəlil əsaslı (3) holistik (4) çox səviyyəli (5) [4, s. 181].

İnsan hüquqları əsaslı yanaşma. Beynəlxalq miqrantlar, xüsusən sənədsiz olanlar, yerli insanlar tərəfindən tez-tez "altinsan" kimi qəbul edilir və ölkənin vətəndaşları ilə eyni hüquqlara layiq görülmürlər. Sosial işçilərin bu münasibətə və onun nəticəsi olan siyasət və praktikaya qarşı mübarizə aparması vacibdir. Güc əsaslı yanaşma. Beynəlxalq miqrantlarla sosial iş üçün ən yaxşı təcrübələr güc əsaslı perspektivdən istifadə edən təcrübələr hesab olunur. Bu yanaşma insanda və mədəniyyətdə güclü cəhətlərin kəşf edilməsini, daxili gücə və dözümlülüyə əsaslanan dəyişiklik motivasiyasını və ətraf mühitin ailə, qrup və icma səviyyələrində resurslarla dolu olduğunu vurğulayır. Sosial işçi bu strategiyanı tətbiq edə bilmək üçün müştərinin keçmişdə uğurla istifadə etdiyi hansı problemlərin həlli strategiyalarının mövcud olduğunu araşdırmalıdır. Dəlil əsaslı yanaşma. Bu strategiyanı tətbiq edən sosial işçilər əvvəl dərc olunmuş qiymətləndirmələrə əsaslanaraq effektivliyi praktikada göstərilmiş müdaxilələrdən olduğu kimi istifadə edirlər. İkinci bir yanaşma kimi isə, qarşıya təcrübə və ya proqram qiymətləndirmə metodları ilə situasiyaya müvafiq səmərəliliyi sistematik şəkildə qiymətləndirmək halı çıxır. Əvvəl tətbiq olunmuş həll strategiyalarını təkrarlayan sosial işçilər nəzərə almalıdırlar ki, işin obyektlərinin daşıyıcısı olduğu xüsusiyyətlərdəki kiçik görünən fərqliliklər belə eyni strategiyanın uğur gətirməməsinə səbəb ola bilər. Buna görə də, çox hallarda sosial işçilər mövcud müdaxilə texnologiyaları və proqramları beynəlxalq miqrantların spesifik xüsusiyyətlərinə uyğunlaşdıraraq tətbiq edirlər. Holistik yanaşma. Beynəlxalq miqrantlar fərqli sahələrdə çoxsaylı problemlərlə üzləşirlər. Bunu nəzərə alaraq, effektiv faəliyyət üçün sosial işçilər müştərilərin qarşılaşdıqları problemlərin məcmusunu müəyyənləşdirməli, qiymətləndirməli və mümkün olan ən böyük miqyasda müdaxilə etməlidirlər. Bu səbəbdən, keys menecment miqrantlarla işin ən yaxşı təcrübələrinin əsas dayağıdır.

Çox səviyyəli yanaşma. Məlumdur ki, sosial iş təcrübəsinin hədəfi olan problemlər üç mümkün səviyyədə ola bilər: mikro (fərdi, ailə və kiçik qrup), mezo (yerli icmalar və təşkilatlar) və mak-

ro (mürəkkəb təşkilatlar və ya sistemlər). Beynəlxalq miqrantlar üçün problemlər adətən mezo və ya makro səviyyələrdə, yəni, lokal cəmiyyətin diskriminasiyası formasındadır. Məsələn, miqrantlar üçün hərtərəfli səhiyyə xidmətləri və ya yüksək əmək haqqı olan iş imkanlarının əlçatan olmamasını buna nümunə göstərmək olar. [3, s. 6-7]

Miqrantlarla sosial işdə göstərilən fəaliyyət sosial ədalət prinsipini əsas götürərək qurulmalıdır. Bu prinsip bütün insanların fundamental insan ehtiyaclarını ödəmək və tam inkişaf etdirmək üçün tələb etdikləri resurslara, məşğulluq, xidmət və imkanlara bərabər çıxışını təmin edən sosial və siyasi fəaliyyətlə məşğul olmaq zərurətini meydana çıxarır.

Miqrantlarla sosial işin qurulmasında digər baza prinsip isə, mədəni səriştəlilik prinsipidir. Mədəni səriştəlilik sosial işçilərin və sosial müdafiə sisteminin bütün mədəniyyətlərə, dillərə, siniflərə, irqlərə, etnik mənşələrə, dinlərə, mental ənənələrə və digər müxtəliflik amillərinə fərdin, ailənin və cəmiyyətin dəyərlərini tanıyan və müxtəlifliyi qoruyan tərzdə yanaşmasıdır. [2, s. 34]

İmmiqrasiyanın kriminallaşdırılması sosial işçiləri çoxsaylı etik dilemmalarla qarşı-qarşıya qoyur. Etik dilemma, etik cəhətdən məqbul olan birdən çox icazə verilən cavabın olduğu bir vəziyyətdir. Etik dilemmalarda bir dəyəri başqa bir dəyərdən üstün tutmaqla, sosial işçilər hansısa vacib bir dəyəri və ya etik prinsipi pozmalı olurlar. Buna görə hər bir etik dilemma içərisində həm peşəkar dəyərlərə riayət etmək, həm də bir dəyəri pozmaq halı mövcuddur.

Furman, Langer, Sançez və Negi 2007-ci ildə apardıqları tədqiqatda immiqrasiyanın daha da kriminallaşdırılacağı təqdirdə, bunun potensial etik dilemmalara təsirini araşdırmışdı. Belə ki, bir çox ölkədə qanunlar dövlət işçilərindən ictimai güzəşt sayıla biləcək hər hansı bir sosial xidmət göstərməzdən öncə hüquqi statusu yoxlamağı tələb edir. Məsələn, Arizonada qüvvədə olan qanuna əsasən, qeyri-leqal miqrantlara xidmət göstərmiş işçilər cərimə və həbslə cəzalandırılır. Bu tədqiqatdan üç cür dilemma mövcud olduğu nəticəsi çıxarıla bilər. [6, s. 6]

1. Cəzalandırıcı immiqrasiya qanunvericiliyinin olduğu yerdə sosial işçilər ya qanunu, ya da peşə prinsiplərini pozmalı olduqları bir vəziyyətə düşürlər. Sosial işçilər sənədsiz miqrantları ikinci sinif "digər" kimi qiymətləndirməyə məcbur olurlar ki, bu da özlüyündə kiçik ayrıseçkilik halıdır. Çünki, öz rifahları və potensial hüquqi sanksiyalara görə sosial işçilər ayrı-ayrı müştərilərin ehtiyaclarını prioritetləşdirməkdən imtina edə bilməzlər.

2. Məxfiliyə dair standartlar dövlət qanunları və peşə dəyərləri ilə təsdiqlənir. Konfidensiallıq praktiki faəliyyət göstərən peşələrin əsas etik dəyərlərindən biridir. Etik olaraq, məxfilik müştəriləri prosesin mərkəzinə qoyur və ehtiyaclarının hər şeydən əhəmiyyətli olduğunu göstərir. Məxfilik prinsipi, qoruyucu sosial amil rolunu oynayır və şəxs nə vaxtsa başqalarına zərər veribsə belə onların həyatlarını dəyişmək imkanını əllərindən almır. İmmiqrasiya qanunlarını pozmamaq naminə sosial işçinin dövlət qurumlarına məlumat verməsi əslində sosial işçilərin məxfiliyi tənzimləyən sosial iş prinsipini pozmasına səbəb olur. Çünki, sosial işçilərin müştərinin özünə ziyan verməsi və ya uşaq və yaşlılara qarşı zorakılıq etməsi halları istisna olmaqla müştəri haqqında qurumlara məlumat ötürməsinə peşə etikası icazə vermir.

3. Sosial işçi hansısa sosial xidmət müəsisəsi üçün fəaliyyət göstərirsə, həmin müəssisənin adının immiqrasiya qanunlarını pozmaqda hallanması halından uzaq tutmaqla çətin həyat şəraitində olan insana yardım göstərmək arasında seçim etməli olur. Buradakı əxlaqi dilemma isə sosial işçinin bağlı olduğu quruma qarşı öhdəlikləri ilə sosial işçinin çətin həyat şəraitindəki insanlar arasında fərq qoymadan onlara yardım göstərmək öhdəliyi arasındakı toqquşmadan yaranır. [6, s. 7-8]

Sosial işçinin miqrantlarla sosial iş sahəsində rollarını qısaca belə göstərmək olar:

1. Məsləhətçi rolu. Miqrantlara ehtiyac duyduqları bütün mövzularda məsləhətlər verilir. 2. Vəkillik rolu. Lazım olduqda miqrantların hüquqlarını müdafiə etmək sosial işçinin öhdəliyidir. 3. İnformasiya mənbəyi rolu. Miqrant, ehtiyac duyduğu hər mövzuda sosial işçiyə məlumat verə və birbaşa ondan məlumat ala bilər. 4. Resurslara çıxış rolu. Müştərilərin cəmiyyətdəki mövcud resurslara çıxışı baxımından sosial işçi araşdırmalar apara bilər. 5. Gücləndirici rolu. Sosial işin əsas yanaşmalarından biri olan gücləndirmədə sosial işçi müştərinin özünə kifayət edə bilən, öz hesabına problem həll edə bilən vəziyyətə gətirilməsinə çalışır. 6. İnteqrasiya edici rolu. İcmaların miqrantlara qarşı qərəzləri səbəbindən əsasən qaçqınlar böyük çətinliklərlə üzləşirlər. Bu mənada sosial işçi

miqrant və cəmiyyətin inteqrasiyası üçün fəaliyyət göstərməli, bu barədə ictimaiyyəti də məlumatlandırmalıdır. [7]

Məcburi miqrantların insan kimi hüquqlarını və qəbul edən ölkədə ləyaqətli həyat səviyyəsini təmin etmək üçün onlara fərdi statusdan asılı olaraq müvəqqəti və ya daimi hüquqi statusun verilməsi tövsiyə olunur. Sosial işçilərin qaçqınların, sığınacaq axtaranların, məcburi köçkünlərin və qayıdanların qanuni ehtiyacları ilə bağlı cəmiyyətdə və siyasi mühitdə məlumatlılığın artırılmasında xüsusi rolu var. Müvəqqəti məskunlaşdıqları və ya köçürüldükləri ölkələrdə məcburi miqrantların sabit sosial mühit, məşğulluq, sağlamlıq və digər mənbələrə çıxış imkanlarını sosial işçilər müdafiə etməlidirlər. [1, s. 7-10]

Sosial işçinin müəyyənləşdirməli olduğu ilk məsələlərdən biri miqrantın rəsmi statusudur. Bu status qaçqın statusu, əmək miqrantı statusu, sığınacaq axtaran şəxs statusu və s. ola bilər.

Sosial işçi qaçqınların etnik icmalarından nə qədər dəstək alacağı barədə ümumiləşdirmədən çəkinməsi vacibdir. Çünki, bir etnik icmanın mövcud olması onun dəstək təklif etmək istədiyi və ya təklif edə biləcəyini ifadə etmir [5, s. 29]. Yenidən travmatizasiyanı minimuma endirməyə çalışarkən sosial işçinin müştərini incidə biləcək bütün halları qabaqcadan görməsi mümkün deyil. Ancaq söhbət zamanı işgəncə təcrübələrini xatırladan parametrlərdən və davranışlardan qaçaraq bu riski minimuma endirmək sosial işçinin vəzifəsidir.

Sosial işçi hansısa xidmət qurumunun daxilində fəaliyyət göstərirsə, əvvəlcədən müsahibəyə hazırlaşmalıdır. Müştərini səmimi formada qapıda qarşılamaq, səmimi bir gözləmə sahəsinin yaradılması vacibdir. Ofisdə təhlükəsizlik işçiləri varsa, müştərilərin uzun müddət onların nəzarətində gözləmələrinə yol verməmək müştərini narahat edən haldır. Qapalı yerlər və ya dəmir barmaqlıqlı pəncərələr olan müsahibə otaqlarından çəkinmək lazımdır. Etibarlı şəxslərin müsahibədə iştirak etməsinə və ya ofisdən kənarda müsahibənin aparılmasına şərait yaradılmalıdır. Söhbətin tərzi də əhəmiyyətlidir. Dindirmə kimi təfsir edilə bilən davranışlardan qaçmaq müştəriyə prosesi nəzarətdə saxladığı hissini yaşadır.

Sosial işçi hərtərəfli iş qeydləri aparmaq və müştərinin razılığı olarsa onu başqa xidmət müəssisəsi və ya işçiyə verməklə, müştərinin əzab verici xatirələri təkrarlamaq məcburiyyətində olmamasını təmin edə bilər.

İnanclar, dəyərlər və düşüncə tərzində müştəriylə sosial işçi arasında ola biləcək fərqləri etiraf etməklə fərqliliyə hörmət edildiyi nümayiş olunmalıdır. Məsələn, yas ayinləri müzakirə etmək başlanğıc nöqtəsi ola bilər. Onların mədəniyyətinə cüzi marağın olduğunu göstərən hansısa faktın sosial işçi tərəfindən qeyd olunması miqrantda söhbətə maraq oyada bilər. Sosial işçi mədəni qruplar haqqında ümumiləşdirmədən çəkinməli olduğunu da yaddan çıxarmamalıdır. [5, s. 42-43]

ƏDƏBİYYAT

26. Brittni Bryan. The Social Worker's Role in the Context of Forced Migration: A Global Perspective. Southern Adventist University. 2016
27. Lindsey Moore. Social Workers' Ethical Responsibilities as Advocates for Immigrants. Western Kentucky University. 2018
28. Miriam Potocky. Immigrants and Refugees. DOI: 10.1093/acrefore/9780199975839.013.193. 2013
29. Miriam Potocky-Tripodi. Best Practices For Social Work With Refugees And Immigrants. Columbia University. 2002
30. NSW Refugee Health Service. Working with Refugees. Sydney. 2004
2. Rich Furman, Alissa Ackerman. The Criminalization of Immigration: Value Conflicts for the Social Work Profession. Journal of sociology and social welfare. 2012
3. http://multeci.net/?p=27

Ülfət SƏMƏDZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
Ulfet.semedzade@bk.ru

Azərbaycanda yəhudilərin məskunlaşması

Поселение евреев в азербайджане

Settlement of jews in azerbaijan

Xülasə: Əsrlər boyu Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Buna misal olaraq, əsrlər boyu Azərbaycanda yaşamış yəhudi icmalarını qeyd etmək olar. Onlar artıq 200 ildən çoxdur ki, ölkəmizdə yaşayırlar və öz dillərini, dinlərini, adət-ənənələrini qoruyub saxlayıblar. Məhz bu səbəblərdən də təsadüfi deyil ki, ölkəmizdə multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 yanvar 2016-cı il tarixli sərəncamı ilə 2016-cı ili "Multikulturalizm ili" elan edilmişdir. Ölkəmizin dünyada multikultural dövlət kimi tanınmasında, burada yaşayan xalqların önəmli rolu vardır. Azərbaycan ərazisində yaşamış belə qədim xalqlardan biri də yəhudilərdir.

Açar sözlər: Dağ yəhudiləri, yəhudilər, multikulturalizm, sinaqoq, etnik qrup

Резюме: На протяжении веков на территории Азербайджана проживали различные народы. Они принадлежали к различным конфессиям, но никогда не ощущали на себе никакого давления со стороны местного населения. Наоборот, они являлись неотъемлемой частью многонационального Азербайджана. Среди таких народов можно выделить русских, евреев, немцев и т.д. По своей численности, они уступали коренному населению, но вклад их в развитие нашей науки и культуры огромен. Особое место, на этнографической карте нашей страны принадлежит евреям. На протяжении более 200 лет евреи проживают в Азербайджане, за все это время они не подвергались никаким гонениям и репрессиям, как в России, Украине и Германии. После приобретения Азербайджаном независимости была создана еврейская община и еврейский культурный центр, который имеет тесные связи с еврейскими общинами разных стран. Таким образом, они сохраняют и передают свои традиции и обычаи молодым поколениям. В 2016 году указом президента республики И.Алиева был объявлен годом Мультикультурализма.

Ключевые слова: горные евреи, евреи, синагога, этническая группа, мультикультурализм

Abstract: For centuries, Azerbaijan has been known as a land where various civilizations are reconciled, where representatives of different nations and confessions live in peace, tranquility, mutual understanding and dialogue. An example of this is the Jewish communities that have lived in Azerbaijan for centuries. They have been living in our country for more than 200 years and have preserved their languages, religions and traditions. For these reasons, 2016 is declared the Year of Multiculturalism by the Decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev dated January 11, 2016 in order to preserve, further develop and widely promote the traditions of multiculturalism in our country. The people living here play an important role in recognizing our country as a multicultural state in the world. One of such ancient peoples who lived in Azerbaijan is Jews.

Key words: Mountain jews, jews, multiculturalism, synagogue, ethnic group

Ayrı-ayrı dövrlərdə ölkəmizdə bir çox dini inanclar yayılmış, etnik qruplar, xalqlar yaşamış, bir-birinə qarşılıqlı təsir göstərmişdir. Azərbaycan ərazisində yayılmış belə qədim xalqlarda biri də yəhudilərdir. Yəhudilər Azərbaycana gəlməmişdən əvvəl bu ərazilərdə müxtəlif dinlər və inanclar mövcud olub, lakin xarakterik cəhət ondan ibarətdirki, onların heç biri kənardan gəlmə olmayıb, burada formalaşıbdır. Bu baxımdan, Azərbaycana kənardan gəlmiş ilk din olan Yəhudilik, həm də bu ərazilərdə yayılan ilk səmavi dindir [1, s.32]

Azərbaycan türkləri ilə yəhudilərin bir yerdə yaşam tarixi yüzilliklər öncə mövcud olmuş Alban dövrünə qədər uzanır. Tanınmış tarixçi olan Musa Kalankatuklu yəhudilərin Qafqaza gəlməsini

eramızdan əvvəl I əsrə aid edir. Azərbaycanlı tədqiqatçı Məhəmmədhəsən Vəlili (Baharlı) hələ 1921-ci ildə Bakıda nəşr olunmuş "Azərbaycan, Coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat" adlı kitabında Qafqaza köç etmiş yəhudilərinin mənşəcə əvvəl Assuriyada yaşamış daha sonra Assuriya və Babil şahları tərəfindən Fələstindən çıxardırılmış və Midiyada yaşayan qədim yəhudilərin övladları olduğunu qeyd etmişdir. Başqa tədqiqatçıların fikrincə, yəhudiləri Şərqi Qafqaza Sasani hökmdarı I Ənuşirəvan tərəfindən köçürülmüşdür .

Hal hazırda ölkəmizdə 16000-ə yaxın yəhudi yaşamaqdadır. Biz ümumi olaraq yəhudiləri bir ad altında birləşdirsək də onların öz aralarında fərqləndirici xüsusiyyətləri mövcuddur. Məhz bu xüsusiyyətlər onları "icma"adlandırılan qruplara bölür. Azərbaycanda 3 yəhudi icması mövcuddur. Bunlar-dağ yəhudiləri, əşkinazi(avropa) yəhudiləri və Gürcüstan yəhudiləridir.Bu icmalar da özlüyündə müxtəlif qruplara bölünürlər. Bakı şəhəri Dağ yəhudiləri, Əşkinazi (Avropa) yəhudiləri, Gürcüstan yəhudiləri, Sumqayıt yəhudiləri, Quba rayonu Qırmızı qəsəbə Dağ yəhudiləri, Azərbaycan yəhudiləri dini icması, Gəncə şəhəri yəhudi dini icması, Oğuz şəhər dini icması.İndi isə ölkəmizdə olan icmalarla daha yaxından tanış olaq.

Dağ yəhudiləri adını onlar XIX əsrdə Qafqaz ölkələri Rusiya imperiyası tərəfindən işğal edildikdən sonra almışlar. O vaxt ruslar bütün Qafqaz xalqlarını "dağlılar" adlandırırdılar, odur ki, Qafqaz ərazisində yaşayan yəhudilər də "dağ yəhudiləri" kimi tanınmışdılar. Dağ yəhudiləri yəhudi xalqının ayrılmaz tərkib hissəsidir, onlar səfərdlər kimi tanınan "Şərq yəhudiləri" qrupuna mənsubdurlar uzun müddət yad mühitdə, yad dinlər arasında yaşasalar da, öz mədəniyyətlərini, həyat tərzlərini, ənənələrini, əcdadlarının dinini, kimlik şüuru və mentalitetlərini qoruyub saxlamış, eyni zamanda Qafqaz mədəniyyətindən də təsirlənmişlər. Ölkəmizdə olan yəhudilərin də əksəriyyətini dağ yəhudiləri təşkil edir ki, onların sayı on bir min təşkil edir. Bəzi məlumatlara görə təxminən altı mini Bakıda, dörd mini Qubada, min nəfər isə ölkənin digər şəhər və rayonlarında məskunlaşmışlar. Dağ yəhudiləri 5 yerli qrupa bölünür:

- qaytağlılar (qaytoği) – Dağıstanın Qaytaq rayonu, sonralar Şimali Qafqazın digər yerləri (Xasavyurt, Buynaksk, Qroznı, Nalçik)
- dərbəndlilər (dərbəndi)— Dağıstanın əsasən Dərbənd, həmçinin Məhərrəmkənd və Tabasaran rayonları
- qubalılar (quboyi) — Azərbaycanın Quba rayonu, əsasən Qırmızı Qəsəbə
- şirvanlılar (şirvoni)— Azərbaycanın İsmayıllı rayonunun Mücü və Mücühəftəran kəndləri, habelə Bakı
- vartaşenlilər (vartaşeni) — Oğuz, Gəncə, İsmayıllı, Şamaxı, sonralar Tiflis[4]

Əksər dağ yəhudiləri tat dilində danışsalar da lakin danışıqlarında çoxlu türk, fars və rus sözlər vardır ki, bu da qədim dövrdən Qafqaz ərazisində yerləşən yəhudilərin yerli əhali ilə qaynayıb,qarışdığının bir işarəsidir.

Azərbaycanda dağ yəhudilərinin kompakt şəkildə yaşamağa başladığı ilkin yerlərdən biri Quba şəhərində yerləşən "Qırmızı qəsəbədir". Qırmızı qəsəbədə yəhudilərin məskunlaşması 1735-ci ildə olmuşdur. Burada məskunlaşmanın əsas səbəblərindən biri Dağ yəhudiləri icmasının Dağıstanda quldur dəstələrinin basqınlarına məruz qalmaları olmuşdur. Məhz bu basqınlardan sonra onlar başqa bir bölgəyə köçmək qərarına gəliblər. Həmin dövrdə Quba xanı olan -Hüseynəli xana müraciət edib və onun icazəsindən sonra Qırmızı qəsəbəni özlərinə yaşayış yeri seçmişlər. Yəhudilər buraya köçüb və ayrı-ayrı məhəllələr qurub yaşayıblar. Vaxtı ikən burada ümumilikdə 13 sinaqoq olub.Bu 13 sinaqoqdan 11-i aktiv fəaliyyət göstərən sinaqoq olub, digər 2 sinaqoq isə mədrəsə tipli, təlim üçün fəaliyyət göstərib. İndi bu qəsəbənin 284 yaşı var. Avanın 9-da matəm orucu günü dünyanın hər yerindən dağ yəhudiləri buraya gəlirlər ki, vacib ibadətləri yerinə yetirsinlər, yaxınlarının qəbirlərini ziyarət etsinlər. Qəsəbədə hal-hazırda üç sinaqoq və ayinçilik məqsədilə tikilmiş mikva vardır.

Dağ yəhudilərinin Qubadan əlavə bir digər sinaqoqu isə Bakıdadır. Bakıdakı dağ yədudilərinə məxsus olan sinaqoqun binasi isə 1945-ci ildən fəaliyyət göstərməkdədir. Sovet hakimiyyəti dövründə ikinci dünya müharibəsi bitdikdən sonra Bakıda dağ yəhudilərinə şəhərin mərkəzində dini tələbatın ödənilməsi məqsədilə qədim bina ayrılmışdır. Binanın şəraiti həddindən çox bərbad idi və buraya ibadətə gələnlər şəraitsizlikdən əziyyət çəkirdilər. Bu cür hal Azərbaycanın müstəqil-

lik qazanmasına kimi davam etmişdir. Müstəqillik dövründə məbəddə təmir-bərpa işlərinə başlanılmış, sinaqoqun ikinci mərtəbəsi tikilmiş, buraya ibadətə gələnlər üçün münasib şərait yaradılmışdır. 2010-cu ildə Bakı şəhərində aparılan yenidənqurma və əsaslı bərpa işləri ilə əlaqədar dağ yəhudiləri üçün yeni sinaqoqun inşasına ehtiyac yaranmışdır. 5 aprel 2011-ci ildə Nəsimi rayonu, Əli Mərdan Topçubaşov küç, 72 ünvanda dağ yəhudiləri üçün inşa edilmiş yeni ibadət ocağının açılış mərasimi keçirilmişdir.[3]

Dağ yəhudilərinin yaşadığı kompakt bölgələrdən biri də Oğuz rayonudur. Belə ki, hətta Oğuz rayonunda yəhudi məhəllələri də mövcuddur. ”Yuxarı məhəllə” və ”Aşağı məhəllə “adlanan bu küçələrin hər ikisində dağ yəhudi sinaqoqu fəaliyyət göstərməkdədir.

Bakıda, Oğuzda, Qubada dağ yəhudilərinin sinaqoqları fəaliyyət göstərsə də Qubadakı Qırmızı Qəsəbə bütün postsovet məkanında dağ yəhudilərinin kompakt yaşadıqları yeganə yerdir.

Ölkəmizdə yaşayan yəhudilərin bir digər qrupu isə Əşkinazi (Avropa) yəhudiləridir. Onların hal hazırdakı sayının 4,3minə yaxın olduğu güman olunur. Əşkinazi yəhudilərinin”Avropa”yəhudisi adlandırılmasının əsas səbəbi isə onların əslən orta əsrlər Almaniyasından çıxmış olmasıdır.

Əşkinazi yəhudiləri ilk dəfə Azərbaycana1800-ci ilin əvvəllərində, ölkənin Rusiya imperiyası tərəfindən işğalından bilavasitə sonra gəlmişlər. Bir müddət sonra ölkədə neft sənayesinin sürətli inkişafı da əcnəbilərin, o cümlədən Avropa yəhudilərinin də Bakıya axışıb gəlməsinə təsir göstərmişdir. Davamlı köçlər nəticəsində həmin dövrdə Əşkinaz yəhudilərinin sayı Dağ yəhudilərinin sayını keçmişdir. 1940 –cı illərin sonlarına qədər onların köçü davam etmişdir. Əşkinaz yəhudiləri Azərbaycan siyasətində də həmçinin aktiv rol aldılar. 1912-ci ildə demək olar ki, qeyddə olan vəkil və həkimlərin üçdə biri yəhudilər idi. Hal-hazırda Əşkinaz yəhudilər Azərbaycanda Dağ Yəhudilərindən sonra ikinci ən böyük yəhudi icmasıdır. Əşkinaz yəhudilərinə aid Bakıda bir sinaqoq fəaliyyət göstərir. [2]

Ölkəmizdə yaşayan 3-cü yəhudi qrupu olan Gürcüstan yəhudiləri icması sayca kiçik olsa da, fəaldır. Gürcü yəhudiləri – qədimdən Gürcüstan ərazisində məskunlaşmış, burada yaşayan yerli xalqın adət-ənənəsini və dilini mənimsəmişlər. Gürcü yəhudiləri Azərbaycana ilk dəfə XIX əsrdə gəlməyə başlamışlar. Sonrakı illərdə gürcü yəhudilərinin vətənimizə axını intensivləşmiş və bu proses Birinci dünya müharibəsi başlamasına qədər davam etmişdir. Hətta XIX əsrdə Bakıda bəzi Gürcüstan yəhudiləri iri rus-qafqaz ticarət evləri, birja, kommersiya bankları, səhmdar cəmiyyətlərin üzvləri olmuşlar. Elə bu səbəbdən də gürcü yəhudilərinin 10 nəfərdən çoxu "ikinci və üçüncü dərəcəli tacir", ikisi "birinci dərəcəli tacir" adına layiq görülmüşlər.

Dini baxımdan isə ilk vaxtlar sinaqoqlar olmadığından Gürcüstan yəhudiləri dini ayinlərini icra etmək, Pesax və digər bayramlarını keçirmək üçün imkanlı soydaşlarının mənzillərinə yığışar, Şabbat (Şənbə) gününü xüsusi təmtəraqla qeyd edərdilər.

1899-cu ildə Rusiya Daxili İşlər Nazirliyinin yəhudilərə sinaqoq tikməyə icazə verməsi ilə onların dini həyatında mühüm dəyişiklik baş vermişdir. Bu xəbərə çox sevinən bütün yəhudi icmaları yeni məbədin ucaldılması üçün vəsait toplamışlar.

İkinci dünya müharibəsinin baş verməsi ilə Sovet İttifaqının dinə qarşı apardığı siyasətdə bir qədər yumşalma müşahidə olunmuş, 1945-1946-cı illərdə Azərbaycan SSR-in qərarı ilə Gürcüstan və Avropa yəhudilərinin dini mərasimlərini birgə keçirmələri üçün müharibə illərində döyüş sursatı anbarı kimi istifadə olunmuş bina ayrılmışdır. Burada kişilər ibadət etmək üçün soyuq və nəm zirzəmiyə düşürdülər, qadınlar isə yuxarıdakı otaqda dua edirdilər. Binanın eyvanı da qadınların ixtiyarına verilmişdi. Dindarlar yarıdağılmış zirzəmidən ibarət olan binanı da şəxsi imkanları hesabına qismən təmir işləri aparmış və ağır şəraitdə ibadətlərini həyata keçirmişlər.[6]

Yəhudi dininə mənsub insanlar təkcə Azərbaycanda deyil, dünyanın əksər ölkələrində yaşayırlar. Lakin ölkəmizdə yaşayan bu dinə mənsub insanlara heç zaman ayrı-seçkilik edilməmiş, özlərini yad kimi hiss etməyə şərait yaradılmamış, ölkənin yerli əhali ilə yanaşı bərabərhüquqlu vətəndaşları hesab edilmişdir. Əsrlərdən bəri yerli əhaliylə qaynayıb qarışan yəhudi xalqına qarşı münasibət ölkəmizdəki tolerantlıq nümayiş etdirmişdir. Rusiya imperiyası dövründə ölkəmizdəki dağ yəhudiləri sıxışdırılsa da AXC dövründə bu prosesin qarşısı alındı.

Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranması ilə çarizm rejimindən qurtulan bütün xalqlar kimi yəhudilərinin həyatında da dönüş mərhələsi oldu. AXC-nin parlamenti ölkədə yaşayan

bütün xalqlara təmsil olunma hüququ verən ilk qanunverici orqan olmaqla yanaşı, Şərqdə tolerantlığın və etnik bərabərliyin ilk nümunəsi kimi təsbit edildi.

Lakin AXC-nin süqutu dağ yəhudilərinə münasibətdə də vəziyyəti kəskin şəkildə yenidən dəyişmişdir. Belə ki, onların etnik kimliyinin təhrif olunmasına, rəsmi sənədlərdə "yəhudi" deyil, "tat" kimi tanıdılmasına başlanılmışdır. 1920-ci ildə Azərbaycanda sovet hakimiyyətinin qurulmasından dərhal sonra burada yaşayan 300 dağ yəhudisi ailəsi (onların arasında Qırmızı qəsəbə sakinləri də var idi) bolşevik rejiminin gözlənilən təqiblərindən xilas olmaq üçün tarixi vətənlərinə mühacirət etmişdilər. Çar Rusiyası və SSRİ ərazisindən indiki İsrail dövləti torpaqlarına ilk kütləvi yəhudi köçü sayılan həmin qrupun nümayəndələri orada da icma halında yaşamağı üstün tutmuş, Təl-Əviv, Hayfa, Akşelon və digər şəhərlərində özlərinə xas olan işuvlar – "Qafqaz məhəlləsi"salmışlar.

1991-ci ildə Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa etdikdən sonra burada yaşayan bütün etnik qruplara münasibətdə siyasi maneələr aradan qaldırılmış, cuhurların da milli kimliklərinin tanınmasına, ana dillərinin, mədəniyyətlərinin qorunub inkişaf etdirilməsinə əlverişli şərait yaradılmışdır. Azərbaycanda dağ yəhudiləri Bakı və Gəncədə, Qubada Qırmızı qəsəbədə, Oğuz, Şamaxı, İsmayıllı və Göyçay rayonlarında məskən salmışlar.

Azərbaycan müstəqillik əldə etdikdən sonra buradakı yəhudi icmaları daha da fəallaşmış, beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmlətmiş, öz dini məktəblərini-iyeşivalarını, mədəniyyət mərkəzlərini (məs., Yəhudi icmasının mədəniyyət mərkəzi), cəmiyyətlərini (məs., Həvva qadın cəmiyyəti, Hesed-Herşon xeyriyyə cəmiyyəti), klublarını (məs., Əlef, Kilel gənclər klubları, Mişpaha videoklubu), qəzetlərini (məs., Az-İz, Başnya, Amişav) yaratmışlar. Soxnut yəhudi agentliyi, Coynt və Vaad-l-Hetzola yəhudi komitələri Azərbaycandakı yəhudi diasporu arasında yəhudi ənənələrini qoruyub saxlamaq, sinaqoqlara yardım göstərmək və müxtəlif mədəniyyət tədbirləri keçirməklə məşğuldur. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar.

1997-ci ildə "Coynt" yəhudi komitəsinin maliyyə yardımı ilə gürcü yəhudilərinin sinaqoqu bərpa edilmişdir.[1]

Ölkə rəhbərliyinin təşəbbüsü ilə Bakı şəhəri, Dilarə Əliyeva küçəsi, 171 ünvanda yerləşən Avropa və Gürcüstan yəhudilərinin sinaqoqu 2003-cü il martın 9-da açılmışdır. Məbəd bakılı memar Aleksandr Qarberin layihəsi əsasında Qüds memarlıq tərzində inşa edilmişdir. Sözügedən ibadət yeri son 60-80 ildə Yaxın Şərqdə tikilmiş birinci sinaqoq sayılır.[5] Avropada ən böyük sinaqoqlardan biri hesab edilən bu tikili köhnə məbədin yerində ucaldılmışdır.

Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olmuş, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir. Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır.

Hətta, Almaniyanın "Jüdische Rundschau" qəzetində Azərbaycandakı mövcud tolerantlıq mühiti barədə məqalə dərc edilib, məqalədə Azərbaycan və İsrail arasındakı münasibətlərdən və ölkəmizdə yəhudilərin tolerantlıq mühitində yaşamalarından bəhs olunur.

Məqalənin müəllifi beynəlxalq münasibətlər üzrə tanınmış ekspert Arye Qut bildirir ki, əhalisinin əksəriyyətini müsəlmanların təşkil etdiyi Azərbaycan Avrasiya regionunda İsraillə ən yaxşı münasibətlərə malik ölkədir. Bunun əsasında Azərbaycanda yaşayan yəhudilər və azərbaycanlılar arasında olan sıx dostluq münasibətləri dayanır.

Məqalədə müxtəlif dini və etnik qrupların vətəni olan Azərbaycandakı mövcud tolerant mühitdən söhbət açılaraq qeyd edilir ki, Azərbaycan hökumətində qadınlar, etnik və dini azlıqların nümayəndələri həmişə təmsil olunublar.

Müəllif bildirir ki, Azərbaycanın tolerantlıq mühiti müstəqillik əldə etdikdən sonra böyük sınaq qarşısında idi. Amma hətta Ermənistanla qanlı münaqişə dövründə belə Azərbaycan öz tarixi ənənələrindən imtina etmədi.

Həmçinin vurğulanır ki, azərbaycanlılar ölkədə yaşayan yəhudilərə heç zaman özgə kimi baxmayıblar, yəhudilər də Azərbaycanın həyatında fəal rol oynayıblar. Azərbaycan Xalq Cümhuriyyətinin ilk səhiyyə naziri yəhudi əsilli şəxs olub. Azərbaycan əsilli İsrail vətəndaşları hazırda iki ölkə arasında iqtisadi münasibətlərin inkişafına mühüm töhfə verirlər.

Eyni zamanda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, yəhudilərin Cənubi Qafqaza gəlməsi təxminən 2300 il əvvələ aid edilir: "Yəhudilərlə azərbaycanlılar daima xoş və pis günlərdə bir yerdə olublar. Tarixin müxtəlif mərhələlərində yəhudilər Azərbaycan dövlətində də, cəmiyyətində də təmsil olunublar. Azərbaycan yəhudi məktəbinin, mədəniyyət mərkəzinin açılması, dini ibadətgahların, sinaqoqların təmir olunması, yenilərinin tikilməsi və dinin təbliğinin sərbəst olması Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin əsas təməllərindən biridir".

ƏDƏBİYYAT

1. Dövlət və Din (İctimai fikirlər toplusu).
2. Palitra qazeti. Murad Salmanovun məqaləsi(Azərbaycan yəhudiləri-tarixdən bugünə).
3. https://az.m.wikipedia/org/wiki/Yəhudilər
4. https://az.m.wikipedia/org/wiki/Dağ_yəhudiləri
4. https://www/dqdk.gov.az/az/view/objects/25
5. https://az.m.wikipedia/org/wiki/Gürcü_yəhudiləri

BÖLMƏ V

İQTİSADİ İNKİŞAF PROSESLƏRİNİN İDARƏ EDİLMƏSİ

Arzu HÜSEYN
Azərbaycan Turizm və Menecment Universiteti,
i.ü.f.d., dosent
a.huseyn@atmu.edu.az

Azərbaycanda sosial turizmin inkişafının əhəmiyyəti və problemləri

Необходимость и проблемы развития социального туризма в Азербайджане

The challenges and efficency of the improvement of the social tourism in Azerbaijan

Xülasə: Məqalədə sosial turizm anlayışı, sosial turizmin aztəminatlı vətəndaşlara faydaları, maliyyələşdirmə mənbələri və s. araşdırılır. Sovet dönəmində və müstəqillik dövründə sosial turizmin səciyyəvi xüsusiyyətləri müəyyənləşdirilir. Eyni zamanda müəllif ölkədə sosial turizmin inkişaf problemləri ilə bağlı müvafiq təkliflər verir.
Açar sözlər: turizm, sosial turizm, bələdiyyə büdcəsi, sosial sığorta

Резюме: В статье исследуется понятие и полезность социального туризма для малообеспеченных граждан, источники финансирования и др. исследования. Определены характерные черты социального туризма в советский период и в годы независимости. В то же время автор внес соответствующие предложения по развитию социального туризма в стране.
Ключевые слова: туризм, социальный туризм, муниципальный бюджет, социальное страхование

Abstract: The concept of social tourism, the benefits of the social tourism for low income citizens, funding sources and so forth were studied in the article. The specific features of social tourism during the Soviet period and independence period were determined. At the same time, relevant suggestions on the development of social tourism in the country were suggested (made) by author.
Key words: tourism,sosial tourism, municipal budget, social insurance

Turizm sahəsinin qloballaşması prosesi və sürətli inkişafı, onun dünya iqtisadiyyatının zəruri sahələrindən birinə çevrilməsi turizmin sosial funksiyasının təhlilini tələb edir [3, s.57-63]. Turizmin sosial funksiyası 1996-cı ildə qəbul edilmiş "Turizmə insanpərvər və sosial baxış" adlı Monreal bəyannaməsinin "Sosial turizm ayrıseçkiliyə qarşı və inteqrasiya problemi ilə bağlı ali idealdır" birinci fəslində müəyyənləşdirilir [4].

Turizmin ayrıca bir növü olan sosial turizm özünəməxsus səciyyəvi xüsusiyyətlərə malikdir. Sosial turizmin əsas xüsusiyyəti – aztəminatlı insanların yaşını, onların səhhətini və sosial vəziyyətini nəzərə alaraq bu insanlara qayğı göstərilməsidir. Bu, insanların heysiyyətinə toxunmadan onların turizmdən bəhrələnmələri üçün effektiv imkanların yaradılması olaraq, cəmiyyətin öz vətəndaşları qarşısında vəzifəsinin real təcəssümüdür. Sosial turizm sferası məktəbli və tələbə gənclərdən başlamış, pensiyaçılara və əlillərə qədər vətəndaşların ən müxtəlif kateqoriyalarını əhatə edir. Aztəminatlı vətəndaşlar turizmin iştirakçılarının xüsusi qrupunu təşkil edirlər.

Beynəlxalq Sosial Turizm Təşkilatına (İSTO) görə, sosial turizm beş meyara əsaslanır. Bu meyarlar:

- Turizmdən faydalanmaq hüququ;
- Sosial turizmin sosial inteqrasiyaya töhfəsi;
- Davamlı turizm strukturlarının yaradılması;
- Məşğulluq və iqtisadi inkişafa töhfə;
- Sosial turizmin qlobal inkişafa verdiyi töhfə [5].

Turizmin sosial xüsusiyyətlərindən biri işsizlik probleminin həllinə təsiri ilə bağlıdır. Belə ki, inkişaf etmiş ölkələrdən olan insanların səyahəti böyük məbləğdə pul sərfinə başa gəlir. İnkişaf etməkdə olan ölkələrdə isə turizmin inkişafı yeni iş yerlərinin açılması, yeni sahələrin yaranmasına və iqtisadiyyatlarının dirçəlməsinə səbəb olur.

Turizmin sosial səmərəliliyi əhalinin asudə vaxtının rasionallaşdırılmasında, mənəvi və fiziki bacarıqlarının inkişaf etdirilməsində ifadə olunur. Sosial turizm insanın istirahət və azad hərəkət etməsi, sağlamlığın qorunması, aztəminatlı əhalinin fiziki və mənəvi reabilitasiyası hüquqlarının təmin edilməsinə yönəlir. Sosial turizm həm də cəmiyyətin müxtəlif təminatlı təbəqələri arasındakı ziddiyyətlərin yumşaldılmasına yönəlir, dövlətin sosial və siyasi sabitliyini təmin edir. Sosial turizm ölkənin, regionun sosial-iqtisadi vəziyyətinə əhəmiyyətli təsir edir. Ölkə daxilində sosial məhsulun istifadəsi, pul mübadiləsi baş verir ki, bu da vergi bazasının genişlənməsinə və yerli mal istehsalına tələbatın artmasına, xidmət sahəsinin inkişafına şərait yaradır. Sosial turizmin inkişafı kiçik şəhərlərin dirçəlişinə kömək edir, yeni iş yerlərinin açılmasına və saxlanılmasına, məşğulluq məsələsinə təsir edir. Sosial turizm faktiki olaraq cəmiyyətin birləşməsinə, onun davamlı inkişafına şərait yaradır.

Sosial turizm müxtəlif kateqoriyalı insanları – tələbələri, təqaüdçüləri, əlilləri, müharibə və əmək veteranlarını əhatə edir. Sosial turizmin əsas iştirakçıları aztəminatlı ailələrdir. Burada imtiyazlar yalnız yaş məhdudiyyətinə malik olmur, həm də maddi vəziyyətlə bağlı verilir. Təcrübə göstərir ki, sosial turizmin əsas məqsədi təşkilatın, müəssisənin inkişafına səbəb olan daha fəal işçilərin əməyinin mükafatlandırılmasıdır. Sosial turizmin maliyyələşdirilmə mənbələri sosial ehtiyaclar üçün dövlət və bələdiyyə büdcələrinin, o cümlədən sosial sığorta, sosial təminat və tibbi sığorta fondlarının vəsaitlərindən, həmçinin bankların turizm üçün yığım xarakterli əmanətlərindən, korporativ, dövlət və qarışıq xeyriyyə fondlarının vəsaitlərindən formalaşır. Sosial turizm fərdi əsaslarda həyata keçirilsə də, kollektiv və təşkilati forma üstünlük təşkil edir. Sosial turizmin əsas məqsədi yalnız sağlamlığın bərpa edilməsi deyil, həm də istirahət edənlərin mədəni ehtiyatlarının zənginləşməsi, onların tarixi təfəkküründün genişlənməsi və s. ilə bağlıdır.

Turizm məhsullarının konkret istehlakçısı səviyyəsində sosial turizm – istirahət evlərinə və sanatoriyalara pulsuz və güzəştli qiymətlərlə putyovkalar, xüsusi nəqliyyat tarifləri, vergi və gömrük güzəştləri formasında ifadə olunur.

1990-cı ldə Manilada keçirilmiş Turizm üzrə Ümumdünya Konfransının Bəyannaməsində təsbit olunmuş müddəalara əsasən, "Sosial turizm – elə bir hədəfdir ki, cəmiyyət özünün aztəminatlı vətəndaşları istirahət hüququndan istifadə edərkən onların xeyrinə bu hədəfə nail olmağa cəhd etməlidir".

Sovet dövründə turizmin demək olar ki, 80%-i və beynəlxalq turist mübadiləsinin 50%-i sosial turizmin payına düşürdü. Həmin dövrdə sosial turizmin əsas xarakteristikası ondan ibarət idi ki, 80-ci illərin axırlarında SSRİ-də yaranmış turist xidmətinin təşəkkül tapmış strukturu sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma xarakterli istirahəti nəzərdə tuturdu. Burada xidmətlərin təqdim edilməsində standartlaşdırma, eyni zamanda tibbi xidmətin yüksək səviyyəsi təmin olunurdu. SSRİ-də sosial turizmin daha bir səciyyəvi xüsusiyyəti ondan ibarət idi ki, o, kütləvi istehlakçı üçün nəzərdə tutulurdu. Kütləvilik dotasiyaların sayəsində təmin olunurdu – bu, SSRİ-də sosial turizm kompleksinin əsas fərqləndirici xüsusiyyəti idi. Sosial turizmin maliyyələşdirilməsi üçün həmkarlar ittifaqının büdcə vəsaitlərindən, dövlət sosial sığorta fondlarının, həmçinin müəssisələrin vəsaitlərindən istifadə olunurdu.

Eyni zamanda etiraf etmək lazımdır ki, sovet dövründə bu sahədə müsbət məqamlarla yanaşı, çatışmazlıqlar da vardı. Turizm sahəsinin inkişafı üçün əhalinin şəxsi vəsaitləri zəif cəlb edilirdi. İstirahətin məzmun tərəfinin təkmilləşdirilməsinin ziyanına olaraq, yerləşdirilmə, ictimai iaşə, nəqliyyat və sair xidmətlərin hesabına plan göstəricilərini yerinə yetirmək cəhdlərinə üstünlük verilirdi. Bundan başqa, vəsaitlərin çoxsaylı müxtəlif idarələr üzrə pərakəndə halda paylanması məhsuldar qüvvələrin səmərəsiz istifadəsinə, resursların itkisinə gətirib çıxarırdı [2,11].

Respublika əhalisinin sosial cəhətdən zəif təbəqələrinə göstərilən sosial xidmətlərin ümumi həcmində ənənəvi olaraq əhəmiyyətli seqment təşkil edən qeyri-kommersiya sektorunu sosial turizmin inkişafında iştiraka cəlb etmək lazımdır.

Məsələn, Fransada turizm xidmətləri təklifi kommersiya sektoru ilə assosiativ sektor arasında bölünür. Assosiativ sektor sosial turizm təkliflərini təmsil edir. Assosiasiyaya mənsub olan turizm

müəssisələri qeyri-kommersiya və sosial "fəlsəfə" xarakteri daşıyırlar. Onlar hər ay Milli Turizm Assosiasiyaları İttifaqına maliyyə vəsaitləri köçürürlər. Bu orqan dövlətə tabe olmur, dövlət hakimiyyəti orqanlarında xırda turist assosiasiyalarının maraqlarını təmsil edir, turizm mərkəzlərinin konkret layihələrinin maliyyələşdirməsinə nail olaraq, onların reallaşdırılmasına və irəliləyişinə dövlət səviyyəsində təsir edir, sərgilərdə milli turizm məhsullarını təqdim edir, birgə reklam kampaniyasını reallaşdırır. Sosial turizm sahəsində fəaliyyət göstərən turizm müəssisələrinin bu könüllü qeyri-kommersiya birləşməsi bu sferada əhəmiyyətli çəkiyə malikdir, çünki o, sosial turizmlə bağlı bütün təklifləri birləşdirir [6].

Müasir mərhələdə Azərbaycanda müəssisələr bütövlükdə kommersiya əsasında işləyirlər. Respublikada fəaliyyətə başlayan bütün turizm mərkəzlərinin əsas məqsədi maksimal gəlir əldə etməkdən ibarətdir. Ona görə bu vəziyyətdə peşə birliklərinin yaradılması məqsədəuyğundur. Bu birliklər turizm müəssisələrinin mənafelərini dövlət orqanlarında təmsil etməyə; sinergetik effektdən (reklamda, sərgilərdə və s.) istifadə etməyə; çətinliklərə qarşı birgə mübarizə aparmağa, birgə inkişaf layihələrini irəli çəkməyə, turist mərkəzlərinin rahatlıq səviyyəsinə görə onların vahid təsnifatına imkan verəcəklər.

Respublikada genişmiqyaslı iqtisadi islahatlarla eyni vaxtda Azərbaycanda sosial turizmin yeni inkişaf mərhələsi başlanmışdır. Sosial turizmin bərpa edilməsi və yaradılması obyektiv olaraq, onun dövlət tənzimləməsinin təşkilində yeni yanaşmalar axtarışını şərtləndirir.

Aparılan təhlillərə əsasən qeyd etmək lazımdır ki, Azərbaycanda, nə strateji xarakterli sənəd şəklində, nə də ki, pensiyaçılara, əlillərə və uşaqlara güzəştli turizm xidmətləri göstərən işlək mexanizm şəklində, sosial turizmin inkişafına dair yetkin bir proqram mövcud deyil. Qeyd edək ki, əhalinin bu qrupları üçün, tam yaxud qismən büdcədən maliyyələşdirilməklə, turizm marşrutlarının təşkilinə cəhdlər edilir, lakin, bu tədbirlər, bir qayda olaraq, birdəfəlik xarakter daşiyir, ya da ki, bu və ya digər əlamətdar hadisə və ya bayram münasibəti ilə keçirilir.

Bizim fikrimizcə, Azərbaycan Dövlət Turzim Agentliyində sosial turizm üzrə xüsusi bölmənin yaradılması sosial turizmin dövlət tənzimləməsinin yaxşılaşmasına xidmət edə bilər. Sosial turizm bölməsinin yaradılması daha məqsədyönlü və yaxşı əlaqələndirilmiş dövlət tənzimləmə sisteminə keçməyə, bu da öz növbəsində, respublika əhalisinin xeyli hissəsinin kütləvi istirahətini layiqincə təşkil etməyə imkan verəcəkdir. Bu bölmənin fəaliyyəti daxili turizmin, vətəndaşların sosial baxımdan müdafiə olunmamış kateqoriyaları, ailələr, uşaqlar və gənclər arasında turizmin və turizm infrastrukturunun inkişafına, milli turizm müəssisələrinin maddi-texniki bazasının yenilənməsinə imkan yaradacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycanda turizm haqqında. http://mct.gov.az/service/lang/az/page/35
2. Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi (dərs vəsaiti), Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2010, 326s.
3. Aras O.N., Süleymanov E. Azərbaycan iqtisadiyyatı. "Şərq-Qərb" mətbəəsi, Bakı. 2010, 316 s.
4. Манильская декларация по мировому туризму (Принята Всемирной конференцией по туризму, проходившей в Маниле (Филиппины) с 27 сентября по 10 октября 1980 года). 13. Хартия туризма. - Мадрид, 1985.].
5. www.festtravel.com.tr
6. J.Chauvin Le tourisme social et associatif en France// Ed.: L" Harmattan, Paris, 2002

Gülnar SƏMƏDOVA
AMEA İqtisadiyyat İnstitutu,
aparıcı elmi işçi,
i.f.d., dosent
gulnar.samadova@gmail.com

Elnur ZEYNALOV
AMEA İqtisadiyyat İnstitutu,
kiçik elmi işçi,
elnur.zeynal1994@gmail.com

Azərbaycanda turizm sektorunun inkişafının stimullaşdırılması istiqamətləri

Основные направления стимулирования туристического сектора в Азербайджане

The main directions stimulation of development tourism sector in Azerbaijan

Xülasə: Məqalədə Azərbaycan Respublikasında turizmin inkişafı məsələlərinə toxunulmuşdur. Müasir şəraitdə turizmin inkişafı çox mühüm strateji istiqamət hesab olunur. Turizm əlaqələrinin genişləndirilməsi zəruridir.
Açar sözlər: turizm, otel infrastrukturu, turist axını, otel biznesi, otel tipli müəssisələr.

Резюме: В статье затронуты вопросы развития туризма в Азербайджане. Для развития туризма в современных условиях очень важным считается стратегические направление. Отношения в области туризма должны быть увеличены.
Ключевые слова: туризм, гостиничная инфраструктура, туристический поток, гостиничный бизнес, бизнес гостиничного типа.

Abstract: The article touches on the development of tourism in Azerbaijan. For the development of tourism in modern conditions, strategic direction is considered very important. Relations in the field of tourism should be increased.
Key words: tourism, hotel infrastructure, tourist flow, hotel business, hotel type businesses.

Son illər bir çox ölkələrdə aparılan araşdırmalardan göründüyü kimi, turizm sənayesi xidmət sahələrinin, o cümlədən Azərbaycanda sosial - iqtisadi inkişafın vacib bir sahəsidir. Ancaq yüksək təbii və tarixi - mədəni potensiala baxmayaraq, ölkəmiz dünya turizm bazarında yüksək xüsusi çəkiyə malik deyildir. Beləliklə, Dövlət Statistika Komitəsinin statistik tədqiqatlarının nəticələrinə görə, 2017-ci ildə ölkəmizə 2.4 milyon əcnəbi turist gəlmiş, xaricə gedən turist sayı isə 3,4 milyon nəfər (artım 40%) olmuşdur [1, s. 25]. Buna baxmayaraq, Mədəniyyət və Turizm Nazirliyinin hesablamalarına görə, Azərbaycanın turizm potensialı ildə 5 milyon turist qiymətləndirilir.

Göründüyü kimi, respublikanın turizm sektoru ən çox xarici turizmə yönəlmişdir. Azərbaycanda turizm sənayesinin inkişafındakı ən başlıca maneələr, inkişaf etməmiş infrastruktur və onun əsas elementlərinin (nəqliyyat sistemi, yerləşmə vasitələri, əyləncə sənayesi və s.) İnkişaf səviyyəsinin aşağı olmasıdır. Bunlar regional turizm iqtisadiyyatında həlledici rol oynayır, turizm sektorunun yenidən qurulması və milli iqtisadiyyatın yüksək gəlirli, sektora çevrilməsi vəzifəsini yerinə yetirir [2, s.65].

Turizm sənayesində əsas infrastruktur komponenti inkişaf səviyyəsindən və keyfiyyətindən, otel infrastrukturundan, turist axınının həcmindən asılıdır. Hazırda otel sektoru bir çox ölkələrin iqtisadi artımının vacib katalizatorudur, çünki o, mal kütləsinin ixracı və ya idxalı ilə müşayiət olunmadan millətlər arasında ÜDM-in yenidən bölüşdürülməsi üçün bir kanal rolunu oynayır. [3, s. 136].

Azərbaycanda otel və mehmanxana tipli müəssisələrin sayı 2012 - 2017-ci illərdə 9% artmış, yəni 514-dən 563 ədədə çatdı. Müvafiq olaraq, otaqların sayı 30% və onlara yerləşdirilən turistlərin sayı 126% artmışdır. Eyni zamanda, məskunlaşmış xarici turistlərin 34% (yəni 142,635) ölkəmizə işgüzar səfərlərdə, 59% -i (yəni 584 171) istirahət və əyləncə məqsədləri üçün, 1% -ni (yəni 11,474) turistlər - müalicə məqsədi ilə və 6% -i (yəni 54 741) digər turizm məqsədləri [1, s. 28] (Şəkil 1)

gəlmişlər. 2017-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrdə cəmi 1 414 708 nəfər (58%), 1039,2 min nəfəri (yəni turistlərin 42% - i) isə özəl evlərdə və kəndlərdə yaşamışlar [1, s.25-28]. Hətta paytaxt sakinləri kəndlərdə şəxsi evlərdə istirahət edirlər. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi xüsusi proqram hazırlayıb ev sahibləri üçün xüsusi treninqlər keçirir ki, onlar keyfiyyətli və təhlükəsiz xidmət göstərsinlər. Mehmanxana və mehmanxana tipli müəssisələrdə yüksək qiymətlər, xidmət heyətinin aşağı səviyyəsi, eləcə də respublikada 2 və 3 ulduzlu mehmanxanaların çatışmazlığı bu vəziyyətin əsas səbəblərindəndir. Bundan əlavə, turizm şirkətlərinin statistikasına görə, bu cür turistlərin qeydiyyatı aparılmır. Özəl evlərdən istifadə edən turistlərin əksəriyyəti, təbii ki, turizm şirkətlərinə müraciət etmirlər, ona görə də nəzərə alınmırlar. Bu istirahət sxeminin cəlbediciliyi ucuzlaşma ilə bağlıdır-ölkənin regionlarında fərdi evlərdə sutkalıq olma qiyməti 20 manat (10 ABŞ dolları) təşkil edir .

2017 - ci ildə mehmanxana və mehmanxana tipli müəssisələr tərəfindən əldə edilən gəlir 284 mln.manat - (167 mln.dollar) təşkil edib. (18,2% daha çox 2016 - cı il göstəricisi) bunun 68%-i nömrələrin satışından, 22% ərzaq məhsullarının satışından, qalanları isə müalicə - sağlamlıq və digər ödənişli xidmətlərin göstərilməsindən [1, s.37-39] (cədvəl.1) əlavə edilmişdir. 2017-ci ildə mehmanxana və mehmanxana tipli obyektlərin xərcləri 222 mln.manat (131 mln. dollar) təşkil edib və 2016-cı ilə nisbətən 8,5% artım təşkil edib. Onların 30% - i işçilərə əmək haqqının ödənilməsinə, 16,2% - i içkilərin və yeməklərin hazırlanması üçün məhsulların alınmasına, 7,2% - i əsas fondların amortizasiyasına, qalanı isə digər xərclərə yönəldilmişdir. [1, s. 37-39] (cədvəl.1). Üstəlik, 2017-ci ilə qədər mehmanxana sektorunda çalışanların sayı artıb. Əgər 2016-cı ildə onların sayı 9 838 nəfər idisə, 2017-ci ildə 10 015 işçi (artım 1,8%) [1, s.36] təşkil edilmişdir. Ümumilikdə, 2017-ci ildə mehmanxanalarda 1 414 708 min turist yerləşdirilmişdir və 2016 – cı illə müqayisədə artım 26% təşkil etmişdir, onlardan 69,4% - i xarici vətəndaşlar və 30,6% - i ölkə vətəndaşlarıdır. (2016-cı illə müqayisədə artım 25,5%, [1, s.28] təşkil etmişdir. Əcnəbilər arasında yerləşdirilmiş mehmanxanalarda keçən il, 14,4% - i Rusiya vətəndaşları, 8% - i Böyük Britaniya, 7,2% - i İran, 7% - i Türkiyə, 3% - i ABŞ, 2,3% - i Ukrayna [1, s.42] təşkil etmişdir.

2012-2017-ci illər ərzində mehmanxana və mehmanxana tipli müəssisələrin əsas göstəriciləri

Cədvəl 1

Göstəricilər	2012	2013	2014	2015	2016	2017
Mehmanxana və mehmanxana tipli müəssisələrin, vahidlərin sayı	514	530	535	536	548	563
Tutum, yerlər	32834	33951	35652	37278	40042	41611
Nömrələrin sayı, vahidlər	15898	16559	17363	17953	19919	20778
Yerləşdirilmiş şəxslərin sayı (turistlər)	624924	666348	672345	838145	1122068	1414708
O cümlədən:						
Ölkə vətəndaşları	252807	270887	279555	342497	345284	433476
Xarici vətəndaşlar	372117	395461	392790	495648	776784	981232
İşləyənlərin sayı, insan	7321	8259	9009	8364	9838	10015
Mehmanxana və mehmanxana tipli müəssisələrdən gəlirlər, min manat	153980,9	171255,9	181047,3	183055,1	240112,7	284453,9
Müəssisələrin xərcləri, min manat	110684,0	145468,3	147068,1	171730,8	204852,3	222192,9
Büdcəyə ödənilən ƏDV, digər vergilər, min manat	18058,8	29951,5	28201,5	28098,5	38525,7	39040,6

Qeyd: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən tərtib edilib, Bakı, 2017, s. 37-39

Tur - günlərin sayı artdıqca, turizm iqtisadiyyatında multiplikasiya effekti də genişlənir. Azərbaycan Respublikasının statistik məlumatlarına əsasən, 2017 - ci ildə mehmanxana və mehmanxana

tipli müəssisələrdə yerləşdirilmiş şəxslərin sayı 1 - 3 gün ərzində 93%, 4 - 7 gün ərzində 6,7%, 8-28 gün ərzində 1,2% [1, s.40-42] təşkil etmişdir. Ümumiyyətlə, 2017 – ci ildə respublika üzrə otellərin yüklənmə səviyyəsi 17,2%, o cümlədən Bakı üzrə 30,3%, Naftalan üzrə 55,1%, Qəbələdə 16%, Qusarda 11,9%, Şamaxıda 6,6% [1, s.43] təşkil edib. Mehmanxana biznesində özəl sahibkarlıq üstünlük təşkil edir. Bu, kiçik və orta biznesin uğurlu aparılması üçün müsbət mühitin yaradılması məqsədilə dövlətin məqsədli siyasətidir. 563 mehmanxana və mehmanxana tipli obyektlərin 84,7% - i özəl, 11% - i dövlət, 2,2% - i xarici və 2% - i birgə müəssisələrdir [5] (cədvəl. 2).

Mülkiyyət növləri üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin sayı

Cədvəl 2

Göstəricilər	2012	2013	2014	2015	2016	2017
Müəssisələrin sayı	514	530	535	536	548	563
O cümlədən:						
Dövlət	27	27	27	49	45	35
Özəl	466	485	489	470	488	515
Xarici	17	13	13	12	10	8
Birgə	4	5	6	5	5	5

Qeyd: cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən tərtib edilib, Bakı, 2017, s.30.

Azərbaycan Respublikası Prezidentinin 6 iyul 2006-cı il tarixli Fərmanına uyğun olaraq mehmanxana və mehmanxana tipli obyektlərə 5 il müddətinə turizm fəaliyyəti (Lisenziyalar) ilə məşğul olmaq hüququ üçün xüsusi icazələr verilirdi. Lakin Azərbaycan Prezidentinin 2015-ci ildən Fərmanına əsasən, Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzləri vasitəsilə bütün lisenziyalar verilir [4, s36].

İnkişaf etmiş milli mehmanxana sənayesinin yaradılması məqsədi ilə Azərbaycanda mehmanxana biznesinin inkişafına, xidmətin keyfiyyətinin yüksəldilməsinə, dünya standartlarına cavab verən zəruri, əlaqəli infrastrukturun formalaşdırılmasına, eləcə də onların beynəlxalq bazarda rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş Azərbaycan otelləri Assosiasiyası təsis edilmişdir [2,s.25]. Bundan başqa, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2012-ci ildə ölkənin koloritli milli mətbəxi ilə tanış olmaq üçün "kulinariya turu", "şərab turu" təşkil edilmişdir. Kulinariya turu (Bakı-Qəbələ-Şəki-Bakı), "ekzotik qastronomiya" - 3 günlük və ya 6 günlük yeməklərdir. Bunlar təndirdən hazırlanan yeməklər, müxtəlif plovlar, piti, təzə Xəzər balıqlarıdır, kabab, şərab, paxlava və bir çox digər dadlı yeməklər bu regionun kulinariya ənənələrinə tam uyğundur [5]. Bundan başqa, Azərbaycan mətbəxinin təbliği məqsədilə respublikanın Mədəniyyət və Turizm Nazirliyi 2015 - ci ilin birinci Avropa Oyunlarında Azərbaycan mətbəxinin ənənələrinə uyğun olaraq "Azerbaijan Breakfast" brendini patentləşdirmiş və Azərbaycanın bütün otellərində təqdimatla çıxış etmişdir. Bu özünü doğrultdu, çünki mətbəximizin həvəskarları daha da artdı . Ölkəmizdə turizm sənayesini yaradaraq, fəaliyyət göstərənləri yenidən qurmaq, dünyanın ən yaxşı mehmanxana və restoranları ilə rəqabət apara biləcək yeni müasir restoran təsərrüfatı müəssisələri inşa etmək lazımdır. Son illər bazar iqtisadiyyatı şəraitində bütün xidmət növlərinə, o cümlədən yaşayış və qidalanma xidmətlərinin göstərilməsinə dair tələblər artır. Mehmanxana biznesi turizm infrastrukturunun ayrılmaz, mərkəzi tərkib hissəsi kimi turizmin milli iqtisadiyyatın gəlirli sahəsinə çevrilməsi üçün baza olmalıdır [3, s.36]. Ümumiyyətlə, yaxın illərdə ölkəmizdə turizm sahəsinin inkişafı istiqamətində davamlı tədbirlərin həyata keçirilməsi zəruridir.

ƏDƏBİYYAT

1. State Statistical Committee of the Republic of Azerbaijan. Tourism in Azerbaijan, 2018, p. 140
2. Axundova A., Səmədova G. turizm infrastrukturunun inkişafının tənzimlənməsində Azərbaycan dövlətinin prioritet siyasəti / turizm: hüquq və iqtisadiyyat. 2017. 3 saylı. C. 30-32.
3. Овчаров А. О. Экономика туризма: Учеб. Пособие. – М.: ИНФРА- М, 2013, 253 с.
4. http://www.1news.az/news/ministerstvo-kul-tury-i-turizma-prekratilo-vydachu-licenziy-na-deyatel-nost-oteley-i-v-sfere-turizma
5. www.prezident.az/turizm sektoru

Emin Quliyev
Povoljski Dövlət Texnologiya Universiteti
eminquliyev.1977@mail.ru

İqtisadi mühitin davamlı inkişafa təsiri

İmpact of the economic environment on sustainable development

Влияние экономической среды на устойчивое развитие

Xülasə: Məqalədə dünyada davamlı inkişafa keçidin yeni problemləri nəzərdən keçirilir. Iqtisadi cəhətdən davamlıı inkişafın uzunmüddətli hədəfləri, davamlı inkişafın göstəriciləri və yaşıl iqtisadiyyata keçid xüsusiyyətləri təhlil edilmişdir. Uğurlu iqtisadi siyasət sayəsində təbii sərvətlərdən istifadəni artırmamaq və eyni zamanda əhalinin maddi rifah səviyyəsini yüksəltməyin mümkünlüyü təhlil edilmişdir. Əsasən iqtisadiyyatın modernləşdirilməsi hədəfləri ilə əlaqəli olan yaşıl iqtisadiyyat modelinə keçidin dəstəklənməsinin vacibliyi vurğulanır. Milli prioritetləri və xüsusiyyətləri nəzərə alaraq davamlı inkişafın göstəricilər sistemini inkişaf etdirmək lazımdır. Onun məzmunu sivilizasiyanın inkişaf mənbəyi baxımından qiymətləndirilir.
Açar sözlər: Davamlı inkişaf, iqtisadi mühit, ekoloji mühit, sosial mühit, iqtisadi inkişaf, yaşıl iqtisadiyyat.

Резюме: В статье рассматриваются новые проблемы перехода к устойчивому развитию в мире. Были проанализированы долгосрочные цели экономического развития, показатели устойчивого развития и перехода к зеленой экономике. Анализируется возможность не использовать природные ресурсы и повышать благосостояние населения посредством успешной экономической политики. Подчеркивает важность поддержки перехода к модели зеленой экономики, в основном связанной с целями модернизации экономики. Необходимо разработать систему показателей устойчивого развития с учетом национальных приоритетов и спецификаций. Его содержание оценивается с точки зрения источника развития цивилизации.
Ключевые слова: устойчивое развитие, экономическая среда, экологическая среда, социальная среда, экономическое развитие, зеленая экономика.

Abstract: The article addresses new challenges of transition to sustainable development in the world in scientific research. Long-term economic development goals, indicators of sustainable development and transition to green economy have been analyzed. Analysis of the possibility of not using natural resources and increasing the welfare of the population through successful economic policies has been analyzed. Emphasizes the importance of supporting the transition to a green economy model, mainly related to the objectives of economic modernization. It is necessary to develop a system of indicators of sustainable development, with taking into account national priorities and specifications. The content of sustainable development evaluates from the point of view of civilization's development source in the scientific article.
Key words: Sustainable development, economic environment, ecological environment, social environment, economic development, green economy.

“Bəşəriyyətin davamlı inkişafını təmin etmək dünya birliyinin qarşısında duran ən vacib problemdir." Bu açıqlama 1987-ci ildə BMT Baş Assambleyası tərəfindən verilmişdir. Bu gün də aktuallığını itirməyən davamlı inkişaf konsepsiyası dövlət başçıları, siyasi liderlər, iqtisadçı alimlər, iş adamları tərəfindən fəal müzakirə olunur**.** Davamlı inkişaf konsepsiyasının yaradılmasından əvvəl dünyada ətraf mühitin vəziyyətinin ciddi şəkildə araşdırılması aparıldı, nəticədə bəşəriyyətin bütöv bir sivilizasiyanın böhranına çevrilərək, onun məhvinə səbəb ola biləcək bir şəraitdə yaşadığı məlum oldu. Bu böhranı cəmiyyət və təbiət arasındakı münasibətlərdə bir balansının pozulması kimi təsvir etmək olar. Bu da insanla ətraf mühit arasındakı həll edilməmiş ziddiyyətli münasibətlərin məntiqi nəticəsidir. Hələ 2002- ci ildə BMT-nin effektivliyini artırmaq üçün BMT Baş katibi Təhdidlər, Problemlər və Dəyişikliklər üzrə Yüksək Səviyyəli Qrup yaratdı. Qrupun fikrincə, dünyanın indiki və yaxın onilliklərdə qarşılaşmalı olduğu altı təhlükə bloku var. Onlardan biridə iqtisadi və sosial təhlükələr, o cümlədən yoxsulluq, yoluxucu xəstəliklər və ətraf mühitin pozulmasıdır. 21-ci əsrdə uzunmüddətli qlobal inkişaf BMT konsepsiya sənədlərində tərtib edilmişdir. 2015-ci ilin sentyabrında BMT konfransında bütün dünya ölkələri üçün 2016-2030-cu illər üçün Davamlı İnkişaf

Məqsədləri təsdiq edildi [1]. Davamlı inkişafa nail olmaq dünyanın bütün ölkələrinin üzləşdiyi ən aktual problemlərdən biridir. Məqsəd gələcək nəsillərin maraqlarını nəzərə alaraq iqtisadi inkişafı təmin etmək və eyni zamanda resurs bazasının və ətraf mühitin qorunmasıdır. Ümumiyyətlə davamlı inkişafa birbaşa təsir edən amilləri biz aşağıdakı şəkildə görə bilərik.



Şəkil 1.

Aparılan təhlillər iqtisadi mühitin davamlı inkişafa daha çox təsir etdiyini əminliklə söyləməyə imkan verir. Bunun üçün bütün ölkələr iqtisadiyyatının və biznesin davamlı inkişafı üçün müsbət və dəstəkləyici addımlar atmalıdırlar. Bu proses müxtəlif metodlarla özəl sektorun fəaliyyətinin dəstəklənməsini nəzərdə tutur. Bura:

- Mövcud resurslardan istifadə səmərəlilik;
- Müvafiq maliyyə və pul siyasəti vasitəsilə investisiyaların stimullaşdırılması;
- Ölkənin dəyişən ehtiyaclarını nəzərə alaraq əmək şəraiti və insan resurslarının məqsədyönümlülüyü üçün müvafiq təhsil və təlim mərkəzləri vasitəsilə insan kapitalının inkişafına nail olunması;
- Texnoloji adaptasiya həvəsləndirilmə;
- Əqli mülkiyyət hüquqlarının qorunması;
- Kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi;
- Mülayim, olduqca aşağı sabit inflyasiya dərəcəsi;
- Daxili bazarların genişləndirilməsi;
- Səmərəli idarəetmə;
- Dürüst və sadiq siyasət;
- Ədalətli və ağlabatan vergi siyasətinin tətbiqi;
- Qanun aliliyinin və asayişin qorunması;
- Ahəngdar beynəlxalq ekoloji-siyasi münasibətlərin təmin edilməsi;
- Yaşıl iqtisadiyyata keçidə şərait yaradan hüquqi qanun və qaydaların tətbiq olunması kimi tədbirlər daxildir.

İnkişafın dayanıqlı olması üçün yaşıl iqtisadiyyata keçid əsas şərtlərdən biridir. Hazırkı şəraitdə iqtisadiyyatın yaşıllaşdırılması xərclərinin əhəmiyyətli dərəcədə artacağını gözləmək çətindir. Bununla əlaqədar, həm iqtisadi səmərəliliyi təmin etmək, həm də ətraf mühitə az təsir etmək siyasətini həyata keçirməklə iqtisadiyyatın modernləşdirilməsini dəstəkləmək lazımdır. Belə ki zərərli tullantıların azaldılması, təbii ehtiyatların səmərəli istifadəsini təmin etmək və az tullantı istehsalının inkişafını təmin etmək məqsədəuyğundur. Ekoloji prioritetlərin icrası ölkənin iqtisadi məqsədləri ilə birləşdirilməli, iqtisadi tədbirlər həm iqtisadiyyata, həm də ətraf mühitə fayda verməlidir.

Davamlı inkişaf dörd komponentin - iqtisadi, sosial, ətraf və hüquqi mühitin kompleks qarşılıqlı əlaqəsini nəzərdə tutur. Son onilliklərdə ortaya çıxan yaşıl iqtisadiyyat konsepsiyası bu komponentlər arasında ahəngdarlığı təmin etmək üçün hazırlanmışdır ki, bu da inkişaf etmiş, inkişaf etməkdə olan və keçid iqtisadiyyatı olan dövlətlər üçün məqbuldu.

Yaşıl iqtisadiyyat konsepsiyasının tərəfdarları hesab edir ki, hazırda hakim olan iqtisadi sistem qeyri kamildir. Bütövlükdə insanların və xüsusən də ayrı-ayrı qrupların həyat səviyyəsinin yaxşılaşdırılmasında müəyyən nəticələr verməsinə baxmayaraq, bu sistemin fəaliyyətinin mənfi nəticələri əhəmiyyətli dərəcədədir. Buraya ekoloji problemləri (iqlim dəyişikliyi, səhralaşma, biomüxtəlifliyin itirilməsi), təbii kapitalın tükənməsin, geniş yayılmış yoxsulluğu, şirin suyun azalmasın, ərzaq qıtlığın, azalan enerji resursların, insanların və ölkələrin bərabərsizliyin və s. aid edə bilərik . Bütün bunlar indiki və gələcək nəsillər üçün təhlükə yaradır [2] .

Bəşəriyyətin yaşaması və inkişafı yaşıl iqtisadiyyata keçidi tələb edir. Yəni gələcək nəsillərin rifahının yüksəlməsinə səbəb olan malların və xidmətlərin istehsalı, paylanması və istehlakı ilə əlaqəli iqtisadi fəaliyyət növləri sistemli olmalıdır.

Yaşıl iqtisadiyyat təşəbbüsü üç əsas prinsipə əsaslanır:

- təbii ehtiyatların milli və beynəlxalq səviyyədə qiymətləndirilməsi və işıqlandırılması;
-"Yaşıl" iş yerləri yaratmaq və müvafiq siyasət hazırlamaqla məşğulluğun təmin edilməsi;
-Davamlı inkişafa nail olmaq üçün bazar mexanizmlərindən istifadə.

Yaşıl iqtisadiyyata keçmək üçün iqtisadiyyatın bu sektorlarına investisiya qoymaq lazımdır: kənd təsərrüfatı, mənzil-kommunal təsərrüfatı, enerji, meşə təsərrüfatı, sənaye, turizm, nəqliyyat, tullantıların idarə olunması və təkrar emalı, su idarəetməsi [3]

- Kənd təsərrüfatının və xüsusilə kiçik sahibkarların iqtisadiyyatının "yaşıllaşdırılması" yoxsulluğun azaldılmasına və yoxsulların çox asılı olduğu təbii kapitala qoyulan investisiyaların artmasına kömək edəcəkdir.

- "Yaşıl" (yəni ekoloji) şəhərlərin yaradılması üçün ən vacib şərt binaların modernləşdirilməsidir. Çünki binaların qızdırılması, işıqlandırılması, soyudulması və havalandırılması dünyada atmosferə atılan tullantılarının ən vacib mənbələrindən biridir. Yeni "yaşıl" binaların inşası və mövcud binaların yüksək enerji və resurs istehlakı ilə yenidən təchiz edilməsi çox ucuz qiymətə əhəmiyyətli xərclərə qənaət etməyə imkan verəcəkdir.

- Yaşıl iqtisadiyyata keçid yoxsulluğun azaldılması və ümumi həyat keyfiyyətinin yüksəldilməsi məqsədilə xidmətlərə və infrastrukturlara çıxışın asanlaşdırılması üçün hazırlanmışdır və enerji çatışmazlığına qarşı mübarizə bu keçidin çox vacib elementidir. İstehsal texnologiyaları sayəsində bərpa olunan enerji və əlaqəli enerji siyasətlərinin aşağı həyat şraiti olan bölgələrdə yaşayan insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına və sağlamlıq imkanlarının yaxşılaşdırılmasına mühüm töhfə verəcəyi gözlənilir. İqtisadi cəhətdən səmərəli həllər, aşağı əməliyyat xərcləri və çevik kiçik miqyaslı tətbiqetmə imkanları ilə xarakterizə olunan təmiz biokütlə və muxtar günəş PV cihazlarının istifadəsini təmin edəcəkdir.

- Meşələrin salınması iqtisadi və texniki cəhətdən mümkündür. Kənd təsərrüfatına və kənd əhalisinin həyat səviyyəsinə müsbət təsir göstərər. Meşə sahəsinin çoxaldılması həm ekoloji problemlərin həllinə kömək edəcək, həm də xammal kimi meşə materialına olan tələbatın ödənilməsində rol oynayacaq (təbii ki, kəsilən ağacların yerinə ən azı yenisinin əkilməsi şərtilə).

- İqtisadiyyatın yaşıllaşdırılması prinsipləri ilə sənayenin çevrilməsi planetimizdə həyat keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər.

- Turizm sektorunun "yaşıllaşdırılması" yerli məşğulluğun artması və yerli mənbələrdən istifadənin artması hesabına sektorda məşğulluq potensialını artıracaqdır. Bu, yerli icmaların , xüsusən yoxsulların turizmin dəyər zəncirinin artırmasında, yerli iqtisadiyyatın inkişafında və yoxsulluğun azaldılmasında mühüm rol oynayacaq.

- Nəqliyyatla əlaqədar olaraq bu gün mövcud nəqliyyat vasitələri iqlim dəyişikliyinin, ətraf mühitin çirklənməsinin və insan sağlamlığına təhdidin əsas səbəblərindən biridir. Şəhərlərdə və ondan kənarda nəqliyyat, bütün maye yanacağın yarısından çoxunu istehlak edir və enerji ilə əlaqəli qlobal CO_2 emissiyalarının dörddə birini yaradır. Nəqliyyatın "abadlaşdırılması" siyasəti üç qarşılıqlı prinsipə əsaslanır:

- torpaqdan istifadənin və nəqliyyatın planlaşdırması, istehsal və istehlakın lokalizasiyasını birləşdirərək lazımsız səfərlərin azaldılması ;
- sərnişinlər üçün ictimai və motorlu olmayan nəqliyyat vasitələri, yüklər üçün dəmir yolu və su nəqliyyatı kimi ekoloji cəhətdən daha səmərəli nəqliyyat növlərinə keçid;
- ətraf mühitə mənfi təsiri və sosial xərcləri azaltmaq üçün istifadə olunan avadanlıq və yanacağın təkmilləşdirilməsi.

- Tullantıların idarə edilməsi və atılması sahəsində məşğulluq əhali və gəlir artımı səbəbindən tullantıların artması hesabına artacaqdır. Bütün formalarda təkrar emal artıq üç ölkədə (Braziliya, Çin və ABŞ) 12 milyon insanın məşğulluğunu təmin edir.

- Artan su çatışmazlığı su təchizatının yaxşılaşdırılmasına və səmərəliliyin artırılmasına yönəlmiş siyasət sayəsində azaldıla bilər.

Eyni zamanda, makroiqtisadi və ətraf mühit siyasətinin bir növ "birləşməsi" baş verməlidir. Son bir neçə ildə ekosistem xidmətləri, biomüxtəlifliyin qorunması və onların iqtisadi faydalarına dünyada böyük diqqət ayrılır. Ekosistem xidmətləri insanların ekosistemlərdən aldığı üstünlüklərdir. Son yarım əsrdə qlobal ekosistem xidmətlərinin təxminən 60% -i antropogen təsir nəticəsində məhv edilmişdir [4]. Ekosistemlərin və onların xidmətlərinin itirilməsindən gələn iqtisadi ziyan böyükdür. Yalnız meşələrin qırılması ilə dünya ildə 2-5 trilyon ABŞ dolları eko xidmətlər itirir [5].

Yaşıl texnologiyalar, ekoloji məhsullar və xidmətlər tam bazara çıxarılan bir məhsula çevrilməmişdir və inkişaf etmiş institusional əngəllər bu cür tədbirləri rəqabətsiz edir. Nəticədə yaşıl iqtisadiyyatın inkişafı ətraf mühit sənayesinin və texnologiyalarının inkişafını, zəruri infrastrukturun yaradılmasını, əsas qurumların yenidən yaradılmasını, vergi siyasətinin islahatlarını və s. tələb edir. Bu mənada milli iqtisadiyyatın "yaşıl" inkişafına doğru yönəldilməsi güclü siyasi iradənin olmasını şərtləndirir.

Dövlətin əsas rolu bu prosesin bütün subyektlərinin fəaliyyətini, o cümlədən müvafiq plan və proqramların işlənib hazırlanması və əlaqələndirilməsidir. AB və ABŞ-ın enerji inkişaf proqramları ənənəvi mənbələri əvəz edən bərpa olunan enerjinin payını artırmağa yönəlmişdir. Beləliklə, 2008-ci ildə Avropa Yenilənən Enerji Direktivinə görə, bu göstərici 7,8 % -dən 2020-ci ilə qədər 20 % -ə yüksəlməlidir. Avropa Külək Enerji Birliyi (EWEA) tərəfindən aparılan hesablamalar göstərir ki, təkcə bu yaşıl enerji sektoru üçün inkişaf proqramlarının həyata keçirilməsi AB ölkələrinə neft, qaz və kömür alışını azaltmaqla 2020-ci ilə qədər 87 milyard avro qənaət etməyə imkan verəcəkdir.

Davamlı inkişaf anlayışı "böyümə" və "inkişaf" anlayışları arasındakı fərqi əhatə edir. Uzun müddətdir ki, iqtisadi sistemin inkişaf etdirilməsində məqsəd onun kəmiyyətcə artması idi: təbii ehtiyatların artması səbəbindən mal və xidmətlərin həcminin artırılması. Böyümədən fərqli olaraq inkişaf, istehsal olunan məhsuldarlığı müəyyən miqdarda istifadə olunan və ya azaldılmış məhsuldarlıqla artırmağı əhatə edən insan və təbiət arasındakı münasibətlər sisteminin keyfiyyətcə çevrilməsini əhatə edir.

Davamlı inkişaf konsepsiyasını nəzərə alaraq bəzi tədqiqatçılar onun "güclü" və "zəif" variantlarını ayırmağı təklif edirlər. Davamlılığın əsas prinsipi cəmiyyətin inkişafının sosial-iqtisadi, humanitar, hüquqi və ekoloji aspektlərinin inteqrasiyasıdır. Bu prinsip Stokholm və Rio-de-Janeyra Bəyannamələri, Ümumdünya Təbiət Xartiyası, Yer Xartiyası və digər müxtəlif çoxtərəfli sazişlər kimi beynəlxalq sənədlərdə öz əksini tapmışdır. Beləliklə, Rio De Janeiro Bəyannaməsinin 4-cü prinsipi təsdiq edir ki, "davamlı inkişafa nail olmaq üçün ətraf mühitin qorunması inkişaf prosesinin ayrılmaz hissəsi olmalıdır və ondan təcrid olunmaq olmaz" [6].

«Davamlı inkişaf – elə bir prosesdir ki, müasir dövrün tələbatını ödəyə bilir, amma gələcək nəsillərin öz xüsusi tələbatlarını da təmin etmək qabiliyyətini təhlükə altında qoymur» [7] . Davamlı inkişafın hüquqi ifadəsinin yalnız ekoloji normalar vasitəsilə məhdudlaşdırılması düzgün deyil. Bu inkişaf tipini təhlükəsizlik normaları, onun inkişaf və təhlükəsizliyinin təmini sisteminə daxil olan, əvvəllər nisbi müstəqil insan fəaliyyəti sahəsi kimi öyrənilən digər norma və məhdudiyyətlərlə də ifadə etmək mümkündür. Perspektivdə keyfiyyətcə yeni, dünya birliyinin və hər bir dövlətin yeni sivilizasiya məqsədlərinə doğru hərəkətini stimullaşdıran davamlı inkişaf hüququnun formalaşması prosesi baş verir. Davamlı inkişaf hüququnun yaranma və inkişaf prosesi milli və beynəlxalq səviyyədə baş verir. Bu proses beynəlxalq səviyyədə daha sürətlə inkişaf edir, bu isə, öz növbəsində da-

vamlı inkişaf vasitəsilə qloballaşmanın genişlənməsini sürətləndirir. Həmçinin bir sıra dövlətlərdə davamlı inkişaf üzrə qanunvericilik bazasının formalaşması prosesinin də başlandığını demək olar. Təhlükəsizlik və inkişafın bir-biri ilə birbaşa əlaqəli olduğunun, davamlı inkişaf vasitəsilə təhlükəsizliyin təmin edilməsinin mümkünlüyünün dərk edilməsi bu prosesi əhəmiyyətli dərəcədə sürətləndirir. Hələlik davamlı inkişaf hüququ formalaşmasının ən perspektivli trayektoriyası kimi əsasən gələcəkdə davamlı inkişaf sahəsində xüsusi qanunvericilik sahəsi kimi inkişaf etmək şansları olan ekoloji və təhlükəsizlik istiqamətləri çıxış edir.

Burada hüququn proqressiv hərəkətindən söhbət gedir, məsələn, ətraf mühitin mühafizəsi sahəsində normaların yaranmasını buna misal göstərmək olar. Xüsusən beynəlxalq hüquqda beynəlxalq müqavilə, saziş, bəyanatlardan irəli gələn tövsiyəedici aktların – bəyanatların, qətnamələrin, bəyannamələrin, doktrinaların, konsepsiya, plan, proqramların rolu artır. Hazırda belə aktları «yumşaq hüquq»a, onların tətbiqini «yumşaq güc»ə aid edirlər. Buna nümunə kimi 2000-ci ilin sentyabrında BMT tərəfindən qəbul edilmiş, mahiyyət etibarı ilə sivilizasiyanın davamlı inkişafa keçid dövrü üçün səkkiz məqsəd təklif edən Minilliyin bəyannaməsini [8] göstərmək olar. Hazırda «yumşaq hüquq»un tətbiq dairəsi sürətlə genişlənməkdədir. Məsələn, «Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında» 2014-cü il fevralın 20-də Bakı şəhərində imzalanmış Anlaşma Memorandumunun forma və məzmunu «yumşaq hüquq» anlayışına, onun forma və məzmununa kifayət qədər aydınlıq gətirə bilir.

Azərbaycanda da davamlı və dayanıqlı inkişafı təmin etmək üçün ardıcıl üşlər görülür. Ölkəmizdə enerji səmərəliliyi ilk növbədə iqtisadi artıma istiqamətləndirilmişdir. Yəni əsas məqsəd hər bir insanın həyat şəraitinin yaxşılaşdırılması və təbii sərvətlərin qənaətlə istifadə edilərək gələcək nəsillərə ötürülməsidir. Bunun üçün ölkədə neft-qaz resurslarından asılılığı aradan qaldırmaq və qeyri-neft sektorunu inkişaf etdirməklə gələcək nəsillərin dayanıqlı normal rifah şəraiti təmin edilməlidir. Bu məsələ ölkə miqyasında istehsalın və istehlakın ekoloji balanslaşdırma əsasında həyata keçirilməsini zəruri edir. Azərbaycanda ekoloji siyasətin və qanunvericiliyin təkmilləşdirilməsi həyata keçirilir. Ekoloji tədbirlərə dövlət proqramlarının və qanunların qəbul edilməsi, yeni idarəçilik prinsiplərinin tətbiqi, milli parkların genişləndirilməsi, insanların su ilə təminatının daha da təkmilləşdirilməsi, tullantıların idarə olunması, ətraf mühitin qorunması və.s aiddir. Azərbaycanda İqtisadiyyatın yaşıllaşdırılması üçün lazım olan qanunvericilik bazasının, qaydaların və yeni standartların yaradılması və tətbiqi sahəsində xeyli işlər görülmüşdür. Buna misal olaraq:

- “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası;
- "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı";
- “Alternativ və Bərpa olunan Enerji mənbələrindən istifadə 2015-2020” üzrə Dövlət Strategiyası;
- Bitki Mühafizəsi Haqqında Azərbaycan Respublikasının Qanunu;
- Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu;
- Ekoloji təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu;
- Atmosfer Havasının Mühafizəsi Haqqında Azərbaycan Respublikasının Qanunu;
- Yerin Təki Haqqında Azərbaycan Respublikasının Qanunu;
- Heyvanlar Aləmi Haqqında Azərbaycan Respublikasının Qanunu;
- Xüsusi Mühafizə Olunan Təbiət Əraziləri və Obyektləri Haqqında Azərbaycan Respublikasının Qanunu;
- İstehsalat və Məişət Tullantıları Haqqında Azərbaycan Respublikasının Qanunu;
- Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu.
- Ətraf mühitə dair informasiya almaq haqqında Azərbaycan Respublikasının Qanunu; və s.

Qeyd edilən və qeyd edilməyən qanun və qaydalar iqtisadi və hüquqi mühitin tərkib hissəsi olaraq ümumilikdə iqtisadi inkişafı təmin edir. Nəticədə qarşıya qoyulan məqsədlərə çatmaq və davamlı inkişafa nail olmaq üçün münbit şərait yaranır. Buna misal olaraq bərpa olunan enerji istehsal edən qurğuların (bioqaz, günəş və külək qurğuları) Azərbaycanda istehsalı, quraşdırılması və onlara xidmət uğurlu fəaliyyətlərdən hesab edilə bilər.

Sonda vurğulamaq lazımdır ki, davamlı inkişaf prinsipləri daim təkmilləşdirilir və zənginləşdirilir. Hal-hazırda "sərt hüquq" konsolidasiya sənədi olmasa da, davamlı inkişaf prinsipləri ardıcıl olaraq müxtəlif beynəlxalq sənədlərə daxil edilir və tədricən beynəlxalq hüququn bir hissəsinə çevrilir. Əlbəttə ki, beynəlxalq hüququn yeni bir qolunun - davamlı inkişaf qanununun yarandığını iddia etmək yanlışdır. Hələ yalnız formalaşma mərhələsi həyata keçirilir. Bu sahədə beynəlxalq münasibətlərin tənzimlənməsinə və buna uyğun olaraq yeni hüquq sahəsinin formalaşmasına təkcə müqavilələr deyil, həm də beynəlxalq hüququn məhkəmə qərarları, beynəlxalq təşkilatların bəyannamələri, dövlət təcrübəsi və s. mənbələri təsir göstərir.

Davamlı inkişaf konsepsiyasının ortaya çıxması, yer üzündə, xüsusən də inkişaf etməkdə olan ölkələrdə hər bir insanın həyat səviyyəsinin yüksəlməsini nəzərdə tutan "inkişaf" anlayışının təbii nəticəsidir. Konsepsiya üçüncü dünya ölkələrində insan hüquqlarına riayət edilməməsi, kütləvi qırğın silahlarının yayılması və köhnə metodlarla həll edilə bilməyən qlobal ekoloji problemlərin ortaya çıxması kimi müasir təhdidlərə cavab idi.

Qeyd etmək lazımdır ki, davamlı inkişaf konsepsiyasında qarşıya qoyulan məqsədlərə hər ölkə fərdi olaraq çata bilməz. Təhdidlər qlobal xarakter daşıyır (iqlim dəyişikliyi, şirin su çatışmazlığı, maliyyə sisteminin qeyri-sabitliyi və s.). Davamlı inkişafa yalnız səylərin birləşdirilməsi yolu ilə nail olmaq mümkündür. Bu müvafiq praktikada tətbiq olunmalı olan ümumi bir rəydir.

Beləliklə, dayanıqlı inkişaf hədəflərinin daha səmərəli həyata keçirilməsi üçün ilk növbədə "davamlı inkişaf" anlayışının ümumdünya tərifini beynəlxalq səviyyəli sənəddə birləşdirmək, dayanıqlı inkişaf sahəsində beynəlxalq hüququn ciddi norma və prinsiplərini hazırlamaq və qəbul etmək və ardıcıl tətbiq etməyə başlamaq lazımdır. Konsepsiyanın mümkün tərifi olaraq, aşağıdakıları təklif etmək olar: davamlı inkişaf - bütün ölkələrin əhalisinin mövcud və gələcək nəsillərinin ehtiyaclarını ödəmək üçün iqtisadi artım, sosial inkişaf və ətraf mühitin qorunmasının qarşılıqlı əlaqəsini təmin edən təbiətin və insanın ahəngdar inkişafıdır.

ƏDƏBİYYAT

6. Dünyanı dəyişdir: 2030-cu ilə qədər dövr üçün davamlı inkişaf gündəliyi. BMT, 2015.45 s
7. Бушуев В.В., Голубев В.С., Селюков Ю.Г., Энергоинформационные основы устойчивого развития. (На примере российских регионов). - Москва: Энергия, 2005.
8. Навстречу «зеленой» экономике: пути к устойчивому развитию и искоренению бедности –обобщающий доклад для представителей властных структур. ЮНЕП, 2011. - с 52.
9. Millennium Ecosystem Assessment. Ecosystems and Human Well-Being: Synthesis. Washington ,DC: IslandPress, 2005
6. Guide to Corporate Ecosystem Valuation, the World Business Council for Sustainable Development, 2011
7. Доклад Конференции Организации Объединенных Наций по окружающей среде и развитию, Рио-де-Жанейрская декларация по окружающей среде и развитию. A/CONF. 151/26/Rev. 1 (V. I). - URL: http://www.un.org/russian/documen/declarat/ riodecl.htm, свободный. Девид Джоббер- Принципы и практитка маркетинга. 2000г
8. Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı, 21 oktyabr 2004-cü il,
9. http://www.sdf.gov.az/
10. http://www.tipii.edu.az/
11. http://www.sdf.gov.az/

Yasəmən ABASOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim
yasaman.abasova@atmu.edu.az

Ülkər SADIQOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim
u.sadiqova@atmu.edu.az

Beynəlxalq biznes kontekstində mədəni müxtəliflik

Культурное разнообразие в контексте международного бизнеса

Cultural diversity in the context of international business

Xülasə: Müasir dövrdə dünya siyasətində və beynəlxalq münasibətlər sistemində mədəniyyət faktorunun əhəmiyyəti, ümumdünya iqtisadi-siyasi proseslərə, dövlətlərarası münasibətlərə təsiri getdikcə artır. Mədəniyyətin inkişafı və yeni şəraitdə mədəni islahatların aparılmasında əsas rol yalnız cəmiyyətə məxsusdur. Mədəniyyət və mədəni fərqliliklər qloballaşan biznes dünyasında gedərək fərqinə varılan, insan münasibətlərində əsas yer tutan elementlərdəndir. Mədəniyyətlərarası fərqlərə görə idarəetmə sistemi müəyyən etmək və mövcud olan fərqlilikləri uğurlu bir şəkildə idarə etmək, çoxmillətli təşkilatların inkişaf etdiyi bir zamanda zərurət olaraq əsas daxili və xarici mühit faktoruna cevrilmişdir. Dünya mədəniyyəti tarixinin, müasir mədəniyyətlərin rəngarəngliyinin, müxtəlif ölkə və xalqların mədəni özünəməxsusluğunun öyrənilməsi və mənimsənilməsi sayəsində bəşəri birliyə, hər bir fərdin özünüinkişafına, sivilizasiyanın irəliləyişi yollarında müasir qlobal problemlərin həllinə nail olmaq mümkündür.
Açar sözlər: beynəlxalq biznes, mədəniyyət, mədəniyyətlərarası menecment.

Резюме: В современном мире значение культурного фактора в мировой политике и системе международных отношений, его влияние на глобальные экономические и политические процессы и межгосударственные отношения постоянно возрастает. Основная роль в развитии культуры и культурных реформ в новых условиях принадлежит обществу. В эпоху глобализации культурные и кросскультурные различия являются одним из ключевых элементов в международном бизнесе. Культура рассматривается как главный фактор внутренней и внешней среды. Изучая и осваивая историю мировой культуры, разнообразие современных культур, культурную самобытность разных стран и народов, можно достичь глобального единства, развития каждого человека и решения современных глобальных проблем на пути цивилизации.
Ключевые слова: международный бизнес, культура, кросскультурный менеджмент.

Abstract: In the modern world, the importance of the cultural factor in world politics and the system of international relations, its influence on global economic and political processes and interstate relations is constantly growing. The main role in the development of culture and cultural reforms in the new conditions belongs to society. In an era of globalization, cultural and cross-cultural differences are one of the key elements in international business. Culture is considered as the main factor in the internal and external environment. By studying and mastering the history of world culture, the diversity of modern cultures, the cultural identity of different countries and peoples, it is possible to achieve global unity, the development of each person and the solution of modern global problems on the path of civilization.
Key words: international business, culture, cross-cultural management.

Beynəlxalq biznes fəaliyyəti ilə məşğul olan şirkətlərin xarici mədəni mühüti dərindən tətqiq etmələri olduqca əhəmiyyətlidir. Belə ki, ölkələrin mədəni səviyyələrinin, mədəni dəyərlərinin və davranış normalarının müxtəlifliyi bir çox hallarda beynəlxalq biznes fəaliyyətinin səmərəliliyini müəyyən edən vacib amillərdəndir. Bundan əlavə, xarici ölkə əməkdaşları ilə işgüzar əlaqələrin aktivləşməsi, beynəlxalq danışıqların, konfrans və sərgilərin təşkili, bu və ya digər bir ölkədə mövcud olan adət və ənənələrin işgüzar mədəniyyətə əməl olunmasını tələb edir. Bu səbəbdən, şirkətlərin

beynəlxalq biznes fəaliyyətlərində mədəniyyətin və mədəni müxtəlifliklərin dərindən təhlili menecerlər üçün vacib bir amilə cevrilmişdir.

Müxtəlif tarixi dövrlərdə cəmiyyətin inkişafı ayrı-ayrı elm sahələrinin yaranması, tərəqqisi ilə sıx əlaqədə olduğundan, elm və mədəniyyətin təkanverici təsiri bəzi dövrlərdə hətta qanunauyğun şəkil almış, dövlətlərin mədəniyyət sistemi yaranmışdır. Müasir dövrdə dünya siyasətində və beynəlxalq münasibətlər sistemində mədəniyyət faktorunun əhəmiyyəti, ümumdünya iqtisadi-siyasi proseslərə, dövlətlərarası münasibətlərə təsiri getdikcə artır. Mədəniyyətin inkişafı və yeni şəraitdə mədəni islahatların aparılmasında əsas rol yalnız cəmiyyətə məxsusdur. Mədəniyyət və mədəni fərqliliklər qloballaşan biznes dünyasında gedərək fərqinə varılan, insan münasibətlərində əsas yer tutan elementlərdəndir. Mədəniyyətlərarası fərqlərə görə idarəetmə sistemi müəyyən etmək və mövcud olan fərqlilikləri uğurlu bir şəkildə idarə etmək, çoxmillətli təşkilatların inkişaf etdiyi bir zamanda zərurət olaraq əsas daxili və xarici mühit faktoruna cevrilmişdir. Dünya mədəniyyəti tarixinin, müasir mədəniyyətlərin rəngarəngliyinin, müxtəlif ölkə və xalqların mədəni özünəməxsusluğunun öyrənilməsi və mənimsənilməsi sayəsində bəşəri birliyə, hər bir fərdin özünüinkişafına, sivilizasiyanın irəliləyişi yollarında müasir qlobal problemlərin həllinə nail olmaq mümkündür. Bu faktorlar olmadan insanların birliyi və əməkdaşlıqı yarana bilməz. Mədəniyyətin yaranması, inkişafı tarixində onu müxtəlif mövqelərdən şərh edən alimlərin nəzəriyyə, təlim və konsepsiyalarını ümumiləşdirən yeganə cəhət ondan ibarət idi ki, mədəniyyət – bəşəri, dünyəvi bir ictimai hadisə olmaqla cəmiyyətin həyatında mühüm rol oynamış, insan əqlinin, zəkasının məhsulu kimi dəyərləndirilməlidir.

Beynəlxalq biznesdə uğura aparan yol bu sahədə səciyyəvi mədəniyyətin rolunu öyrənməkdən keçir. Mədəniyyətlər arasında olan fərqlilik iqtisadiyyatın hansı sektorunda fəaliyyət göstərməsindən asılı olmayaraq, istənilən şirkətin gəlirliliyinə birbaşa təsir edən amillərdəndir və işgüzar münasibətlərdən – sövdələşmələr və danışıqlardan tutmuş məhsulların qablaşdırılması, marketinq və reklama qədər bir sıra sahələr üzərində fərqlərin mühüm təsirindən qayğılanan böyük şirkətlər strategiyalarını yerli və regional mədəniyyəti, o cümlədən dil, din, dəyərlər sistemi və düşüncə tərzini nəzərə alaraq müəyyənləşdirirlər.

Yuxarıda sadalananları nəzərə alaraq son illərdə mədəni müxtəliflik, mədəniyyətlərarası menecment, mədəniyyətlərarası ünsiyyət sahəsində coxsaylı tədqiqatlar aparılmışdır.

Beynəlxalq biznesdə mədəni mühitin tətqiqi mədəni müxtəliflik şəraitində işgüzar əlaqələrinin idarə olunmasına dair müəyyən vəzifələrin müəyyənləşdirilməsini tələb edir. Qeyd olunan vəzifələrə müxtəlif mədəniyyətlərin kəsişməsində tolerantlığa və qarşılıqlı anlayışa əsaslanan əlaqələrin və kommunikasiyanın, məhsuldar iş şəraitinin və uğurlu biznesin yaradılması, biznes mühitində mədəniyyətlərarası münaqişələrin tənzimlənməsi, sahibkarların, menecerlərin və təşkilatda fəaliyyət göstərən işcilərdə mədəniyyətlərarası bacarıqlarının inkişafı və fərqli işgüzar mədəniyyətlərdə dəyərlər sisteminin araşdırması aid edilə bilər. Bu vəzifələrin birləşməsi mədəniyyəti bir effektiv resurs kimi istifadə etməyə imkan verir.

Müasir dövrdə beynəlxalq biznes fəaliyyətinin təşkili zamanı mədəni mühitin təhlili özünü üç əsas mərhələdə əks etdirir. Birinci mərhələdə tədqiqatın əsas məqsədi milli dövlətlərin mədəniyyət nümunələrinin öyrənilməsidir. İkinci mərhələdə isə beynəlxalq əmək bölgüsü prosesi ilə bağlı korporativ mədəniyyətlərin tipologiyasının təhlili durur. Qeyd olunan birinci və ikinci tədqiqat mərhələlərinin nəticələri milli mədəniyyətlərin təşkilati mədəniyyət növlərinə nə kimi təsiri olduğunun aşkarlanmasına imkan verir. Bu baxımdan, iqtisadi səmərəliliyi artırmaq üçün korporativ mədəniyyətlərin öyrənilməsi, insanların dil, din, mədəniyyət və milli mentalitetlərinin xüsusiyyətlərinin tədqiqi zəruri xarakter daşıyır. Üçüncü mərhələdə yeni yanaşmalar yaranmağa başladı. Mədəni xüsusiyyətlər və mədəniyyətlərin qarşılıqlı əlaqəsi, mədəniyyətlərin inteqrasiyası məsələsi daha qabarıq xarakter almışdır. Mədəni müxtəliflik üzrə tədqiqatlar Hofstede ve Trompenaars'ın, E. Holl kimi alimlərin araşdırmalarına əsaslanırdı [4.s 135]. Mədəniyyətin təşkilatların fəaliyyətinə və beynəlxalq mühitdə menecerlər üçün vacib bir amilə cevrilməsinə gətirib cıxarmışdır[3,s 45].

Bəs görəsən beynəlxalq menecerlər mədəni müxtəliflikdən qaynaqlanan təhdidləri vəya imkanları necə müəyyən edirlər? və necə qərar verirlər?. Çavab olaraq - "sadəcə daha çox mədəniyyətlərin öyrənilməsi" yalnış olardı. Çünki mədəniyyətin biznesə təsiri heç zaman sabit olaraq qalmır və bu baxımdan da onun istehlakçı davranışına təsirinin dəqiq proqnozlaşdırılasını olduqca çətin edir.

Bundan əlavə, bir sıra digər amillərin də təsirini nəzərə almaq lazımdır. Bunlara sosial və işgüzar mühit, sənaye və təşkilati maraqları, qeyri-verbal ünsiyyət, idarəçi insanların şəxsi keyfiyyətləri və.s., kimi məsələlərə də önəm verilməlidir. Bu baxımdan, mədəni müxtəliflikdən qaynaqlanan hər hansı bir biznes probleminin həlli yolu kimi beynəlxalq menecerlər ilk öncə priorotet olan mədəni fərqi müəyyən etməlidirlər.

Müxtəlif mədəniyyətlərdən olan insanlar eyni əsas məhsuldan istifadə edərkən belə, istehlak rejimi, istifadə şərtləri, istifadənin məqsədi və ya məhsul atributlarının qavrayışları o qədər fərqlənə bilər ki, məhsulun təqdimatı, yerləşdirmə və tanıtma üsulları, məhsulda fərqli bazarların xüsusiyyətlərinə uyğun olaraq dəyişməni zəruri edə bilər. Məsələn, Hindistan krevetlərinin əsas ixrac bazarını ABŞ və Yaponiya təşkil edir. Lakin, bu iki bazarda məhsulun şatış atributları fərqlənir. ABŞ bazarında düzgün çəki və bakterioloji amillər daha vacib olduğu halda, Yaponiyada eyni məhsula olan tələb krevetin göz almacığının ölçüsü, rəngi, böyüklüyü və qablaşdırılması daha əhəmiyyətlidir.

Ölkələrarası dil müxtəlifliyi də beynəlxalq biznesdə bəzən ciddi problemlər yaradır ki, buda öz növbəsində hətta marka adının dəyişdirilməsini zəruri edir. "Chevrolet"in marka adı "Nova" ispan dilində "getmir" anlamını verir. Yapon dilində General Motors "balıqçı cəsədi" olaraq tərcümə olunur. Bəzi dillərdə Pepsi-Colanın şüarı "diri-diri gəl"- "qəbirdən çıxmaq" kimi tərcümə olunur [1].

Hətta rəng tonlarının da müxtəlif mədəniyyətlərdəki dəyərlər və inanclara əsasən əhəmiyyətli dərəcədə dəyişdiyini söyləyə bilərik. Belə ki, Hollandiyada mavi rəng tonu qadınlara xas və isti ton hesab olunursa, İsveçdə bu kişilərə xas olan və soyuq ton sayılır. Yaşıl - müsəlman dünyasınını ən sevimli rəngdir, lakin Malayziyada xəstəliklə əlaqələndirilir. Ağ rəngi Çin və Koreyada ölüm və matəm olduğunu göstərdiyi halda bir çox digər ölkələrdə xoşbəxtliyi ifadə edir.

Eyni zamanda müxtəlif mədəniyyətlərdə zamana olan münasibət də fərqlidir. Belə ki, monoxrom mədəniyyətin nümayəndələri üçün biznesdə zaman (vaxt) vacib amil hesab edildiyindən iş ardıcıllığına konsentrasiya zamanın planlı bölüşdürülməsinə əsaslanır. Monoxrom mədəniyyətin nümayəndələri adətən son dərəcə punktuallıqla fərqlənirlər. Onların şüarı: "Vaxt - puldur". İşgüzar səhər yeməyinə gecikmək, işgüzar protokolun pozulması kimi başa düşülür. İş qrafikinin pozulması şəxsin və ya işçi qrupunun vəzifələrinin öhdəsindən gələ bilməməsi, bəzi hallarda - peşəkar olmaması kimi də qəbul edilə bilər. Monoxrom mədəniyyətlərdə aydın və dəqiq məlumatlar yüksək qiymətləndirilir. Bu mədəniyyət növünün nümayəndələri, mücərrəd mövzulara diqqəti cəlb etməklə işlərin uzun müzakirələrinə meylli deyillər. Peşəkar və şəxsi həyat sahələrinin aydın şəkildə ayrılması monoxron mədəniyyətlərin nümayəndələrinə xas xüsusiyyətdir. Həmkarları ilə etibarlı münasibətlərin qurulması ikinci dərəcəli, nəticəyə nail olmaq isə birinci dərəcəli iş olaraq qiymətləndirilir. Bu mədəniyyətin daşıyıcılarına İngiltərə, Almaniya, ABŞ, Kanada və s. ölkələri aid etmək olar.

Bərabərlik prinsipinin üstünlük təşkil etdiyi və şəxsi münasibətlərin qəbul edilmədiyi monoxrom mədəniyyətdən fərqli olaraq, polixron mədəniyyətdə şəxsi münasibətlər çox vacib rol oynayır. Çox sayda şəxsi əlaqəsi olan insanlar həyatda böyük uğurlar qazana bilər düşüncəsi polixrom mədəniyyətə xas xüsusiyyətdir. Polixrom mədəniyyətə Asiya, Latın Amerikası və ərəb ölkələri aid edilr. Bu ölkələrdə eyni vaxtda bir neçə işlə məşğul olmaq normal sayılır.

Qeyd etmək lazımdılr ki, mədəniyyət və biznes arasında əlaqə və qarşılıqlı təsir mədəniyyətlərarası problemlərin spesifik "dəyişənlərinin" müəyyənləşdirilməsinə əsaslanır. Bu "dəyişənlərə" dil, din, cəmiyyətin sosial tərkibi, dəyərlər və münasibətlər, təhsil və texnologiya, hüquq və siyasət, coğrafi və iqtisadi tərəqqi səviyyəsi daxildir.

Din, mədəniyyətin bir elementi olaraq, insanların və cəmiyyətin iqtisadi fəaliyyətinə təsir göstərir: fatalizm insanların fəaliyyətinə təsir edə bilər, maddi sərvət mənəvi zənginləşməyə maneə kimi qəbul edilə bilər və s. Əlbəttə, təkcə din ölkənin iqtisadi inkişaf səviyyəsinə təsir etmir, ancaq bir millətin mədəniyyətini başa düşmək üçün dini cəhətləri və milli xarakterin formalaşmasına təsirini də nəzərə almaq vacibdir. Dünya Bankı tərəfindən aparılan bir araşdırma din və ümum daxili məhsul arasında əlaqənin mövcudluğuna bariz nümunədir. Belə ki, ÜDM-in ən yüksək göstəricisi protestant xristian cəmiyyətlərində olduğu qeyd olunur. İkinci yerdə Buddizmi təbliğ edən cəmiyyətlər durur. Ən kasıb isə Cənubi Buddist və Cənubi Hindus cəmiyyətləri qeyd edilir.

Eyni zamanda müxtəlif dünyagörüş və düşüncələrində idarəetmə praktikasına birbaşa və ya dolayı yolla təsirinə nəzərə almaq lazımdır. Bariz nümunə kimi şəriət qanunlarından kənara çıxma-

yan maliyyə əməliyyatları həyata keçirən İslam banklarıdır. Bəzi hallarda, dini qurumlar dini prinsiplərdən istifadə edərək insanların gündəlik həyatlarını da müəyyənləşdirir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq söyləmək lazımdır ki, mədəni müxtəlifliklərin beynəlxalq biznesə təsirini müəyyənləşdirmək və lazımi həlli yollarını tapmaq kimi məsələlər beynəlxalq menecerlərdə xüsusu bacarıqların formlaşadırılmasını və olmasını zəruri edir. Bacarıq - qarşıya qoyulmuş məqsədə çatmaq üçün əlaqəli davranışların ardıcıllığını nümayiş etdirmə qabiliyyəti kimi təyin olunur. Xarici biznes fəaliyətinin uğurlu təşkili bir çox hallarda beynəlxalq menecerlərdən kross-mədəni yəni mədəniyyətlərin müqayisəvi təhlilini aparmaq bacarıqlarına malik olmağı tələb edir. Qeyd etmək lazımdır ki, kross-mədəni təhlil bir yanaşma (model) olaraq ümumi tətbiqetməyə malikdir və yalnız bir mədəniyyət ilə məhdudlaşmır. Menecerlər mədəniyyətlərin bərabərliyi hüququndan çıxış edərək dəyər kriteriyalarına görə mədəniyyətləri qarşı-qarşıya qoymaq cəhdlərini, başqa mədəniyyəti aşağılayan sözlərə, hərəkətlərə, simvolik işarələrə, həmcinin öz mədəniyyətini daha üstün tutaraq etnosentrik yanaşmalara yol verməməlidirlər.

Lakin qeyd etmək lazımdır ki, hazırki bir sıra tədqiqatlar iqtisadi inkişafın və qloballaşmanın millətlərin mədəni dəyərlərinin və etik normalarının dəyişməsinə təsir edən önəmli amillər oldüğünü irəli sürürlər. Belə ki, müllətlərin iqtisadi tərəqqisinin artması və zənginləşməsi mədəni dəyərlərin transformasiyasına səbəb olur, çünki iqtisadi tərəqqi bir sıra digər amillərə təsir edir və bu da öz növbəsində mədəniyyətə təsir göstərir. Məsələn, artan şəhərləşmə yəni urbanizasiya prosesi, təhsilin keyfiyyətinin və əlçatanlığının artması iqtisadi inkişafın göstəriciləri kimi kənd cəmiyyətlərinə xas ənənəvi dəyərlərə müəyyən zaman sonra diqqətin azalmasına və itməsinə səbəb ola bilər. Belə ki, Miçiqan Universitetinin Sosial Tədqiqatlar İnstitutu tərəfindən əlaqələndirilən, "Dünya Dəyərlərinin Araşdırılması" kimi tanınan 78 ölkədə dəyərlərin 25 illik araşdırması dəyərlərin necə dəyişdiyinin sübut edir. Tədqiqatın nəticələri cəmiyyətdəki mədəni dəyərlərin dəyişməsi ölkənin iqtisadi inkişaf səviyyəsindəki dəyişikliklərlə əlaqəli olduğunu göstərir. Bu araşdırmaya görə, ölkələr zənginləşdikcə din, ailə və ölkələrin ənənəvi milli dəyərlərinin "dünyəvi rasional" dəyərlərə doğru inteqrasiyası və dəyişikliyi baş verir.

ƏDƏBİYYAT

1. International busıness by Dr. R. Chandran; Delhi, India: Jaico Publishing House, 2006
2. Challenges and Opportunities in International Business, Andy Schmitz, 2012, (http://lardbucket.org)
3. Understanding cross-cultural management. Browaeys, Marie-Joelle. 2015. 477p.
4. Deresky, Helen. International management : managing across borders and cultures : text and cases / Helen Deresky. — 8th ed. Pearson Education 2012 pages 345
5. Mead, Richard. International management: culture and beyond / Richard Mead and Tim G. Andrews. England 2009 pages
6. Internatıonal Busıness Management by Mr. SURESH KUMAR.M Assistant Professor, Sasurıe College Of Engıneerıng, 2014
7. Alican Abbasov, Biznesin əsasaları, Bakı, "Nurlan- 2005" il , Səh 656
8. Həsənov Niyazi, Beynəlxalq Biznes, Bakı 2013, Səh 332,

Günel TEYMUROVA
AzerbaycanTurizm və Menecment Universiteti,
müəllim
ecrin_eyvazli@live.ru

Müasir şəraitdə sosial investisiyaların hüquqi normativ bazasının təkmilləşdirilməsi

Совершенствование правовой базы социальных инвестиций в современных условиях

İmprovement of the legal base of socıal ınvestments ın modern condıtıons

Xülasə: İnvestisiya iqtisadiyyatın ayrılmaz hissə kimi görülməkdədir. Bu da inkişaf etmiş ölkələrin strategiyalarının ilk mərhələlərində öz yerini alır. Sosial investisiya ölkənin inkişafında və sosial rəfahın yük-

səldilməsində əhəmiyyətli rol oynayır. Bunun üçündə ölkəmizdə investisiya cəlb olunması üçün bir çox tədbirlər görülür. Sosial investisiyaların hüquqi normativ bazasinin təkmilləşdirilməsində bir çox strateji yol xəritəsi hazırlanmışdır.

Açar sözlər: İnvestisiya, Sosial investisiya, hüquqi baza, strategiya, risk

Резюме: Инвестиции рассматриваются как неотъемлемая часть экономики. Это также на ранних этапах разработки стратегий развивающихся стран. Социальные инвестиции играют важную роль в развитии страны и росте социального обеспечения. В результате принимается ряд мер по привлечению инвестиций в нашу страну. Был разработан ряд стратегических дорожных карт для улучшения нормативно-правовой базы для социальных инвестиций.

Ключевые слова: инвестиции, социальные инвестиции, правовая база, стратегия, риск

Abstract: Investment is seen as an integral part of the economy. It is also in the early stages of developing countries' strategies. Social investment plays an important role in the development of the country and the growth of social welfare. As a result, a number of measures are being taken to attract investment in our country. A number of strategic roadmaps have been developed to improve the regulatory framework for social investment.

Keywords: Investment, Social Investment, Legal Base, Strategy, Risk

Hal hazırda Azərbaycanın iqtisadiyyatının inkişafında bir çox ölkələrin transmilli şirkətləri tərəfindən birbaşa investisiya etmələrinin böyük təsiri vardır. Digər ölkələrdən bizim ölkəyə investisiya daha çox neft sahələrinə olması bu sahələrdə ixrac potensialı yüksək olmuşdur.


Azərbaycan Respublikasının bugün apardığı islahatlara görə cəlb olunan xarici investisiyaların gün gündən artması və onun işləmə metodunda hüquqi tənzimləmə, iqtisadi sahənin formalaşması, əsasən dolaylı olmayan yollarla investisiya qoyuluşlarına səbəb olmuşdur. Həm ölkəmizdə xarici investorların hüquqlarının qorunması ilə bağlı qanunlar sadələşərək əl çatan olmuş, həm də beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Beləliklə bunlara aid hazırlanmış qanunlar yerli məhkəmə və daxili orqanların xarici investisiyaların fəaliyyətindəki qanuni işlərə müdaxiləsi üzrə cavabdehliyi demək olar ki, sıfıra endirilmiş və ölkəmizin iqtisadi sahəsində, investisiya haqqında məlumatları almaq asandlaşdırılmışdır. Ölkədə xarici investisiyalar üçün görülən hüquqi işlər (bank əməliyyatları və onun maliyyələ işlərinin operativliyi) beynəlxalq səviyyəyə qədər yüksəldilmişdir.

Bir ölkənin iqtisadiyyatına investsiya cəlb olunmadıqda onun inkişafının artması mümkünsüzləşir. Xarici investisiyanın ölkəyə verdiyi faydalarını aşağıdakı kimi sıralamaq olar:

- Məhsul çeşidinin artması;
- İstehsal strukturunun yenidən qurulması və inkişaf etdirilməsi;
- texnologiyanın surətləndirilməsi;
- istehsal sahəsində istifadə olunan xammal bazasının yaradılması;
- bütün sahələrin inkişafı və habelə digər sosial problemlərin həlli;
- işsizlik probleminin aradan qaldırılması;
- ətraf mühitin mühafizəsi;
- dövlətin maraqlarının qorunması və bir sıra digər məsələlər.

Azərbaycan Respublikasının investisiya fəaliyyəti haqqında hazırladığı qanunda göstərildiyi kimi cəlb olunması üçün investorların hüquqlarının təminatı və onların qorunması, qoyduqları əmanətləri və ya əldə etdiyi əmanətləri, səhmlər və digər qiymətli kağızları, dövlətin qanununa uyğun olaraq aparıldıqda, investorların özlərinin səbəbi nəticəsində itirilən məbləğlər istisna edilməklə investorlara qaytarılır. İnvestisiyalar dövlət qanuna görə mütləq siğorta edilməlidir.(4)

Cənab prezidentinin apardığı uğurlu siyasəti nəticəsində ölkədəki siyasi sabitlik və iqtisadi inkişaf, digər ölkələrin Azərbaycan iqtisadiyyatına uzunmüddətli investisiya qoymaq üçün marağını daha da artırmışdır. Ölkə iqtisadiyyatına qoyulan investisiyalann artımı rəsmi statistik göstəricilərdə də öz əksini tapmışdır. Belə ki, 1996-2005-ci illər arasında ölkə iqtisadiyyatına 29,3 milyard dollar miqdarında investisiya qoyulubsa, 2006-2016-cı illərdə investisiya qoyuluşunun həcmi 203,7 milyard dollar təşkil etmişdir. (5).




Şəkil 1: Ölkə iqtisadiyyatına qoyulan investisiya milyon dollarla (https://www.stat.gov.az/)

Sosial investisiya, sosial və ətraf mühitə təsirini zəruri bir meyar kimi qiymətləndirən bir investisiya növüdür. Bu mənada, investisiya qoyulan layihələrin sosial və ekoloji həssaslığı layihələrin maliyyə qaytarılması qədər vacibdir.

Artan ətraf mühitin çirklənməsi və təbii yaşayış yerlərinin məhv edilməsi nəticəsində müxtəlif tədbirlər görülməyə başlandı. Bunun üçün istehlak və istehsalda davamlılıq anlayışı meydana gəldi. Yüksək məsuliyyəti olan insanlar istehlaklarında dayanıqlığa diqqət yetirir və investisiya qoyuluşlarında sosial məsuliyyətli investisiyalara üstünlük verirlər. İnvestisiya sahəsində sosial məsuliyyət; investisiya qərarı verərkən sosial məsuliyyət elementlərini, yəni ətraf mühit və sosial amilləri, habelə qayıdış və riskləri nəzərə almaqdır. İnvestorlar ətraf mühitin idarə edilməsi, istehlakçıların müdafiəsi, insan hüquqları; alkoqol, qumar, silah və tütün məhsulları istehsal edən müəssisələrə investisiya qoymamaq kimi ünsürlərə diqqət yetirməyə başlamışdırlar. Burada investor yalnız maliyyə meyarlarını deyil, eyni zamanda etik dəyərlərə də əhəmiyyət verməyə başlamışdır. Beləliklə, həm maliyyə qazancı, həm də davamlı mühit və sosial fayda nəzərə alınmaqla ideal bir investisiya etməyi əsas məqsəd kimi görməyə başlamışdırlar.

2000-ci illərin sonundan bu yanaşmanın ortaya çıxmasına baxmayaraq, dünyada getdikcə genişlənən belə investisiya yanaşmasına daha çox diqqəti özünə çəkmişdir.

Bu investisiya yanaşmasına görə yalnız ənənəvi investor "Qayıdış və Risk" amillərinə fokuslanmaqla yanaşı, investora təsir göstərisi də bu amillərə əlavə olaraq "Təsirin inkişaf amili" nə də əhəmiyyət verməyə başladılar. Beləliklə, bugun üçölçülü bir investisiya yanaşması modeli inkişaf etmiş ölkələr tərəfindən qəbul edilməyə bşlmışdır.(6)



Şəkil2: "Qayıdış, risk, təsir modullu sosial investisiya"(6, səh.5)

Sosial investisiyanın qoyuluşunda əsas məqsədləri belə sırılamaq olar:

- İnvestorun cəmiyyətə və ətraf mühitə müsbət təsiri və investisiya gözləntisi;
- Kapitalın qaytarılması və ya ən azı kapital itkisi yaratmaqla yanaşı təsir faktoru qoyuluşunun gözlənilməsi;

- Qiymət: Müxtəlif miqyaslarda yaranan dəyərin qiymətləndirilməsi (pul, müəssisə kapitalı, sabit gəlir və s.);
- Təsir faktorunun ölçülməsi: Məlumat, şəffaflıq və hesabatlılığa əsaslanaraq investor mütəmadi olaraq təsiri ölçür və uğurunu qiymətləndirmək üçün fəaliyyət meyarlarını inkişaf etdirir.

Sosial investisiya investorlara müxtəlif sosial və ekoloji problemlərin həllində töhfə verməkvə maliyyə nəticələrini əldə etmək üçün geniş imkanlar təklif edir. Bir çox fərqli investor sosial, ətraf mühit amilləri və müxtəlif maliyyə motivləri ilə böyüyən Sosial investisiya bazarında iştirak edir. Buna görə banklar, sosial təminat qurumları, maliyyə məsləhətçiləri və aktivlər menecerləri, həm fiziki şəxslərə, həm də korporasiyalara yeni müştəri kimi investisiya imkanları təqdim edə bilər. İnstitusional və ya ailə fondları; aktivlərini gücləndirə bilər. Dövlət investorları və ya çoxmillətli maliyyə təşkilatlarını özəl sektor investorları üçün gəlir mənbəyini təmin edəcəkdir.

Azərbaycan dövlətinin əsas vəzifələri kimi iqtisadi mühitdə investisiya qoyuluşlarının artırılması üçün müəssisələrin texniki bazanın keyfiyyətinin artırılmasına istiqamətli olaraq müasir texnologiyaya cavab verən avadanlıqlarla təmin edilməsini və bu istiqamətdə işlər aparılmaqdadır. Məhz buna görə də ölkədə keyfiyyət standartlarını artırmaq üçün beynəlxalq sertifikatlar üzrə yeniliklər edilməkdədir. Bu da investisiya sahəsinin formalaşmasına səbəb olmaqdadır. Xaricdən qoyulan kapital iqtisadi strukturu təkmilləşdirir və əhəmiyyətli keyfiyyət dəyişiklikləri həyata keçirilir.

Bir ölkənin inkişafı təhsil, əhalinin planlaşdırılması və qoyulan investisiyadır. Şüurlu bir cəmiyyət, ilk növbədə, inkişafımız üçündür. Şüur müasir təhsil sayəsində qazanılır. Təhsil universitetlərin sayını artırmır və savad səviyyəsini artırmır. Təhsilin müasir mənası "insanların davranışını dəyişdirmək üçün təhsil metodunu müasirləşdirmək lazımdır."

Əhalinin artması işsizlik və sosial problemləri daşıyır. Bunun həlli yolu isə xarici investorların cəlb olunmasıdır.. Bir investisiyanın geri dönüş müddəti ən azı 5 ildir.

Sosial rəfah üçün investisiya sonrası qazanclar əks olunmalı və bölüşdürülməlidir. İnvestisiya üçün ən vacib şərtlər; sabit bir siyasi quruluş, uyğun və tez-tez dəyişməyən investisiya ilə bağlı qanunvericilik və investisiya təhlükəsizliyi dövlət tərəfindən verilməsidir.

Ölkəmizin şərtləri daxilində yeni investisiyalar cəlb etmək və ya mövcud olanları genişləndirmək üçün investisiya artırılmaqdadır.

Ümumiyyətlə bir şirkətin qurulması üçün ən azı 2,5 ay çəkir və bir neçə mərhələdən ibarətdir. Bunlardan birinci olaraq ixtiaslı kadrların cəlb olunmasıdır ki bu da xaricilər üçün işə icazə sistemi düzgün işləməsi və qanuni iş şəraitinin tətbiq olunması investorlara çətinlik törətməməlidir. Ərazi təmini isə dövlət ərazisi əldə etmək və investisiya yeri halına gətirmək üçün lazımlı bütün icazələrin alınması, təsdiq əməliyyatlarının tamamlanmasıda uzun bir zaman almamalıdır. Bir investisiyada vergilər və güzəştlər: Korporativ vergi dərəcəsi digər ölkələrin təcrübələri ilə müqayisədə yüksək olmamalı və hərtərəfli investisiya təşviqi və təşviq sistemi istənilən səviyyəyə gətirilməlidir.

Ölkədə xarici investisiyaların cəlb olunması üçün bu kimi tədbirlər alınmaqdadır:

- Ölkəyə investorların cəlb olunması üçün görülən tədbirlərin artırılması;
- Ölkədə müasir texnologiyalı avadanlıqlarla təmin edilməsi üçün xaricdən yeni avadanlıqların gətirilməsi;
- İxrac yönümlü sahələrə investisiyaların cəlb olunması;
- Xidmət sahəsində investisiya hüquqlarının təkmilləşdirilməsi ;
- Beynəlxalq hesabat sisteminə uyğunlaşdırılması kimi.(3)

Azərbaycan Respublikasında kısa bir zamanda yerli və xarici sahbikarların bərabər hüquqa sahib olması üçün iş şəraiti yaradılması ilə bağlı yeni qanunlar qəbul edilmişdir.

Ölkədə investorlardan tutulan vergilərin azaldılması və təşvi edilməsi üçün bir çox imzalar atılmışdır.

Ölkədə xarici ölkələrlə aparılan ticari fəaliyyətlərdə ortaq valyutanın tətbiq edir. Bu da investorların bu ölkəyə investisiya etmək üçün kapital ayırmağa maraq yaratmışdır. Ölkədə artıq neft sektorundan sonra bu sahəyə daha çox diqqət ayrılmışdır.

Rəqabət bazarında şəffaflığı yaratmaq və bazarda qiymətlərin tənzimlənməsi üçün Nazirlər Kabinetinin 31 yanvar 2002-ci il tarixli qərarı ilə «Azərbaycan Respublikasının Tarif Şurası» yaradılmışdır.

Bugünə qədər Türkiyə, ABŞ, Fransa, İngiltərə, Çin Xalq Respublikası, İran İslam Ölkəsi, İsveçrə, Hollandiya və başqa ölkələrin investorları Ölkəmizdə öz iş yerlərini qurmuş, 51 faizə qədər olan məbləğdə kapital ayırmışdırlar.

ƏDƏBİYYAT

1. S.Z.İsayev İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi. Dərs vəsaiti. Bakı: "İqtisadi Uniersiteti" Nəşriyyatı, 2011.-188səh
2. H.B.Allahverdiyev "İnvestisiya Proseslərinin Tənzimlənməsi" (dərslik) B a k ı – 2003, -71 səh.
3. https://www.economy.gov.az/article/state-investment-policy/21347
4. http://www.e-qanun.az/alpidata/framework/data/9/f_9367.htm
5. https://www.stat.gov.az/
6. Elis Mutlu,"Kentsel Vizyon Platformu"Ocak, 2016
7. Sornarajah, M., "The International Law on Foreign Investment", Third Edition, Cambridge University Press, New York, 2011, s.10.

Yusif HÜSEYNLİ
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
huseynliyusif007@gmail.com

Dünya turizm bazarının ölkə iqtisadiyyatına təsiri

Влияние мирового туристического рынка на экономику страны

The influence of universal tourism market to the state economy

Xülasə: Turizm, insanların daimi yaşayış yerlərini tərk edərək,səyahət və ya getdikləri yerdə müvəqqəti qalmaqlarından meydana gələn ehtiyaclarının qarşılanması ilə əlaqəli bir fəaliyyət növüdür.Qədim tarixə baxsaq insanlar hər bir dövrdə müxtəlif səbəblərə görə səyahət etdikləri üçün turizm yeni bir hadisə deyildir. Son illərdə bu proses daha da inkişaf tempini artırmış,rifah səviyyəsinin artması,adambaşına düşən gəlirin və asudə vaxtın çoxalması insanlarda turizmə olan marağı artırmışdır.Bunun nəticəsi olaraq turizm ticarət, dini, hərbi məqsədlərdən çox fərqli bir istiqamət üzrə yönəlib, 20-ci yüzillikdən sosial və iqtisadi xüsusiyyətə malik olmuşdur.

Açar sözlər: ölkə iqtisadiyyatı,turizm,daxili turizm,xidmət,turizm məhsulu,səyahət.

Резюме: Туризм - это вид деятельности, который направлен на удовлетворение потребностей людей, покидающих места постоянного проживания, с целью путешествий или временных пребываний. Туризм не является новым явлением, поскольку и в древние времена люди путешествовали по различным причинам. В последние годы увеличились темпы развития данного процесса: повысилось благосостояние населения, увеличение подушевного дохода населения и свободного времени, повысил интерес к туризму у людей. С 20-го века туризм стал присваивать социальные и экономические качества. В результате чего туризм был ориентирован в совершенно ином направлении, чем коммерческое, религиозное и военное.

Ключевые слова: экономика страны, туризм, внутренний туризм, услуга, турпродукт, путешествие.

Abstract: Tourism is the action that was born in demand of people's leaving their permanent residences , visiting and looking for temporary places. If we will look through to the ancient history, Tourism is not modern event, because people were traveling at those times. In recent years, this process is progressed its tempo, developmental state because salary for per-person, leisure time and people's interest to the tourism is high. As its result, Tourism is directed to the different positions instead of religioned, armed and business. Since 20th century, Tourism had economical and social features.

Key words: state economy,tourism,internal tourism,service,tourism output,travel

Turizm sahəsi iqtisadi inkişafın əsasını təşkil edir.Digər sahələrdən fərqli olaraq iqtisadiyyatın inkişafı üçün turizm bir çox üstünlüklərə malikdir.Turizm üçün edilən yatırım qısa bir müddət ərzində öz xeyrini verir,qoyulan kapital yüksək dövretmə əmsalına malikdir. İqtisadi cəhətdən baxsaq turizmin cəlbediciliyi xidmət sahələrinin qısa müddət ərzində özünü doğrultmasında və gəlirin konvertasiyası mümkün olan valyuta şəklində alınmasındadır. Bu xidmət sahəsində proseslərin əksəriyyəti avtomatlaşmışdır, yeni texnologiya tətbiq olunur. Buna baxmayaraq turizm sahə olaraq daha çox işçi qüvvəsi tələb edir. Bir nəfər əcnəbi turistə yüksək səviyyədə xidmət göstərməkdən ötrü çoxlu iş yeri lazımdır. Turizm bu formada işsizlik problemini həll edir. Dünyada beynəlxalq turizm sahəsində 300 milyondan çox iş yeri fəaliyyət göstərir. Turizmin cazibədarlığı digər sahələrdə də özünü biruzə verir. Xırda sərmayə ilə turizm biznesini başlamaq olar. Turizm xidmətlərinə dayanmadan ehtiyat artır, turizm təsərrüfatı yüksək rentabelliklə fəaliyyət göstərir, turizmdən əldə olunan gəlirin həcmi turistlərin sayından sürətlə artır. Servisin səviyyəsi artdıqca, xidmətlərdən əldə olunan gəlirin miqdarı da artır. Digər məhsullardan fərqli olaraq, turist məhsulunun ixracı başqa malların ixracından fərqlənir. Nəzərdə tutulan başqa malları ixrac edən zaman əlavə nəqliyyat xərclərini çəkib, ixrac olunan mal alıcıya çatdırılır. Lakin turizm məhsulunun ixracında turist özü gəlir, turist məhsulundan yararlanır, əlavə özü üçün çoxlu mallar alır, yeni təəsürat qazanır, dincəlir və öz ölkəsinin valyutasını xərcləyir.

Ölkə iqtisadiyyatına turizm sahəsi o vaxt müsbət təsir göstərir ki,iqtisadiyyatın digər qolları ilə nisbətfə hərtərəfli inkişaf eləsin,əks halda ölkənin iqtisadiyyatı yalnız xidmətlərin inkişafı ilə məhdudlaşır.Başqa sözlə deyə bilərik ki, turizm bir sahə kimi özün o zaman göstərir ki,başka sosial-iqtisadi komplekslərlə paralel inkişaf edir.Bunun mühüm müsbət cəhətləri aşağıdakı bəndlərdə göstərilmişdir:

1. Valyuta gətirir(xarici ödəmələr-xarici ticarət balansına təsir göstərir)
2. Milli gəlirin artmasında mühüm rol oynayır.
3. İqtisadiyyatı və onunla paralel digər sektorlar inkişaf edir.
4. İş yerləri çoxalır.
5. İstehsal və istehlak artır
6. Ölkənin çoğrafi və mədəni tanınmasında mühüm rol oynayır.

Daxili turizm ölkə iqtisadiyyatına necə təsir göstərir.

Bir ölkədə yaşayan insanların öz ölkəsi daxilində etmiş olduğları turizm məqsədli gəzintilər daxili turizm adlanır.Bir sözlə daxili turizm ölkə daxilində baş verən turizm hərəkətləridir.Məs: Bakıda yaşayan bir insanın Qubaya getməsi daxili turizm sayılır.

Daxili turizmin inkişafı ölkə iqtisadiyyatının artımında əsaslı rol oynayır. Ölkədə turizmin inkişafı, başqa sahələrin də inkişafına təkan verir. Daxili turizmin inkişafı xarici turizmin inkişafına da zəmin yaradır. Ona görə ki, daxili turizm ölkədə infrasutruktur meydana gətirir və həmin infrasutrukturdan ölkəyə gələn xarici turistlər də istifadə edir. Bundan başqa, daxili turizm ölkə daxilində siyasi və iqtisadi sabitlik əmələ gətirir. Siyasi sabitlik ölkədə ona görə möhkəmlənir ki, turizmdən əldə olunan gəlir əhalinin müxtəlif təbəqələri arasında görülən əmək müqabilində paylanır. Turizmdə isə bu qeyri-mümkündür. Turizm çoxlu iş yerləri yaradır. Turizm məhsulunu hazırlamaq üçün çox işçi qüvvəsi iştirak edir.

Ölkələrin beynəlxalq turizmdən daha çox pay əldə etmək üçün, xüsusilə son illərdə böyük səy göstərmələrinin əsas səbəbi bir tərəfdən turizmin ölkə iqtisadiyyatının inkişafına, digər tərəfdən cəmiyyətin rifah səviyyəsinin yüksəlməsinə göstərdiyi böyük təsirdir. Beləliklə, daxili və xarici turizm iqtisadiyyata, mədəniyyətə və cəmiyyətə daha çox təsir edərək, ölkəyə çox istiqamətli faydalar gətirməkdədir. Digər tərəfdən, hər hansı bir ölkədə turizm potensialının yüksək olmasına baxmayaraq, turizmi inkişaf etdirmək üçün aşağıdakı bəndlərdə göstərilmiş amillərə ehtiyac vardır.

1. Nəqliyyat xidməti
2. Müasir tipli müəssisələr və infrasturuktur.
3. Peşəkar kadr
4. Gəzinti səfərlərinin təşkili
5. Reklam və tanıtdırma və s.

Ölkə turizminin inkişafını artırmaq və turizm gəlirlərini çoxaltmaq üçün, bu amillərin həll edilməsi vacib məsələlərdəndir.

Ökədə turizm bazarına daxil olan yeni müəssisələrinin diqqət etməsi və müştəri cəlb etməsi üçün ilk etmə olduqları adımlar:

1. Turizm bazarının marketinq araşdırması
2. Yaradılacaq müəsisənin adı
3. Yaradılacaq məkanın rəngi və dizaynı
4. Əyləncə və animasiya imkanları

Xüsusilə son dövrlərdə rifah səviyyəsi yüksək, adambaşına düşən milli gəliri çox olan qabaqcıl və inkişaf etmiş ölkələrin hamısı turizmə ağırlıq verən ölkələrdir. Buna nəzərən, təbii sərvətləri çox olsa belə, inkişaf etməmiş ölkələr isə, turizm potensialı yaxsı dəyərləndirilməmiş, turizm gəlirləri az olan ölkələrdir.

Nəticədə, inkişafın ən mühüm göstəricilərindən biri, turizm müəssisələrinin ölkə daxilində planlı yerləşməsidir. Bu səbəblə, ölkənin perspektivli turizm sərvətlərinin dəyərləndirilməsi və inkişafın ölkə səviyyəsində paylana bilməsi üçün turizm müəssisələrinin lazım olduğu bütün regionlara planlı səviyyədə yerləşdirilməsi zəruridir.

ƏDƏBİYYAT

1. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyati və idarə olunmasi Baki: "Iqtisad Universiteti" Nəşriyyati, 2010,529 səh.
2. https://www.arxiv.mtk.az/Uploads/Ebooks/turizm

Gülnar ƏHƏDOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
gulnaraahmedova1995@mail.ru

Müəssisələrdə françayzinq sisteminin mahiyyəti

Сущность франчайзинговой системы на предприятиях

The essence of the franchise system in enterprises

Xülasə: Françayzinq (və ya franşiza) bir şirkətin əmtəə nişanının, firma texnologiyalarının, idarəetmə sisteminin istifadə etmə hüququnu müəyyən şərtlərlə, başqa şirkətə satışı və ya müvəqqəti təqdim edilməsidir. Burada birinci şirkət tərəf, bu hüququ verən françayzer, hüququ alan tərəf isə françayzi adlanır. Tərəflər kommersiya təşkilatları və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarlar olar bilər. Françayzinq, françayzer və françayzi arasında yaradılan şəffaf münasibətlər sistemidir. Bir nüansı da, qeyd etməliyəmki, françayzerlər əsasən böyük şirkətlər, françayzilər isə kiçik şirkətlər və ya fərdi sahibkarlar olurlar. Belə bir sistemin tətbiqinin hər iki tərəf üçün böyük faydaları var. Təqdim olunan mal və xidmətlərin satışının daha asan həyata keçirilməsi və bu zaman risk səviyyəsinin aşağı olması françayzerlər üçün ən başlıca faydalardır.

Açar sözlər: Françayzinqin Mahiyyəti, Françayzinqin Tətbiqi Üsulları, Françayzinqin Biznes Sahələri, Françayzinqin İqtisadi Mahiyyəti, Françayzinqin Ənənəvi Növləri

Резюме: Франчайзинг (или франшиза) - это продажа или временная передача прав одной компании на использование товарного знака, фирменной технологии или системы управления при определенных условиях. Здесь первая компания называется франчайзи, которая ее предоставляет, а франчайзи - франчайзи. Сторонами могут быть коммерческие организации или индивидуальные предприниматели, занимающиеся предпринимательской деятельностью. Франчайзинг - это прозрачная система отношений между франчайзи и франчайзи. Дело в том, что франчайзеры - это в основном крупные компании, а франчайзи - это небольшие компании или индивидуальные предприниматели. Внедрение такой системы имеет большие преимущества для обеих сторон. Основными преимуществами франчайзи являются более легкий доступ к продажам товаров и услуг и меньший риск.

Ключевые слова: Сущность франчайзинга, приложения франчайзинга, сферы бизнеса франчайзинга, экономическая сущность франчайзинга, традиционные франчайзи.

Abstract: Franchising (or franchise) is the sale or temporary transfer of the rights of one company to the use of a trademark, firm technology or management system under certain conditions. Here the first company is called the franchisee who gives it, and the franchisee is called the franchisee. Parties may be commercial organizations or individual entrepreneurs engaged in entrepreneurial activities. Franchising is a transparent system of relationships between franchisee and franchisee. The point is that franchisors are mostly large companies, and franchisees are small companies or individual entrepreneurs. The implementation of such a system has great benefits for both parties. The franchisee's main benefits are easier access to sales of products and services and lower risk.

Keywords: The Essence of Franchising, Franchising Applications, Business Areas of Franchising, The Economic Essence of Franchising, Traditional Franchisees.

Yerli və xarici iqtisadçılar, müasir dövrdə iqtisadiyyatın qloballaşması prosesinin meqatrend olduğunu qəbul edirlər. İqtisadi sistemlərin qlobal iqtisadiyyata inteqrasiyası nəticəsində mal, xidmət, məlumat, insanların fikir mübadiləsi axınının intensivliyi və dərinliyi artır. İqtisadi qloballaşma qlobal iqtisadi inteqrasiya və birləşmə prosesidir. İqtisadi tərəqqi yeniliyə əsaslandıqca, zəngin ölkələr daha da zənginləşir. Son onilliklərdə əhalisinin ümumi əhalinin nisbətən kiçik bir hissəsini təşkil edən çox kiçik ərazilərdə sərvət, bilik, texnologiya, insan kapitalının cəmləşməsinə dair açıq bir tendensiya gördük. Az inkişaf etmiş ölkələrin iqtisadiyyatlarının bulanıq sərhədlərini nəzərə alaraq, böyük pul və intellektual ehtiyatlara sahib olan inkişaf etmiş ölkələrin iqtisadiyyatı ilə rəqabət aparmaq iqtidarında deyillər. Daxili iqtisadiyyat istər-istəməz xarici şirkətlərin sərt rəqabəti ilə üzləşəcəkdir.

İnkişaf etmiş post-sənaye ölkələrində (ABŞ, Almaniya, Yaponiya) kiçik və orta sahibkarlar ümumi işçilərin 52% -dən 78% -ə qədərini cəlb edir. Rusiyada bu göstərici daha aşağıdır, Rosstata görə, 2011-ci ilin əvvəlinə kiçik biznesdə işləyənlərin ümumi sayı 11,9 milyon nəfər və ya iqtisadi fəal əhalinin təqribən 16,7% -i hesablandı [6, s.21].

Bazarın "təkamül yolu ilə" yaxınlaşdığı cari problemin əsl həlli, biznesin (ticarətin) mövcud strukturunu mənimsəməklə pərakəndə zəncirlərin birləşdirilməsidir. Bazarın az sayda güclü oyunçusunun xarici şirkətlərlə qarşıdakı rəqabətdə yaşamaq şansı var. Eyni zamanda, biznes reklamı dəstəkləməklə, onsuz da sübut olunmuş marketinq texnologiyalarından istifadə etməklə və hətta kiçik həcmli alışlar olsa da tədarükçülərə ilk əlçatanlığı təmin etməklə bəzi fəaliyyətləri qorumaq və hətta inkişaf etdirmək bacarığını qazanır.

Pərakəndə satış şəbəkələrinin sahibləri ilə kiçik sahibkarlar arasında əlaqələrin rahat sistemi françayzinqdir, bu zaman şirkət bir sahibkara bazar adı altında bazarda fəaliyyət göstərmək hüququ verir.

Françayzinqin yaranması və inkişafı tarixi Singer şirkətinin qurucusu və eyni adlı tikiş maşınının inkişaf etdiricisi Albert Singerin adı ilə əlaqələndirilir. Ancaq françayzinq anlayışı bundan xeyli əvvəl yaranmışdı.

Tədqiqatçılar françayzinq termininin mənşəyi ilə razılaşmırlar. Anglo-Norman dilində bunun kökləri olduğu bilinir. Ayrıca, bəzi alimlər termini fransızca "franc", digərləri ingilis dilində "free" sözünün kökü hesab edirlər, lakin hər iki termin sözün həqiqi mənasında "azad, vurğulanmış" deməkdir. Bir az sonra, orta əsrlər İngilis-Fransız dilində, "franch", "franchir" terminləri - azadlıq imtiyazı, nəyəsə hüquq aşkar olundu. Bu termin orta əsrlərdə ovçuluq, yarmarkalar keçirmək, bazar və ya liman ticarəti kimi yerli rəhbərlərdən imtiyaz almış şəxslərin vəziyyətini təsvir etmək üçün istifadə edilmişdir. O dövrdə françayzinq iqtidarda olanların ayrı-ayrı mövzulara üstünlük verdiklərini ifadə edirdi.

Sonra, şəxslərin və ya şirkətlərin ərazilərindəki hər hansı bir fəaliyyət növünə (pivə düzəltmə, yol tikintisi) müstəsna hüquqlar vermək üçün hökmdarların praktikasında françayzinq tətbiq olundu. Önəmli olan budur: franşiza almış şəxslər, adətən alınan məhsulun və ya qazancın bir hissəsi kimi ifadə edilən hüquqların qarşılığında müəyyən bir haqq ödəyirdilər. Bu ödəniş "royalti" (royalty) adlanırdı və bu gün demək olar ki, eyni formada istifadə olunur. Çox vaxt françayzinq gücləndirilmiş idarəetməyə ehtiyac duyulan sahələrdəki fəaliyyətlərlə əlaqələndirilirdi. Beləliklə, françayzinqin xüsusi lisenziyalaşdırma növünə dəyişdirildiyini söyləyə bilərik.

Françayzinq intensiv inkişaf edən və etibarlı bir biznesin aparılması üsuludur. Qlobal miqyasda françayzinq 100 ildən çox təcrübəyə malikdir. Bu əlaqələrin xüsusi biznesin aparılması tələbləri

var. İnkişaf etmiş iqtisadiyyatı olan ölkələrdə, milli xüsusiyyətlərə baxmayaraq, biznesin aparılması formaları olduqca sərt olaraq qalır. Azərbaycan da, şərtlərin bütün ciddiliyini və klassik xüsusiyyətlər prinsipini nəzərə alaraq, hələ də françayzinq texnologiyaları sistemində dəyişikliklər edir.

"Françayzinq" termini ingiliscə "franchising" - hüquq, imtiyaz, "franşiza" isə fransızca "franchise" – güzəşt, imtiyaz mənasındadır.

Franşiza anlayışına gəldikdə, 2002-ci ildə Beynəlxalq Fərdi Hüquqların Birləşdirilməsi Beynəlxalq İnstitutunun (UNIDROIT) mütəxəssisləri tərəfindən hazırlanmış franşiza haqqında məlumatların açıqlanmasının Model qanununda möhkəmlənmiş franşizanın bir tərəfin ötürdüyü hüquqlar toplusudur. Fançayzer tərəfindən digər tərəfə (franşizaya) eyni vaxtda françayziyə icazə verən və eyni zamanda birbaşa və ya dolayı maddi kompensasiya müqabilində françayzedə özləri üçün malların (işlərin, xidmətlərin) satışı ilə məşğul olmaq üçün öhdəliklər qoyur. Lakin françayzer tərəfindən hazırlanmış, nou-hau, françayzerdən kömək və bu franşiza biznesinin aparılmasının əsas üsullarını özündə cəmləşdirən sistemə görə, françayzerə məxsus ticarət nişanını, xidmət nişanını, şirkətin adını və ya loqotipini istifadə etmək hüququ françayzer tərəfindən ciddi davam edən nəzarəti də əhatə edir [12, s.46].

Beləliklə, "françayzinq" və "franşiza" anlayışları eyni səslənir və eynitiplidir və françayzerə məxsus eksklüziv hüquqlardan istifadə mexanizminə əsaslanan biznesin aparılmasına yönəlmişdir.

Mahiyyət etibarı ilə françayzinq, bir tərəfin (mal və xidmətlər bazarında adətən görünən imicə və yüksək nüfuza sahib olan şirkət) digər tərəfə (şirkət və ya fərdi sahibkar) istehsal etdikləri malların fərdiləşdirmə vasitələrini, yerinə yetirilən iş və ya göstərilən xidmətlər (ticarət nişanı və ya xidmət nişanı, firma stili), iş texnologiyası və digər tərəfin istifadə etdiyi digər kommersiya məlumatları böyüməsinə qatqı və malların və xidmətlərin bazar təyinat olacaq sistem rolunu oynayır.

Eyni zamanda, təhvil verən tərəf işin qurulmasına kömək göstərməyi, texniki və məsləhət yardımı göstərməyi öhdəsinə götürür. Hüquqları əldə edən tərəf, məqsədi françayzeri dəstəkləmək olan sahibkarlıq fəaliyyətində və göstərilən xidmətlərdə müstəsna hüquqlardan istifadə hüququ üçün ödənişlər edir (Şəkil 1.1).



Şəkil 1.1. Françayzinqin sxemi

Mənbə: Иванов Г.Г., Холин Е.С.Франчайзинг в торговле. М.: ИД Форум,2015, с.14

Françayzinq daimi əməkdaşlıq və tərəflərin yüksək etimadına, sistemdə iştirakçıların vahidliyinə, sahibkarlıq təşəbbüsünün yüksək səviyyəsinə, informasiya rabitə sistemlərinin, rabitə və marketinq vasitələrinin yaxşı işləməsi sisteminə, tərəflərə dəstək və uzunmüddətli kommersiya uğurlarına istiqamətlənməyə əsaslanır.

Koltunova O. hesab edir ki, françayzinq françayzinq müqaviləsi və digər əlaqəli müqavilələr əsasında münasibətlər sistemi olan sahibkarlıq fəaliyyətinin təşkili və aparılması üsuludur. Franşiza isə müqavilə əsasında ötürülən müstəsna hüquqlar məcmusudur [13, s.29].

Bu gün françayzinq 80-dən çox biznes sektorunda istifadə olunur. Biznes sektorlarının əsas qrupları bunlardır:

- restoran biznesi, ictimai iaşə müəssisələri;
- nəqliyyat müəssisələri və texniki xidmət stansiyaları;
- ev xidmətləri;

- məişət xidmətləri;
- biznes xidmətləri;
- əyləncə, səyahət, idman;
- sağlamlığın mühafizəsi;
- təmir-tikinti və dizayn xidmətləri;
- təhsil və profesional hazırlıq;
- pərakəndə ticarət.

Cədvəl 1.1-də françayzinq tətbiq olunan yerlərin sayının faizi və françayzinqin tətbiq olunduğu ən aparıcı sahələrdə artım dərəcəsi haqqında məlumatlar təqdim olunur (beynəlxalq reytinq) [14, s.22].

Cədvəl 1.1.Françayzinq sferasında aparıcı biznes sahələri

Biznes sahələri	Franşiza nöqtələrinin faizi	Sahələr üzrə artım faizi
Restoranlar	40	5
Biznesin bütün digər sahələri	21	16
Pərakəndə ticarət (riteyl)	18	-5
Paket qidalanma	8	9
Oteli	6	1
Rieltor xidmətləri	4	22
Avtoservis xidmətləri və icarəyə vermə	2	8
Turizm xidmətləri	1	31

Mənbə: Кац. Р.Б. Франчайзинг: построение предприятия, бухгалтерский учёт, правовые аспекты. ГроссМедия Ферлаг, 2010, с.17

Xarici ədəbiyyatda françayzinqin başqa bir təsnifatı təqdim olunur: Fransız müəllifi F.Bessi xidmət, bölüşdürmə (satış, ticarət) və istehsal (və ya sənaye) françayzinqini fərqləndirir.

Bu fərqləndirmə Avropa Birliyi Ədliyyə Məhkəməsi tərəfindən hazırlanan rəsmi qərarlara əsaslanır. Bu məhkəmənin 28 yanvar 1986-cı il tarixli 161 nömrəli qərarı ilə, françayzinq işlərindən birində xidmət françayzinq dedikdə, françayzerin təlimatlarına uyğun fəaliyyət göstərən françayzi, françayzerin marka adı və xidmət nişanı altında xidmətlər təqdim etdiyi müqaviləni bildirir. İstehsal françayzinqi, Məhkəmənin tərifinə görə, françayzerin təlimatlarına uyğun fəaliyyət göstərən bir françayzeri, françayzer markası adı altında satdığı məhsulları istehsal etdiyi bir müqavilədir.

Françayzinqin əsas anlayışları:

1. Franşiza - ticarət markası, ticarət nişanı və şirkət adı və əlaqəli texnologiyalar və nou-hau istifadə etmək hüququ.
2. Françayzer (franşiza verən) - tanınmış (regional, milli və / və ya beynəlxalq səviyyədə) və yaxşı qurulmuş bir ticarət markasına sahib olan və ticarət nişanından istifadə hüquqlarını müstəqil şirkətlərə ötürməklə şəbəkəsini inkişaf etdirən bir şirkət.
2. Françayzi (franşiza alan) - müəyyən şərtlərdə öz ticarət nişanını və əlaqəli texnologiyalarını müəyyən bir ərazidə istifadə etmək hüququnu əldə edən müstəqil şirkət və ya fərdi sahibkar. Françayzinin bir növü sub françayzinqlə məşğul olmaq, yəni françayzerin ticarət nişanından istifadə hüququnu ona verilən ərazidə yerləşən digər şirkətlərə satmaq hüququ olan master françayzidir.
3. İlkin (birdəfəlik) ödəniş - franşiza alarkən françayzerə verilmiş məbləğ. Françayzerin qazancının əsasını birdəfəlik ödəmə və qonorar təşkil edir. Birdəfəlik ödəmə ümumiyyətlə xidmətlərin göstərilməsi ilə sıx əlaqəli olan sahələrdə tətbiq olunur. Bunlar səyahət xidmətləri, gözəllik salonları, əmlak agentlikləri və s. Belə françayzinq françayzer üçün ən risklidir, çünki françayzinin ondan asılılığı minimaldır və buna görə belə tərəfdaşa nəzarət etmək çox çətindir. Beləliklə, böyük birdəfəlik töhfələr şəklində risklərə görə ödəniş edilir.
4. Royalti - françayzi tərəfindən şəbəkədə iştirak etdiyi üçün françayzerə edilən müntəzəm ayırmalardır. Onlar ya sabit bir məbləği, ya da françayzi dövriyyəsinin faizini təmsil edirlər.

Ənənəvi olaraq françayzinq aşağıdakı növlərə bölünür:

- satış,
- mal,

- sənaye,
- iş.

ABŞ françayzinq sahəsində tanınmış lider və bir çox ölkələrdə franşiza sistemlərinin ixracatçısıdır. Franşiza sistemlərindəki satış bir trilyon ABŞ dollarından çox qiymətləndirilən bütün pərakəndə satışların təxminən 40% -ni təşkil edir. Qabaqcıl yeri xidmət və ictimai qida sektoru tutur. Ən aktiv françayzinq sistemlərinə America Center (xidmətlər), Athlete's Foot (idman avadanlığı), Avis (avtomobil icarəsi), Baskin Robbins (dondurma), Burger King (ayaqüstü qidalanma), ERA (daşınmaz əmlak), Nail Boxes (poçt xidmətləri), McDonald's (ayaqüstü qidalanma), Midas (avtomobil xidməti), New Horizons (kompüter təlimi), Pizza Hut (ayaqüstü qidalanma), Quality Hotel (otellər) və s. daxildir.

Amerikan françayzing sistemləri dünyanın bir çox ölkələrində fəal inkişaf edir. Amerikalılar bazara girməyin ən sərfəli yolunu - franşiza şəbəkələrindən çıxmağı düşünürlər. Bu, investisiya risklərini azaltmağa və ölkənin özəl kapitalını cəlb etməklə bazarda genişlənmə və tanıtım həyata keçirməyə imkan verir.

Françayzinq sistemləri xarici ölkələrin iqtisadiyyatına müxtəlif yollarla inteqrasiya olunur:

- françayzerin 100% iştirakı ilə;
- birgə müəssisələr yaratmaqla;
- törəmə müəssisələrin yaradılması;
- müqavilə ölkəsinin nümayəndələri ilə müqavilələrin bağlanması.

Müəyyən bir sxemin seçimi həm dövlətin ərazisində mövcud olan şərtlər, həm də françayzerin qəbul etdiyi inkişaf strategiyası ilə müəyyən edilir. Bir qayda olaraq, milli maraqlar mövcud ölkələrin maraqlarından üstündür. Təcrübədə bu o deməkdir ki, ticarət sisteminin markası və standartlarından istifadə edildikdən sonra malların işləməsi üçün zəruri olan sistem iştirakçıları tərəfindən idxal şərtləri qoyulur: bu avadanlıq, təchizat, ərzaq və s.

Amerikalı françayzerlər bir çox ölkələri başqa ərazilərə giriş üçün start meydançalar kimi görürlər. Məsələn, Belçikada mövcud olan franşiza sistemləri, Fransa, Hollandiya, Almaniya və İsveçrəyə ixrac üçün olduqca asan bir yol olaraq görülür. Amerika sistemləri populyardır və inkişaf etməyə davam edir. Amerikalı françayzinqin müvəffəqiyyəti əsasən dövlət dəstəyi, markanın tanıdılmasına ciddi münasibət, davamlı strategiya, güclü marketinq mövqeləri, həm məhsul, həm də bütövlükdə iş sistemi üçün keyfiyyət standartlarının qəbulu, təkmilləşdirilməsi və tətbiqi ilə müəyyən edilir.

Daşınmaz əmlakın françayzinq təcrübəsi Qərbdə geniş yayılmışdır. Orada ana şirkət, françayzeylərə, daşınmaz əmlak fəaliyyətinin bütün sahələrində müxtəlif proqramların tam paketi ilə, hazır bir iş yarada biləcəyi məhsulları, o cümlədən ofis proqramlarını və işə qəbul testlərini də daxil olmaqla təmin edir. Əslində, bir franşiza almaq investorun özü yeni şirkətin özünü idarə etməməsi lazım olduğu bir faiz dərəcəsi ilə xalis bir kapital qoyuluşudur, bunun üçün ixtisaslı bir menecer işə götürə bilər. Lakin şirkətin işindən birbaşa gəlir əldə etmək bu vəziyyətdə yeganə məqsəd deyil. Amerika əmlak bazarının yaxın keçmişi çox əhəmiyyətli bir hal oldu. Müəyyən bir şirkət dərhal ABŞ-ın üç ən böyük franşizasını əldə etdi. Alınan şirkətlər birlikdə ABŞ-ın təkrar əmlak bazarının iyirmi faizini nəzarətdə saxladılar və ipoteka krediti bu ölkədə mənzil ilə məşğul olanda olduqca geniş yayılmışdır. Şirkətlər yeni bir sahibi əldə etdikdən sonra hamısı yekdilliklə müştərilərə ipoteka xidmətlərindən yalnız bir quruluşdan - müqavilənin arxasında olanlardan istifadə etməyi tövsiyə etməyə başladı. Amerika ipoteka bazarının dərhal 20% -ni əldə etmək üçün kompleks iki tərəfli birləşmənin həyata keçirildiyi ortaya çıxdı. Qeyd edək ki, ABŞ-da bir françayzinq şəbəkəsinin dəyəri bir neçə on, maksimum yüz minlərlə dollar təşkil edir. Üç şəbəkənin alınmasına bir milyon dollardan az pul xərcləyən investor, mənzil ilə təmin edilən çox milyardlıq ABŞ-lıq kredit bazarının beşdə birinə nəzarət etdi. [8, s. 57]

ƏDƏBİYYAT

1. Abbasov A.B., Abbasova R.Ə., Fərruxov A.F. və b. Biznesin əsasları, Bakı, 2005, 656 s
2. Abdullayev K.X., Hüseynov Q.S. Beynəlxalq biznes, Sumqayıt, 2011, 479 s.
3. İslamov E. Françayzinq – Alternativ Biznes İnkişaf Modeli Kimi: Sahibkarlar üçün bələdçi, Bakı, 2014, 31 s.

4. İslamov E., Musayeva G., Babaşov B., Ağayeva Ş. Françayzinq: Kiçik sahibkarlar üçün bələdçi, Bakı, 2017, 29 s
5. Ватутин С., Тришин М. Клонирование бизнеса. Франчайзинг и другие модели быстрого роста; Питер, 2012. 192 с.
6. Жукова, Марина Александровна Франчайзинг – эффективная форма управления в гостиничном и туристском бизнесе / Жукова Марина Александровна. - М.: КноРус, 2016.
7. Земляков, Д.Н., Макашев М.О. Франчайзинг: интегрированные формыорганизации бизнеса. М.:ЮНИТИ,2003, 142 с.
8. Золотов, Михаил Франчайзинг как метод корпоративного роста в сфере сервиса / Михаил Золотов. - М.: LAP Lambert Academic Publishing, 2012. - 144 с.
9. Иванов Г.Г., Холин Е.С.Франчайзинг в торговле. М.: ИД Форум,2015, 104с.
10. Кац Р. Б. Франчайзинг. Построение предприятия, бухгалтерский учет, правовые аспекты; РОСБУХ, 2012. 136 с.
11. Кац. Р.Б. Франчайзинг: построение предприятия, бухгалтерский учёт, правовые аспекты. ГроссМедия Ферлаг, 2010, 179 с.
12. Клименко, Константин Правовое регулирование договора франчайзинга в Республике Беларусь / Константин Клименко. - М.: LAP Lambert Academic Publishing, 2013. - 144 с.
13. Колесников В.Построение франчайзингового бизнеса. Спб.: Питер, 2008, 288 с.
14. Коршунова, Марина Повышение уровня развития франчайзинга / Марина Коршунова. - М.: LAP Lambert Academic Publishing, 2011. - 144 с
15. Меркулов А., Фокин В., Ватутин С., Тришин М., Соколова Т. Франчайзинг от А до Я; Феникс, 2013. - 160 с.
16. Парабеллум. А., Клонирование Вашего бизнеса: франчайзинг и новые модели продаж, 2011, 237 с.
17. Скот. А. Шейн. От мороженного к Интернету. Франчайзинг как инструмент развития и повышения прибыльности вашей компании. Днепропетровск: Баланс Бизнес Букс, 2006, 208 с.
18. Смирнова Н., Парабеллум А., Мрочковский Н. Масштабирование бизнеса. Создаем франчайзинг в розничной торговле; Питер, 2013. - 336 с.

Gülər QULİYEVA
Azərbaycan Turizm və Menecment Universiteti
guler.quliyeva.93@mail.ru

İstehlakçı davranşına təsir edən amillərin analitik qiymətləndirilməsi və onun təkmilləşdirilməsi istiqamətləri

Аналитическая оценка факторов, влияющих на поведение потребителей, и направления его улучшения

Alytical assessment of factors influencing consumer behavior and directions for its improvement

Xülasə: Məqalə aktual mövzulardan biridir. Bütün dünyada marketinq müxtəlif sahələrdə geniş istifadə olunur. Marketinq istehlakçı tələblərini öyrənir və bu tələbləri ödəməyə çalışır. Bir çox hallarda marketinq satışla eyniləşdirilir. Lakin marketinq satış anlayışından genişdir. Yəni marketinq firmaların əsas bazar anlayışıdır.
Açar sözlər: marketinq, istehlakçı, rəqabət, bazar

Резюме: Статья одна из актуальных тем. Во всем мире маркетинг широко используется в разных областях. Маркетинг изучает требования потребителей и пытается их удовлетворить. Во многих случаях маркетинг отождествляется с продажами. Однако маркетинг широк от концепции продаж. Таким образом, маркетинг является основной концепцией рынка фирм.
Ключевые слова: маркетинг, потребитель, конкуренция, рынок

Abstract: The article one of the an actual topics. All over the world marketing is use a wide in different field. Marketing learn consumer demands and it tries to pay this demands. In many cases marketing

is identificationed with sales. However marketing is broad from concept of sales. That is way marketing is the main market concept of firms.

Keywords: marketing, consumer, competition, market

Azərbaycanda istehlakçı davranışının tədqiqi məsələsini araşdırmaqdan öncə məntiqi cəhətdən ölkəmizdə marketinqin və ümumiyyətlə iqtisadiyyatın vəziyyəti ilə qısa tanışlıq zəruridir.

Hal-hazırda ölkədə "İnkişafın Azərbaycan Modeli" adı altında bazar model-lərindən nisbətən bizə daha münasibi olan sosial yönümlü bazar modeli tətbiq edilməkdədir.Bunu da nəzərə almalıyıq ki, bazar iqtisadiyyatının "avtomatik olaraq özünü tənzimləməyə qadir olması və böhransız inkişafına" və hamı üçün yaxşı həyat, firavanlıq yaradan bir sistem olması ideyasına dair nəzəri baxışların praktikada özünü doğrultmaması tətqiqatçılar tərəfindən artıq qəbul olunmuş ciddi faktlardandır.

Məlumdur ki, bazar iqtisadiyyatına keçidlə birlikdə marketinq fəaliyyətində sürətli inkişaf baş verdi. Sosialist iqtisadiyyatdakı planlı iqtisadiyyat və bunun nəticəsində də azad mübadilənin məhdudlaşdırılması səbəbindən marketinq fəaliy-yəti dar çərçivədə olub və həddən artıq zəif inkişaf səviyyəsinə malik idi. Amma yeni bazar iqtisadi sisteminin yaratdığı imkan nəticəsində onun inkişaf sürətində böyük sıçrayış oldu. Belə böyük inkişafın olması heç də qurulan sistemin hesabına deyil, sosializmdəki zəif inkişafa görədir. Sabiq Sovet İttifaqında, o cümlədən də Azərbaycanda ekstensiv artım yolu prisipinə istinad edərək, yanlış olaraq belə hesab edirdilər ki, mərkəzləşdirilmiş plan əsasında tələb və təklif arasında bazar tarazlığı yaratmaq mümkündür. Halbuki marketinq sistemi "dövriyyə"-yə hələ əhatə olunmamış potensial bazar seqmentləri cəlb etməklə bu məsələni həll etməyə imkan verir.

Qeyd olunmalıdır ki, Respublikamızda marketinqin inkişafı istiqamətində bir neçə əsaslı problemlər mövcuddur. Bu problemlərə aşağıdakılar aiddir:

-marketinq fəlsəfəsi sahibkarların şüurunda hələlik tam formalaşmamışdır;

-bazarın bir funksional infrakstruktur elementi kimi marketinq əsasən isteh-salın maraqlarına xidmət etməlidir;

- məhsul və xidmətlər bazarında mövcud olan inhisarçılı halları aradan qalmalıdır;

- peşəkar marketolqların sayı artırılmalıdır və s.

Marketinqin inkişafına əngəl törədən amillərdən biri isə klassik "marketinq miks"-in Azərbaycan şirkətləri tərəfindən tam və düzgün istifadə olunmamasıdır. Reklam kompaniyalarında da uğursuzluqlar tez-tez baş verir. Məsələn, "Jaffa" peçenyələri Azərbaycan bazarına çıxarıldığında belə tip məhsulların bazar həcmi və rəqibləri düzgün araşdırılmamışdı. Məhsul çox güclü reklam kampaniyası ilə bazara girdi, lakin onlar gözləmədikləri faktla rastlaşdılar. Bazara 2-3 il öncə girmiş "Bahlsen" məhsullarının qablaşma dizaynı və rəng çalarları demək olar ki, Jaffaya identik idi və Jaffanın reklam kampaniyası hardasa rəqibin satışının artma-sına gətirib çıxartdı.Jaffanın reklam kampaniyasına çəkilmiş xərclər özünü doğrult-madı.

Marketoloqlar bildirirlər ki, qiymət başlıca şərt olsada,"brend" məsələsinə həssas yanaşan ölkə istehlakçıları məhsul seçərkənözlərinin ehtiyaclarından daha çox mənəvi dəyərlərə diqqət yönəldirlər. Hal-hazırda orta gəlir səviyyəsinə malik olan ailələrəsasən məhsulların keyfiyyətini, dizaynını, həmçinin istehsalçışirkətin etibarlılığını diqqətdə saxlayirlar.

Azərbaycanda firmaların istehlakçı davranışlarının tədqiqi ilə məşğul olma-masının və ya az olmasının bir sıra səbəbləri var:

-artıq qeyd edildiyi kimi bu sahənin yeni bir sahə olması;

-azad bazarın və marketinq konsepsiyasının əsas prinsiplərinin Azərbaycan-da hələ də "özünə yer tapa bilməməsi". Bunun bir sıra səbəbləri var. Misal olaraq inhisarçılığı göstərə bilərik. Belə ki, müəyyən məhsul növünün Azərbaycanda tək istehsalçısı olan inhisarçı firmanın məhsulun alıcılarının davranışının öyrənməsinə ən azı iki səbəbdən ehtiyacı yoxdur:

- firmanın olduğu bazarda rəqabətin olmaması səbəbindən. Məhsulun tək satıcısı olduğuna görə istehlakçı da həmin məhsulu məhz bu firmadan almalı olacaq. Belə şəraitdə firma lazımi mənfəəti təmin etdiyindən alıcı davranışının öyrənilməsinə maraq göstərmir;

- alıcı davranışını tədqiq etsə belə, bu heç də alıcının xeyrinə olmayacaq. Çünki davranışı tədqiq edən firma alıcı tələbatını rəqiblərindən daha yaxşı ödəmə-yə çalışdığı halda, inhisarçı firma isə

rəqibinin olmaması üzündən nə alıcı davra-nışına uyğunlaşası, nə də onun tələbatını daha yaxşı ödəyəsi deyil;

-Azərbaycanda istehlakçı davranışını tədqiq edən xüsusi institutların,agent-liklərin, mütəxəssislərin demək olar ki, yox dərəcəsində olması. Burada bəzi istisna kimi, "Azərbaycan Marketinq Cəmiyyəti (AMC)"-nin bu sahədəki bəzi tədqiqat işlərini göstərmək olar;

-Azərbaycan firmalarının öz istehlakçılarını "tədqiqatsız" tanımaları. Belə ki, firmaların çoxu öz alıcılarını yaxşı tanıdıqlarını bildirir və əlavə xərc çəkib alıcı davranışını öyrənmirlər. Bunu qeyd etmək lazımdır ki, bəzi növ məhsullar baza-rında həqiqətən də "*azərbaycanlı alıcının"* necə qərar verməsi əvvəldən bilinir. Misal üçün bayramqabağı bayram məhsullarının qiymətlərini qaldıran satıcılar bilirlər ki, ən kasıb azərbaycanlı ailəsi belə bu məhsullardan almaq üçün hətta borca düşməyə də razı olacaq.

Istehlakçı məmnunluğu ilə əlaqədar olaraq aparılan araşdırmalara görə müştə-rilərin 25%-i alışın nəticlərindən razı qalmırlar. Narazı qalan istehlakçıların 95%-i necə, hara və ya kimə muracuət edəcəklərini bilmirlər (bunlarin ən azı 11 nəfərə danışa bilir). Həmçinin qeyd etmək lazımdır ki, alıcıların-istehlakçıların 76%-i firmaların reklamlarına inanmırlar.

Yerli bazarın güclənməsi və yerli malların satışının artırılması hər bir ölkənin qarşısında duran əsas iqtisadi problemlərdəndir ki, bunun da təmin olunmaması iqtisadi təhlükəsizliyə, o da son nəticədə milli təhlükəsizliyə zərbə vura bilər. Bu səbəbdən də yerli alıcılarla istehsalçılar arasında əlaqənin möhkəmləndirilməsi vacib məsələ sayılır və burada da marketinqin öhdəsinnə düşən vəzifələr vardır. Ölkəmizdə tətbiq edilən marketinq konsepsiyası məhz alıcı-istehsalçı əlaqələrini təmzimləməli və müştərilərin razılıq dərəcəsini artırmalıdır.Aparılan araşdırma-larin nəticəsinə görə müştərilərin:

- 68%-i göstərilən xidmətdən razı deyildir;
- 14%-i məhsul və ya xidmətlər keyfiyyətsizdir;
- 9%-i digər firmalarin məhsullarına ustunluk verir;
- 8%-i alternativ məhsul və ya firma axtarır;
- 3%-i daimi yaşayış yerini dəyişir və s.

İstehlakçı davranışında alternativləri qiymətləndirmək üçün alıcı hər hansı bir qaydaya və ya modelə əsaslanmalı və qiymətləndirmə meyarlarını müəyyən etməlidir. Belə qaydalardan və ya modellərdən biri məhsulun *xüsusyyətlərinin multiatributiv kartı* (multiatributiv xəritəsi də demək olar) modelidir. Bu modelə görə istehlakçı və ya alıcı məhsulun hər bir atributunu, yəni xüsusiyyətini, məsələn, uzunömürlülüyünü, qənaətcilliyini, dadını "ölçür" və hər bir məhsulu bu atributlara malikolma dərəcəsinə görə qiymətləndirir.

Bu modelin *kompensasiya edilən* və *kompensasiya edilməyən* (*qeyri-kompen-sasiya*) altmodelləri vardır. Xüsusyyətlərinin multiatributiv kartının *kompensasiya edilən* (*və ya sadəcə kompensasiya*) *modelində* məhsulun hər hansı bir atributunun aşağı göstəricisi digər atributun yüksək göstəricisi hesabına kompensasiya edilir. İstehlakçı alternativləri qiymətləndirmək üçün məhsulu xarakterizə edən atribut-ların siyahısını tərtib edir, hər bir atributun çəkisini (vacibliyinə görə) və hər bir atributun onu təminetmə səviyyəsini bal sistemi ilə qiymətləndirir. Bundan sonra o, hər bir məhsulun atributunun çəkisini həmin atributun təminetmə səviyyəsinin qiymətinə vurmaqla şərti ümumi qiymətləndirməni müəyyən edir. Alıcı və ya istehlakçı bu şərti ümumi qiymətləndirmənin ən yüksək olduğu məhsulun satınalın-masına dair qərar qəbul edir. Aşağıda verilmiş cədvəldə xüsusyyətlərinin multiat-ri-butiv kartının kompensasiya edilən modelinə uyğun olaraq noutbuk alınmasına dair qərarın qəbul edilməsi üçün 4 noutbuk markası müqayisə edilir (cədvəl 1).

Xüsusiyyətlərin multiatributiv kartının kompensasiya edilən modeli

Cədvəl 1

Məhsulun atributları	**Atributun vacibliyinin çəkisi**	**Atributun təminetmə səviyyəsi**				**Hər bir atributun ümumi qiyməti***			
		A	B	C	D	A	B	C	D
Yığcamlıq	0,30	6	7	5	9	1,8	2,1	1,5	2,7
Batareya ilə işləmə									

müddəti	0,25	8	8	9	7	2,0	2,0	2,25	1,75
Gücü	0,20	9	7	9	8	1,8	1,4	1,8	1,6
Klaviatura	0,15	8	8	8	7	1,2	1,2	1,2	1,05
Ekran	0,10	7	9	8	8	0,7	0,9	0,8	0,8
	1,0					7,5	7,6	7,55	7,90

** - Markaların hər bir atributunun ümumi qiyməti onun nisbi qiyməti ilə vacibliyinin çəkisinin hasili kimi müəyyən edilir*

Cədvəl məlumatlarından göründüyü kimi D noutbuk markasının bəzi göstəriciləri: batareya ilə işləmə müddəti və klaviaturası A, B və C markalarının, gücü A və C ticarət markasının və ekranı isə B markasının müvafiq atributlarından aşağı qiymətləndirilir. Lakin bu göstəricilərin aşağı qiyməti D markasının yığcamlığının bütün digər markalardan,həmçinin gücünün B markasından və ekranının A marka-sından yüksək qiymətləri ilə kompensasiya edilir və bunun sayəsində D markası qalan digər markalarla müqayisədə daha yüksək qiymətləndirilir. Bunu nəzərə alan alıcı,çox böyük ehtimalla demək olar ki, D noutbuk markasının satınalınmasına dair qərar qəbul edəcəkdir.

Marketinqin vəzifələrindən biri də tələbatı formalaşdırmasıdır. Belə demək olar ki, marketinq tələbat yaratmır, mövcud tələbatı gücləndirir və ya aktuallaşdırır. Müasir dövrdə marketinqin qarşısında çox məsuliyyətli bir vəzifə vardır: elə məhsul və xidmətlərə istək formalaşdırılmalıdır ki, bu cəmiyyətin mənafeyinə zidd olmasın və cəmiyyətin həm maddi, həm də mənəvi inkişafına səbəb olsun. Bu səbəbdən sosial-etik konsepsiyanın tələblərinə uyğun olaraq davranışın öyrənilməsi və tətbiqi prosesində etik normaların gözlənilməsinin vacibliyi nəticəsinə gəlinmişdir.

ƏDƏBİYYAT

1. A.T.Məmmədov. "Marketinqin əsasları" Bakı 2007
2. F.Kotler "Marketinq menecment" Azərbaycan Dövlət İqtisad Universiteti 2008

Fəridə MƏMMƏDOVA
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
magistr
feridefarida@gmail.com

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda sosial-iqtisadi sahələrin idarə edilməsi

Конец XIX- начало XX века управление социально-экономическими сферами в Азербайджане

End of XIX- early XX century social and economic management in Azerbaijan

Xülasə: Məqalədə sosial-iqtisadi sahələrin idarə edilməsi barəsində məlumat verilmişdir. XIX əsr in sonu - XX əsrin əvvəllərində Azərbaycanda sosial-iqtisadi sahələrin ümumi durumu, həmin dövrdə adı çəkilən sahələrin zəif və güclü cəhətlərinə nəzər salınmışdır. Məqalədə qoyulan mövzu çərçivəsində qismi biliklərin verilməsi ilə birlikdə həmçinin bu sahədə var olan müəyyən çatışmazlıqlar ilə bağlı bir sıra qeydlər olunmuşdur.

Açar sözlər: Idarəetmə, XX əsrin sonu, XX əsrin əvvəlləri, Azərbaycan, Azərbaycanda sosial-iqtisadi sahələrin idarə edilməsi;

Резюме: В статье даются рекомендации по социально-экономическому управлению. В конце XIX - начале XX века была рассмотрена общая ситуация социально-экономической сферы в Азербайджане. Помимо предоставления некоторых знаний в рамках темы статьи, был также сделан ряд замечаний, касающихся определенных недостатков в этой области.

Ключевые слова: управление, конец 20 века, начало 20 века, Азербайджан, социально-экономическое управление в Азербайджане;

Abstract: The article provides guidance on socioeconomic management. At the end of the XIX - the beginning of the XX century, the general situation of socio-economic sphere in Azerbaijan was considered. Along with the transfer of knowledge within the topic set out in the article, a number of notes were also made regarding certain deficiencies in the field.

Keywords: Governance, late 20th century, early 20th century, Azerbaijan, socioeconomic management in Azerbaijan;

XIX əsrin əvvəllərində Şimali Azərbaycanın çar Rusiyası tərəfindən istilası, bu əsrdə onun sosial-iqtisadi, ictimai-siyasi həyatı mədəniyyəti tarixi işıqlandırılır. Dövrün mühüm məsələlərini tədqiqi üçün, əlbəttə, tarixşünaslığın istər XIX əsr, istərsə də XX əsrdə əldə etdiyi nailiyyətlərdən, həmçinin ilk mənbələrdən istifadə olunmuşdur. Biz ilk mənbələr dedikdə, Rusiyanın Mərkəzi Dövlət Tarix arxivində, Mərkəzi Dövlət Hərbi Tarix arxivində, Peterburq MDTA, Gürcüstan və Azərbaycanın tarix arxivlərində XIX əsr tariximizin müxtəlif məsələləri üzrə toplanmış materialları, həmçinin çap olunmuş mənbələri, ilk növbədə on iki cilddən ibarət ―Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları‖nı, bununla yanaşı, XIX - XX əsrlərdə Rusiya və Azərbaycan tarixşünaslığının nailiyyətlərini nəzərdə tuturuq. Azərbaycan çar Rusiyası tərəfindən istila edildikdən sonra rus alimləri Azərbaycan xalqının XIX əsr sosial-iqtisadi, siyasi və mədəniyyət tarixini tədqiq etmək sahəsində müəyyən işlər görmüşlər. Bu alimlərdən İ.N.Berezinin 1849-1852-ci illərdə nəşr olunmuş ―Dağıstan və Zaqafqaziya səfəri əsərini qeyd etməliyik. S.B.Bronevskinin, O.Yevetskinin, B.Zubovun, Y.A.Qaqameystürin, Q.E.Startsevin, V.Simonoviçin, S.D.Perşkenin, A.Brilinskinin, İ.L.Seqalın, N.A.Petrovun, V.İ.Masalskinin və başqalarının özündə Azərbaycanın XIX əsr tarixi məsələlərini əks etdirən əsərlərini də göstərməliyik. Azərbaycanın XIX əsrə qədərki, həmçinin XIX əsrin əvvəlləri tarixinin bəzi məsələlərini özündə cəmləşdirmi əsərlərin ―Qarabağnamələrin müəllifləri Mirzə Yusif Qarabağini, Mir Mehdi Xəzanini, Mirzə Adıgözəl bəyi, Mirzə Camalı, Əhməd bəy Cavanşiri, Məhəmməd Baharlını da unutmamalıyıq. Bu dövrün belə tarixçilərindən danışarkən Abbasqulu Ağa Bakıxanovun―Gülüstani – İrəm kitabını və əsərlərində XIX əsrin I yarısı tariximizin bir sıra məsələlərini əks etdirən, Dərbənddə doğulmuş, Qazan və Peterburq Universitetində işləmiş Mirzə Məhəmməd Əli Kazım bəyi xüsusilə qeyd etməliyik.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Peterburqda, Rusiyanın digər şəhərlərində yaşamış tarixçilərdən İ.Q.Butkovu, V.A.Pottonu, N.F.Dubrovini göstərmək lazımdır. Onların əsərlərində Azərbaycanın XIX əsr siyasi, sosial-iqtisadi tarixinin bir çox məsələləri öz əksini tapmışdır. 1950-ci illərin sonu – 1960-cı illərin əvvəllərində üç cilddən ibarət―Azərbaycan tarixi‖ nəşr olundu. Onun II cildi Azərbaycanın XIX-XX əsrin əvvəllərinə dair tarixinə həsr olunmuşdur. Bu cild, demək olar ki, Azərbaycanın XIX əsr tarixinə bütövlükdə həsr olunmuş ilk əsəridir. Cildin yazılması üçün müəlliflər külli miqdarda material toplamışlar. Bu materialların əksəriyyəti tarixşünaslıq elminə ilk dəfə gətirilmiş, XIX əsr tarixinin istər sosial-iqtisadi, istər siyasi, istərsə də mədəniyyət problemlərinə dair ətraflı və yeni məlumatlar verilmişdir. Bu dövrdə Ə.N.Quliyevin və İ.M.Həsənovun XIX əsrin birinci yarısında Azərbaycan tarixşünaslığına dair kitabı da nəşr olunmuşdur. Bu sahədə Ə.S.Sumbatzadənin, M.C.İbrahimovun və Ə.Hüseynzadənin xidmətləri də qeyd olunmalıdır.

70-90-cı illərdə çoxsaylı ixtisaslı tarixçilərimizin Azərbaycan tarixinin sosial-iqtisadi, siyasi və mədəniyyət tarixi üzrə xeyli əsərləri nəşr olundu. Lakin təəssüf ki, XIX əsr tarixinə dair monumental, ümumiləşdirici monoqrafiya və digər əsərlər azdır. Çapdan çıxmış əsərlərin çoxu Azərbaycanın sosial-iqtisadi tarixinə həsr olunmuşdur Bu məsələlərdən XIX – XX əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi quruluşu, Azərbaycan kəndinin sosial-iqtisadi inkişafının səviyyəsi, neft sənayesinin tarixi, Azərbaycanda kənd təsərrüfatı alətlərinin istehsalı, torpaq sahibliyi və torpaqdan istifadə, neft istehsalı və Rusiya iqtisadiyyatı, mülkədar təsərrüfatı və.s. Problemlər M.Ə.İsmayılov, Q.C.Cavadov, Y.İ.Ələsgərov, V.H.Kərimov, V.A.Səmədov, M.M.Gülmalıyev və Ə.A.Umayevin əsərlərində öz əksini tapmışdır. Cənubi Qafqazdakı mürəkkəb vəziyyət Rusiyanın işğalçı planlarının bu diyarda həyata keçirilməsini obyektiv olaraq asanlaşdırırdı. Feodal ara müharibələri və xarici işğalçıların basqınları Cənubi Qafqazı var-yoxdan çıxarırdı. Zəruri ilkin sosial-iqtisadi şərtlərin, yetkin siyasi qüvvələrin olmaması üzündən ayrı-ayrı xanların Azərbaycanı öz başçılıqları altında birləşdirmək cəhdləri müvəffəqiyyətsizliyə uğrayırdı.

Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən zəbt edilməsi ilə Azərbaycan xalqı öz dövlət müstəqilliyinə nail ola bilmədi. Azərbaycan xalqını müharibə nəticəsində zorla iki hissəyə bölmək kimi tarixi ədalətsizlik baş verdi. Bu tarixi ədalətsizlik nəticəsində vahid xalq bölündü və onların hər biri bir-birindən fərqli sosial-iqtisadi, siyasi və mədəni inkişaf yoluna düşməyə məcbur oldu. İşğal nəticəsində Azərbaycan çar Rusiyası zadəganlarının və sənaye sahiblərinin xammal bazasına, tacirlərinin isə satış bazarına çevrildi. Azərbaycan iqtisadiyyatı müstəmləkə iqtisadiyyatı xarakteri aldı. Bu isə o demək idi ki, yalnız Rusiya sənayesi üçün xammal istehsal etməli, sənayesi də buna xidmət etməli idi. Nəhayət, ən başlıcası budur ki, Şimali Azərbaycan Rusiyanın ucqar müstəmləkəsinə çevrildi. Beləliklə, Azərbaycanın Rusiya tərəfindən işğalından sonra onun təsərrüfatının inkişafında müəyyən yüksəliş baş verdi. Lakin bu inkişaf birtərəfli gedirdi, yəni başlıca olaraq, xammal istehsal olunurdu. Bu da ölkə iqtisadiyyatının müstəmləkə xarakterinin göstəricisidir. XIX yüzilliyin 30-50-ci illəri sosial-iqtisadi həyata mühüm dəyişikliklərin müəyyənləşdiyi dövrdür. İqtisadiyyatın bəzi sahələri, xüsusən də texniki bitkilər istehsalı Mərkəzi Rusiyanın tərəfindən irəli sürülən sənaye tələbatını, habelə yerli şəhərlərin tələblərini ödəməyə yönəldilmişdi, kənd təsərrüfatı məhsulları əmtəə xarakteri almağa başlayırdı. 30-cu illərdən etibarən ticarət əlaqələri və əməliyyatları daha da genişlənmişdi. Azərbaycanın Rusiya tərəfindən işğalının başa çatması ilə burada keçirilən bir sıra sosial-iqtisadi tədbirlər sənaye, kənd təsərrüfatı və nəqliyyatla bərabər ticarətin də inkişafına kömək edirdi. Azərbaycanda yeni-yeni ticarət məntəqələri yaranır, ticarət müəssisələrinin sayı və dövriyyəsi çoxalır, ayrı-ayrı rayonlar arasında əmtəə mübadiləsi genişlənir, əmtəə-pul münasibətləri inkişaf edirdi. Sosial-iqtisadi və siyasi dəyişikliklər şəraitində təsərrüfat fəalliyyətinin müxtəlif sahələrində işləməyi bacaran savadlı adamlara tələbatın artması ənənəvi məktəbləri yararsızlaşdırırdı.

XIX yüzilliyin birinci yüzilliyin birinci yarısında elm və sosial təcrübə ilə sıx əlaqədə fəlsəfi fikir də inkişaf edir. Bu dövrdə Azərbaycan fəlsəfəsinin başlıca problem orta əsr ərəb müsəlman fəlsəfi konsepsiyaları idi. Lakin bununla belə, ölkənin sosial-iqtisadi tələbatını yeni təhsil və tərbiyə sisteminin, cəmiyyətin yenidən qurulması problemlərinin həlli ilə bağlı Azərbaycan mütəfəkkilləri qarşısında yeni vəzifələr də qoyulub. A.Bakıxanovun farsvə ərəb dillərində yazdığı ―Təhzib əl-Əxlaq‖ (―Əxlaqın tərbiyəsi‖), ―Kitabe-Nəsayeh‖ (―Nəsihətlər kitabı‖), ―Əyn əl-Mizan‖ (―Çəkilərin mahiyyəti‖) əsərləri günün tələbinə cavab oldu. A.Bakıxanov bu əsərlərində əxlaqi təfəkkürə və məntiqi mühakimə qabiliyyətinə tərbiyə və təhsilin məhsulu kimi baxır, insanın şəxsi həyatında və elmi yaradıcılığında ləyaqət və düzgün düşünmənin əhəmiyyətini qeyd edirdi. A.Bakıxanovun etikası və məntiqi rasional, maarifçi ideyalar və amallarla zəngindir, köhnə müsəlman əxlaq nəzəriyyəsində və təmiz formalist məntiqi nəzəriyyələrdən xeyli fərqlənir.

İltizam sisteminin ləğvi bütün nüft hasilatında qəti dönüş yaratdı, neft sənayesi kapitalist istehsalı sahəsinə çevrildi. Bakıdakı nef və digər sahələrlə yanaşı, qəzalarda da sənaye inkişaf edirdi. Azərbaycanın üzvi tərkib hissəsi kimi, Bakının sosial-iqtisadi həyatında baş verən dəyişikliklər, şübhəsiz ki, bütün Azərbaycanda məhsuldar qüvvələrin inkişafına təsir göstərirdi. Kəndli islahatı kapitalizmin daha da inkişafı üçün şərait yaratdı, daha doğrusu islahat köhnə feodallarla yeni kapitalist sosial-iqtisadi istehsal münasibətləri arasında sərhədə çevrildi.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi, IV c, səh. 148.
2. Известия КОИРГО, ч. I. Тифлис, 1873, стр. 125.
5. Azərb. MDTA, f. 92, s. 1, iş 296, v. 42, 46.

Firudin ƏZİZOV
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
firi.azizov@mail.ru

Gəlirlərin formalaşması və istifadəsi məsələlərinə nəzəri yanaşmalar

Теоретические подходы к формированию и использованию доходов

Theoretical approaches to the formation and use of income

Xülasə: Məqalədə gəlirlərin formalaşması,haradan yaranması, necə və hansı formada istifadə olduğu haqqında qeydlər yer almışdır. Əsasən nəzəri yanaşmalara üstünlük verilmişdir. Son dövrlərin ən əsas sayılan iqtisadçılarının fikirlərinə üstünlük verilmiş, onların nəzəriyyələri üstün tutulmuşdur.
Açar sözlər: Gəlir,gəlirin göstəriciləri,pul,qiymət,əmək,istehsal,istehlak.

Резюме: Статья содержит заметки о получении дохода, откуда он поступил, как и в какой форме. Теоретические подходы получили приоритет. Взгляды самых важных экономистов последних времен были одобрены, и их теории преобладали.
Ключевые слова: Доход, показатели дохода, деньги, цена, труд, производство, потребление.

Abstract: The article contains notes on revenue generation, where it came from, how and in what form. Theoretical approaches have been given priority. The views of the most important economists of recent times have been favored and their theories prevailed.
Keywords: Income, Income Indicators, Money, Price, Labor, Production, Consumption.

Hal-hazırda turizm dünya iqtisadiyyatının aparıcı və dinamik sektorlarından biridir. Sürətlə böyüməsi üçün turizm "20-ci əsrin iqtisadi fenomeni" kimi tanınır. İlk dəfə olaraq, əhalinin gəlirlərinin formalaşması problemləri ilə bağlı elmi fikirlər 17-ci əsrin ikinci yarısında merkantilizm nümayəndələri tərəfindən formalaşmışdır. Bu sahədə alimlər hesab edirlər ki, gəlirlərin formalaşması yalnız ticarət mənfəəti hesabına baş verir, istehsal yalnız gəlir təmin etmək üçün bir vasitədir.

Gəlir-mal və xidmətlərin alınması üçün nəzərdə tutulmuş müəyyən müddətə alınan pul vəsaitidir. Sahibkarın nöqteyi-nəzərindən gəlir, istehsal olunan məhsulun satışından əldə edilən pulun istehlak və qənaət üçün istifadə edilə bilən bu məhsulun maya dəyərindən artıq olmasıdır. Gəlirin miqdarına təsir göstərən əsas amillər bunlardır:əmək haqqı səviyyəsi, pərakəndə satış qiymətlərinin dinamikası, vergilərin səviyyəsi, bazarın istehlak malları ilə doyması və s. Gəlir səviyyəsini qiymətləndirərkən nominal, birdəfəlik, real gəlir göstəriciləri istifadə olunur.

Nominal gəlir fərdlərin müəyyən müddət ərzində aldıqları pul məbləğidir.Əldə olunan gəlir şəxsi istehlak və əmanət üçün istifadə edilə bilən gəlirdir. Əldə edilə bilən gəlir vergilərin və məcburi ödənişlərin miqdarına görə nominaldan azdır.

Merkantilistlərin əsas prinsipləri idi: qızıl və gümüşün ölkəyə daxil olmasını təmin etmək üçün sərvətin, xarici ticarətin tənzimlənməsi, müsbət balans nəticəsində, kapital yığılmasının mümkünlüyünü artıran və bununla da ölkənin iqtisadi artımına və rifahına səbəb olmuşdur. Fiziokratlar, pulların mübadilədə yalnız vasitəçi olduğunu düşünürdü və istehsal zənginlik mənbəyi hesab edildi. Onların fikrincə, dövlət xarici ticarəti tənzimləməməlidir, ancaq ölkənin, xalqın malını yaradan kənd təsərrüfatının inkişafına diqqət yetirməlidir. Onlar yalnız kənd təsərrüfatı əməyinin torpaq kirayəsi olan real gəliri təşkil etdiyinə inanırdılar. Onların bu kirayəsi artıq dəyərin ümumi forması idi.

Klassik siyasi iqtisadiyyatın nümayəndəsi Adam Smith gəlir doktrinasını yaradıb. O, kapitalist cəmiyyətdə üç sinfi seçdi: işçilər, kapitalistlər və torpaq sahibləri, buna görə əsas gəlirlər əmək haqqı, mənfəət və icarə idi. Smitin sözlərinə görə, əmək bütün gəlirin mənbəyidir və mənfəət və icarə əməkçilər tərəfindən yaradılan dəyərin bir hissəsidir. Smith, maaş artımının iqtisadi inkişafa qatqı təmin etdiyini sübut etdi. Smitə görə kapitalist sahibkarlar, sosial tərəqqinin mühərriki. Onların fəaliyyəti ilə zənginlik artmasına kömək edir və bunun üçün mənfəət şəklində mükafatlandırılırlar.

Thomas Malthus “üçüncü tərəflər” haqqında aşağıdakı nəzəri təklifləri təklif etdi: cəmiyyətin qeyri-məhsuldar təbəqələrinin yalnız səmərəli deyil, həm də məcmu sosial məhsulun yaradılmasına və paylanmasına iştirak etmək. Bunlar arasında: torpaq aristokratiyası, dövlət məmurları, ruhanilər, yəni əlavə məhsul yaratmayan, gəlir və tələbə sahib olan əhalinin sosial təbəqələri. Malthus həmçinin cəmiyyətin gəlirlərinə, əhalinin artım sürətinə və həyat mükafatlarının artım nisbətlərinə dair bir nəzəriyyə hazırlamışdır. Klassik meyl nəzəriyyəsinin davamçısı David Rikardo, onun tədqiqatı sənayeləşmə sənayesindən geniş miqyaslı sənayeyə keçid edildikdə sənaye inqilabının dövrünə aiddir. Əsas işində, Siyasi İqtisadiyyat və Vergilərin Başlanğıcları, o, “siyasi iqtisadiyyatın əsas vəzifəsi”, yəni gəlirlərin paylanmasını tənzimləyən qanunları müəyyənləşdirmək üçün onun şərhini verdi. Onun təlimlərində Rikardo əməyin təbii və bazar qiymətlərini müəyyənləşdirdi. Təbii qiymət – işçilərin və onların ailələrinin mövcudluğu və irqi davam etdirmək imkanı verəcək qiymətdir. [1,s.896]

Əməyin bazar qiyməti bazarda əməyin tədarükü ilə bağlıdır. Əmək haqqının minimum səviyyəyə salınması, Rikardonun fikrincə, çox əhalinin çoxunu təşkil edir. Marjinalist gəlir bölüşdürmə teorisi, əməyin əmək nəzəriyyəsini kommunal nəzəriyyə ilə müqayisə etdi. Marjinalistlər əmək haqqının ümumi nəzəriyyəsinə əhəmiyyətli qatqı təmin etdilər. İşçi öz nəzəriyyəsində istehsalda iştirakının müsbət və mənfi tərəflərini qiymətləndirən rasional bir mövzu hesab olunur. Dezavantajlar əmək xərcləri idi və işçinin mənfi emosiyalarını kompensasiya etmək üçün nəzərdə tutulmuş əlavə əmək haqqı idi.

Marjinalistlər ilk növbədə bu kateqoriyanı gəlir kimi fəaliyyət göstərirlər, əgər kapitalist cari gəlirdən imtina etsə, gələcəkdə gəlir gözləyir.

Marjinalizm məktəbinə aid olan Alfred Marshall, istehsal xərclərinə görə əmək haqqını təyin etdi. İxtisaslı mütəxəssislər digər bazarlara gedəcəklər kimi, əmək haqqının azaldılmasına qarşı çıxmışdı. Bir dərəcədə A. Marshall əmək haqqının sosial funksiyasını müəyyənləşdirir.

Alim gəncləri müəyyən bir iş növünə cəlb etmək üçün bir vasitə kimi istifadə etməyi tövsiyə edir. Lakin kifayət qədər yüksək minimum əmək haqqı müəyyən edilməlidir və onun yuxarı həddi kapitalın tədarükünə uyğun olaraq müəyyənləşdirilməlidir. "Lakin bu iki məhdud arasında hansı nöqtə arasında əmək haqqı olarsa, yalnız mübahisələr və ticarət yolu ilə müəyyən edilə bilər." Çox tələbatla, yeni, daha yüksək, məhsulun qiyməti, istehsal dəyəri və normal gəlir arasında fərq var [2, s.14-15].

Keynesianizmdə gəlirləri öyrənərkən makroiqtisadi bir yanaşma tətbiq olunur. Keynesə görə, gəliri istehlakı təyin edən əsas amil, yəni istehlak gəlir funksiyasıdır. Fərdi gəlir artımı şəxsi istehlak artımına səbəb olur. Ancaq bütün gəlir istehlaka sərf edilmir. Əhalisi gəlirlərinin bir hissəsini saxlayır. Dövlət məcmu tələbə təsir edən iqtisadiyyatı tənzimləməlidir. Keyns fərdi istehlakın artımını müdafiə edir və əhalinin gəlirlərinin artması ilə sıx əlaqəlidir.

Monetarizmin tərəfdarları pul kütləsinin qiymətlərə, inflyasiyaya və iqtisadi proseslərə təsiri fundamental olduğuna inanırdılar. Onlar daimi gəlir gəlirləri nəzəriyyəsini inkişaf etdirmişlər, onun mahiyyəti istehlakçının yaşına, təhsilinə, peşəsinə, yaşayış yerinə görə uzun müddət müəyyən bir gəlir əldə etməsini gözlədiyidir. Monetaristlər pul təklifinin iqtisadiyyatın daha təsirli tənzimləyicisi olduğuna inanırdılar.

Sərbəst bazar özünü tənzimləyən bir sistemdir və avtomatik olaraq yüksək iqtisadi sabitliyi təmin edir. Pul baxımına olan tələbatını artırmaq, pul kütləsində sabit artım təmin etmək vacibdir. Bu tələb, öz növbəsində, digər gəlir növləri ilə müqayisədə pul gəlirləri ilə müəyyən edilir, yəni. yenə faiz dərəcələrinin aktiv roluna, pulun miqdarı nəzəriyyəsinə döndülər.

İnstitusiyaya görə, gəlir əldə edilməsi mexanizminin qeyri-iqtisadi amillərdən: sosioloji, psixoloji, siyasi, hüquqi və s. Aşağıdakı nəzəriyyələr institusionalistlər tərəfindən hazırlanmışdır: "sənaye cəmiyyətinin nəzəriyyəsi" və "insan kapitalı", ona görə insana sərmayələr və elmin nailiyyətləri gəlir səviyyəsinə təsir göstərir. Beləliklə, iqtisadi struktura, istehsalat rejiminə, dövlətin roluna görə gəlirlərin formalaşmasına təkamül yolu ilə yanaşmaların cəmiyyətin inkişafı ilə dəyişdiyini görürük.

Bazar iqtisadiyyatında iqtisadi fəaliyyətin nəticələri gəlir şəklində təqdim olunur. Müasir iqtisadi ədəbiyyatda "gəlir" anlayışı, onun tərifinə vahid bir yanaşmanın olmaması ilə xarakterizə edilən ən çətin olanlardan biridir.

Onun qeyri-adi dağılımı nəzərə alınmaqla, "gəlir" konsepsiyası geniş mənada istifadə olunur və geniş istifadə olunur. Sözün ən geniş mənasında - gəlir hər hansı bir pul axınıdır. "Gəlir" anlayışı dövlətə (milli gəlir), müəssisələrə (ümumi gəlir, xalis gəlir) və fiziki şəxslərə (fərdi gəlir) aiddir.

İqtisadi ədəbiyyatda "gəlir" həm yeni yaranan əmək məhsulu dəyərinin dəyəri, həm istehsal edilən məhsulun dəyərinin qiymətdən artıq olması, həm də yeni istehsal dəyərində payı və bu sinifə ayrılmış məhsulun fərdi qrupu kimi qiymətləndirir. İqtisadçıların və statistiklərin, həm daxili, həm də xarici işlərdə ifadə edilən "gəlir" anlayışı onun şərhinə müxtəlif yanaşmalar ilə xarakterizə olunur [3, s.544].

J. Hicks əsərində dünyanın tanınmış ingilis iqtisadçılarından biri olan tanınmış ingilis iqtisadçı bir çox tanınmış müəlliflər bir-birlərini və həqiqətən də özləri qənaət və mənfəətin müxtəlif tərif-lərini qəbul edərək qarışıqlığa gətirdilər "əksinə, kifayət qədər qənaətbəxş deyil." O hesab edir ki, gəlir müəyyən bir dövrdə istehlaka sərf ediləcək maksimum məbləğ və eyni zamanda bu dövrün so-nuna başlanğıcdakı kapitaldan istisna olmaqla müəyyən edilməlidir. Əlavə olaraq, J. Hicks ikinci bir təsəvvür verir ki, onun fikrincə, "əsas gəlir mənbəyinin ən yaxşı uyğunlaşdırılması" kimi xidmət edir. Bu tərifə əsasən gəlir "fərdi bir həftə ərzində sərf edə biləcək və gələcək həftələrdən birində sərf etməyi nəzərdə tutan maksimum məbləğdir". Peter von Lippe hesab edir ki, ev təsərrüfatının gəlirini "ev təsərrüfatlarının real dəyərinin azalması olmadan xərcləyə biləcəyi məbləğ" hesab et-mək lazımdır, istehlaka əsaslanan "genişlənmiş" gəlirin məqsədəuyğunluğunu tanıyır və bundan əlavə, evdar qadınların fəaliyyətinin daxil olma ehtimalı, in-kind ödənişləri, tətbiq olunan gəlir, "ümumi gəlir" daxilində pulsuz xidmətlər hesab etməyinizə inanır [4, s. 920].

Bu baxımdan Peter von Lippe gəlirin tərifini "bir milli məhsula və ya bir dövr ərzində onların ehtiyaclarını ödəmək üçün onlara nəzarət edən bir vahid kimi qəbul etdiyi bütün vəsaitlər üçün real imkandır"

Məşhur İngilis iqtisadçı A. Marshall "gəlir" anlayışını iki mövqedən izah etdi. Fərdi mövqedən - bu ailənin gəliridir, yəni ailəsinin ehtiyaclarını ödəmək üçün zənginliyi istifadə edərək əldə etdiyi faydalardır. Sosial yanaşma, fərddən fərqli olaraq, "bəşəriyyət istənilən vaxt təbii sərvətlərin ən yaxşı şəkildə xidmət etməsi üçün keçmişə yönəldilmiş və səylərinə yönəlmiş bütün səylərindən əldə etdiyi hər cür faydalar kimi gəlirləri xarakterizə edir". Fərqli iqtisadi məktəblərin mənfəətinin mahiyyətini müəyyənləşdirmək onların yanaşmalarında əhəmiyyətli dərəcədə fərqlənir. Xüsusilə: əmək dəyərinin nəzəriyyəsi əməyin gücünü də daxil olmaqla, yeni dəyər yarada bilən yeganə amildir. İşçilər tərəfin-dən yaradılan dəyər həm mənfəət, həm də icarə və əmək haqqının mənbəyidir. Buna görə kapitalistlə-rin və torpaq sahiblərinin mənimsənilməsi işəgötürənlərin istismarının nəticəsidir.

İstehsal amillərinin sahibləri dəyərin yaranmasına hər bir amilin töhfəsinə uyğun gəlirlər alır-lar. Beləliklə, işçi əmək haqqı əmək əməyinə görə ödəniş kimi; torpaq sahibləri - torpaq xidmətləri üçün kirayə; kapitalist - mənfəət, sahibkarlıq gəlirinə və kapitala olan maraqlara bölünür. Söylədiyi-nə görə, müxtəlif sosial qrupların gəlirləri bir-birindən asılıdır.

Gəlirlərin öyrənilməsinə dair bu yanaşmalar uzun bir tarixə malikdir, "iqtisadi nəzəriyyə özü iqtisadiyyat - ev iqtisadiyyatı, ev təsərrüfatı elmi olaraq ortaya çıxdı".

Gəlirin keyfiyyət xüsusiyyətlərinin araşdırılması məsələsi merkantilistlər tərəfindən həll olun-mağa yönəldilmişdi (İngiltərənin əsas nümayəndələri W. Stafford və T. Men, Fransada - A. Mon-txretien və J. B. Colbert). Onlar sərvət və qızıl və gümüş olan sərvətlərin yığılmasına artmışdır. Mercantilistlər, zəifliyin artırılması üçün şərait olaraq aşağı əmək haqqının qorunması üçün əhali ar-tımının təşviq edilməsinə inanırdılar. Əhalinin iqtisadi bir kateqoriyasındakı gəlirləri fərd və bütöv-lükdə həyat üçün çox əhəmiyyətlidir və cəmiyyətin iqtisadi həyatının vacib elementidir. Xülasə ola-raq, gəlir funksiyaları aşağıdakı kimi yekunlaşdırıla bilər.

1. Gəlir iqtisadi imkanların və ev təsərrüfatının satınalma qabiliyyətinin, istehlak olunan mallа-rın və xidmətlərin keyfiyyətinin və miqdarının müəyyənləşdirilməsi (qiymətlərin və vergilərin səviyyəsini birlikdə) müəyyənləşdirən maddi rifahın bir amilidir.
2. Gəlir bir işçinin və onun ailə üzvlərinin bərpasını müəyyən edən gəlirləri, o cümlədən iqtisadi resursların bərpası üçün bir şərtdir
6. Gəlir ömür boyu və sağlamlığında bir faktordur. Mənfəətin miqdarı, əsasən, malların və xid-mətlərin istehlak strukturunu və həcmini, istirahət, müalicə şərtləri, mənzilin keyfiyyətini mü-əyyənləşdirir, bu isə öz növbəsində insanın həyatının müddəti təsir edir.

7. Gəlir fərdi mənəvi inkişaf potensialını genişləndirir. Gəlir bir şəxsin xarakteri, psixoloji, dünyəvi baxışına təsir göstərir.
8. Beləliklə, əhalinin gəlirlərinin mikroiqtisadi əhəmiyyəti, insanların ehtiyaclarını təmin edən müəyyən səviyyədə fiziki, əxlaqi, iqtisadi və intellektual dövlətinin qorunmasıdır. Həm də gəlirlər iqtisadiyyata münasibətdə stimullaşdırıcı rol oynayır, effektiv tələbat yaradır [5, s.34-40].

ƏDƏBİYYAT

1. Классика экономической мысли: Сочинения. Петти У., Смит А., Рикардо Д., Кейнс Дж., Фридмен М. - М.: Изд-во ЭКСМО-Пресс, 2010. - 896 с. (Серия «Антология мысли»);
2. Кларк Дж.Б. Распределение богатства. М., 2010. səh. 14-15;
3. Александр Иванович Попов - Экономическая теория/ ФОРМИРОВАНИЕ ДОХОДОВ 4-е изд. - СПб.: 2007. səh.544;
4. Журавлев Г.П. Экономическая теория. Макроэкономика-1, 2. Метаэкономика. Экономика трансформаций / под ред. Г.П. Журавлевой. М.: ИТК «Дашков и К», 2014. səh. 920;
5. Бутова Л.М. Эволюция взглядов на проблемы формирования доходов // Территория науки. – 2012. - №1. səh. 34-40.

Fərid CABBARLI
Azərbaycan Turizm və Menecment Universiteti
f.cabbarli@atmu.edu.az

Biznes mühitinə təsir edən təşkilati mədəniyyətlərin keçid dövründəki transformasiyasının denison modeli istifadə edilərək araşdırılması

Преимущества экологической валютной трансформации для использования модели плотности

Benefits of environmental cultural currency transformation to use dension model

Xülasə: Siyasi və iqtisadi sistemlərdə dəyişiklik olarsa, şirkət və təşkilatlarda bir çox dəyişiklik olacaqdır. Təşkilatların daxili fəaliyyətinə təsir göstərən vacib amillərdən biri təşkilatçılıq mədəniyyətidir və buna görə də təşkilatların dəyişməsinin onun mədəniyyətlərinə təsiri qaçılmazdır. Bu tədqiqatın əsas məqsədi sosialist təşkilat mədəniyyətinin kapitalist quruluşunun təsiri dərəcəsini və təsirlənmiş hissələrini müəyyənləşdirməkdir. Anket tədqiqatı kəmiyyət tədqiqat metodu kimi Azərbaycanda aparıldı, çünki Azərbaycanın sosializmdən kapitalizmə keçmək təcrübəsi var. Tədqiqatda 304 iştirakçı onlara cavab verəcək sorğu aparmaq üçün Denisonun təşkilati mədəniyyət miqyasından istifadə edilmişdir. Təhlilin nəticəsi əldə olunan məlumatları ayırd edəcək və analitik ümumiliklərə çatacaqdır.

Açar sözlər: Təşkilati mədəniyyət, Denison təşkilati mədəniyyət modeli, keçid dövrü biznes mühiti.

Резюме: Если произойдут изменения в политической и экономической системах, то будет много преобразований в компаниях и организациях. Одним из важных факторов, влияющих на внутреннее функционирование организаций, является организационная культура, и следовательно, влияние изменений в организациях на ее культуру неизбежно. Основная цель данного исследования - выявить степень влияния и влияние отдельных частей культуры социалистической организации на организацию капиталистического истеблишмента. Обзорное исследование как метод количественного исследования проводилось в Азербайджане, потому что у Азербайджана есть опыт перехода от социализма к капитализму. В исследовании использовалась шкала организационной культуры Денисона для проведения опроса, на который ответал 304 участника. Результат анализа ограничит полученную информацию, и аналитические обобщения будут достигнуты

Ключевые слова: организационная культура, модель организационной культуры Денисона, бизнес-среда переходного периода.

Abstract: If there are changes in the political and economic systems, then it will be many transformations in companies and organizations. One of the important factors affecting the internal

functioning of organizations is organizational culture and therefore the effect of the change in organizations on its cultures is inevitable. Main purpose of this research is to identify the influence extent and affected parts of the socialist organization culture on the organization of capitalist establishment. Survey study as a quantitative research method was in Azerbaijan, because Azerbaijan`s have experience about to change from socialism to capitalism. In the research was used Denison organizational culture scale for to do survey, which 304 participants answered them. The result of the analysis will delimitate the information obtained and the analytical generalities shall be reached.

Keywords: organizational culture, Denison's model of organizational culture, transitional period business environment.

Konseptual çərçivə: Cəmiyyətlər kimi təşkilatlar da bir mədəniyyətə sahibdirlər. Təşkilatlar fərqli mədəniyyətləri və subkultura modelləri olan mini cəmiyyətlərdir. Bu mini cəmiyyətlərin mədəniyyəti təşkilati mədəniyyət adlanır. Buna görə də təşkilati mədəniyyət bir təşkilat daxilindəki şəxslərin davranışlarını istiqamətləndirən normalar, davranış və dəyərlər, inanc və vərdişlər sistemi şəklində ifadə olunur [1,s.69].

Təşkilati mədəniyyət anlayışının tarixi çox yenidir, ancaq idarəetmə nəzəriyyələri və təcrübələrində bu konsepsiyanın əks olunmasını cari əsrin ikinci yarısı tarixində olduğunu söyləmək olar [2,s.622]. 1979-cu ildə bir elmi jurnalda yayımlanan məqalədə Andrew M. Pettigrew'in istifadəsi ilə idarəetmə elmindəki yerini alan təşkilati mədəniyyət anlayışı, daha sonra ABŞ-dakı Peters və Waterman, Yaponiyada Paskal və Athos tərəfindən araşdırılaraq müxtəlif araşdırmalarla ədəbiyyatda yerini aldı [3,s.120]. Schein, illərdir müxtəlif psixoloqlar, sosioloqlar və antropoloqlar tərəfindən ələ alınan və bununla da müxtəlif təriflərə sahib olan idarəetmə sahəsində təşkilati mədəniyyətin ən əhatəli tərifini vermişdir. Schein təşkilati mədəniyyəti müəyyən bir qrup tərəfindən uyğunlaşma və ətraf mühitə daxili inteqrasiya zamanı öyrənilən, müsbət nəticə vermiş və yeni üzvlərə proqramı qəbul etmək, düşünmək və hiss etmək üçün düzgün yol kimi öyrədilən düşüncələrin məcmusu kimi müəyyən edib. Pettigrew təşkilati mədəniyyəti simvol, inanc, dil kimi dəyərlərin bir qrup tərəfindən paylaşılması olaraq açıqlayıb. Louis isə təşkilati mədəniyyəti sahib olunan və paylaşılan dəyərlər kimi ifadə edib [4,s.9].

Bu məqalədə Denison və Mishranın [5,s.210] təşkilati mədəniyyət açıqlaması əsas olaraq qəbul edilmişdir. Denison və Mishra daxili inteqrasiya və xarici harmoniyanı nəzərə almaqla təşkilati mədəniyyətin növlərini harmoniya mədəniyyəti, missiya mədəniyyəti, iştirak mədəniyyəti və uyğunluq mədəniyyəti olaraq təyin etmişdir:

–İştirak mədəniyyəti: təşkilati müvəffəqiyyətin komandalar və onların iştirakı ilə əldə ediləcəyini güman edən və buna görə də komandanın marağına, işçilərin səlahiyyətlərinin artırılması və bacarıqlarının inkişafına yönəldilmiş bir təşkilat mədəniyyətidir.

–Uyğunluq mədəniyyəti: təşkilatçılığın müvəffəq olmasının konsensus, koordinasiya, inteqrasiya və təşkilatın əsas dəyərlərinin qəbul edilməsi daxil olmaqla güclü bir mədəniyyət sayəsində əldə ediləcəyini güman edən bir təşkilati mədəniyyət növüdür.

–Harmoniya mədəniyyəti: təşkilat müvəffəqiyyətinin dəyişiklik yaratma, dəyişikliyə uyğunlaşma, müştəri yönümlülük, təşkilati öyrənmə yolu ilə əldə ediləcəyini düşünən və təşkilati quruluş ilə fəaliyyətini bu prinsiplərə əsaslandıran təşkilati mədəniyyət növüdür.

–Missiya mədəniyyəti: təşkilati uğurun uzaqgörənlik, strateji istiqaməti, aydın məqsəd və hədəflər hesabına əldə ediləcəyini güman edən və təşkilati quruluş ilə fəaliyyətini bu prinsiplərə əsaslandıran təşkilati mədəniyyət növüdür.

Məlum olduğu kimi, siyasi sistemlər qəbul olunduğu cəmiyyətlərin bütün şəxslərinə və alt komponentlərinə təsir göstərir. Zamanla artan təsir dərəcəsi ilə ölkədə icmaların davranışlarının sosial, mədəni və iqtisadi cəhətləri sistemin ümumi formasına uyğun görünür. Beləliklə, siyasi sistem bütün alt icmaları və şəxsləri öz formasında formalaşdırır. Siyasi sistemin tələb etdiyi fərdi davranışların formalaşması ilə sosial xüsusiyyətlərin "kodlandığı" ən vacib göstərici olan mədəniyyətlər də dəyişir. Sistemin quruluşu yalnız cəmiyyət mədəniyyətinə deyil, cəmiyyətin alt mədəniyyətləri olan təşkilati mədəniyyətlərə də təsir göstərir. Sistemin transformasiyası ilə dəyişən fərdi davranışlar, təşkilati mədəniyyətdə də transformasiyaya səbəb olacaqdır.

Keçid dövrü yaşayan ölkələrdə transformasiya prosesinin baş verdiyi dövrdəki hadisələrin təsiri qeyd olunan dövr bitdikdən sonra da davam edir və bu sonrakı inkişaf prosesinə ciddi təsir göstərir. Bu məqalənin məqsədi Azərbaycanda sosialist sistemdən kapitalist sistemə keçiddə təşkilati mədəniyyətin Denison modelinə görə dəyişikliyinin ümumi vəziyyətini göstərməkdir. Məqalədə sistem dəyişikliyi dövründə təşkilati mədəniyyət ölçülərində hansı dəyişikliyin olması araşdırılmışdır. Tədqiqatın məqsədi, iki dövrün təşkilati mədəniyyətləri arasındakı ölçülü fərqləri əks etdirməkdir.

Araşdırma: Məqalədə kəmiyyət araşdırmasıyla sosialist və kapitalist dövrdəki işyerlərinin təşkilatı mədəniyyətləri müqayisə edilmişdir. Sorğu Daniel Denisonun təşkilatçılıq mədəniyyəti modelinə əsaslanır. Sorğu bu modelə əsasən 36 sualdan təşkil olunmuş anket formu ilə aparılmışdır [6, s.73]. Tezis mövzusundakı kəmiyyət araşdırmasında, Azərbaycanda özəl təşkilatların birindən seçilmiş cəmi 304 nəfər arasında sorğu keçirilmişdir. Bu insanların 246-ı həm kapitalist dövrdə, həm də sosialist dövrdə işlədiklərindən hər iki sistemdə işlədikləri təşkilatı qiymətləndirə bilməsi üçün eyni sorğuya iki dəfə cavab vermişdirlər. Ümumilikdə kapitalist dövrdə işləyənlər dövrdə işləyənlərin 304 anketi və sosialist dövrdə işləyənlərin 246 anketi qiymətləndirilmişdir. Denisonun təşkilati mədəniyyət modelindən istifadə edərək "məqsədyönlü seçmə üsulu" ilə sorğu aparılmışdır. Çünki, hər iki dövrdəki təşkilatlarda işləyən şəxslərin iştirakı daha çox təmin edilməyə çalışılmışdır. Bu iştirakçıların iki fərqli dövrdə işlədikləri təşkilatlar üçün eyni anket suallarını cavablandırmaları o dövrlərdəki təşkilati mədəniyyətləri müqayisə etməyi asanlaşdıracağı düşünülmüşdür.

Cədvəl 1. Denison Təşkilat Mədəniyyəti Modelinin əsas və alt maddələri

İŞTİRAK	Səlahiyyət vermə
	Komanda işi
	İstedad inkişafı
UYĞUNLUQ	Əsas dəyərlər
	Uzlaşma
	Koordinasiya
HARMONİYA	Dəyişmə
	Müştəri yönümlülük
	Təşkilati öyrənmə
MİSSİYA	Strateji idarəetmə
	Təşkilatın məqsədləri
	Vizyon


D. Denison tərəfindən hazırlanan təşkilati mədəniyyət modeli 4 əsas maddədən və bu 4 əsas maddə ilə əlaqəli 12 alt maddədən ibarətdir [7, s.87]. Modelin əsas maddələri və onların alt maddələri Cədvəl 1-də göstərilmişdir.

Tədqiqatın aparıldığı iş yerində kadrların sayının 2461 (N) olduğu müəyyən edilmişdir. Bu çərçivədə 327 işçiyə bir anket paylandı. Geri qaytarılmış anketlərin sayı 313 olmuşdur. Ancaq bu anketlərdən 9-u cavablandırılarkən tamamilə və ya çox hissəsi boş buraxıldığı üçün qiymətləndirməyə daxil edilməmişdir. Qiymətləndirməyə 304 (n) anket daxil edilmişdir. Bu nisbət əsas kütlənin 12% -ni təşkil edir və tədqiqatda məlumat vermək üçün kifayət edir.

Əldə olunan demoqrafik məlumatlara görə iştirakçıların 28% -nin, yəni 84 nəfərin qadın olmuşdur. Araşdırmada iştirak edən 304 nəfərdən 220 nəfəri kişi olmuşdur. Bu, ümumi iştirakçıların sayının 72% -ni təşkil edir. İştirakçıların təhsil vəziyyəti haqqında məlumata baxıldıqda: 15% -i orta məktəb; 200 nəfəri, yəni 66%-i bakalavr; 17%-i, yəni 52 nəfəri subbakalavr; 37 nəfəri, yəni 12%-i maqistratura təhsili alıb. Araşdırmada məlumat toplanmış şəxslərin yüksək təhsilli insanlardan ibarət olduğu görülmüşdür.

Nəticə: İştirakçıların sosialist dövrdə işlədikləri iş yerlərində təşkilati mədəniyyət quruluşlarını Şəkil 1-də görmək olar. Araşdırmadan əldə edilən məlumatlar əsasında hazırlanan şəkil 1-dəki qrafik araşdırıldıqda, uyğunluq anlayışının sosializmdəki təşkilati mədəniyyətdə daha vacib olduğunu söyləmək olar. Bu, iştirakçıların sosializm dövründəki iş yerlərində uyğunluq konsepsiyasının alt bölməsi olan uzlaşma və koordinasiyanın yüksək olduğunu, əsas dəyərlərin isə orta səviyyədə oldu-

ğunu göstərir. Araşdırmadan ortaya çıxan şəkil 1-dəki rəqəmə görə, sosializmdəki təşkilatların kompromis davranışları və koordinasiyalı işləməyi seçdiyini söyləmək olar.



Şəkil 1. İştirakçıların sosialist və kapitalist dövrlərdəki iş yerlərində təşkilati mədəniyyət formalarının müqayisəsi.

Şəkil 1-də həmçinin iştirakçıların kapitalist dövründə işlədiyi iş yerlərindəki təşkilati mədəniyyətin quruluşu göstərilmişdir. Sözügedən şəklə baxdığımızda kapitalizmin təşkilati mədəniyyət quruluşunda missiya anlayışının ön sırada olduğunu görmək olar. İştirakçıların kapitalizm dövründəki təşkilatlarına görə verdikləri cavabların nəticələrinə əsaslanaraq demək olar ki, kapitalizmə keçid dövründə təşkilati mədəniyyətlərdə strateji idarəetmənin əhəmiyyəti artmışdır. Artıq kapitalizmdə təşkilatlar təyin olunan missiyaya inzibati baxımdan strategiyalar hazırlamaqla çatmağa çalışır.

ƏDƏBİYYAT

1. KÖKSAL, K. (2007), Yükseköğretimde Örgüt Kültürü ve Alan Araştırması. Yayımlanmamış Yüksek Lisans Tezi. Balıkesir Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Balıkesir.
2. ATAMAN, G. (2009), İşletme Yönetimi: Temel Kavramlar ve Yaklaşımlar, 3. Baskı, Türkmen Kitabevi, İstanbul.
3. TİMUROĞLU, K. ve İŞCAN, F. (2008). Örgüt kültürünün iş tatmini üzerindeki etkisi ve bir uygulama, İktisadi ve İdari Bilimler Dergisi, Cilt:21, Sayı: 1. Sayfa: 119-135.
4. RIZAOĞLU, B. ve AYYILDIZ, T. (2008), "Konaklama İşletmelerinde Örgüt Kültürü ve İş Tatmini: Didim Örneği" Anatolia: Turizm Araştırmaları Dergisi, 19(1):7-20.
5. Denison, D. R. ve Mishra, A. K. (1995). Toward a theory of organisational culture and effectiveness. Organisation Science, 6 (2): 204-223.
6. Yahyagil, Mehmet Y. (2004). Denison örgüt kültürü ölçme aracının geçerlilik ve güvenirlik çalıĢması: Ampirik bir uygulama. *İstanbul Üniversitesi İşletme İktisadı Enstitüsü Dergisi(Yönetim),* (47), 53-76.
7. Uzun, D. (2007). Örgüt kültürünün bilgi yönetim sürecine ve örgütsel performansa etkisi: beş yıldızlı otel işletmelerinde bir uygulama. Yayınlanmamış Doktora Tezi. Dokuz Eylül Üniversitesi, Sosyal Bilimler Enstitüsü, İzmir.

Sevinc QULİYEVA
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
q.sevinc1986@gmail.com

Turizm xidmətlər bazarının seqmentləşdirilməsi

Сегментация рынка туристических услуг

Segmentation of the tourism services market

Xülasə: Mürəkkəb bazar şəraitində fəaliyyət göstərən turizm müəssisəsi öz müştərilərinə diqqətlə yanaşmalı, onların istək və tələbatlarını tam ödəməyə çalışmalıdır. Buna nail olmaq üçün turizm müəssisələri seqmentləşdirmə strategiyasını həyata keçirirlər. Bazarın seqmentləşdirilməsi bir tərəfdən turizm müəssisəsinin marketinq fəaliyyətini həyata keçirmək üçün istehlakçı qruplarının formalaşdırılması,digər tərəfdən isə bazar qərarların qəbul edilməsində idarəetmə yanaşması və marketinq kompleksinin elementlərinin optimal istifadəsi üçün əsas kimi çıxış edir. Bu baxımdan seqmentləşdirmə turizm xidmətləri bazarının optimal idarə olunması üçün ən önəmli faktorlardan biridir. Məruzədə turizm xidmətlər bazarının seqmentləşdirilməsinin əsas alətləri və Azərbaycanda turizm xidmətlər bazarının seqmentləşdirilməsinin xüsusiyyətləri vurğulanmışdır.
Açar sözlər: Seqmentasiya, Turizm xidmətlər bazarı,optimal idarə etmə,müştəri məmnuniyyəti

Резюме: Туристическая компания, работающая в сложной рыночной среде, должна заботиться о своих клиентах и стараться удовлетворить их потребности и требования. Чтобы достичь этого, туристический бизнес реализует стратегию сегментации. Сегментация рынка с одной стороны – формирование групп потребителей для маркетинговой деятельности туристической компании; с другой стороны - подход к принятию решений по управлению рынком является основой для оптимального использования элементов маркетинга. В связи с этим сегментация является одним из важнейших факторов оптимального управления рынком туристических услуг. В отчете освещены основные инструменты сегментации рынка туристических услуг и особенности сегментации рынка туристических услуг в Азербайджане.
Ключевые слова: сегментация, рынок туристических услуг, оптимальное управление, удовлетворенность клиентов.

Abstract: In a complex market environment, a tourism business must be attentive to its customers and work hard to meet their needs and requirements. To achieve this goal, tourism companies are implementing a strategy of segmentation. Market segmentation on the one hand - forms consumer groups for marketing activities of a tourism company; on the other hand - the market management decision- is the basis for the optimal use of marketing elements. In this regard, segmentation is one of the most important factors for the optimal management of the tourism services market. In this article have emphasized the main tools for the segmentation of the tourism services market and the features of segmentation of the tourism services market in Azerbaijan.
Key words: Segmentation, tourism services market, optimal management, consumer satisfaction

Mürəkkəb bazar şəraitində fəaliyyət göstərən turizm müəssisəsi öz müştərilərinə diqqətlə yanaşmalı, onların istək və tələbatlarını tam ödəməyə çalışmalıdır. Buna nail olmaq üçün turizm müəssisələri seqmentləşdirmə strategiyasını həyata keçirir.

Seqmentləşdirmənin əsas məqsədi – turizm məhsulunun ünvanlılığını təmin etməkdir. Seqmentləşdirmə vasitəsilə marketinqin əsas prinsipi həyata keçirilir – istehlakçıya yönümlülük prinsipi. Turizm müəssisəsi öz gücünü və potensialını onun təklif etdiyi məhsul və xidmətlərə daha çox maraq göstərən, onları əldə etməyə cəhd edən istehlakçılara yönəldir və beləliklə öz fəaliyyətini optimallaşdırmağa çalışır.

Beləliklə, bazarın seqmentləşdirilməsi bir tərəfdən – turizm müəssisəsinin marketinq fəaliyyətini həyata keçirmək üçün istehlakçı qruplarının formalaşdırılması; digər tərəfdən isə - bazar qərarların qəbul edilməsinə idarəetmə yanaşması, marketinq kompleksinin elementlərinin optimal istifadəsi üçün əsas kimi çıxış edir.

Bazarın seqmentləşdirilməsi turizmdə marketinqin əsas alətlərindən biri hesab olunur. Düzgün həyata keçirilən seqmentləşdirmə rəqabət mübarizəsinin nəticələrini müəyyən edir. Yüksək səmərə əldə etmək üçün, seqmentləşdirmə müəyyən əlamətlər üzrə aparılmalıdır. Əlamət – hər hansı bir seqmentin bazarda seçilməsi üsuludur. Turizmdə seqmentləşdirmənin əsas əlamətlərinə aiddir: [4,s.88]

- coğrafi amil;
- demoqrafik amil;
- sosial-iqtisadi amillər;
- psixoqrafik amillər;
- davranış amilləri.

Davranış seqmentləşdirmənin əsasında alış motivləri, səyahətdən olan gözləntilər, turizm şirkətinə loyallıq səviyyəsi, turizm məhsulunu əldə etmək hazırlığı, xidmətə olan münasibət və s. tədqiq olunur. Qeyd olunan əlamətlər yalnız ilkin seqmentləşdirmə üçün yararlıdır. Daha dəqiq seqmentləşdirmə aparmaq üçün müxtəlif əlamətlərin kombinasiyasından istifadə edilir. Turizm bazarında ən çox istifadə olunan seqmentləşdirmə amillərinə turistlərin yaşı aid edilir. Bu əlamətə görə üç əsas seqment seçilir: [7,s.178]

1. Gənclər turizmi (16-30 yaşına qədər səyahət edənlər). Bu seqment dünya turizm bazarında artan inkişaf templəri ilə seçilir. Gənclər turizmi ittifaqı olan WYSE Travel Confederation hesabatına görə 2016-cı ildə səyahət edən gənc turistlərin sayı 284 milyon nəfər olmuş (turistlərin ümumi sayının 20%-i), 2020-ci ilə isə onların sayı 370 milyon nəfər olacağı proqnoz edilmişdir. Bu seqmentin fərqləndirici xüsusiyyətləri kimi ekstremal turizm növlərindən istifadə (dayvinq, raftinq, roup jampinq və s.), ucuz səyahət vasitələrinin (məsələn, Flixbus kimi ucuz səyahət avtobuslarının əsas müştəriləri gənclərdir) və az komfortlu mehmanxanaların (əsasən hostel tipli) seçilməsi, daha uzunmüddətli səyahətlərin (məsələn, təhsil məqsədi ilə Erasmus proqramı üzrə səyahət edənlər) baş verməsi çıxış edir. Ümumiyyətlə gənc seqmentin xarakterik cəhətləri kimi yüksək aktivlik, əyləncələr, gecə klubları, yerli əhali ilə yüksək ünsiyyət qurma istəyi, tətil vaxtlarında səyahət etməyi qeyd etmək olar.
2. Orta yaş turizmi (30-50 yaş) – bu seqment üçün əsasən ailə ilə birlikdə səyahətlərin olması xasdır. Bu isə turizm məkanlarında ailə istirahəti üçün nəzərdə tutulmuş uşaq oyun meydançalarının, uşaq hovuzlarının, ailəvi tur-paketlərin mövcudluğunu tələb edir. Orta yaşlı turistlər yüksək komforta, rahatlığa, turların proqramlarının zəngin olmasına, peşəkar fəaliyyətlərinə uyğun olmasına xüsusi önəm verirlər. Bu seqment üçün tur-paketlər hazırlayarkən, nəzərə almaq lazımdır ki, seqment iştirakçıları- iqtisadi fəal əhalidir, onların səyahət etmək istəyi istirahətlə, şəraiti dəyişməklə, və ya işgüzar məqsədlərlə əlaqəli ola bilər. Eyni zamanda, tətil vaxtları da nəzərə alınmalıdır, yəni bu seqmentin səyahət müddəti, əsasən, yay və qış (məktəb tətilləri) aylarına təsadüf edə bilər. Bu seqmentin fəaliyyətinin müşahidəsi göstərir ki, get gedə bayram tətilləri ilə əlaqəli qısa səyahətlərin də sayı artır (məsələn, yeni il tətilləri, Azərbaycanda – Novruz bayramında, Ramazan bayramında olan səyahətlər). Bu səyahətlər qısa müddətliyi (adətən 3-5 gün, ən uzağı-bir həftə) və zəngin proqramı ilə seçilir. Turizm şirkətləri bu təmayülü nəzərə alaraq orta yaş seqmenti üçün müvafiq tur-paketləri (ailə paketlərini) təklif etməlidir, zəruri hallarda uşaqlar üçün müxtəlif stimullaşdırıcı aksiyaların keçirilməsi də məqsədəuyğundur.
3. Üçüncü yaş turizmi (50 yaşdan yuxarı). Bu seqment öz spesifikliyi ilə fərqlənir. Burda həm yüksək keyfiyyət, rahatlıq, həm də xidmətedici heyət tərəfindən xüsusi xidmət tələb olunur, lazım olarsa peşəkar tibbi yardımın göstərilməsi, tarixi ekskursiyalarla zəngin turların təşkili, restoranlarda pəhriz menyularının olması, nisbətən sakit məkanlarda yerləşmə və s. bu turizm seqmentinin digər fərqli cəhəti ondan ibarətdir ki, burda mövsümi asılılıq yoxdur. Əksinə seqmentə aid olan insanlar turizm mövsümünün ən qaynar vaxtlarını deyil (iyul, avqust ayları), daha çox sərin, payız və yaz aylarına üstünlük verirlər. Səyahətin müddətinə görə də bu seqment fərqlənir, burada daha uzunmüddətli səyahətlər mövcuddur.

Yaş qrupu üzrə seqmentləşdirədə ən sürətli artan bazar yaşlı nəslin nümayəndələrinin təşkil etdiyi turizm bazardır. Belə ki, 12 Avropa ölkəsində aparılmış tədqiqatların nəticələrinə görə belə bir proqnoz verilmişdir ki, 2020-ci ilə səyahət edənlərin təqribi 25%-dən çoxunun yaş həddi 60 üzə-

ri olacaq. ABŞ-da isə səyahət edənlərin 28%-i yaşlı nəslin nümayəndələridir. Avropa ölkələri arasında bu rəqəm təqribi 22% təşkil edir.[6,s.123]

Turizm bazarının seqmentləşdirilməsini istehlakçıların gəlirlərinin səviyyəsinə görə də həyata keçirmək olar. Turizmə olan tələbat bir tərəfdən orta və aşağı gəlir səviyyəsi olan insanların istirahət etmək ehtiyacının olmasından, digər tərəfdən isə yüksək gəlirli təbəqənin tələbatından irəli gəlir. Bu seqmentlər üçün turizm təklifi çox fərqlidir.

Birinci seqmenti daha çox müxtəlif aksiyalar və endirimlər əldə etmək, qrup şəklində səyahətlər maraqlandırırsa, ikinci seqment fərdi səyahətə üstünlük verir. Ümumdünya Turizm Təşkilatının mütəxəssisləri iki əlamətin (gəlirin səviyyəsi və təhsilin səviyyəsi) kombinləşməsi əsasında turizm bazarının aşağıdakı seqmentlərini qeyd edirlər:

1. Orta və aşağı gəlir səviyyəsi olan insanlar. Bu turistlərin səyahətlərinin əsas məqsədi dənizə səyahət etməkdir (adətən ən yaxın dəniz səyahətinə üstünlük verilir,qiymətlərin daha münasib olması baxımından). Bu baxımdan MDB məkanındakı turistlər üçün ən cazibəli istiqamətlər – Qara dəniz, Aralıq dənizi və Xəzər dənizinə səyahətdir. Səyahətdə vərdiş etdikləri şəraitə üstünlük verirlər, ödədikləri məbləğə görə maksimum xidmət və əyləncə əldə etməyə çalışırlar, artıq xərclərdən imtina edirlər. "Hər şey daxildir" sisteminin əsas istifadəçiləridir, 2-3 ulduzlu mehmanxanalara üstünlük verirlər, diskotekalar, gecə əyləncələrinə maraq göstərirlər. Yerli suvenirlərə maraq göstərirlər, əsas odur ki, suvenirlərin qiyməti uyğun olsun. Beynəlxalq turist mübadiləsində bu seqment ən çoxsaylı seqment hesab olunur və kütləvi turizmin əsasını təşkil edir.

2. İkinci seqmenti təşkil edən turistlərin gəliri ortadan yüksəkdir, adətən yüksək təhsillidilər. Səyahətin əsas məqsədi – istirahətlə yanaşı yeni kəşflər icad etməkdir. Məkanın seçilməsinə ciddi yanaşırlar, bir neçə amilə görə müqayisələr aparırlar. Fəal istirahətin tərəfdarıdılar, idman etməyi, ekskursiyalara getməyi, kino və konsertlərə getrməyi xoşlayırlar. Birinci seqmentlə müqayisədə daha uzaq səyahətlərə üstünlük verir, getdikləri ölkənin mədəniyyətinə, adət-ənənələrinə böyük maraq göstərirlər. Səyahət motivinin əsasını yeniliklər əldə etmək təşkil edir, bu baxımdan onlar üçün maraq kəsb edən ərazıyə səyahət edərkən bəzi rahatsızliqlara göz yuma bilirlər.

3. Üçüncü seqmentə yüksək gəliri və yüksək təhsili olan insanlar aiddir. Bu insanların səyahətinin əsas məqsədi – yeni təəsüratlar əldə etməkdir. Bu seqment iki yaş kateqoriyası ilə təmsil olunur: orta yaşlılar və "üçüncü yaş" seqmenti. "Üçüncü yaş" seqmentinə aid olanlar əsasən qrupla səyahət etməyə üstünlük verirlərsə, orta yaşlı tu-ristlər fərdi səyahətlərə və ya azsaylı dost-tanışlarla səyahət etməyə üstünlük verirlər. Bu seqmentin səyahətləri müddətinə və məkanına görə fərqli olur – daha uzaq məsafələrə və uzunmeddətli (adətən 2-3 həftə) səyahətlərə üstünlük verirlər. Suvenirlərə maraq göstərirlər, lakin birinci seqmentdən fərqli olaraq, daha ekzotik və bahalı hədiyyələrə üstünlük verirlər.

4. Dördüncü seqmentə yüksək təhsili və intelektual səviyyəsi olan insanlar aiddir ki, bunlar təbiətin öyrənilməsinə, digər millətlərin mədəniyyətinin, adət-ənənələrinin, yaşam tərzinin tədqiqinə maraq göstərirlər. Bu seqmentin spesifikliyi ondan ibarətdir ki, bura müxtəlif yaş kateqoriyalarından və müxtəlif gəlir səviyyəsi olan turistlər aiddir. Bu turistləri birləşdirən əsas amil isə - onların səyahətə büdcələrinin əksər hissəsini xərcləməyə hazır olmaqlarıdır. Onların səyahətlərinin məqsədləri fərqli ola bilər, əsas odur ki, bu seqmenti təşkil edən insanlar şəxsi təcrübə əldə etməyə çalışırlar. Dördüncü seqment sayca ən azsaylıdır, amma son illərdə çoxalmağa meyl edir.

Ümumiyyətlə gəlirə görə bölgü Pareto (80-20) prinsipinə əsaslanır. Belə ki,gəlir səviyyəsi yüksək olan iri istehlakçılar bazarın çox az qismini təşkil edirlər,lakin istehlakin,alışın isə böyük həcmini məhz həmin istehlakçılar tərəfindən həyata keçirilir. Tədqiqatların nəticələrinə görə avişirkətlərdə bütün hava reysləri üzrə uçuşların 70.4% , 4.1% müştəri qrupunun payına düşmüş. Otellərin isə 59.4% -i isə 7.9% müştəri qrupunun payına düşmüşdür.[5,s.225]

Azərbaycanda turizm bazarının seqmentləşdirilməsi üzrə tədqiqat apararkən, belə qənaətə gəlmək olar ki, ölkəmizdə əsasən coğrafi, demoqrafik və iqtisadi amillər üzrə seqmentləşdirmə aparılır, davranış və psixoqrafik amillər kifayət qədər istifadə olunmur. Bir çox turizm şirkətlərində isə hələ də marketinq araşdırmalarından və seqmentləşdirmədən istifadə olunmur, bu da təbii olaraq istehlakçıların tələbatlarının düzgün dərk edilməməsi və onların məmnunluq səviyyəsinin aşağı olması ilə nəticələnir.[3,s.128]

Cədvəl 1. 2015-ci ildə iqtisadi rayonlar üzrə səfərlərin məqsədlərinə görə yerləşdirilmiş şəxslərin sayı

İqtisadi rayonlar	Cəmi	Məqsədlər üzrə					
		turizm	O cümlədən				
			İstrahət əyləncə	işgüzar	Müalicə	Digər turizm	Digər
Ölkə üzrə cəmi	838145	638359	256285	275896	68896	37282	199786
Bakı şəhəri	535390	364121	121614	220215	2309	19983	171269
Abşeron iqtisadi rayonu	5207	5161	4536	551	74	-	46
Gəncə - Qazax iqtisadi rayonu	89847	83169	5444	17604	60051	70	6678
Şəki- Zaqatala iqtisadi rayonu	31280	27546	24006	1790	-	1750	3734
Lənkəran iqtisadi rayonu	17035	16738	9484	6402	177	675	297
Quba - Xaçmaz iqtisadi rayonu	58610	52914	48995	3318	601	-	5696
Aran iqtisadi rayonu	26419	15557	2138	12999	15	405	10862
Yuxarı Qarabağ	488	-	-	-	-	-	488
Dağlıq Şirvan iqtisadi rayonu	13594	12878	12878	-	-	-	716
Naxçıvan Muxtar Respublikası	60275	60275	27190	13017	5669	14399	-

Cədvəlin təhlili göstərir ki, müalicə məqsədilə Azərbaycana gələn turistlərdən başqa digər məqsədlə gələnlərin əsas seçimi Bakı şəhəridir. Müalicə məqsədilə ölkəmizə gələnlər əsasən Qazax-Gəncə iqtisadi rayonuna və Naxçıvan Muxtar Respublikasına üz tuturlar. İstirahət və əyləncə məqsədilə ğələnlərin seçimi belədir: Bakı şəhəri, Quba – Xaçmaz iqtisadi rayonu, Şəki- Zaqatala iqtisadi rayonu və Naxçıvan Muxtar Respublikası.

İşgüzar səfərlə gələnlərin əksəriyyəti Bakı şəhərinə, digərləri isə Gəncə - Qazax iqtisadi rayonuna, Aran iqtisadi rayonuna, Naxçıvan Muxtar Respublikasına üz tuturlar. Digər turizm məqsədləri üzrə ən çox səyahət edilən Bakı şəhəri və Naxçıvan Muxtar Respublikasıdır.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi", 2016
2. Azərbaycanda turizm. Statistik toplu. A.R. Dövlət Statistika Komitəsi, Bakı-2016
3. Soltanova H. B. "Azərbaycan Resublikasında Turizm və onun inkişafı" , Bakı-2015
4. E.Q.Məmmədov "Azərbaycanda Turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri" , Bakı-2013
5. Филип Котлер, Джон Боуен, Джеймс Мейкейнс "Макетинг гостеприимство туризм" , 4-е издание Москва -2012
6. А.П. Дурович "Маркетинг в туризме" , Минск -2016
7. Дурович А., Анастасова Л. Маркетинговые исследования в туризме. М: Новое знание, 2002

Ülkər MƏMMƏDOVA
AMEA İqtisadiyyat İnstitutu, elmi işçi
ulker13@rambler.ru

Turizm sektorunun inkişafına təsir edən əsas iqtisadi aspektlər

Основные экономические аспекты, влияющие на развитие туристического сектора

Major economic aspects affecting the development of the tourism sector

Xülasə Məqalədə turizm sektorunun inkişafına təsir edən mexanizmləri ilə bağlı iqtisadi ədəbiyyatda mövcud yanaşmalar müqayisəli təhlil edilib. Müəllif əsas məqsədinin turizm bazarının uğursuzluğunu aradan qaldırmaqda və ya turizm fəaliyyətinin digər sektorların fəaliyyətinə əlavə problemlər yarada biləcəyi hallarda zəruriliyi nəticəsinə gəlir. O, turizm fəaliyyətinin digər sektorlara yarada biləcəyi xarici amillərə müdaxilənin vacibliyini əsaslandırır.

Açar sözlər: Bazarın uğursuzluğu, turizm, xarici amillər, ictimai mallar, tələb, təklif

Резюме В статье сравниваются существующие подходы к экономической литературе по механизмам, влияющим на развитие туристического сектора. Автор приходит к выводу, что его основной целью является устранение сбоев на рынке туризма или в случае, если туризм может создать дополнительные проблемы для деятельности других секторов. Это оправдывает необходимость вмешательства во внешние факторы, которые туристическая деятельность может иметь в других секторах.

Ключевые слова:рынка, туризм, внешние эффекты, общественные блага, спрос, предложение.

Abstract: The article compares the existing approaches to economic literature on the mechanisms affecting the development of the tourism sector. The author concludes that his main aim is to eliminate the failure of the tourism market, or in the event that tourism can create additional problems for the activities of other sectors. It justifies the need to intervene in the external factors that tourism activities can have on other sectors.

Key words: Failure of market, tourism, external effects, public goods, demand, supply.

Turizmin ölkədaxili və ya ölkələrarası səyahət kimi lap qədim tarixə malik olmasına baxmayaraq, onun iqtisadi fəaliyyət sahəsi olaraq xüsusilə, xarici valyuta mənbəyi kimi diqqəti cəlb etməsi XX əsrin axırlarına təsadüf edir. Belə ki, hətta XX əsrin ikinci yarısına qədər turizm bir qrup varlı təbəqənin qısa müddətli digər ölkələrə dincəlmək üçün səyahətlərindən başqa bir şey deyildi və iqtisadi fəaliyyət sahəsi kimi formalaşmamışdı. Lakin keçən əsrin ikinci yarısından başlayaraq, turizm sahəsində yaradılan dəyər qlobal dəyərdə mühüm çəkiyə malik olmağa başladı. Bu sektorda iqtisadi artım (ildə orta hesabla 10%) digər sahələrdə olan orta artım tempindən xeyli çoxdur. İqtisadi ədəbiyyatda bunun əsas səbəbi kimi aşağıdakılar göstərilir: 1) əhalinin gəlirlərinin artması və bu gəlirlərdən sağlamlıq və istirahət üçün istifadə etmək imkanının yaranması [1]; 2) istirahət üçün asudə vaxtın yaranması [3]; 3) nəqliyyat sisteminin inkişafı və daha əlçatan olması[4]; 4) telekommunikasiya sisteminin, xüsusilə internet sisteminin inkişafı və səfər etmək arzusunda olanların daha tez və dəqiq informasiya almaq imkanının artması [5]; 5) bəzi ölkələrdə ətraf mühitin çirklənməsi nəticəsində insanların qısamüddətli də olsa öz sağlamlıqlarını qorumaq üçün daha ekoloji təmiz ərazilərdə dincəlmək istəyi [6]; 6) bəzi ölkələrdə ucuz və yüksək keyfiyyətli turizm təkliflərinin artması, xüsusilə, ucuz hotellərin və xidmətlərin təklifi insanları səyahət etməyə sövq edir [7].

Hazırda turizm fəaliyyəti mühüm xidmət sahəsi kimi sürətlə inkişaf etməkdədir. Beynəlxalq turizm xərcləri 1995-2014-cü illər ərzində 500 mlrd ABŞ dollarından təqribən 3 dəfə artaraq 1,6 trilyon ABŞ dollarına qədər yüksəlib. Bu artım təkcə dolların dəyərinin dəyişməsi ilə bağlı deyil. Həm də səfər edənlərin sayının kəskin artması ilə bağlıdır. Belə ki, bu dövr ərzində turistlərin sayı 600 milyondan 1,5 milyarda qədər (təqribən üç dəfə) artıb. Həmin illər ərzində turizm gəlirlərinin ümumi ixracda payının azalması da turizmin iqtisadi əhəmiyyətinin azalmasına demək deyil. Belə ki, bu illərdə turizmin payının azalması dünya üzrə mal və xidmət ixracı həcminin kəskin artması fonunda baş verib.

Turizmdən gəlirlər inkişaf etməkdə olan bəzi ölkələrin ÜDM həcmində ciddi paya malikdir. Məsələn, Çinin Macao SAR, Maldiv, Palau dövlətlərinin ÜDM həcminin uyğun olaraq 70%-i, 67%-i və 52%-i turizmin payına düşür. Cənubi Qafqazda Gürcüstanın turizmdən əldə etdiyi gəlirlər ilbəil artmaqdadır. 2015-ci ilin məlumatlarına əsasən, Gürcüstanın turizm gəlirləri onun ÜDM həcmində 15%-dən çox olmuşdur. Qeyd edək ki, Azərbaycan üçün bu rəqəm 5%-dir. Əlbəttə, turizm gəlirlərinin nisbi deyil, mütləq qiymətlərlə müqayisəsində Azərbaycan Gürcüstandan o qədər də geridə qalmır. Belə ki, Dünya Bankının 2015-ci il üzrə məlumatlarına əsasən, Gürcüstanın turizmdən əldə etdiyi gəlirlərin həcmi 2,1 milyarda ABŞ dolları, Azərbaycanın əldə etdiyi gəlirlər isə 2,5 milyard ABŞ dolları olub. Lakin Azərbaycanın digər iqtisadi fəaliyyət sahələrindən əldə etdiyi gəlirlərin Gürcüstandan xeyli yüksək olması səbəbindən turizm gəlirlərinin ÜDM həcmindəki payı az görünür [2].

Artıq dünyanın bir çox ölkəsi turizm sənayesinə strateji prioritet sahə kimi yanaşaraq, onun inkişaf etdirilməsi üçün uzunmüddəti proqramlar hazırlayırlar. Hər bir dövlət öz ölkəsində turizm sənayesinin rəqabətliliyini və inkişafını stimullaşdırmaq məqsədilə müxtəlif mexanizmlərdən istifadə edir. Turizm digər iqtisadi fəaliyyət sahələrindən fərqli olaraq, dövlət tənzimlənməsinə və dövlətlərarası razılaşmalara daha çox ehtiyac duyur. Çünki turizm fəaliyyətində müxtəlif cəmiyyətlərə, mədəniyyətlərə, adət-ənənələrə və sosial səviyyələrə malik insanların görüşməsi ehtimalı var. Belə görüşlərin qarşılıqlı hörmət və ehtiramla başa çatması və hər tərəfin iqtisadi mənfəətinin təmin edilməsi əsas məqsəddir. Elə ona görə də 1989-cu ildə Haaqada keçirilən parlamentlərarası konfransda turizmlə bağlı qəbul edilən deklarasiyada bu sahənin inkişafında milli dövlətlərin məsuliyyəti xüsusilə diqqətə çatdırılır. Deklarasiyada qeyd edilir ki, turizm dövlət orqanları tərəfindən, həmçinin bu sahədə məşğul olan qurumlar tərəfindən planlaşdırılmalıdır. Bu zaman onun bütün aspektləri hərtərəfli nəzərə alınmalıdır. Deklarasiyada həmçinin elmi-texniki inkişafın sürətlə genişlənməsi ilə turizmin də sürətlə inkişaf edəcəyini nəzərə alaraq, ölkələrdə turizm sektoruna cavabdeh olan dövlət qurumlarının hüquq və vəzifələrinin genişləndirilməsi tövsiyyə edilir. Haaqa parlamentlərarası konfransın qəbul etdiyi bu deklarasiya turizm sektorunu hər bir ölkə üçün digər strateji prioritet sənaye sahələri ilə eyni səviyyəyə yüksəltdi.

Turizm fəaliyyətinin dövlət tənzimlənməsinin əsas prinsipi ondan ibarətdir ki, dövlət bu sektoru özünün strateji prioritet sahəsi hesab edərək, 1) onun inkişafına dəstək verir; 2) onun fəaliyyəti üçün əlverişli şərait yaradır; 3) bu sektorun prioritet istiqamətlərini müəyyən edir; 4) ölkənin turizm üçün əlverişli olması imicini yaratmağa çalışır; 5) beynəlxalq səviyyədə ölkənin turizm üçün əlverişli olmasını reklam edir; 6) turizmlə məşğul olan müəssisələri müdafiə edir.

Turizm fəaliyyətini tənzimləməklə dövlət bir neçə məqsədə, o cümlədən, vətəndaşların istirahət hüququnun təmin edilməsinə, belə istirahət üçün şəraitin yaradılmasına, turizm sənayesinin inkişafına, mədəni və tarixi irsin qorunmasına və sair nail olmağa çalışır. Turizm sənayesini özünün strateji prioritet sahəsi hesab edən hər bir dövlət ölkəyə gələn turistlərin sayının və turizmdən gələn gəlirlərin artmasında maraqlıdır.

Turizm sektorunun dövlət tənzimlənməsinin əsas mərhələsini bu sektorun inkişafı ilə bağlı qanunların, normativ və hüquqi aktların qəbul edilməsidir. Dövlət həmçinin turizm məhsullarının daxili və xarici bazarlara çıxarılmasına yardım edə bilər. Turizm fəaliyyəti üçün lisenziyalaşdırma, standartlaşdırma, sertifikatların verilməsi siyasətinin mahiyyətindən asılı olaraq, dövlət turizm fəaliyyətinə müəyyən müdaxilələr edə bilər. Digər tərəfdən, xarici vətəndaşların ölkəyə girişi və çıxışı ilə bağlı qaydaları müəyyən etməklə dövlət turizm fəaliyyətinə ciddi şəkildə təsir göstərir. Dövlət turizm fəaliyyəti ilə məşğul olan müəssisələrə vergi güzəştləri verməklə, onların investisiyalarının daha əlverişli yerləşdirilməsinə şərait yaratmaqla da turizmi dəstəkləyə bilər. Ölkəyə gələn turistlər üçün ölkə daxilində təhlükəsizlik, azad hərəkət mühüm əhəmiyyət daşıyır. Belə bir şəraitin yaradılması da dövlətin birbaşa funksiyalarına daxildir. Turizm fəaliyyətinin kadr potensialının möhkəmləndirilməsi, bu sahədə elmi tədqiqatların aparılmasına dəstəyin verilməsi də dövlətin turizm sektorunu tənzimləməsi kimi qəbul edilə bilər.

Turizm sektorunun strateji prioritet sahə hesab edildiyi bəzi ölkələrin təcrübəsi göstərir ki, bu ölkələrdə dövlət turizm fəaliyyəti üçün vergi güzəştləri, dotasiyalar və subsidiyalar tətbiq edirlər. Məsələn, Almaniyada turizm fəaliyyətində əlavə dəyər vergisi 15%, Yunanıstanda hotel və restoranlarda ƏDV 8%, İspaniyada isə hotel xidmətlərinə 6%, avtomobil kirayəsinə isə 16% müəyyən

edilib. Bu ölkələrdə turizmin inkişafını dəstəkləyən qanunlar və normativ aktlar qəbul edilib. Turistlərin daha asan və tez bir zamanda viza alması üçün şərait yaradılıb. Hətta əksər ölkələrdə turist səfərləri üçün viza rejimi ləğv edilib. Turistlərin təhlükəsizliyi, ətraf mühitin, mədəni və tarixi irsin qorunması üçün zəruri olan qanunvericlik aktları qəbul edilib və həyata keçirilir.

Turizm fəaliyyətinin planlaşdırılmasında dövlətin mühüm rolu var. Belə ki, turizmin genişlənməsinin ətraf mühitə və sosial sahəyə mümkün mənfi təsirlərinin qabaqcadan proqnozlaşdırılması və minimuma endirilməsi məsələsi, həmçinin turist obyektlərinin tikintisinin müasir standartlara və ekoloji tələblərə cavab verməsinə nail olmaq dövlətin iştirakı olmadan mümkün deyil.

Müxtəlif ölkələrdə turizm sektorunun inkişaf səviyyəsi arasındakı fərqlər müxtəlif amillərlə yanaşı, həm də dövlətin bu sektorla bağlı siyasətindən çox asılıdır. Bunu turizm sektorunun rəqabətliliyi ilə bağlı ölkələrarası müqayisələr də sübut edir. Dünya İqtisadi Forumunun hazırladığı Ticarət və Turizm Rəqabətliliyi İndeksi (T&TCI) məhz müxtəlif ölkələrdə turizm sektorunu daha cəlbedici edən amilləri və dövlət siyasətini ölçməyi nəzərdə tutur. T&TCI indeksi üç blokdan və onlara daxil olan 13 sub-indeksdən ibarət struktura malikdir. Birinci blok ticarət və turizmlə bağlı tənzimləyici hüquqi şəbəkəni əhatə edir. Bura 1) tənzimləyici qaydaları və siyasəti; 2) ətraf mühitin qorunmasını nəzərdə tutan tənzimləyici qaydaları; 3) təhlükəsizliyin təmin edilməsini nəzərdə tutan siyasəti; 4) sağlamlıq və gigiyena qaydalarını; 5) ticarət və turizmin prioritet olmasını təsdiq edən qaydaları əhatə edir. İkinci blok ticarət və turizm inkişafı üçün biznes mühitinin və infrastrukturun nə dərəcədə əlverişli olmasını əhatə edir. Bura 1) hava yolları infrastrukturunun olması; 2)yerüstü nəqliyyat sisteminin mövcudluğu; 3)turizm infrastrukturunun mövcudluğu; 4)informasiya kommunikasiya texnologiyaları infrastrukturunun mövcudluğu; 5)qiymətlərin rəqabətliliyi kimi sub-indekslər daxildir. Üçüncü bloka ticarət və turizm üzrə insan, mədəni və təbii resursların mövcudluğu daxildir. Bura 1) insan kapitalı; 2) milli turizmin qavranılması; 3) təbii və mədəni resursların mövcudluğu sub-indeksləri daxildir.

Turizm fəaliyyətinin dövlət tənzimlənməsi problemlərini öyrənən bəzi tədqiqatçılar belə dövlət müdaxiləsini birbaşa və ya dolayı müdaxilələr kimi iki növə ayırırlar. Birbaşa müdaxilələr kimi 1) bu sahələrin dövlət mülkiyyətində olması; 2) bu sahələrə dövlət maliyyəsi vasitəsilə subsidiyaların və ya hər hansı maliyyə vəsaitlərinin ayrılması; 3)bu sahələr üzrə özəl sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırılması; 4)bu sahələrə hər hansı vergi güzəştlərinin verilməsi; 5) bu sahələrə güzəştli və ya dövlət zəmanətli kreditlərin cəlb edilməsi; 6) gömrük və viza rejimləri ola bilər. Dolayı müdaxilələr kimi 1) dövlət maliyyəsinin səviyyəsini; 2)ölkədə ümumi vergi yükünün səviyyəsini; 2) ölkədə qiymətlərin tənzimlənməsini; 3) minimum əmək haqqı səviyyəsini; 4) məşğulluğun tənzimlənməsini göstərmək olar [8].

Turizm sektoruna dövlətin hər hansı bir müdaxiləsi, o cümlədən, qanunvericilik şəbəkəsinin hazırlanması, turizm fəaliyyətinin tənzimlənməsi və turizm fəaliyyətinə nəzarətin həyata keçirilməsi nəticə etibarı ilə, ya turizmin təklif funksiyasına, ya da tələb funksiyasına təsir ilə reallaşır. Məsələn, turistlərin cəlb edilməsində turizm infrastrukturunun inkişafı, ölkələrarası viza rejimlərinin sadələşdirilməsi və sair kimi "təklif"-i stimullaşdıran tədbirlərlə yanaşı, turizm yerlərinin tarixi və coğrafiyasının, yaxud cəmiyyətlərin mədəniyyətinin, folklorunun, kommunikasiya sistemlərinin və sair təbliği turizm xidmətlərində "tələb"in artmasına əhəmiyyətli təsir göstərə bilər.

Xarici amillərin turizm bazarına, xüsusilə turistlərin gəldiyi ölkələrdə iqtisadiyyata, ətraf mühitə, sosial-iqtisadi sahələrə və insanların həyat tərzinə təsirləri ilə bağlı geniş tədqiqatlar aparılıb. Bu tədqiqatların ümumiləşdirilməsi deməyə əsas verir ki, turizmin xarici amil kimi təsirləri müsbət və mənfi ola bilər. Müsbət təsirlər arasında ətraf mühitin çirklənməsinin nəzarətdə saxlanılmasını, infrastrukturun inkişaf etdirilməsini, çimərliklərin təmizlənməsini, parkların genişlənməsini, təbii istirahət yerlərinin saxlanılması, tarixi abidələrin qorunması, mədəni və sağlamlıq tədbirlərinin genişlənməsi və sair təsirləri göstərmək olar. Mənfi təsirlər arasında turist səfərləri nəticəsində hərəkətin intensivləşməsini, səs-küyün artmasını, ətraf mühitin çirklənməsini, turizm məqsədləri ilə yeni-yeni binaların tikilməsini, təbii mühitdə dəyişikliklərin baş verməsini, içməli suyun daha çox istehlak olunmasını, landşaftın dəyişdirilməsini, cinayətkarlığın artmasını, mədəni resurslara mümkün təsirlərin artmasını göstərmək olar. Əksər hallarda, müsbət təsirlər mümkün mənfi təsirlərin aradan qaldırılması üçün dövlətin həyata keçirdiyi tədbirlərlə bağlıdır.

İqtisadi ədəbiyyatda turizmin yaratdığı xarici amilləri təsnifləşdirərək M.Meleddu [16] onları üç növə ayırır: 1) iqtisadi; 2) ətraf mühit; 3) sosio-mədəni. İqtisadi xarici amil kimi turizm yerli iqtisadiyyatı inkişaf etdirərək məşğulluq səviyyəsini artırır, gəlirlər və həyat keyfiyyəti yüksəlir [18], infrastruktur layihələri genişlənir, ictimai nəqliyyat inkişaf edir, vergilərdən gəlirlərin həcmi artır, yerli marketlərdə satış həcmi yüksəlir. İqtisadi ədəbiyyatda turizm fəaliyyətinin törətdiyi neqativ iqtisadi xarici təsirlər kimi mal və xidmətlərin qiymətinin, həmçinin kirayə haqlarının artması və sair təsirlər göstərilir. B.Biagi və C. Detotto isə turizmin yaratdığı xarici təsirlər arasında cinayətkarlığın xüsusi yeri olduğunu qeyd edirlər.

İctimai malları istehsal etməyin mümkünsüzlüyünün turizm bazarının uğursuzluğunun bir nəticəsi kimi tədqiqinə iqtisadi ədəbiyyatda rast gəlinir. "İctimai mallar" anlayışı və turizm bir-biri ilə çox bağlıdır. Belə ki, turist səfərləri üçün hər hansı ölkənin və ya ərazinin seçilməsi bu ölkədə və ya ərazidə həyat səviyyəsindən çox asılıdır. Adətən turistlərin səfər etdikləri ərazilər və ya səfər müddətində əlaqədə olduqları obyektlər, o cümlədən, muzeylər, tarixi və mədəni obyektlər, təbii istirahət yerləri və sair ictimai mülkiyyətdə olur. Ona görə də hər hansı bir ölkədə turizmin inkişafında içtimai malların rolu tədqiq edilməlidir. Məsələn, H.Müller öz tədqiqatında cəmiyyətin mədəniyyətinin və ətraf mühitin turizm vasitəsilə kommersiyalaşması məsələlərini tədqiq edir.

Turizm fəaliyyəti ilə məşğul olan şirkətlər əsasən öz bizneslərini reklam edirlər. Ölkənin bütünlükdə reklam edilməsinə az hallarda rast gəlinir. Belə reklam edən şirkətlər olarsa, onların bu fəaliyyətindən digər şirkətlər heç bir xərc çəkmədən faydalanmış olurlar. Lakin bütünlükdə ölkədə fəaliyyət göstərən turist şirkətləri öz biznesləri əvəzinə ölkəyə turistlərin cəlb edilməsinə çalışsalar bu fəaliyyətdən həm onların özü, həm də turizmin dolayısı ilə təsir göstərdiyi digər şirkətlər faydalanmış olurlar. Turizm bazarı da digər bazarlar kimi ictimai mal istehsal etmək gücündə deyil. Ona görə də bu fəaliyyəti dövlət öz üzərinə götürməli olur [9].

Nəticə: Beləliklə, turizm bazarı da digər bazarlar kimi bəzi səbəblərdən, o cümlədən, xarici təsirlər və ictimai mallar istehsal edə bilməmək səbəbindən uğursuz ola bilirlər. Bu halda turizm fəaliyyətinə dövlət müdaxiləsinin edilməsi vacibdir.

ƏDƏBİYYAT

1. Bull A (1991) The economics of travel and tourism. Longman Cheshire, Australia
2. Weierman K, Fuchs M (1998) On the use and usefulness of economics in tourism. Int J Dev Plann Lit 13(3): 255–275
3. Patmore JA (1973) Recreation: Evaluating the human environment. In: Dawson JA, Doornkamp JC (eds) Evaluating the human environment. Edward Arnold, London, pp 224–248
4. Coccossis H, Nijkamp P (eds) (1995) Sustainable tourism development. Avebury, Aldershot, UK
5. Tsartas P (1998) Sustainable development and tourism. In Laskaris C (ed) Sustainable development. National Technical University, Athens, pp 121–155
6. Honey M (1999) Ecotourism and sustainable development. Island Press, Covelo CA
7. Lee CK, Var T, Blaine TW (1996) Determinants of inbound tourist expenditures. Ann Tourism Res 23(3):527–524
8. Mayıs Gülalıyev "Xarici iqtisadi əlaqələr: *tənzimləmə ilə liberallığın tarazlığı"* «Elm və Bilik» -2016,
9. Ü.İ.Məmmədova **"**Turizm sektorunun dövlət tənzimlənməsini zəruri edən əsas iqtisadi amillər" «*AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası*»-2019 №3

Elsevər CƏLİLOV
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
bakalavr
elseverclil71@gmail.com

Dağlıq Şirvan iqtisadi rayonunun turizim ehtiyyatlarının perspektivləri

Туристские ресурсы горно-Ширванского экономического района

Tourism resources of the mountainous Shirvan economic district

Xülasə: Bu məqalədə Şamaxı və İsmayıllı rayonunun turizim yerləri haqqında məlumat verilib. Dağlıq Şirvan iqtisadi-coğrafi rayonunun maraqlı yerlərindən bir neçəsi bu məqalədə öz əksini tapıb.
Açar söz: Şəlalə, Çay, Dağ, Su, Ağsuçay, Çağan, Qalaybuğurd.

Резюме. В этой статье дается информация о некоторых важных достопримечательностях Шамахинского и Исмаиллинского районов. В этой статье отражается некоторые интересные места экономико -географического района Нагорного Ширвана.
Ключевые слова: Водопад, Река, Гора, Вода, Агсучай, Чаган, Калайбугурд.

Abstract: In this article, there is information about the touristic places of Shamakhi and Ismailli. Some of interresting places of ecomonical-geographical region Mountainous Shirvan have been investigated in this article.
Keywords: Waterfall, Stream, Mountain, Water, Agsuchay, Chagan, Kalaybughurd.

Dağlıq Şirvan iqtisadi rayonun tərkibinə Ağsu, İsmayıllı, Qobustan və Şamaxı inzibati rayonları daxildir. Rayon ərazisi şirvan düzünü əhatə edir. Dağlıq Şirvan iqtisadi rayonun mövqeyi əlverişlidir. O, turizim-rekreasiya cəhətdən sürrətlə inkişaf edən Abşeron (şərqdən), Şəki-Zaqatala (şimal-qərbdən), Quba-Xaçmaz (şimal-şərqdən) və turizim imkanlarına perspektivli olan Aran (cənubdan) iqtisadi rayonları ilə həmsərhəddir. Dağlıq Şirvan iqtisadi rayonunun əlverişli iqtisadi-coğrafi mövqeyi onun nəqliyyatınada müsbət təsir göstərir. Rayon əsasən respublikanın mərkəzi və şərq hissələrində yerləşməsi onun ərazisinin tranzit əhəmiyyətini artırır. Oradan müxtəlif istiqamətli magistral avtomobil yollarının keçməsinə şərait yaradır və onun başqa regionlarda nəqliyyat əlaqələrini daha sərfəli edir. Bakıdan respublikanın qərbinə gedən magistral avtomoil yolu Dağlıq Şirvan iqtisadi rayonun ərazisindən keçir. Bakı şəhərindən rayonun qərb sərhəddinə qədər olan məsafə 160 km-dir. Dağlıq Şirvan iqtisadi rayonunun coğrafi mövqeyinin əsas üstünlüyü isə onun respublikanın mühüm ictimai-siyasi mərkəzi olan Abşeron iqtisadi rayonu ilə, xüsusilə Bakı və Sumqayıt şəhərləri ilə yaxınlıqda yerləşməsidir. Bu da rayonun ən ucqar yaşayış məntəqələrindən belə 3-4 saata respublikanın paytaxtı, əsas sənaye, elm, təhsil, mədəniyyət mərkəzi, ən mühüm nəqliyyat qovşağı olan Bakı şəhərinə getməyə imkan verir.

Tərkibi əsasən hidrokarbonatla, kükürdlə zəngin olan bulaqların suyundan müalicə və içmək üçün istifadə edilir. Yüksək dağ zonasında yerləşən, meşələrlə əhatə olunmuş Avaxıl, Qəleybuğurd, Əngəxaran, Dədəgünəş, Çuxuryurd, Sis, Zaratxeybəri, (Şamaxı rayonu) Diyallı, Basqal, Lahıc, Qalacıq (İsmayıllı rayonu) kəndlərinin ətrafı mineral bulaqlarla zəngindir. Bunlardan Zərgəran , Çağan, Qəleybuğurd, Çuxuryurd suları daha məhşurdur. Ən əhəmiyyətli Çuxuryurd bulaqlarıdır (suyun temperaturu 15-17 dərəcə. Gündəlik debiti 200 min litir). Bu suların böyük müalicəvi əhəmiyyəti olduğundan əhali onlardan bir çox xəstəliklərin müalicəsində geniş istifadə edir. Buradakı bulaqların çoxu qədimdən bəri yerli əhali tərəfindən yel, dəri, qadın xəstəliklərinin müalicəsində istifadə olunur.

Çuxuryurd mineral bulaqlar kompleksi, Şamaxı rayonunda Qırxbulaq, Cəngi kükürdlü suları, İsmayıllı rayonunda Basqal, İstisu, Bədo mineral termal sularını da bölgənin debiti yüksək olan məşhur mineral sularına aid etmək olar.

Şamaxıda olan şəlalər içərisində özünəməxsus gözəlliyə malik olan şəlalələrdən biri Qarlıbulaq şəlaləsidir. Ağsuçayın sol sahilində, Sarıuçqunun cənubunda yerləşən Çağan dağı mürəkkəb relyefə malikdir. Zəngin meşələrlə əhatələnmiş bu dağda kənd əhalisi arasında məhşur olan şəlalə var-

dır. Çay sahilindən dağa qalxmaq asan olsada dağın dabanından 20 metr yuxarıda torpaq qatı qayalarla əvəz olunur. Hətda uzunluğu 15-20 metr olan qayalar vardır.

Qarlıbulaq şəlaləsi Çağan dağının 275 metrliyində yerləşir. Şəlalənin ümumi hündürlüyü 11-14 m-dir. Eni yay aylarında bir metr və daha azdır.

Qarlıbulaq şəlaləsi İosimit tipinə aiddir. Onun eni digər fəsillərdə 3-4 m olur. Şəlalənin eninin genişlənməsini yuyulmuş qayalar üzərində olan mamır və şibyə bitkiləri sübut olur.

Qeyd edək ki, buranın suyunun bir hissəsi qış aylarında buz bağlayır. Yay aylarında belə şəlalə suyunun mənbəyində qar topalarına rast gəlinir.

Şəlalənin 25 metrliyində sol sahil boyu torpaq qatı sürüşüb. Ərazidə yerləşən, hündürlüyü 10-15 m olan vələs ağacı dərəyə uçub. Buda xüsusi mənzərə yaradır.

Şəlalənin ətəyindən mənbəyinə çıxmaq çətinlik törədir. Dərənin 30 m-də, sağda dağdan aşınıb gələn qaya parçaları vardır. Bu parçalardan ən böyüyü isə dərənin 180-200 metrliyindədir. Onun çəkisi təxminən 2 tona yaxındır.

Qarlıbulaq şəlaləsinin özünəməxsus bitki örtüyü vardır. Şəlalə suları altında mamır və şibyə (kolşəkilli, yarpaqşəkilli) ali bitkiləri yayılıb. Ətrafında isə cökə, palıd, gilas, vələs, fındıq, fıstıq, dəndə, moruq, pınqı və qıjıkimilər vardır.

Qıjı bitkisindən erkək qıjı daha əhəmiyyətlidir. Əsasən kölgəli, rütübətli və tropik meşələrdə olur. Qıjıkimilər fotosintez prosesində iştirak edir. Təbiətdə daş kömür əmələgəlməsində iştirak edir. Erkək qıjıların kökündən tibdə qurdqovucu dərman kimi istifadə olunur.

Qarlıbulaq şəlaləsinin vizual təsviri göstərir ki, burada cökə ağacları geniş yayılmışdır. Vəhşi bal arıları cökə ağacınım gülünə görə buraya gəlir. İnsanlar ağaclarda yuvalar qurub arıları əhilləşdirirlər.

Qayalıq olmasına baxmayaraq, şəlalənin çaya qədər olan hissəsi sıx meşələrlə örtülmüşdür. Yaz-Payız aylarında həcmi artan su daş parçalarıyla yanaşı meşənin münbit qatı olan, torpaq örtüyünü yuyaraq çay sahilində çökdürür.

Qayada iti axan suyun sürəti düzənlikdə zəifləyir. Dağlıq ərazidən yuyub gətirdiyi torpağı çayın sahilində akkumulyasiya etdirir. Çayın sahili boyu qıfabənzər düzənlik formalaşmışdır. Bu bir növ akkumulyativ düzənliyi xatırladır. Burdakı torpaq qatının qalınlığı 5-10 sm-dir. Torpağın üzərində çay süpürgəsi bitir. Şəlalə suyunun çay sahilinə çıxan hissəsində 1 ədəd çıtqına ağacı vardır.

Demək olar ki, hər il buraya insanlar gəlir. Əsasən mart, aprel aylarında burada bitən pəl və quzuqarnı bitkisi kənd əhalisinin həm qida həmdə gəlir mənbəyidir.

Qarlıbulaq şəlaləsi Çağan dağının relyefinin cavanlığını göstərir.

Azərbaycanın turizm üçün yararlı ərazilərindən biri də Şirvanın qədim mərkəzi olan Şamaxıdır. Şamaxının təbiəti dünyanı gəzib-dolaşan bir çox səyyahların heyrətinə səbəb olmuşdur. Şamaxı və Qobustan ərazisində palçıq vulkanları xüsusi morfostruktur tipi kimi geniş yayıplmışdır. Palçıq vulkanlarının hamısı yer səthində aydın görünən relyef forması əmələ gətirmir. Bunlardan Şamaxıda Çarhan, Göylər kəndləri ərazisində 50-yə qədər müxtəlif böyüklükdə palçıq vulkanı konusu vardır ki, bunun çoxu fəaliyyətdə olandır.

İsmayıllıda şəlalələrdə çoxdur. Qalacıq kəndinin yaxınlığındakı şəlalənin hündürlüyü 50 m, İstisu kəndinin yaxınlığındakı şəlalə 25 m, Burdoval kəndinin yaxınlığındakı şəlalə 50 m, Müdrüsə kəndinin yaxınlığındakı şəlalənin hündürlüyü 25 m-dir. Babadağın yaxınlığında, dəniz səviyyəsindən 3400-3500 m yüksəklikdə, bir-biri ilə yanaşı yerləşən üç təbii göl, eləcə də Kürdmaşı və Aşıqbayramlı kəndlərinin yaxınlığında yaradılmış iki süni göl bu rayonun inciləridir. Balıq ovu həvəskarları həmin göllərdə balıq tutmaq imkanlarından istifadə edə bilirlər.

Nəticə olaraq qeyd etmək lazımdırki, Bu ərazilərə turlar təşkil olunmalı, Youtube kanalı açılaraq bu ərazilər nümayış edilməli, müxtəlif bukletlər hazırlanmalı və digər Turizimin inkişafına təsir göstərən tədbirlər göstərilməlidir.

ƏDƏBİYYAT

1. Həbibə Soltanova Azərbaycan Respublikasında Rurizim və onun inkişafı. Bakı-2015.
9. Səmədov.S.S, Məmmədova .P.Ə. Geomorfologiya və dördüncü dövr çöküntülərinin geologiyası. Bakı-2011.
10. İlqar Hüseynov, Nigar Əfəndiyeva. Turizimin əsasları . Bakı-2007
11. Anar Faiq oğlu Mirzəyev Azərbaycanda Turizim Potensialından İstfadənin Səmərəliliyinin Artırılması İstiqamətləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün. Bakı -2016

Camal HACIYEV
Azərbaycan Turizm və Menecment Universiteti,
i.ü.f.d..
jamalhajiyev@yandex.ru

Umnisə HƏSƏNOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
magistr
H.Umnise@gmail.com

Turizm sektorunun investisiyalaşdırılması xüsusiyyətləri

İnvestment characteristics of the tourism sector

Особенности инвестирования в туристический сектор

Xülasə: Turizm sektoru iqtisadi inkişaf üçün çox əhəmiyyətli rola malikdir. Belə ki, artan rəqabət şəraitində ölkə turizminə investisiyaların xüsusilə, xarici investisiyaların cəlb edilməsi ölkə daxilində bu sahənin inkişafını sürətləndirə bilər. Bununla əlaqədar olaraq, dövlət tərəfindən biznes və investisiya mühitinin yaxşlaşdırılması, investisiyaların təşviq edilməsi, sahibkarlıq fəaliyyətinin inkişaf etdirliməsi, yerli istehsalın himayə edilməsi, daxili bazarın qorunması, idxal və ixrac əməliyyatlarına mexanizmlərin tətbiqi, qeyri-neft sektorunun stimullaşdırılması, turizm sahəsində investisiya imkanlarının genişləndirilməsi və s. bir çox qərarlar qəbul edilib və buna uyğun olaraq müəyyən tədbirlər həyata keçirilir. Məhz bu məqalədə turizm sektoruna investisiyaların cəlb edilməsi, turizm sektorunun investisiya cəlbediciliyi amillərindən və ölkəmizdəki turizm üçün mövcud üstünlüklərdən bəhs edilir.
Açar sözlər: Turizm, investisiya, investisiya cəlbediciliyi, turizm investisiyaları, cəlbedicilik amilləri.

Резюме: Туристический сектор играет очень важную роль в экономическом развитии. Так, в условиях растущей конкуренции привлечение инвестиций в туризм страны, особенно иностранных, может ускорить развитие этой сферы внутри страны. В связи с этим государством проводится работа по улучшению бизнес-и инвестиционной среды, стимулированию инвестиций, развитию предпринимательской деятельности, защите местного производства, защите внутреннего рынка, внедрению механизмов импортных и экспортных операций, стимулированию ненефтяного сектора, расширению инвестиционных возможностей в сфере туризма и др. было принято много решений, и в соответствии с этим осуществляются определенные меры. Именно в этой статье рассматриваются факторы привлечения инвестиций в туристический сектор, инвестиционной привлекательности туристического сектора и преимущества туризма в нашей стране.
Ключевые слова: Туризм, инвестиции, инвестиционная привлекательность, туристические инвестиции, факторы привлекательности.

Abstract: The tourism sector has a very important role for economic development. Thus, in the conditions of increasing competition, attracting investments in tourism, in particular foreign investments, can accelerate the development of this sector in the country. In this regard, improvement of business and investment climate by the state, promotion of investments, development of entrepreneurial activity, patronage of local production, protection of the domestic market, introduction of investment and export operations, stimulation of the non-oil sector, expansion of investment opportunities in tourism, etc. many decisions have been made and, accordingly, certain measures are taken. It is in this article that the attraction of investment in the tourism sector, the factors of attraction of investment in the tourism sector and the current trends for tourism in our country are discussed.
Key words: Tourism, investment, investment attractiveness, tourism investment, attractiveness factors.

Bir çox ölkələrdə milli iqtisadiyyatın strukturunda turizm sektoru iqtisadi fəaliyyətin prioritet istiqamətlərindən biridir. Turizm sənayesinin müvəffəqiyyətli fəaliyyət göstərməsinin zəruri şərtlərindən biri investisiyaların cəlb edilməsidir, çünki iqtisadi fəaliyyətin hər hansı bir sahəsinin effektivliyi-

ni təmin etmək üçün resursların olması vacibdir, dövlət fondlarının ayrılması isə onun saxlanmasını və inkişafını tam əhatə etməz. Müasir şəraitdə ölkələr öz iqtisadiyyatlarını inkişaf etdirmək üçün investisiya imkanlarını artırmağa səy göstəririlər. İnvestisiya latın sözü olub "invest" sözündən yaranmışdır və mənası "geyindirmək" və "sərmayə qoyuluşu" kimi ifadə olunur. İnvestisiya gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intelektual sərvətlərdən ibarətdir[2]. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkənin iqtisadi və siyasi gücünün artırılması, eyni zamanda beynəlxalq mövqeyini möhkəmləndirmək istiqamətində bir çox əhəmiyyətli işlər görülmüşdür. Ölkənin iqtisadi gücünün və beynəlxalq mövqeyini möhməkləndirmək üçün ölkəyə investisiya cəlb olunmali idi. Bu məqsədlə 15 yanvar 1992-cildə "Xarici investisiyanın qorunması haqqında" və 13 yanvar 1995-cildə "İnvestisiya fəaliyyəti haqqında" qanunlar qəbul olunmuşdur. Bu qanunlarda investisiya fəaliyyəti, investorların hüquq və vəzifələri, fəaliyyət növləri və s. öz əksini tapmışdır.

Qanuna əsasən investisiyaların Respublikamızın iqtisadiyyatına intensiv şəkildə cəlb olunmasına, ondan ölkəmizin sosial-iqtisadi bazasının, eyni zamanda beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafını nəzərə alaraq səmərəli istifadə edilməsinə yönəldilmişdir və mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir [4].

Aşağıda göstərilən cədvəldə ölkə iqtisadiyyatına qoyulan investisiyalar verilmişdir.

Cədvəl 1. Ölkə iqtisadiyyatına yönəldilən investisiyalar (mln.manat)

	1995	**2000**	**2005**	**2010**	**2011**	**2012**	**2013**	**2014**	**2015**	**2016**
Cəmi investisiyalar	480.7	1289.8	6733.4	14118.9	17048.8	20251.1	12448.2	21890.7	20057.4	22868.5
Daxili investisiyalar	149.3	829.5	2104.9	7499.2	10199.0	12148.4	13178.9	12715.0	9058.5	6652.4
Xarici investisiyalar	331.4	460.3	4628.5	6619.7	6849.8	8102.7	8269.3	9175.7	10998.9	16216.1

Yuxarıdakı cədvəldən aydın görünür ki, ölkə iqtisadiyyatına yönəldilən investisiyaların, xüsusilə də xarici investisiyaların həcminin hər il artdığını görmək olar. Daxili investisiyaların isə 2015-ci ildə azaldığını görmək olar. Bunun səbəbi isə həmin ildə baş verən devalvasiya nəticəsində manatın məzənnəsinin dollar qarşısında azalması idi. Lakin son zamanlar iqtisadiyyata yönəldilən investisiyaların həcmi artmaqdadır. Son bir neçə ildə məzənnənin sabit qalması investisiyaların həcminin artmasına öz təsirini göstərir.

Turizm investisiyaları turizm şirkətləri və turizm sahələri üçün vacibdir. Turizm şirkətlərinə investisiya qoymaqla onların gələcək məhsuldarlığı daha da güclənir. Digər tərəfdən, turizmə sektoruna daxil olan turizm sərmayələri, turizm tələbatını təmin etmək üçün ümumi potensialı dəstəkləyəcəkdir. Ümumiyyətlə, turizm investisiyaları turizm layihələrinin inkişafı üçün lazımı vəsaitlər təmin edir. Bu yol daha çox turisti cəlb edən və artım gətirən turizm obyektlərinə, istiqamətlərə və xidmətlərə təsir göstərir.

İnvestisiya cəlbediciliyi ərazi ilə bağlı işgüzar faydaların birləşməsi yolu ilə investisiya cəlb etmək bacarığı kimi başa düşülür.Bu üstünlüklər işgüzar fəaliyyətin inkişaf etdirildiyi sahənin xüsusiyyətləri və ərazi faktorları olaraq da adlandırılır. Buna görə ərazi faktorları müəyyən bir sahənin investisiya cəlbediciliyini müəyyənləşdirir.

Turizm sektorunun investisiya cəlbediciliyi faktorlarına aşağıdakılar aiddir:

1. Nəqliyyatın əlçatanlığı– istehsalda zəruri olan xammal və komponentlərin təchizatı və tədarük xərclərinin azaldılmasını, məsləhətçilər, müştərilər və digərləri arasında birbaşa görüşlərin keçirilməsini asanlaşdırır. Beləki, Hava Nəqliyyatı Assosasiyasının təşkil etdiyi sorğuda dünyanın 5 ölkəsindən olan 600-dən çox şirkət iştirak etmişdir. Sorğunun nəticəsində müəyyən olunmuşdur ki, şirkətlərin 63%-i turizm sektoruna investisiya qoyan zaman nəqliyyat imkanlarına daha çox diqqət yetirirlər. Nəqliyyat qovşaqlarından kənar yerləşən dövlətlərə investisiya qoyuluşu digər ölkələrlə müqayisədə 30% azdır.
2. Əmək resursları – işçi qüvvəsi investisiya cəlbediciliyinə təsir göstərir, ona görə ki, işçi qüvvəsi nə qədər çox olarsa, müvafiq münasibəti (etibarlı, məsuliyyətli, peşəkar və s.) olan işçilərin qəbulunu asanlaşdırar. Məsələn: xarici ölkələrdə bir turistə xidmət edən işçilərin sayı 8-12 və daha çox olduğu halda ölkəmizdə bu göstərici çox aşağıdır.
3. Bazarların udma qabiliyyəti – potensial investorların öz mallarını və ya xidmətlərini regional bazarda satmağa imkan verərək investisiya cəlbediciliyinə təsir edir.
4. İqtisadi infrastruktur – investisiya prosesinin asanlaşdırılması və investisiya layihəsinin işlənməsi vasitəsilə ivestisiya cəlbediciliyi səviyyəsinə təsir göstərir. İnvestisiya cəlbediciliyi baxımından iqtisadi infrastruktur komponentləri kimi müəssisələrin sıxlığı, sərgilərin sayı, azad iqtisadi zonaların istismarı və s. göstərmək olar.
5. Sosial infrastruktur – investisiya cəlbediciliyinə dolayı yolla təsir göstərir. Belə ki, sosial infrastruktur həyat səviyyəsinin yaxşılaşdırılması, fikir mübadiləsi üçün müəyyən mühitin formalaşdırılması, müştərilər arasında təlim kursları, konfransların təşkil olunması kimi məsələləri əhatə edir.
6. İqtisadi inkişafın səviyyəsi – investor tərəfindən tələb oluna bilən texniki mühiti formalaşdırdığından investisiya cəlbediciliyinə təsir edir. İqtisadi inkişaf səviyyəsi ilə əlaqədar amillərə - əmək məhsuldarlığı, xarici kapitalı olan şirkətlər və s. aiddir.

   Təbii mühit şəraiti – investisiya cəlbediciliyinə aşağıdakı kimi təsir göstərir:
7. Qanunla qorunan təbii mühitin mövcudluğu, çirklənməyə məruz qalmış ərazilərin olması və onların təmizlənməsi üçün böyük vəsait tələb etməsi və s. investisiya layihəsini tətbiq etməyə mənfi təsir edir.
8. İctimai təhlükəsizlik səviyyəsi – investisiya layihəsinə maliyyə cəhətdən məhdud dərəcədə öz təsirini göstərir. Dövlət təhlükəsizliyinin aşağı səviyyədə olması əmlakın və işçilərin qorunmasının artmasına gətirib çıxarır. İnvestisiya cəlbediciliyinin formalaşmasında bu amilin rolu daha çox şəxsi təhlükəsizliyi və digər işçilərə və ya iş ortaqlarına olan məsuliyyətinə təsir göstərir [6, s. 15-18].

Son zamanlar ölkəmizdə də inevstisiyaların, xüsusilə xarici investisiyaların cəlbedilməsi məqsədilə bəzi tədbirlər görülmüşdür. Belə ki, investisiyaların cəlb edilməsini təmin etmək üçün münbit şərait formalaşdırmaq məqsədi ilə mümkün olduğu qədər tədbirlər həyata keçirilmişdir. Məhz bununla əlaqədar olaraq siyasi, sosial, iqtisadi və təşkilati tədbirlərin reallaşdırılması yüksək səviyyədə təmin olunmuşdur. Bunun nəticəsi olaraq, ölkə iqtisadiyyatına cəlb olunan investisiyaların həcminin illər üzrə artdığını yuxarıda göstərilən cədvəldə görmək mümkündür. Bununla yanaşı qeyri-neft sektorunun da inkişafı əsas prioritet istiqamətlərdən biridir. Qeyri-neft sektoru içərisində turizmin rolu daha böyükdür. Prezidentimiz tərəfindən 2011-ci ilin "Turizm ili" elan edilməsi, mextəlif yarışlara ev sahibliyi edilməsi, müxtəlif qanunların qəbul edilməsi və s. turizmə olan dövlət qayğısını göstərir.

4 iyun 1999-cu ildə "Turizm haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. Qanun Respublikamızda turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönləndirilmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdir-məyə və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləməyə, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydasını müəyyənləşdirməyə xidmət edir [3].

Nəticədə ölkəmizə investorların cəlb edilməsində bir sıra üstünlüklər yaranmışdır və bunlara aşağıdakılar aiddir:

- Xarici investisiyalar üçün münbit şəraitin mövcud olması;

- İnvestorların hüquqlarının və mənafeylərinin qorunması məqsədilə hüquqi bazanın möhkəmləndirilməsi;
- Zəngin resurs ehtiyyatlarının mövcud olması;
- Qeyri-neft sahəsində geniş imkanların mövcud olması;
- Ölkəmizin əlverişli strateji coğrafi mövqeydə yerləşməsi;
- Nəqliyyat infrastrukturu;
- Əmək bazarının rəqabətqabiliyyətli olması;
- Açıq iqtisadiyyat quruluşu;
- Respublikamızın bir sıra beynəlxalq layihələrdə iştirak etməsi;
- Müxtəlif sahələrdə güzştlərin mövcud olması;
- İnvestisiya Təşviq Sənədinin verilməsi və s.

Respublikamızda nəqliyyat infrastrukturu yüksək səviyyədə inkişaf etdirilir. Bunun bariz nümunəsi kimi, 2018-ci ilin may ayında Ələt Ticarət Limanı istifadəyə verilmişdir. Bu 2017-ci ildə istismara verilən Bakı-Tbilisi-Qars dəmir yolundan sonra ölkəmizdə nəqliyyat sahəsində ikinci böyük bir hadisədir. Bu layihələrin icrası ölkəmizin nəqliyyat və logistika mərkəzinə çevrilməsində əhəmiyyətli rola malikdir. Bundan əlavə Şimal-Cənub və Şərq-Qərb istiqamətində nəqliyyat dəhlizinin yaradılmaslda öz təsirini göstərmişdir [9].

Sosial infrastrukturun inkişafını təmin etmək üçün bir sıra layihələr hazırlanması və təşkili ilə əlaqədar tədbirlər görülür. Beləki, 2014-cü ildə Azərbaycanda "Mədəniyyət konsepsiyası" qəbul edilmişdir. Bu konsepsiya çərçivəsində "Dövlət rəsm qalereyalarının perspektiv inkişafı üzrə Dövlət Proqramı (2015-2025-ci illər)", "Azərbaycan qeyri-mədəni irsinin qorunmasına dair dövlət Proqramı (2014-2020-ci illər)", "Qafqaz Albaniyası irsinin tətbiqi, mühafizəsi və təbliğinə dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin inkişafı üzrə Dövlət Proqramı (2014-2018-ci illər)" və s. layihələr hazırlanmışdır. Eyni zamanda dövlət tərəfindən pulsuz icbari ümumi orta təhsil almaq hüququnu da formalaşdırır. Turizmin inkişafında əhalinin mədəni səviyyəsi müsbət baxımdan təsir göstərdiyi kimi, turizm əhalinin mədəni səviyyəsinin yüksəlməsinə də şərait yaradır. Aparılan sorğu nəticəsində müəyyən olmuşdur ki, insanlar 2015-ci il Avropa Olimpiya Oyunları ilə əlaqədar ölkəmizə gələn turistlərin onların davranışlarına, dünyagörüşünə təsir etdiyini (23,6%), dil öyrənməyin zəruriliyini anladıqlarını (47,7%) qeyd etmişdirlər.

Ölkəmizdə bazar münasibətlərinə söykənən liberal iqtisadi sistemin qurulmasının, vətəndaşların iqtisadi azadlığına, təşəbbüskarlığına geniş meydan verilməsinin, Azərbaycanın zəngin təbii sərvətlərindən səmərəli istifadə edilməsinin, respublikanın investisiya cəlbediciliyinin yüksəldilməsinin və digər tədbirlərin nəticəsi olaraq Azərbaycan iqtisadiyyatı bugün sürətli şəkildə inkişaf edir [10].

Respublikamızda milli və iqtisadi təhlükəsizliyini təmin edən dövlət idarəetmə orqanları mövcuddur ki, bunlara aşağıdkılar aiddir: Müdafiə Şurası, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Hökuməti, Təhlükəsizlik üzrə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, fövqəladə hadisələr üzrə qurum, Sərhəd Qoşunları Xidməti, Xarici İşlər Nazirliyi, hüquq-mühafizə orqanları, Milli Təhlükəsizlik Nazirliyi, Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Prokurorluq, Xarici Kəşfiyyat Xidməti İdarəsi, Rabitə və İnformasiya Dövlət Agentliyi, Dövlət Gömrük Komitəsi və s.

Cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində son illər Əlahiddə Çevik Polis Alayının peşəkarlığı, mənəvi-psixoloji və fiziki hazırlıq səviyyəsinin xeyli artdığını, qanunla qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirməsi, respublikamızda, onun paytaxtında ictimai qayda və təhlükəsizliyin, əmin-amanlığın, sabitliyin nümunəvi təminində önəmli rol oynadığını, bunun nəticəsi olaraq, keçirilmiş bir çox beynəlxalq və ölkədaxili tədbirlər zamanı ictimai asayişin yüksək səviyyədə qorunduğunu, görülən işlərdə, qazanılan uğurlarda qeyd edilən qurumların böyük rolu vardır [11].

Cədvəl 2. Turizm üçün xarakterik olan sahələrə yönləndirilən investisiyaların həcmi (milyon manat).

	2009	**2010**	**2011**	**2012**	**2013**	**2014**	**2015**	**2016**	**2017**	**2018**
Turizm üçün xarakterik sa-	527.8	949.2	1,407.80	1,478.20	1,371.00	2,204.00	1,063.9	363.0	267.3	292.7

hələrə qoyulan investisiyaların həcmi,										

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Turizim üçün xarakterik olan sahələrə yönəldilən investisiyaların həcminin artdığını cədvəl 2 də görmək olar. 2015-ci ildə baş verən hadisələr turizm sektorundan da yan keçməmişdir. Hazırda bu sahəyə yönəldilən investisiyaların həcmi artmaqdadır.

Respublikamizda bu üstünlüklərin olmasına baxmayarq, turizm sektoruna yönləndirilən investisiyaların həcmi azdır. Bu onunla əlaqədardır ki, bu sahədə bir sıra problemlər vardır. Həmin problemlərin həll edilməsi üçün bir sıra tədbirlər görülməlidir. Çünki turizmin ölkə ərazisində inkişafı həm iqtisadi, həm də sosial baxımdan müsbət təsir göstərir. İqtisadi baxımdan müsbət təsir ərazinin gəlirli sahə olmasına və ölkəyə əlavə gəlirlərin cəlb olunmasında əhəmiyyətli rola malikdir. Sosial baximdan isə ölkədə yeni iş yerlərinin açılmasını təmin edərək işsizliyi azaldır, yeni təşkilatların formalaşmasına, sahibkarlığın inkişafına təkan verir. Turizm eyni zamanda regionlarda ev təsərrüfatlarının və əhalinin ehtiyaclarına uyğun xidmət sferası formalaşdırır. Məhz bu baxımdan turizm sektorunun investisiya cəlbediciliyini təmin edən amillərin inkişaf etdirilməsi, həmin sahədə investorların işləmələri üçün əlverişli və rahat iş mühitinin yaradılması vacib hesab olunur. Turizm sektorunun investisiya cəlbediciliyini artırmaq üçün müəyyən təkliflər irəli sürmək olar:

- Ölkəmizin turizm potensialının tanıdılması;
- İnvestisiya sahələrinin siyahısını tətib etmək;
- Müvafiq sahəyə uyğun olaraq qanunların hazırlanması və tətbiqi;
- İxtisaslı kadrların sayının artırılması;
- Xarici təcrübənin mənimsənilməsi;
- Mövcud infrastrukturun müasir tələblərə cavab verməsi üçün müəyyən işlərin görülməsi;
- Qiymətlərin tənzimlənməsi;
- Hüquqi bazanın beynəlxalq standartlara uyğunlaşdırılması;
- Azad iqtisadi zonaların yaradılması və s.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayəsinin inkişafına dair Strateji Yol Xəritəsi;
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi 2018;
3. Azərbaycan Respublikasının "Turizm haqqında" qanunu;
4. Azərbaycan Respublikasının "İnvestisiya fəaliyyəti haqqında" qanunu;
5. M.C.Atakişiyev., R.N.Nurəliyeva., N.H.Abbasova.,"İnvestisiya fəaliyyətinin təşkili", Bakı 2012;
6. M. Tarkowski., "The investment attractiveness of the regions and sub-regions of Poland", Dissertasiya, Gdansk 2014, səh.15-18;
7. P.Tiainen., "Driving factors of tourism investment decisions and Lapland's attractiveness in tourism investments"., Laurea Leppävaara 2013.
8. N. Məmmədova., Azərbaycanda turizm sisteminin inkişafı, dissertasiyası., Bakı 2015;
9. http://www.respublica-news.az/index.php/dig-r-x-b-rl-r/dig-r-x-b-rl-r/item/20761-muasir-naegliyyat-infrastrukturu-davaml-igtisadi-inkishaf-shaertlaendiraen-aesas-amillaerdaendir
10. http://anl.az/down/meqale/azerbaycan/2011/may/173449.htm
11. https://mia.gov.az/?/az/news/view/895/

Mehri HÜSEYNOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim
bmmursa@gmail.com

Azərbaycan respublikasının beynəlxalq maliyyə-kredit təşkilatları ilə qarşılıqlı əlaqələrin müasir vəziyyəti

Текущее состояние отношений с международными финансовыми институтами Азербайджанской республики

Current state of relations with international financial institutions of the republic of Azerbaijan

Xülasə: Müəllif məqalədə qeyd edir ki, ölkənin xarici ticarət əlaqələrində fəal iştirakı ona əhəmiyyətli üstünlüklər gətirir və yeni perspektivlər açır. Bu, mövcud olan maddi və mənəvi potensialı daha səmərəli şəkildə tətbiq etməyə, dünyada mövcud olan ən yeni elmi və texniki nailiyyətlərə qoşulmağa, iqtisadiyyatın yenidən qurulmasını daha sürətli şəkildə reallaşdırmağa, xalqın tələbatlarını daha dolğun və müxtəlif surətdə təmin etməyə, eləcə də milli strateji maraqları uğurla həyata keçirməyə imkan verir.
Açar sözlər: iqtisadiyyat, beynəlxalq iqtisadi münasibətlər, iqtisadi təşkilatlar, təhsil, elm.

Резюме: Автор отмечает, что активное участие страны во внешнеторговых отношениях приносит значительные преимущества и открывает новые перспективы. Это дает возможность более эффективно использовать существующий материальный и духовный потенциал, объединять последние достижения науки и техники в мире, ускорять реализацию трансформацию экономики, более полно и успешно удовлетворять потребности людей в национальных стратегических интересах.
Ключевые слова: экономика, международные экономические отношения, экономические организации, образование, наука.

Abstract: The author notes that the active participation of the country in foreign trade relations brings significant advantages and opens new perspectives. It is more effective in utilizing existing material and spiritual potential, joining the latest scientific and technical achievements in the world, accelerating economic restructuring, meeting the needs of the people more fully and successfully with national strategic interests.
Keywords: economics, international economic relations, economic organizations, education, science.

SSRİ-nin dağılmasından sonra öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan beynəlxalq iqtisadi münasibətlər sisteminə tamhüquqlu subyekt qismində daxil olmuşdur. Azərbaycanın milli maraqlarına uyğun olaraq, beynəlxalq iqtisadi münasibətlər sistemində Azərbaycan dövlətçiliyin möhkəmləndirilməsi, siyasi sabitlik, ərazi bütövlüyünün və dövlət sərhədlərinin toxunulmazlığının təmin olunması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və bu kimi digər aspektlər mütləq şəkildə nəzərə alınmalıdır.

Azərbaycanın beynəlxalq inteqrasiya proseslərinə daxil olması, xarici iqtisadi əlaqələrdə yeni nailiyyətlərin əldə olunması üçün əsas şərt ölkəmizin nüfuzlu beynəlxalq iqtisadi təşkilatların sıralarına qəbul edilməsidir. Azərbaycan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB), habelə Beynəlxalq Valyuta Fondu (BVF) kimi beynəlxalq təşkilatların üzvünə çevrilmişdir. Adıçəkilən həmin təşkilatlar 1945-ci ildə Bretton-Vuds (ABŞ) şəhərində yaradılmışdır. Bu təşkilatların yaradıcıları Böyük Britaniya, Çin, SSRİ, ABŞ, Fransa kimi ölkələr olmuşdur. Qeyd etdiyimiz bu təşkilatların yaradılmasının məqsədi bundan ibarət olmuşdur ki, İkinci dünya müharibəsindən sonra iqtisadi və maliyyə sistemlərin dağılması şəraitində təşkilata üzv olan dövlətlər arasında valyuta ittifaqını yaratmaq mümkün olsun [2].

Beynəlxalq valyuta fondu konkret ölkədə maliyyə-valyuta sisteminin sabitləşdirilməsi məqsədilə həyata keçirilməsi üçün tapşırıqların şərtlərini müəyyən edir. Bu quruma daxil olan ölkələr üçün onun (BVF-nun) tövsiyyələri məcburi xarakter daşıyır. Hal-hazırda Azərbaycan Beynəlxalq

Yenidənqurma və Inkişaf Bankı (BYİB), habelə Beynəlxalq Valyuta Fondu (BVF) 170-dən çox üzv-ölkəni birləşdirir. Azərbaycan bu təşkilatlara 1992-ci ilin sentyabr ayında daxil olmuşdur. BVF-da Azərbaycana aid kvota 106,86 milyon ABŞ dolları məbləğində müəyyən edilmişdir. Beynəlxalq valyuta fonduna üzv olmaq üçün üzvlük haqqı kvota ilə bərabər tutulur. Üzvlük haqqının 22,8 faizi stabil valyutada, digər hissəsi isə - milli valyutada ödənilməlidir [1].

BVF Azərbaycana həm texniki, həm də maliyyə tərəfdən yardım edir. Bu qurumun ekspertləri tərəfindən Azərbaycanın iqtisadiyyatı təhlil olunur, onun inkişafı ilə bağlı proqnozlar hazırlanır. Fond tərəfindən ayrılmış "stend-bay" kreditləri respublikamızın iqtisadiyyatına artıq öz müsbət təsirini göstərməkdədir.

Hal-hazırda ən fəal müsəlman təşkilatı "İslam konfransı"dır**.** Bu təşkilat 1969-cu ildə Rabbat (Mərakeş) şəhərində yaradılmışdır. 1991-ci ildə Azərbaycan bu təşkilatın 47-ci üzvü olaraq qəbul edilmişdir. Onun sayəsində ölkəmiz İslam İnkişaf Bankının (İİB) üzvü olmuşdur. Həmin bank 1974-cü ildə yaradılmışdır və onun 30 üzvü var. İslam inkişaf bankı iri struktura malikdir, inkişafda olan ölkələrə yardım edir, maliyyələşmə, kreditləşmə, maliyyə yardımın göstərilməsi və bu kimi digər funksiyaları yerinə yetirir [4].

Azərbaycan həmçinin bəzi regional iqtisadi təşkilatlara da daxildir. Onların arasında perspektivli qurumlardan biri Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatıdır (QİƏT). Bu təşkilatın təşəbbüskarı Türkiyədir. 1992-ci ilin fevral ayında Azərbaycan bu təşkilata daxil olmuşdur. Bu, gələcəkdə Azərbaycanın regionda tutduğu mövqeyə, eləcə də, dünyada qərarlaşdığı iqtisadi-siyasi mövqeyə də öz müsbət təsirini göstərəcək. Zənnimizcə, QİƏT çərçivəsində iqtisadi əməkdaşlıq əlaqələrindən real müsbət nəticələr əldə etmək üçün Qara dəniz və Xəzər dənizi arasında "təmas" nöqtələri tapmaq lazım gələcəkdir.

Azərbaycan həmçinin MDB-nin üzvüdür. Bu təşkilatla bağlı müxtəlif rəylər mövcuddur. Biz isə hesab edirik ki, hər şeydən əvvəl bu təşkilatı iqtisadi struktur kimi təkmilləşdirmək lazımdır. Çağdaş dünyamızda xarici bazarlara çıxış imkanlara malik olmamız həlledici əhəmiyyət kəsb edir. Müstəqil dövlətlər birliyinə daxil olan ölkələr Azərbaycan üçün bazar rolunu oynaya bilər.

Yuxarıda qeyd etdiyimiz faktlar onu göstərir ki, təsərrüfat əlaqələrin qloballaşması daim güclənir. Bu, inkişaf etmiş ölkələri inkişafda olan ölkələrə borc verməyə stimullaşdırır. Bunun nəticəsində həm borc verən ölkələr, həm də ümumilikdə bütün dünya təsərrüfat sistemi qazanır.

Suveren ölkə olan Azərbaycan da həmin prosesə qoşulub. Bu, neft müqavilələrinin bağlanılmasından sonra xüsusi intensivliyi ilə baş vermişdir. Dünyanın maliyyə strukturları, ilk növbədə, Beynəlxalq Valyuta Fondu, etibarlı bir tərəfdaş qismində çıxış edən Azərbaycana kreditlər ayırır. Azərbaycan da öz növbəsində beynəlxalq maliyyə təşkilatların tələblərini tam dəqiqliklə və vaxtında yerinə yetirir [5].

Ölkənin xarici ticarət əlaqələrində fəal iştirakı ona əhəmiyyətli üstünlüklər gətirir və yeni perspektivlər açır. Bu, mövcud olan maddi və mənəvi potensialı daha səmərəli şəkildə tətbiq etməyə, dünyada mövcud olan ən yeni elmi və texniki nailiyyətlərə qoşulmağa, iqtisadiyyatın yenidən qurulmasını daha sürətli şəkildə reallaşdırmağa, xalqın tələbatlarını daha dolğun və müxtəlif surətdə təmin etməyə, eləcə də milli strateji maraqları uğurla həyata keçirməyə imkan verir.

Müstəqil bir dövlət kimi Azərbaycanın mövcudluğunun, demək olar ki, bütün tarixi ərzində onun xarici ticarət fəaliyyəti elmi cəhətdən əsaslandırılmış, məntiqli qərarların qəbul edilməsi üçün xüsusiyyət təşkil edən bir poliqon olmuşdur. Odur ki, hal-hazırda Azərbaycanın xarici iqtisadi strategiyasının daha mühüm elementlərindən biri qismində çıxış edən xarici ticarət modelinin işlənib hazırlanması ölkəmiz qarşısında dayanan ən aktual vəzifədir. Xarici ticarət tam muxtar sahə deyil, o, xarici iqtisadi siyasətin tərkib hissəsi kimi dəyərləndirilməlidir və, öz növbəsində, həmin siyasət ümummilli iqtisadi doktrinanın əsas komponentidir. Xarici iqtisadi siyasət, bununla yanaşı həm də xarici ticarət modeli bazar transformasiyaları mərhələləri ilə uyğun bir şəkildə formalaşmalıdır. Bazar münasibətlərin reallaşdırılması gerçəkləşdikcə Azərbaycanın dünya bazarına inteqrasiyası da, habelə sonuncunun milli iqtisadiyyata əks təsiri də baş verəcək. Milli iqtisadiyyatın rəqabət üstünlüklərinin təmin edilməsində zəruri rəqabət mühitini yaratmaq vacibdir. Azərbaycanın xammal ixracının emal dərəcəsini yüksəltmək məqsədilə xarici kapitalın cəlb edilməsindən yararlanmaq məqsədəuyğundur.

Yuxarıda dediklərimizdən belə nəticə cıxarmaq olar ki, beynəlxalq ticarətin bütün spektrinin tədqiq edilməsi sadəcə olaraq xarici əlaqələrin formalaşmasının səbəblərini və mənbələrini deyil, həm də müxtəlif ölkələrdə onların praktiki istifadəsinin şərtlərini və xüsusiyyətlərini də üzə çıxarmağa imkan verir. Həmin müddəalar, dünya ticarətinin xüsusiyyətləri və Azərbaycan iqtisadiyyatının regional xüsusiyyətləri əsasında xarici ticarət modelinin nəzəri yanaşmaları və ilkin prinsipləri işlənib hazırlanmışdır.

Xarici ticarət modeli bir məqsəd olaraq qarşıya qoyulmamalıdır. Azərbaycanın ümumiqtisadi strategiyasının başlıca elementi qismində çıxış edərək, həmin model bazar iqtisadiyyatına keçidin reallaşdırılması və əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilmənin güclü vasitəsi kimi xidmət etməlidir [6].

Ölkənin xarici ticarətə cəlb edilməsi istiqamətində daha bir mühüm vasitə gömrük tarifidir. 10 iyun 1997-ci il tarixdə Azərbaycan Respublikasının "Gömrük Məcəlləsi"nin qəbul edilməsindən sonra "Gömrük tarifləri haqqında" 20 iyun 1995-ci il tarixli Qanun qüvvəyə minmişdir. Həmin qanun daxili bazarla xarici bazarın qarşılıqlı faydalı əlaqəsini təmin etməklə xarici bazarın dövlət tərəfindən tənzimlənməsi istiqamətində mühüm vasitələr olan gömrük tariflərini, eləcə də Azərbaycan sərhədini keçən əmtəələrdən gömrük rüsumlarının tutulması qaydalarını formalaşdırır və tətbiq edir.

Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrin başlıca xarakteristikası ölkəmizin beynəlxalq, regional və yerli səciyyəvi iqtisadi təşkilatlara daxil olması, eləcə də respublikamızın bütün ictimai həyatının sahələri ilə bu təşkilatlara inteqrasiyadır. 18 oktyabr 1991-ci il tarixdə öz dövlət müstəqilliyinin bərpa edilməsindən sonra Azərbaycanın işgüzar əlaqələri qurduğu ilk iqtisadi təşkilatlar sırasında aşağıdakı qurumların adlarını qeyd edə bilərik:

- İslam konfransı Təşkilatı (İKT) – 8 dekabr 1991-ci il;
- İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) – fevral 1992-ci il;
- Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı – 1992-ci il;
- Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT) – 1992-ci ilə;
- Müstəqil Dövlətlər Birliyi (MDB) – 1992-ci il;
- Avropa Şurası – 25 yanvar 2001-ci il.

Azərbaycan həmçinin GUAM kimi demokratik və iqtisadi inkişaf təşkilatının üzv-ölkəsi və təsisçilərindən biridir. Bu təşkilatın digər üzv-dövlətləri isə Gürcüstan, Moldova və Ukraynadır. GUAM 10 oktyabr 1997-ci ildə yaradılmışdır [5].

Azərbaycan Respublikası beynəlxalq proseslərə özünün inteqrasiyası ilə yadda qalmışdır və bunun sayəsində XXI əsrin astanasında əldə etdiyi və gələcək inkişafına yardımçı olmuş yeni yüzillikdə də öz inkişaf tempini gücləndirərək növbəti iqtisadi uğurlara imza atmışdır. Bunun əyani sübutu qismində 25 yanvar 2001-ci il tarixdə Azərbaycan Respublikasının Avropa Şurası Parlament Assambleyasının 43-cü üzvü qəbul edilməsini göstərə bilərik.

Ötən əsrin 90-cı illərin əvvəlində yaradılmış və əsas etibarilə siyasi xarakter daşıyan, eləcə də daha çox keçmiş Sovet İttifaqına daxil olmuş respublikalar arasında dövlətlərarası münasibətlərin nizamlanmasına yönəlmiş Müstəqil Dövlətlər Birliyi hal-hazırda əsasən birliyə üzv olan dövlətlər arasında iqtisadi inteqrasiyanın konkret çərçivəsinin müəyyənləşdirilməsinə istiqamətlənib. Bir sıra MDB ölkələri ilə Azərbaycan azad ticarət rejimini tətbiq etmiş, azad investisiyalar üçün hüquqi baza formalaşdırılmışdır. Qeyd etmək yerinə düşərdi ki, əgər XX əsrin əvvəlində Azərbaycan ən yaxın qonşu ölkələrinə balıq, kürü, neft və ipək ixrac edirdisə, hal-hazırda respublikamız bir çox dünya ölkələri ilə iqtisadi münasibətlərə malikdir.

Bu gün Azərbaycan Respublikası neft, neft məhsulları və avadanlıqları, pambıq lifi, tütün, spirtli içkilər (çaxır), əlvan metallar və kimya məhsulları ixrac edir, bunun müqabilində isə ölkəmizə ərzaq məhsulları (yağ, un, şəkər, taxıl, sitrus meyvələri), avtomobillər və sənaye avadanlığı, metal və meşə materialları, yüngül sənaye məhsulları (parçalar, geyim, ayaqqabı), mineral gübrələr və təsərrüfat malları idxal edilir.

Cədvəl 1.

Xarici ticarət dövriyyəsi (mlyn.ABŞ dolları)

	2012	2013	2014	2015	2016
İdxal	9652,9	10712,5	9187,7	9216,7	8532,4

İxrac	34160,6	32841,6	30219,8	16592,3	13118,4
Dövriyyə	43813,5	43554,1	39407,5	25809,0	21650,8
Saldo	24507,7	22129,1	21032,1	7375,6	4586,0

Özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra, Azərbaycan Respublikası bir sıra maliyyə-kredit və kredit təşkilatları ilə münasibətlər qurmuşdur. Ölkəmiz, Ümumdünya bankının, Beynəlxalq valyuta fondunun, İslam İnkişaf bankının, Avropa Yenidənqurma və İnkişaf bankının, Yapon beynəlxalq əməkdaşlıq bankının və bu kimi digər nüfuzlu beynəlxalq maliyyə təşkilatların bir üzvü kimi, öz iqtisadi inkişafının gerçəkləşdirilməsi məqsədilə beynəlxalq kredit vəsaitlərdən istifadə etmək imkanına malikdir. Həmin maliyyə vəsaitləri hesabına Azərbaycan Respublikasının inkişafına yönəlmiş müxtəlif iqtisadi layihələr dəstəklənir və investisiya layihələri maliyyələşdirilir.

Bu cür kreditlər respublikamız üçün prioritet hesab edilən sahələrin bərpası, yenidən qurulması və inkişaf etdirilməsi məqsədilə donor təşkilatlarından və xarici ölkələrdən cəlb edilmişdir. Kreditlərin əsas alıcıları – "Azərenerji" Səhmdar Cəmiyyəti, AZAL Dövlət konserni, "Azərkimya" Dövlət şirkəti, "Azərsu" Səhmdar Cəmiyyəti, "Azəriqaz" Səhmdar Cəmiyyəti və bu kimi digər qurumlardır.

Nəticə. Sadaladığımız faktlar son illər ərzində respublikamızda baş verən köklü struktur və keyfiyyət dəyişikliklərindən bəhs edir və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya nümunəsi qismində çıxış edir. Xarici dövlətlərlə əməkdaşlıq əlaqələrin qurulması ölkəmizə öz milli iqtisadiyyatın hərtərəfli inkişaf etdirilməsi üçün böyük üstünlüklər verir. Məhz bu səbəbdən xarici dövlətlərlə ikitərəfli qarşılıqlı iqtisadi əlaqələrin qurulması və onların inkişaf etdirilməsi Azərbaycanın milli iqtisadiyyatının formalaşdırılması prosesində mühüm amil kimi dəyərləndirilməlidir.

Azərbaycanın beynəlxalq maliyyə-kredit münasibətləri daim inkişaf edir və bu, özünü yeni layihələrdə tam əyani şəkildə büruzə verir. Yeni layihələr 3-illik və çoxillik strategiyalar əsasında beynəlxalq maliyyə institutları ilə birgə həyata keçirilir və əsas etibarilə, kənd təsərrüfatı, elektrik enerjisi təchizatı sistemi, su təsərrüfatı və meliorasiya, nəqliyyat sektoru və bu kimi digər sahələrin inkişafına yönəldilir.

ƏDƏBİYYAT

1. Azərbaycanin Statistik Göstəriciləri.,Bakı, 2017. 824 səh.
2. «Xarici investisiyaların qorunması haqqında» 1992-ci il tarixli 57 nömrəli Sərəncam ilə təsdiq olunmuş Azərbaycan Respublikasının Qanunu
3. «Investisiya fəaliyyəti haqqında» 13 yanvar 1995-ci il tarixli 952 nömrəli Sərəncam ilə təsdiq olunmuş Azərbaycan Respublikasının Qanunu.
4. Andrianov V.D. Rusiya dünya iqtisadiyyatında: tədris vəsaiti.- M.: Maliyyə və statistika, 2008.
5. Şəkərəliyev A.,Şəkərəliyev Q.,Azərbaycan İqtisadiyyati:Realliqlar Və Perspektivlər. Dərslik.,Bakı-2016.
6. Əzizova G.A. Dövlətin investisiya-innovasiya siyasəti/Dərs vəsaiti.Bakı: "İqtisad Universiteti" Nəşriyyatı 2012.
7. Əkbər Eldaroğlu "Dünya Ticarət Təşkilatı və Azərbaycan", Azərbaycan Milli Demokratiya Fondu "Azərbaycan " Bulleteni, № 25 (145), 21 iyun 2001.

Şadiyyə AMANOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
doktorant

Maliyyə -xidmət sektorunun müasir inkişaf istiqamətləri

Современные направления развития услугой финансово сектора

Modern development directions of financial and service sector

Xülasə: Məqalədə maliyyə - bank sektorunda rəqəmsal xidmətlərə keçid ilə bağlı araşdırma aparılır. Həmçinin, ödəniş ekosistemlərinə və onun əsaslarına münasibət bildirilir. Rəqəmsal transformasiyanın inkişafı ilə bağlı qəbul ediləcək konseptual sənədlərdə irəli sürülən tələblərin vacibliyi və icra zərurətləri qabardılır. Müasir tələblər nəzərə alınmaqla ölkədə bank və Fintech şirkətlərinin birgə əməkdaşlığının inkişaf zərurətləri əsaslandırılır.

Açar sözlər: FinTech, bank sektoru, ödəniş sistemləri, məhsul- xidmətlər

Резюме: В статье проводится исследование по переходу на цифровые услуги в финансово-банковском секторе. Также выражается отношение к платежным экосистемам и их основам. В концептуальных документах, которые будут приняты в связи с развитием цифровой трансформации, оговаривается важность предъявляемых требований и необходимость исполнения. С учетом современных требований обосновывается необходимость развития совместного сотрудничества банков и Fintech компаний в стране.
Ключевые слова: FinTech, банковский сектор, платежные системы, продукты-услуги

Abstract: The article examines the transition to digital services in the financial and banking sector. Also, the attitude to payment schemes and its bases is expressed. The importance of advanced requirements and the need for implementation are highlighted in the documents to be adopted in connection with the development of digital media. Taking into account the modern requirements, the development of joint cooperation between banks and Fintech companies is justified.
Keywords: FinTech, banking sector, payment systems, products and services

Azərbaycanda son dövrlərdə həyata keçirilən islahatlar bank sisteminin sabitliyinin və dinamik inkişafin təmin edilməsi üçün əlverişli şərait yaratmaqdadır. Bu sistemin səmərəli fəaliyəti istər iqtisadi, istərsə də sosial inkişafı üçün vacib hesab olunmaqdadır. Bu baxımdan da müasir bank sisteminin dayanıqlılığının və etibarlılığının təmin edilməsi xüsusi zərurətdən irəli gəlməkdədir. Bankların inkişafında daha yeni xidmətlər və meyillər nəzərə çarpmaqdadır. Xüsusilə də bu sistemdə rəqəmsal istiqaməti və xidmətlərə meyililin artması müasir dünyanın çağırışları ilə də sıx bağlıdır. Hazırda bir çox ölkələrdə iqtisadiyyatın bütün sahələrində rəqəmsallaşma inkişaf edir. Əsasən də bankçılıq sahəsində qərarvermənin informasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə həyata keçirilməsi, zəruri təhlil və qiymətləndirmələr aparılması daha çox müşahidə edilən bir prosesdir. Qeyd etmək lazımdır ki, artıq son dövrlərdə ölkədə bank sektorunda elektronlaşma, rəqəmsal inkişaf meyilləri sürətlə güclənməyə doğru gedir. Bu sahədə dövlət səviyyəsində yaradılan mühit və infrastrukturun da öz müsbət təsirləri vardır (elektron imza, əməliyyatların elektron qaydada aparılması və s.). Tədqiqatlar göstərir ki, 2008-ci il maliyyə böhranından sonra davamlı maliyyələşdirmə ehtiyacı birbaşa (P2P) kredit xidmətləri artımına və bu məhsulların populyarlığına gətirib çıxarmış və bu platformalar, ənənəvi maliyyə qurumları tərəfindən imtina edilənlərə maliyyələşmə imkanı vermişdir. Həmçinin, belə bir şəraitdə kreditorlar fərdi qaydada və daha yaxşı investisiya imkanları təklif edən aşağı faiz dərəcələri ilə maliyyələşdirmə imkanı əldə etmişlər. Nəticədə, bütün bu texnoloji yeniliklərin tətbiqi Maliyyə Texnologiyalarını və ya qısaca desək FinTech şirkətlərinin yaranmasına səbəb olmuşdur (3).

Klassik və ənənəvi bankçılıq sisteminə dağıdıcı təsir edən FinTech şirkətlər internetin sürətlə artması, smartfonların mövcudluğu və geniş məlumat toplamaq və emal etmək üçün hesablama qabiliyyətinin yaxşılaşdırılması kimi müxtəlif texnoloji yeniliklərdən uğurla istifadə etdilər. Belə şirkətlər, ödəniş prosesini asanlaşdıraraq və həmçinin, istehlakçılar və şirkətlər üçün daha ucuz texnoloji yeniliklərdən istifadə edərək bazardakı boşluqları müəyyənləşdirdilər. Ödənişlərin emal inqilabının yaratdığı kütləvi dəyişikliklər artıq milyonlarla insanın şirkətlərlə qarşılıqlı əlaqəsini kəskin şəkildə dəyişdirməkdədir. Nəticədə, FinTech şirkətlər maliyyə dünyasını dəyişərək fiziki şəxslər, startaplar və ənənəvi maliyyə qurumları üçün innovativ maliyyə sistemi məhsullarının yaradılmasına səbəb olmaqdadır. Qeyd etmək lazımdır ki, hazırda bu şirkətlər mövcud maliyyə qurumlarına qarşı mübarizədə müəyyən uğur əldə edirlər (4).

Maliyyə xidmət sektorunun iştirakçısı kimi bir çox ənənəvi banklar da rəqəmsal transformasiyada rəqabətə davamlı qalmaları üçün strategiyalarında yeni baxış müəyyən etməyə məcbur olmaqdadır. Təcrübə göstərir ki, inkişaf etmiş ölkələrdə banklar əsasən də satış prosesinin rəqəmsallaşması üçün İT strategiyasında köklü dəyişikliklər edərək Fintech şirkətlər ilə birgə əməkdaşlıq çərçivəsində həm də xərclərin azaldılmasına müvəffəq olmaqdadır. Lakin ödəniş sistemi və xidmət proseslərində genişlənən inqilabi yeniliklər edən Alibaba, Facebook və Google kimi şirkətlərlə ayaqlaşmaq, davamlı müştəri tələblərini həm vaxt və həm də xərc etibarıilə asanlaşdırmaq bundan sonra da banklar üçün çox mühüm və zəruridir. PwC şirkəti tərəfindən 2019-cu ildə aparılmış "Global FinTech report 2019" dünya maliyyə xidmətlərinin inkişaf trendləri haqqında araşdırmaya əsasən

Çin və Brazilya şirkətlərində maliyyə texnologiyalarının strateji əməliyyat modellərinə tətbiqinin (58%) ABŞ və Avropa şirkətləri ilə müqayisədə (37%) tam və yüksək olduğu qeyd edilmişdir. PWC hesabatına əsasən bank və kapital bazarlarının yarısından çoxu inkişaf etməkdə olan texnologiyaları kommersiya bankçılığı və fərdi kreditlərə tətbiq etmişdir (5). PWC iri korporasiyaların artıq Fintech şirkətlər ilə birləşməsinin mümkünlüyünü də qaçılmaz hesab edir

Azərbaycanda da maliyyə xidmət sektorunun strateji hədəflərinin rəngarəng və müxtəlifliyinə baxmayaraq, müasir müştərinin tələb və ehtiyaclarını qarşılamaq üçün rəqəmsal transformasiyanın sürətli tətbiqi mütləqdir. Həmçinin, "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə bankların rəqəmsal transformasiyasının sürətləndirilməsi məqsədilə tənzimləmə mexanizminin təkmilləşdirilməsi prioritet hədəflərdən hesab olunur (1). Qeyd edək ki, ilk öncə ölkənin bu sahə üzrə təkmil qanunvericilik bazası yaradılmalı, Fintech şirkətlərin lisenziya ilə fəaliyyəti təmin olunmalı və tənzimləyici orqanlar tərəfindən prudensial qaydalar çərçivəsində nəzarət gücləndirilməlidir. Qanunvericilik bazası yüksək nailiyyətlərin əldə olunmasını şərtləndirməklə, ölkədə ödəniş xidmətlərinə çıxış imkanlarının şaxələndirilməsini, ödəniş sistemləri sahəsində effektiv tənzimləmə və nəzarət çərçivəsinin formalaşmasını, rəqabət mühitinin daha da artmasını təmin edə bilər. Azərbaycan Respublikası Prezidentinin 26.09. 2018-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərdən biri də Ani Ödənişlər Sisteminin (AÖS) yaradılmasıdır (2). Mərkəzi bankın hesabatına əsasən 2020-ci ildə tətbiq olunacaq bu sistemin yaradılması nəticəsində ölkənin ödəniş ekosistemi qurulacaq, fiziki şəxslər, biznes strukturları və dövlət orqanları arasında aparılan qarşılıqlı ödəniş əməliyyatları ani baş verəcək, hesablaşma-klirinq də həmin anda baş tutacaqdır. Belə layihənin tətbiqi ilə banklar mərkəzləşdirilmiş müştəri bazasından istifadə edərək hər bir istehlakçıya fərdi-individual məhsul və xidmətlər təklif edəcəkdir. Qeyd edək ki, ölkəmizdə mal və xidmətlərə tələbat artdıqca, müasir e-banking, m-banking həllərin tətbiqi sürətləndikcə günbəgün böyüyən iqtisadiyyatda ödənişlərin aparılması müasir, rahat və daha az xərcli üsulların tətbiqini qaçılmaz edir. Ənənəvi banklar Fintech şirkətlərlə əməkdaşlıq edərək ödəniş terminalları vasitəsilə bir çox məhsullarını istehlakçıya istədiyi yerdə və istədiyi vaxtda satışını (sürətli, asan və daha ucuz) təmin etməklə nəticədə ölkədə nağd iqtisadiyyatın azalmasına və nağdsız ödənişlərin artaraq təkmilləşdirilməsinə təkan verəcəkdir. Azərbaycanda rəqəmsal platformalara keçiddə bu məhsullara əlçatanlığın təmin olunması və effektiv inkişafı üçün aşağıdakı addımların atılması zəruridir:

- ✓ Nağdsız ödənişə keçidi stimullaşdıran layihələrin tətbiqi;
- ✓ M-Banking və E-banking platformalarda rahat interfeys qurulması;
- ✓ İstehlakçıların mütəmadi maarifləndirilməsi;
- ✓ Bank və Fintech şirkətlər tərəfindən hər bir müştəriyə fərdi yanaşma tətbiqi.

Rəqəmsal transformasiya sayəsində ödəniş ekosisteminin qurulması iqtisadiyyatın genişləndirilməsi ilə nağdsız ödənişlərin stimullaşdırılmasına və səffaflığın təmin olunmasına səbəb olacaqdır. Bu baxımdan da rəqəmsal transformasiya ilə bağlı həyata keçirilməkdə olan dövlət əhəmiyyətli layihələr, konseptual sənədlərin tətbiq olunması zəruridir. Bank məhsullarının daha sürətli, ucuz və asan formada Fintech şirkətlər vasitəsilə istehlakçıya əlçatanlığı iqtisadi səmərəliyin artırılması və həm də bu bazarların təkmilləşdirilməsini və fəallaşdırılmasını labüdləşdirəcəkdir. Maliyyə xidmət sektorunun perspektiv istiqamətlərinin müəyyənləşdirilməsi yeni və əlçatan bank-kredit xidmətlərinin çeşidinin artırılmasına, mövcud bazarın elastikliyinin yüksəldilməsinə və gözlənilən risklərin minimallaşdırılmasına da təkan verəcəkdir.

ƏDƏBİYYAT

8. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi". Bakı, 2016.
9. "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı". Bakı, 2018.
10. https://www.investopedia.com/ask/answers/033015/how-did-financial-crisis-affect-banking-sector.asp.
11. https://www.refinitiv.com/en/products/digital-solutions).
12. https://www.pwc.com/gx/en/industries/financial-services/assets/pwc-global-fintech-report-2019.pdf.

Araz XƏLİLOV
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Arazxelillov69@gmail.com

İdman turizmi

Спортивный туризм

Sports tourism

Xülasə: Bu gün turizm dünyanın çox hissəsində insan həyatının ayrılmaz tərkib hissəsinə çevrilib və çevrilməkdə davam edir. XXI əsrdə şübhəsiz ki turizm, qlobal bir hadisədir. Tədqiqatın aktuallığı, Azərbaycan Respublikasının inkişafında iqtisadi, sosial və sosial-mədəni amil kimi turizm potensialından istifadənin səmərəliliyinin artırılması ilə əlaqədardır.
Açar sözlər: turizm, idman, idman turizmi, tur.

Резюме: Сегодня туризм превратился и продолжает превращаться в неотъемлемую часть человеческой жизни. В XXI веке туризм является глобальным событием. Актуальность темы связано с увеличением экономической эффективности туристического потенциала как экономического, социального и социально-культурного фактора в развитии Азербайджанской Республики.
Ключевые слова: туризм, спорт, спортивный туризм, тур.

Abstract: Today tourism has become and remains an integral part of human life in many parts of the world. In the 21st century. Of course, tourism is a global phenomenon. The relevance of the research is related to the increasing efficiency of the use of tourism potential as an economic, social and socio-cultural factor in the development of the Republic of Azerbaijan.
Keywords: tourism, sports, sports tourism, tour.

İdman turizmi- təbii mühitdə və süni yaradılmış ərazidə müəyyən olunmuş məsafələrdə, çətinlikləri və maneələri aşmağı özündə birləşdirən marşrutlarda təşkil edilən yarışlara əsaslanan bir idman növüdür. İdman turizmin inkişafı üçün mərkəz olaraq qeyri-kommersiya turist klubları fəaliyyət göstərir, baxmayaraq ki, bir çox turistlər bunu öz maraqları daxilində öz təşəbbüsləri ilə müstəqil olaraq həyata keçirirlər. Bundan əlavə, idman turizmi sahəsində peşəkar komersiya və ya tədris fəaliyyətini həyata keçirmək hüququ ilə əlaqəli ixtisaslaşmış peşə rütbələrinə malik insanlar məşğul olurlar: idman turizmi bələdçisi, təlimatçı (böyük təlimatçısı, beynəlxalq dərəcəli instruktorlar və s.).

Digər rəsmi idman növlərində olduğu kimi, idman turizmində də fəaliyyətləri müvafiq normativ sənədlərlə tənzimlənən mütəşəkkil və peşəkar hakimlər heyəti mövcuddur. Müxtəlif yarışlarda hakimlik təcrübəsi qazanan və müvafiq peşə hazırlığı (məktəblər, seminarlar) keçməklə təcrübə əldə edən hakimlər müvafiq hakimlik rütbələrini qazanırlar. Eyni zamanda, idman turizmində hakimin özünəməxsus xüsusiyyəti idman hakimlərinə verilən mükafatların az olması və ya hakimliyin könüllü olaraq ictimai əsaslarla həyata keçirilməsidir. Hakimlərin bir çoxu böyük təcrübəyə və yüksək idman nailiyyətlərinə malik olan idmançı turistləridir. Bu sahədə fəaliyyət göstərən idman turizmi hakimləri, mübaliğəsiz, hörmətli, idman turizmi cəmiyyətlərinin fəxri nümayəndələridir.

Adətən idman turizmi iştirakcıları bununla əlaqəli müxtəlif idman növləri ilə məşğul olanlardır: səmtin müəyyən edilməsi (qaçış və velosiped idmanı), coxnöv- cülük, qayaya dırmanma, dağa dırmanma, rafting, dağ velosipedi (krossover), xizək sürmə (marafon), yaxta idmanı və s. İdman turistləri, digər işlərlə yanaşı, təbii mühitdə xilasedicilərin hazırlanması üçün bir ehtiyatdır. İdman turizmi, ilk növbədə idman gəzintiləridir ki,bu da komanda idman növünə aiddir, burada qarşılıqlı yardım və qarşılıqlı xilasetmə, idman intizamı, özünü inkişaf etdirmə və qarşılıqlı bilik və təcrübə ötürmə ənənələrinin güclü olduğu bir idman növüdür.

İdman turizminə olan maraq, müxtəlif ölkələrin və xalqların mədəniyyəti və həyatı ilə, təbiətin gözəl və tez-tez hətta bənzərsiz guşələri, maraqlı görməli yerləri ilə tanış olmağa, ünsiyyətdən zövq almağa, etibarlı dostlar əldə etməyə imkan verir. İlkin çətinlik kateqoriyalı idman gəzintilərində və müəyyən məsafəli yarışlarda iştirak etmək, bir qayda olaraq, böyük maliyyə xərcləri tələb etmir, eyni zamanda lazımi əsas bacarıqları və səfərlərdə və yarışlarda iştirak etməkdən zövq alma-

ğa imkan yaradır. Mürəkkəb təbii və sosial mühitdə həyata keçirilən bir kompleks idman növü kimi idman turizminə cəlb edilmə, şübhəsiz ki, müəyyən riskləri daşıyır və idmançının müxtəlif bilik, bacarıq, təcrübə və yaxşı fiziki, texniki və psixoloji hazırlığa sahib olmasını tələb edir.

Azərbaycan Respublikasının böyük şəhərlərində və rayon mərkəzlərində idman bazaları mövcuddur ki, bu bazalarda turizmi və həvəskar turizm klublarının bir çox idman təşkilatlarını yaratmaq mümkündür, bunlarla yanaşı, ATMU-da bu mərkəzlərdə fəaliyyət göstərə bilən turizm kadrlarının hazırlanmasının həyata keçirilməsi arzu olunandır, bunun üçün ali təhsil müəssisəsində təlim məktəbləri (ibtidai, əsas, ixtisaslaşmış və üst səviyyəli (sonuncular idman turizminin təlimçiləri üçün nəzərdə tutula bilər). Belə məktəblər kütləvi turizm üçün məcburi olmasa da təhsil arzuolunandır. Bu istiqamətli mütəxəssislərin hazlrlanması gənclərin asudə vaxtlarının səmərəli təşkili ilə yanaşı, onların kollektivcilik, dözumlülük, qarşılıqlı yardım və ünsiyyət bacarıqlarının inkişafına müsbət təsir göstərər.

Bir idman gəzintisində əsas funksional vəzifələr arasında, turist qrupunun rəhbərinin rəsmi mövqeyindən əlavə, qrup rəhbərinin müavinini (lazım olduqda təyin edilə bilər), bir üzgüçü və ya idman gəmisinin rəhbəri (kapitan), həkim, naviqator, təsərrüfat müdiri (təchizat meneceri), avadanlıq meneceri, mexanik (remmasters), meteoroloq, xəzinədar, timekeeper, salnaməçi, fotoqraf və s. Eyni zamanda vəzifələrə bölünmə, başçı istisna olmaqla və müəyyən dərəcədə bir həkim (həkim peşəkar bir tibb işçisi olarsa) kifayət qədər çevikdir, çünki bütün qrup turistlər bir dərəcədə və ya digər dərəcədə müxtəlif əsas bacarıqlara sahib olmalı və lazım olduqda qarşılıqlı yardım göstərməlidirlər.

Turizm nöqteyi-nəzərdən yanaşsaq idman turizmi, iştirakçıların uzun bir dövr ərzində yolun müxtəlif keçilməz və yaxud çətin keçilən hissələrini aşdığı turizm növlərindən biridir. Turizm çox sayda forma və növə malikdir, bu da ölkədə turizmin formalaşması üçün mühüm imkanlar açır [2. S. 47]. Turizmin daha əhəmiyyətli bir növü idman turizmidir ki, bu formadan Azərbaycan Respublikasında çox məhdud bir formada istifadə edilir və yaxud da heç istifadə edilmir. Bu növ turizm fəaliyyətinin inkişafının əhəmiyyəti şübhə doğurmur, çünki idman turizmi sənayesinin əsas sahəsi olaraq səyahət turizmin əsas problemini həll edir: əhalinin turizm məhsullarına olan ehtiyacının ödənilməsinə kömək edir. Bu, idmanın formalaşmasına, əhalinin fiziki aktivliyinin artırılmasına və nəticədə insanların sağlamlıq keyfiyyətinin yüksəldilməsinə təkan verir. Hal-hazırda tədqiqatçılar arasında idman turizminin tərifi ilə əlaqəli ortaq bir fikir yoxdur. Ədəbiyyatlarda bu kateqoriyaya aid müxtəlif şərhlər tapa bilərik. Əsas sual isə: idman turizmi bir idman və ya turizm fəaliyyəti növüdür? Birinci yanaşmanın tərəfdarları (məsələn, M. B. Birjakov, N. P. Kazakov) idman turizmi, şübhəsiz ki, marşrutlara görə yarışlara, o cümlədən təbii mühitdə təsnif edilmiş dağ turizmində) maneələrin (keçidlər, zirvələr) keçməsinə əsaslanan bir idman növü hesab edirlər [2. S. 114]. İdman turizminin idman növü kimi əsas xarakterik xüsusiyyəti, bu növün ilk növbədə idmançılara və ya fiziki cəhətdən yaxşı formada olan insanlara yönəldilməsidir. İdman kimi idman turizminin məqsədi təbii maneələrin müxtəlif taktika və üsullardan istifadə etməklə keçilməsidir [3. s. 115]. Bənzər bir baxışı, yəni tur boyu idman turizminin əsas məqsədinin seçilən idman növü ilə məşğul olmaq imkanını təyin edən S. V. Makarenko dəstəkləyir [4. S. 117].

İkinci yanaşmanın tərəfdarları (məsələn, R. A. Safronov və başqaları) idman turizmini fiziki aktiv fəaliyyət ilə əlaqəli bir turizm növü və qeyri-adi və ekoloji cəhətdən təmiz bir təbii qoruğa xüsusi hazırlanmış turlar sistemi və qeyri-standart səyahətlər, qeyri-ənənəvi nəqliyyat vasitələri ilə əlaqələndirirlər [5. s. 45]. Fikrimizcə, bu tərif çox dardır, çünki çox sayda idman turizmi növləri və formaları bu tərifdə ümumiyyətlə nəzərə alınmır. İdman turizmi yalnız qoruqlara səyahətlə bitmir. Bundan əlavə, idman turizmi mütləq ekoloji təmiz və ekzotik qoruqlara ekskursiyalarla tam əlaqələndirilmir. Məsələn, idman turizminin çox yayılmış növlərindən biri – velosipedlə səyahət, magistral yola, şəhər yerlərinə və s. görə getmək üçün müəyyənləşdirilmir. Fikrimizcə, ikinci yanaşmaya uyğun olaraq, idman turizmi idman gəzintilərinin hazırlanması və aparılması, turist bölgələrini ziyarət etmək, turistə sabit fiziki yük yükləmək və ya idman-əyləncə tədbirlərində iştirak etməklə əlaqəli turizm işləri formalarından biridir. Bu tərifə əsaslansaq idman turizmini bir turizm növü olaraq aşağıdakı iki tipə ayırmaq mümkündür:

- əsas xarakteristikası turistin sabit aktiv fiziki fəaliyyəti və onun idman tədbirində birbaşa iştirakı nəzərə alınan- aktiv idman turizmi;

- turistin idman tədbirlərinə qatılması ilə qarşılıqlı əlaqəli- passiv idman turizmi (idman-hadisə turizmi).

İdman turizminin bir çox növü ekstremal turizm sayılır və bu səbəbdən risk dərəcəsi əhəmiyyətli dərəcədə artır. Ekstremal turizm çoxsaylı tədqiqatçılar tərəfindən, hətta müstəqil bir turizm forması kimi qəbul edilir və turistin özünü tanıma və özünü təsdiqləmə ilə məşğul olması "sınaq" səyahəti qədər maraqlıdır [2. s. 45]. İdman turizminə təkcə bir idman növü deyil, həm də müxtəlif həyat şəraitində - açıq fəaliyyətlərdən peşə fəaliyyətinə qədər bir fəaliyyət növü kimi qəbul edilir. Problem, bu idman haqqında kifayət qədər məlumat və təbliğatın olmamasıdır. Gənclərin bu idmanla məşğul olmağa ehtiyacı və marağı var [1]. Bu idman növünün həyata keçirilməsi üçün dəqiq mexanizmə malik bir proqramın hazırlanması lazımdır. Yeni başlayanlar və mütəxəssislərin iştirakı tamamilə fərqlidir. Turizmin bu növü ilə məşğul olmaq istəyənlər haradan başlayacağını bilmirlər və bu idman növü üçün zəruri olan kifayət qədər fiziki hazırlıq səviyyəsinə malik deyillər. Üstəlik, əhalinin müəyyən bir hissəsi üçün bu idman peşə və aktiv istirahət fəaliyyətinin bir forması olaraq müəyyənləşdirilməlidir.

Yekunda qeyd etmək lazımdır ki, idman turizminin bəzi növləri təkcə zədə almaqla yox, həm də bütövlükdə insan həyatı üçün təhlükə ilə nəticələnə bilər [6]. Buna görə də bu cür turizm növlərinin məşğələləri mütəxəssislər və xüsusi komanda və avadanlıqlarla aparılmalıdır. Üstəlik, turizmin bu sahəsi üçün mütəxəssislər həyati vəzifələri yerinə yetirmək və peşə bacarıqlarını artırmaq üçün müəyyən sahələr üzrə xüsusi hazırlıq keçməlidirlər.

ƏDƏBİYYAT

1. Гринёва, Т. И. Оценка уровня подготовленности мальчиков 10-12 лет под влиянием занятий спортивным туризмом / Т. И. Гринёва, Л. Н. Таран 118 Физическая культура. Спорт. Туризм. Двигательная рекреация. 2017. Т. 2, 2
2. Биржаков, М. Б. Безопасность в туризме / М. Б. Биржаков, Н. П. Казаков. — СПб.: Герда, 2008.
3. Константинов, Ю. С. Детско-юношеский туризм / Ю. С. Константинов. — М. ФЦДЮТиК, 2008.
4. Овчинников, Ю. Д. Спортивный туризм как вид спорта и форма деятельности / Ю. Д. Овчинников, С. Н. Талызов // Физ. культура. Спорт. Туризм. Двигат. рекреация. — 2017. — Т. 2, № 2. — С. 117-120.
5. Сафронов, Р. А. Спортивный туризм как специфический вид туризма / Р. А. Сафронов и др.// Инновац. экономика и соврем. менеджмент. — 2015. — № 3 (4). — С. 44-48.
6. Иванов, В. Д. Спортивное право: понятие, предмет, источники, проблемы и перспективы развития / В. Д. Иванов, А. А. Орехова, М. М. Ракитин // Образование и наука в соврем. условиях. — 2016. — № 4 (9). — С. 257-261.

Vüsal QULİYEV
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,
magistr
vusal0066a@gmail.com

Yeni sənaye ölkələrinin iqtisadi inkişafının əsas istiqamətləri

Основные направления экономического развития нис

The maın dırectıons of economıc development nic

Xülasə: Məqalədə yeni sənaye ölkələrinin iqtisadi inkişafının əsas istiqamətləri müzakirə olunur. Yeni sənayeləşmiş ölkələrin iqtisadi inkişafı burada ayrıca nəzərdən keçirilir. Bununla əlaqədar problemlər müəyyənləşdirilmiş və onların həlli yolları nəzərdən keçirilmişdir. Yeni sənayeləşmiş ölkələrdən (Cənub-Şərqi Asiya) iqtisadi inkişaf meylləri Cənub-Şərqi Asiya, Cənubi Koreya, Hong Kong, Sinqapur, Tayvan, Malayziya, Tayland, İndoneziya, Argentina və Braziliyada qeyd olunur.

Açar sözlər: YÖS, iqtisadiyyat, inkişaf, Asiya, rəqabət.

Резюме: В статье рассматриваются основные направления экономического развития новых индустриальных стран. Экономическое развитие новых индустриальных стран рассматривается здесь отдельно. В связи с этим выявлены проблемы и рассмотрены пути их решения. От новые индустриальных стран (Юго-Восточная Азия) отмечаются тенденции экономического развития в Юго-Восточной Азии, Южной Корее, Гонконге, Сингапуре, Тайване, Малайзии, Таиланде, Индонезии, Аргентине и Бразилии.
Ключевые слова: НИС, экономика, развитие, Азия, конкуренция.

Abstract: The article discusses the main directions of economic development of new industrial countries. The economic development of the newly industrialized countries is treated separately here. In this regard, problems were identified and ways to solve them were considered. From the newly industrialized countries (Southeast Asia), economic trends are observed in Southeast Asia, South Korea, Hong Kong, Singapore, Taiwan, Malaysia, Thailand, Indonesia, Argentina and Brazil.
Keywords: NIC, economy, development, Asia, competition.

Yeni sənaye ölkələrindən (YSÖ)Cənub-Şərqi Asiya dövlətləri Cənubi Koreyanı, Honkqonqu, Sinqapuru, Tayvanı, Malaziyanı, Tailandı, İndoneziyanı, eyni zamanda Argentina və Braziliyanı qeyd etmək olar. Dünya təsərrüfatının ən fəal hissəsi Cənub-Şərqi Asiya bölgəsidir. Belə ki, burada Yaponiyanın "iqtisadi möcüzəsindən" başqa "Asiya pələnglərinin möcüzəsi" ortaya çıxdı,onların içərisində C. Koreya, Tayvan, Sinqapur, Honkqonq önəmli yerləri tuturlar.Həmin möcüzə əsasında ümummilli məhsulun yüksək dəyişilməz artışı (son 20 ildə, təxminən 8%)və dünya bazarında həmin dövlətlərin məhsullarının rəqabət qabiliyyətinin artması dayanır.[2]

C. Koreyada 1985-1990 illər ərzində ümumdaxili məhsulun orta illik artış tempi 9.5% təşkil etmişdir. Ümummilli məhsulun nəfərə düşən səviyyəsinə əsasən C. Koreya, əgər 1970-ci il tarixində dünya iyearxiyasının 6-cı onluğunda dururdusa,1985-ci ildə isə ikinci onluğa keçdi. Dövlətin iqtisadi inkişafının birinci,başlıca faktoru avtomobil sənayesinin sürətləndirilən inkişafı, yarımkeçiricilərin, məişət elektronikasının sürətləndirilən inkişafından təşkil olunmuşdur.

Sürətli iqtisadi inkişafın başqa səbəbi Cənubi Koreyadakı xarici iqtisadi münasibətlər ilə əlaqədardır. İndiki dövrdə, Cənubi Koreyanın iqtisadiyyatının "simasını" müəyyənləşdirən maddi istehsalın sahələrinin hamısı dəqiq məlum eksportlu orentasiya xarakterinə sahibdir. Büdcə daxilolmalarının başlıca hissəsi xarici ticarətdən əldə edilən gəlirlərin hesabına düşməkdədir. Cənubi-Koreya məhsulları Avropa ilə ABŞ-ın ən güclü və rəqabət qabiliyyəti yüksək firmaları ilə rəqabətə edərək ABŞ və Avropa bazarlarında özlərinə yer tutmuşlar. Daewoo, Elektronıks, Samsung, LG kimi şirkətlər dünyada xeyli məşhurdur.

Tayvan iqtisadiyyatının müvəffəqiyyətini təmin edən tək bir vasitə - xarici iqtisadi münasibətlərdəki akseptliyidir (xüsusilə nəzərə çarpdırılmağıdır). Tayvan heç bir maddi sərvətə sahib deyil və hamısını önəmli edir. İndiki dövrdə dövlətin ümummilli məhsulunun 5%-dən artığı eksporta getməkdədir. Tayvan iqtisadiyyatının ən mühim faktoru dövlət rəhbərliyinin əhəmiyyətli iqtisadi siyasəti hesab edilir.

Malaziya iqtisadiyyatının başlıca uğurlarını emal sənayesinin sahələri aşkar edir (televizorların qurulması, video texnika, kompüter və s.). Dövlət üçün xarici iqtisadi münasibətlərin əhəmiyyəti xeyli çoxdur. Ümummilli məhsulun ümumi payı 1982-ci ildə 28%-dən 1997-ci ildə 44%-ə yüksəlmiş, 2000-ci il isə 50%-ə yaxınlaşıbdır. [3]

YSÖ arasında-Sinqapur, bu balaca ada dövləti ayrıca yer tutmaqdadır. Ərazisi cəmi 640km^2 , əhalisinin sayı isə 3.1mln. olan Sinqapur Cənub-Şərqi Asiya dövlətinin eksport kvotası ayrılıqda yüksəkdir-ÜMM-da təqribən 56% təşkil edir. Ölkə böyük maliyyə mərkəzi sayılır. Dünyadakı bütün Trans Milli Banklar öz filiallarını Sinqapurda açmışlar. Bu ölkənin güclü daxili kapital yığımı maliyyə vasitəçiliyindən, nəqliyyatdan, turizmdən əldə edilən yüksək gəlirlər təmin etməkdədir. Sinqapurun Mərkəzi Bankı 65 mlrd.dollar qızıl büdcə ehtiyatına sahibdir.

YSÖ-nə eyni zamanda Filippin,Tailand ilə İndoneziyanın bir çox bölgələri, Braziliya və Argentina daxil edilir. Həmin ölkələrin iqtisadi müvəffəqiyyətləri müxtəlifdir. Ancaq onları ilk olaraq aşağıdakılar birləşdirir: onlar səmərəli iqtisadi inkişaf prosesinə qoşulmaqla yüzilliklər boyu davam edən sosial-iqtisadi baxımdan geri qalmalarından yaxa qurtardıqlarını inkişaf etmiş dövlətlərə isbat

edə bildilər. YSÖ-nin uğurları - Qərbi Avropa və başqa inkişaf etmiş dövlətlərə , eyni zamanda ABŞ-a meydan oxumaqdadır. Son dövrlərdə Cənub-Şərqi Asiya dövlətlərinin dünya miqyasında ÜMM-da xüsusi çəkisi 1.3%-dən 4.5%-ə kimi qalxmışdır. Bu faktın özü də dünya təsərrüfatında güclərin yeni ardıcıllığını səciyyələndirməkdədir. [1]

1990-cı ildə Yeni Sənaye Ölkələri, Danimarka, İsveç, İsveçrə və Avstraliya kimi ölkələri asiya məişət bazarından sıxışdıraraq,Yapon əmtəələri ilə müvəffəqiyyətli rəqabət aparmışdılar. Bunun birinci amili Cənub-Şərqi Asiya dövlətlərində aşağı səviyyəli əmək haqqı olmasıydı.Saat stavkası üzrə orta aylıq gəlir ABŞ-a nəzərən Sinqapurda 4 , Malaziyada 8 ,Tailandda isə 10 dəfə azdır. Sözügedən faktın özü dünya iqtisadiyyatında rəqabət qabiliyyətli əmtəələrin yüksək formasını təmin etməkdədir.

İstehsalın əhəmiyyətliliyi, onun texniki səviyyəsi cəhətdən YSÖ ilə Qərb dövlətləri arasında müxtəliflik heç də azalmır, əksinə çoxalmaqdadır. Qərb istehlakçılarının müasir texnologiyaya, xidmət dairəsinə, informasiya və kommunikasiyaya dəyişikliyi dünya bazarından əksər inkişaf etməkdə olan dövlətlər sıxışdırmaqdadır. Neft məhsulları və xammalı göndərən dövlətlərdən təkcə bəzisi (Küveyt, S.Ərəbistan) tab gətirdi.Bundan əlavə, 3-cü dünya dövlətləri Qərb dövlətləri tərəfindən əhəmiyyətli şəkildə olan tarif və qeyri-tarif məhdudiyyətləri əsasında özlərinin sənaye məhsullarının eksportu sektorunda ciddi çətinliklərlə qarşılaşdılar. 1980-1990-cı illər ərzində inkişaf etməkdə olan dövlətlər xarici borcları müntəzəm olaraq çoxaldı.1982-1983-cü illər ərzində kəskin borc böhranı Venesuelanı, Meksikanı, Ekvadour, İndoneziyanı bilindiyi kimi böhrana apardı. Nəticədə, inkişaf etməkdə olan dövlətlərin bir çoxu xroniki borclular olaraq qalmışdılar. Onların borc həcmi ildən-ilə yüksəlməkdədir. [4]

Latın Amerikası dövlətləri borclular siyahısında birincilik mövqeyindədirlər. Ümumi borcun həcmindən 500 mlrd.dollar bu ölkələrin payına düşməkdədir. Əhaliyə düşən (nəfərə) hesaba əsasən Asiyada 300 dollara qarşı 1200 dollar artıqdır. Dünyada ən böyük borclu dövlət Meksikadır. Onun xarici borcunun həcmi 170 mlrd.dollar-la hesablanır. Braziliyanın 1994-cü il 130 mlrd.dollar borcu olubdur. YSÖ-də ən mühim və ciddi məsələlər aşağıdakılardır: [7]

Həmin ölkələrin bir çoxunda sabit daxili yığımın var olmaması;

Bununla əlaqəli olaraq,bu dövlətlərin fəaliyyətinin xarici kapitaldan asılı olmaması; Yüksək həcmdə xarici borclar.

Asiyada xarici borcun ölçüsünə görə İndoneziya birinci yerdədir,borcun həcmi 107 mlrd.dollardır (1996).1997-ci illərdə kəskin maliyyə bazarlarındakı müflisləşmədən sonra Cənub Şərqi Asiyanın borcluların borcu mütləq şəkildə, ayrıca çoxaldı. Həmin ölkələrə maliyyə-valyuta dəyişməzliyini reallaşdırmaq üçün kreditlər verilmişdi.

YSÖ-nin gələcəkdəki iqtisadiyyatı necə olacaq, onların dünya iqtisadiyyatındakı tutduğu yer nə formada ola bilər? İlk olaraq belə bir formada cavablandırılır. Həmin dövlətlər son 15 il ərzində dünya bazarında öz yerlərini möhkəmləndirirdilər, yüksək və dəyişilməz iqtisadi artış dinamikası göstərdilər, xarici bazarlarda hücum üsulunu tətbiq etmişdilər. Onlar Qərbin inkişaf etmiş dövlətlərinə əsl, ciddi rəqabət təşkil edərək, onlardan bir çoxunu dünya iqtisadiyyatının iyerarxiya zirvəsindən sıxışdırmışdılar. Bu səbəbdən də əksər mütəxəssislər onların gələcəkdəki uğurlu işlərini inamla əvvəlcədən göstərdilər. [5]

Əlbbəttə, proqnozlar kəskin maliyyə süqutunun təsirini hesaba almayaraq tərtib edilmişdir. Həmin süqut 1997-1998 illərdə Cənub Şərqi Asiya dövlətlərinin bazarlarını sarsıtdı və ümumilikdə dünya təsərrüfatına mənfi təsir göstərdi. Nəticədə, 1997-ci ildə Cənub Şərqi Asiya dövlətləri üçün son 20-25 ilin ən ağır və gözlənilməz olmuşdu.

Xarici investisiyaların Asiya bazarlarından birdəfəlik getməyi,onların iqtisadiyyatını maliyyə baxımdan gücdən salmışdı. Maliyyə vəsaitlərinin çatışmaması öz –özlüyündə milli valyuta kursunun kəskin şəkildə aşağı düşməsinə gətirib çıxartmışdı. Həmin fakt, birinci olaraq Cənubi Koreya bazarlarında vəsaitin axınının başlanğıcı oldu.Bununla bağlı 1998-ci ildə iqtisadi artış tempi aşağı düşmüşdü.

3. Həll üsulları

Böhran vəziyyəti Tailand batası (pul vahidi) 30%,İndoneziya rupisi 24%,Malaziya rinqqiti 20%, Filippin pesosunun 22% məzənnəsinin aşağı salınmasına səbəb oldu.Bu az müddətli kapitalın eyni za-

manda axınına gətirib çıxarmışdı.1998- ci ilin başlanğıcında maliyyə bazarlarında böhranın qarşısı alınmışdı.Bunun səbəbi BVF ilə Qərbin inkişaf etmiş dövlətlərinin maliyyə yardımı olmuşdu. [2]

1997-ci ilin dekabr ayı "yeddilər" qrupu dövlətləri C. Koreyaya 10 mlrd dollar vermişlər. Bu, vəd edilən 57 mlrd dollar-dan ayrılmışdır. Belə hüdudsuz yardımlar Cənubi Koreyada dərin iqtisadi reformaların aparılması üzrə təsiredici, sərt şərtlərlə verilibdir. "İslahatlar yerinə kütləvi yardım" sxemi hazırdaözünü Meksikayla əlaqədə doğrultmuşdur. Odur ki,1994-cü il Meksika pesosu çökmüşdü. 1995-ci il isə ABŞ ilə BVF 18 mlrd dollar ölçüsündə əlahiddə yardım paketi təqdim etmişdilər. Liberal reformaları gerçəkləşdirməklə, Meksika beynəlxalq maliyyə bazarlarının ona olan etimadını qaytarmışdı. İnflyasiya 80 %-dən 16%-ə kimi enmişdi.

Əgər belə tədbirlər Cənubi-Koreya tərəfindən edilsə, onda Cənub-Şərqi Asiya zonasına yüksək investisiya axımı və yüksək səviyyyəni saxlamağa imkan yaradacaqdır.

YSÖ Asiya "birinci" və "ikinci" mərhələlərə bölünür. "Cənubi Koreya", "Tayvan", "Sinqapur", "Honq Konq" və "birinci mərhələ"yə aiddir. Hal-hazırda Cənubi Koreya inkişaf etmiş sənaye ölkələrinə (OECD-in bir hissəsinə) məxsusdur və Hong Kong KNR-nin bir hissəsi olmuşdur, lakin özünün sosial-iqtisadi xüsusiyyətlərini saxlayır. " İlk mərhələ "Asiya NIS 1980-ci illərdə özünü tanıtdı və 1990-cı illərdə iqtisadi inkişafın təsirli nəticələrinə nail oldu. YSÖ Asiya "ikinci mərhələyə" Tayland, Malayziya və İndoneziya daxildir. İlk vaxtlar onlara Filippinlər də daxil edilirdi, ancaq son zamanlarda bunu artıq etmədilər. "İkinci dərəcəli" ölkələrin iqtisadi inkişafı 1990-cı illərdə başlamışdır və bu günə qədər davam edir. [3]

Asiya YSÖ-nin "mərhələlərin" ardıcıllığının ortaya çıxması - birinci və ikinci - təsadüf deyil. 30 ildən artıqdır ki, "uçan qazlar" modeli Asiya-Sakit okean regionunda - bir qrup ölkədən digərinə prioritet əhəmiyyətini itirmiş texnologiyaları köçürmək üçün uçan qazların bir qisimi ilə müqayisədə tətbiq edilmişdir. "Kama" lideri Yaponiyadır, onun varisləri və davamçıları - tekstil texnologiyalarını "ikinci mərhələyə" köçürən və texnoloji cəhətdən daha qabaqcıl istehsal üçün hazırlanan istehlakçı elektronika üzrə ixtisaslaşan YSÖ Asiyanın "ilk eşelonu" idi..

Asiya YSÖ-də geriliyi aradan qaldırma mexanizmi Yaxın Şərqdəkindən daha mürəkkəbdir, çünki bu ölkələr demək olar ki, minerallardan məhrumdur və bütün ümidləri müqayisəli üstünlüklərə və rasional iqtisadi siyasətə əsaslanır. İqtisadi siyasətin əsasları qərb ölkələrindən xarici kapitalın cəlb edilməsi üçün ən əlverişli şəraitlə yanaşı, ixrac yönümlü idi. Milli işçi qüvvəsinin xüsusiyyətləri - ucuz və nisbətən intizamlı (şərq üslubunda) inkişaf etmiş qərb texnologiyaları ilə dünya bazarında YSÖ məhsulları üçün rəqabət üstünlükləri yaranmışdır.. Xarici sərmayə xarici bazarda milli məhsulların bir növ "dirijor" rolunu oynamışdır.

Asiyadakı YSÖ-nin əksəriyyətində qəbul edilən Konfutsiyan ənənələri sosial-iqtisadi islahatın bir çox aspektlərini təsir edir. İslahatın ilk illərində əhalinin istehlak səviyyəsi olduqca aşağıdır - təxminən 1 dollar. Qeyd edək ki, onlar ödənişdən artıqdırlar. Zaten bir nəslin ömrü boyunca, əhalinin ortalama yaşayış səviyyəsi bir çox Avropa ölkəsinə yaxınlaşaraq on dəfə artıb. Xüsusilə "birinci mərhələ" ölkələrində mühüm rol təhsil siyasəti ilə oynamışdır. Beləliklə, Tayvanda dövlət büdcəsinin 15% -dəkinə sənaye inkişafının ehtiyaclarına cavab verən, ilk növbədə, ibtidai və orta ixtisas təhsili ehtiyaclarına xərclənib. Asiya YSÖ-in uğurunda vacib rol oynayır ki, onların əhalisi tamamilə və ya qismən etnik Çindən ibarətdir. Məsələn, müsəlman Malayziyadakı Çin diasporası əhalinin ən iqtisadi cəhətdən aktiv hissəsini təşkil edir və milli ÜDM-in önəmli bir hissəsini təşkil etməkdədir [6].

Nəhayət, Asiya YSÖ-in digər bir xüsusiyyəti onların siyasi sisteminin avtoritar təbiətidir. Asiya YSÖ-in əksəriyyəti respublikalardır, digərləri seçilmiş ali qanunvericilik orqanları ilə konstitusiya monarxiyalarıdır. Məsələn, Cənubi Koreyada, iqtisadi islahatlar davam edildiyi müddətdə, hərbi hakimiyyətdə idi, hərbi cunta bir siyasət həyata keçirildi. YSÖ Asiyada, bəzi Avropa ölkələrində heç bir cinayət hesab edilməyən (məsələn, Hollandiya, yumşaq narkotiklərin istifadəsi və saxlanılması) olan cinayətlər üçün ölüm cəzası tətbiq olunur. Tayvanda siyasi rejim Çin materikinə oxşar idi - bir tərəfli sistem, ciddi senzura və s. Yalnız son zamanlarda Asiyanın bir sıra YSÖ-də siyasi rejimlər, məsələn, Cənubi Koreya və Tayvanda yumşalmağa başladı.

ƏDƏBİYYAT

1. Abbasbəyli A. Dünya siyasəti. Bakı, "Nurlar", 2011
2. Беляев М.И. Мировая экономика. Ученое пособие. М.: ИНФРА-М, 2009.- 307с.

3. Глобализация мирового хозяйства: Учебное пособие / Под ред. М.Н. Осьмовой, А.В. Бойченко. - М.: ИНФРА-М, 2006. - 376 с.
4. Дергачев В. А., Вардамский Л. Б. Регионоведение. Учебное пособие для вузов – М.: ЮНИТИ, 2004.- 463с.
5. Ломакин В.К. Мировая экономика. Учебник для вузов. М.: ЮНИТИ- ДАНА, 2007.- 545с.
6. Пономарев М.В. История стран Европы и Америки в Новейшее время. Учебник. М.: Проспект, 2010.-416с.
7. Раджабова З.К. Мировая экономика: Учебник - 2-е изд., испр. - М.: ИНФРА-М, 2006. - 336 с.

Əli HƏNİFƏYEV
Azərbaycan Turizm və Menecment Universiteti,
doktorant
eli_henifeyev@mail.ru

Təbii mineral suların turizmin inkişafında rolu

Роль природных минеральных вод в развитии туризма

The role of natural mineral waters in the development of tourism

Xülasə: Mineral sular unikal təbii resursdur və əhalinin sağlamlığını qorumaq üçün fəal şəkildə istifadə olunur. Mineral suların tərkibinə həll olunan duzlar, mikroelementlər və digər bioloji aktiv komponentlər daxildir. Bu sular insan orqanizminə müalicəvi təsir göstərir, bu da onun tərkibində ion-duzlarının olmasıyla əsaslanır. Azərbaycan mineral sularla zəngin bir ölkədir. Respublikanın demək olar ki, bütün rayonlarında mineral su mənbələri vardır. Məqalədə Azərbaycanda mineral suların turizmin inkişafında ki rolu tədqiq edilib.
Açar sözlər: mineral sular, turizm, Naxçıvan, inkişaf.

Резюме: Минеральные воды являются уникальным природным образованием и активно используются для оздоровления населения. Они содержат в своем составе растворенные соли, микроэлементы, а также некоторые биологически активные компоненты. Природные минеральные воды оказывают лечебное влияние на организм человека, что обусловлено ионно-солевым составом и специфическими свойствами. Азербайджан также богат своими минеральными водами, которые есть почти во всех районах страны. В статье исследуется роль минеральных вод на развитие туризма в Азербайджане.
Ключевые слова: минеральные воды, туризм, Нахичевань, развитие.

Abstract: Mineral waters are a unique natural formation and are actively used for the recovery of the population. They contain in their composition dissolved salts, trace elements, as well as some biologically active components. Natural mineral waters have a therapeutic effect on the human body, which is caused by the ion-salt composition, specific properties. Azerbaijan is also rich in its mineral waters, which are in almost all parts of the country. The article explores the role of mineral waters in the development of tourism in Azerbaijan.
Keywords: mineral waters, tourism, Nakhichevan, development.

Milli iqtisadiyyatın inkişaf strategiyasında prioritet istiqamətlərdən biri kimi ixtisaslaşmış turizmin müəyyənləşdirilməsi turizmin inkişafı istiqamətində görülən işlərin davamlılığına xidmət etməklə yanaşı, Azərbaycan Respublikasının cəlbedici turizm məkanı kimi qabaqcıl mövqe tutmasına imkan yaradacaqdır.

Müasir dövrdə turizm ölkə iqtisadiyyatının önəmli hissəsinə çevrilmişdir. Turizmin inkişafı həmçinin bölgələrin iqtisadiyyatına da təsir etmişdir.

Bildiyimiz kimi turizm dinamik sahədir. Cəmiyyətin ehtiyaclarını, tələblərini nəzərə alaraq yeni turizm növləri və bu turizm növləri ilə bağlı müxtəlif xidmətlər yaradılmaqdadır.

Turizm və sosial-mədəni servis xidməti fəaliyyət növü kimi əhalinin asudə vaxtının səmərəli istifadə edilməsinə, ekskursiya, səyahət və turist marşrutlarının təşkilinə, həmçinin turistlərin başqa xidmət növlərindən istifadənin gücləndirilməsinə təkan verir.

Azərbaycan dövlətinin ardıcıl olaraq yeritdiyi qlobal və milli dəyərlərə əsaslanan strateji kurs, məqsədyönlü və çevik islahatlar ölkənin qısa müddət ərzində keyfiyyətcə yeni və daha sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olmuşdur. İqtisadiyyat inkişaf etdikcə pullu xidmətlərin də rolu artmışdır.

Turizmin inkişafı, həmçinin ölkədə işsizlik kimi ağır bir problemin öhdəsindən gəlir, ölkə təsərrüfatının bütün sahələrinin inkişafına öz müsbət təsirini göstərir. Dünya Turizm təşkilatının məlumatına görə , inkişaf etmiş bir sıra ölkələrin büdcəsinin yarısı turizm hesabına formalaşır. [3, s.198]

Son bir neçə ildə dünya iqtisadiyyatında baş verənlər, neftin qiymətinin sürətlə enməsi Azərbaycanın turizmə olan baxışını əsaslı şəkildə dəyişdirmişdir. Bir məsələni nəzərə almaq lazımdır ki, Azərbaycan ümumən bir turizm məhsulu olaraq dünya turist bazarında demək olar ki, tam kəşf olunmayıb. Bu da dünya miqyasında turist marağına səbəb olur.

Bildiyimiz kimi Azərbaycan Respublikasının əraziləri, tarixi, təbii resursları burada turizm fəaliyyətinin demək olar ki, əksər növlərinin inkişaf etdirilməsi üçün şərait yarada bilir. Dövlət başçımızın uğurlu siyasəti nəticəsində turizm aktiv fəaliyyət sahəsinə çevrilməklə sürətlə inkişaf etməkdədir. Burada əsas məqsəd respublikanın bütün turizm potensialından istifadə etməklə ərazidə güclü və davamlı turizm infrastrukturunun yaradılması və eyni zamanda ətraf mühitin və digər turizm məhsuluna çevrilə biləcək maddi və mədəni resursların qorunmasıdır. Qeyd edək ki, təbii resurslar mühitin elə bir elementləridir ki, onlar insanın maddi və ruhi tələbatlarının ödənilməsi üçün istifadə edilir. Əhalinin artması, iqtisadi artım, intensiv kənd təsərrüfatı, artan urbanizasiya və fəal turizm su resurslarının ağlabatmayan dərəcədə istifadə edilməsinə və həddindən artıq xərclənməsinə səbəb olur

Təbii turizm ehtiyatları insanda rekreasiya təəssüratı formalaşdıran hər cür təbii varlıqlardır. Bunlar müxtəlif mineral ehtiyatlar, yeraltı və yerüstü fauna və flora, relyef, iqlim ehtiyatları ola bilər. Təbii turizm ehtiyatlarının əsas xüsusiyyətlərindən biri odur ki, onların əksər hissəsi tükənə və insan amilinin təsiri altında öz ibtidai formasını itirə bilər. Bu məqsədlə, hər hansı bir ərazidə turizmin inkişafı haqqında danışıldıqda, ilk növbədə, turizm ehtiyatlarının qorunmasını nəzərdə tutmaq lazımdır. Bu baxımdan, təbii ehtiyatlardan istifadə üzrə ekoturizmin əhəmiyyətini ayrıca göstərmək məqsədəuyğun olardı.

Azərbaycan turizm sənayesinin inkişafı üçün zəngin ehtiyatlara malikdir. Bu, hər şeydən əvvəl, onun çox əlverişli iqtisadi-coğrafi mövqeyə malik olmasıdır. Belə ki, Bazardüzü (4466 m), Şahdağ (4243 m), Babadağın (3629 m) hündür zirvələri, Böyük Qafqazın cənub ətəklərindən axan çaylar, çoxsaylı şəlalələr, şəffaf Göy-Göl, Maral göl, Qobustanın sərt və eyni zamanda mənzərəli palçıq vulkanları, Lənkəranın nadir qoruqları, Abşeron və Nabran bölgəsinin müalicəvi əhəmiyyətli narın qumlu çimərlikləri Azərbaycanın zəngin turizm potensialının əhəmiyyətli tərkib hissəsidir.

Azərbaycan Respublikasında ekoturizmin təşkili üçün təbii gözəlliklər kifayət qədərdir. Ekoloji cəhətdən təmiz və özünün bənzərsizliyi ilə seçilən Şəki-Zaqatala, Quba-Xaçmaz, Lənkəran-Astara, Ordubad və Şahbuz rayonları ərazisinin ekoturistlərin istifadəsinə verilməsi ilə buraya kütləvi olaraq həm yerli, həm də xarici turistləri cəlb etmək mümkündür. Mineral ehtiyatlarla zənginliyi ilə seçilən (Naftalan, Şahbuz və s.) bu ərazilərdə sağlamlıq-rekreasiya obyektlərinin yaradılması və bunların zəruri infrastrukturla təmin olunması qarşıda duran ən mühüm vəzifələrdəndir. Naxçıvan MR-da ekoturizmin və kəndyaşıl turizmin inkişafının şərtləndirən əsas maraqlı cəhət bu ərazinin turizm məqsədi üçün əvvələr istifadə olunmaması və sənaye tullantıları ilə çox az çirklənməsidir. Bu faktların nəzərə alınması bu bölgənin turizm perspektivi üçün ən tutarlı dəlillərdəndir.

Dünyanın bir çox regionlarında müalicə-sağlamlıq turizminin inkişafına müəyyən fiziki-coğrafi amillər, və ya təbii şərait təsir edir. Belə şəraitlərə təbii-rekreasiya ehtiyatlarının mövcudluğu, yəni insanın sağlamlığının və iş qabiliyyətinin bərpasına və istirahətə imkan verən ehtiyatlar şamil edilir. Eyni zamanda insanın mənəvi vəziyyətinə müsbət təsir edən və təbii amillərlə uzlaşan estetik ehtiyatların olması da önəm daşıyır. Bu baxımdan ölkəmizdə müalicə-sağlamlıq turizminin inkişafı

üçün hər şey vardır. Azərbaycan Respublikası müalicəvi əhəmiyyətli mineral və termal sularla zəngin bir ölkədir.

Zəngin təbii sərvətləri ilə seçilən ölkəmizdə min bir dərdə dərman olan mineral su mənbələri az deyil. Bura həm içməli süfrə suları, həm də müalicəvi sular daxildir. Amma bu gün ölkədə olan bu mineral mənbələrdən istifadə potensiala tam uyğun deyil. Əhali sadəcə, bir neçə məşhur suların varlığından xəbərdar olsa da, eyni zamanda bir çox mineral su mənbələri, bulaqlar istifadəsiz qalıb. Bunun səbəbini məlumatın azlığı, su mənbələrinin yerini dəqiqliklə əks etdirən hər hansı bir xəritənin olmaması ilə əlaqələndirir.

Elmdən bizə məlumdur ki, insan bədəninin 80 %-ni, yer kürəsinin 2/3 hissəsini su təşkil edir. Hər addımımızda, hər alıb-verdiyimiz nəfəsdə suyun iştirakı var. Normal şəraitdə sağlam insanın orqanizmindən müxtəlif yollarla, gün ərzində 2-3 litr su xaric olunur. Yaşamaq üçün orqanizmə elə o qədər də su qəbul etmək lazım gəlir. Məhz bu səbəbdəndir ki, insan susuz uzun müddət yaşamaq iqtidarında deyil. Təbiəti susuz təsəvvür etmək də mümkün deyil. Elə bu baxımdandır ki, su haqqında olan bütün fikirlər, su haqqında olan bütün elmlər çox maraqlı və ecazkardır. Əslində isə su həyat mənbəyi deyil, elə həyat suyun özü deməkdir.

Mineral sular insan orqaniziminə müalicəvi təsir edən, tərkiblərində nisbətən çox miqdarda qazlar olan və duz tərkibində faydalı bioloji aktiv elementləri olan və yaxud, ümumi minerallaşma dərəcəsi yüksək olan sulardır.

Nə üçün təbii mineral su içməliyik? Çünki sağlamlığımıza faydası olan ideal mineral tərkibi, işlənmiş sularda deyil yalnız təbii mineral sularında tapılar. Bundan əlavə bulaq suyuna minerallarын sonradan əlavə olunması mümkün deyil. Təbii mineral su ilə şəbəkə suyu arasındakı fərqləri qeyd edək:

1. Şəbəkə suları ümumiyyətlə çay, göl və anbar suları kimi səth sularından əldə edilir;
2. Sənaye və kənd təsərrüfatında istifadə edilən zəhərli maddələr, gübrələr, yuyucular, məişət tullantıları, suvarma suları kimi mikrobioloji çirkliliyə gətirib çıxaran çirkləndiricilər, səth sularını asanca çirkləndirə bilər;
3. Bu suların içilə bilən hala gələ bilməsi üçün təmizlənməsi lazımdır;
4. Təbii bulaq suları yer altından çıxdığına görə bu çirklənmələrə qarşı əhəmiyyətli ölçüdə qorunmuşdur.

Respublikada müxtəlif kimyəvi tərkibli mineral su ehtiyatları da vardır. Azərbaycanın mineral və termal sularına bir çox hallarda yüksək dağlıq, gözəl mənzərəli meşə örtüklər olan ərazidə rast gəlmək olur ki, bu da həmin suların ətrafında kurort təsərrüfatının inkişafı üçün geniş imkanlar yaradır.

Mineral və termal sular turizm ehtiyatı baxımından qiymətləndirilərkən nəzərə alınan əsas amillərə onun debiti, müalicəvi xüsusiyyətləri və digər təbii komplekslərlə birgə istifadə imkanları daxildir. Mineral suların ümumi sutkalıq debiti min litrdən çox olursa istifadə üçün yararlı sayılır. Bununla yanaşı mineral və termal suların yayıldığı ərazilərin təbii şəraiti, onlardan istifadə imkanlarına təsir etmiş olur. Mineral və termal suların ətrafında digər turizm ehtiyatları mövcuddursa, onların kurort – turizm baxımından mənimsənilməsi daha çox effektiv sayılır.

Mineral sular növündən və tərkibindəki mineral duzların miqdarından, müxtəlif elementlərin (yod, brom, və s.) və qazların (karbon, kükürd, radon) olmasından asılı olaraq insan orqanizminə müəyyən fizioloji təsir göstərir və ona görə də müalicəvi vasitə kimi tətbiq edilir.

Mineral suların tərkibində olan mineral duzların miqdarı adi içməli sudan qat-qat çoxdur. Ən aşağı həd 1 litr suda 2 q., ən yuxarı həd isə 1 l. suda 50 q.-dır. Buna baxmayaraq, təbiətdə tərkibində 1 q/l-dən azmineral duz olan sular da vardır ki, bunlar da müəyyən dərəcədə orqanizmə müalicəvi təsir göstərir.

Tərkibində 50 q/l-dən çox mineral duz olan sular məhlul adlanır.

Mineral suya həddindən artıq durulaşdırılmış duz məhlulu kimi baxmaq olar. Burada duz mo lekulları ionlara parçalanmış olur. Ona görə də mineral suların tərkibində duz yox, müsbət yüklən miş hidrogen, natrium, kalsium, maqnezium kationlarıvə onlara bərabər miqdarda mənfi yüklənmiş xlor, sulfat və hidrokarbonat anionları olur.

Mineral suların orqanizmə aşağıdakı faydaları vardır:

- böyrək daşlarının tökülməsinə yardım edir və əmələ gəlməsini ləngidir;

- ürək narahatlıqlarının qarşısını alar;
- qaraciyər daxili öd axalarını, öd kisəsini təmizləyir;
- dəridəki solğunluğu aradan qaldırır;
- infarkt riskini azalda bilər;
- mineral sular tərkibində saxladığı kalsium mineralı ilə gündəlik kalsium ehtiyacının qarşılanmasında rol oynayır;
- insanlar bir qayda olaraq sümük inkişafı və ya dişlərin daha sağlam bir şəkildə olması üçün kalsium mineralına ehtiyac duyurlar;
- orqanizmin minerallara olan tələbatını ödəyir.

Sözsüz ki, yuxarıda sadalananlar təbii mineral sularına aiddir. Belə ki, mənbəyi bəlli olmayan və keyfiyyətsiz sexlərdə şüşələrə doldurulan mineral sular sizin üçün fayda əvəzinə zəhərə çevrilə bilər.

Yeraltı suların axtarışı və kəşfiyyatının, istismar ehtiyatlarının qiymətləndirilməsinin elmi-metodik əsaslarının hazırlanması sahəsində Moskva şəhərində fəaliyyət göstərən ВСЕГИНГЕО (keçmiş SSRİ dövründə Ümumittifaq, indi isə Ümumrusiya Elmi-Tədqiqat Hidrogeologiya və Mühəndis Geologiyası İnstitutu) və Daşkənd şəhərində fəaliyyət göstərən ГИДРОИНГЕО (Elmi Tədqiqat Hidrogeologiya və Mühəndis Geologiyası İnstitutu) institutlarının, onlarda çalışan alim və mütəxəssislərin müstəsna xidmətləri vardır. Azərbaycanda yeraltı suların axtarışı və kəşfiyyatı, monitorinqi, istismar ehtiyatlarının qiymətləndirilməsi, əsasən, bu institutlar tərəfindən hazırlanmış metodikalar, təlimatlar, göstərişlər və qaydalar əsasında Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi tərəfindən aparılmışdır. 1956-1963-cü illər ərzində III Bakı su kəmərinin layihəsinin əsaslandırılması məqsədi ilə Samur-Dəvəçi dağətəyi düzənliyinin ərazisində A.P.Popov və Ə.X.Babayevin rəhbərliyi altında aparılmış yüksək keyfiyyətli və əhatəli hidrogeoloji tədqiqatlar yeraltı suların axtarışı və kəşfiyyatı, su ehtiyatlarının qiymətləndirilməsi sahəsində Azərbaycan hidrogeoloqları üçün böyük təcrübə məktəbi olmuşdur. [4s.29]

Zənginliyinə görə Azərbaycan ərazisi "mineral sular muzeyi" adlandırılır. Dünyada tanınmış “Karlovi Vari” sularından heç də geri qalmayan isti və mineral bulaqlar- Kəlbəcər rayonundakı İstisu, Naxçıvan MR-dakı Badamlı, Sirab, Vayxır mineral suları respublikadan çox-çox uzaqlarda məşhurdur.

Naxçıvan Muxtar Respublikası sahib olduğu təbii turizm ehtiyatlarına və onların rekreasiya dəyərinə görə təkcə ölkəmizin deyil, eləcədə, yaxın regionun unikal ərazilərindəndir. Naxçıvanın yerləşdiyi coğrafi mövqeyi, özünəməxsusluğu ilə seçilən iqlimi, fauna və flora zənginliyi, qədim tarix və mədəniyyət abidələri bu bölgənin turizm imkanlarının genişliyindən xəbər verir [2, s. 160]

Bu region öz mürəkkəb relyef quruluşuna, aqroiqlim xüsusiyyətlərinə və malik olduğu flora və fauna zənginliyinə görə xüsusilə seçilən ərazilərdəndir. Naxçıvanın ərazisində çoxlu miqdarda unikal təbii-landşaft nümunələri, endemik quş, sürünən, məməli heyvan və bitki növləri vardır vardır. 600 metrdən 3900 metr yüksəkliyə qədər ərazidə rast gəlinən landşaft, iqlim, bitki və canlı aləm müxtəlifliyi dünyada analoquna çətin rast gəlinən bir turizm ehtiyatları kompleksini formalaşdırır. Bu ehtiyatlardan istifadə etmək üçün onların təbii, eko-coğrafi, sosial-mədəni və infrastruktur təminatı baxımından qiymətləndirilməsi lazımdır. Naxçıvan mineral su mənbələri baxımından da zəngindir. [1, s.149].

Naxçıvan Muxtar Respublikası təbii və mineral suyu olan bulaqlarına görə dünyada diqqəti cəlb edən bölgələrdəndir. Bu səbəbdən də Naxçıvanı çox vaxt mineral suların təbii muzeyi adlandırırlar.

Muxtar respublikanın 5,5 min kvadrat kilometrlik sahəsində 250-dən artıq mineral su mənbəyi var. Bu bulaqların əksəriyyəti Şahbuzda, Ordubadda, Şərurda və Naxçıvan çayının vadilərindədir. Bulaqlar kimyəvi tərkibinə görə müxtəlif tipli olub, təsərrüfatda, məişətdə, sənayedə və müalicə məqsədilə istifadə olunur. Aydın olub ki, Naxçıvanda mineral suların 6 tipi, 16 sinfi və 33 müxtəlif növü mövcuddur. Bu suların 98 faizi karbon qazı olub, hidrokarbonat tipli sulara aid edilir. Azərbaycanda olan karbon qazlı suların 35 faizi Naxçıvan Muxtar Respublikası ərazisindədir. Şahbuz şəhəri ərazisindəki çay vadiləri boyu 40 kv.km sahədə 50-dək mineral su mənbəyi, Babək rayonunun 1200 kv.km ərazisi daxilində 50 mineral-müalicə su mənbəyi, Culfada 900 kv.km sahədə 85 mineral su bulağı aşkarlanıb. Şərurda mineral su bulaqları çox zəngin deyil. 1316 kv.km. ərazidə 7 mineral su mənbəyi öyrənilib. Müalicəvi əhəmiyyətinə görə Sirab, Badamlı, Vayxır, Nəhəcir, Nar-

zan, Böyrəksuyu daha çox əhəmiyyətli təbii süfrə sularından hesab olunur ki, bunlar da turizmin inkişafına geniş imkanlar yaradır.[6]

Mineral sular Naxçıvanın əsl sərvətidir. Onların debiti çox yüksək olub, sutka ərzində yerin səthinə 24 milyon litrdən qazlı və termal su axıdır. Bu mineral su mənbələrinin əksəriyyəti Naxçıvan şəhərinə yaxın məsafədə yerləşirlər. Bunların bəzilərində, məsələn Darıdığ mineral su mənbəyində keçmiş SSRİ dövründən fərqli olaraq, yeni şərait yaradılıb. Buradakı yeni şəraitə uyğun müalicə otaqları turistlərin müalicəsinə imkan verir.

Muxtar Respublikanın ərazisində müalicə-içməli sular kimi mineral suların istismar ehtiyatları aşağıdakı kimi bölünür:

Şahbuz rayonunda Badamlı (Narzan tipli) gündə 690 min litr;

Babək rayonunda Sirab (Barjomi tipli) - 178 min litr və (Narzan tipli) - 1468 min litr;

Vayxir (Pyatiqorsk tipli) - 270 min litr, balneoloji təyinatlı Mineqorsk tipli Darıdağ - 4507 min litr miqdarında təsdiq edilmişdir;

Lakin Naxçıvan MR ərazisində bu və ya digər mineral su yataqlarının istismar və proqnoz ehtiyatları bu rəqəmlərdən dəfələrlə yüksəkdir;

Kəlbəcər rayonunda məhşur "Karlovı Varı" tipli mineral su yatağının analoqu olan Yuxarı İstisu sularının istismar ehtiyatı gündə 82 min litr;

Aşagi Istisu - 260 min litr, Qoturlu - 70 min litr;

Tutğun - 600 min litr təsdiq edilmişdir. [7]

Azərbaycanın mineral su ehtiyatlarının xeyli hissəsinin muxtar respublikanın payına düşməsi, Şahbuz və Ordubad rayonlarının ekoloji cəhətdən təmiz ərazisi, buradakı nadir fauna və flora, təbiət gözəllikləri və digər turizm marağı kəsb edən ehtiyatlar turistlərin Naxçıvana səfərlərini daha artıra bilər.

Blokada şəraitində olmasına baxmayaraq Naxçıvanda mineral su zavodları fəaliyyət göstərir. Respublikamızın bütün bölgələrinə, o cümlədən Bakı şəhərinə bu mineral sulardan çoxlu sayda göndərilir.

Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı üçün potensial imkanlar vardır və bu imkanlardan bacarıqla istifadə etmək lazımdır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında sanatoriya-kurort işi bütövlükdə ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlərin bir hissəsidir. Bununla yanaşı, Naxçıvanda kurort sanatoriya işinin təşkili üçün mineral, su və iqlim ehtiyatları kifayət qədər olsa da onların bu məqsədlə istifadəsinə yalnız XX əsrin ikinci yarısından sonra başlanılmış, ölkəmizin müstəqillik illərində isə bu sahədə xeyli inkişafa nail olunub, təcrübə əldə edilib. Bu baxımdan, muxtar respublika ərazisində mövcud olan təbii ehtiyatların kurort məqsədilə istifadə olunması məsələləri elmi-tədqiqat baxımından maraq doğurur.

Tarixən təbii sərvətlərdən müalicə məqsədilə istifadə olunması müasir kurort-sanatoriya işinin təşkilinin ilk mərhələlərindən hesab olunur. Mənbələrə görə kurort-sanatoriya işi kifayət qədər qədim tarixə malik olub və müasir dövrdə müalicə turizmi kimi tanıdığımız fəaliyyətin ən qədim sahələrindən biri hesab edilir. Qədim dünyanın bir çox ölkələrində, xüsusən Hindistan, Misir, Roma, Yunanıstan [5, s.216], eləcə də Azərbaycan insanların təbii üsullarla müalicə məqsədilə səyahət etdikləri tanınmış yerlərdən olublar. Zaman keçdikcə və cəmiyyət inkişaf etdikcə kurort-sanatoriya təsərrüfatı da təkamül edib və bugünkü səviyyəyə gəlib çatıb.

Təbii müalicəvi yerlər insanın sağlamlığı üçün təbiətin ən yaxşı hədiyyəsidir. Hələ qədim dövrlərdən insanlar belə möcüzəli təbii yerlərin müalicəvi gücündən sağalmaq üçün istifadə ediblər. Hətta belə təbii müalicəvi yerlər daha sonralar insanların müəyyən inanclarının formalaşması üçün də əsas olub. Belə ki, qədim İtaliyanın Monsummano Terme mineral su mənbələri hələ o dövrdə müalicəvi keyfiyyətləri ilə yanaşı həm də dini-mədəni inancların formalaşması mənbəyi kimi də tanınıb [5, s.107]. Hindistanda 5 min illik yaşı olan qədim Mahencodaro şəhərinin qalıqları arasından tapılan çimmək üçün hovuzlar və möcüzəli qablarda içməli su satılan dükanlar kurort təsərrüfatının ilk elementləri kimi diqqəti cəlb edir. Belə ki, o dövrdə insanların ən vacib gigiyenik ehtiyaclarının ödənilməsində bunlar vacib sayılırdı. Qədim Yunanıstan mifologiyasında isə belə rəvayət olunur ki, hətta Olimpdəki allahlar buxar vannalarının köməyi ilə gəncliyini və ölməzliyini qoruyub saxlayıb-

lar. Qədim yunan yazıçısı Pavzoni yazırdı ki, ilahə Hera məhz istisu mənbəli göldə çimməklə özünün gözəlliyini və gəncliyini qoruyub.

Tarixdə ilk dəfə mineral müalicəvi sularla müalicə tibb elmi sahəsi kimi XVI əsrə təsadüf edir. Belə ki, bu dövrdə məşhur anatomiya alimi Fallopiy təbii-mineral suların fiziki-kimyəvi tərkibi və müalicəvi əhəmiyyəti haqqında elmi mühazirələr dərc etdirib, onlardan istifadə normalarını müəyyənləşdirib. Beləliklə, ilk dəfə olaraq kurort işinə elmi yanaşma müəyyən olunub, sağlamlığın qorunmasında və möhkəmləndirilməsində mineral suların əhəmiyyəti dövlət səviyyəsində diqqəti cəlb edib. Bu baxımdan, orta əsrlərdə Fransada kralların mineral sulardan istifadə olunması üzrə xüsusi fərman verdikləri tarixdən məlumdur.

Ölkəmizin sahib olduğu mineral və hidromineral ehtiyatlar sanatoriya-kurort təsərrüfatının inkişafı üçün geniş imkanlar açır. Eyni zamanda bu ehtiyatlar rəngarəng turizm və rekreasiya xidmətlərinin təşkil olunması üçün də çox əlverişlidir. Ölkəmizdəki mövcud landşaft-iqlim xüsusiyyətləri insan sağlamlığına müsbət təsir göstərir. Yüksək dağlıq yerlərdə isə qış turizmi üçün yaxşı imkanlar vardır. Çox saylı mineral sular, müalicəvi neft və vulkanik palçıqlar ölkəmizdəki kurort yerlərinin əhəmiyyətini artırır.

Mineral sular Naxçıvanın, eləcə də ölkəmizin simvoludur. Onların brendləşdirlərək satışının təşkili və turistlərin istifadəsi həm region iqtisadiyyatının ixrac potensialını artırır, həm də turizmin digər növlərinin inkişafı üçün şərait yaradır. Gələcəkdə Darıdağ müalicəxanasında olduğu kimi digər mineral su mənbələri yaxınlığında da kurort müəssislərinin yaradılması bu sahədə imkanları daha da artıra bilər.

Ədəbiyyat

1. Babayev S.Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı: Elm, 1999, s.149
2. Cabbarov Ə.X., Turizm marşrutları və ekskursiya işinin təşkili. Bakı-2017.ADPU-nəşriyyatı. 160 s.
3. Hüseynov H. Naxçıvanda müalicəvi suların turizm baxımından qiymətləndirilməsi. "Turizm və rekreasiya: problemlər və perspektivlər" üçüncü respublika elmi-praktiki konfransının materialları. Bakı, 2010, s.198
4. İmanov F.Ə., Ələkbərov A.B. Azərbaycanin su ehtiyatlarinin müasir dəyişmələri və inteqrasiyali idarə edilməsi. Bakı – Mütərcim – 2017, s.29
5. Səidov A. Azərbaycan memarlıq abidələrinin bərpası. B. 1963, s.216
6. http://medeniyyet.az/page/news/5756/-Mineral-sularin-tebii-muzeyi.html
7. https://www.bizimyol.info/news/60016.html

Çapa imzalanıb: 27.02.2020.
Format: 84x108 1/16. Qarnitur: Times.
Həcmi: 22 ç.v. Tiraj: 100. Sifariş № 84.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru
www.mutercim.az